AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS

ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY

İl: 5, Cild 5, İyul - Sentyabr 2017
Year 5, Volume 5, July - September 2017

ISSN 2306-8426

MÜNDƏRİCAT - CONTENTS

Müasir iqtisadi islahatlar şəraitində Azərbaycanda sahibkarlığın inkişafına konseptual yanaşma .....Q.Manafov
Reklam bazarının inkişafının kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi .....Ş.Ə.Əsgərov
Marketinq logistikası: ümumi və fərqli yanaşmalar.....T.İ.İmanov
Факторы, влияющие на формирование и развитие эффективной рабочей силы в условиях рыночных отношений.....Н.А. Касымов, И.М. Набиева
Aktivlərin maliyyə hesabatının digər elementləri ilə səbəb-nəticə əlaqələri..... V.M.Quliyev
Fiskal siyasətin səmərəliliyi.....Q.S.Əlləzov
İnformasiya iqtisadiyyatının qiymətləndirilməsinin metodoloji xüsusiyyətləri .....Ə.Q.Əliyev
İntensiv inkişafın maliyyə və ərazi problemləri.....S.M.Hacızadə
Sosial-idarəçilik sistemində elektron bələdiyyə ilə vətəndaş arasında münasibətlərin dayanıqlığı.....M.M. Əhmədov,E.A. Salayev
Respublika iqtisadiyyatının inkişafında xarici investisiya siyasətinin rolu.....İ.C.Məmmədova
Решение одной задачи оптимального управления об истощении газового пласта.....К.К.Мамтиев, З.Б.Гасанова, М.А.Рустамова
Подготовка кадров высшей квалификации в контексте повышения качеств бухгалтерского учета.....С.В. Дегтярев, Н.И. Попова
Almaniya iqtisadiyyatının müxtəlif sektorlarının cari inkişaf vəziyyətinin təhlili və gələcək perspektivləri.....T.Teymurov
Azərbaycan iqtisadiyyatının sektoral müqayisəli üstünlüklərinin qiymətləndirilməsi..... V.Bayramov
Продовольственная безопасность Азербайджанской Республики в условиях рыночной экономики.....Г.И.Гамидов, А.Дж. Эюбов,Р.М. Касумов
Milli iqtisadiyyatın stimullaşdırılmasında gömrük xidmətinin rolu.....M.M.Aslanova
Azərbaycanın MDB ölkələri ilə aqrar məhsullar üzrə ticarəti.....Ş.H.İbrahimova
Некоторые аспекты гармонизации бухгалтерского учета в Азербайджане.....А.Р.Гаджиева
Vergi güzəşt və imtiyazlarının beynəlxalq təcrübəsi və onların iqtisadiyyatın vergi tənzimlənməsi prosesində rolu.....Z.Q.Quliyev
The effect of macroeconomic factors on the financial choice of Azerbaijan firms.....E.Safarli
Neft gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri.....N.Z.İsmayılov
Azərbaycanda vergi yükünün iqtisadi artıma və vergi daxil olmalarına təsirinin qiymətləndirilməsi .....F.A.Quliyev
İnnovasiyalı iqtisadi inkişafın stimullaşdırılması.....H.C. Əsgərova
Təkrar istehsal sistemində innovasiya infrastrukturu.....S.İ.Abbasova
Sahibkarlıq fəaliyyətinin iqtisadi müxtəlifliyi məsələləri.....İ.İ.Məmmədova
Marketinq innovasiyası və onun şirkətlər üçün üstünlüyü.....Ə.M. Mehdiyev
Milli iqtisadiyyat perspektivlərinin əsas xüsusiyyətləri.....S.A. Abdullayeva
İnnovasiya iqtisadiyyatında insan kapitalı faktoru.....L.V.Zeynallı
Dünya lizinq sənayesinin müasir trendləri.....Z.H.Zeynalov
Dünya təcrübəsində terrorçuluğun maliyyələşdirilməsi hallarının aşkarlanması .....T.Ə.Cəbiyeva
Kommersiya banklarının idarə edilməsinin təşkilati-iqtisadi aspektləri.....A.N. Ayvazlı
Transmilli korporasiyanın Azərbaycan iqtisadiyyatında rolu.....A.R. Vəlibəyli
Şirkətin valyuta risklərinin daxili idarəetmə üsulları.....S.B. Quluzadə
The importance of economic factors in the international economic relations .....T.M.Allahmanlı
Auditor tərəfindən maliyyə hesabatlarına və iş sənədlərinə ümumi baxışın məqsədləri.....F.M.Mirzəyeva, A.S. Hacıyeva
İnnovasiya yönümlü iqtisadi inkişaf (nəzəri və metodoloji məsələlər).....A.T.İbrahimov
Dövlət-özəl tərəfdaşlıq Rusiya regionlarının investisiya strategiyaları sistemində.....C.K.Əliyev
Maliyyə vasitəçiliyi ilə bağlı bəzi məqamlar və azərbaycan üçün perspektiv tövsiyələr.....T.Rəcəbov
Неоклассические учения, современное экономическое право и налоговая политика.....Э.И. Гурбанов

www.aseu.edu.az

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)	
İl 5, Cild 5, iyul - sentyabr 2017	
www.aseu.edu.az	ISSN 2306-8426
Nəşr edən təşkilat:	Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Baş redaktor:	i.e.d., prof. Ə.C.Muradov
Məsul icraçı:	i.e.n., dos. N.Ö.Hacıyev
Jurnalin adı:	UNEC Elmi Xəbərləri
Jurnalın növü:	Dövri
Dövrülüyü və Dili:	Rüblük, azərbaycan, ingilis, rus
Hüquqi ünvanı:	AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Tel: (+994 12) 4926817; 4926411,Fax: (+994 12) 4925940
Mətbəə:	AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30, Tel:(+994 12) 4925337; Fax: (+994 12) 4926509
Çap yeri və tarixi:	Bakı, Azərbaycan Respublikası, 05.10. 2017

Redaksiya heyəti	
i.e.d., prof. D.A.Bağırov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. A.Ş.Şəkərəliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. T.Ə.Quliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Ə.Q.Əlirzayev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Q.N.Manafov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Ə.P.Babayev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. R.R.Quliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. S.M.Yaqubov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. M.A.Əhmədov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. S.M.Səbzəliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. M.X.Həsənli	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. F.P.Rəhmanov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof.H.S.Həsənov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof.Z.F.Məmmədov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d. Ə.Ə.Ələkbərov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d. T.İ.İmanov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d.Y.A.Kəlbiyev	Azərbaycan Dövlət İqtisad Universiteti

- Bu jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır.
- This journal is in the list of scientific periodicals of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan in which the publication of main results of theses is recommended.
- Этот журнал находится в списке научных периодических изданий, в которых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики рекомендовано публиковать основные результаты диссертаций.

MÜNDƏRİCAT - CONTENTS	səh. /pp.
Müasir iqtisadi islahatlar şəraitində Azərbaycanda sahibkarlığın inkişafına konseptual yanaşma .....Q.Manafov	6-16
Reklam bazarının inkişafının kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi..... ..... Ş.Ə.Əsgərov	7-25
Marketinq logistikasi: ümumi və fərqli yanaşmalar.....T.İ.İmanov	26-33
Факторы, влияющие на формирование и развитие эффективной рабочей силы в условиях рыночных отношений.....Н.А. Касымов, И.М. Набиева	34-45
Aktivlərin maliyyə hesabatının digər elementləri ilə səbəb-nəticə əlaqələri..... .....……V.M.Quliyev	46-55
Fiskal siyasətin səmərəliliyi.....Q.S.Əlləzov	56-73
İnformasiya iqtisadiyyatının qiymətləndirilməsinin metodoloji xüsusiyyətləri .....Ə.Q.Əliyev	74-91
İntensiv inkişafın maliyyə və ərazi problemləri……..S.M.Hacızadə	92-100
Sosial-idarəçilik sistemində elektron bələdiyyə ilə vətəndaş arasında müna-sibətlərin dayanıqlılığı.....M.M. Əhmədov,E.A. Salayev	101-108
Respublika iqtisadiyyatının inkişafında xarici investisiya siyasətinin rolu..... .....İ.C.Məmmədova	108-116
Решение одной задачи оптимального управления об истощении газово-го пласта..... .....К.К.Мамтиев, З.Б.Гасанова, М.А.Рустамова	117-126
Подготовка кадров высшей квалификации в контексте повышения качества бухгалтерского учета.....С.В. Дегтярев, Н.И. Попова	127-145
Almaniya iqtisadiyyatının müxtəlif sektorlarının cari inkişaf vəziyyətinin təhlili və gələcək perspektivləri……. ……...T.Teymurov	143-164
Azərbaycan iqtisadiyyatının sektoral müqayisəli üstünlüklərinin qiymətlən-dirilməsi..... . .....V.Bayramov	165-176
Продовольственная безопасность Азербайджанской Республики в усло-виях рыночной экономики…..Г.И.Гамидов, А.Дж. Эюбов,Р.М. Касумов	177-186
Milli iqtisadiyyatın stimullaşdirilmasında gömrük xidmətinin rolu..... . .....M.M.Aslanova	187-195
Azərbaycanın MDB ölkələri ilə aqrar məhsullar üzrə ticarəti..... .....Ş.H.İbrahimova	196-205
Некоторые аспекты гармонизации бухгалтерского учета в Азербайджа-не.....А.Р.Гаджиева	206-215
Vergi güzəşt və imtiyazlarının beynəlxalq təcrübəsi və onların iqtisadiyyatın vergi tənzimlənməsi prosesində rolu.....Z.Q.Quliyev	216-224

The effect of macroeconomic factors on the financial choice of Azerbaijan firms…….E.Safarli	225-231
Neft gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri..... .....N.Z.İsmayılov	232-242
Azərbaycanda vergi yükünün iqtisadi artıma və vergi daxil olmalarına təsirinin qiymətləndirilməsi.....F.A.Quliyev	243-251
İnnovasiyalı iqtisadi inkişafın stimullaşdırılması.....H.C. Əsgərova	252-258
Təkrar istehsal sistemində innovasiya infrastrukturu.....S.İ.Abbasova	259-265
Sahibkarlıq fəaliyyətinin iqtisadi müxtəlifliyi məsələləri.....İ.İ.Məmmədova	266-273
Marketinq innovasiyası və onun şirkətlər üçün üstünlüyü.....Ə.M. Mehdiyev	274-280
Milli iqtisadiyyat perspektivlərinin əsas xüsusiyyətləri.....S.A. Abdullayeva	281-290
İnnovasiya iqtisadiyyatında insan kapitalı faktoru.....L.V.Zeynallı	291-299
Dünya lizinq sənayesinin müasir trendləri……..Z.H.Zeynalov	300-313
Dünya təcrübəsində terrorçuluğun maliyyələşdirilməsi hallarının aşkarlanması. .....T.Ə.Cəbiyeva	314-325
Kommersiya banklarının idarə edilməsinin təşkilati-iqtisadi aspektləri..... .....A.N. Ayvazlı	326-333
Transmilli korporasiyanın Azərbaycan iqtisadiyyatında rolu…A.R. Vəlibəyli	334-340
Şirkətin valyuta risklərinin daxili idarəetmə üsulları.....S.B. Quluzadə	341-348
The importance of economic factors in the international economic relations .....T.M.Allahmanlı	349-356
Auditor tərəfindən maliyyə hesabatlarına və iş sənədlərinə ümumi baxışın məqsədləri…… ……...F.M.Mirzəyeva, A.S. Hacıyeva	357-364
İnnovasiya yönümlü iqtisadi inkişaf (nəzəri və metodoloji məsələlər)..... .....A.T.İbrahimov	365-371
Dövlət-özəl tərəfdaşlıq Rusiya regionlarının investisiya strategiyaları sistemində.....C.K.Əliyev	372-379
Maliyyə vasitəçiliyi ilə bağli bəzi məqamlar və azərbaycan üçün perspektiv tövsiyələr..... .....T. Rəcəbov	380-393
Неоклассические учения, современное экономическое право и налоговая политика……Э.И. Гурбанов	394-412

Scientific, Refereed, Quarterly	
Azerbaijan State University of Economics (UNEC)	
Year 5, Volume 5, July – September 2017	
www.aseu.az	ISSN 2306-8426
Publisher:	Azerbaijan State University of Economics (UNEC)
Editor-in-chief:	prof., Dr. A.J.Muradov
Managing Editor:	associate prof., PhD., N.O.Hajiyev
Title Juornal:	Scientific Reviews in Azerbaijan State University of Economics (UNEC)
Type of Journal:	Periodical
Time Period and Language:	Quarterly, Azerbaijani, English, Russian
Directorial Address:	AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 415, Tel:(+994 12) 4926817; 4926411 Fax: (+994) 4 92 59 40
Printing House:	AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 30, Tel:(+994 12) 4 92 53 37 Fax: (+994 12) 4 92 65 09
Place and Date of Print:	Baku, Azerbaijan Republic, 05.10. 2017

Redaksiya heyəti	
i.e.d., prof. D.A.Bağırov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. A.Ş.Şəkərəliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. T.Ə.Quliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Ə.Q.Əlirzayev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Q.N.Manafov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. Ə.P.Babayev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. R.R.Quliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. S.M.Yaqubov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. M.A.Əhmədov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. S.M.Səbzəliyev	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. M.X.Həsənli	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof. F.P.Rəhmanov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof.H.S.Həsənov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d., prof.Z.F.Məmmədov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d. Ə.Ə.Ələkbərov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d. T.İ.İmanov	Azərbaycan Dövlət İqtisad Universiteti
i.e.d.Y.A.Kəlbiyev	Azərbaycan Dövlət İqtisad Universiteti

MÜASİR İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFINA KONSEPTUAL YANAŞMA

Q. Manafov
i.e.d., professor, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 15 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 15 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalədə sahibkarlıq fəaliyyətinin inkişafının mövcud vəziyyəti təhlil edilmiş və müasir iqtisadi islahatlar şəraitində KOS-un qanunvericilik bazasının təkmilləşdirilməsi yolları nəzərdən keçirilmişdir. Məqalədə həmçinin sahibkarlığın inkişafı ilə bağlı iqtisadi islahatların daha da təkmilləşdirilməsinə konseptual yanaşmaların rolu əsaslandırılmış, sahibkarlıq fəaliyyətinin *gələcək* inkişafı *sahəsində* Strateji Yol Xəritəsindən irəli gələn əsas vəzifələr şərh olunmuşdur.

Açar sözlər: sahibkarlıq fəaliyyəti, kiçik və orta sahibkarlıq, strateji yol xəritəsi, qanunvericilik bazası, biznes mühiti.

Jel Classification: L26

IN MODERN ECONOMIC REFORMS THE CONCEPTUAL APPROACH TO THE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN

Abstract

In an article was analyzed the current state of development entrepreneurship activity and in modern economic reforms considered the ways to improve the legislative base of SME (small and medium entrepreneurial). In an article also in further improvement of economic reforms was grounded the role of conceptual approaches to the global economic challenges, in the further development of business activities were commented the main issues arising from the Strategic Road Map.

Keywords: entrepreneurial activity, small and medium entrepreneurial, the strategic road map, legislative base, business environment.

КОНЦЕПТУАЛЬНЫЙ ПОДХОД К РАЗВИТИЮ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ЭКОНОМИЧЕСКИХ РЕФОРМ

Резюме

В статье анализируется текущая ситуация развития предпринимательской деятельности и рассмматриваются пути совершенствования законодательной

базы малого и среднего бизнеса в условиях современных экономических реформ. В статье также обосновывается роль концептуального подхода к глобальным экономическим вызовам в дальнейшем совершенствовании экономических реформ, излагаются основные задачи, вытекающие из стратегической дорожной карты в области дальнейшего развития предпринимательской деятельности.

Ключевые слова: предпринимательская деятельность, малое и среднее предпринимательство, стратегическая дорожная карта, правовая база, бизнес-среда.

Giriş. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı hökumətin qarşıya qoyduğu iqtisadi siyasətin mühüm tərkib hissələrindən biri kimi çıxış edir. Müstəqillik qazandıqdan sonrakı dövrdə bu istiqamətdə ardıcıl olaraq dövlət - sahibkar münasibətlərinin inkişaf etdirilməsi, dövlət tənzimlənməsi sisteminin, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin daha da yaxşılaşdırılması kimi kompleks tədbirlər həyata keçirilmişdir. Müstəqillik dövründə həyata keçirilən həmin tədbirlər konseptual-iqtisadi kontekstdə araşdırılmaqla, mövcud problemlərin aşkara çıxarılması və onların həlli istiqamətində müvafiq təklif və tövsiyələrin işlənib hazırlanması sözügedən tədqiqatımızın qayəsini təşkil edir.

1. Sahibkarlıq fəaliyyətinin inkişafının mövcud vəziyyətinin təhlili. Son illərdə ölkə iqtisadiyyatında davamlı inkişafa nail olmaq və rəqabət qabiliyyətliliyini təmin etmək yönümündə məqsədyönlü işlər görülməkdədir. Bu sahədə ciddi irəliləyişlərin əldə edilməsində iqtisadi islahatların həyata keçirilməsinin və qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək verilməsinin, əlavə güzəşt və stimullaşdırma siyasətinin əhəmiyyəti böyük olmuşdur.

Belə ki, 2004-cü ildən etibarən sahibkarlıq fəaliyyətinin inkişafında yeni mərhələ başlamışdır. Ötən illər ərzində həyata keçirilmiş tədbirlər nəticəsində 2016-cı ildə özəl sektorun payı ümumi daxili məhsulun həcmində 80 faizdən çoxunu təşkil etmiş, məşğulluqda isə 75,3 faizə çatmışdır. 2016-cı il iyulun 1-nə ölkə üzrə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı 700 mindən çox olmuşdur [1, s. 273].

Son illər ərzində ölkədə hüquqi şəxslərin sayı 7 faiz artaraq 2016-cı ildə 7033 vahid yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs qeydiyyata alınmış, onların sayı artaraq, ümumilikdə 107358 vahidə çatmışdır. Müəssisələrin 11,4 faizi Aranda, 7,4 faizi Abşeronda, 4,6 faizi Lənkəranda, 4,3 faizi Gəncə-Qazaxda, qalanları isə digər bölgələrdə yaradılmışdır [1, s. 273-274]. 2017-ci ilin əvvəlinə ölkə üzrə müəssisələrin ümumi sayının 80,6 faizini və ya 86514 vahidini kiçik müəssisələr təşkil etmişdir [2] (Cədvəl 1).

Cədvəl 1. Sahibkarların kateqoriyalar üzrə sayının dinamikası (ilin əvvəlinə)

Sıra sayı	Kateqoriyası	İllər			2017-ci il 2015-ci ilə nisb. %-lə
		2015	2016	2017	
1	Müəssisə və təşkilatlar	94,6	100,3	107,4	113,5
2	Kiçik müəssisələr	75,1	79,0	86.5	115,2
3	Fərdi sahibkarlar	519,9	576,9	685,4	131,8

Mənbə: Cədvəl müəllif tərəfindən İqtisadiyyat Nazirliyinin məlumatları əsasında tərtib edilmişdir.

2016-cı il ərzində 108500 vahid fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki şəxs qeydiyyatdan keçmişdir. Ölkədə fəaliyyət göstərən fiziki şəxslərin ümumi sayı dinamik şəkildə artaraq, 2017-cı ilin 1 yanvar tarixinə 685406 vahid olmuşdur. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin əsas hissəsi (30,4 faizi) Bakıda, qalan hissəsi isə dögər bölgələrdə qeydiyyata alınmışdır. Ölkədə sahibkarlıq subyektlərinin ümumi bölgüsünə gəldikdə isə, onların 13,5 faizini hüquqi şəxslər, 86,5 faizini isə fiziki şəxslər təşkil etdiyi məlum olur (Cədvəl 2).

Cədvəl 2.Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı və strukturu

İllər	Cəmi sahibkarlıq subyektləri	hüquqi şəxslər		fiziki şəxslər	
		sayı	faizlə	sayı	faizlə
2004	248777	65109	26,2	183668	73,8
2005	279457	70287	25,2	209170	74,8
2010	400349	93416	23,3	306933	76,7
2011	440232	75632	17,2	364600	82,8
2012	511107	78966	15,5	432141	84,5
2013	541007	86010	15,9	454997	84,1
2014	614423	94563	15,4	519860	84,6
2015	677231	100325	14,8	576906	85,2
2016	792764	107358	13,5	685406	86,5
2016-cı il 2004-cü ilə nisb. %-lə	318,7	154,1	*	314,1	*

Mənbə: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı ildə fəaliyyəti haqqında hesabat. Bakı-2017, s. 274-275.

2015-2016-cı illərdə SKMF xətti ilə 7720 sahibkara 437,9 milyon manat dövlətin güzəştli krediti verilmiş və bu kreditlər hesabına 20700-dək yeni iş yerinin yaradılması imkanı yaranmışdır. Güzəştli kreditlərin 85,6 faizi aqrar sektorun, 14,4 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına verilmişdir. Verilmiş kreditlərin 63,8 faizi respublikanın regionlarının, 36,2 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşür [2].

Dövlət tərəfindən verilmiş güzəştli kreditlərin məbləğinin iqtisadiyyatın sahələri üzrə bölgüsü göstərir ki, bu göstərici 2011-2015-ci illərdə 2006-2010-cu illərlə

müqayisədə 2,6 dəfə artaraq, 1329,7 mln manat olmuşdur ki, bunun da 71,4 faizi aqrar sektorun payına düşmüşdür [3] (Cədvəl 3).

Cədvəl 3.Dövlət tərəfindən verilmiş güzəştli kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü

	2006-2010		2011-2015		2016	
	cəmi, mln manat	yekuna görə, %-lə	cəmi, mln manat	yekuna görə, %-lə	cəmi,mln manat	yekuna görə, %-lə
Cəmi	513,2	100,0	1329,7	100,0	189,4	100,0
O cümlədən aqrar sektor	65,0	12,7	949,7	71,4	155,9	82,3
müxtəlif sənaye və digər sahələr	448,2	87,3	379,3	28,6	33,5	17,7

Mənbə: Cədvəl müəllif tərəfindən Sahibkarlığa Kömək Milli Fondunun məlumatları əsasında tərtib olunmuşdur.

Cədvəlin məlumatlarından göründüyü kimi, 2016-cı ildə dövlət tərəfindən verilmiş güzəştli kreditlərin həcmi 189,4 mln manat təşkil etmişdir ki, bunun da 155,9 mln manatı və ya 82,3 faizi aqrar sektorun payına düşmüşdür. Bu isə o deməkdir ki, dövlət tərəfindən verilmiş güzəştli kreditlərin həcmində aqrar sektorun xüsusi çəkisi 2011-2015-ci illərdəki müvafiq orta göstəricidən təxminən 10 faiz bəndi qədər çoxdur.

Fondun vasitəsilə müasir texnologiyaların tətbiqinə əsaslanan iri layihələrin maliyyələşdirilməsi ilə yanaşı, kiçik həcmli layihələrin də güzəştli şərtlərlə maliyyələşdirilməsi vacib məsələlərdən biridir. Bu baxımdan, əhalinin bir sıra qruplarının, o cümlədən məcburi köçkün, əlil, gənc və qadın sahibkarların, eləcə də aztəminatlı ailələrin kiçik həcmli kreditlərdən maksimum bəhrələnərək, özlərinə biznes imkanları yaratmaları daim diqqət mərkəzində saxlanılır. Belə ki, 293 məcburi köçkün sahibkara 5,1 milyon manat, 762 qadın sahubkara 22,1 milyon manat və 1177 gənc sahibkara 68,4 milyon manat və 2 əlil sahibkara 60 min manat güzəştli kredit verilmişdir.

2. Müasir iqtisadi islahatlar şəraitində KOS-un qanunvericilik bazasının təkmilləşdirilməsi. Qeyd etmək lazımdır ki, iqtisadi rayonlarda klasterlərin yaradılması və onların ixtisaslaşmasının artırılmasında xüsusi iqtisadi zonaların yaradılmasının mühüm rolu vardır. Xüsusi iqtisadi zonaların yaradılmasında məqsəd ölkədə prioritet sahələrin inkişaf etdirilməsinə, investisiya fəallığının artırılması, rəqabət qabiliyyətli, səmərəli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsidir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixdə imzalamış olduğu “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında” Fərmanının mühüm əhəmiyyəti vardır. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının

2009-cu il 14 aprel tarixli Qanunu qüvvəyə minmiş və bu qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2009-cu il 3 iyun tarixli Fərman imzalanmışdır. Artıq Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması ilə bağlı zəruri normativ-hüquqi baza formalaşdırılmışdır. Bu istiqamətdə əsas addımlardan biri kimi, ölkə Prezidentinin "Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında" 2015-ci il 2 fevral tarixli Sərəncamına uyğun olaraq, Neftçala şəhəri üzrə Dövlət Torpaq Fondu ərazisindən 10 hektar torpaq sahəsi icarə hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin istifadəsinə verilmişdir. İlkin mərhələdə şirkətlər tərəfindən sənaye məhəlləsinə 7 layihə üzrə 15,6 milyon manat investisiya qoyulacağı və bunun nəticəsində 380 iş yerinin açılacağı gözlənilir.

2015-ci ilin sonlarında biznesə qarşı bürokratik təzyiqin azadılması üçün səmərəli addımlar atıldı. İlk növbədə sahibkarların yoxlanılma sayı minimuma endirildi, sahibkarlıq fəaliyyəti üçün lisenziyaların sayı azaldıldı və onların alınması prosesi sadələşdirildi. İkincisi, 2016-cı ilin yanvar ayından investisiyaların təşviqi sertifikatlarının tətbiqinə başlanılmışdır. Belə ki, onlar bir sıra vergi və gömrük güzəştləri təqdim edilməklə, fiziki və hüquqi şəxslərə verilir. Üçüncüsü, martın əvvəlindən ölkədə qeyri-neft sektorunun ixracının subsidiyalaşdırılma mexanizmi tətbiq edilmiş və onun 2020-ci ilin sonuna kimi qüvvədə olacağı nəzərdə tutulmuşdur. Əsasən yerli istehsal olan qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsi hesabına (ixrac edilən əmtəənin gömrük dəyərinin 3%-i) subsidiya ödəniləcək. Dördüncüsü, yaxın gələcəkdə xaricdə sertifikat və patent əldə edən yerli şirkətlərin dövlət büdcəsi hesabına borclarının qismən ödənilməsi mexanizminin işə salınması, habelə ixrac üçün perspektivli olan bazarlarda logistika mərkəzlərinin yaradılma prosesinin sürətlənməsi, xarici bazarların marketinq tədqiqatının həyata keçirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, ölkə Prezidentinin 2015-ci il 21 dekabr tarixli Fərmanı ilə lisenziya tələb edən fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, yeni verilən, o cümlədən indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən yarıbayarı azaldılmış, lisenziyaların verilməsi müddəti isə 15 gündən 10 iş gününə endirilmiş, lisenziya verilməsi üçün tələb olunan şərtlər sadələşdirilmiş və təkmilləşdirilmişdir.

Sahibkarlıq fəaliyyətinin lisenziya tələb olunan bütün növləri üzrə lisenziyaların verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 mart tarixli Qanunu qəbul edilərək, iyun ayının 1-dən qüvvəyə minmişdir [4]. Respublikada ilk dəfə qəbul olunan bu qanun lisenziya və icazə sisteminin vahid prinsiplər əsasında tənzimlənməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edir, mərkəzləşdirilmiş hüquqi nəzarət mexanizmi formalaşdırır. Qanuna görə, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayı təxminən 4 dəfə azaldılaraq, 330-dan 86-ya endirilmişdir.

Həmçinin "Dövlət rüsumu haqqında" Qanunda 2015-ci il 29 dekabr tarixli Qanunla edilmiş dəyişikliyə əsasən lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız regionlarda həyata keçirildikdə, həmin fəaliyyət üzrə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi ödənilir.

Sahibkarlıq fəaliyyətində yoxlamaları iki il müddətinə dayandırmaq, onların vahid reyestrini tərtib etmək və qabaqcadan yoxlama subyektlərini məlumatlandırmaq KOS sahəsinin inkişafına xeyli müsbət təsir etmişdir. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılmışdır [5]. Qanunun 2.1-ci maddəsinə əsasən bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqindən sonra, vergi yoxlamaları istisna olmaqla, 2016-cı ildə sahibkarlıq subyektlərində 60 yoxlama keçirilmişdir. Onu da qeyd edək ki, 2015-2016-cı illər istisna olmaqla, aparılan yoxlamaların sayı 62 minə yaxın olmuşdur.

Bundan başqa, sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı ölkə prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuraları yaradılmış, onların fəaliyyətini tənzimləyən əsasnamələr təsdiq edilmişdir. Bu, KOS subyektləri üçün bahalı olan və sonda istehsalın maya dəyərində öz əksini tapan izafi xərclərin, o cümlədən məhkəmə xərclərinin azaldılmasında böyük rol oynayacaqdır.

Qeyd edilənlərlə yanaşı, gömrük və vergi sahələrində də mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" ölkə prezidentinin 2016-cı il 4 mart Sərəncamı ilə elektron gömrük xidmətlərinin daha da gücləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurlarının sayının minimuma endirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması və s. kompleks məsələlərin həlli ilə bağlı tapşırıqlar müəyyənləşdirilmişdir [6].

2016-cı il aprel ayının 4-dən etibarən gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə bağlı prosedurların daha da sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırılması məqsədi ilə elektron bəyannamə sistemi tətbiq edilmişdir.

Ölkə prezidentinin 2016-cı il 21 may tarixli Sərəncamına görə, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq, vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədi ilə "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri" təsdiq edilmişdir.

Ölkənin sərhədində "bir pəncərə" sisteminin tətbiq olunması, 2016-cı ilin 21 mayında təsdiq edilmiş müvafiq Fərman əsasında müəyyən edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın əsas məqsədi idxal-ixrac əməliyyatlarını sadələşdirmək yolu ilə KOS subyektlərinin xarici fəaliyyətdən asılı komponentlərinin yaxşılaşdırılmasına xidmət etməkdən ibarətdir.

Ölkə başçısının "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli Fərmanı ölkəyə daha çox sərmayələrin cəlb edilməsi, sənaye istehsalının artırılması kimi məsələləri əhatə edir [7]. Bu sənədlərə sahib olan sahibkarlar ölkə qanunvericiliyində nəzərdə tutulmuş güzəştlərdən yararlanmaq imkanı əldə edir, mənfəət və gəlir vergisinin 50 faizini, əmlak və torpaq vergisini, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə ƏDV və idxal rüsumlarını 7 il müddətində ödəməkdən azad olunurlar.

Ölkə prezidenti İ. Əliyevin 2016-cı il 23 sentyabr tarixli Fərmanına əsasən yaradılan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri vasitəsilə ailə təsərrüfatlarının, KOS-ların müasir avadanlıqlardan istifadə etməsinə şərait yaradılır, onlara biznes planların hazırlanması, marketinq, brendinq, dizayn, maliyyə-mühasibat, hüquqi yardım və məlumatlandırma xidmətləri göstərilir, istehsal edilən məhsulun daşınması və satışının, həmçinin sertifikatlaşdırmanın sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkili həyata keçirilir.

Bununla yanaşı, ölkə prezidentinin 2016-cı il 15 və 22 sentyabr, 5 oktyabr tarixli sərəncamlarına əsasən ölkədə ipəkçiliyin, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahələrin potensial imkanlarından səmərəli istifadə edilməsi, həmin sahələrin istehsalına əhalinin marağının artırılması və sosial rifahın daha da yaxşılaşdırılması məqsədilə bu sahələrin istehsalçılarına subsidiya verilməsi müəyyən edilmişdir. Bundan əlavə, "Dövlət satınalmaları haqqında" Qanunda 2016-cı il yanvarın 19-da edilmiş dəyişikliyə əsasən satınalan təşkilatlar müəyyən edilmiş keyfiyyət tələblərinə cavab verən yerli mallar üzrə tender təkliflərinin xeyrinə, xaricdən idxal olunan eyni malların təklif edilən qiymətinin 20 faizinə qədər həcmdə güzəştli düzəliş tətbiq edilir.

Ölkə prezidentinin 2016-cı il 15 sentyabr tarixli Fərmanına görə, ölkədə sahibkarlıq fəaliyyətini genişləndirmək, habelə biznes və investisiya mühitinin əlveriş-

liliyini və rəqabət qabiliyyətini daha da artırmaq məqsədilə icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən 2018-ci ilin əvvəlinə qədər idxal mallarının satın alınması dayandırılmışdır.

Bundan əlavə, dövlət başçısının 2016-cı il 11 aprel tarixli Fərmanı ilə "Dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası" təsdiq edilmişdir. Eyni zamanda, ölkə prezidentinin 2016-cı il 11 aprel Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq və s. məqsədilə "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC yaradılmışdır.

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində aparılan islahatlar nüfuzlu beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Məsələn, Dünya Bankı tərəfindən dərc edilən "Doinq Business" hesabatında 2009-cu ildə Azərbaycan ən islahatçı ölkə, 2016-cı ildə isə dünyada 3 və daha çox islahat aparan 29 ölkədən biri olmuşdur.

3. İqtisadi islahatların daha da təkmilləşdirilməsində qlobal iqtisadi çağırışlara konseptual yanaşmaların rolu. Azərbaycanda aparılan iqtisadi islahatlar qlobal iqtisadi çağırışlara konseptual yanaşmalarla daha da təkmilləşdirilməkdədir. Bu baxımdan, ölkə Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında 16 mart 2016-cı il tarixli Sərəncamı yaxın, orta və uzaq perspektiv üçün Azərbaycan iqtisadiyyatının müasir tələblər çərçivəsində əsaslı şəkildə yenidən qurulmasını nəzərdə tutan sənəd əsasında ölkə iqtisadiyyatının güclü, zəif tərəflərinin, onun real imkanlarının və mövcud ola biləcək təhlükələrin müəyyən edilməsi, bir sözlə, onun faktlara əsaslanan 360 dərəcəli diaqnostikasının aparılması nəzərdə tutulurdu [8]. Ən əsası isə, Azərbaycan iqtisadiyyatının mühüm bir hissəsini təşkil edən 8 prioritet sektora xüsusi diqqət ayrılmalı idi. Bunlar 4 istehsal sektoru: - neft, qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma, 2 xidmət sektoru: - ixtisaslaşmış turizm, logistika və ticarət və 2 sosial sektor: - uyğun qiymətə mənzillər və kompleks məsələ kimi peşə təlimləri sahələrindən ibarət olmalı idi.

Tapşırığın nəticəsi kimi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə aşağıdakı sahələr üzrə strateji yol xəritələri təsdiq edildi[9]: milli iqtisadiyyat perspektivi üzrə; neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair; kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair; ağır sənaye və maşınqayırmanın inkişafına dair; ixtisaslaşmış turizm sənayesinin inkişafına dair; logistika və ticarətin inkişafına dair; uyğun qiymətə mənzil təminatının inkişafına dair; peşə təhsili və təliminin inkişafına dair; maliyyə xidmət-

lərinin inkişafına dair; telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair; kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair.

Xarici ekspertlərin və məsləhətçi beyin mərkəzlərinin iştirakı, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq çərçivəsində hazırlanmış strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını, 2025-ci ilədək olan dövr üçün uzun-müddətli və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı əhatə edir.

Strateji yol xəritələrində iqtisadi islahatlara uyğun kompleks tədbirlərin həyata keçirilməsi, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasının təmin edilməsi nəzərdə tutulur. Sənədin məqsədləri sırasına aşağıdakılar aiddir:

- Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və rəqabət qabiliyyətliliyinin güc-ləndirilməsi;
- neftdən asılılığın aradan qaldırılması;
- qeyri-neft sektorunun və keyfiyyətli ixrac məhsullarının artırılması;
- əhalinin məşğulluq səviyyəsinin və rifahının daha da yüksəldilməsi.

Strateji yol xəritələrinin əhatə etdiyi əsas sahələrə kənd *təsərrüfatından tutmuş* sənayeyə qədər bütün sferaları, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması kimi əsas sahələr daxildir.

4. *Sahibkarlıq fəaliyyətinin* gələcək *inkişafı* sahəsində *Strateji Yol Xəritəsinin konseptual müddəaları və onlardan irəli gələn əsas vəzifələr.* Yuxarıda qeyd edilən *yol xəritələrindən biri də "*Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair *Strateji Yol Xəritəsi"dir [10].*

Həmin sənəddə KOS sahəsində mövcud vəziyyət təhlil olunur, strateji baxış, hədəf indikatorları, strategiyanın məqsədləri, strateji hədəflər, maliyyələşmə me-xanizmləri, icra, monitorinq və qiymətləndirmə qaydaları müəyyən edilir, tədbirlər planı təsdiq edilir. Eyni zamanda, kifayət qədər geniş və əhatəli sənəd olan *Strateji Yol Xəritəsində sahibkarlıq fəaliyyətinin inkişafı, biznes mühitinin yaxşılaşdırılması sahəsində indiyədək görülmüş işlər sadalanır, mövcud vəziyyət təhlil edilir, çatış-mazlıqlar və onların aradan qaldırılması yolları göstərilir. Bunun üçün sənəddə* KOS-lar beynəlxalq təcrübədə mövcud olan müsbət və mütərəqqi mexanizmlərin ölkəmizdə tətbiqi nəzərdə tutulur.

Bütün bunlardan göründüyü kimi, son illərdə qanunvericilik bazasını, inzibati prosedurları və dövlət-sahibkar münasibətlərini təkmilləşdirmək yönümündə dövlət tərəfindən kompleks tədbirlər icra edilmişdir. Həmin sistemin mövcud qanunveri-ciliyin respublikada həyata keçirilən islahatlara təsirinin ölçülməsinə və müvafiq təkmilləşdirmələrin qarşılanmasına imkan verəcəyi realdır. Dünya ölkələrinin təcrübəsində sistemin tətbiqi yolları öyrənilərək, ölkədə KOS-un xüsusiyyətləri nə-zərə alınmaqla, zəruri tədbirlərin icrası nəzərdə tutulur.

Bununla yanaşı, iqtisadiyyatın neftdən asılılığını minimuma endirmək, KOS-a

əsaslanan rəqabət qabiliyyətli istehsal potensialını artırmaq məqsədləri növbəti dövrlərdə də əlavə tədbirlərin icrasını tələb edir.

Ölkə qarşısında əsas strateji hədəflərdən biri kimi biznes və investisiya mühitini daha da yaxşılaşdırmaq yönümündə islahatları davam etdirmək müəyyənləşdirilmişdir. Hədəfə nail olunması məqsədilə dövlət-sahibkar münasibətlərini inkişaf etdirmək, biznes və investisiya mühitini dəstəkləmək zəruridir. Bunun üçün prioritet olaraq, aşağıdakılar seçilmişdir:

-sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələri və süni maneələri aradan qaldırmaq;

-sahibkarlığın dövlət tənzimlənməsində inzibati qayda və prosedurları təkmilləşdirmək;

- təşviq mexanizmlərini tətbiq etmək;

- elektron hökumət xidmətlərinin əhatə dairəsini genişləndirmək.

Hesab edirik ki, davamlı inkişafın təmin edilməsi məqsədilə sahibkarlığın inkişafı tədbirləri ölkə iqtisadiyyatının inkişafının hazırkı mərhələsində regional inkişafda qeyri-bərabərliyin aradan qaldırılmasına, ölkə iqtisadiyyatının səmərəli sahə strukturunun formalaşmasına, texnoloji inkişafın sürətləndirilməsinə, ölkənin ixrac potensialının səmərəli reallaşdırılmasına, qeyri-neft sektorunun inkişafına, məşğulluğun optimal səviyyəsinin təmin edilməsinə və orta təbəqənin formalaşması prosesinin sürətləndirilməsinə yönəldilməlidir. Fikrimizcə, göstərilən öncül məqsədlərə nail olunması üçün ilk növbədə sahibkarlığın inkişafının normativ-hüquqi bazası mütəmadi aparılmalı olan təhlil əsasında təkmilləşdirilməli, bu siyasət dövlətin təsərrüfat funksiyalarının məhdudlaşdırılması, tənzimləmənin isə səmərəliliyinin artırılmasına yönəldilməlidir. İkincisi, sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatı gücləndirilməli, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühit yaradılmalı, bu fəaliyyət stimullaşdırılmalı, start kapitalının formalaşması imkanları genişləndirilməlidir; üçüncüsü, öncül sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməli, müxtəlif istiqamətdə davamlı və sistemli xidmətlər göstərən təsisatlar yaradılmalıdır. Xüsusilə də ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri ilə dəstəkləyəcək İxracın və İnvestisiyaların Təşviqi Fondunun səmərəli fəaliyyəti təmin edilməlidir. Dördüncüsü, innovasiya sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modelləri (sənaye şəhərcikləri, biznes-inkubatorlar və s.) yaradılmalı və onların səmərəli fəaliyyəti üçün zəruri qanunvericilik və biznes mühiti təmin edilməlidir.

KOS-un inkişafı baxımından xüsusi iqtisadi zonaların yaradılması, fikrimizcə, yalnız güzəştlərin verilməsi ilə deyil, ərazidə inkişaf etdiriləcək istehsalların müəyyən

olunması, bunun üçün zəruri olan infrastrukturun (yol, elektrik enerjisi, qaz, su təminatı və s.) yaradılması, kadrların hazırlanması və s. məsələləri əhatə etməlidir.

İnnovasiya sahibkarlığının inkişafı baxımndan ölkənin ayrı-ayrı regionlarında klaster yanaşmasının təmin olunması üçün xüsusi sənaye zonalarının yaradılmasının böyük əhəmiyyəti vardır. Belə zonaların yaradılması innovasiyanın diffuziyasına, istehsalın həcminin artması (nisbətən kiçik istehsalların bir ərazidə yerləşməsi hesabına) nəticəsində miqyasdan qənaətə, təchizat və satış müəssisələrinin yaranmasına səbəb olar. Bu da, xüsusi sənaye zonalarında istehsal edilən məhsulların keyfiyyətinin artmasına, qiymətinin isə aşağı düşməsinə səbəb olar.

Ölkə üzrə KOS-un inkişafı ilə bağlı Strateji Yol Xəritəsindən irəli gələn vəzifələrin reallaşdırılması ölkədə ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitini formalaşdırmağa, onun yerli və əcnəbi investorlar üçün əlverişliliyini daha da artırmağa imkan verəcəkdir.

Ədəbiyyat

[1] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-ci ildə fəaliyyəti haqqında hesabat. Bakı: 2017, 448 s.

[2] http://www.economy.gov.az. – AR İqtisadiyyat Nazirliyinin rəsmi web ünvanı.

[3] AR İqtisadiyyat Nazirliyi. Sahibkarlığa Kömək Milli Fondu. Illik hesabat. 2015.

[4] "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[5] "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il - tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[6] "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart Sərəncamı.

[7] "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[8] *"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında"* Azərbaycan Respublikası Prezidentinin *16 mart 2016-cı il tarixli Sərəncamı* ilə təsdiq edilmişdir.

[9] "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

[10] "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 17 - 25
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 17 - 25

REKLAM BAZARININ İNKİŞAFININ KƏMİYYƏT VƏ KEYFİYYƏTCƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Ş.Ə. Əsgərov

dos., UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Müasir mərhələdə reklam ictimai istehsalın gedişinə təsir edən mühüm bazar alətidir. Reklam tədbirlərinə çəkilən xərclər təsərrüfat subyektlərinin maliyyə imkanlarından asılı olmayaraq yüksələn artım tempinə malikdir. Bununla əlaqədar olaraq, iqtisadi sistemin əsas tərkib hissəsi kimi, mühüm əhəmiyyət kəsb edən reklam bazarı formalaşır və inkişaf edir.

Açar sözlər: reklam, reklam bazarı, reklamın effektivliyi, iqtisadi sistem, reklam tədbirləri
Jel classification: M31

QUANTITATIVE AND QUALITATIVE EVALUATION OF THE DEVELOPMENT OF THE ADVERTISING MARKET

Abstract

In modern conditions, advertising is a factor that has an increasing influence on the course of social reproduction. Advertising costs are increasing at an accelerating pace and are becoming one of the central points of an entrepreneurial strategy. In this regard, the advertising market is developing, which acquires the importance of one of the most important parts of the economic system.

Keywords: advertising, advertising market, advertising effectiveness, economic system, advertising measures.

КОЛИЧЕСТВЕННАЯ И КАЧЕСТВЕННАЯ ОЦЕНКА РАЗВИТИЯ РЕКЛАМНОГО РЫНКА

Резюме

В современных условиях реклама является фактором, оказывающим все возрастающее влияние на ход общественного воспроизводства. Расходы на рекламу увеличиваются опережающими темпами и становятся одним из централь-

ных моментов стратегии предпринимательства. В связи с этим развивается рынок рекламы, который приобретает значение одной из важнейших частей экономической системы.

Ключевые слова: реклама, рекламный рынок, еффективность рекламы, экономическая система, рекламные меры.

Giriş. Reklam bazarında kəmiyyət və keyfiyyət dəyişiklikləri bu bazarın xarici mühitlə qarşılıqlı əlaqələrinə bilavasitə təsir edir. Belə qarşılıqlı asılılıqda fəaliyyət göstərən reklam bazarı iştirakçılarının reklama çəkdikləri xərclərin azaldılması bu bazarın prioritet vəzifələrindən hesab edilir. Təbiidir ki, müasir mərhələdə bazar iqtisadi sisteminin tələblərinə uyğun inkişaf etmiş reklam bazarı iqtisadi prosesin iştirakçılarının reklam tədbirlərinə çəkdikləri xərclərin azaldılması mənbəyi hesab olunur. Xərclərin azaldılmasının əhəmiyyətli faktorlarından biri məhz ixtisaslaşmadır. Reklam bazarında ixtisaslaşma reklam yayım vasitələrindən istifadə dərəcəsi nəzərə alınmaqla sözügedən bazarın seqmentlərə bölünməsi prinsipinə əsaslanır. Bu isə reklamın effektivliyinin yüksəldilməsinə təsir göstərir. Reklamın effektivliyinin yüksəldilməsi isə bazar proseslərinin iştirakçılarının maliyyə vəsaitlərinə qənaət edilməsi deməkdir.

Reklam bazarı konkret məhsul və xidmətlər bazarında baş verən ümumi konyunktur dəyişikliklərinin təsiri altında mütəmadi olaraq inkişaf edir. Təbiidir ki, reklam bazarında, bütövlükdə struktur baxımından baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri reklam prosesinin iştirakçılarını, reklam məhsullarının istehsalı və yayılmasını, eləcə də reklam fəaliyyətinin təşkili və tənzimlənməsi sistemini və bazarın ayrı-ayrı elementlərini özündə ehtiva edir.

Reklam bazarının kəmiyyətcə dəyişilməsi bu bazarın reklam dövriyyəsi ilə xarakterizə olunur. Dünya, milli və regional səpkili reklam bazarlarının dövriyyəsi müəyyən dövr ərzində konkret ərazidə reklama çəkilən məcmu xərclərin (təbii ki, bu, reklamverənlərin uyğun xərclər toplusudur) həcmi ilə müəyyənləşir. Reklam bazarında dövriyyənin həcmi, hər şeydən əvvəl, məhsul və xidmətlər bazarındakı dövriyyənin həcmindən asılıdır. Bir çox hallarda sahibkarlar reklama kifayət qədər diqqət ayırmaqla istehlakçıları əvvəlcədən yeni məhsul və xidmətlərə köklədiklərindən, istehlakçı şüurunda məhsul və xidmət haqqında müsbət imic formalaşdırdıqlarından hazırda reklam bazarı əmətəə bazarına nisbətən artan templə inkişaf edir. Belə bir halda, reklamın investisiya funksiyası əmələ gəlir, təşəkkül tapır, çünki gələcəkdə istehsal ediləcək məhsul və ya göstəriləcək xidmətin reklamına əvvəlcədən çəkilən xərclər investisiya hesab edilir və təbii ki, reklamverən şirkətlərin mənfəəti hesabına özünü ödəyir.

Reklamın hansı formada verilməsindən asılı olmayaraq, o, ilkin olaraq səmərəli olmalıdır. Ölkəmizdə reklam tədbirlərinin effektivlik problemi müasir reklam verənlərin problemi hesab olunur. Bu gün reklam agentliklərinə müraciət edən istənilən müştəri reklam tədbirlərinin həyata keçirlməsini xahiş etməklə yanaşı, eyni zamanda maksimum effektivliyin əldə edilməsini qarşısına ciddi niyyət kimi qoyur (3). Bu, bir daha onu təsdiq edir ki, ölkə sahibkarlarının öz biznes fəaliyyətlərinin nəticələrinin effektiv olmasına ciddi səy göstərmələri reklam bazarının sivil forma almasına təkan verir.

Lakin nəzərə alınmalıdır ki, reklamın effektivliyi anlayışı bu sahədə fəaliyyət göstərən praktik işçilər və tədqiqat aparan mütəxəssislər arasında mübahisə obyektinə çevrilmişdir. Son illərdə bu problem mütəmadi olaraq intensiv müzakirə olunan problemlər sırasına aid olunur, çünkü bir çox marketoloqlar hesab edirlər ki, reklama çəkilən xərclərin 80%-i gözlənilən nəticəni vermir. Reklamın effektivliyi haqqında yaranan mübahisələr onunla əlaqədardır ki, hazırda bu prosesin tədqiqi üçün nəzəri və praktiki əsaslar tələb olunan səviyyədə işlənib hazırlanmamışdır. Bununla əlaqədar olaraq, müasir dövrdə reklamın effektivliyinin ölçülməsinə və rəqəmlərlə ifadə edilməsinə, bilavasitə köməklik göstərə biləcək metod və üsulların tapılması üçün aparılan tədqiqatlar intensiv xarakter almışdır.

Reklamın iqtisadi effektivliyinin müəyyənləşdirilməsi reklam tədbirlərinin həyata keçirilməsi və onun maksimum faydalılığının təmin edilməsinə sərf olunan maliyyə vəsaitlərindən rasional istifadə edilməsinin mühüm şərtlərindən biridir. Reklamın effektivliyinin tədqiqi reklam tədbirlərinin yalnız son mərhələsini deyil, eyni zamanda onun bütün mərhələlərini əhatə edir. Deməli, reklamın effektivliyinin müəyyənləşdirilməsində əsas məqsəd məhsul və xidmətlər bazarında baş verən dəyişikliklərə uyğun olaraq həyata keçirilən reklam tədbirlərinin korrektə edilməsi üçün lazımi informasiyaları əldə etməkdən ibarətdir. Planlaşdırılan reklam tədbirləri başa çatdıqdan sonra onun effektiv olub-olmamasının yoxlanılması son nəticələrin aşkar edilməsi və bu tədbirlərin icrasına yönəldilən maliyyə vəsaitlərinin effektivlik dərəcəsinin müəyyənləşdirilməsinə istiqamətlənib. Təbiidir ki, belə bir yoxlamalar reklam tədbirlərinin aparılmasının məqsədəuyğunluğu üçün zəruridir.

Reklamda effektivlik göstəricilərini özlərinin əhəmiyyətinə görə üç qrupa bölmək olar. Birinci qrup əmtəə dövriyyəsini və əldə edilmiş əlavə mənfəəti, ikinci qrup isə reklam vasitəsi ilə satış şəbəkəsinə cəlb edilən insanların sayı və baş tutan ticarət sövdələşmələrinin sayı kimi qeyri-dəyər göstəricilərini özündə birləşdirir. Üçüncü qrupa isə reklamın effektivliyini şərti qiymətləndirməyə imkan verən göstəricilər daxildir: reklamın bir nəfərə çatdırılması dəyəri; hər nəfərə çəkilən reklam xərclərinin xüsusi çəkisi; alış motivləri konkret reklama görə baş tutan şəxslərin sayı. Birinci iki qrupa daxil edilən göstəricilər əsasən reklamı planlaşdırma mərhələsində

istifadə olunur. Sonuncu qrup göstəricilər isə ayrı-ayrı reklam növlərinin nəticələrini qiymətləndirən zaman köməkçi funksiya hesab edilir.

Bu baxımdan, reklamın effektivliyi iqtisadi və qeyri-iqtisadi göstəricilərlə müəyyənləşdirilir. İqtisadi göstəricilərə tədavül xərcləri (reklama çəkilən xərcləri əks etdirir); bir istehlakçıya düşən reklam xərclərinin xüsusi çəkisi; müəyyən dövr ərzində reklama çəkilən xərclərin həcmi kimi göstəricilər aid edilir. Qeyri-iqtisadi göstəricilərə isə əsasən çap edilən elanların sayı, istehlakçı auditoriyasının diqqətini cəlbetmə dərəcəsi, emosional effekt, məqsəd auditoriyasına çatdırılacaq informasiyaların məzmunu, reklam materiallarının yadda saxlanılmasının sadəliyi, istehlakçı vərdişlərinin, ənənələrinin və dəblərinin dəyişilməsi daxil edilir.

Təbiidir ki, reklamın həqiqiliyi (reklamın həqiqiliyi onun aparılma yerindən; məhsulun xarakterindən; onun əvəz edilməsi səviyyəsindən asılıdır), məqsəd auditoriyasına təsir dərəcəsi ilk növbədə satılan məhsul və xidmətlərin həcmini xarakterizə edən göstəricilərlə (məsələn, məhsul qrupları üzrə ötən (və ya proqnozlaşdırılan) ilin əmtəə dövriyyəsinin həcmi ilə hesabat ilində əmtəə dövriyyəsinin əldə edilən səviyyəsinin müqayisəsi) qiymətləndirilir. Əgər reklam məhsul və xidmətlərin şatış həcminin artmasına təsir etmirsə, o, həqiqi reklam (reklamın təsirinin iqtisadi nəticələrini istehlakçıların vərdiş və ənənələrinin dəyişilməsindən tez aşkar etmək mümkün olur) hesab edilmir və onun effektivliyindən söhbət belə gedə bilməz.

Bu da bir təkzibedilməz həqiqətdir ki, reklamın nəticələri aparılan reklam tədbirləri başa çatdıqdan və ya müəyyən zaman kəsiyindən sonra aşkar edilir. Reklamın istehlakçı yaddaşına, diqqətinə, təfəkkürünə və hisslərinə təsir etmə dərəcəsindən asılı olaraq, onun həqiqiliyi, reallığı tam olmaya bilər, çünki reklam məlumatlarının istehlakçı yaddaşında qalma müddətini ölçmək təbii ki, qeyri-mümkündür. Bu kontekstdən hazırda reklama çəkilən xərclərlə onun verdiyi nəticələr arasında zaman fərqini praktiki olaraq uçota almaq olduqca çətindir. Praktik təcrübəyə istinadən qeyd etmək olar ki, reklam tədbirlərinin həyata keçirilməsi müddəti bir ildən, bəzi hallarda üç ildən artıq dövrü əhatə edir. Bu baxımdan, reklamın qısamüddətli təsirini uzunmüddətli təsirlə müqayisədə daha dəqiq qiymətləndirmək mümkündür. Digər tərəfdən isə reklamın verdiyi nəticələrin tədqiqinə nə qədər gec başlanılarsa, alınan nəticələrin obyektivliyinə bir o qədər çox amillər təsir edə bilər (4).

Yuxarıda qeyd edildiyi kimi, əlavə mənfəətlə yanaşı, reklamın iqtisadi effektivliyinin mühüm göstəricilərindən biri əmtəə dövriyyəsi hesab edilir. Məlum olduğu kimi, reklam məhsul və xidmətlərə tələb formalaşdırdığından, o, ilk növbədə əmtəə dövriyyəsinin həcminin artmasına gətirib çıxarır. Bu baxımdan, reklamın iqtisadi effektivliyinin qiymətləndirilməsi məhz yaranan əlavə əmtəə dövriyyəsi əsasında aparılır. Təbiidir ki, qiymətləndirmə reklam tədbirlərinin aparılmasından sonra

məhsul satışının həcmini reklam tədbirlərinə qədər mövcud olan məhsul satışının həcmi ilə müqayisə etməklə həyata keçirilir:

$$MD = \overline{MD} \cdot MD_{n.a} \cdot D/100$$

Burada, MD-reklam tədbirləri nəticəsində əldə edilən əlavə əmtəə dövriyyəsinin həcmi; $\overline{MD}$- reklam dövrünün başlanmasına qədər orta günlük əmtəə dövriyyəsi; $MD_{n.a}$ - orta günlük əmtəə dövriyyəsinin nisbi artımı (%); D-əmtəə dövriyyəsi uçota alınan günlərin sayı.

Deməli, əmtəə dövriyyəsinin artımı iki - reklama qədər və sonrakı dövrlərə görə ölçülür. Bu zaman obyektiv amillərin (qiymətin, məhsul satışı ilə bağlı bazar şəraitin dəyişilməsi təsirini nəzərə almaq məqsədi ilə düzəldici əmsallardan istifadə olunur. Belə əmsal kimi mövsümlülük indeksi və ya qiymət indeksi tətbiq oluna bilər. Reklamın effektivliyinin qiymətləndirilməsinin digər üsulu eyni bir dövr ərzində reklam tədbirləri həyata keçirilən və keçirilməyən analoji iki müəssisədə məhsul satışı haqqında məlumatlardan istifadə edilməsinə əsaslanır.

Praktikada reklamın iqtisadi effektivliyinin müyyənləşdirilməsi zamanı reklamın tətbiqi nəticəsində əldə edilən əlavə mənfəətin reklama çəkilən xərclərə nisbəti metodundan geniş istifadə olunur:

$$E_r = (Ə_{rq} - Ə_{rs}) \ x \ (TG - TX_s) \ /100RM_x$$

Burada, E_r -reklamın iqtisadi effektivliyi göstəricisi; $Ə_{rq}$-reklam tətbiq edilən dövrə qədər əmtəə dövriyyəsinin həcmi, mln manat; $Ə_{rs}$-reklam tətbiq edildikdən sonra əmtəə dövriyyəsinin həcmi, mln manat; TG -reklam edilən məhsulların qiymətinə %-lə nisbətdə ticarət güzəştlərinin həcmi; TX_s -pərakəndə əmtəə dövriyyəsinə faizlə nisbətdə tədavül xərclərinin səviyyəsi; RM_x -reklam edilən məhsullara çəkilən xərclər, mln manat.

Əgər əlavə əmtəə dövriyyəsi $(Ə_{ə.d})$ və ya əlavə ticarət güzəştlərinin $(Ə_{t..ğ})$ həcmi kimi dəyər göstəricilərindən istifadə etmiş olsaq, onda reklamın iqtisadi qiymətləndirilməsi zamanı aşağıdakı düsturdan istifadə etmək olar:

$$Ə_{ə.d} = (Ə_{rq} - Ə_{rs})/100; \ Ə_{t..ğ} = (Ə_{rq} - Ə_{rs})x/TG \ /100RM_x$$

Lakin nəzərdən qaçırmaq lazım deyil ki, bir çox hallarda iqtisadi effektivliyi müxtəlif reklam tədbirlərinin həyata keçirilməsinə çəkilən xərclərlə müqayisə etmək üçün əldə edilmiş məlumatlar yetərli olmur. Bu məqsədlə reklamın effektivliyini konkret məhsul növü üzrə reklam tədbirlərinin aparılmasına çəkilən xərclərə nisbəti ifadə edən rentabellik (*konkret məhsul növü üzrə*) göstəricisindən istifadə olunur:

$$E_r = M \ x \ 100/ \ TX$$

Reklamın effektivliyinin müəyyənləşdirilməsi kifayət qədər çətin bir proses olduğundan, o, tam həll edilməyən problemlər sırasına daxildir. Problemin mürəkkəbliyi ondan ibarətdir ki, reklamın effektivliyi müəyyən məqsədə nail olduqdan sonra aşkar edilir.

Reklam bazarının tutumunun formalaşmasında mühüm faktor müqayisəli effektivlik (bütün kapital qoyuluşlarının həcmində reklama qoyulan vəsaitlərin xüsusi çəkisi) hesab edilir. Təsərrüfat subyektləri reklama çəkdikləri xərcləri digər istiqamətlərə (məsələn, məhsul çeşidinin genişləndirilməsi, firmanın yeni ştat vahidlərinin artırılmasıı və s.) sərf edə bilərlər. Deməli, reklam tədbirlərinin həyata keçirilməsi hesabına əldə edilən əlavə mənfəətin həcmi maliyyə vəsaitlərinin alternativ istiqamətlər üzrə qoyuluşu nəticəsində əldə edilən mənfəətin həcmindən çox olmalıdır. Məhz bu, reklamın müqayisəli səmərəliliyini müəyyənləşdirir [6]. Daha doğrusu, müqayisəli səmərəlilik reklamın səmərəliliyi ilə digər istehsal istiqamətlərinin (istehsala investisiyalar, yenidən qurulma, diversifikasiya və s.) səmərəliliyi arasında fərqdən ibarətdir.

Təbiidir ki, belə bir sual meydana çıxır: səmərəli reklam nədir və o necə təyin edilir? Səmərəliliyin hesablanması sahəsində mövcud olan ümumi yanaşmadan istifadə etməklə deyə bilərik ki, o, səmərənin məsrəflərə nisbət ifadəsidir. Səmərə çox, məsərf az olduqda, səmərəlilik yüksək, əksinə olduqda isə azlıq təşkil edir.

Reklamın effektivliyi müxtəlif situasiyalardan və reklam verənlərdən asılı olaraq, digər parametrlərlə də xarakterizə oluna bilər. Mahiyyət ehtibarı ilə bu tip müxtəliflik konkret spesifik hallar üçün effektivliyin müəyyənləşdirilməsinin əlverişli olmasından ibarətdir. Ayrı-ayrı reklam növləri üçün xarakterik olan parametrlərdən istifadə kifayət dərəcədə etibarlı informasiyanın əldə edilməsinə imkan verir. Nəzərə almaq lazımdır ki, reklam spesifik xarakter daşıdığından, onun effektivliyinin müəyyənləşdirilməsi bir parametrə deyil, parametrlər toplusundan istifadəyə əsaslanır [1].

Reklamın effektivliyinin müəyyənləşdirilməsi zamanı müxtəlif metodlar və üsullardan istifadə olunur. Onları üç əsas qrupda birləşdirmək mümkündür:

1. Empirik üsul. Reklamın effektivliyinin müəyyənləşdirilməsinin empirik metodu özündə aşağıdakıları birləşdirir:

1.1. Reklamın effektivliyinin bilavasitə aşkar edilməsinə əsaslanan birbaşa üsul. Bu, bir qayda olaraq iştirakçıların, alıcıların, əməkdaşların, ekspertlərin və ya ayrı-ayrı əhali qruplarının testləşdirilməsi və ya sorğuların aparılması ilə həyata keçirilir.

1.2. Reklamla birbaşa əlaqədar parametrlərin müəyyən edilməsinə əsaslanan dolayı üsul.

1.3. Kompleks sorğu metoduna əsaslanan reklamın effektivliyinin müəyyənləşdirilməsi üsulu. Sorğu respondentlər və ya müştərilərlə söhbət etməklə aparılır, bu əsasda müvafiq anket doldurulur və əldə edilmiş məlumatların kompüter işlənməsi həyata keçirilir.

2. Hesablama (qiymətləndirmə) üsulu. Effektivliyin müəyyənləşdirilməsinin bu üsulu istər praktiki, istərsə də elmi baxımdan geniş tətbiq edilməklə ümumi effektivliyi tam və ya hissəvi təşkil edən elementlər (müqayisə və birbaşa metodlarla təyin edilir) toplusuna əsaslanır. Təbiidir ki, reklamın effektivliyini kəmiyyət baxımından müqayisə

etmək üçün reklam tədbirlərinin aparıldığı dövr ərzində sövdələşmələrin kəmiyyətinə və ya cəlb edilən müştərilərin sayına xüsusi diqqət yönəldilməlidir. Bütün hesablama (qiymətləndirmə) üsulları üç əsas parametrin aşkar edilməsinə əsaslanır:

1. Bütün potensial reklam istehlakçılarının sayı.

2. Alqı-satqı əqdlərinin bağlanması üçün informasiyalara ehtiyacı olan bütün reklam istehlakçılarının sayı.

3. Alqı-satqı əqdlərinin bağlanması üçün informasiyalardan istifadə edən bütün reklam istehlakçılarının sayı.

Yuxarıda qeyd edilən üç parametrlər içərisində üçüncü göstəricinin müəyyənləş-dirilməsi kifayət qədər çətin olduğundan, əksər hesablamalar əsasən birinci iki göstərici üzrə aparılır.

3. Analitik üsul. Reklamın effektivliyinin bu üsulla müəyyənləşdirilməsi qiymət-ləndirmə xarakterli informasiyalara əsaslanmaqla aşağıda qeyd edilən məqsədlərə xidmət göstərir:

- ölçünün dəqiqliyinin yaxşılaşdırılmasına;
- reklam verən şirkətlərə bir və ya bir neçə müraciətləri və minimal xərclərini nəzərə almaqla reklamın özünü ödəmə müddətinin hesablanmasına;
- reklamın müxtəlif növ məhsullara və ya onların dəyərinə təsir dərəcəsini aşkar etməyə;
- mövsümün təsirini və xarici iqtisadi dəyişiklikləri uçota almağa;
- reklama rəqabət mühitinin təsirini qiymətləndirməyə.

Analitik üsul özünün mahiyyətinə görə ən çətin və etibarlı metod hesab olunur. Hesablama metodu kimi bu metod da empirik metodun nəticələrindən istifadəyə əsalanır.

Praktiki olaraq effektivliyin təhlili üzrə həyata keçirilən işləri iki əsas istiqamət üzrə qruplaşdırmaq mümkündür:

1. Reklam tədbirlərinin kommunikativ effektivliyinin təhlili.

Kommunikativ effektivliyin müəyyənləşdirilməsi və proqnozlaşdırılması reklam tədbirlərinin planlaşdırılmasının əsası hesab edilir və nəzərdə tutulan reklam müra-ciətlərinin məqsəd auditoriyasına nə qədər effektiv formada ötürülməsini bir növ qiymətləndirir. Təbiidir ki, reklam tədbirlərinin kommunikativ effektivliyini qiymət-ləndirmək üçün ilk növbədə məqsəd auditoriyası ilə əlaqələrin (kontaktların) sayını təyin etmək lazımdır. Nəzərə almaq lazımdır ki, məqsəd auditoriyası ilə əlaqələrin (kontaktların) sayı əsasən:

- reklam yayım vasitələrinin seçilməsindən (hər bir reklam daşıyıcısı bir sıra ölçülərə və stuktura malik olmaqla konkret auditoriyaya malikdir);
- məqsəd auditoriyanın orta ölçülərindən (bir televiziya və ya radio verilişlərini dinləyənlərin orta sayından, jurnal və ya qəzetin bir nömrəsini oxuyanların orta sayından);

- auditoriyanın sosial-demoqrafik, peşəkarlıq, davranış strukturundan;
- auditoriyanın sifarişlərinə reklam təkliflərinin adekvatlıq dərəcəsindən;
- reklam müraciətlərinin sayı, ölçüləri və yerləşmə yerlərindən;
- reklam materiallarının keyfiyyətindən, forma və məzmunundan asılıdır.

Lakin məqsəd auditoriyası ilə əlaqələrin (kontaktların) sayının təyin edilməsi zamanı bir sıra çətinliklər meydana çıxır. Belə çətinliklərdən biri məhz real ədədi qiymətin sıfırla regionda yaşayan əhalinin sayı arasındakı intervalda maksimal ehtimalla yerləşməsindən ibarətdir. Bu baxımdan, reklam verənlərin bütün fəaliyyəti bilavasitə intervalın sərhədini məhdudlaşdırmağa istiqamətlənib. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, kommunikativ effektivliyin hesablanması zamanı mövcud çətinlikləri aradan qaldırmaq üçün obyektiv informasiya mənbəyi kimi bu sahədə ixtisaslaşmış təşkilatların apardıqları tədqiqatların nəticələrindən istifadə etmək daha məqsədəuyğundur [5], [2].

Reklam verənlər tərəfindən müxtəlif tədqiqat təşkilatlarına təhlil üçün təqdim olunan ilkin (baza) materiallar bir qayda olaraq kifayət qədər müxtəliflik təşkil edir. Bu isə öz növbəsində aparılan tədqiqatın nəticələrinin tədqiqatın məqsəd və vəzifələrinin başa düşülməsi səviyyəsindən, tədqiqatın hansı ideologiya əsasında qurulmasından, hansı metodoloji baza əsasında həyata keçirilməsindən, ilkin materialların keyfiyyətindən asılı olmasını müəyyənləşdirməyə imkan verir.

Təbiidir ki, təhlil üçün ilkin materialların seçilməsi problem məsələ olmaqla həddindən artıq əhəmiyyət kəsb edir. Buna görə, ilkin informasiya etibarlı olmalı (obyektin faktiki vəziyyətini maksimum dəqiq təsvir etdiməlidir) və hesablamaların aparılmasına imkan verən ölçü vahidləri ilə ölçülməlidir.

2. Dəyər ifadəsində məhsul satışı həcminin (mənfəət, dövriyyə) reklam tədbirlərinə çəkilən xərclərə nisbəti əsasında müəyyənləşdirilən maliyyə (kommersiya) effektivliyinin təhlili. Maliyyə (kommersiya) effektivliyinin təhlili üzrə işlər bir qayda olaraq reklam verənlərin struktur bölmələri tərəfindən aparılır. Praktikada reklamdan istifadə nəticəsində əldə edilən əlavə mənfəətin ona çəkilən xərclərə nisbət əsasında müəyyənləşən reklamın maliyyə (iqtisadi) effektivliyinin qiymətləndirilməsi metodu geniş tətbiq edilir. Maliyyə (iqtisadi) effektivliyinin müəyyənləşdirilməsinin sadə metodu eksperimentin nəticələrinin təhlilinə əsaslanır. Bunun üçün bütün bərabər şərtlər daxilində firmanın müəyyən zaman kəsiyində müxtəlif dərəcəli reklam tədbirləri ilə öz fəaliyyətini həyata keçirdiyi uyğun iki və daha çox lokal bazar seçilir.

Nəticə

1. Təkrar istehsal prosesində reklamın iqtisadi funksiyası makro və mikroiqtisadi səviyyələrdə insanların təsərrüfat fəaliyyətinə təsir etmək, onları məhsul və xidmətlər haqqında zəruri informasiyalarla təmin etmək, tələbi formalaşdırmaq və əmtəə dövriyyəsini yüksəltməkdən ibarətdir. Reklamın inkişaf etməsi məhsul və

xidmətlər bazarında rəqabət mübarizəsini kəskinləşdirir, vəsaitlərin dövr sürətini artırır və bütövlükdə iqtisadi fəaliyyətin səmərəliliyini yüksəldir.

2. Ölkəmizdə reklam bazarı mühüm fərqləndirici xüsusiyyətə malikdir - bütün Azərbaycan iqtisadiyyatı kimi cavandır, dinamik orqanizm kimi mütəmadi olaraq inkişaf edir, strukturunu dəyişir. Reklamın təsiri altında multiplikasiya effektivliyi yarada biləcək əhalinin avtonom xərcləri artır, istehsal gücləri kifayət qədər yüksəlir, əhali məşğulluğu artır.

3. Reklama qoyulan investisiyalar akselatorun kəmiyyətini artırır, iqtisadiyyatın tsiklik inkişafına aktiv təsir göstərir. Formalaşmış reklam bazarının olmadığı bir şəraitdə reklama çəkilən xərclər firmadaxili xərc kimi dəyərləndirilir. Lakin formalaşmış bazar şəraitində reklam xərcləri müəssisədən kənara çıxaraq, tədavül sferasına daxil olur və bu da bütövlükdə makroiqtisadi səviyyədə maliyyə vəsaitlərinə qənaətə gətirib çıxarır.

4. Kəmiyyət ifadəsində reklam bazarı bu bazarda məhsul və xidmətlərin dövriyyə sürətinin artması, keyfiyyət baxımından isə reklamın müqayisəli effektivliyi ilə xarakterizə olunur.

Ədəbiyyat

[1] Богатин Ю.В., Швандар В.А. Оценка эффективности бизнеса и инвестиций. М., 2009
[2] Матанцев А.Н. Эффективность рекламы М., 2012.
[3] Назайкин А.Н. Эффективная продажа рекламы. Технология получения заказа на покупку рекламных площадей, эфира, пространства. М., 2009.
[4] Назайкин А.Н. Эффективная реклама в прессе. Москва, 2011.
[5] Панкратов Ф.Г., Серегина Т.М. Рекламная деятельность, Москва, 2011.
[6] Черников Ю. Почему реклама? Индустрия рекламы. 2012, №8.

MARKETİNQ LOGİSTİKASI: ÜMUMİ VƏ FƏRQLİ YANAŞMALAR

T.İ. İmanov
i.e.d., prof., UNEC
Z.H. Əhmədov
dissertant, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 25 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 25 September 2017; published online 05 October 2017

Xülasə

İqtisadi inkişafın müasir mərhələsində marketinq logistikasına təsərrüfat subyektlərinin bazar rəqabəti strategiyasının mühüm elementi kimi baxmaq lazım gəlir. Odur ki, marketinq logistikası bütün fəaliyyət növlərinə münasibətdə koordinasiya xarakteri daşıyır. Bunsuz isə biznesin optimal formada idarə edilməsi qeyri-mümkündür.

Açar sözlər: logistika, marketinq, logistik sistemlər, marketinq logistikası, iqtisadi təcrübə.
Jel classification: M31

MARKETING LOGISTICS: GENERAL AND OTHER APPROACHES

Abstract

At the present stage of economic development, marketing logistics should be considered as a key element of the company's competitive market strategy. Taking into account that marketing logistics is coordinating in relation to all actions that are related to customer service in one way or another, introduction of the principles of marketing logistics into the economic practice and the formation of its system requires the availability of a powerful information system without which effective management is impossible business.

Keywords: logistics, marketing, logistics system, marketing logistics, economicm practice.

МАРКЕТИНГОВАЯ ЛОГИСТИКА: ОБЩИЕ И ДРУГИЕ ПОДХОДЫ

Резюме

На современном этапе экономического развития маркетинговую логистику необходимо рассматривать как ключевой элемент конкурентной рыночной стратегии компании. Учитывая, что маркетинговая логистика носит координационный характер по отношению ко всем действиям, так или иначе имеющим отношение к обслуживанию потребителей, внедрение в хозяйственную практику принципов маркетинговой логистики и формирование ее системы

предусматривает необходимость наличия мощной информационной системы, без которой невозможно эффективное управление бизнесом.

Ключевые слова: логистика, маркетинг, логистическая система, маркетинговая логистика, экономической практики.

Giriş. Müasir iqtisadi şəraitdə marketinq və logistikanın ayrı-ayrı avtonom funksiyaları "marketinq logistikasının" inteqrativ funksiyasına çevrilmişdir. İnkaredilməz həqiqət ondan ibarətdir ki, həm marketinq, həm də logistika yeni münasibətlər sisteminin məhsulu olmaqla bir elm, eləcə də menecmentin funksional sahəsi kimi özünəməxsus empirik təbiətə malikdir. Hər iki elm sahəsinin təkamül tarixləri göstərir ki, istər marketinq, istərsə də logistika yaranmış vəziyyətdən asılı olaraq, konkret zaman kəsiyi üçün klassik həll variantından istifadə imkanlarına malik olmadığına görə belə situasiyalarda praktik baxımdan evristik çıxış yolu tapılmasını obyektiv zərurətə çevirir.

Bu gün qarşıda duran məsələ ayrı-ayrılıqda təkcə marketinq və ya logistika çərçivəsində deyil, eyni zamanda onların fəaliyyət sahələrinin kəsişdiyi sferada yeni həll variantlarının axtarılmasından ibarətdir.

Marketinq və logistikanın qarşılıqı fəaliyyəti kontekstindən marketinq logistikasının mahiyyətinə varsaq, görərik ki, bu məsələ özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Bütövlükdə həll etdikləri məsələlər baxımından logistika və marketinq tamın hissələri, yəni bütöv bir biznes sisteminin element-ləridir [5, s. 5]. Marketinq və logistika arasında üzvi əlaqələr o qədər güclüdür ki, çox vaxt biznesin bu iki mühüm sahəsinin maraq dairəsini müəyyənləşdirmək mürəkkəblik yaradır [14, s. 81]. Təbiidir ki, logistik idarəetməyə kompleks yanaşma bu idarəetmənin məhsul istehsalının təşkili, marketinq, təsərrüfat subyektlərinin maliyyə fəaliyyəti ilə əlaqələndirilməsini zəruri edir. Logistika və marketinq arasında fərqli cəhətləri müəyyənləşdirmək üçün ilk növbədə onların tədqiqat obyekti, predmeti, tədqiqat metodları və bu elm sahələrindən istifadə etməklə əldə edilən nəticələrə diqqət yetirmək lazım gəlir (cədvəl 1).

Cədvəl 1.Marketinq və logistikanın tədqiqat obyekti və predmetinin müqayisəli xarakteristikası

Müqayisə edilən parametrlər	Marketinq	Logistika
Tədqiqat obyekti	Bazar və konkret məhsul və xidmət-lərin konyunkturu	Məhsul və xidmətlər bazarda dövr edən material axınları
Tədqiqatın predmeti	Satılan məhsullar və ya göstərilən xidmətlər üzrə bazar davranışlarının optimallaşdırılması	Material axınlarının idarə edilməsi proseslərinin optimallaşdırılması
Tədqiqat metodu	Konkret məhsul və xidmətlər üzrə tələb və təklifin konyunkturunun tədqiqi metodları	Məhsulötürücü şəbəkənin yaradıl-masına sistemli yanaşma
Yekun nəticə	"İstehsal-satış strategiyaları və firma-nın nə, nə qədər, hansı	Logistkanın məqsədinə (minimum məsrəflərlə lazımi məhsulu tələb olunan həcmdə,

	bazar və müddət ərzində, hansı əlverişli şərtlərlə istehsal olunmalıdır" taktikası üzrə məsləhətlər vermək	zəruri keyfiyyət-lərlə etiyac olan yerə) cavab verən sistemi layihələndirmək

Bütün bunlarla yanaşı, marketinq və logistika arasında fərqli cəhətlərin təhlili göstərir ki, marketinq xarici mühitdə, logistika isə daxili mühitdə transaksiyanın təşkil edilməsinə xidmət göstərir. Burada xüsusi ilə qeyd olunmalıdır ki, idarəetmə konsepsiyası kimi marketinq bazara, logistika isə istehlakçı üçün material və informasiya axınlarının faydalılığını yüksəltməyə imkan yaradan axınlara istiqamətlənib. Qeyd olunan fərqli cəhətlərə baxmayaraq, bütövlükdə marketinq və logistikanın yerinə yetirdiyi funksiyalar, demək olar ki, üst-üstə düşür.

Marketinq logistikasının malik olduğu mahiyyət və daşıdığı məzmunla əlaqədar mövcud olan baxışları üç qrupa bölmək olar.

Birinci qrup. Marketinq logistikası ***marketinqin logistləşdirilməsini*** özündə ehtiva edir. Bu halda, marketinq logistikasının tədqiqat predmetini marketinq sistemində axın proseslərinin optimallaşdırılması təşkil edir.

Buna görə də, qarşıda duran bir sıra gündəlik vəzifələrlə bərabər, sistemin normal fəaliyyətini təmin edən əsas məqsədlərdən biri mövcud olan marketinq sistemini tələb olunan yüksək həddə qədər permanent təkmilləşdirilməsindən ibarətdir [13, s. 109]. Bu kontekstdə "marketinq logistikası" anlayışı yerinə daha əlverişli hesab edilən "marketinqin logistikası" anlayışından istifadə edilməsi daha məqsədəuyğun hesab olunur. Burada söhbət marketinq sistemində logistik fəaliyyətdən gedir. Daha doğrusu, marketinq logistikası marketinq və logistikanın təsərrüfat maraqlarının kəsişdiyi sferanı əhatə etdiyindən, marketinq fəaliyyətinin özünə optimallaşdırma vasitəsi kimi logistik yanaşma təklif edilir.

İkinci qrup baxışlar ***bölüşdürücü logistika*** ilə bağlıdır. F. Kotlerə görə logistika məhsulların istehlakçılara çatdırılmasının təşkili prosesidir. "Marketinq logistikası" söz birləşməsi isə istehlakçı tələbini ödəmək məqsədi ilə yaranma mənbəyindən təyinat məntəqəsinə qədər material və hazır məhsul axınlarının "planlaşdırılması", "tətbiqi", "nəzarəti" mənasında istifadə olunur [7, s. 546]. Göründüyü kimi, F. Kotlerin logistikaya verdiyi bu təyinat logistikanın fəaliyyət sferasını məhdudlaşdırmaqla bərabər, onun - bütün növ iqtisadi axınların kompleks idarə edilməsi kimi başlıca məqsədini diqqətdən kənarda saxlayır. Təbiidir ki, bütün bunlarla yanaşı, bazar münasibətləri şəraitində müəssisələrin müvəffəq fəaliyyət göstərmələri üçün marketinqin oynadığı rol və daşıdığı əhəmiyyət nəzərə alınmaya bilməz. Lakun bu heç də mövcud fəaliyyət növünün qlobal şərhi üçün şərait yaratmır. Bazar haqqında tam və etibarlı informasiya verməklə, marketinq perspektiv dövrdə rəqabət üstünlüklərinə nail olmaq məqsədi ilə müəssisələrin bütün struktur bölmələrini qarşılarında duran vəzifələrin optimal şəkildə yerinə yetirilməsinə istiqamətləndirir. Deməli, marketinq müəssisələrin kommersiya fəaliyyətinin başlanğıc mərhələsi hesab edilir

və onun logistika və ticarət kimi növbəti mərhələləri üçün istiqamətləri müəyyənləşdirir [17, s. 8]. Lakin bu, heç də inkişaf etmiş bazar münasibətləri şəraitində logistikanın fundamental paradiqmalarından istifadə edilməsinə baxmayaraq, marketinqin logistikanın tərkib hissəsi olmasına əsas vermir. Təkzibedilməz həqiqət ondan ibarətdir ki, təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin təmin edilməsi məhz müştəri tələbatının tam və dolğun ödənilməsi əsasında mümkündür.

Marketinq logistikasına konseptual yanaşmanın mahiyyəti ondan ibarətdir ki, marketinq-logistika yalnız bir "marketinq-satış" altsistemini - daha doğrusu, məhsulların fiziki bölüşdürülməsini əhatə etdiyindən, marketinq logistikasına marketinq sistemində, büitövlükdə logistika kimi baxılır [9, s. 443]. Bu baxımdan, "marketinq-logistika" anlayışı özünü iqtisadi baxımdan tam formada doğrultmadığı üçün lokanik şəkildə "marketinq logistikası", həmçinin "istehsal logistikası" və ya "maliyyə logistikası" anlayışlarından istifadə edilməsi daha məqsədəuyğundur.

Marketinq təkcə məhsul satışı ilə məhdudlaşmır, eyni zamanda müəssisənin bütün təsərrüfat fəaliyyətinə nüfuz etməklə logistika ilə (xammal və materialların tədarükü də daxil olmaqla, bölüşdürmə və təchizat kimi funksiyaların koordinasiyası prosesində) qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Nəzərə almaq lazımdır ki, marketinq logistikası marketinq tədqiqatları aparılan zaman logistikanın əsas kateqoriyaları hesab edilən axın və ehtiyatları ənənəvi tədqiqat predmetləri sırasına daxil edir. Təbiidir ki, material, maliyyə, informasiya və digər iqtisadi resursların dövriyyə sürətinin artırılması bazarın marketinq təbiətinə – logistikanın itələmə deyil, dartma sisteminə əsaslanır [6].

Üçüncü qrup mütəxəssislərin mövqeyinə gəldikdə, qeyd etmək lazımdır ki, onların fikrinə görə marketinq logistikası marketinq və logistikanın maraq dairəsinin kəsişdiyi sferanı özündə ehtiva edir [15, s. 44]. Daha doğrusu, marketinq logistikasını logistik dövriyyədə xərclərin minimumlaşdırılması zamanı tədiyə qabiliyyətli tələbin tam, vaxtında və keyfiyyətli ödənilməsi məqsədi ilə təsərrüfat subyektlərinin malik olduğu iqtisadi resursların idarə edilməsi metodları toplusu kimi müəyyənləşdirmək olar. Marketinq logistikasının genezisi cədvəl 2-də verilmişdir [16].

Cədvəl 2. Marketinq logistikasının genezisi

Atributlar kompleksi	**Nəzəri yanaşma**		
	Marketinq	Logistika	Marketinqin logistikası
Məqsədyönlülük	Mənfəətin artırılması	Məcmu xərclərin azaldılması	Mübadilə prosesinin optimallaşdırılması
Nəzəri-tətbiqi mahiyyəti	Tələb dəyişkənliyi	Tələbin ödənilməsi	Tələbin formalaşdırılması
İdarəetmə obyekti	Məqsəd bazarı	İqtisadi resursların axını	Əmtəə tədavülü
İdarəetmənin xarakteri	Bazar	Sistemli	Kombinələşdirilmiş
Təşkilati forma	Marketinq sistemi	Logistik sistem	İnteqrativ sistem

Marketinq logistikası aşağıdakı cəhətlərlə xarakterizə olunur:

- istehsalın bazar yönümlülüyü və firmanın iqtisadi resurs axınlarının optimal təşkili əsasında əmtəə mübadiləsinə məqsədyönlü istiqamətlənmə;
- marketinq planlarının işlənib hazırlanması və reallaşdırılması, eləcə də logistik servis sisteminin inkişaf etdirilməsi hesabına təsərrüfat subyektlərinin məhsul və xidmətlərinə aktiv tələbi formalaşdırmaq;
- marketinq alətləri vasitəsi ilə seçilmiş məqsəd bazarında logistik idarəetmə-nin obyekti hesab olunan iqtisadi resursların mübadiləsini həyata keçirmək;
- bazar yönümlü istehsalı və təsərrüfat subyektlərinin iqtisadi resurslarının axın sistemini özündə birləşdirən kombinələşdirilmiş formaya malik idarəetməni təşkil etmək;
- firma və şirkətlərdə marketinqin və mikrologistik sistemlərin idarə edilməsi imkanlarına malik inteqrativ sistemi yaratmaq və s.

Marketinq (məhsul, qiymət, yer və məhsul yeridilişi) və logistik (zəruri məhsul, keyfiyyət, kəmiyyət, vaxt, yer və xərclər) kompleksləri özündə birləşdirir. Hər bir kompleksə daxil olan bu elementləri tam halda birləşdirsək və bura istehlakçılara göstərilən yüksək logistik servis xidmətlərini də əlavə etmiş olsaq, nəticə etibarı ilə marketinq logistikası kompleksinə nail ola bilərik. Mahiyyət baxımından marketinq logistikası kompleksi əsasən uyğun logistik servis xidmətləri sistemindən və bu xidmətlərə fərdi tələbatları formalaşmış istehlakçılardan ibarətdir. Logistik servis xidmətləri sistemi lazımi vaxtda lazım yerə tələb olunan sayda çatdırılacaq müvafiq keyfiyyətlərə malik məhsulları xarakterizə edən parametrləri (istehlakçı sifarişlərini və ödəməyə hazır olduğu qiymətləri) nəzərə alır. İqtisadi axınların optimal hərəkətinə imkan verən belə peşəkar xidmət sistemi elə işlənib hazırlanmalıdır ki, onun reallaşmasına çəkilən xərclər minimum olsun [15, s. 23]. Marketinq logistikasının konsepsiyası iqtisadi axınların optimal hərəkətini təşkil etmək hesabına firma və şirkətlərin təsərrüfat fəaliyyətinin effektivliyini yüksəltmək və bununla da dayanıqlı rəqabət üstünlüklərini əldə etmək üçün istehlakçı tələbatının ödənilməsinə yönəldilmiş baxışlar sistemini özündə birləşdirir. Bu isə öz növbəsində, təbii ki, firma və şirkətlərin təsərrüfat fəaliyyətində marketinq və logistik konsepsiyalardan istifadə zamanı sistemli yanaşma prinsipinə əsaslanır və müasir informasiya texnologiyalarından aktiv istifadə edilməsini nəzərdə tutur.

Marketinq logistikasının konsepsiyası müəssisənin bütün struktur bölmələrinin birgə və razılaşdırılmış fəaliyyətini təmin etməklə onları istehlakçı tələbinin tam və dolğun ödənilməsinə istiqamətləndirir. Müəssisənin funksional bölmələrinin əməkdaşları konsepsiyanın işlənib hazırlanmasında aktiv iştirak etməlidirlər. Belə bir razılaşdırılmış iş birliyi struktur bölmələrdə motivasiya yaratmaqla yanaşı, həmçinin yeni ideyaların tətbiqi hesabına konsepsiyanın özünün mahiyyətini yaxşılaşdıra bilər.

Beynəlxalq təcrübəni nəzərə alaraq qeyd edə bilərik ki, marketinq-logistik konsepsiya marketinq-logistik fəaliyyətin məqsədi, strategiyası və marketinq-logistik sistemlər kimi əsas struktur elementlərdən təşkil olunur. Bütün bərabər şərtlər daxilində ümumi yanaşma ondan ibarətdir ki, marketinqin qarşısında istehlakçı tələbinin ödənilməsi, logistikanın qarşısında isə bütün istehsal qrafik və planlarının ən az xərc hesabına təmin edilməsi kimi vəzifə durur. Buna görə marketinq logistikasının başlıca məqsədi minimum logistik xərclərlə istehlakçıların tədiyə qabiliyyətli tələbinin tam, vaxtında və keyfiyyətli ödənilməsindən ibarətdir.

Diqqətə almaq lazımdır ki, qloballaşan dünyada marketinq logistikasının konsepsiyası müəyyənləşdirdiyi məqsədlərə qarşı çox ciddi tələblər irəli sürür. Belə ki, hər bir məqsəd kəmiyyət və keyfiyyət xarakteristikalarına və məqsədə nail olmaq üçün konkret vaxt intervalına malik olmalıdır. Bu baxımdan, logistik strategiyanın məqsədini aşağıdakı kimi formalaşdırmaq mümkündür:

- ümumi logistik xərclərin minimumlaşdırılması;
- istehlakçılara xidmət səviyyəsinin yüksəldilməsi;
- mənfəətin qısamüddətli maksimumlaşdırılması;
- rəqiblər üzərində maksimal üstünlüklərin əldə edilməsi [3, s. 19].

Təbiidir ki, bir sistem kimi marketinq logistikası baxımından istehlakçılara xidmət səviyyəsinin yüksəldilməsi və rəqiblər üzərində maksimal üstünlüklərin əldə edilməsi bir məqsəd olaraq bu gün də öz aktuallığını saxlayır.

Problemin tədqiqi zamanı logistikanın və marketinqin bir-birindən fundamental fərqlənən təşkil prinsiplərini (tələbi gözləmə və tələbə cavab vermə) və onlara ayrılan vaxt faktorunu nəzərə almaq lazım gəlir. Vaxt təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyini müəyyənləşdirən başlıca amildir, informasiya isə iqtisadi axınların idarə edilməsi ilə bilavasitə əlaqədar olan yeni istehsal amili kimi vaxt faktorunun idarə edilməsinə real imkanlar yaradır. Müasir informasiya texnologiyalarının geniş tətbiq sahəsi tapmasına rəğmən, təsərrüfat subyektlərinin tələbin gözlənilməsi şəraitinə uyğun fəaliyyət göstərmələri, demək olar ki, "səbirsiz dövr" üçün xarakterik olan ənənəvi praktikadır. Təsərrüfat subyektlərinin "tələbə cavab vermə" strategiyası ilə fəaliyyət göstərmələri isə real vaxt rejimində idarəetmə potensialını tam ortaya çıxarmaqla informasiya mübadiləsinə əsaslanır (cədvəl 3):

Cədvəl 3. Təsərrüfat subyektlərinin "tələbə cavab vermə" strategiyası

Tələbi gözləmə rejimində işləyən dəyər zənciri	**Tələbi cavab rejimində işləyən dəyər zənciri**
İstehsal səviyyəsində	
Maliyyə proqnozlaşdırılması	İstehlakçıya yönəldilmiş proqnozlaşdırma
İstehsal sahələrin material resurslarına tələba-tının planlaşdırılması	İstehlakçıların material resurslarına tələ-batının planlaşdırılması
Ehtiyatların yaradılması	İstehlakçı sifarişləri əsasında ehtiyatların yaradılması

Mövcud ehtiyatlardan məhsulgöndərmələrin mümkünlüyü	Alternativ məhsulgöndərmələrin mümkün-lüyü
Topdansatış və ya bölüşdürmə mərkəzi səviyyəsində	
Sifariş nöqtəsi əsasında ehtiyatların idarə edilməsi strategiyası. Sığorta ehtiyatları. Proq-nozlaşdırma	İstehlakçı sifarişləri əsasında ehtiyatların idarə edilməsi strategiyası. Məhsul qrupları üzrə ehtiyat-ların yaradılması. Ehtiyatların fasiləsiz bərpa edilməsi
Ehtiyatiların hərəkətinin ilkin qiymətləndiril-məsi. Sabit ehtiyatlar. Material resuslarının d-övriyyəsi. Satışın həvəsləndirilməsi üçün yaradılan ehtiyatlar	Fasiləsiz material axınları. Material resus-larının dövriyyəsi. Satışın həvəsləndirilməsi üçün yaradılan ehtiyatlar
Ehtiyatların həcminin artıb-azalması. Qeyd edilmiş qrafik əsasında ehtiyatların bərpa edilməsi	İstehlakçı sifarişləri əsasında ehtiyatların həc-minin artıb-azalması
Gəlir gətirən istehsal sahələrinin ideologiyası	Servis mərkəzinin ideologiyası
Pərakəndə ticarət səviyyəsində	
Ehtiyatların idarə edilməsi modelləri. Sifariş nöqtəsi. Sığorta ehtiyatı	Ehtiyatların idarə edilməsi modelləri. Satış nöqtəsi. Sığorta ehtiyatı
Məhsulgöndərmələrin həcmi	İstehlakçı sifarişlərinə görə müəyyənləşdi-rilən məhsulgöndərmələrin həcmi
Ehtiyatların bərpa edilməsinin ciddi qrafiki	Tələbə istiqamətlənən sifarişlərin bərpa edilməsi
Maliyyə göstəriciləri. Seqmentlər üzrə satışın həcmi. Dövriyyənin orta sürəti. Mənfəətin orta həcmi	Səmərəlilik göstəriciləri. Seqmenti əhatə etmə dərəcəsi. Seqmenlər üzrə əmtəəlik ehtiyatların dövriyyəsi. Ayrı-ayrı məhsul növləri üzrə mən-fəətin həcmi

Cədvəl 3-dən göründüyü kimi, marketinq kanalının bütün iştirakçıları nə vaxt öz fəaliyyətlərini sinxronlaşdırmağa nail olurlarsa, əlavə dəyər yaratmadan logistik dövriyyədə mövcud olan məcmu ehtiyatların həcminin azaldılmasına və əlavə xərc-lər tələb edən təkrar işlərin aradan qaldırılmasına imkanlar yaranır [3].

Nəticə

Ayrı-ayrı təsərrüfat subyektlərində marketinq logistikasının konsepsiyasından istifadə edilməsi hesabına əldə edilən nəticələri ümumi formada aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Ehtiyatların rasional və dəqiq yerləşdirilməsi, eləcə də onların səviyyəsinə nə-zarət işinin gücləndirilməsi nəticəsində məhsul satışı həcminin artırılmasına nail olu-nur və istehlakçılara yüksək səviyyədə xidmət göstərilməsi təmin edilir.

2. Bazar situasiyalarının, o cümlədən istehlakçı tələbinin dəyişilməsinə tez reak-siya vermək qabiliyyətinə malik olan marketinq logistikası sistemi "isteh-lakçılara xidmət tsiklinin" (sifarişlərin verilməsi və məhsulların göndərilməsi arasında vaxt müddəti) qısaldılmasını və müvafiq olaraq istehlakçılar da ehtiyatların həcminin azaldılmasını təmin edir. Bu isə öz növbəsində məhsulgöndərənlərə bazar payının artırılması baxımından əlavə üstünlüklər verir.

3. Bir sistem kimi marketinq logistikası məhsulgöndərənlərlə istehlakçılar ara-sında əlaqələrin sadələşdirilməsi və möhkəmləndirilməsi qabiliyyətinə malikdir.

4. Məhsulların fiziki bölüşdürülməsi üzrə daha səmərəli metodların işlənib hazırlanması tədavül xərclərinə əhəmiyyətli dərəcədə qənaət edilməsinə (məhsul-göndərmələrə görə ödənilən haqlara güzəştlərin tətbiqi) şərait yaradır.

5. Daha əlverişli marketinq logistikası sisteminin tətbiq edilməsi təsərrüfat subyektlərinə ayrı-ayrı bazarlarda əlverişli formada rəqabət aparmağa imkan verir.

Ədəbiyyat

[1] Альбеков А.У., Митько О.А. Коммерческая логистика.-Ростов н/Д.:Феникс, 2002.416 с.

[2] Афанасьева П.В., Багиев Г.Л., Лейдиг Г. Концепция и инструментарий эффективного предпринимательства /http://www.marketing.spb.ru

[3] Бауэрсокс Д.Д., Клосс Д.Д. Логистика: интегрированная цепь поставок / Пер. с англ.-М.: Олимп-бизнес, 2001.-640 с.

[4] Гаджинский А.М. Логистика: Учебник. -М.:Маркетинг, 2001. -395 с.

[5] Дегтяренко В.Н. Основы логистики и маркетинга.-М.:Гардарика,1996.- 120 с.

[6] Жученко И.А. Промыслов Б.Д. Логистические основы управления материальными и денежными потоками: проблемы, поиски, решения.-М.: Нефть и газ, 1994. - 103 с.

[7] Козлов В.К., Уваров С.А. Функциональная интеграция маркетинга и логистики / http://www.spb.ru

[8] Котлер Ф. Маркетинг менеджмент /Пер.с англ.,под ред. Л.А. Волковой, Ю.Н. Каптуревского. -СПб.:Питер, 2001.-752 с.

[9] Лубочнов В. Маркетинговая логистика // Риск.- 1996-№ 4-5.- с. 50-55.

[10] Маркетинг: Учебник для вузов /Г.Л. Багиев, В.М. Тарасевич, Х. Анн; Под ред. Г.Л. Багиева.-М.: Экономика, 2001.-718 с.

[11] Новиков О.А., Семененко А.И. Производственно-коммерческая логистика: Учебное пособие. Ч. 2. -СПб.: СПбУЭФ, 1993.-44 с.

[12] Плотников А.П. Логистическое управление инвестициями в иннова-ции. - Саратов: СГТУ,2001. - 130 с.

[13] Родников А.Н. Логистика: Терминологический словарь. - М.: Инфра-М, 2000.-340 с.

[14] Семененко А.И., Сергеев В.И. Логистика. Основы теории: Учебник для вузов.-СПб.: Союз, 2001.-542 с.

[15] Сергеев В.И. Логистика в бизнесе: Учебник.-М.: Инфра-М, 2001.-608 с.

[16] Стаханов В.П., Украинцев В.Б. Теоретические основы логистики. - Ростов н/Д.: Феникс. 2001.-160 с.

[17] Сулимова А.К. Логистика: новая философия управления в информационной экономике / http://www.m-economy.ru

[18] Тяпухин А.П. Предпринимательство и коммерческая логистика // Риск.- 2001.- № 4.-с. 3-9.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 34 - 45
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 34 - 45

ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ЭФФЕКТИВНОЙ РАБОЧЕЙ СИЛЫ В УСЛОВИЯХ РЫНОЧНЫХ ОТНОШЕНИЙ

Н.А. Касымов
д.э.н., проф., кафедра "Экономика и организация труда", UNEC
И.М. Набиева
докторант, препод., кафедра "Экономика и организация труда", UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 14 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 14 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Резюме

Целью исследования является выявление ключевых факторов, которые непосредственно влияют на формирование и развитие эффективной рабочей силы в рыночных условиях. С этой целью были показаны анализ и влияние на эффективное использование человеческих ресурсов, таких факторов, как квалифицированный персонал, уровень заработной платы и условия труда на рабочем месте, профсоюзная деятельность, демографическая ситуация в стране, государственное регулирование рынка труда, уровень жизни работников и т. д. Основное внимание в исследовании уделяется ключевым аспектам эффективного формирования рабочей силы и ее устойчивого развития – установление отношений с коллегами и руководством, стратегия управления, профессиональное развитие, принятие автономных решений и самореализация работника с творческой стороны. Следует отметить, что в целом должны быть повышены такие возможности, как образование и уровень жизни в стране, материальная обеспеченность, предложения по поводу повышения квалификации новых кадров, условия для воспроизводства рабочей силы, специализация.

Ключевые слова: повышение квалификации, демографическая ситуация в стране, зарплата, социально-психологический климат, рынок труда.
Jel Classification Codes: J 21

BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ EFFEKTİV İŞÇİ QÜVVƏSİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

Xülasə

Tədqiqatın məqsədi bazar münasibətləri şəraitində effektiv işçi qüvvəsinin formalaşmasına və inkişaf etməsinə birbaşa təsir edən əsas amillərin müəyyən edilməsidir. Bu məqsədlə ixtisaslı kadrlar, əməkhaqqı səviyyəsi və iş yerlərində əmək şəraiti, həmkarlar ittifaqının fəaliyyəti, ölkədə demoqrafik vəziyyət, dövlətin əmək bazarının tənzimləməsi, işçinin yaşayış səviyyəsi və s. amillərinin təhlili və onların insan resurslarının səmərəli istifadəsinə təsiri göstərilmişdir. Tədqiqatda effektiv işçi qüvvəsinin formalaşması və daimi inkişafı üçün vacib olan məqamlar - əməkdaşlar və

rəhbərlik ilə əlaqələrin qurulması, idarəçilik strategiyası, ixtisasartırma, qərarların qəbulunda avtonomluq, özünü yaradıcılıq baxımından ifadə etmə imkanı kimi istiqamətlərin zərurəti əsaslandırılır. Qeyd edilir ki, bunun üçün ümumilikdə ölkə üzrə təhsil və yaşayış səviyyəsi, maddi təminat, yeni kadrlar üçün təcrübə təklifləri, işçi qüvvəsinin təkrar istehsalı üçün şəraitlər, ixtisaslaşma kimi imkanlar artırılmalıdır.

Açar sözlər: ixtisasartırma, ölkədə demoqrafik vəziyyət, əməkhaqqı, sosial-psixoloji mühit, əmək bazarı.

FORMATION AND DEVELOPMENT OF AN EFFECTIVE LABOR FORCE IN A MARKET ECONOMY

Abstract

The purpose of the research is to identify key factors that directly affect the formation and development of effective workforce in market conditions. Qualified personnel, salary levels and labor conditions in the workplace, trade union activity, demographic situation in the country, state regulation of the labor market, employee living standards, analysis of other factors and their impact on the efficient use of human resources were shown for this purpose. The study focuses on the key aspects of effective workforce formation and sustainable development - relationships with co-workers and managers, management strategies, professional development, autonomous decision-making and self-creativity. It is noted that in general, such opportunities as education and living standards in the country, material security, experience suggestions for new cadres, conditions for recycling of workforce and specialization should be increased.

Key words: qualification improvement, demographic situation in the country, salary, social-psychological climate, labor market.

Введение. Возникает новое понимание трудового потенциала человеческих ресурсов в условиях развития рыночных отношений. Речь идет не об общей численности трудовых ресурсов мирового хозяйства, речь - о новых измерителях развития трудового потенциала личности, включенной в мирохозяйственные отношения. Сейчас основным показателем является качество труда, определяемое квалификацией и способностями работника, его отношением к труду, уровнем его социального и экономического мышления, его способностью приспосабливаться к трудовым отношениям и социально-психологическому климату коллектива. Предмет исследования: предметом исследования является рабочая сила. Цели и задачи: целью является анализ качества рабочей силы и проблем профессиональной подготовки человеческих ресурсов.

Развитие экономики любой страны и мировой экономики в целом главным образом зависит от трудовых ресурсов. Производительный потенциал рабочей силы, помимо психологических, физических качеств и здоровья работников,

включает ряд характеристик, определяющих уровень общего и специального образования, накопленный производственный опыт, общий культурный уровень развития, зависящий от общего комплекса факторов жизнедеятельности. Они во многом определяются социально-экономическим уровнем развития страны. При отсутствии в стране экономического подъема заработная плата работников снижается, общественная жизнь рабочей силы перестает удовлетворять все культурные, образовательные, духовные и социальные потребности граждан, что влечет за собой отток рабочей силы за границу в поисках более благоприятной жизни, стабильной зарплаты и уверенности в завтрашнем дне.

Школа человеческого капитала считает, что существует сильная зависимость между экономическим ростом и образованием, так как образование повышает производительность труда, а это, в свою очередь, обеспечивает рост доходов. Таким образом, можно сказать, что такие области, как рынок труда, экономика, общественная жизнь и демографическая ситуация в стране прямо оказывают воздействие на миграционные процессы. Эмиграция населения имеет свои позитивные и негативные последствия. К негативным относятся снижение ВВП, потеря лучших квалифицированных кадров, отток капиталов. Положительный эффект может дать временная трудовая миграция, при которой сокращается безработица, повышается квалификация выехавших временно на работу за рубеж, регулярно поступают из-за рубежа денежные переводы семьям, при возвращении мигранты привозят накопленный капитал [1].

В Азербайджане, как сообщается, в Госкомитете по статистике, численность населения выросла на 13 686 человек или 0,1% и на 1 марта 2017 года составила 9 823 667 человек.

Плотность населения в Азербайджане составляет 113 человек на один квадратный километр. Удельный вес городского населения составляет 53%, сельского населения – 47%. Правительство работает над проектами стратегии занятости на 2017-2030 годы, госпрограммы по усилению социальной защиты пожилого населения на 2017-2021 годы, госпрограммы по развитию азербайджанской молодежи на 2017-2021 годы, госпрограммы по демографическому развитию и занятости населения на 2017-2030 годы. В проекте занятости будут отражены анализ нынешней макроэкономической ситуации и рынка труда, будущие перспективы и тенденции развития, предстоящие вызовы и проблемы, основные цели и задачи политики занятости на последующие годы, обеспечение баланса между спросом и предложением на рынке труда, развитие предпринимательства, формирование политики занятости на новом этапе экономического развития, актуализация фактора занятости в инфраструк-

турных проектах, создание конкурентного кадрового потенциала и информационного обеспечения по развитию рынка труда и другие вопросы.

Численность населения Азербайджана продолжает расти благодаря положительной демографической тенденции. Эта тенденция определяет создание в будущем новых рабочих мест в качестве основной государственной задачи.

В настоящее время в республике имеются централизованная система профессионального образования и система обучения непосредственно на производстве. В специальных учебных заведениях или курсах готовят работников по массовым профессиям.

Число работающих по найму по состоянию на 1 апреля 2017 года в Азербайджане составило 1 515,8 тыс. человек, из них 889,2 тыс. человек работали в государственном, 626,6 тыс. человек - в частном секторе экономики. До 2020 года в Азербайджане планируется создать 1,45 тысяч новых рабочих мест в сфере ИКТ, что также потребует наличия достаточно квалифицированных кадров в этой области. В результате реализации мер, предусмотренных в “дорожной карте”, за тот же период ВВП Азербайджана, как ожидается, увеличится на 235 миллионов манатов.

К государственной системе подготовки квалифицированных кадров относят сеть профессионально-технических училищ, средние специальные и высшие учебные заведения. Повышение квалификации кадров является составной частью расширенного воспроизводства рабочей силы и связано с дальнейшим развитием производства. Под повышением квалификации понимается профессиональное обучение, совершенствование профессиональных знаний, способностей по имеющейся профессии. Повышение квалификации характерно для руководителей, специалистов, рабочих. При условиях рыночных отношений производство предъявляет все большие требования не только к техническому оснащению работников, но и к "вооружению" их необходимыми знаниями, к увеличению общего фонда образования страны.

Государство должно предоставить возможность добыть профессиональное образование каждому гражданину, а талантам, независимо от их материальной обеспеченности и должностей родителей, возможность получить высшее образование за государственный счет. Это – намного эффективнее, чем платить пособие по безработице.

Можно выделить основные цели государственного регулирования рынка труда:

1. Обеспечение такой занятости на рынке труда, при которой понимАется отсутствие циклической безработицы при сохранении естественного уровня безработицы.

2. Создание гибкого рынка труда, который может быстро приспособиться к экономическим изменениям.

3. Интеграция национального рынка труда в систему международного разделения труда.

4. Создание необходимой профессионально-отраслевой, квалификационной, географической мобильности трудовых ресурсов.

Государственная политика на рынке труда осуществляется в следующих основных формах:

1. Активной – создание рабочих мест, повышение уровня занятости и преодоление безработицы способом обучения и переобучения работников.

2. Пассивной – поддержка безработных с помощью выплаты пособий.

Активная политика государства направлена на то, чтобы каждый человек, желающий работать, мог найти рабочее место соответственно своим запросам, в этом случае государство стимулирует инвестиции в экономику, и, следовательно, создает новые рабочие места, развивает службы занятости, биржи труда, осуществляющие посреднические функции на рынке труда, а также предоставляющие информацию о вакантных рабочих местах.

Пассивная политика занятости направлена на создание системы социального страхования и иных каналов материальной помощи лицам, потерявшим работу. В данном случае происходит регистрация лиц, ищущих работу, определяются пособия по безработице, предоставляются неденежные формы поддержки безработных и членов их семей.

Согласно закону "О занятости", статус безработного можно получить в центрах занятости. Если зарегистрированный в одном из таких центров гражданин в течение десяти дней не получает предложение о работе, то ему официально предоставляется статус безработного и назначается соответствующее пособие. Средний размер такой ежемесячной материальной помощи от государства составляет, по данным Госкомстата страны, 250,8 манатов.

Правительство Азербайджана сейчас рассматривает возможности того, чтобы отменить пособие по безработице. Как указывает Министерство труда и социальной защиты населения, ведомство разработало проект Закона «О страховании от безработицы». Согласно проекту закона, размер страхового взноса по этому виду составит 1% суммы от заработной платы страхователя, из которых половина будет оплачиваться работодателем, а другая половина – работником. Это самый низкий показатель в мире, так как в некоторых странах взнос доходит до 3-5% заработной платы.

Помимо этого, рабочим необходимо ощущать свою защищенность на предприятии, с данной задачей благоприятно справляются профсоюзы. Многие

предприятия сейчас приватизированы или функционируют совместно с иностранными компаниями. А объекты сферы торговли и услуг отходят в частный сектор. И, если во времена Советского Союза на всех предприятиях и организациях создавались профсоюзы, то в настоящее время предприниматели не стремятся к этому. Тем не менее, учитывая важность социальной защиты трудящихся (в основном в области охраны труда и в плане сохранения жизни и здоровья людей), профорганы пытаются войти в контакт с работающими на этих предприятиях людьми и создать профорганизации.

Конфедерация Профсоюзов Азербайджана была учреждена на съезде профсоюзов Азербайджана, состоявшегося 5-6 февраля 1993 года. Профсоюзы являются добровольным союзом межотраслевых объединений и Нахичеванской Автономной Республики, которые представляют и защищают трудовые и социально-экономические интересы и права своих членов. В КПА входит 18 610 профсоюзных организаций. Общее число членов КПА составляет 1 600 000 человек. КПА объединяет 26 отраслевых профсоюзов. 24 февраля 1994-го года был принят закон Азербайджанской Республики «О профсоюзах».

Особо важно повышение роли профсоюзных организаций в обществе. Подписание соответствующих указов и распоряжений, а также присуждение высоких государственных наград работникам профсоюзов является наглядным проявлением большого внимания и заботы государства об этой сфере. По мере возможности, необходимо вносить прогрессивные изменения в законодательство, в Трудовой кодекс, которые создадут для профсоюзных организаций новые возможности для более эффективной защиты прав работников.

В результате продолжения либеральных экономических реформ, вложения инвестиций, реализации целевых государственных программ за последние десять лет экономика страны выросла более чем втрое, уровень безработицы и бедности снизился до пяти процентов, была перестроена социальная и экономическая инфраструктура, коренным образом улучшилось благосостояние народа. С 2003 года и по настоящее время в Азербайджане были созданы тысячи производственных предприятий, а также открыто 1,4 миллиона новых рабочих мест. Большинство создаваемых рабочих мест приходится на частный сектор. Учитывая все эти реалии, КПА должна продолжить последовательные и целенаправленные меры для улучшения условий труда граждан, решения их социальных проблем и обеспечения трудовых прав. Конфедерация профсоюзов должна повысить внимание к вопросам сотрудничества с транснациональными компаниями, функционирующими в Азербайджане, глубже изучать и применять передовой мировой опыт в сфере организации труда.

На качество рабочей силы и ее воспроизводство (способность работников восстанавливать свои физические, умственные, энергетические силы, а также замещение свободных вакансий кадрами нового количества и кАчества) влияют факторы финансовой обеспеченности:

1) Низкая заработная плата. Человеческим ресурсам необходимо обеспечивать свое воспроизводство, так как от уровня материального обеспечения семьи зависит и настроение самого работника, в том числе и его способность к труду. Если сравнить социально-экономическое положение богатых и обеспеченных семей с семьями бедного сословия, то можно убедиться в том, что часть бедного населения больше подвержена страху, тоске и психологической напряженности, а часть обеспеченного населения имеет хорошее самочувствие.

2) Низкие платежи работникам вынуждают их подрабатывать в секторе вторичной занятости, в результате этого рабочие способности и продуктивность кадров истощаются, возникают внутрисемейные осложнения во взаимоотношениях, а это отражается на дальнейшей социализации подрастающего поколения.

За январь-март 2017 года среднемесячная номинальная зарплата наемных работников в Азербайджане в годовом исчислении выросла на 5,9% и составила 514,3 манатов. Самая высокая среднемесячная номинальная зарплата зафиксирована в сфере горнодобывающей промышленности, финансовой и страховой деятельности, строительства, информации и связи, профессиональной, научной и технической деятельности.

В качестве основных проблем обучения незанятых граждан можно назвать:

1) Отсутствие соответствия между образованием и требованиями рынка труда, так как, в результате создается большая разница между предложением и спросом на рабочую силу.

Рис.1

1)Низкая конкурентоспособность определенной части населения (молодежь без опыта работы, женщины с детьми и т.д.), приводит к ее переходу из экономически активной части населения в экономически неактивную.

2) Увеличение числа граждан, не имеющих профессию или не приступавших к трудовой деятельности.

На рисунке показана взаимосвязь между возрастом, образованием и соответствующим доходом субъектов – чем лучше качество образования, тем выше становится доход.

На повышение качества и достижение развития рабочей силы в основном влияет и метод управления этой силой. Задачи кадрового менеджмента (стратегия управления) в наши дни в корне меняются. Его целью становится формирование мобильного, квалифицированного, способного к инновационным проектам коллектива. Современный работник, как утверждает П. Друкер (крупнейший современный исследователь менеджмента), является большой ценностью, поскольку он способен нести в себе уникальные способности, которые необходимы производству. Это совершенно меняет отношения между работодателем и работником. Если отдельный работник, будучи уволенным, мог быть мгновенно заменен аналогичным, то современный квалифицированный рабочий, а тем более менеджер, не только является уникальным с точки зрения вклада в результаты производства, но и способен унести с собой информацию, которая может быть использована конкурентами.

Э. Деминг (американский учёный, статистик и консультант по менеджменту) утверждает, что задача менеджмента — создание такой среды, где каждый мог бы получать удовольствие от работы.

Общие принципы разработки стратегии управления:

1. Увеличивается доля высококвалифицированных кадров, для которых снижается дейтвенность материальных и возрастает роль социальных и духовных стимулов.

2. Получают развитие теории управления, акцентирующие внимание на интеллектуально-эмоциональном воздействии на членов коллектива как методе повышения конкурентоспособности.

3. Во всесторонней борьбе за качество главная роль (65% по расчетам американских аналитиков) принадлежит социально-психологическим методам. Эти способы используют самые передовые компании: «American Express», «DuPont», «Subaru of America», «Johnson & Johnson» и многие другие.

Стиль управления – устойчивая система методов, способов, приемов воздействия руководителя на коллектив с целью выполнения организационных задач и управленческих функций. Это привычная манера поведения руко-

водителя по отношению к подчиненным, чтобы оказать на них влияние и побудить их к достижению целей фирмы. Работы Мак Грегора помогают менеджерам избегать неуверенности и стремиться к достижению максимального успеха в работе с подчиненными. Он описывает систему руководства с двух противоположных позиций – одна из крайних позиций названа «Теория X», а другая «Теория У».

«Теория X» описывает такой тип руководителя, который стоит на позиции директивных, авторитарных методов управления, где отношение к своим подчиненным недоверчиво по причине того, что у людей нет честолюбия, они боятся ответственности и предпочитают, чтобы ими руководили, а также хотят защищенности. При этом стиле руководства необходимо применять различные методы принуждения, а также напоминать о возможности наказания. Иерархия в организациях, придерживающихся теории X, как правило, очень строгая, каналы сбора информации работают четко и оперативно.

«Теория Y» описывает идеальную ситуацию, в которой взаимоотношения в коллективе складываются из оптимистичного взгляда на работу организации, где труд – это процесс естественный, и, если условия благоприятные, то люди будут стремиться взять на себя ответственность за работу. Здесь часто встречается способность к творческому решению возникших проблем. Руководитель является демократичным, позволяет подчиненным участвовать в принятии решений.

Значительных успехов в работе достигают руководители, придерживающиеся обеих теорий. Но каждый менеджер должен сначала оценить, возможно, ли в тех условиях, в которых находится организация, применение «Теории Y», или же, к каким последствиям может привести применение «Теории X».

Демократический стиль - наиболее подходящий для формирования командных взаимоотношений, он помогает каждому работнику четко сформулировать его личные цели, установить эффективную коммуникацию между руководителем и подчиненным. Но у него имеются и негативные стороны, такие как дополнительные затраты времени на обсуждение проблемы, что в экстремальных условиях может резко снизить эффективность управления. Авторитарный стиль наиболее востребован на начальном этапе формирования организации, когда у трудового коллектива не сформированы навыки постановки целей и пути их достижения. К отрицательным качествам авторитарного стиля следует отнести то, что он снижает творческую инициативу подчиненных, ухудшает социально-психологический климат, ведет к текучести кадров.

Научная новизна работы проявляется в акцентировании внимания на нынешний период, когда увеличивается доля высококвалифицированных кадров,

для которых снижается действенность материальных и возрастает роль социальных и духовных стимулов, побуждающих работников творчески решать возникшие проблемы. Поэтому необходимо обратить внимание не просто на развитие рабочей силы с квалификационной точки зрения, развитие НТР и попытки соответствовать изменяющимся рыночным потребностям, но в то же время сконцентрироваться и на самом человеческом факторе, на его стремлениях и желаниях, социальных ценностях, на его статусе, т.е., здесь основополагающую роль играет фактор самого человека в центре событий. Современный квалифицированный рабочий, а тем более менеджер, рассматривается не просто уникальным с точки зрения вклада в результаты производства, но и он также способен унести с собой информацию, которая может быть использована конкурентами. Поэтому возникает необходимость стимулирования работников и поддержания их жизненно-важных и трудовых способностей, так как спокойствие по поводу заработной платы позволяет субъектам повышать свою производительность, не беспокоится о благополучии семьи и исключает возможную психологическую напряженность.

Помимо этого, указывается факт о том, что, предоставив возможность профессионального образования каждому гражданину, независимо от материальной обеспеченности, предоставив возможность талантам получить высшее образование за государственный счет, государство получит большую эффективность, чем, оплачивая пособие по безработице.

Важность применения результатов проведенного исследования сводится к повышению качества рабочей силы и обеспечения ее развития при условиях рыночных отношений. Вышеуказанные доводы позволят улучшить взаимоотношения между коллегами, а также между руководством и подчиненными, выбрать соответствующую политику управленческой стратегии, приведут к созданию благоприятного социально-психологического климата в коллективе. Особое внимание акцентируется на необходимости воспроизводства рабочей силы, то есть, установления соответствующего уровня минимальной заработной платы, минимальной потребительской корзины, реальной заработной платы с учетом социально-экономического развития страны. Соответствующий уровень вознаграждения за труд должен обеспечить удовлетворение первостепенных жизненных потребностей людей, и в то же время, он не может приводить к уменьшению количества рабочих мест и повышению уровня налогов. Для проведения данных мер необходима особая поддержка и верно подобранная финансовая политика государства.

Экономическая выгода исследования заключается в том, чтобы показать неразрывную связь между высокой производительностью труда, высокими

доходами и такими факторами, как: наличие качественного образования в стране, возможности повышения квалификации, фактор заработной платы, способной удовлетворить необходимые условия воспроизводства рабочей силы, верно подобранная стратегия по управлению персоналом и т.д. Высокая производительность труда способна обеспечить подъем общего экономического уровня страны и уровня ВВП. Население в результате сможет вкладывать средства в инвестиции и сбережения, что, в свою очередь, поможет пополнить госбюджет.

Вывод

Следовательно, на основании данного исследования мы можем сделать вывод, что самым важным и дорогим ресурсом является человеческий ресурс. Он непосредственно связан с человеческим капиталом или с деятельностью рабочей силы. Чтобы эффективно использовать этот ресурс, необходимо раскрыть понятие качества рабочей силы и определить способы повышения квалификации рабочей силы.

Говоря о качестве, подразумевается совокупность свойств человека, проявляющихся в процессе труда. Чем выше степень подготовленности, рабочей активности и физического состояния рабочей силы, тем выше ее качество и уровень производительности труда.

Мы выявили современное состояние качества рабочей силы, то, каким образом качество жизни влияет на качество рабочей силы и, что необходимо предпринимать государству для его повышения. При этом повышение качества рабочей силы зависит не только от государственной политики, но и от желания и способностей самого человека, от используемой менеджерами политики управления, от способности самовыражения работника с творческой стороны, от существующего в коллективе социально-психологического климата и взаимоотношения между коллегами и т.д.

Таким образом, для того чтобы быть востребованным и успешным кадром, необходимо постоянно отслеживать конъюнктуру рынка труда, получать образование в востребованной сфере, улучшать знания, повышать квалификацию или быть готовым к переквалификации.

И в заключение надо сказать, что повышение уровня и качества жизни населения влечет за собой повышение качества рабочей силы, что является важным показателем развития экономики страны в целом и благосостояния всего общества. Для этого государству необходимо стимулировать инвестиции в экономику, и, следовательно, создавать новые рабочие места, развивать службы занятости, биржи труда, осуществляющие посреднические функции на рынке труда, а также предоставляющие информацию о вакантных рабочих

местах. Конфедерация профсоюзов должна повысить внимание к вопросам сотрудничества с транснациональными компаниями, функционирующими в Азербайджане, глубже изучать и применять передовой мировой опыт в сфере организации труда, осуществлять целенаправленные меры для улучшения условий труда граждан, решения их социальных проблем и обеспечения трудовых прав. Внесение прогрессивных изменений в законодательство, в Трудовой кодекс, поможет создать для профсоюзных организаций новые возможности для более эффективной защиты прав работников.

Литература

[1] Кулиев Тофик “Экономика труда”, Маариф
[2] Муков В.М. Демография. Учебное пособие. Ростов на Дону: «Феникс»
[3] center_yf.ru
[4] Концепция профессиональной подготовки, повышения квалификации и переподготовки безработных граждан и незанятого населения
[5] Теория X и Теория Y Дугласа Мак Грегора
[6] https://studopedia.su/16_23994_povishenie-kachestva-rabochey-sili.html
[7] Алексеев Д.М. Экономика труда.
[8] https://azeri.today/articles/5117/
[9] http://other.refmag.ru/done/1/k/kachestvo-rabochej-sily-problemy-professionalnoj-podgotovki-naseleniya.htm
[10] http://bokinz.com/13307-134_kachestvo_rabochey_sili.html
[11] https://azeri.today/articles/5117/

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 46 - 55
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 46 - 55

AKTİVLƏRİN MALİYYƏ HESABATININ DİGƏR ELEMENTLƏRİ İLƏ SƏBƏB-NƏTİCƏ ƏLAQƏLƏRİ

V.M. Quliyev
i.e.n., dos., "Mühasibat uçotu və audit" kafedrası, UNEC
Məqalə redaksiyaya daxil olmuşdur 19 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 19 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalənin yazılmasında məqsəd maliyyə hesabatının elementləri olan aktivlər, kapital, öhdəliklər, gəlirlər və xərclərin uçotu və hesabatının rasional təşkili, inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün həmin elementlər arasında mövcud olan səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi və düzgün açıqlanmasıdır. Araşdırmalar göstərir ki, bu problem müvafiq ədəbiyyatlarda xeyli müddətdir müzakirə və mübahisə obyekti olsa da, öz həllini tapmamışdır. Məqalədə ilkin olaraq fəlsəfə elminin kateqoriyalarından biri kimi təşəkkül tapmış, sonradan isə sosial-iqtisadi elmlərin, o cümlədən maliyyə uçotu və hesabatı sisteminin mühüm kateqoriyasına çevrilmiş element anlayışının mahiyyəti və məzmunu araşdırılır. Həmin sistemin elementləri olan aktivlər, kapital, öhdəliklər, gəlirlər və xərclərin səbəb-nəticə əlaqələrinə dair uçot ədəbiyyatlarında və normativ sənədlərdə müvcud olan konsepsiyalara tənqidi münasibət bildirilir. Əsaslandırılır ki, maliyyə uçotu və hesabatı sistemində aktivlər substansiya-səbəb, kapital, öhdəliklər, gəlirlər isə nəticə kimi qəbul edilməlidir.

Açar sözlər: maliyyə hesabatı, aktivlər, kapital, öhdəliklər, gəlirlər.
Jel Classification: H83

MISCELLANEOUS RELATIONS OF ASSETS AND OTHER ELEMENTS OF FINANCIAL STATEMENTS

Abstract

The purpose of the article is to identify and correctly disclose the cause and effect relationships between the elements of financial reporting: assets, capital, liabilities, income and expenses, for the rational organization, development and improvement of their accounting and reporting system. The study of the topic shows that although this problem has long been the subject of discussion and disputes in the accounting literature, it still remains unresolved. The article explores the essence and content of the concept of the element, which originally emerged as a philosophical category, and then became the most important category of socio-economic sciences, including accounting-reporting. Critical assessment of existing concepts regarding the

disclosure of cause-effect relationships between elements of financial reporting. It is justified that in the system of financial accounting and reporting assets should be accepted as a substance-cause, and the remaining elements - as a consequence of the emergence and use of assets.

Key words: financial statements, assets, capital, liabilities, income.

ПРИЧИННСЛЕДСТВЕННЫЕ СВЯЗИ АКТИВОВ И ДРУГИМИ ЕЛЕМЕНТАМИ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ

Резюме

Цель написания статьи - определение и правильное раскрытие причинно-следственных связей между элементами финансовой отчетности: активами, капиталом, обязательствами, доходами и расходами, в целях рациональной организации, развития и совершенствования системы их учета и отчетности. Изучение темы показывает, что хотя данная проблема давно является предметом дискуссии и споров в учетной литературе, тем не менее, она остается пока не решенной. В статье исследуется сущность и содержание понятия элемента, который изначально возник как философская категория, а затем стал важнейшей категорией социально-экономических наук, в том числе учета-отчетности. Критически оцениваются существующие концепции относительно раскрытия причинно-следственных связей между элементами финансовой отчетности. Обосновывается, что в системе финансового учета и отчетности активы должны быть приняты как субстанция-причина, а остальные элементы – как следствие возникновения и использования активов.

Ключевые слова: финансовая отчетность, активы, капитал, обязательства, доходы.

Aktivlər maliyyə uçotu və hesabatı sistemində ən çox işlədilən və istifadə olunan kateqoriyalar sırasındadır. Eyni zamanda aktivlər bu sistemin başlıca elementlərindən birini təşkil edir. Sual meydana çıxır ki, maliyyə uçotu və hesabatı sistemində element termini nəyi ifadə etməlidir və onun tərkibinə nələr daxil edilməlidir? Yalnız həmin suallara cavab verildikdən sonra ayrı-ayrı elemenetlərin mahiyyətini açıqlamaq və onlarin arasındakı səbəb-nəticə əlaqələrini düzgün izah etmək olar.

Element latinca elementum sözündən götürüimüşdür, hərfi mənası ünsür, ilkin maddə, cisim deməkdir. Qədim yunan fəlsəfəsinə görə bizi əhatə edən dünya, təbiət dörd elementdən ibarətdir: sudan, oddan, torpaqdan və havadan. İlkin olaraq fəlsəfi

kateqoriya kimi işlədilən element anlayışı sonradan digər bütün elmlərin, o cümlədən uçot elminin kateqoriyaları sisteminə daxil olmuşdur.

Ancaq element anlayışının uçot elminin kateqoriyaları sırasına kim tərəfindən və nə vaxt daxil edilməsi tarixi dəqiq məlum olmasa da, həmin anlayış normativ maliyyə uçotu və hesabatı sistemində öz əksini ilk dəfə ABŞ-də tapmışdı. Belə ki, bu ölkədə *Maliyyə hesabatının işlənib hazırlanması üzrə Şuranın* (FASB- Financial Accounting Standards Board) 1985-ci idə təsdiq etmiş olduğu 6 №-li Maliyyə ucotunun konsepsiyaları haqqında Əsasnamə (SFAC-Statements of Financial Accounting Concepts) maliyyə hesabatı elementlərini təsbit etdi. Həmin sənədə görə maliyyə hesabatı aşağıdakı elementlər üzrə formalaşmalıdır: Gəlirlər; Xərclər; Sair mənfəətlər (Qeyri-əsas fəaliyyətdən olan gəlir); Zərərlər (Qeyri-əsas fəa- liyyətdən); Aktivlər; Öhdəliklər (passivlər); Xüsusi (səhmdar) kapital (xalis aktivlər); Şirkət sahiblərinin investisiyaları; Mülkiyyətçilərə (səhmdarlara) köçü- rülən vəsaitlər; Məcmu (yekun) mənfəət (5, s. 37-40). 6 №-li SFAC-da təsbit edilmiş həmin elementləri, FASB-nin maliyyə uçotu və hesabatının Konseptual əsaslarında qəbul etmiş olduğu elementlərdən fərqləndirmək lazımdır. Belə ki, FASB Konseptual əsaslarda uçot standartlarının formalaşdırılması bazasında qoyulmalı olan aşağıdakı elementləri təklif etmişdir (5, s.22; 6, s.82;):

- kommersiya təşkilatlarının maliyyə hesabatının məqsədləri - SFAC 1;
- mühasibat uçotunun maliyyə informasiyasının keyfiyyət xarakteristikaları - SFAC 2;
- bütün kommersiya təşkilatlarının maliyyə hesabatlarının elementləri SFAC-6 (sonradan SFAC 3-ü əvəz etmişdir);
- maliyyə hesabatında tanınma və qiymətləndirmə kriteriləri, prinsiplər, standartlar, ümumi təyinatlı maliyyə hesabatlarının siyahısı - SFAC 5.

Göründüyü kimi, FASB element terminini Konseptual əsaslarda maliyyə uçotu və hesabatının nəzəri, metodoloji və paktiki aspektlərini formulə etmək, SFAC - larda isə maliyyə uçotu obyektlərinin maliyyə hesabatında qruplaşdırılaraq əks etdirilməsi kateqoriyası yaxud anlayişı kimi istifadə edir.

Zənnimizcə, Konseptual əsaların əhatə etdiyi yaxud əhatə edə biləcəyi məsələləri element ya da elementlər adlandırmaq məqsədəuyğun deyil. Məsələ bundadır ki, hər hansı obyekti ifadə edən anlayış yaxud kateqoriya həmin obyektin daxili məzmununa uyğun gəlməli, onun mahiyytini açmağa imkan verməlidir. Əgər element sözünün mənasına bir də nəzər yetirsək görərik ki, element əslində daimi, bir-biri ilə vəhdət və ələqəli olan reallıqları əks etdirir, halbuki konseptual əsasların elementlər kimi qəbul etdiyi bir çox şeylər, məsələn məqsədlər, kriterilər, prinsiplər, standartlar daimi deyil, dəyişəndir. Bunu Qərbdə uçot sahəsində çalışan peşəkar işçilər, alimlər özləri də etiraf edir. Pul, mallar, istehsal vasitələri, borclar, gəlir və xərclər isə Luka

Paçolinin orta əsrlərdə kəşf etdiyi və hazırda da uçotun qızıl qaydası hesab olunan yaxud onun təməl prinsiplərindən biri kimi qəbul edilmiş ikili yazılışdan min illər əvvəl də mövcud olmuşdur. Qədim zamanlardan bəri pulların, malların, istehsal vasitələrinin, borcların, gəlir və xərclərin yalnız növləri və formaları dəyişilmişdir. Ancaq Luka Paçolidən əvvəl mövcud olmuş uçot sistemindən indiki dövrə hansısa prinsip yaxud metodoloji qayda gəlib çatmamışdır.

Beləliklə, mahiyyət və məzmun baxımından elementlər kimi uçot və hesabat sisteminin informasiya formalaşdırdığı ilkin ünsürlərin adlandırılması daha məqsədəüyğundür. Maliyyə ucotunun konsepsiyaları haqqında Əsasnamədə (SFAC 6) təsbit edilmiş kateqoriyaların hamısının elementlər kimi qəbul edilməsi də fikrimizcə düzgün olmazdı. Ona görə ki, onların bir çoxu daha ilkin olan ünsürdən yaxud ünsürlərdən yaranir. Məsələn, qeyri-əsas fəaliyyətdən mənfəət və zərərlər, onların ilki, başlanğıcı kimi qəbul olunan gəlir və xərc elementlərinin müqayisəsindən yaranan hesabi kəmiyyətlərdir. Mənfəət ilkin olaraq gəlirin, zərər isə xərcin tərkib hissəsi kimi formalaşır. Qeyri-əsas fəaliyyətdən olan mənfəət və zərərləri ayrıca elementlər kimi deyil, gəlir və xərclər barədə informasiyanın analitikliyinin artırılması kimi qəbul etmək lazımdir. Eyni fikirləri mülkiyyətçilərə (səhmdarlara) köçürülən vəsaitlər, məcmu (yekun) mənfəət barəsində də demək olar. SFAC 6-da şirkət sahiblərinin element qismində qəbul edilmiş investisiyaları əslində hər hansı yeni bir elementin yaranmasını deyil, aktivlər (xalis aktivlər) elementinin artmasını göstərir.

Bir çox mənbələrdə uçotun obyektləri ilə maliyyə hesabatının elementləri ya eyniləşdirilir ya da onlar arasında sərhəd qoyulur. Məsələn, amerika alimləri B.Nidlz, H. Anderson və D. Koldyell vurğulayırlar ki, muhasibat uçotunda ölçülmə obyekti yaxud ümumiyyətlə obyekt kimi təsərrüfat əməliyyatları çıxış edir (7, s.19).

Professor Y.V. Sokolovun redaktorluğu altında dərc edilmiş "Бухгалтерский учет" adlı dərslikdə uçot obyektlərinə təşkilatın əmlakı (aktivləri), öhdəlikləri və təsərrüfat əməliyyatları aid edilir. Dərsliyin müəllifləri təsərrüfat əməliyyatları adı altında balansın aktivinin və (və ya) passivinin quruluşunu və (və ya) dəyişən yaxud təsdiq edən təsərrüfat həyatı faktlarının başa düşülməli olduğunu vurğulayırlar. Bundan başqa, balansın quruluşunu dəyişən faktlara ya hərəkətlər, ya da hadisələr kimi baxılır. Hərəkətlər dedikdə maliyyə nəticələrini formalaşdıran məqsədyönlü təsərrüfat həyatı faktları, hadisələr dedikdə isə gözlənilnməz, ehtimal olunmayan faktlar nəzərdə tutulur (8, s. 8-10).

Professor N.P. Kondrakov mühasibat uçotu obyektlərini uçotun predmetinin tərkib hissəsi kimi qəbul edir və onlara əmlakı (təşkilatın təsərrüfat vəsaitlərini, aktivlərini), təşkilatın kapitalı və öhdəliklərini (onun əmlakının yaranma mənbələrini), əmlakın həmçinin əmlakın yaranma mənbələrinin dəyişilməsinə səbəb olan təsərrüfat əməliyyatlarını aid edir (9, s. 66).

Nəzərdən keçirilən məsələ üzrə yuxarıda adıçəkilən və digər mənbələrin təhlili deməyə əsas verir ki, uçot və hesabat obyektləri və elenentlərinə nələrin aid oluna biləcəyi məsələsində fikir birliyi və vahid metodiki yanaşma mövcud deyil. Bəziləri uçotun obyektlərinə yalnız təsərrüfat əməliyyatlarını aid edir, aktiv və passivlərin həmin əməliyyatların nəticəsi olduğunu göstərir, digərləri aktivləri və passivləri, həmçinin təsərrüfat əməliyyatlarını ucot obyektləri kimi qəbul edirlər. Təsərrüfat əməliyyatlarının aktivləri və passivləri yaratdığını vurğulamaq düzgün yanaşma hesab oluna bilməz, çünki təsərrüfat əməliyyatları aktivləri və passivləri yaratmır, əksinə, onlar aktivlərin, kapital və öhdəliklərin bir-biri ilə əlaqələrinin əksi kimi meydana cıxır. Aktivlər, kapital və öhdəliklər olmadan təsərrüfat əməliyyatlarının baş verməsi mümkün deyil. O ki qaldı iformasiya daşıyıcılarının uçotda obyektlər, maliyyə hesabatında isə elementlər adlandırılmasına, zənnimizcə, məzmun və mahiyyət baxımından onların arasında ciddi fərqlər yoxdur. Sadəcə olaraq, uçot hər bir element barədə maliyyə hesabatında dərc olunacaq informasiyanı analitik səpkidə formalaşdırır. Əks halda, elementlər üzrə sintetik məlumatlar formalaşdırmaq mümkün olmazdı. Deyilənləri belə bir reallıq da sübut edir ki, real praktikada maliyyə hesabatının hər hansı elementinə aid oluna bilməyəcək obyekt yoxdur. Həm obyektlər, həm də elementlər iqtisadi resurslardır yaxud iqtisadi resursların inikasıdır. Uçot obyektlərinin elementlər adlandırılması nə birincinin, nə də ikincinin məzmununu dəyişdirmir, birinci ikincidən daha geniş təcnifləşdirilmiş məlumatlardır, bu da maliyyə hesabatına qeydlərdə informasiyanın açıqlanması üçün zəruridir.

Maliyyə Hesabatının Beynəlxalq Standartları Komitəsi (Komitə 2001-ci ildən Şuraya çevrilmişdir) tərəfindən 1989-cu ildə dərc edilmiş "Maliyyə hesabatının hazırlanması və təqdim edilməsi Prinsipləri" (Prinsiplər) və Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 2007-ci ildə təsdiq edilmiş "Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının konseptual əsasları" (Konseptual əsaslar) adlı sənədlər, maliyyə hesabatının beş element üzrə tərtib olunması tələbini qoymuşdur (2, s. 45, s. 50-51; 4, s. 15). Başqa sözlə, maliyyə hesabatında informasiya aşağıdakı elementlər üzrə əks etdirilməlidir: aktivlər, kapital, öhdəliklər, gəlirlər və xərclər. Qeyd etmək lazımdır ki, dünya ölkələrinin məqsədi iqtisadi fayda/mənfəət götürmək olan müəssisə və şirkətlərində uçotun informasiya formalaşdırdığı bütün obyektlər istinasız olaraq həmin elementlərdən birinə aid edilir. Bu da uçot və hesabatın beynəlxalq miqyasda unifikasiya, harmonizə olunması və standartlaşdırılması üçün mühüm nəzəri-medoloji fundament, baza yaradır.

Bir-biri ilə qarşılıqlı əlaqə və vəhdətdə olan həmin elementlər maliyyə uçotu və hesabatı sistemini yaradır. Bu sistem elə bütövlükdür ki, onun elementləri olmadan sistemin özü mövcud ola bilməz. Sistemin mövcudluğu və fəaliyyəti elementlərin əlaqəsi kimi təzahür edir. Lakin hər bir elementin öz mahiyyəti, daxili quruluşu var-

dır, bu da eyni zamanda onların nisbi "mustəqilliyini" göstərir. Əlbəttə, sistemin yalnız yuxarıdakı elementlərdən ibarət olduğunu düşünmək səhv olardı. Bu sistem həm də elementlər barədə informasiya fomalaşdırmaq iqtidarında olan metodologiyaya malik olmalıdır. Elementlərin qarşılıqlı əlaqəsi, asılılığı, nisbi müstəqilliyi metodologiya, onun elementləri vasitəsilə realizə olunur. Ancaq bir şeyi bilmək lazımdır ki, sistemə daxil olan elementlərin funksiyası/funksiyaları ilə metodologiyanın funksiyaları üst-üstə düşmür. Belə ki, uçot və hesabat elementləri kimi aktivlərə, kapitala, öhdəliklərə, gəlirlər və xərclərə uçot ədəbiyyatlarında müxtəlif tərifler verilsə də, onların iqtisadi-sosial fayda daşıyıcıları olduğunu, zənnimizcə, inkar etmək mümkün deyil. Deməli, sözügedən elementlərin başlıca funksiyası iqtisadi-sosial fayda gətirməkdir, halbuki metodologiyanın, onun ünsürlərinin əsas və başlıca funksiyası olan aktivlər, kapital, öhdəliklər, gəlirlər və xərclərin, həmçinin həmin elementlərin qarşılıqlı əlaqələrindən yaranan və müxtəlif göstəricilərlə ifadə olunan nəticələrin kəmiyyətini (dəyərini) müəyyən etmək, onların təhlilini və müqayisəsini aparmaq üçün informasiya formalaşdırmaqdır.

Maliyyə uçotu və hesabatı sisteminin bütövlükdə inkişafı və təkmilləşdirilməsi problemləri bəhs olunan elementlər ətrafında cərəyan edir. Uçot nəzəriyyəçiləri, metodoloqları və praktiklərinin yekdil fikrinə görə, yuxarıda adıçəkilən elementlərin uçotu və hesabatının rasional təşkili, inkişaf etdirilməsi və təkmilləşdirilməsi problemləri aşağıdakılardır: mahiyytin müəyyən edilməsi, tanınma kriteriləri, təsnifat, qiymətləndirmə metodları, uçotda əks etdirilmə metodikası. Həmin problemlərin məqsədyönlü həllində elementlər arasında mövcud olan səbəb-nəticə əlaqələrinin düzgün açıqlanmasının mühüm rolu vardır. Araşdırmalar göstərir ki, bu məsələ müvafiq ədəbiyyatlarda xeyli müddətdir müzakirə və mübahisə obyekti olsa da, öz həllini tapmamışdır. ABŞ-də 1985-ci ildə SFAC 6 qəbul olunana qədər belə bir konsepsiya üstünlük təşkil edirdi ki, gəlirlər və xərclər aktivlərin, kapital və öhdəliklərin meydana çıxması, yaranması mənbəyidir. Aktivlərə gəlirlərin əldə edilməsi üçün lazım olan xərclər kimi baxılırdı (5, s. 40). Həmin konsepsiyanin nümayəndələrindən olan amerika iqtisadçısı İrvinq Fişer hesab edirdi ki, firmanın resursları kapitalın dövr etməsinin nəticəsidir (8, s. 603). Bu, o demək idi ki, xərclər, gəlirlər və kapital səbəb, aktivlər isə nəticə kimi qəbul edilməlidir. Buradan da nəticə çıxarmaq olar ki, həmin müəllifə görə forma birinci, məzmun ikincidir, yaxud forma məzmundan daha üstündür.

Digər bir konsepsiya nəzərdən keçirilən konsepsiyanın tam əksidir, yəni aktivlər və öhdəliklər ilkindir, onlar gəlirlərin (eyni zamanda kapitalın) və xərclərin mənbəyidir. Bu konsepsiya məzmunun forma üzərində dominantlığını təsbit edir və deməli, birinci konsepsiyadan fərqli olaraq, prinsiplərdə və konseptual əsaslarda qoyulan başlıca tələblərdən birinə cavab verir. Daha doğrusu, ikinci konsepsiyadan o nəticə çıxır ki, aktivlər və öhdəliklər səbəb, gəlirlər (eyni zamanda kapital) və xərclər isə nəticədir.

Bir çox müəlliflər, məsələn, bizim yuxarıda istinad etdiyimiz mənbənin (8, s. 603-604) müəllifləri Qərb ölkələrinin iqtisadçı-mühasiblərinə istinad edərək göstərirlər ki, nəzərdən keçirilən konsepsiyalardan birincisi malyyə hesabatının maliyyə vəziyyəti haqqında hesabat formasına, ikincisi isə maliyyə nəticləri haqqında hesabat formasına üstünlük yaradır. Buna əsaslanaraq, onlar informasiyanın istifadəçiləri üçün Avropada maliyyə vəziyyəti haqqında hesabat formasının, ABŞ-də isə maliyyə nəticləri haqında hesabat formasının daha çox əhəmiyyət kəsb etdiyini vurğulayırlar.

Fikrimizcə, söhbət hansısa konsepsiyanın və ona əsaslanan hesabat formasının üstünlüyündən deyil, həmin hesabat formasının elementlərinin hansının məzmun, hansının isə forma qismində çıxış etməsindən, hansının səbəb, hansının nəticə olmasından getməlidir. Səbəb-nəticə əlaqələrinin hərtərəfli araşdırılması nəinki təkcə müvafiq metodologiyanın işlənib hazırlanması, eləcə də elementlərə düzgün tərif verilməsi üçün mühüm əhəmiyyətə malikdir. Tədqiqat qöstərir ki, hər bir elementi düzgün açıqlamaq, elementlər arasındakı səbəb-nəticə əlaqələrini müəyyən etmək üçün aşağıdakı suallara cavab vermək lazım gəlir:

- element nədir (mahiyyət);
- elementə nə daxildir (təsnifat);
- elementi necə ölçmək olar (qiymətləndirmə metodları);
- element barədə məlumatı (informasiyanı) nə vaxt və necə əks etdirmək olar (tanınma və uçot yazılışı metodikası).

Prinsiplərdə və konseptual əsaslarda elementlərə verilən təriflər demək olar ki, eynidir:

aktiblər - keçmiş dövrlərin hadisələri nəticəsində şirkət tərəfindən nəzarət olunan iqtisadi resurslardır, hansılardan ki şirkət gələcəkdə iqtisadi fayda gözləyir;

öhdəlik - şirkətin keçmiş dövrlərin hadisələri nəticəsində yaranmış cari borcudur, hansının ki tənzimlənməsi tərkibində iqtisadi fayda ehtiva edən resursların şirkətdən axınına gətirib çıxaracaq;

kapital - şirkətin bütün öhdəlikləri çıxıldıqdan sonra, onun aktivlərdə olan payıdır;

gəlir - hesabat dövrü müddətində aktivlərin axıb gəlməsi yaxud artması, yaxud öhdəliklərin azalması formasında iqtisadi faydanın artmasıdır, bu da öz əksini kapitalın səhmdar kapitalı iştirakçılarının əlavə qoyuluşları ilə bağlı olmayan artımında tapır;

xərclər - hesabat dövrü müddətində aktivlərin axıb getməsi yaxud tükənməsi, yaxud öhdəliklərin artması formasında iqtisadi faydanın azalmasıdır, bu da öz əksini kapitalın səhmdar kapitalı iştirakçıları arasında bölüşdürülməsi ilə bağlı olmayan azalmasında tapır (2; s. 45, s. 50-51, 4, s. 15-16).

Baxmayaraq ki, həmin tərifləri heç də hamısını mükəmməl hesab etmək olmaz, bununla belə, onlar bütövlükdə "element nədir?" sualına cavab verir. Aktivlərə verilən tərif birmənalı göstərir ki, əslində onlar iqtisadi resurslardır, yəni real şeylərdir, tələb olunan hüquqlardır (debitor borclarıdır). Tərifdə bir şey diqqəti cəlb edir: kapitalın, öhdəliklərin, gəlir və xərclərin mahiyyəti açıqlanarkən, onların hamısında aktivlər terminindən istifadə olunur, halbuki aktivlərə verilən tərifdə digər heç bir elementin adı çəkilmir. Bu da təsadüfi deyil. Aktivlər digər bütün elementlərin substansiyasıdır yaxud mövcudluq formasıdır, müvcud olan reallıqdır.

Araşdırmalar deməyə əsas verir ki, əksər müəlliflər və hətta bir sıra ölkələrin normativ sənədləri yalnız aktivləri deyil, öhdəlikləri də substansiya və ya səbəb kimi götürürlər. Hesab edirik ki, bu konsepsiyanın da nəzəri, eləcə də hüquqi-praktiki baxımdan əsası yoxdur. Məsələ ondadır ki, aktivlərlə digər elementlərin qarşılıqlı əlaqəsi ümumi ilə xüsusinin əlaqəsi kimi meydana çıxır. Aktivlər ümumi, qalan elementlər isə xüsusi kimi təzahür edir: ümumidə mütləq xüsusilər vardır, eyni zamanda hər bir xüsusidə ümumi mövcuddur. Aktivlər olmadan yaxud yaranmadan digər elementlərin mövcudluğu mümkün deyil. Bütün digər elementlər öz başlanğıcını aktivlərdən götürür. Bunun belə olmasını ilk növbədə hamıya tanış olan və hamı tərəfindən qəbul edilən aşağıdakı sadə tənlik də sübut edir:

$$\mathbf{A=K+Ö+G-X} \qquad \mathbf{(1)}$$

Burada, aktivlər – bütövlükdür, kapital (K), öhdəliklər (Ö), gəlirlər (G), xərclər (X) isə həmin bütövlüyün simvolları, daşıyıcılarıdır. Kapital və öhdəliklər aktivlər uzərində mülkiyyət hüququnun bölgüsünü göstərir. Əgər mülkiyyət yoxdursa, mülkiyyət hüququ da ola bilməz. Simvolların hər hansı birinin olmaması belə bütövlüyün yox olmasına gətirib çıxarmır, onun yalnız kəmiyyəti azala bilir. Heç bir simvolun olmaması isə bütövlüyün yoxluğuna dəlalət edir. Kapital və öhdəliklərdən fərqli olaraq xərclər aktivlərin konkret məqsədə çevrilmiş formasıdır, məsələn, aktivlərin (iqtisadi resursların) investisiyalara və bitməmiş istehsalata yönəldilmiş hissəsidir. Belə xərclərdən başqa, öhdəliklər yaradan xərclər də vardır, məsələn, əməkhaqqı xərcləri, vergi xərcləri və s. Bu qəbildən olan öhdəliklərin yaranması aktivlərin yaranması ilə bağlıdır. İnvestisiyalar və bitməmiş istehsalat formasında olan xərclər, son nəticədə müvafiq olaraq uzunmüddətli və cari aktivlərə çevrilir.

Aktivlər ilə digər elementlərin səbəb-nəticə əlaqələrini aşağıdakı bərabərliklərdən daha aydın görmək olar:

A=K - aktivlər müəsssənin öz mulkiyyətidir;

A=Ö - aktivlər müəsssənin öz mulkiyyəti deyildir;

A=K+Ö - aktivlər müəsssənin, həmçinin digər hüquqi və fiziki şəxslərin mülkiyyətidir;

A=X - aktivlər xərclərə çevrilmişdir;

A=G - ola biməz, çünki burada xərc yoxdur;

A=G - kənardan əvəzsiz qaydada aktivlər daxil olduqda;

A =K+Ö+G> X - aktivlər artır və/və ya öhdəliklər azalır;

A=K+Ö+G< X - aktivlər azalır və/və ya öhdəliklər artır;

A=O - aktivlər sıfıra bərabər olduqda, nə məzmun var, nə mülkiyyət hüququ, nə səbəb var, nə də nəticə.

Deyilənlərə əsasən, belə nəticəyə gəlmək olar ki, aktivlər səbəb, qalan digər elementlər isə nəticə kimi qəbul edilməlidir.

Artivlərin substansiya elementi olmasını, yəni onların səbəb, qalan elementlərin isə nəticə kmi çıxış etməsini sübut edən ən mühüm arqumentlərdən biri də budur ki, digər bütün elementlər yalnız aktivlərin bazasında qiymətləndirilə bilər. Məsələn, kapitalın əsas komponenti olan nizamnamə (nominal) kapitalının kəmiyyəti təsisçilərin (səhmdarların) pay kimi təqdim etdiyi aktivlərin razılaşdırılmış qiymətləri yaxud ədalətli dəyəri ilə qiymətləndirilir. Bütövlükdə kapitalın sonrakı qiymətləndirilməsi və ya yenidən qiymələndirilməsi yenə də aktivlərin uzun- müddətli hissəsinin dəyərinin dəyişilməsindən asılı olaraq həyata keçirilir. Yenidən qiymətləndirmə nəticəsində uzunmüddətli aktivlərin ədalətli dəyərinin artması kapitalın yenidən qiymətləndirmə üzrə ehtiyat komponentinin artmasına, onların ədalətli dəyərinin azalması isə həmin komponentin azalmasına səbəb olur.

Öhdəliklərin ilkin kəmiyyətinin yaranması və sonrakı dəyişilməsi də aktivlərin kəmiyyəti ilə ölçülür. Əgər şirkət bankdan 100000 manat həcmində kredit götürmüşsə, onda onun öhdəliklərinin ilkin kəmiyyəti həmin məbləğdə pul aktivlərinin kəmiyyəti ilə ölçüləcəkdir. Bankdan alınmış kredit üzrə əsas borcun, həmçinin həmin kreditə görə ödəniləcək faizin məbləği də ödəniləcək pul aktivlərinin diskontlaşdırılmamış (qısamüddətli öhdəliklər üzrə) və ya diskontlaşdırılmış (uzunmüddətli öhdəliklər üzrə) kəmiyyəti ilə müəyyən olunacaqdır.

Gəlirin real kəmiyyəti fəaliyyət nəticəində əldə olunacaq pul aktivlərinin ya da digər maddi və qeyri-monetar aktivlərin kəmiyyəti ilə ölçülə bilər. İstənilən xərclərin kəmiyyəti özündə aktivləri əks etdirən resursların istifadə olunmuş yaxud istifadə olunacaq dəyəri ilə ölçülməlidir. Beləliklə, nəticə çıxarmaq olar ki, aktivlər maliyyə uçotu və hesabatının digər elementlərinin ilkin və sonrakı kəmiyyətinin müəyyən edilməsinin əsasında durur.

Deyilənlərlə bağlı sual yarana bilər ki, nəyə görə aktivlərdən başqa, digər elementlər müstəqil şəkildə, yəni aktivlərlə ölçülmə olmadan, qiymətləndirilə bilməz?

Əvvəla, qeyd etmək lazımdır ki, kapital, öhdəliklər, gəlirlər və xərclər anlayışları mücərrəd anlayışlardır, onların mövcudluq forması aktivlərdir, ona görə də onların dəyəri yalnız real mövcudluğa malik olan aktivlərin dəyəri ilə ölçulə bilər. Digər tərəfdən, kapital, öhdəliklər, gəlirlər və xərclərdən fərqli olaraq aktivlər eyni vaxtda

həm dəyərə, həm də konkret istelak dəyərinə malikdir. Başqa sözlə, aktivlər dəyərə malik olmaqdan əlavə, bu və ja digər tələbatı ödəmək, ya da hansısa iqtisadi fayda gətirmək funksiysına (xassəsinə) malikdir. Kapital, öhdəliklər, gəlirlər və xərclər yalnız dəyər ifadəsində əks etdirilir, ancaq qeyd olunduğu kimi, onların dəyəri aktivlərin dəyəri əsasında ölçulə bilər.

Ədəbiyyat

[1] "Mühasibat uçotu haqqında" AR Qanunu. Bakı, 2004;

[2] Международные Стандарты Финансовой Отчетности 1999; издание на русском языке. М.: Аскери-АССА, 1999;

[3] Международные Стандарты Финансовой Отчетности 2011; издание на русском языке. М.: Аскери-АССА, 2011;

[4] Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının konseptual əsasları. Bakı, 2010;

[5] Качалин В.В. Финансовый учет и отчетность в соответствии со стандартами GAAP. – 4-е изд.- М.: Дело, 1998, 432 с.

[6]Хендриксен Э.С., Ван Бреда М.Ф. Теория бухгалтерского учета: Пер. с англ./Под ред. проф. Соколова Я.В.- М.:Финансы и статисика, 1997.-576 с.

[7] Нидлз Б. и др. Принципы бухгалтерского учета / Б.Нидлз, Х. Андерсон, Д. Колдуэлл: Пер. с англ. / Под ред. проф. Я.В. Соколова. –2-е изд., стереотип.- М.:Финансы и статисика,1997.- 496 с.

[8] Бухгалтерский учет: учеб. / И. И. Бочкарева, В. А. Быков и др./ Под ред. Я.В. Соколова. – 2-е изд., М.: ТК Велби, Изд-во Проспект, 2007.-776 с.

[9] Кондраков Н. П. Бухгалтерский учет: учеб. пособие.- 5-е изд., перераб. и доп.- М.: ИНФРА-М, 2007.- 717 с.

[10] Лука Пачоли. Трактат о счетах и записях. Москва, «Финансы и статистика», 1983-277 с.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 56 - 73
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 56 - 73

FİSKAL SİYASƏTİN SƏMƏRƏLİLİYİ

Q.S. Əlləzov
i.e.n., dos, UNEC
Tel:(+994112)5666490; (+99450)3804179
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi fiskal siyasətin əsaslarını, prioritetlərini, alətlərini, strateji məqsəd və vəzifələrini, onun səmərəliliyini öyrənməkdən ibarətdir. Tədqiqatda fiskal siyasətə makroiqrisadi sabitliyin təmin edilməsinin iqtisadi amili və aləti kimi baxılmış, diqqət mərkəzində isə onun səmərəlilik problemi olmuşdur. İşdə fiskal siyasətin istiqamətləri, onların iqtisadi fəallığa və makroiqtisadi sabitliyə fərqli təsiri tədqiq edilmişdir. Tədqiqat işində Azərbaycan Respublikasının fiskal siyasəti sistemli şəkildə öyrənilmiş və inkişaf etmiş ölkələrin təcrübəsinə istinadən onun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində təklif və tövsiyələr verilmişdir. Tədqiqat işi sistemli təhlilin analitik, induktiv və deduktiv üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqat işinin orijinallığı və praktiki əhəmiyyəti fiskal siyasətin səmərəliliyinə, onun iqtisadiyyatın rəqabət qabiliyyətliliyi və maliyyə dayanaqlılığını təmin etməsinə əhəmiyyət verilməsidir.

Açar sözlər: fiskal siyasət, sabitləşmə siyasəti, vergiqoyma, büdcə gəlirləri, büdcə xərcləri.
Jel Classification: E62

EFFECTIVENESS OF FISCAL POLICY

Abstract

The main objective of the study is to examine the basics, priorities, tools, strategic objectives and objectives of fiscal policy, as well as its effectiveness. In research, fiscal policy is viewed as an economic factor and a tool that provides macroeconomic stability, and the focus is on its effectiveness. The paper studies the directions of fiscal policy, their various influences on economic activity and macroeconomic stability. The scientific article systematically studied the fiscal policy of the Republic of Azerbaijan and developed, based on the experience of developed countries, proposals and recommendations in the direction of improving it and enhancing its effectiveness. The study was carried out on the basis of methods of system analysis such as: analytical, inductive and deductive methods.

Keywords: fiscal policy, stabilization policy, taxation, budget revenues, budget expenditures.

ЭФФЕКТИВНОСТЬ ФИСКАЛЬНОЙ ПОЛИТИКИ

Резюме

Основная цель исследования заключается в рассмотрении основ, приоритетов, инструментов, стратегических целей и задач фискальной политики, а также ее эффективности. В исследовательской работе фискальная политика рассматривается как экономический фактор и инструмент, обеспечивающий макроэкономическую стабильность, а центральное место отведено проблеме ее эффективности. В работе исследуются направления фискальной политики, их различные влияния на экономическую активность и макроэкономическую стабильность. В научной статье системно изучена фискальная политика Азербайджанской Республики и выработаны, на основе опыта развитых стран, предложения и рекомендации в направлении ее совершенствования и повышения ее эффективности. Исследование было осуществлено на основе методов системного анализа таких как: аналитический, индуктивный и дедуктивный методы.

Ключевые слова: фискальная политика, политика стабилизации, налогообложение, доходы бюджета, расходы бюджета.

Fiskal (büdcə-vergi) siyasət makroiqtisadi siyasətin tərkib hissəsi olmaqla, istənilən iqtisadi sistemə güclü təsir göstərir. Fiskal siyasət dövlət orqanları ilə bütün iqtisadi fəalliyyətin yerdə qalan subyektlərinin qarşılıqlı fəaliyyətini təmin edir. Bu qarşılıqlı fəaliyyətə dövlət xərcləri və sifarişləri, vergiqoyma və transfert ödənişləri kimi makroiqtisadi elementlər vasitəsi ilə nail olunur. Bunların vasitəsilə məcmu tələbdə baş verən tərəddüdlər aradan qalxır, o, stimullaşdırılır və ya məhdudlaşdırılır, nəticədə iqtisadiyyatda tarazlıq yaranır.

İqtisadiyyatda istehsalın həcmində baş verən tərəddüdlər sabitləşmə siyasəti çərçivəsində öz həllini tapır. İqtisadiyyatın real sektorunun sabit və dayanıqlı inkişafının əsası sabitləşmə siyasəti çərçivəsində yaradılan dayanıqlı maliyyə sabitliyidir. Sabitləşmə siyasətinin isə əsas elementi fiksal siyasətdir. Fiskal siyasət dedikdə, adətən büdcə-vergi tənzimləmə tədbirinin, daha doğrusu, dövlət xərclərinin və vergiqoymanın əsasən məcmu tələbə nəzarət məqsədi ilə istifadə olunması başa düşülür.

Fiksal siyasətin məqsədi ilk növbədə qısa və uzunmüddətli dövrlərdə makroiqtisadi sabitliyə nail olmaq, vəzifəsi isə məcmu tələbi stimullaşdırmaq yolu ilə qısa və uzunmüddətli dövrlərdə istehsalın real həcmini potensiala yaxın səviyyədə saxlamaqdır. Tələbin stimullaşdırılması öz növbəsində iqtisadiyyatda məhsul buraxılışı səviyyəsinin dəyişməsinə səbəb olur.

Fiskal siyasət keynsçi makroiqtisadi siyasətdə həlledici hesab olunur və ona makroiqtisadi sabitləşdirmənin ən səmərəli vasitəsi kimi baxılır. Keynsçi makroiqtisadi

siyasətdə fiskal siyasət qısamüddətli dövrdə iqtisadiyyatın tənəzzülünün aradan qaldırılmasının və yüksəlişinin stimullaşdırılmasının yaradıcı (şüurlu) aləti hesab olunur. Ona görə də ondan həm tənəzzül dövründə, həm də yüksəliş dövründə bir vasitə kimi istifadə olunur. Fiskal siyasətin məqsədi iqtisadiyyatda tərəddüdü yox etməkdən və əsaslı bərabərsizliyin əmələ gəlməsinin vaxtında qabağını almaqdan, istənilən ciddi inflyasiyalı və inflyasiyasız uygunsuzluqları ləğv etməkdən və makroiqtisadi məqsədləri: tam məşğulluğu, qiymət sabitliyini və iqtisadi artımı təmin etməkdən ibarətdir.

Fiskal siyasətin məğzini təşkil edən dövlət xərcləri və sifarişləri strukturunun tənəzzül və yüksəliş dövrlərinə müvafiq dəyişdirilməsi və vergi islahatlarının həyata kecirilməsi iqtisadiyyata dövlətin müdaxiləsinin təzahürü olduğundan, ehtiyatlı fiskal siyasət - fiskal siyasətdən ehtiyatlı istifadə edilməsi, əks halda olduğundan iqtisadiyyatı daha cox sabit saxlaya bilir.

Fiskal siyasət özündə büdcə, vergi, gəlirlər və xərclər siyasətini birləşdirir. Bütövlükdə fiksal siyasət dövlətin maliyyə resurslarının idarəsinin təşkili, onların ölkənin sosial iqtisadi problemlərinin həlli məqsədi ilə istifadəsi üzrə bütövlükdə dövlət tədbirlərində təzahür edir. Dövlət fiksal siyasəti həyata kecirməklə ölkədə qlobal iqtisadi prosesləri tənzimləyir, məcmu tələbin həcminə və strukturuna, ümumi iqtisadi konyunktura təsir göstərir.

Fiksal siyasət stimullaşdırıcı və məhdudlaşdırıcı xarakter daşıyır və bu istiqamətlərdə həyata kecirilir. Stimullaşdırıcı (ekspanionist) fiskal siyasət iqtisadiyyatda sürəkli (davamlı) tənəzzülün və təhlükəli (qorxulu) böhran hadisələrinin aradan qaldırılması ücün istifadə edilir. Bunun ücün dövlət xərcləri artırılır, vergilər azaldılır və transfert ödənişlər artırılır. Bu, məcmu tələbə təsir göstərməklə inflyasiyaya təkan verməsinə baxmayaraq, iqtisadiyyatı güclü surətdə stimullaşdırır.

İqtisadi yüksəliş dövründə, işgüzar tsikllə əlaqədar, iqtisadiyyatda baş verən tərəddüdü sahmanlamaq ücün ləngidici fiskal siyasət həyata kecirilir. Bu vaxt dövlət xərcləri azaldılır və vergilər artırılır. Bu siyasət ekspansiyanı zəiflədir və artan inflyasiya və tədiyyə balansının pisləşməsi ilə müşayiət olunan iqtisadiyyatın qədərindən artıq "qızmasının" qarşısını alır və artımın parametrlərini yol verilən həddə saxlayır.

Qısamüddətli dövrdə fiskal siyasətin tədbirləri dövlət xərcləri, vergilər və balanslaşdırılmış büdcə multiplikatorlarının effektləri ilə müşayiət olunur. Multiplikasiya prosesi xərclərin artdığı qədər gəliri də həmin həcimdə artıraraq, öz növbəsində həmin qədər istehlakın artmasına gətirib cıxarır. Multiplikatorun kəmiyyətini müəyyən edən əsas amil istehlakın son hədd meyilliliyidir.

Fiskal siyasətin təzahürünün ən tipik forması iqtisadi tsiklin tənəzzül və yüksəliş fazaları arası iqtisadiyyatın qismən sabit vəziyyətinə uyğun həyata keçirilən sabitləşdirici fiskal siyasətdir.

Sabitləşmə siyasəti ölkənin ÜMM-i həcmini potensial həcminə yaxınlaşdırmaq, məşğulluğun yüksək səviyyəsini təmin etmək, inflyasiyanı yol verilən hədlərdə saxlamaq məqsədilə maliyyə axınlarının və pul tədavülünün tənzimlənməsi üzrə dövlətin fəaliyyətidir. Sabitləşmə siyasəti bir tərəfdən qeyri-sabit böhran vəziyyətinə keçidi aradan qaldırmağı nəzərdə tutur. Bunun ücün iqtisadi parametrləri müəyyən hədlərdə saxlamaq lazım gəlir. Digər tərəfdən isə makroiqtisadi göstəriciləri optimala yaxınlaşdirmağa cəhd göstərməklə yaranmış iqtisadi vəziyyəti yaxşılaşdırmağı nəzərdə tutur.

İqtisadiyyatda təsir prosesinin xarakterindən asılı olaraq, fiskal siyasətdə avtomatik və tənzimlənən sabitləşmə bir-birindən fərqlənir. Milli gəlirin artması ilə bərabər, vergilərdən daxilolmaların artması və milli gəlirin artdığı şəraitdə maddi yardımın aşağı düşməsi avtomatik sabitləşmə adlanır. Avtomatik sabitləşmə hökumət müdaxilə etmədən sabit vəziyyətdən kənarlaşmaya avtomatik cavab verə bilən iqtisadiyyatda qəbul olunmuş və fəaliyyət göstərən qayda və normaların olduğunu nəzərdə tutur. Bu vaxt hökumət artıq yetkin olan norma və qaydanı mütləq saxlayır.

Avtomatik sabitləşmə milli gəlirin səviyyəsinə uyğun məşğulluğun səviyyəsinin, istehsal həcminin, inflyasiyanın surətlərinin və tədiyyə balansının avtomatik dəyişikliyidir. Bunun nəticəsində hökumətin hec bir qabaqcadan düşünülmüş fəaliyyəti olmadan, milli gəlirin tərəddüd səviyyəsi aşağı düşür. Avtomatik sabitləşmə milli gəlirin istər yüksəlmə, istərsə də azalma tərəfə hərəkətini azaldaraq, multiplikatorun kəmiyyətlərinin azalmasına səbəb olur. Nəticədə milli gəlirin tsiklik tərəddüdləri avtomatik sabitləşməklə aradan qalxır. Vergilər nə qədər çox artırsa və maddi yardım nə qədər çox azalırsa, vergiqoymaya xalis həddi meyillilik bir o qədər çox olur. Vergiqoymaya xalis həddi meyillilik nə qədər yüksək olursa, multiplikator bir o qədər aşağı və sabitləşdirici effekt bir o qədər çox olur. Lakin avtomatik sabitləşdiricilər istehsalın cari səviyyəsi arzuolunan səviyyədə olduqda, daha yaxşı nəticə verir. İqtisadiyyat kütləvi işsizliklə müşayiət olunan vaxtda, əgər o (iqtisadiyyat), bərpa olunmağa başlayırsa, onda avtomatik sabitləşdiricilər yüksəliş yoluna mane kimi fəaliyyət göstərir. Bu vaxt avtomatik sabitləşdiricilər multiplikatorun kəmiyyətini aşağı salaraq, iqtisadiyyatın bərpasının miqyasını azaldır. Digər tərəfdən, xüsusi sektorun istehlaka və yığıma sərf etdiyi sərəncamda qalan gəlir vergi dərəcəsinin və dövlət transferlərinin kəmiyyətindən asılıdır. Dövlət fiskal tədbirlərlə məcmu tələbin kəmiyyətinə təsir göstərməklə iqtisadiyyatda istehsalın tarazlıq həcmini qısamüddətli dövrdə təmin edə bilir. Dövlətin fiskal siyasəti təkcə qısamüddətli dövrdə səmərəli olmur. Fiskal siyasət məcmu tələblə yanaşı, həm də məcmu

təklifə (dövlətin vergi dərəcələrini aşağı salması ilə məcmu təklifin uzunmüddətli genişlənməsini stimullaşdırması) təsir göstərməklə iqtisadiyyatın uzunmüddətli dövrdə tarazlıq səviyyəsində olması üçün zəmin yaratmış olur.

Avtomatik sabitləşdiricilər olan vergi daxilolmaları və maddi yardım multiplikatorun kəmiyyətinə azaldıcı təsir göstərir və ona görə də tsiklik sıçrayışlar və azalmalar azalır. Bütün bunlara rəğmən, avtomatik sabitləşdiricilər hec də hər vaxt iqtisadiyyatda olan tərəddüdləri aradan qaldıra, sabitləşmənin tələb olan səviyyəsini təmin edə bilmir. Avtomatik sabitləşdiricilər sadəcə olaraq tərəddüdlərin vüsətini azaldır. Bu isə o deməkdir ki, əvvəl qəbul edilmiş qanunverici aktlar, qayda və normalar iqtisadiyyatda baş verən tərəddüdləri aradan qaldirmaq gücündə deyil. Ona görə də iqtisadiyyatda əsaslı uyğunsuzluq olduqda, hökumət dərhal tərəddüdlərə cavab vermək məcburiyyətində qalır, dövlət xərclərinin səviyyəsində və vergi- qoyma dərəcələrində diskretsion dəyişiklik edir. Hökumətin bu cür fəaliyyəti tənzimlənən (diskretsion) fiskal siyasət adlanır. Bu zaman iqtisadiyyatın sabit vəziyyətini təmin etməyə təminat verən daimi fəaliyyət göstərən qayda və normalar da dəyişdirilir və dövlət hər konkret vəziyyətə uyğun olaraq təsir tədbirləri seçir.

Vergi qoymada və dövlət xərclərində diskretsion dəyişiklik məcmu tələbin dəyişdirilməsi üçün əsasən istifadə edilməsinə baxmayaraq, həmçinin məcmu təklifin dəyişməsi, gəlirlərin bölgüsünün dəyişməsi, dövlət mülkiyyətinin və iqtisadiyyata müdaxilə dərəcəsinin dəyişməsi məqsədləri üçün də istifadə olunur. Nəzərə almaq lazımdır ki, fiskal siyasətin bəzi tədbirləri, məsələn qısamüddətli dövrdə vergi sistemində dəyişiklik hər şeydən əvvəl məcmu tələbə təsir etməklə yanaşı, həm də uzunmüddətli məcmu təklifin dəyişməsinə səbəb olur.

Diskretsion fiksal siyasət ictimai işlər, maddi kömək proqramları, faiz dərəcələrinin dəyişdirilməsi və s. vasitələrlə həyata keçirilir. Bu tələblər iqtisadi gərginliyin mənbələrini ləğv etməyə imkan verir. Lakin həyata keçirilən imtiyazlar, güzəştlər və əlavə yardımlar sonradan çətin ləğv edilir.

Fiksal siyasət tədbirlərindən əmtəə və xidmətlərə (ictimai nemətlərə) dövlət xərclərinin artırılması vergilərin azaldılmasına nisbətən milli gəlirə daha çox təsir göstərir. Dövlət xərclərinin artımı tam multiplikasiya effektilə müşayiət olunur və milli gəlirin mükəmməl multiplikativ artımına səbəb olur. Çünki bütün əldə olunan pul xərclənir və ona görə də bütün onlar məcmu tələbin stimullaşdırılmasına gedir. Vergilərin azaldılması sərəncamda qalan gəlirləri artırır, bunlardan yalnız müəyyən hissəsi xərclənir, müəyyən hissə isə əlavə yığıma, idxal əmtəələrinin alınmasına və digər vergilərin ödənilməsinə gedir. Başqa sözlə desək, vergilərin azaldılmasının bütün məbləği əlavə xərclər formasında gəlirlərin dövriyyəsinə getmir. Vergi multiplikatorunun dövlət xərcləri multiplikatorundan daha az olduğundan, vergilərin aşağı salınması vasitəsilə gəlirin müəyyən artımını təmin etmək üçün bu artımın

dövlət xərcləri vasitəsilə əldə olunmasından daha çox böyük büdcə kəsiri tələb olunur. Bu isə o deməkdir ki, vergilərin tələb olunan səviyyədə aşağı salınması dövlət xərclərinin zəruri artımından daha çox olacaqdır.

Fiskal siyasətin müvəffəqiyyətini, onun səmərəliliyini tələbin nə dərəcədə dəqiq "köklənməsi", onun milli gəlirin hökumətin nail olmaq istədiyi səviyyəsini təmin edə bilməsi, inflyasiyasız tam məşğulluğun təmin edilməsi, hökumətin vergiləri və xərcləri nə qədər dəyişməsini düzgün qiymətləndirə bilməsi əks etdirir. Fiskal siyasətin səmərəliliyi əsasən proqnozların dəqiqliyindən, fiskal tədbirlərin nəticələrini qabaqcadan görə bilməkdən və iqtisadi gözləmələrin dəyişkənliyindən aslıdır. Tələblə əlaqədar nə baş verə biləcəyinin proqnozu nə qədər çox dəqiq olarsa, hökumət tələbin artıqlığı və əksikliyi ilə əlaqədar olan problemi mümkün qədər tez aradan qaldıra bilir. Fiskal siyasətin nəticələrinin həcmini sadəcə olaraq əvvəldən görmək vəziyyətində olmaq lazım deyil, vaxt üzrə səmərələrin bölgüsünü, onların müddətini qabaqcadan görmək lazımdır. Əgər fiskal siyasətin tətbiqində uzunmüddətli vaxt gecikməsi mövcud olarsa, onun tədbiqi iqtisadiyyatda tərəddüdlərin azaldılması vasitəsi kimi olduqca az müvəffəqiyyətli olar. Deməli, fiskal siyasətin səmərəliliyi dövlət xərclərinin və vergi qoymaların dəyişməsinin xərclərin ümumi artımına və vergi daxil olmalarının azalmasına təsir dərəcəsindən, dövlət xərclərinin və vergi tutmalarının dəyişdirilməsinin digər artma və azalmanın dəyişməsi (bu dəyişiklik əgər qabaqcadan bilinəndirsə) ilə qismən ödənilə bilməsindən, artma və azalmada dəyişikliyin milli gəlirə təsir həddindən, məcmu tələbdə dəyişikliyin istehsalın həcminə, məşğulluğa, inflyasiyaya və tədiyyə balansına təsir həddindən, fiskal siyasətə xas olan hər cür stimulu öldürən çox yüksək vergi kimi arzuolunmaz nəticələrin dərəcəsindən asılıdır.

Fiskal siyasətin səmərəliliyinə təsir göstərən əsas amil onun "sıxışdırıb çıxarma" effektidir. Fiskal tədbirlər sıxışdırma effekti doğurur və inflyasiyanın səviyyəsinin yüksəlməsinə səbəb olur ki, bu da onların stimullaşdırıcı effektini əhəmiyyətli dərəcədə azaldır. Ona görə də klassik iqtisadi modeldə fiskal siyasətə ikinci dərəcəli kimi baxılır və sabitləşmənin ən səmərəli vasitəsi monetar (pul-kredit) siyasət sayılır. Bu model hesab edir ki, pul təklifinin dəyişməsi məcmu tələbə bilavasitə və deməli, minimal UDM-ə təsir edir. Sıxışdırma effekti dövlət kəsirinin xüsusi sektora investisiyaların azalmasına, xalis ixracın aşağı düşməsinə və qismən istehlak xərclərinin azalmasına səbəb olan faizinin orta bazar dərəcəsini artıran dövlət istiqrazlarının buraxılışı yolu ilə maliyyələşdirildikdə yaranır.

Yüksək vergi dərəcəsi cəhd və təşəbbüslərin əmələ gəlməsinə mane ola bilir. Vergi dərəcəsi həddi nə qədər yüksək olursa, vergi sistemini təmin edən sabitlik bir o qədər çox olur. Lakin vergilərin dərəcəsi nə qədər yüksək olursa, daha çox ehtimalla onlar işə və investisiyaya stimulların aşağı düşməsinə gətirib çıxarır.

Gəlir vergisi dərəcəsinin daha yüksək həddi əmək fəaliyyətinin daha yüksək həddə məsrəfi ilə ekvivalentdir. Bu zaman insanlar az işləməyə üstünlük verir, gəliri istirahətlə əvəz edirlər.

İşsizliyə görə maddi yardım sabit işsizliyi artıra bilir. İşsizliyə görə yüksək maddi yardım işsizliyin həyatın ağırlığını azaldaraq, insanların ilk vakansiyanı qəbul etmək əvəzinə yaxşı iş axtarmağa daha çox vaxt sərf etməsinə təkan verir. Gəlirlə bağlı olan yüksək maddi yardım "yoxsulluq tələsi" yarada bilir. Gəlirdən asılı olan maddi yardımın səviyyəsi nə qədər yüksək olursa, onlar bir o qədər sürətlə azalır, "yoxsulluq tələsi" bir o qədər böyük olur.

Avtomatik sabitləşdiricilər milli gəlirin yuxarı və aşağı tərəddüdlərini aşağı salmağa kömək edir. Bu, milli gəlirin cari səviyyəsi arzu olunan səviyyədə olduqda, daha yaxşı nəticə verir. İqtisadiyyat kütləvi işsizliklə müşayiət olunan dərin tənəzzul keçirdiyi vaxtda, əgər o (iqtisadiyyat), bərpa olunmağa başlayırsa, avtomatik sabitləşdiricilər yüksəliş yoluna maneə kimi fəaliyyət göstərir. Bu zaman avtomatik sabitləşdiricilər multiplikatorun kəmiyyətini aşağı salaraq, iqtisadiyyatın bərpasının miqyasını azaldır.

Əgər dövlət xərclərinin yüksəldilməsi özəl xərclərin müəyyən miqdarını əvəz edirsə, bu zaman dövlət xərclərinin artımı ümumi daxil olmaların azalmasına gətirib çıxara bilir. Məsələn, dövlət təhsilinə xərclərin artması bəzi valideynləri öz uşaqlarını xüsusi məktəbə göndərməkdən imtina etməyə məcbur edə bilir. Eynilə də dövlət səhiyyəsinin yaxşılaşması özəl səhiyyə xidmətinə görə az adamların ödəniş etməsinə səbəb olur.

Dövlət xalis fiskal siyasət (dövlət büdcə kəsirinin artımını pul təklifinin artımı hesabına maliyyələşdirmirsə, lakin xüsusi adamlardan və özəl firmalardan borc almaqla həyata keçirirsə) maliyyə resursları uğrunda özəl sektorla rəqabət aparmalı olur və yüksək faiz dərəcəsi təklif edir. Bu, özəl sektoru da həmçinin yüksək faiz dərəcəsi təklif etməyə məcbur edir ki, bu da firmanı investisiya qoymaq, ayrı-ayrı adamların isə kredit almaq həvəsini öldürür. Beləliklə, hökumətin borclanması özəl borclanmanı sıxışdırıb aradan çıxarır. Son halda, investisiyanın və istehlakın aşağı düşməsi dövlət xərclərinin artımını tam kompensasiya edir, nəticədə məcmu tələb ümumiyyətlə artmır. Bu halda, dövlət xərclərinin artımı pula olan tələbin artmasına səbəb olur. Nəticədə faiz dərəcəsi yüksəlir. Faizin daha yüksək dərəcəsi investisiyaların azalmasına səbəb olur.

Stimullaşdırıcı fiskal siyasətin nisbi səmərəliliyi sıxışdırıb çıxarma effektinin kəmiyyətilə müəyyən olunur. Sıxışdırma effekti məhsul buraxılışının artma effektindən (digər şərtlər dəyişməz qaldıqda) az olduqda, fiskal siyasət səmərəli olur. Çünki investisyaların və xalis ixracın faiz dərəcəsinin dinamikasına həssaslığı aşağı, pula tələbin faiz dərəcəsi dinamikasına həssaslığı yüksək olduqda, faiz dərəcəsinin əhə-

miyyətli artımı cüzi sıxışdırıb çıxarmaya səbəb olur və onun effekti zəif olur. Əks halda, yəni investisyaların və xalis ixracın faiz dərəcəsinin dinamikasına həsassızlığı yüksək, pula tələbin faiz dərəcəsinin dinamikasına həsassızlığı aşağı olduqda, sıxışdırıb çıxarma effekti daha təsirli olur.

Dövlət büdcə kəsirini maliyyələşdirmək üçün istiqraz vərəqəsi və xəzinə vekselərini buraxmaqla borclanmaya getdikdə, bu istiqrazları bank sektoru aldıqda, əhəmiyyətli dərəcədə pul təklifinin artmasına gətirib çıxarır. Lakin istiqraz vərəqlərinin və xəzinə vekselərinin özəl sektor (qeyri-bank) tərəfindən alışı pul kütləsinin artımına səbəb olmur .

Əgər fiskal siyasət xalis fiskal deyilsə, yəni dövlətin əlavə borclanması bank sektorunun krediti vasitəsi ilə maliyyələşməsi pul təklifini artırırsa, faiz dərəcəsi əvvəlki səviyyədə qalır və heç bir sıxışdırıb çıxarma baş vermir.

Fiskal siyasətin həyata keçirilməsinin praktiki çətinliklərindən biri də vaxt gecikməsidir. Fiskal siyasətin həyata keçməsi əhəmiyyətli dərəcədə vaxt gecikməsi (laq) ilə baş verir. Fiskal siyasət üçün daxili vaxt gecikməsi daha səciyyəvidir. Bu vaxt gecikməsi orta hesabla 1-2 il təşkil edir. Əgər bu vaxt gecikməsi kifayət qədər uzunmüddətli olursa, büdcə siyasəti hətta pozucu (qeyri-sabitləşdirici) ola bilır. Tənəzzüldən qurtarmaq üçün tətbiq olunan ekspansionist tədbirlər yalnız o vaxt fəaliyyətə başlaya bilir ki, bu vaxt artıq iqtisadiyyat bərpa olunmuş olur və yüksəliş dövrünü keçirir. Bu cur hallarda ekspansionist siyasət tamamilə yersiz olur və onun çərçivəsində həyata keçirilən tədbirlər sadəcə olaraq iqtisadiyyatın bərk qızması problemini pisləşdirir. İqtisadiyyatın həddindən artıq genişlənməsinin qarşısını almaq üçün həyata keçirilən məhdudlaşdırıcı tədbirlər oxşar qaydada öz təsirini yalnız iqtisadiyyat öz yüksəlişini başa vurduğu və artıq tənəzzülə yuvarlandığı vaxt göstərməyə başlayır. Bu halda, ləngidici tədbirlər yalnız tənəzzülü sürətləndirir.

Fiskal siyasətin səmərəliliyini zəiflədən digər amillər: iqtisadi informasiyanın qeyrimükəmməlliyi, iqtisadi gözləmələrin dəyişkənliyi və tarixi analoqların eyni əhəmiyyətli olmamasıdır. Hökumət sıravi iqtisadi subyektlərə nisbətən məcmu tələb və təklifin şokları haqqında azməlumatlı olduqda, fiskal siyasət iqtisadi vəziyyəti yaxşılaşdıra bilmir. Fiskal siyasətin nəticələri daha çox gözləmələrdən asılı olmasına baxmayaraq, digər tərəfdən gözləmələrin özü iqtisadi siyasət tədbirləri ilə müəyyən olunur. İqtisadi gözləmələr iqtisadi subyektlərin davranışlarına mühüm təsir göstərir. Hökumətin fiskal siyasətində dəyişikliklər baş verən zaman iqtisadi davranışı da dəyişir. Gözlənilən inflyasiyanın səviyyəsindən qabaqcadan xəbərdar olmaq antiinflyasiya siyasəti strategiyasını işləyib hazırlamaq üçün xüsusi əhəmiyyət kəsb edir. Fiskal siyasət haqqında fikir daha çox onun tarixdə hansı rol oynadığına və tarixin təcrübəsinə əsaslanır.

Əgər məcmu tələbin tərəddüdünü qabaqcadan görmək mümkün olarsa və əgər vaxt gecikməsinin müddəti məlum olarsa, onda hər şey itirilməmiş olur. Fiskal tədbirlər daha

tez qəbul edilə bilir və onların gecikmiş nəticəsinə vaxtında diqqət vermək mümkün olur. Keynsçilər qəbul edirlər ki, dəyişikliyin kəmiyyəti və vaxt gecikməsi ilə olan problemlər sabitləşdirməni az mükəmməl edir və tələbin tam sabit artımına heç vaxt nail olmaq mümkün olmur. Fiskal siyasət, əgər proqnozlaşdırma metodları və vaxtın minimallaşması ilə əlaqəli olan istifadə edilən tədbirlər yaxşılaşarsa, tərəddüdləri azaldır.

Ekspansionist fiskal siyasət məcmu tələbin stimullaşdırılması məqsədilə dövlət kəsirlərinin artırılması və vergilərin azaldılması nəticəsində məqsədyönlü büdcə kəsiri yaradır. Büdcə kəsiri hökumətin xərclərinin onun vergi qoymadan daxil olmaları üstələdikdə əmələ gəlir. Büdcə kəsiri özlüyündə hökumətin borca girdiyini göstərir. Əgər hökumət bir çox illər ərzində defisitlə işləyirsə, bu borclar yığılır. Bu yığılmış borc dövlət borcu adlanır. Dövlət borcu ölkənin xarici borcu deyil. Bu, dövlətin əsasən öz vətəndaşlarına (dövlət istiqrazlarına, veksellərə sahib olanlara), qismən xarici vətəndaşlara olan borcudur. Başqa sözlə, hökumət öz büdcə kəsirini əsasən ölkə daxili borclanma hesabına maliyyələşdirir.

Büdcə kəsiri, əgər tənəzzül dövründə vergi daxil olmalarının avtomatik ixtisarı və dövlət transferlərinin artması ilə əmələ gəlirsə, bu, tsiklik büdcə kəsiri adlanır.

Tsiklin tənəzzul dövründə büdcə kəsirinin məqsədyönlü artımı zamanı avtomatik sabitləşdiricilər qısamüddətli dövrdə məcmu tələbin artımına daha güclü təsir göstərir. Lakin iqtisadiyyatın avtomatik sabitlik dərəcəsinin artması fiskal siyasətin digər daha uzunmüddətli məqsədilə - istehsal amillərinin təklifinin genişlənməsi və iqtisadi potensialın artımı, stimulların möhkəmləndirilməsilə (güclənməsinə) ziddiyyət təşkil edir. İnvestisiya qoymağa, sahibkarlıq riskinə və əməyə stimullar vergi dərəcələri həddinin aşağı salındığı zaman nisbətən güclü olur. Lakin bu azalma tsiklik büdcə kəsiri kəmiyyətinin azalması, nəticə etibarı ilə iqtisadiyyatın avtomatik sabitlik dərəcəsinin azalması ilə müşayiət olunur. Ona görə də fiskal siyasətin qısa və uzunmüddətli səmərəliliyi arasında seçim etmək inkişaf səviyyəsindən asılı olmayaraq, istənilən ölkə üçün həmişə mürəkkəb makroiqtisadi problem olur. Hökumətin həyata keçirdiyi fiskal siyasətin səmərəliliyi onun büdcə vəziyyəti ilə xarakterizə olunur.

Büdcə kəsirinin mövcud olmasına əsasən fiskal siyasətin tədbirləri səmərəliliyini qiymətləndirmək, onun ekspansionist xarakter daşıdığını demək olmaz. Belə ki, tsiklik tarazsız büdcənin olması iqtisadiyyatı resursların tam məşğulluq səviyyəsinə yaxınlaşdırmır.

Uzunmüddətli perspektivdə fiskal siyasətin tədbirinin səmərəliliyi resursların tam məşğulluq səviyyəsi, işsizliyin təbii səviyyəsi və istehsalın potensial həcmi ilə qiymətləndirilir.

Fiskal siyasətin səmərəliliyini qiymətləndirmək üçün kəsirin cari həcminin məcmu tələbin genişlənməsinə səbəb olub-olmamasını bilmək lazımdır. Əgər cari ildə kəsir keçən ildəkindən aşağıdırsa, onda (digər şərtlər dəyişməz olarsa) cari ildə məc-

mu tələb keçən ilə nisbətən aşağı olacaqdır. Bunu nəzərə alaraq ya dövlət xərcləri azaldılmalıdır, ya vergi daxil olmaları artırılmalıdır, ya da bu iki işin bir kombinasiyası baş verməlidir. Ona görə də iqtisadiyyatın avtomatik sabitləşdiriciləri bir qayda olaraq resursların tam məşğulluğuna yönəldilmiş hökumətin diskretsion fiskal siyasətinin tədbirləri ilə əlaqələndirilir. Nəticədə dövlət büdcəsinin struktur kəsiri yaranır. Struktur kəsir tam məşğulluq şəraitində və milli gəlirin "sabit" səviyyəsində büdcənin gəliri ilə xərci arasında yaranan fərqdir. Tsiklik fərq çox vaxt büdcə kəsirinin faktiki kəmiyyəti ilə struktur kəsiri arasındakı fərq kimi qiymətləndirilir.

Digər problem kəsirin həcminin ancaq təkcə hökumətin ətraflı düşünülmüş siyasətinin nəticəsi olmamasıdır. Deməli, o, dövlətin niyyətinin olduqca yaxşı göstəricisi olmaya bilər. Kəsirin kəmiyyəti iqtisadiyyatın vəziyyətindən asılı olur. Əgər iqtisadiyyat yüksəliş mərhələsindədirsə və əhali yüksək gəlir alırsa, ödənilən vergilərin məbləği çox olur. Genişlənən iqtisadiyyatda işsizliyin səviyyəsi aşağı olur. Ona görə də işsizliyə görə ödənilən maddi yardımların da həcmi böyük olmur. Artırılmış vergi yığımının və azaldılmış maddi yardımların birgə effekti kəsirin azaldılmasına səbəb olur. Əksinə, iqtisadiyyat böhran vəziyyətindədirsə, vergi daxil olmaları aşağı olacaq, maddi yardımların ödənişinə dövlət xərcləri yüksək, nəticədə büdcə kəsiri böyük olacaqdır.

Fiskal siyasətin əsas aləti dövlət büdcəsidir. Fiskal siyasətin tərkib hissəsi kimi büdcə siyasəti əsasən tarazlı büdcəyə nail olmağa yönəldilir. Dövlətin büdcə siyasətinin çox vaxt məqsədı təhlükəli səviyyəyə çatmış büdcə kəsirini aradan qaldırmaq olur.

Dövlət büdcəsinin ümumi həcminin 5% həddində ÜDM-in 1-2% qədər büdcə kəsiri təhlükəli sayılmır. Lakin əgər büdcə kəsiri onun kəmiyyətinin onlarla faizinə çatırsa, ÜDM-in 10%-nə yaxınlaşırsa, bu, büdcə siyasətində böyük səhvlər olduğunu və büdcəni kəskin surətlə sabitləşdirmək lazım olduğunu göstərir. Adətən büdcə kəsiri gəlirlərin məbləğinin 10% -nə qədəri yol verilən, kəsir 20% -dən çox olduqda, təhlükəli sayılır. Böyük büdcə kəsirinin olması daxili dövlət borcunun artmasına, dövlətin pul sisteminin pozulmasına və inflyasiyaya gətirib cıxarır.

Böyük büdcə kəsiri istehsalın səmərəliliyinin aşağı olması, sosial xərclərin çox olması, vergilərin büdcəyə daxil olmaması, büdcə xərcləri strukturunun rasional olmaması büdcə mexanizminin səmərəli olmaması səbəbindən yaranır.

Büdcə siyasəti fəaliyyətinin və büdcə siyasəti səmərəliliyi mühüm dərəcədə büdcə potensialından, büdcə mexanizminin dövlətin əlində maliyyə resurslarını toplamaq qabiliyyətindən asılıdır. Büdcə potensialının artması və ya azalması büdcənin investisiya, sosial və müdafiə xarakterli olmasından xəbər verir. Ona görə də büdcə potensialına büdcə-vergi siyasətinin işlənib hazırlanmasında ilkin əsas kimi baxılır.

Azərbaycanın 1995-2015-cu illərdə həyata kecirdiyi fiskal siyasətə aid olan büdcə vəziyyəti cədvəl 1-dəki rəqəmlərlə xarakterizə olunur.

Cədvəl 1. Azərbaycan dövlət büdcəsinin vəziyyəti

ÜDM-ə nisbəti, %-lə	1995	2000	2005	2010	2013	2015
Gəlirlərin	14.9	15.1	16.4	27.0	33.8	32.2
onlardan vergi	7.5	9.5	11.7	11.3	11.6	16.2
Qeyri-vergi	7.4	5.6	4.7	5.6	22.2	16.0
Xərclərin	20.1	16.2	17.1	27.7	33.2	32.7
Kəsirin	5.2	1.0	0.7	0.9	0.6	0.5
Kəsirin gəlirlərə nisbəti,%	3.5	6.9	4.2	3.2	1.8	1.6
İstehlaka həddi meyililik	0.93	0.41	0.21	0.22	0.82	1.33
Ümumi əlavə dəyərin	92.3	93.8	92.4	93.2	93.3	91.7
Ümumi əlavə dəyərin məhsul və xidmətlərin ümumi buraxılışına nisbəti	47.0	54.0	57.1	68.5	67.0	63.2

Mənbə : Azərbaycanın statistik göstəriciləri -B, 2016.

Cədvəl 1-də verilmiş məlumatlar tədqiq edilən dövrdə, bütövlükdə Azərbaycan iqtisadiyyatının vəziyyətini, dövlətin tənzimləməli olduğu büdcənin daxili proporsionallığını, onun əsas tərkib hissələrinin ÜDM-ə olan nisbətini, dövlətin iqtisadiyyata müdaxiləsinin həddini, gəlirin büdcə vasitəsi ilə təkrar bölgüsü dərəcəsini əks etdirir.

1995-ci ildə dövlət xərcləri büdcəyə daxil olmaları üstələmiş, nəticədə büdcə kəsirinin ÜDM-ə nisbəti 5,2%, gəlirlərə nisbəti isə 3,2% olmuşdur. Xərclərin ÜDM-ə olan nisbəti gəlirlərin nisbətini 5,2 bənd üstələmiş və büdcə gəlirinin formalaşmasında vergi daxlolmaları 50% təşkil etmişdir. Bu dövrdə Azərbaycan iqtisadiyyatı staqflyasiya vəziyyətində olmuşdur. 1995-cı ildə ÜDM aşağı düşmüş, onun əvvəlki ilə nisbətən artımı 88,2%, inflyasiya isə 511,8% olmuşdur. Bu vaxt hökumətin tənəzzülü aradan qaldırmaq üçün məcmu tələbi artırması istehsalın real həcmini artırmadan büdcə kəsirinin və inflyasiyanın artması ilə nəticələnmişdir.

1995-ci ildə faktiki son istehlakın azalan ÜDM-ə nisbəti 97,1%, yığımın nisbəti isə 2,4% təşkil etmişdir. Gəlirlərin ÜDM-ə nisbəti maliyyə resurslarının dövlətin əlində cəmləşməsi dərəcəsini, xərclərin ÜDM-ə nisbəti isə bu maliyyə resurslarının ictimai əmtəə və xidmətlərə tələbatları və sosial təminatları ödəyə bilmək imkanlarını səciyyələndirir.

Cədvəldən göründüyü kimi 2000-ci ildən sonra vəziyyət əks istiqamətdə dəyişmişdir. Belə ki, gəlirlərin ÜDM-ə nisbəti getdikcə davamlı şəkildə artmışdır. Bu nisbət 2000-ci ildə 15,1%, 2005-ci ildə 16,4%, 2010-cu ildə 27,0%, 2013-cü ildə 33,8% və 2015-ci ildə 32,2% olmuşdur. Analoji olaraq, xərclərin ÜDM-ə nisbəti də artmışdır. O, 2000-ci ildə 16,2% olmuşsa, 2013-cü ildə 33,2%, 2015-ci ildə 32,7% təşkil etmişdir. Sənayecə inkişaf etmiş ölkələrdə bu göstərici 45%-dir. Bu illərdə büdcədə, onun daxili proporsiyalarında və tərkib hissələrinin ÜDM-ə nisbətində tarazlıq yaranmış, kəsiri 1%-i keçməmiş, hətta bəzi illərdə bunlardan da aşağı olmuşdur. Bütün bunlar iqtisqdiyyatın tənəzzüldən çıxmasını, onun canlanmasını

göstərir. İqtisadi böhranın aradan qaldırılması və istehsalın yüksəldilməsinin təmin edilməsinin əsası istehsal yığımı normasının və investisiya qoyuluşunun yüksəlməsi olmuşdur. 2001-2015-cü illərdə ÜDM-in orta illik artımı 17,7%, istehlakın orta illik artımı 16,5%, ümumi yığımın orta illik artımı 20,3%, investisiyanın orta illik artımı 20,1% olmuşdur. Son istehlakın ÜDM-ə nisbəti 2000-ci ildə 79,5%, 2013-cü ildə 53,4%, 2015-ci ildə 68,3%, yığımın nisbəti isə müvafiq olaraq 20,7% , 24,7% və 28,7%, investisiyaların ÜDM-ə nisbəti 1995-ci ildə 22,5%, 2000-ci ildə 27,3%, 2013-cü ildə 38,0% və 2015-ci ildə 36,9% olmuşdur. İnflyasiyanın səviyyəsi isə 1995-ci ildə 51,2%, 2000-ci ildə 24,8%, 2010-cu ildə 5,8% və 2013-cü ildə 2,4%, 2015-ci ildə 4,0% olmuşdur.

Makroiqtisadi göstəricilərdə baş vermiş dəyişikliklər onu göstərir ki, 2000-2015-ci illərdə yeridilmiş fiskal siyasətin nisbi səmərəliliyi aşağı olmuşdur. Bu dövrlərdə fiskal siyasət əsasən stimullaşdırıcı və pro-tsiklik xarakterli olmuşdur. Bunu iqtisadi artımın orta illik artım göstəricisindən görmək olur. Belə ki, bu göstərici 1996-2000-ci illərdə 17,2%, 2001-2005-ci illərdə 21,5%, 2006-2010-cu illərdə 27,6% və 2011-2015-ci illərdə 5,0% olmuşdur. Bu cür siyasətin formalaşmasında və reallaşmasında neft amili, onun qiyməti və gəlirləri əsas olmuşdur. Lakin bu siyasət real sektorun maliyyə dayanıqlığını, fiskal multiplikatorun yüksək həddini təmin edə bilməmiş, onun sıxışdırma effekti yüksək olmuş və faktiki iqtisadi artımın potensialından kənarlaşması baş vermişdir. Məcmu tələbin formalaşmasında dövlət tələbi - dövlət büdcəsinin investisiyaları mühüm rol oynamışdır. 2005-2015-ci illərdə büdcə gəlirləri 55,2 dəfə, büdcə xərcləri 41,6 dəfə artdığı halda, əsas kapitala investisiyalar 70 dəfə artmışdır. Əsas kapitalın yığımı əsasən dövlət sektoru hesabına olmuşdur. Xüsusi sektorun əsas kapitalın ümumi yığımında xüsusi çəkisi aşağı olmuşdur. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərilir ki, 2014-cü ildə Azərbaycanda dövlət sektoru hesabına formalaşmış əsas kapitalın ümumi yığımının ÜDM-də payı 20% olduğu halda, özəl sektor üçün bu nisbət cəmi 8,6% təşkil etmişdir. Əsas kapitalın ümumi yığımının əsasən dövlət sektoru hesabına formalaşması fiskal siyasətin "sıxışdırma" effektinin yüksək olduğunu göstərir. Özəl sektorun sıxışdırılması dünya təcrübəsində olan dövlət borclanması - dövlət xərclərinin dövlət istiqrazlarının buraxılışı yolu ilə maliyyələşdirilməsi səbəbindən yaranmamışdır. Bu "sıxışdırma" özəl sektorun maliyyə resurslarına məhdud çıxışı, böyük həcmli neft gəlirlərinin dövlətin əlində olmağı ilə əlaqədar olmuşdur.

Məcmu tələbin formalaşdırılmasında özəl tələbin sıxışdırılması iqtisadi aktivliyin zəifləməsinə və dövlətin sosial yükünün artmasına səbəb ola bilir.

Fiskal multiplikatorun kəmiyyətini müəyyən edən istehlaka son həddi meyillilik 1995-ci ildə 0,93 olmuşsa, sonralar aşağı düşərək 2000-ci ildə 0,41, 2005-ci ildə 0,21, 2010-cu ildə 0,22, 2013-cü ildə 0,82 və 2014-cü ildə artaraq 1,32 olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda büdcə gəlirlərində vergi olmayan gəlirlərin payı

yüksəkdir. Bu göstərici 2010-2015-ci illərdə daha da yüksək olmuşdur. Ümumi əlavə dəyərin ÜDM-ə nisbətində ciddi dəyişiklik olmadığı halda, onun məhsul və xidmətlərin ümumi buraxılışındakı xüsusi çəkisində mühüm dəyişiklik olmuşdur.

Vergi siyasətinin səmərəliliyini büdcə kəsirinin ÜDM-ə nisbəti ilə yanaşı, xarakterizə edən digər bir göstərici də vergilərin ÜDM-də xüsusi çəkisinin dinamikasıdır. Vergilərin ÜDM-də xususi çəkisi 1995-ci ildə 7,5%, 2000-ci ildə 9,5%, 2005-ci ildə 11,7%, 2010-cu ildə 11,3%, 2013-cü ildə 11,6%, 2015-ci ildə 16,2%, vergi olmayan gəlirlərin xüsusi çəkisi isə müvafiq olaraq 7,4%, 5,6%, 4,7%, 15,6% , 22,2% və 16,0% olmuşdur.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin büdcəsinin gəlirləri əsasən (70%-dən çox) vergi daxil olmalarından, əsasən də fiziki və hüquqi şəxslərin gəlir vergisindən formalaşır. Ona görə də dövlətin gəlir siyasəti dövlət büdcəsinə pul vəsaitlərinin daxil olması, istifadə imkanları məhdud olan daxilolmaların mövcud və potensial mənbələrinə əsaslanmalıdır. Deməli, verginin fiskal funksiyasının səmərəliliyi artırılmalıdır. Bununla belə, çox vaxt vergi və bütün fiskal siyasətinin əsas ziddiyyəti ilə də rastlaşmaq olur. Belə ki, vergi yükü nə qədər yüksək olursa, vergi ödəyi cilərinin vergi ödəmək arzusu və imkanı bir o qədər aşağı olur. Ona görə də dövlətin vergi siyasətinin əsasında yüksək yox, rasional vergi dərəcəsi durmalıdır. Dövlətin vergi siyasətinin məqsədi təkcə büdcəyə daxilolmaları təmin etmək deyil, həm də struktur-investisiya siyasətinin həyata keçirilməsini də təmin etməkdir.

Azərbaycanın dövlət büdcəsi gəlirlərinin struktur və onların ÜDM-ə nisbəti haqqında məlumatlar göstərir ki, yığılan büdcə gəlirlərində vergilərin xüsusi çəkisi 2000-2015-cü illərdə əvvəlki dövrə nisbətən olduqca aşağı düşmüşdür. Onun çəkisi 1995-ci ildə 50,2%, 2000-ci ildə 63,2%, 2005-ci ildə 71,5% olduğu halda, 2010-cu ildə 41,7% və 2013-cü ildə 34,4%, 2015-ci ildə isə 42,8% olmuşdur. Əvəzində isə vergi olmayan gəlirlərin, xüsusilə də sair daxil olmaların payı artmışdır. Vergi olmayan gəlirlərin xüsusi çəkisi 2010-cu ildə 58,3%, 2013-cü ildə 65,7%, 2015-cü ildə isə 57,2%, o cümlədən sair daxil olmalar analoji olaraq 53,8%, 60,7% və 49,8% olmuşdur. Bu daxil olmaların artımının əsas amili Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) transfertlərin həcminin artması olmuşdur. Strateji Yol Xəritəsində göstərilir ki, ARDNF-in gəlirlərinin 65% (64 milyard ABŞ dolları) dövlət büdcəsinə transfertlər formasında ölkə iqtisadiyyatının inkişafına yönəldilmişdir. Bu isə onu göstərir ki, büdcə gəlirləri son dövrlərdə ARDNF transfertləri hesabına formalaşmışdır. Gəlirlərdə fiziki şəxslərin gəlir vergisinin payı az olmuş və 2010-2015-cü illərdə hətta azalmışdır. Hüquqi şəxslərin gəlir vergisinin və əlavə dəyər vergisinin payı fiziki şəxslərin gəlir vergisindən çox olsa da, 2000-2015-cü illərdə onların da xüsusi çəkisi aşağı düşmüşdür. Bütün bu deyilənlər onu göstərir ki, 2010-2015-cü illərdə Azərbaycan iqtisadiyyatında büdcə potensialı əsasən qeyri-vergi gəlirləri hesabına formalaşmışdır. Büdcənin gəlir

bazası kimi vergilər xüsusi sektorun yaratdığı əmtəə və xidmətlərlə bərabər ictimai əmtəələrin həcmi və onlara olan tələbatla müəyyən olunur. Səmərəli bazar vergi sistemində ən yüksək xüsusi çəkisini hüquqi və fiziki şəxslərdən, yəni əməyə və sahibkarlığa birbaşa vergilər tutur, dolayı vergilər isə az xüsusi çəkiyə malik olur. Azərbaycanda isə əksinə olmuşdur. Azərbaycanda tədqiq edilən dövrdə birbaşa vergilərin vergi daxil olmalarında xüsusi çəkisi aşağı olmuşdur. Əmlak, torpaq və mədən vergisi isə olduqca cüzi xüsusi çəkiyə malik olmuşdur.

Dolayı vergilər əmək və kapitalın səmərəliliyi ilə bilavasitə əlaqəli olmur, müəyyən dərəcədə hətta ona qarşı olur və bir qədər antibazar xarakteri daşıyır və ona görə də onların xüsusi çəkisi yüksək olmamalıdır.

Vergi sisteminin keyfiyyət xarakteristikası vergi qoymanın ağırlığıdır. Ona görə də vergi siyasətinin konkret vəzifəsi sosial ədalətliliyi nəzərə almaq və maksimal stimullaşdırıcı formada vergi qoymanın ağırlığını proporsional bölüşdürmək olmalıdır.

ÜDM-in strukturu göstərir ki, Azərbaycanda vergi qoymanın dərəcəsi aşağıdır. Belə ki, məhsula və idxala xalis vergilər olduqca aşağıdır, onların ÜDM-də xüsusi çəkisi 7% səviyyəsindən artıq olmamışdır.

Obyektiv səbəblər üzündən rentabellik səviyyəsində kəskin fərqlər olan ayrı-ayrı məhsul növləri üzrə əlavə dəyərə vergi dərəcəsinin diferensallaşdırılmasını həyata keçirmək, həmçinin texnoloji zəncirin aralıq halqalarına ƏDV dərəcəsini minimallaşdırmaq lazımdır. Gəlirin strukturunda baş vermiş dəyişikliklər gəlirlərin yaranma mərhələsində ÜDM-in strukturunda baş vermiş dəyişikliklərlə əlaqədar olmuşdur. Bu isə onu göstərir ki, hazırda Azərbaycanda fəaliyyətdə olan vergi sistemində istinad elementi kimi büdcə sistemi vasitəsilə yenidən bölünən ÜDM-in tərkib hissələrindən istifadə olunur, lakin gəlirlərin strukturunda baş vermiş dəyişikliklər gəlirlərin yaranma mərhələsində ÜDM-in strukturunda baş vermiş dəyişikliklərə tam uyğun olmamışdır.

Cədvəl 2.Gəlirlərin yaranması hesabilə ÜDM strukturu

	1995	2000	2005	2010	2013	2014
Ümumi əlavə dəyər	100	100	100	100	100	100
Əmək ödənişləri	24.5	23.1	24.4	17.2	18.6	19.3
Ümumi mənfəət, o cümlədən (qarışıq gəlirlər) xalis məfəət (xalis qarşıq gəlirlər)	75.3 60.0	76.7 62.7	74.8 64.0	82.3 76.5	80.7 75.9	80.7 73.9
Əsas fondların istehlakı	15.3	13.3	10.7	5.8	4.8	6.3
İstehsala vergilər	0.2	0.9	0.8	0.5	0.7	0.5

Mənbə: Azərbaycanın statistik göstəriciləri -2016

Cədvəl 2-dən göründüyü kimi, 1995-ci ildən 2014-ci ilə ÜDM-də muzdlu işçilərin əmək ödənişlərinin xüsusi çəkisi 24,5%-dən 19,3%-ə düşmüşdür. Ümumi mənfəətin xüsusi çəkisi isə 75,3%-dən 80,7%-ə qədər yüksəlmişdir. Analoji olaraq xalis mənfəətin xüsusi çəkisi isə 60,0%-dən 73,9%-ə çatmışdır. Ümumi mənfəətə nisbətən

xalis mənfəətin payının daha çox artmasının səbəbi əsas fondların istehlakının xüsusi çəkisinin aşağı düşməsi olmuşdur. Belə ki, onun xüsusi çəkisi 1995-ci ildə 15,3% olmuşsa, 2014-ci ildə 6,4% təşkil etmişdir. İstehsala (məhsula) vergilərin xüsusi çəkisi cüzi olmuşdur. ÜDM-in strukturunda baş vermiş dəyişiklik büdcəyə vergi daxil olmalarının həcminə və onların strukturuna təsir göstərmişdir. ÜDM-də muzdlu işçilərin əməkhaqqı payının 5,2 bənd aşağı düşməsi fiziki şəxslərdən gəlir vergisinin gəlirlərdə payının aşağı düşməsinə səbəb olmuşdur. Əgər onun xüsusi çəkisi 1995-ci ildə 7,1% olmuşsa, 2010-ci ildə 5,2%, 2013-cü ildə isə 5,6% olmuşdur.

Azərbaycanda ümumi əlavə dəyərin orta illik artım surəti 1996-2000-ci illərdə 17,5%, 2001-2005-ci illərdə 21,2%, 2006-2010-cu illərdə 27,9%, 2011-2014-cü illərdə 8,35%, 2001-2014-ci illərdə isə 19,7% olmuşdur.

Əgər fiziki şəxslərdən gəlir vergisi ümumi əlavə dəyərdə əmək ödənişlərinə uyğun olmuşsa, hüquqi şəxslərin mənfəət vergisi ümumi mənfəətin dəyişməsinə uyğun olmamışdır. İnkişaf etmiş ölkələrdə gəlir vergisindən daxil olmalar Azərbaycandakından yüksəkdir. Azərbaycanda gəlir vergisindən daxil olmaların aşağı səviyyədə olmasının səbəblərindən biri qanunvericiliklə müəyyən olunmuş deklarasiya əsasında gəlir vergisinin tutulmamasıdırsa, digəri isə əmək tutumlu sahələrin iqtisadiyyatda və yaradılmış əlavə dəyərdə payının aşağı olması və əməkhaqqı səviyyəsinin aşağı olmasıdır.

Bütün bunlar Azərbaycan iqtisadiyyatında vergi mexanizmi vasitəsilə həyata keçirilən gəlirlərin təkrar bölgüsünün və sosial sahənin real vəziyyətini əks etdirir. Azərbaycanın büdcə-vergi sisteminin səciyyəvi xüsusiyyəti büdcəyə vergi daxil olmalarının və fiziki şəxslərin gəlirlərindən ödənilən vergilərin payının xeyli dərəcədə az olması və vergi olmayan gəlirlərin payının isə çox olmasıdır. Büdcəyə vergi daxil olmaları payının aşağı olması vergi sisteminin mükəmməl və səmərəli olmamasını, maliyyə nəzarətinin, dövlətin iqtisadiyyatda rolunun zəif olmasını və gizli iqtisadiyyatın yüksək olmasını əks etdirir. Gəlirlərin artmasının əsas amili isə təbii sərvətlərin istifadəsinin intensivləşdirilməsi və onun dünya bazarının əlverişli konyunkturu (neftin qiymətinin artması) olmuşdur.

Fiskal siyasətin tərkib hissəsi kimi, xəclər siyasətinin məqsədi xərclərin optimallaşdırılması və səmərəliliyinin artırılmasıdır. Büdcə xərclərinin strukturu, iqtisadiyyatın xarakterini, onun sosial olub-olmamasını, büdcənin və dövlətin iqtisadiyyatda rolunu əks etdirir. Azərbaycanın dövlət büdcəsi xərclərinin məzmununu və strukturunun təhlilindən bu qənaətə gəlmək olar ki, dövlət və onun tərəfindən yerinə yetirilən funksiyalar üçün zəruri olan xərclər iqtisadiyyatın sosial yönümlü xarakterini təmin etməlidir. Lakin təəssüflə qeyd olunmalıdır ki, Azərbaycanın büdcə xərclərinin strukturunda bunu görmək olmur. İqtisadiyyatın sosial yönümlüyünü xarakterizə edən xərc maddələrinin - təhsilə, mədəniyyətə, elmə, sosial təminata, sığortaya, ida-

rəetməyə dövlət xərclərinin xüsusi çəkisi azalmış və bu meyil 2010-2015-cü illərdə daha güclü olmuşdur.

Sosial xərclər minimallaşmış, iqtisadiyyata xərclər isə coxalmışdır. Nəticədə iqtisadiyyata xərclər 2015-cü ildə büdcə xərclərinin 36,0%-ni təşkil etdiyi halda, sosial-mədəni tədbirlərə xərclər cəmi 25,0% təşkil etmişdir. Digər bir cəhət isə məzmunu və təyınatı bəlli olmayan sair xərclərin xüsusi çəkisinin yüksək (29,7%) olmasıdır.

Belə bir vəziyyətdə investisiya xərclərilə yanaşı, sosial tələbatların ödənilməsinin canlanması kəskin problem kimi ortaya çıxır. Çünki müasir dövrdə iqtisadiyyata yeni yanaşma, onun sosiallaşması və intellektuallaşması iqtisadiyyatın sosial meyilli olmasına üstünlük verilməsini tələb edir. Müasir dövrdə iqtisadi inkişafın əsas mənbəyi kimi, prioritet qismində fiziki kapital deyil, insan amili çıxış edir. Ona görə də ön plana əmək amillərindən lazımınca istifadə olunması, onun keyfiyyətinin artırılması, iş qüvvəsinin intellektual resurslara və insan kapitalına çevrilməsi çıxır. İş qüvvəsinin intellektual resurslara və insan kapitalına çevrilməsi üçün əsas şərt və vasitə təhsilə və elmə vəsaitin qoyulmasıdır. Ona görə də texniki kapitala kapital qoyuluşuna üstünlük verilməməlidir. Üstünlük insan resurslarını və insan iqtisadiyyatını formalaşdıran təsisatlara (elmə, səhiyyəyə) verilməlidir. Bazar iqtisadiyyatında dövlət ona görə vergi tutur və büdcəni formalaşdırır ki, sosial sferanın tələbatını və ictimai zəruri əhəmiyyət kəsb edən digər tələbatları ödəsin. Bu xərclər ən səmərəli hesab edilən "insan kapitalına" xərcləri ifadə edir. Bu xərclər öz növbəsində sahibkarlığın müdafiəsi deməkdir, onun sosial xərclərdən azad olunmasıdır. İnsan kapitalına xərclər dövlət tətərfindən ödənildiyi halda, sahibkarların üzərinə yalnız əməkhaqqının verilməsi düşür. Dövlət sosial sahələrə investisiya yönəltməsi iqtisadiyyata sosial xarakter verir.

Dövlət xərcləri siyasəti hər şeydən əvvəl dövlət sektorunun, daha doğrusu büdcənin xərc maddələrində əkc olunan təxirəsalınmaz dövlət ehtiyatlarına xərclərə tələbatı ödəməyi nəzərdə tutur. Bununla yanaşı, dövlət tələbatının fasiləsiz artdığını nəzərə almaq lazım gəlir. Ona görə də onları digər tələbatların israrlığını və prioritetlərini nəzərə almaqda məhdudlaşdırmaq lazımdır. Xərclərin dövlət siyasəti mümkün olanın həddində olmalıdır. Lakin bu həddi keçmək lazım gəlmir. Dövlət xərclərinin əsas məhdudlaşdırıcısı dövlət gəlirləridir. Dövlət gəlirlərini artırmaq üçün Azərbaycanda büdcə potensialını artıra bilən, onun əsasən vergi daxil olmalarından formalaşdıran vergi sistemi modeli yaratmaq lazımdır. Vergi sistemində gəlirlərdə, gəlirlərdən və əmlakdan bilavasitə tutulan - fiziki şəxslərin gəlir vergisinin hüquqi şəxslərin mənfəət vergisinin, xüsusilə də əmlak, torpaq və mədən vergisinin payının artırılması istiqamətində təkmilləşmə aparılmalıdır. Gəlir vergisinin tutulmasında gəlirlərin bəyannaməsi praktikası təsis edilməlidir, vergi sisteminin mikroiqtisadi effektliyi artırılmalıdır, onun ÜDM-in gəlirlərin yaranma mərhələsindəki dəyişən strukturuna uyğunlaşdırılması lazımdır. Onun strukturunda fiziki şəxslərdən gəlir vergisi daxil

olmalarının etibarlı mənbəyi olan əmək ödənişlərinin xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər görülməlidir. Mənfəət vergisi ilə ÜDM-də ümumi mənfəətin payı arasındakı uyğunsuzluq aradan qaldırılmalıdır. Əsas hissəsini xalis mənfəət (xalis qarışıq gəlirlər) təşkil edən ümumi mənfəətin ÜDM-dəki payına adekvat olan onun vergi bazası formalaşdırılmalıdır. Xalis qarışıq gəlirlər əhəmiyyətli dərəcədə fiziki şəxslərə gəlir vergi qoymanın əsasını təşkil edir. Ümumi mənfəətin ÜDM-dəki xüsusi çəkisinə uyğun vergi bazasının formalaşmaması onu göstərir ki, hazırda xalis qarışıq gəlirləri təşkil edən gəlirlər (xüsusilə pul kapitalının gəlirləri) vergi qoyma obyekti kimi vergi sisteminə olduqca az cəlb olunmuşdur.

Hazırda Azərbaycan iqtisadiyyatı təbii resurslardan və amildən (neft amilindən) asılı olduğu bir vaxtda böyük gəlirlərin mənbəyi olmuş təbii resursların dövriyyəsindən daxil olma - gəlir vergisi büdcənin gəlirində olduqca cüzi xüsusi çəkiyə malikdir.

Bunlar göstərir ki, Azərbaycanın büdcə-vergi siyasətinin səmərəliliyini artırmaq məqsədilə onun büdcə potensialının dayanıqlığını, onun əsasən birbaşa vergilər hesabına formalaşmasının təmin olunması iqtisadiyyatın real sektorunun maliyyə dayanıqlığının təmin edilməsi, onun kapitallaşdırılması, struktur dəyişikliklərinin stimullaşdırılması, vergi bazasının gəlirlərin yaranma mərhələsindəki ÜDM-in strukturu ilə uzlaşması, vergi yükünün vergi ödəyiciləri arasında bərabər bölüşdürülməsi, gəlir vergisi tutulduqda gəlirlərin geklarasiyalaşdırılması və hüquqi və fiziki şəxlərin əmlakının inflyasya göstəriciləri nəzərə alınaraq, qiymətləndirilərək vergiyə cəlb olunması praktikasının tətbiqi, büdcə defisitinin mənbələrini investisiya məqsədlərinə istifadə edilməsi və son nəticədə müasir dövrdə iqtisadiyyatın sosiallaşması və intellektuallaşması çağırışını nəzərə alaraq, büdcə-vergi siyasətinin sosial yönümlülüyünün təmin edilməsi istiqamətində təkmilləşdirilməsi zərurətini və ona keyfiyyətcə yeni yanaşmanı obyektiv olaraq ortaya qoyur.

Nəticə

Aparılmış tədqiqat göstərir ki, makroiqtisadi sabitliyin təmin edilməsinin prioritet istiqaməti olan fiskal siyasət, bütövlükdə cəmiyyətin davamlı sosial iqtisadi inkişafı üçün zəruri şərait yaradan iqtisadi inkişaf amilidir. Ona görə də fiskal siyasətə iqtisadi və sosial sabitliyin təmin edilməsinin aləti kimi baxmaq lazımdır. Çünki fiskal siyasət iqtisadi artıma yüksək ötürücüliyə malik olan ən mühüm siyasət istiqamətidir. Fiskal siyasətin səmərəli fəaliyyəti isə bilavasitə iqtisadiyyatın real sektorunun inkişafı, onun meyar və göstəriciləri ilə müəyyən olunur. Belə ki, fiskal siyasətin əsas aləti olan vergi tutma və onun bazası real sektorun istehsal imkanlarından, onun keyfiyyət göstəricilərindən asılıdır. Fiskal siyasətin səmərəliliyi proqnozların dəqiqliyindən və fiskal tədbirlərin nəticələrini qabaqcadan görməkdən, məcmu tələbdəki dəyişikliklərin istehsalın həcminə, məşğulluğa, inflyasiya və tədiyyə balansına təsir dərəcəsindən və iqtisadi gözləmələrin dəyişkənliyindən asılıdır. Fiskal siyasətin səmərəliliyinə təsir göstərən əsas amil onun “sıxışdırıb çıxarma” effektidir.

Fiskal siyasətin nə dərəcədə səmərəli olub-olmadığını büdcənin vəziyyəti, onun tarazlığı və strukturu əks etdirir. Ona görə də büdcə xərclərinin rasional istifadə edilməsi, onun şəffaflığının təmin edilməsi və dövlət investisiyalarının idarə edilməsinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması fiskal siyasətin prioritetlərindən olmalıdır.

Tədqiq edilmiş dövrdə Azərbaycanda fiskal siyasətdə pozitiv meyillərin olmasına və onun iqtisadi fəallığa müəyyən töhfə verməsinə baxmayaraq, təkmilləşdirmələr aparılmağına ehtiyac duyulur. Bu dövrdə fiskal siyasət pro-tsiklik xarakterli olmuşdur. Bu cür siyasətin formalaşmasında və reallaşmasında neft amili, onun gəlirləri əsas olmuşdur. Lakin bu siyasət real sektorun maliyyə dayanıqlığını və fiskal multiplikatorun yüksək həddini təmin edə bilməmiş, onun sıxışdırma effekti yüksək olmuş və əsas kapitalın yığımı dövlət sektoru hesabına formalaşmışdır. Ona görə də fiskal siyasətdə fiskal dayanıqlılığın gücləndirilməsi və fiskal siyasətin iqtisadiyyata yüksək ötürücülüyünü və fiskal multiplikatorun yüksək həddinin təmini, məcmu tələbin formalaşmasında özəl tələbin genişləndirilməsi və dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması istiqamətində təkmilləşdirmələr həyata keçirilməlidir.

Azərbaycanın büdcə-vergi sisteminin səciyyəvi xüsusiyyəti büdcəyə vergi daxil olmalarının xeyli dərəcədə az olması, vergi olmayan gəlirlərin payının isə çox olmasıdır. Gəlirlərin artmasının əsas amili isə təbii sərvətlərin istifadəsinin intensivləşdirilməsi və onun dünya bazarında əlverişli konuyunkturu olmuşdur. Büdcə xərclərinin strukturunda iqtisadiyyatın sosial yönümlüyünü xarakterizə edən xərc maddələrinin xüsusi çəkisi azalmışdır.

Müasir dövrdə iqtisadiyyata yeni yanaşma, onun sosiallaşması və intellektuallaşması iqtisadiyyatın sosial meyilli olmasına üstünlük verilməsini tələb edir. Ona görə də üstünlük texniki kapitala investisya qoyuluşuna deyil, insan resursları və insan iqtisadiyyatını formalaşdıran təsisatlara verilməlidir.

Ədəbiyyat

[1]Menkyu Q.H. Ekonomiksin prinsipləri. B., 2009.
[2] Menkyu Q.H. Макроекономика M.,1994.
[3] Государственное регулирование экономики под ред. Морозовой Т.Г. М., 2002.
[4] Добрнбущ, Фишерс. Макроэкономика М.,1997.
[5] Ивашковский С.Н. Макроэкономика М., 2002.
[6] İqtisadi nəzəriyyə kursu Sidroviç A.V. redaktorluğu ilə. B., 2012.
[7] Лисин В. Макроэкономическая теория и политика экономического роста. М., 2003.
[8] Azərbaycanın statistik göstəriciləri. B., 2016.
[9] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. B., 2016.

İNFORMASİYA İQTİSADİYYATININ QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

Ə.Q.Əliyev
iqtisad üzrə fəlsəfə doktoru, dosent
İnformasiya Texnologiyaları İnstitutu, AMEA
E-mail: alovsat_qaraca@mail.ru
Telefon: (012) 5397226 (iş), (050)322-10-06 (mob)

Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalədə informasiya və biliklər iqtisadiyyatının formalaşması və inkişaf səviyyəsinin qiymətləndirilməsi üzrə müxtəlif indikatorlar sisteminin müqayisəli təhlili verilmişdir. Onların işlənilməsi və təhlili ilə bağlı əsas metodoloji yanaşmalar analiz olunmuşdur. Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı bəzi tövsiyələr verilmişdir. Informasiya və biliyin hesabına formalaşan ÜDM-in hesablanması üçün metodika təklif olunmuşdur. İnformasiya və biliklər iqtisadiyyatının kompozit indeksi və onu formalaşdıran müvafiq indekslər, subindekslər və indikatorlar sistemi işlənilmişdir.

Açar sözlər: informasiya və biliklər iqtisadiyyatı, indikatorlar sistemi, iqtisadi göstəricilər, kompozit indeks, subindekslər.
Jel Classification: D83

METHODOLOGICAL CHARACTERISTICS OF THE ASSESSMENT OF INFORMATION ECONOMY

Abstract

The article provides a comparative analysis of the system of different indicators for information and knowledge economy formation and development. The main methodological approaches to their development and analysis were analyzed. Some recommendations have been put forward to address existing problems in this area. A methodology for calculating GDP formed of information and knowledge has been proposed. The composite index of the economy of information and knowledge has been developed and the relevant indices, subindexes and indicators that shape it.

Key words: information and knowledge economy, indicators system, economic indicators, composite index, subindexes

МЕТОДОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОЦЕНКИ ИНФОРМАЦИОННОЙ ЭКОНОМИКИ

Резюме

В статье дан сравнительный анализ различных систем индикаторов оценки уровня формирования и развития экономики информации и экономики знаний, рассмотрены основные методологические подходы, в связи с их обработкой и анализом. Также были предложены некоторые рекомендации, в связи с устранением существующих в этой области проблем, и методика для вычисления ВВП, который формируется за счет информации и знаний. Разработаны композитный индекс и формирующая его соответствующая система индексов, субиндексов и индикаторов.

Ключевые слова: информационная экономика и экономика знаний, система индикаторов, экономические показатели, композитный индекс, субиндексы.

Giriş. İqtisadi münasibətlərin daha da qloballaşmasına və yeni iqtisadiyyatın inkişafına innovativ təsir göstərən müasir vasitələrdən ən önəmlisi informasiyalaşmadır. Onun nəticəsində formalaşan informasiya və biliklər iqtisadiyyatı (İBI) iqtisadi inkişafın növbəti mərhələsi kimi özünü göstərir. Texnoloji inkişaf və innovasiyalar iqtisadi artımın uzunmüddətli hərəkətverici qüvvəsi kimi çıxış edir. İnformasiya və bilik cəmiyyətin əsas inkişaf faktoruna çevrilir. Sənaye inkişaf mərhələsindən postsənaye mərhələsinə keçən ölkələrin inkişafı və rəqabətə davamlılığında bilik və informasiya məhsulları istehsalı sahələri son dərəcə mühüm rol oynayır. Başqa sözlə, müasir dövrdə ölkələrin inkişafı elmtutumlu sahələrin, o cümlədən texnoloji innovasiyaların inkişafından çox asılıdır.

Qlobal xarakterli amillər milli iqtisadiyyatların bütün sahələrində gedən proseslərə nüfuz etmişdir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası [1], həmçinin Milli İqtisadiyyatın Strateji Yol Xəritələri [2] ölkənin yeni inkişaf mərhələsini və trayektoriyasını şərtləndirir. Ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi üçün innovasiyaların üstünlüyü ilə səciyyələndirilən mərhələyə keçid təmin olunmalıdır. Eyni zamanda, iqtisadiyyatın strukturunun məqsədyönlü şəkildə təkmilləşdirilməsi də prioritet məsələlərdəndir.

Milli iqtisadiyyatın inkişafına, onun qlobal dünya iqtisadi sistemindəki mövqeyinə regional və ölkədaxili amillər təsir edir. İctimai və iqtisadi həyatın müxtəlif sahələrinin idarə edilməsində həmin amillərin nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacibdir. Təbii resursların ixracı amili ölkədə uzun müddət iqtisadi artımın əsas aparıcı qüvvəsi olmuşdur. Ona görə də əsas vəzifə iqtisadiyyatda neft-qaz ehtiyatlarının ixracından mövcud asılılığı aradan qaldırmaqdır. Ölkənin

dünya iqtisadiyyatı sistemində xammal ixracatçısına çevrilmək təhlükəsinin qarşısı alınmalıdır. Bu məqsədlə respublikada qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etmək zəruri bir məsələdir.

Üçüncü minilliyin inkişaf ideologiyası kimi qəbul olunan Qlobal informasiya cəmiyyətinin (İC) formalaşdığı dövrdə informasiya, texnologiya və bilik əksər dünya ölkələrinin rəqabətə davamlılıq faktoruna çevrilmişdir [3]. Onların geniş tətbiqi nəticəsində inkişaf edən innovasiya iqtisadiyyatının səviyyəsinin analitik təhlilinə və qiymətləndirilməsinə ciddi ehtiyac yaranmışdır. Yüksək texnologiyaların, o cümlədən İKT-nin müxtəlif sahələrdə tətbiq səviyyəsinin kəmiyyət və keyfiyyət cəhətdən qimətləndirilməsini həyata keçirmək məqsədilə beynəlxalq təşkilatlar tərəfindən müəyyən indikatorlar sistemi işlənib hazırlanmışdır. Onların bəzi metodoloji qüsurları və tətbiq çətinlikləri mövcuddur. Ona görə də ölkələrdə informasiya iqtisadiyyatının inkişaf səviyyəsinin obyektiv qiymətləndirilməsi üçün müxtəlif səviyyələrdə indikatorlar sisteminin işlənməsinə zərurət duyulur. Həmin indikatorların hesablanma metodikasının yaradılması və həmin sahədə mövcud problemlərin aradan qaldırılması üzrə təklif və tövsiyələrin işlənilməsi də vacib məsələlərdən hesab olunur.

2. İnformasiya və bilik iqtisadiyyatı göstəriciləri və indeksləri. İqtisadiyyatın inkişaf səviyyəsinin qiymətləndirilməsində müxtəlif indikatorlar istifadə olunur. Onlar iqtisadiyyatı müxtəlif aspektlərdən xarakterizə edir. Kompleks qiymətləndirmə məsələsi həmişə müəyyən çətinliklərlə bağlıdır. Xüsusilə bu məsələ yeni tipli iqtisadiyyatın kompleks inkişaf səviyyəsinin qiymətləndirilməsində, elmin, innovasiyanın, İKT-in rolunun qiymətləndirilməsində daha qabarıq nəzərə çarpır. Bu istiqamətdə bir çox yanaşmalar və qiymətləndirmələr mövcuddur.

İnformasiya və bilik iqtisadiyyatının ölçülməsi üzrə əsas göstərici kimi BMT Sosial İqtisadi İnkişaf Təşkilatı "Biliyə investisiya qoyuluşu" ümumiləşdirici göstəricisini təklif etmişdir [4]. Həmin göstərici işləmələrə, tədqiqata, ali təhsilə, İKT-yə, proqram təminatına olan investisiyaları əhatə edir. Həmin göstərici əsasında ölkələr 3 qrupa bölünür: yüksək (ÜDM-in 6%), orta (ÜDM-in 3-4%), aşağı (ÜDM-in 2-3%). Bu göstərici iqtisadi vəziyyəti investisiya nöqteyi-nəzərindən izah etməyə imkan versə də, durumu tam əks etdirmir.

Ümumiyyətlə elmi-praktiki ədəbiyyatda informasiya və bilik iqtisadiyyatını xarakterizə edən indekslərdən bunlara rast gəlmək olar: 1)İqtisadiyyat indeksi, 2) Rəqəmsal iqtisadiyyat və cəmiyyət indeksi, 3) Qlobal rəqabət qabiliyyətlilik indeksi, 4) Qlobal kreativlik indeksi, 5) Qlobal innovasiya indeksi, 6) Qlobal sahibkarlıq indeksi, 7) Texnoloji hazırlıq indeksi, 8) İqtisadi stimullaşdırma və institusional rejim indeksi, 9) Kasıblıq və işsizlik səviyyəsi indeksi, 10) Bilik indeksi, 11) Bilik iqtisadiyyatı indeksi və s.

Həmin indekslərin ayrı-ayrılıqda təhlili göstərir ki, onların tərkibini və məzmununu şərtləndirən məlumatlar fərqlidir. Belə ki, İqtisadiyyat indeksinin [5, 6] elementlərinə: 1)təşkilati effektivlik və insan resursları (14 göstərici), 2) rəqabətə davamlılıq və iqtisadi strukturun kreativlik inkişafı (11 göstərici), 3)İKT infrastrukturu (8 göstərici), 4)innovasiya (10 göstərici) daxildir.

Rəqəmsal iqtisadiyyat və cəmiyyət indeksi (DESI-Digital Economy and Society Index) [7] onun formalaşmasına təsir edən 12 qrupda olmaqla aşağıdakı 5 subindeksdən və 28 göstəricidən təşkil olunmuşdur: 1)Kommunikasiya, 4 qrupda (7 göstərici); 2)Insan kapitalı, 2 qrupda (4 göstərici); 3)İnternetdən istifadə, 3 qrupda (6 göstərici); 4)Rəqəmsal texnologiyaların inteqrasiyası, 2 qrupda (7 göstərici); 5) Rəqəmsal xidmət, 1 qrupda (4 göstərici).

Qlobal rəqabət qabiliyyətlilik indeksinin (Global Competitiveness Index) [8] hesablanması üçün istifadə olunan 12 göstəricini Dünya İqtisadi Forumunun 2015-ci il məlumatı əsasında belə vermək olar [9]: 1) keyfiyyət; 2) infrastruktur; 3) makroiqtisadi sabitlik; 4) sağlamlıq və ilkin təhsil; 5) ali təhsil və peşə hazırlıgı; 6)əmtəə və xidmətlər bazarı; 7) əmək bazarının səmərəliliyi; 8) maliyyə bazarının inkişafı; 9) texnoloji səviyyə; 10)daxili bazarın həcmi; 11) şirkətlərin rəqabət qabiliyyəti; 12) inovasiya potensialı.

Bu indeks üzrə aparılan təhlil və araşdırmalar göstərir ki, dünyanın 140 ölkəsindən ən rəqabət qabiliyyətli ölkələrinin ilk 5-liyinə: 1)İsveçrə; 2)Sinqapur; 3)ABŞ; 4)Almaniya; 5)Niderland daxildir. Siyahıda Estoniya 30, Polşa 41-ci, Qazaxıstan 42-ci, Latviya 44-cü yerləri tutmuşlar. Azərbaycan isə rəqabət qabiliyyətlilik reytinqində dünyanın 140 ölkəsi arasında 4,50 balla 40-cı yerdədir.

Qlobal kreativlik indeksi (Global Creativity İndex) [10] üzrə bəzi ölkələrin 2015-ci il üzrə reytinq cədvəli göstərir ki, ilk yerlərdə Avstraliya (0,97), ABŞ (0,95), Kanada (0,92), Finlandiya (0,917), İsveç (0,915) durur.

Qlobal innovasiya indeksinin (Global İnnovation İndex) [11] 2015-ci il üçün hesablanmasında istifadə olunan əsas və altgöstəricilərə İnnovasiyaya giriş subaltindeksi (Innovation Output Sub-Index), İnnovasiya Məhsulu (Nəticəsi) altsubindeksi (Innovation Input Sub-Index), İnnovativ səmərəlilik əmsalı (Innovation Efficiency Ratio) aiddir.

Qlobal İnnovasiya indeksi (Qİİ) hesablanmış və bəzi makrogöstəricilər birlikdə təhlil olunaraq yekun reytinq cədvəli tərtib olunmuşdur (cədvəl 1). Həmin cədvəldə Qİİ ilə yanaşı, "adambaşına ÜDM" kimi göstəricilər də əks olunmuşdur. 141 ölkəni əhatə edən cədvəldə ilk yerlər İsveçrəyə (68, 3), Böyük Britaniya (62,4), ABŞ (60,1) aiddir. Azərbaycan (30,1) 81-ci yerdədir.

Cədvəl 1. Qlobal innovasiya indeksinin 2015-ci il üzrə ölkələrin reytinqi

№	Ölkələrin adı	Əhalisi (mlrd)	ÜDM (US $ mlrd)
1	İsveçrə	8.2	712.1
2	Böyük Britaniya	63.5	2,945.1
3	İsveç	9.6	570.1
4	Hollandiya	16.8	866.4
5	ABŞ	322.6	17,418.9
6	Finlandiya	5.4	271.2
7	Sinqapur	5.5	308.1
8	Lüksemburq	0.5	62,4
9	Hong Kong	7.3	289.6
10	Almaniya	82.7	3,859.5
11	Koreya Respublikası	49.5	1,416.9
12	Kanada	35.5	1,788.7
13	Avstriya	8.5	437.1
14	Yaponiya	127.0	4.616.3
15	Norveç	5.1	500.2
16	Cin	1,393.8	10,380.4
17	Hindistan	1,267.4	2,049.5
18	Azərbaycan	9.5	74.1
19	İran	78.5	404.1

Qlobal sahibkarlıq indeksinin (Global Entrepreneurship Index 2016) [12]. 2016-cı il üçün hesablanması göstəricilərinə aşağıdakılar aid edilmişdir: yüksək inkişaf tempi, startap bacarıqları, riskli kapital, risk ehtimalı, insan kapitalı, beynəlmiləlləş-dirmə, rəqabət, məhsul innovasiyası, mədəniyyət üzrə dəstək, startap imkanları, şəbəkələr, təşəbbüs imkanları, texnoloji yayılmalar, proses innovasiyası. Bu kimi göstəricilər və xüsusi metodika əsasında Qlobal sahibkarlıq indeksi üzrə 2016-cı il üzrə ölkələrin reytinq cədvəli tərtib olunmuşdur. Cədvələ ABŞ (86,2), Kanada (79,5), Avstraliya (78,0), İsveç (75,9) başçılıq edır. Həmin cədvələ görə Azərbaycan (28,7) 93-cü yerdə olmuşdur.

Bundan başqa, ETTKİ xərcləri səviyyəsinə (UNESCO və Statistika İnstitutunun 91 ölkə üzrə, 2012-ci ildə) tərtib etdiyi ölkələrin reytinqində dövlətlərin vəziyyəti təhlil olunmuşdur. 2015-ci ildə sosial inkişaf üzrə 133 ölkənin reytinqi (Harvard Universiteti), 3 qrupda 50 göstəricisi üzrə hesablanmışdır. İsrail (4,40), Finlandiya (3,88), Cənubi Koreya (3,74), İsveç (3,40), Yaponiya (3,36) ilk yerləri tutur.

Həmçinin birbaşa xarici investisiyalar üzrə də ölkələrin reytinqi BVF-in 184 ölkə üzrə məlumatları əsasında 2014-ci ildə tərtib olunmuşdur [13].

Bütün bu kimi araşdırmalar göstərir ki, ayrı-ayrı beynəlxalq təşkilatlar öz məqsədlərinə və yanaşmalarına müvafiq olaraq, hesablamaları müxtəlif metodikalar əsasında həyata keçirir.

3. **İnformasiya və bilik iqtisadiyyatı səviyyəsinin ölçülməsi metodikalarının müqayisəli təhlili.** İBİ-nin ölçü göstəricilərindən biri Bİ-yə qoyulan investisiyadır. BMT İƏİT-nin ekspertləri biliyə qoyulan investisiyanı təhsil, ETTKİ və proqram təminatına milli xərclərin toplusu kimi qiymətləndirirlər [14]. Bu göstəriciyə görə ABŞ (ÜDM-in 6,6%) liderdir. Təbiidir ki, bu göstərici İBİ-nin vəziyyətini tam və düzgün əks etdirə bilməz.

Avropa İqtisadi Komissiyasının (AİK) metodikasına görə [15], ölkədə İBİ-in formalaşma hazırlığı Qlobal iqtisadiyyat indeksi (Qİİ) [5] əsasında hesablanır:

Qİİ = A* Tex + B*Dins + C*Miqt

Burada:

Tex – Texnoloji altindeks, Dins – Dövlət institusional altindeks, Miqt – Makroiqtisadi vəziyyət altindeksidir. A, B, C – müvafiq indekslərin çəki əmsallarıdır və bu şərti ödəyirlər:

A + B + C = 1, AİK-yə görə A = 1/3, B = 1/6, C = ½ qəbul olunmuşdur. Qeyd edək ki, hər bir altindeksin formalaşmasına ona müvafiq olan indikatorlar təsir göstərir.

Başqa cür yanaşmaya görə, Qazaxıstanda Bİ səviyyəsini qiymətləndirmək [16] üçün bu cür informasiya bazasından istifadə olunur:

- ✓ iqtisadi tənzimlənmənin keyfiyyəti;
- ✓ qanunların icra dərəcəsi;
- ✓ royalti və lisenziya ödənişləri;
- ✓ elmi-texniki jurnallarda nəşrlər;
- ✓ patentlərin sayı;
- ✓ təhsilin orta davamiyyət müddəti;
- ✓ orta/ali təhsillə əhatə olunma;
- ✓ telefon/kompüterlərin sayı;
- ✓ internet istifadəçilərin sayı (hər min nəfərə).

Yüksəktexnoloji və elmtutumlu sahə məhsullarının (ETM) ÜDM-də payının hesablanması üzrə Rusiya Statistik Komitəsinin 2013-cü il metodikası [17-19] isə aşağıdakılara əsaslanır:

- ✓ YTG – yüksək texnoloji iqtisadi fəaliyyət üzrə məcmu əlavə gəlir,
- ✓ ETG – elmtutumlu fəaliyyət üzrə məcmu əlavə gəlir,
- ✓ UMG – bütün iqtisadi fəaliyyət üzrə ümumi əlavə gəlir,

$$ETM = (YTG + ETG)/UMG$$

İBİ-nin inteqral indikatorunun hesablanması müəssisə və təşkilatlardan elm, İKT, informasiya cəmiyyəti, innovasiya və s. üzrə daxil olan müvafiq statistik hesabat göstəriciləri əsasında da həyata keçirilə bilir.

X1 – tədqiqat və işləmələrə olan xərc, man/adam;

X2 – innovasiya məhsulunun həcmi, man/adam;

X3 – eksportluq innovasiya məhsulunun həcmi, man/adam;

X4 – İKT xərcləri, man/adam.

Bu zaman adambaşına olan göstəricilərlə yanaşı, struktur və nisbət göstəriciləri də nəzərə alınır.

Struktur göstəricilər. X5 – yüksək innovasiya məhsulunun xüsusi çəkisi, %, X6 – İnternetdən istifadə edən təşkilatların xüsusi çəkisi, %, X7 – internetə çıxışı olan kompüterlərin xüsusi çəkisi, %.

Nisbət göstəricilər. X8 – 10 min işləyənə düşən tədqiqatçı layihə personalı, X9 – 10 min iqtisadi aktiv əhaliyə düşən tədqiqatçı, X10 – 1 məşğul adama düşən texnoloji innovasiya xərcləri, X11 – 100 tədqiqatçıya düşən patentlərin sayı.

Dünya Bankının təklif və tətbiq etdiyi bilik və biliklər iqtisadiyyatı indeksinin [20] tərkib elementlərini 1-ci şəkildəki kimi vermək olar.

Şəkil 1. Bilik və biliklər iqtisadiyyatı indeksinin formalaşma strukturu

Bilik iqtisadiyyatı indeksi kompleks göstəricidir. 2004-cü ildən başlayaraq DB-nin müvafiq bölməsi tərəfindən işlənilir. İndeksin hesablanması DB-in "Biliyin qiymətləndirilməsi metodologiyası" əsasında həyata keçirilir. 2012-ci ildə 146 ölkə üzrə 4 qrupda 109 tərkib və keyfiyyət göstəricisi üzrə reytinq hesablanmışdır [20].

I qrupda İqtisadi və instutusioanal rejim subindeksinin formalaşmasında: 1) iqtisadi inkişaf şəraiti; 2) iqtisadi, hüquqi mühit; 3) tənzimləmə keyfiyyəti; 4) biznesin inkişafı; 5) təşəbbüslər; 6) cəmiyyətin bilikdən istifadə qabiliyyəti kimi göstəricilərdən istifadə olunur.

II qrupda Təhsil indeksinin hesablanmasında təhsil səviyyəsi, savadlılıq göstəriciləri, təhsilə münasibət nəzərə alınır.

III qrupdakı İnnovasiya subindeksinin hesablanmasında MİS səviyyəsi, tədqiqat mərkəzləri, universitetlər, texnoparklar, elmi işçilər, patentlər, elmi jurnallar qəbul olunur.

IV qrupdakı İKT indeksinin hesablanmasında isə İKT səviyyəsi, regional infrastruktur, informasiya yayımı kimi informasiyalar tələb olunur.

Hər bir göstəricilər qrupunda ölkələrə 1-10 bal verilir. Metodologiyaya görə 2 ümumi indeks hesablanır:

1)Bİ (Kİ)- bilik indeksi. Bİ 3 indeksin orta qiymətidir. Bİ= (Tİ+İİ+İKT)/3;

2) Bİİ –KEİ – bilik iqtisadiyyatı indeksi. Bİİ 4 indeksin orta qiyməti kimi qəbul olunur. Bİİ=(Tİ+İİ+İKT+Bİ)/4, 0≤BI ≤ 1, 0 ≤ BII ≤ 1.

Bilik iqtisadiyyatı indeksinin əsas qrup göstəricilərinə Bilik indeksinin komponentləri kimi tədqiqat, inkişaf və innovasiya, texniki peşə təhsil və təlimat indeksi, ali məktəbə- qədər təhsil altindeksi, ali təhsil, İKT daxildir. Göstəricilərin funksional qruplaşması 1) iqtisadi, 2)texnoloji, 3)sosial, 4)dövlət istiqamətlərində həyata keçirilmişdir.

Biliklər iqtisadiyyatının inkişafı üzrə bəzi ölkələrin reytinqi (145 olkə, 2012-2014-cü illər) 2-ci cədvəldə verilmişdir.

Cədvəl ***2.*** Biliklər iqtisadiyyatının inkişafı üzrə bəzi ölkələrin reytinqi

Reytinq	Ölkələr	Bilik iqtisadiyyatı indeksi	Bilik indeksi
1	İsveç	9.43	9.38
2	Finlandiya	9.33	9.22
3	Norveç	9.11	8.99
5	Almaniya	8.90	8.83
7	ABŞ	8.77	8.89
8	B. Britaniya	8.76	8.61
9	Yaponiya	8.28	8.53
10	Fransa	8.21	8.36
11	İsrail	8.14	8.07
12	Rusiya	5.78	6.96
14	Gürcüstan	5.19	4.49
17	Türkiyə	5.16	4.81
22	Ermənistan	5.08	4.84
24	Qazaxıstan	5.04	5.40
25	Azərbaycan	4.56	4.96
30	Çin	4.37	4.57
55	İran	3.91	4.97
68	Hindistan	3.06	2.89

Yuxarıda göstərilən müxtəlif indekslər əsasında Azərbaycanda informasiya və biliklər iqtisadiyyatının formalaşması üzrə müvafiq reytinqi 3-cü cədvəldəki kimi təqdim etmək olar.

Cədvəl 3. Azərbaycanın informasiya və biliklər iqtisadiiyyatının formalaşması üzrə müxtəlif indekslərə görə reytinqi

İndekslər	İlər	Ölkələrin sayı	İndeksin qiyməti	Reytinqi
Bilik indeksi	2012	146	4.96	79
Bilik iqtisadiyyatı indeksi	2012	146	4.56	79
Şəbəkə hazırlığı indeksi	2014	148	4.3	57
İKT-nin inkişaf indeksi	2015	167	5,79	67
Rəqabət qabiliyyətlilik indeksi	2015	140	4,50	40
İnsan inkişafı indeksi	2015	188	67.58	63
Qlobal innovasiya indeksi	2015	141	30.1	93
Qlobal sahibkarlıq indeksi	2016	137	26,2	91
Təhsil indeksi	2013	187	0.700	76
ÜDM-ə görə ölkələrin reytinqi (mlrd $)	2015	193	75.198	68
Adambaşına düşən MMG-yə görə ölkə və dövlətlərin reytinqi ($)	2015	187	7590	79
ETTKİ xərcləri səviyyəsinə görə ölkələrin reytinqi (ÜDM-də %)	2012	91	0.25	66
Sosial inkişaf üzrə ölkələrin reytinqi	2015	133	62.62	76
Birbaşa xarici investisiyalar üzrə ölkələrin reytinqi (mlrd. $)	2014	184	2,6	57

Göründüyü kimi ölkə müxtəlif aspektlərdən, müxtəlif indekslər əsasında qiymətləndirilmədə təxminən təhlil olunan ölkə qrupları arasında orta mövqeyə malikdir. Bu isə ölkədə hələ də istifadə olunmamış xeyli potensial imkanların mövcud olduğunu bir daha təsdiqləyir.

4. İnformasiya və bilik sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatların hesabatlılıq xüsusiyyətləri. Bu xüsusiyyətlərə əsasən müəssisələrin fəaliyyət sektorları, növləri, statistik hesabatları, məhsul və xidmətlərinin təsnifatı və s. aid edilmişdir. Bu cür müəssisələrin təmsil olunduğu sahələr müxtəlifdir. Buraya bəzi sektorları aid etmək olar:

Dövlət sektoru: nazirlik və baş idarələrin təşkilatları, Elmlər Akademiyası sisteminin təşkilatları, Respublika və şəhərlərin idarəetmə orqanlarının təşkilatları, yerli idarəetmə orqanlarının təşkilatları

Ali təhsil sektoru: universitetlər və digər ali təhsil müəssisələri, ali təhsil müəssisələrinə və ya Təhsil Nazirliyinə tabe olan elmi-tədqiqat institutları (mərkəzləri), ali təhsil müəssisələrinə və ya Təhsil Nazirliyinə tabe olan konstruktor, layihə-konstruktor təşkilatları, ali təhsil müəssisələrinin nəzdində klinikalar, hospitallar, digər

tibb müəssisələri, ali təhsil müəssisələrinə tabe olan sınaq və eksperimental müəssisələr və s.

Sahibkarlıq sektoru: 1) sahə elmi-tədqiqat institutları; 2) konstruktor, layihə-konstruktor texnoloji təşkilatlar; 3) layihə və layihə-axtarış tikinti təşkilatları; 4) sənaye müəssisələri; 5) sınaq bazası və s.

Özəl qeyri–kommersiya sektoru: könüllü elmi, peşə cəmiyyətləri və assosiasiyaları, ictimai təşkilatlar, xeyriyyə fondları və s.

Oxşar rəsmi statistik hesabatlar müxtəlif forma və bölmələr üzrə tərtib olunur [21].

Müəssisənin innovasiya fəaliyyəti haqqındakı hesabatlar 7 bölmə üzrə təqdim olunur.

I bölmə. Fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər (min manat).

II bölmə. Məhsulun (xidmətlərin) həcmi (min manat).

III bölmə. İnnovasiya fəaliyyətinin məqsədləri.

IV bölmə. Hesabat ilində müəssisə tərəfindən alınmış və verilmiş yeni texnologiyaların (texniki nailiyyətlərin), proqram vəsaitlərinin sayı.

V bölmə. Təşkilati və marketinq innovasiyaları.

VI bölmə. İnnovasiyalar haqqında informasiya mənbələri.

VII bölmə. İnnovasiyalara mane olan amillər.

Elmi-tədqiqat fəaliyyəti üzrə hesabatlarda əsasən aşağıdakı bölmələr əks olunur:

- I bölmə. Elmi-texniki işlərin yerinə yetirilmə həcmi haqqında (min manat);
- II bölmə. Elmi tədqiqatlara və işləmələrə çəkilən ümumi xərclər;
- III bölmə. İşlərin növləri üzrə elmi-tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər və onların maliyyə mənbələri;
- IV bölmə. Elmi-tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı, tərkibi, hərəkəti;
- V bölmə. Tədqiqatçı mütəxəssislərin elm sahələri üzrə bölgüsü;
- VI bölmə. Yüksəkixtisaslı kadr hazırlığı haqqında məlumatlar.

Bundan başqa, müəssisələrdə İKT-dən istifadə haqqında da statistik məlumatlar toplanılır.

- A bölməsi. Müəssisənin (təşkilatın) İKT sistemləri və onlara girişi haqqında;
- B bölməsi. İnternetdən istifadə;
- C bölməsi. Elektron ticarət;
- İnformasiya və kommunikasiya texnologiyaları məhsullarının statistik təsnifatı;
- İnformasiya və kommunikasiya texnologiyaları xidmətlərinin statistik təsnifatı.

Elm üzrə əsas göstəricilər bloku aşağıdakıları əhatə edir: 1) Təşkilatlar; 2) Elmi kadrlar; 3)Yerinə yetirilmiş maddi-texniki işlər; 4) Maddi-texniki baza; 5) Maliyyələşmə; 6) Regionlar üzrə elmin əsas göstəriciləri; 7) Beynəlxalq müqayisələr və s.

5. İBİ-nin səviyyəsinin qiymətləndirilməsinə regional və sahəvi yanaşmanın xüsusiyyətləri. Təhlillər göstərir ki, İBİ-nin səviyyəsinin qiymətləndirilməsində müxtəlif yanaşmalar, göstərici-indikatorlar, metodikalar, indekslər və s. mövcuddur. Müqayisəli təhlillərin aparılmasında pərakəndəlik vardır. Müqayisə üçün seçiləcək baza qrupları da tələbatlara, regional xüsusiyyətlərə tam cavab vermir. Ona görə də İBİ-nin formalaşması vəziyyətinin iqtisadi təhlili zamanı funksional cəhətdən iqtisadi inkişaf mərhələlərinin: aqrar, sənaye, informasiya, bilik, smart texnologiyalar kimi qəbul edilməsi təklif olunur. Təhlillərin aparılması və qiymətləndirmələr zamanı bu bölgü nəzərə alınmalıdır.

Bundan başqa, müqayisəli təhlillər və qiymətləndirmələr üçün seçilmiş ölkələr qrupuna [22]: istiqamətverici inkişaf etmiş ölkələr (G7, G10, G20), postsovet, keçmiş SSRİ, MDB ölkələri, regional ölkələr, inkişaf etməkdə olan ölkələr, oxşar şəraitli ölkələr daxil ediləcəkdir. Bu nöqteyi-nəzərdən müqayisə üçün seçilmiş ölkələr qrupuna konkret olaraq, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Kanada, Yaponiya, Çin, Rusiya, Hindistan, Koreya, Türkiyə, İsveçrə, İsveç, Avstriya, İran, Malayziya, Sinqapur, İsrail, İrlandiya, Pakistan, Macarıstan, Bolqarıstan, Qazaxıstan, Ukrayna, Azərbaycan, Belarus, Özbəkistan, Gürcüstan, Ermənistan kimi ölkələr salınmışdır. Eyni zamanda ölkədaxili regional səviyyələr: Bakı, Naxçıvan, Qarabağ – Şuşa, Sumqayıt, Mingəçevir, Şirvan, Lənkəran, Quba, Şamaxı, Qəbələ, Şəki, Gəncə kimi iqtisadi-inzibati bölgü qəbul edilmişdir.

İqtisadi təhlillərin daha kompakt sahədə bir-birinə uzlaşmış şəraitdə aparılması üçün İBİ-nin altsahələrini də təsnifləşdirmək mümkündür. Bunu nəzərə alaraq, İnformasiya və biliklər iqtisadiyyatının sahəvi təsnifatı aşağıdakı kimi də formalaşdırıla bilər: İnternet; Proqram mühəndisliyi və avtomatlaşdırma texnologiyaları; Rəqəmsal kontentlər; İT-servis, Telekommunikasiya; Kompütinq və elektron sənaye; Kreativ kontent və rəqəmsal media; Elektronika sahəsi; Hərbi sənaye; Aerokosmik və aviasiya sənayesi; İdarəetmə servisləri; Bio, nano və yüksək texnologiyalar; Biznes və sənaye xidmətləri, Əczaçılıq və tibb sənayesi; Ətraf mühit və ekologiya; Optik sənaye; Nəqliyyat və rabitə; Enerji sektoru; Kimyəvi maddələr və neft kimyası, Elmi-tədqiqat, təcrübə-konstruktor işləri; Elmi texnoloji tutumlu xidmət sahələri; Təhsil; Media sektoru.

Onu da qeyd edək ki, bu bölgü üzrə təhlillərin aparılması zamanı ənənəvi iqtisadiyyat sahələrini də unutmaq olmaz. Buna görə də, kənd təsərrüfatı, sənaye, metallurgiya, nəqliyyat, tikinti, neft-qaz, energetika, təbii ehtiyatlar və s. ənənəvi sahələrə aid olsalar da, İnformasiya və biliklər iqtisadiyyatının sahəvi təsnifatına onları da daxil etmək olar.

Ənənəvi iqtisadiyyat sahələrinin (ƏİS) informasiya, bilik, texnoloji, innovasiya tutumlu tərkib altsahələri [23-25].

Bundan başqa, ənənəvi iqtisadiyyat sahələrinin elmtutumlu altsahələrini və yeni yaranmış iqtisadi sahələri də (cədvəl 4) təhlil prosesinə daxil etmək lazımdır.

Yeni informasiya, bilik və texnoloji iqtisadiyyat sahələri
İKT iqtisadiyyatı
Kosmik iqtisadiyyat
Bioiqtisadiyyat
Nanoiqtisadiyyat
Dil iqtisadiyyatı
Tibb iqtisadiyyatı
Təhsil iqtisadiyyatı
Elm iqtisadiyyatı
Kreativ (yaradıcı) iqtisadiyyat
İncəsənət-art iqtisadiyyatı
Mədəniyyət iqtisadiyyatı
İdman iqtisadiyyatı
Ekoloji (yaşıl) iqtisadiyyat
Alternativ energetika iqtisadiyyatı
Patent (lisenziya) iqtisadiyyatı
Teoloji (Din) iqtisadiyyatı
Diaspor iqtisadiyyatı

Cədvəl 4. İnformasiya, innovasiya, elm, texnologiya tutumlu tərkib altsahələri

Ənənəvi iqtisadiyyat sahələrinin (ƏİS) informasiya, bilik, texnoloji, innovasiya tutumlu tərkib altsahələri
İdarəetmədə informasiya-kommunikasiya texnologiyaları
İstehsal və xidmət prosesləri texnologiyaları
Suvarma və yetişdirmə texnologiyaları
Marketinq və satış texnologiyaları
Nou-hau texnologiyaları
İnnovativ texnologiyalar
Smart texnologiyaları

6. **İnformasiya və biliyin hesabına formalaşan ÜDM-in hesablanması.** Hər hansı ölkədə informasiya və biliyin hesabına formalaşan ÜDM-i hesablamaq üçün aşağıdakı işarələmə və metodika təklif olunur.

1. Ölkənin rəsmi statistik hesabatlarına uyğun gələn istehsal-xidmət sahələri – i=1, 2,..., n

2. i-ci sahənin ÜDM-i – ÜDMi

3. i-ci sahədə sənaye istehsalı hesabına formalaşan ÜDM – ÜDMSi ; ÜDMSi = Si · ÜDM

4. i-ci sahədə xidmət istehsalı hesabına formalaşan ÜDM – ÜDMXi ; ÜDMXi = Xi · ÜDM

5. i-ci sahədə informasiya hesabına formalaşan ÜDM – ÜDMİi ; ÜDMİi = İi · ÜDMi

6. i-ci sahədə bilik hesabına formalaşan ÜDM – ÜDMBi ; ÜDMBi = Bi · ÜDMi

7. i-ci sahədə texnologiya hesabına formalaşan ÜDM – ÜDMTi ; ÜDMTi = Ti · ÜDMi

Burada

$$0 \le \{S_i, X_i, I_i, B_i, T_i\} \le 1$$

$$0 \le (S_i + X_i + I_i + B_i + T_i) \le 1$$

Çəki əmsalları kimi Si, Xi, İi, Bi, Ti-nin ekspert qiymətləndirilməsi zamanı onların ÜDM-ə təsirini iki üsulla: 1) idarəetməyə, təşkilatçılığa, qərarlara təsir etmək yoluyla dolayısı olaraq; 2) informasiya, bilik, texnologiyanın alqı/satqı obyekti kimi və ya son məhsul, texnologiya, xidmət, innovasiya olaraq.

Beləliklə, ölkə üzrə sənaye, xidmət, informasiya, bilik, texnologiya hesabına formalaşan ÜDM (DSÜDM, DXÜDM, DİÜDM, DBÜDM, DTÜDM) belə hesablanacaqdır:

1) ölkə (dövlət) üzrə yekun

$$ÜDM - YÜDM = \sum_{i=1}^{n} ÜDM_i$$

2) ölkə üzrə sənaye istehsalı hesabına olan

$$DSÜDM = \sum_{i=1}^{n} ÜDMS_i$$

3) ölkə üzrə xidmət istehsalı hesabına olan

$$DXÜDM = \sum_{i} ÜDMX_i$$

4) ölkə üzrə informasiya istehsalı hesabına olan DİÜDM

$$= \sum_{i} ÜDMİ_i$$

5) ölkə üzrə bilik istehsalı hesabına olan

$$DBÜDM = \sum_{i} ÜDMB_i$$

6) ölkə üzrə texnologiya istehsalı hesabına olan

$$DTÜDM = \sum_{i} ÜDMT_i$$

7. İnformasiya və biliklər iqtisadiyyatının kompozit indeksini formalaşdıran indeks və subindeksləri. İnformasiya və biliklər iqtisadiyyatının Kompozit İndeksinin (İBK) 2-ci şəkildə göstərilən indekslər hesabına formalaşması təklif olunur.

Aparılan müşahidə və təhlillər göstərir ki, həmin sahəvi indekslərin formalaşmasına təsir edən subindeksləri və indikator göstəricilərinin say tərkibini aşağıdakı kimi ifadə etmək olar: 1.İnformasiya cəmiyyətinin formalaşması indeksinin (İCF) tərkibi-13 subindeks və indicator; 2. Elm və təhsilin inkişaf indeksinə (ETİ) təsir edən göstəricilər -9 indikator; 3.Milli innovasiya sisteminin formalaşması indeksinin (MİS) tərkib elementləri- 13 subindeks və indicator; 4.Texniki-texnoloji və nəqliyyat infrastrukturu indeksinə (İNF) təsir edən amillər- 5 subindeks və indicator; 5. Makroiqtisadi sistemin və biznes mühitinin əlverişliyi indeksinin (İQT) göstəriciləri-12 subindeks və indicator; 6.İctimai-siyasi və hüquqi mühitin stabilliyi və dinamikliyi indeksinin (İSM) tərkib elementləri-6 subindeks və indicator; 7. Sosial-mədəni və ekoloji mühitin dayanıqlılığı indeksinə və (SEM) təsir edən göstəricilər-8 subindeks və indicator; 8.İntellektual mülkiyyətin qorunması indeksini (İMQ) formalaşdıran indikatorlar-5 subindeks və indicator; 9. Əmək bazarı və yüksəkixtisaslı kadr təminatlılığı indeksinə (EBK) təsir edən göstəricilər-7 subindeks və indicator; 10. İqtisadi sahələrdə elmi-texnoloji tutumlu istehsal indeksini (ETT) formalaşdıran indikatorlar-5 subindeks və indicator.

Şəkil 2. Kompozit indeksi formalaşdıran indekslər

8. İBİ-nin müqayisəli qiymətləndirilməsi üzrə kompozit indekslər sisteminin işlənilməsinin elmi-metodoloji əsasları. Kompozit indekslər sisteminin (KİS) strukturu çoxsəviyyəli formada təklif olunur. Baş səviyyə özündən sonra gələn bütün aşağı səviyyələri inteqrativ şəkildə əks etdirir və onu xarakterizə edən parametr İBİ-nin kompozit indeksi (İBK) adlanır.

Kompozit indeks qiymətləndirmənin nəticəsi olaraq formalaşır və müqayisəli təhlildə aparıcı mövqeyə malikdir. Belə ki, məhz həmin qiymətin nəticəsi olaraq, İBİ müvafiq reytinqləri alır.

Hər bir subindeks [0,10] şkalasında qiymətləndirilir. Çəki əmsalları ilkin olaraq 1-ə bərabər qəbul olunur. Kompozit indeks subindekslərin cəmi kimi qəbul olunur və [0,100] arasında dəyişir.

Bununla yanaşı olaraq, İBİ-nin kompozit indeksinin (İBK) hesablanmasını funksional şəkildə də aşağıdakı kimi qeyd etmək olar:

İBK = F(İCF, ETİ, MİS, İNF, İQT, İSM, SHM, İMQ, EBK, ETT).

Burada F kompozit indeksin digər indekslərdən asılılıq formasını ifadə edir.

Beləliklə, qeyd etmək olar ki, İBİ-nin müqayisəli qiymətləndirilməsi üzrə kompozit indekslər sisteminin işlənilməsinin elmi-metodoloji əsasları aşağıdakılardan ibarətdir.

✓ kompozit indekslər cəmiyyətin, iqtisadiyyatın inkişaf səviyyəsinin qiymətləndirilməsi, təhlili və müqayisəsi üçün faydalı instrumentariyadır.

✓ kompozit indeks və indikatorlar çoxölçülü kriteriya əsasında ölçülən ayrı-ayrı göstəricilərin vahid indeksdə birləşməsindən yaranır.

✓ kompozit indeks birbaşa olmasa da, dolayısı yolla İBİ-nin səmərəliliyini qiymətləndirməyə imkan verir, onun cəmiyyətdəki rolunun, payının hansı dərəcədə olması haqqında fikir yürütməyə əsas verir.

✓ kompozit indeksi formalaşdırmaq üçün adları yuxarıda göstərilən indekslərin qiymətlərinin əsas olaraq götürülməsi təklif olunur.

✓ kompozit indeksi formalaşdıran əsas indekslərin və indikatorların qarşılıqlı əlaqəsi 3-cü şəkildəki kimidir.

İBİ indekslərinin, indikator və göstəricilərinin müəyyənləşdirilməsinin ardıcıl formalaşdırılması mərhələlərini 4-cü şəkildəki kimi ifadə etmək olar.

İndeks və subindekslərin qiymətləndirilməsi haqqında aşağıdakıları qeyd etmək olar*:*

✓ yeni indekslərin və subindekslərin hesablanmasında orta qiymətlərdən, ekspert qiymətləndirilməsindən, çəki əmsallarından, müvafiq ekonometrik-statistik metodlardan istifadə olunacaqdır. İBİ-nin müqayisəli qiymətləndirilməsi üzrə indekslər, subindekslər və göstəricilər sistemi müxtəlif iyerarxik səviyyələrə bölünmüşdür.

✓ 1-ci milli səviyyə İBİ-nin kompozit inteqrativ indeksindən, ilkin olaraq 2-ci səviyyə 10 indeksdən, 3-cü səviyyə 83 subindeks və indikatordan, 4-cü səviyyə isə 320 makro/mikro xarakterli göstəricidən ibarətdir. 1-ci, 2-ci və 3-cü səviyyədəki indekslər və subindekslər həm ekspert qiymətləndirməsi, həm də özündən sonrakı səviyyəni təşkil edən parametrlər əsasında müəyyənləşdirilir.

✓ 4-cü səviyyə göstəricilərinə isə həm rəsmi statistika, həm də digər xarici və daxili göstəricilər aid edilmişdir. 4-cü səviyyə göstəriciləri daha çox 3-cü və 2-ci səviyyə subindekslərinin ekspertlər tərəfindən müəyyənləşdirilməsi üçün baza

rolunu oynayır. Bu zaman mütləq göstəricilərdən və onların konkret qiymətlərindən istifadə olunur. Burada yanaşma fərqlidir və hər bir konkret vəziyyətə müvafiq olaraq, fərdi qaydada həyata keçirilə bilər.

Şəkil 3. İBİ-nin kompozit indeksini formalaşdıran əsas indekslərin və indikatorların qarşılıqlı əlaqəsi

✓ IBI-nin müqayisəli qiymətləndirilməsi üzrə indikatorlar sistemi həm regional, həm də beynəlxalq səviyyələrdə İBİ-nin fəaliyyətinin qiymətləndirilməsi prosesində qarşıya qoyulmuş məqsədin tam təmin olunmasına cavab verə bilər.

Şəkil 4. İBİ indekslərinin, indikator və göstəricilərinin müəyyənləşdirilməsinin ardıcıl formalaşdırılması mərhələləri

- ✓ belə müqayisəli qiymətləndirmə üzrə təklif olunan indeks və indikatorlar sistemi azərbaycanda ayrıca bir regionun fəaliyyətinin qiymətləndirilməsi üçün də uğurlu bir model olaraq mövcud müasir tələbləri ödəyə bilər.
- ✓ kompozit indeks [0, 100] parçasında, 1-ci səviyyə indeksləri və 2-ci səviyyə subindekslərinin hamısı [0, 10] parçasında olmaqla "monoton artma" xüsusiyyətinə malikdir, yəni qiymətlərin artımı daha yaxşı şəraitin olmasını, azalması isə şəraitin pisləşməsini göstərir.

Nəticə. Müasir dövrün iqtisadiyyatını, xüsusən elm, texnologiya, innovasiya tutumlu sahələri kəmiyyət və keyfiyyət cəhətdən qiymətləndirmək olduqca çətin məsələlərdəndir. Araşdırmalar onu qeyd etməyə əsas verir ki, baxılan indekslərin çoxu iqtisadiyyatın hərtərəfli qiymətləndirməsini tam həyata keçirə bilmir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, kompozit və digər kompleks xarakterli indekslər ölkələrin və onların iqtisadiyyatının tam xarakteristikasını təhlil və təqdim etməyə imkan verən inanılmış və qəbul edilmiş vasitələrdən biridir. Ona görə də nüfüzlu təşkilatların kompozit indikatorlarının qurulması qaydaları, metodologiyası və tələblərindən, praktikada özünü doğrultmuş müxtəlif metodoloji üsullardan effektiv istifadə olunmalıdır. İnformasiyaya və biliklərə əsaslanan iqtisadiyyatın inkişaf səviyyəsinin düzgün və dəqiq qiymətləndirilməsini həyata keçirən kompozit indekslər sisteminin işlənilməsi və müntəzəm olaraq onların təkmilləşdirilməsi müasir dövrün tələbidir. Bununla yanaşı, İnformasiya və bilik sahəsində fəaliyyət göstərən təşkilatların informasiya və hesabatlılıq xüsusiyyətlərini də nəzərə almaq vacibdir. Bu tələbləri əsas götürməklə regional və sahəvi cəhətləri özündə əks etdirən yanaşmanın mahiyyəti şərh edilmişdir. Həmin yanaşmaya müvafiq olaraq, informasiya və biliyin hesabına formalaşan ÜDM-in hesablanması üçün metodika təklif olunmuşdur. Eyni zamanda informasiya və biliklər iqtisadiyyatının kompozit indeksinin, onu formalaşdıran digər indeks, subindeks və indikatorların kəmiyyət və keyfiyyət tərkibi aydınlaşdırılmışdır. İndekslərin qarşılıqlı təsirinin aydınlaşdırılması və hesablanması mərhələləri onlardan gələcəkdə real təhlil, planlaşdırma və proqnozlaşdırma mexanizmləri kimi istifadə olunmasına imkan yaradır.

Ədəbiyyat

[1] "Azərbaycan - 2020: Gələcəyə Baxiş" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci il. www.president.az
[2] Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. 02.04.2014-cü il, www.president.az
[3] Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri. Bakı, 6 dekabr 2016-cı il. www.president.az
[4] www.un.org/ecosoc/en/
[5] Economy Index. www.knowledge.com

[6] Information economy report 2015. www.unctad.org; Measuring the Information Society Report 2015. www.itu.int/en/ITU-D/Statistics
[7] Digital Economy and Society Index. www.ec.europa.eu/digital-single-market/en/desi
[8] Global Competitiveness Report. www.weforum.org/reports/the-global-competitiveness-report
[9] World Economic Forum. www.weforum.org
[10] Global Creativity İndex. www.martinprosperity.org/media/Global-Creativity-Index
[11] Global Innovation Index. www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii
[12] Global Entrepreneurship Index 2016. www.ifuturo.org/documentacion/Global-Entrepreneurship-Index-2016.pdf
[13] International Monetary Fund. www.imf.org/external/index.htm
[14] www.oecd.org/sti/global-forum-knowledge-economy
[15]European Economic Commission. www.ec.europa.eu/economy_finance/ publications/european_economy/index_en.htm
[16] Shahid Yusuf. Knowledge-based Economic Growth in Kazakhstan. Global Journal of Emerging Market Economies, 2015, vol. 7, 3: pp. 257-286
[17] www.gks.ru
[18] Сударкина Е.С. Анализ структуры российской экономики на современном этапе и перспективы развития. Экономика и управление. 2016, №1, с. 57-58
[19] Jadranka Švarc, Marina Dabić. Evolution of the Knowledge Economy: a Historical Perspective with an Application to the Case of Europe. Journal of the Knowledge Economy. 2017, Volume 8, Issue 1, pp 159–176
[20] World Bank. www.worldbank.org
[21] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. www.stat.gov.az
[22] Abolfazl Shahabadi, Fatemeh Kimiaei, Mohammad Arbab Afzali. The Evaluation of Impacts of Knowledge-Based Economy Factors on the Improvement of Total Factor Productivity (a Comparative Study of Emerging and G7 Economies). Journal of the Knowledge Economy, 2016, pp.1-12
[23]www.oecd.org/sti/theeconomicimpactofictmeasurementevidenceandimplications.htm
[24] Макаров В.В., Блатова Т.А. Информационно-коммуникационные технологии как индикатор развития экономики знаний. РГ журнал. 2014, том 3. №4. с. 275-281
[25] Tkachenko E., Rogova E., Bodrunov S..Regional Models of the Management of Knowledge Economy Development: The Problem of Measurement and Assessment. 17th European Conference on Knowledge Management (ECKM), 2016, pp.881-889

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 92 - 100
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 92 - 100

İNTENSİV İNKİŞAFIN MALİYYƏ VƏ ƏRAZİ PROBLEMLƏRİ

S.M. Hacızadə
i.ü.f.d., müəl., UNEC
mob: 050-343-11-21; iş nömrəsi: 012-564-47-68
s.hacizade@mail.ru
Məqalə redaksiyaya daxil olmuşdur 30 may 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 30 May 2017; accepted 22 September 2017; published online 05 oktyabr 2017

Xülasə

Tədqiqatın əsas məqsədi intensiv istifadə olunan ərazilərdə inkişafın bir sıra aspektlərinin araşdırılması, maliyyə və ərazi aspektlərinə xüsusi diqqətin verilməsindən ibarətdir. İstifadə olunan ərazilərdə aqrar sahənin inkişafının investisiya təminatı, intensiv inkişafın maliyyə və ərazi problemləri təhlil edilmişdir. Tədqiqat işi elmi tədqiqat prosesində statistik-iqtisadi, məqsədli proqram, iqtisadi-riyazi və s. kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqat nəticəsində intensiv istifadə olunan ərazilərdə aqrar sahənin inkişafının investisiya təminatı, sahəyə yönəldilən investisiyaların kreditləşdirilməsi vəziyyəti, lizinqin tətbiqi xüsusiyyətləri şərh olunmuşdur. Həmin ərazilərdə intensiv inkişafın maliyyə və ərazi problemlərinin həlli imkanlarına münasibət bildirilmişdir. Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti tətbiqi tövsiyələrin intensiv istifadə olunan ərazilərdə aparılan aqrar islahatların səmərəliliyinin yüksəldilməsində və inkişaf imkanlarının reallaşmasında istifadə oluna bilməsindədir. Tədqiqatın elmi yeniliyi və orijinallığı: intensiv istifadə olunan ərazilərdəki aqrar bölmənin və ərzaq bazarının tənzimlənməsi üçün elmi-metodoloji yanaşma və tövsiyələr işlənib hazırlanmışdır.

Açar sözlər: intensiv, investisiya, kredit, ərazi, aqrar sahə.
Jel Classification: R58; G32

FINANCIAL AND TERRITORIAL PROBLEMS OF INTENSIVE DEVELOPMENT

Abstract

The main purpose of the article is to study some aspects of the development of intensively used territories and, in this regard special attention is paid to financial and territorial development issues. Investment support of the agrarian sector of development in these territories, as well as financial and food problems of intensive development are analyzed. During the research,

we used mathematical and economic, program-target methods of research. Investment support of the agrarian sector in these territories, as well as the state of investment lending, and the specifics of leasing application in the development of intensively used territories are considered. The article shows the author's attitude to the possibility of solving financial and territorial issues of intensive development in these territories. Limitations of the study: practical information is required on a wide range. The practical significance lies in the fact that practical recommendations can be applied to improve the effectiveness of the agrarian reforms carried out, as well as to realize development opportunities in intensively used territories. Scientific novelty and originality of research: scientific and methodological approaches and recommendations for the settlement of the agrarian sector and the food market in intensively used territories have been developed.

Key words: intensive, investment, credit, territory, agrarian sector.

ФИНАНСОВЫЕ И ТЕРРИТОРИАЛЬНЫЕ ПРОБЛЕМЫ ИНТЕНСИВНОГО РАЗВИТИЯ

Резюме

Основной целью статьи является исследование некоторых аспектов развития интенсивно используемых территорий. Особое внимание уделено финансовым и территориальным вопросам развития. Анализированы инвестиционное обеспечение аграрного сектора развития на этих территориях, а также финансовые и продовольственные проблемы интенсивного развития. В процессе исследования использованы математические и экономические, програмно-целевые методы исследования. Рассматривается инвестиционное обеспечение аграрного сектора на этих территориях, а также состояние кредитования инвестиций, и особенности применения лизинга в развитии интенсивно используемых территорий. В статье показано отношение автора к возможности решения финансовых и территориальных вопросов интенсивного развития на этих территориях. Ограничения исследования: требуется практическая информация по широкому кругу вопросов. Практическая значимость заключается в том, что практические рекомендации могут быть применены в повышении эффективности проведенных аграрных реформ, а также в реализации возможностей развития на интенсивно используемых территориях. Научная новизна и оригинальность исследования: разработаны научно-методологические подходы и ре-

комендации по урегулированию аграрного сектора и рынка продуктов питания на интенсивно используемых территориях.

Ключевые слова: интенсивно, инвестиция, кредит, территория, аграрный сектор.

Müasir dövrdə intensiv istifadə olunan ərazilərdə (bundan sonra İİOƏ) məkan və investisiya amilləri mühüm əhəmiyyətə malikdir. Səmərəli investisiya mühiti tənzimləməyə praqmatik və iqtisadi motivlərə əsaslanan yanaşmanı zəruri edir. İİOƏ digər ərazilərə nisbətən daha yüksək səviyyəli istehsal və sosial infrastruktura malik olur. Həmin infrastrukturun dəstəklənməsi (bərpası və inkişafı) böyük miqdarda, uzunmüddətli vəsait qoyuluşları tələb edir. Bundan başqa, həmin ərazilərə istehsalın genişləndirilməsi və modernləşdirilməsinə, elmi-texnoloji potensialın reallaşdırılması və inkişafına investisiyalar böyük xüsusi çəkiyə malik olur. Aqrar sahənin modernləşdirilməsi, əsas kapitalın quruluşunun təkmilləşdirilməsi, yeni texnologiyalara maliyyə dəstəyi fəaliyyətin intensivliyinin və ahəngdarlığının təminatında həlledici rol oynayır. Həmin proseslər sahələrarası nisbətlərin nəzərə alınmasını tələb edir.

Aqrar bazarın informasiyalaşdırılması və bu prosesə bütün müvafiq istehsal və kommersiya qurumlarının cəlb edilməsi elmi-texnoloji nailiyyətlərin reallaşdırılmasını mümkün edən başlıça amilə cevrilir. Belə vəziyyəti şərtləndirən səbəblərdən biri də intensiv istifadə olunan ərazilərin açıq iqtisadiyyat prinsiplərinə, beynəlxalq inteqrasiya tələblərinə daha həssas olmasıdır (1, s. 57-61). Məlum olduğu kimi, inteqrasiya proseslərində qabaqcıl texnologiyaların daşıyıcısı olan xarici investisiylar aparıcı mövqeyə malikdir.

Milli maraqların müdafiəsində təşəbbüsün əsasən yerli qurumlar tərəfindən irəli sürülməsi kimi mühüm məsələnin həllində aqrar və aqrar-sənaye qurumlarının da xüsusi mövqeyi təmin edilməlidir. Xarici investorların təbii resurslardan, o cümlədən torpaqdan və sudan istifadə rejimləri milli aqrar sahənin mənafeyi ilə bilavasitə əlaqədardır. İntensiv istifadə olunan ərazilərə yönəldilən xarici investisiyaların istifadəsində qarşıya cıxan ekoloji problemlər də bu qəbildəndir.

Resurs qoruma intensiv istifadə olunan ərazilərdə fəaliyyətin proqramlaşdırılmasının əsas meyarlarındandır. İnkişafın bu meyar üzrə dəstəklənməsi investisiyaların nə dərəcədə innovasiya xarakterli olmasından asılıdır. Təbiidir ki, resurs qorumanın bu ərazilərdə strateji inkişaf meyarı kimi qəbul edilməsi birmənalı şəkildə mümkün deyil. Əlbəttə, bu halda əsas meyar kimi iqtisadi səmərəlilik götürülür.

Aqrar bölməyə yönəldilən investisiyaların səmərəliliyinin müəyyən edilməsi üçün milli iqtisadiyyatın bu mühüm sahəsinin investisiyaya tələbatı və inves-

tisiya cəlbediciliyi qiymətləndirilməlidir. Kənd təsərrüfatı məhsulları istehsalı sahəsi investorları nisbətən az cəlb edir. Buna səbəb kimi sahənin spesifikasını (təbii-iqlim şəraitindən güclü asılılıq, bəzi məhsulların saxlanması müddətinin olduqca az olması, torpaqdan istifadə ilə əlaqədar qanunverici aktların mürəkkəbliyi və s.), infrastrukturun aşağı təşəkkül səviyyəsini, ərzaq bazarında yüksək rəqabəti, informasiyalaşmanın qeyri-qənaətbəxş vəziyyətini göstərmək olar.

İnvestisiya siyasəti İİOƏ-nin inkişafını nizamlayan başlıca amillərdəndir. Aqrar sahənin strukturlaşdırılmasını sürətləndirməklə, o, strateji məqsədlərə nail olmaq imkanlarını reallaşdırmağa xidmət edir. Regional problemlərin həllinə vəsaitlərin cəlb edilməsi və onlardan səmərəli istifadə məsələlərinə münasibətdə struktur-investisiya siyasətinin reallaşdırılması İİOƏ-nin inkişafı baxımından xüsusi aktuallıq kəsb edir.

Aqrar bölmə xarici investorlar üçün riskli sahə hesab olunur. Xarici investor bu sahədəki fəaliyyətində siyasi, iqtisadi, maliyyə və texniki risklərlə qarşılaşır. Ölkəmizdə dövlət səviyyəsində təmin edilmiş siyasi sabitlik siyasi risklə yanaşı iqtisadi, maliyyə və digər riskləri də minimumlaşdırmaq üçün əlverişli şərait yaradır.

İİOƏ-yə regional problemlərin həlli müstəvisində iqtisadi risklərə daha cox diqqət verilir. Bu risklər tələb-təklif nisbəti, inflyasiya və proqnoz hesablamaları bazasında qiymətləndirilə bilər. Əlbəttə, iqtisadi riskləri qiymətləndirərkən, onları süni surətdə siyasi və maliyyə risklərindən ayırmaq məqsədəuyğun deyildir. Odur ki, benəlxalq təcrübədə risklərin bu növləri cox vaxt birgə nəzərdən keçirilir və sosial-iqtisadi risklər adı altında təqdim olunur.

Aqrar və aqrar-sənaye qurumlarına vəsait qoyuluşlarının səmərəli sığorta mexanizminin təşəkkülü, onların investisiya cəlbediciliyini dəfələrlə artırmaq imkanına malikdir. Bu baxımdan, regional investisiya proqramlarının hazırlanması və həyata keçirilməsi, investisiya layihələrinin əlverişliyinə dair informasiyaların yayılmasında fəallıq, müvafiq informasiya bazasının yaradılmasının sürətləndirilməsi kimi məsələlər İİOƏ-də aqrar sahənin inkişafı baxımından diqqət mərkəzində olmalıdır.

Postsovet məkanı ölkələrinin, o cümlədən Azərbaycan təcrübəsinin təhlili aqrar sahəyə birbaşa xarici investisiyaların cəlb olunmasında lazımi fəallıq olmadığını göstərir. İİOƏ-də istisnalara rast gəlmək olur. Bununla belə, həmin vəsaitlərin yerli istehsalla əlaqələri qənaətbəxş deyildir.

Aqrar sahə məşğulluğun təminatı baxımından, ölkədə böyük xüsusi çəkiyə malikdir. Bu baxımdan, aqrar sahənin investisiyalaşması həyati əhəmiyyətə malikdir. Sahənin ixrac potensialının fəallaşdırılması üçün nəzərdə tutulan layihələrə birbaşa və portfel xarici investisiyların cəlb edilməsi bu günün prizmasından aktualdır. Tədqiqatlar göstərir ki, problemin həlli üçün daxili investisiya imkan-

ları reallaşdırılmaqla yanaşı, xarici investorları stimullaşdırmağı nəzərdə tutan məqsədli proqramların hazırlanması və həyata keçirilməsi lazımdır. Əldə ediləcək məqsədlər sırasına, burada, idxaldan asılılığın azaldılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi aid edilməlidir.

Hazır (bu ərazidə istehsal olunan) kənd təsərrüfatı məhsullarının lokal istehlakı ilə səciyyəvi olan İİOƏ-lərdə qeyri-aqrar sahələrə investisiyalar da yüksək keyfiyyətli təzə ərzağa tələbatı artırır. Bu, qloal miqyasda aşağı rəqabət qabiliyyətli sayılan bir sıra bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının artırılması üçün həlledici amil rolunu oynaya bilər.

Aqrar sahə modernləşmənin tempi sahənin spesifikası ilə məhdudlaşır və elmi-texnoloji yeniliklərin tətbiqi, bir çox hallarda maliyyə vəsaitləri çətinlikləri ilə üzləşir. Belə halda, xüsusilə yeni istehsal güclərinin yaradılmasına və modernləşməyə investisiyalar arasında optimal nisbətin müəyyənləşdirilməsi məsələsi xüsusilə aktualdır.

İnvestisiyalaşmanın innovasiyalı inkişaf baxımından perspektivli forması kimi, vençur layihələrinin investisiyalaşması İİOƏ-dəki imkanları lazımi dərəcədə tədqiq olunmamışdır. Bir sıra müəlliflərin fikrinçə, bilavasitə daxildə istehlak üçün nəzərdə tutulan məhsullar sırasında ərzaq məhsulları biznesini vençur kapitalı hesabına maliyyələşdirmək məqsədəuyğundur.

Aqrar-ərzaq sektorunda investisiya resurslarının formalaşmasında sığorta şirkətlərinin rolu hələ ki, olduqca azdır. Uzunmuddətli investisiya resursları əldə etmək imkanı gerçəkləşdirilmir. Məhz sığorta xidmətləri və investisiya bazarı arasında üzvi əlaqələrin təmin olunması hesabına aqrar qurumların və əhalinin etimadını qazanmaq olar. Bunun üçün dövlət himayəsi zəruridir. İİOƏ-də aqrar sığorta üçün daha əlverişli şərait yaratmaq imkanı vardır. Bu, ilk növbədə həmin ərazilərdə kənd təsərrüfatı istehsalının rentabelliyinin digər ərazilərə nisbətən daha yüksək olması ilə əlaqədardır. Rentabellik səviyyəsindəki fərq satış bazarının istehsalın maddi-texniki təminatı qurumları ilə yaxınlığı və digər amillərlə şərtlənir.

Aqrar sahəyə investisiyaların kreditləşdirilməsi baxımından vəziyyəti, digər sahələrə nisbətən bir qayda olaraq arzuolunan səviyyədə olmur. Belə vəziyyət sahənin özünəməxsus cəhətləri, fermer gəlirlərinin azalması problemi, təbii-iqlim şəraitindən güclü asılılıq, artıq qeyd edildiyi kimi, zəif sahələrarası və güclü sahədaxili rəqabətin mövcudluğu və s. ilə şərtlənir.

Müasir aqrar sahənin investisiyaya tələbatının kreditləşdirilməsində dövlətin rolu əsasən kredit kooperasiyasının formalaşmasının dəstəklənməsi, vergi və digər güzəştlərin tətbiqində ifadə olunur. Məhz belə yanaşma aqrar və bəzi aqrarsənaye qurumlarının məhdud imkanları daxilində bank kreditlərindən asılılığı zəiflətməyə imkan verir.

Respublika üzrə fərdi aqrar sahibkarlıq qurumlarına ayrılan bank kreditlərində Abşeron iqtisadi rayonunun xüsusi çəkisi azalsa da, yenə də yüksək olaraq qalır. Bu iqtisadi rayonda aqrar sahədə fərdi sahibkarlığa ayrılan uzunmüddətli bank kreditlərinin xüsusi çəkisi, demək olar ki, daim respublika üzrə müvafiq göstəricidən yüksəkdir.

Kənd təsərrüfatı, məlum olduğu kimi, mövsümi amillərdən güclü asılı olduğundan, burada kreditin müddəti xüsusi əhəmiyyət kəsb edir. Aqrar sahədə qısamüddətli kreditlər mövsümi istehsal vasitələri, toxum, gübrə, yanacaq alınmasına, hazır məhsul ehtiyatlarının saxlanmasına; ortamüddətli kreditlər – meliorasiya işlərinin həyata keçirilməsinə, əsas sürünün artırılmasına, maşın və avadanlıqların alınmasına, çoxillik əkmələrə; uzunmüddətli kreditlər – torpaq, daşınmaz əmlak alınmasına və sairəyə istifadə olunur. İİOƏ-də aqrar istehsalın intensivliyi bir qayda olaraq yüksəkdir və məlum olduğu kimi, belə aqrotexnologiyaların mövsümilikdən asılılığı bir qədər azdır. Bu ərazilərdə istehsal tsikli nisbətən qısadır və nəticə etibarı ilə aqrar qurumların kreditə ehtiyacının strukturuna müsbət təsir edir.

İqtisadi fəallığın adətən yüksək olduğu və urbanizasiya proseslərinin intensiv baş verdiyi İİOƏ-də infrastrukturun inkişaf səviyyəsi yüksəkdir. Odur ki, həmin ərazidə fəaliyyət göstərən aqrar müəssisələrdə orta və uzunmüddətli kreditlər digər ərazilərdən fərqli olaraq qurğuların yeniləşməsinə, müasir elmtutumlu texnologiyaların tətbiqi üçün zəruri olan əsas istehsal vasitələri ilə təminat istiqamətində istifadə olunur.

İİOƏ-də bazar infrastrukturunun inkişafı digər ərazilərə nisbətən bir qədər üstün tempə malik olur. Mərkəzində adətən böyük şəhərlərin olduğu bu ərazilərdə kommersiya banklarının tələblərinə cavab verən girov mexanizminin reallaşması imkanları bir qədər genişdir. İİOƏ-də, konkret halda paytaxta yaxın ərazilərdə aqrar bölmənin məhz yerli bazara xidmət etməsi xüsusiyyəti, burada tərəvəz, süd və quşçuluq məhsulları istehsalı üzrə ixtisaslaşmanı şərtləndirir. Kommersiya bankları İİOƏ-də aqrar əhalinin fəallığını artıran layihələrə maraq göstərir. Bu layihələr aqrar bölmənin hazır məhsullarının zəmanətli bazarının və etibarlı aqroservisin yaradılması əməliyyatlarının kreditləşdirilməsinə xidmət edir.

İİOƏ-də yumurta və quş ətinin demək olar ki, hamısı yerli istehlaka (şəhər əhalisi tərəfindən) gedir və tələbatın qalan hissəsi əsasən idxal hesabına ödənilir. Yuxarıda adları sadalanan rayonlarda son onilliklərdə fəaliyyət göstərmiş və hazırda istehsalın bərpa olunduğu broyler və quşculuq müəssisələrinin kreditləşdirilməsi, hazır məhsulun satışı və yem təminatı proseslərini də əhatə etməlidir.

İstehsalaqədərki və istehsaldan sonrakı mərhələlərin iştirakcıları üçün mikrokreditlər daha əlverişlidir. Bu, fəaliyyət dairəsinin kiçikliyi və girovlarla bağlı

ciddi problemlərlə əlaqədardır. Məlum olduğu kimi, aqrar sahədə, xüsusilə iqtisadi fəallığın yüksək olduğu ərazilərdə (o cümlədən İİOƏ-də) mikrokreditlərlə iş böyük həssaslıq və çeviklik tələb edir. Mikrokreditlər bahadır və onların verilməsi üçün kompleks tədbirlər həyata keçirilməli, əlverişli sahibkarlıq mühiti yaradılmalıdır. Kredit bazarının inkişafı islahatlar prosesinin gedişi və makrosəviyyəli tədbirlərin səmərəliliyi ilə bilavasitə əlaqədardır. Məhz sahibkarlığın inkişafına ayrılan vəsaitlərdən istifadə səmərəliliyini və operativliyini yüksəltməklə aqrar sahədə və onunla sıx əlaqədar sahələrə mikrokreditləri ucuzlaşdırmaq mümkündür. Ucuz mikrokreditlər isə, təcrübə göstərir ki, İİOƏ-də iqtisadi fəallığın yüksəldilməsinin mühüm amillərindən biridir.

Mikrokreditlərin monitorinqi, kredit alanın maliyyə təsərrüfatçılıq vəziyyətinin qiymətləndirilməsi kimi məsələləri İİOƏ-də daha çevik və səmərəli həll etmək üçün əlavə (infrastrukturun inkişafı və bazar münasibətlərinin üstün templə təşəkkülü ilə əlaqədar) imkanlar vardır. Bu imkanları aşkar etmək və reallaşdırmaqla əhalinin etibarını qazanmaq, mikrokreditləşdirmə sahəsində xarici bankların görəcəyi işi daha səmərəli və milli mənafelərə daha uyğun şəkildə görmək olar. İİOƏ-də aqrar sahənin kreditləşdirilməsi: intensiv texnologiyaların geniş tətbiqi şəraitində riskin nisbətən aşağı olması, likvid vəsaitlərin müxtəlifliyi və xüsusi çəkisinin yüksəkliyi hesabına girov mexanizminin çevikliyi ilə əlaqədar daha əlverişli cəhətlərə malikdir.

Aqrar bölmənin investisiya təminatında perspektivli forma axtarışları lizinq əməliyyatlarının əlverişli olması qənaəti ilə nəticələnmişdir. Əsas kapitala qoyuluşların səmərəliliyinin xüsusi diqqət cəlb etdiyi islahatlar dövründə istehsal və servis investisiyası funksiyasını içra edən lizinq əməliyyatları üçün geniş imkanlar vardır. Aqrar və aqrar-sənaye qurumlarının mövcud ağır maliyyə vəziyyəti dövlətdən ciddi kapital qoyuluşu tələb etməyən investisiya fəaliyyəti növünü müəyyənləşdirməyi zəruri edir. Bu baxımdan, lizinq mütərəqqi investisiyalaşma üsuludur.

Aqrar sahədə lizinq bazarının inkişafına təsir edən şərtləri aşağıdakı kimi xülasə etmək olar:

- aqrar bölmədə xroniki likvid vəsait çatışmazlığı;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin azalması meyili və qiymət paritetinin aqrar bölmənin zərərinə dəyişməsi nəticəsində təsərrüfat vahidlərinin fəaliyyətinin genişlənməsinə vəsait ayırma imkanlarının məhdudluğu;
- kənd təsərrüfatı maşınları və avadanlıqlarının satış bazarının genişlənməsinə olan ehtiyacı;
- kənd təsərrüfatı məhsulları və kənd təsərrüfatı texnikası istehsalçılarının mənafelərinin uzlaşdırılması zəruriliyi.

İntensiv istifadə olunan ərazilərdə aqrar sahənin iqtisadi fəallığının dəstəklənməsində icarə münasibətləri sisteminə üzvi sürətlə qovuşan lizinqdən səmərəli istifadə imkanları daha genişdir. Kənd təsərrüfatında istifadə edilən maşın və avadanlıqların, istehsal qurumlarının, nəqliyyat vasitələrinin, uzun müddət işlədilən malların içarəsini nəzərdə tutan lizinq sahənin texniki təminatında getdikcə daha əhəmiyyətli rol oynamaqdadır. Belə ki, daşınan əmlakın içarədarı olan fermer (kəndli) böyük miqdarda vəsait sərf etmədən müasir və bahalı texniki vasitələrdən istifadə etmək və icarə haqqını həmin maşın və avadanlıqların tətbiqindən əldə edilən mənfəət hesabına ödəmək imkanları genişlənməkdədir. Buna səbəb lizinq bazarına xarici kapitalın fəal müdaxiləsi və daxili qurumların daha ciddi layihələrdə iştiraka can atmalarıdır.

Yığcam ərazidə təsərrüfatçılığın və məskunlaşmanın bütün əsas elementlərinin mövcudluğu, müxtəlif fəaliyyət növlərinin inteqrasiyası lizinqin ənənəvi içarədən aşağıdakı fərqli cəhətləri intensiv istifadə olunan ərazilərdə kənd təsərrüfatı istehsalının inkişafı üçün əlverişli mühit əmələ gətirir. İlk növbədə onu qeyd edək ki, saziş obyekti lizinq verən tərəfindən deyil, lizinq alan tərəfindən müəyyən edilir. İstehlakçının seçdiyi avadanlığı lizinq verən öz hesabına alır. İkincisi, lizinqin müddəti avadanlığın fiziki köhnəlmə müddətindən qısadır. Bu müddət vergi amortizasiyası müddətinə yaxındır. Maşın və avadanlıqdan istifadənin lazımi səmərəliliyi təmin edilməklə düzgün istismar rejiminin seçilməsi onların müqavilə müddəti başa catdıqdan sonra icarəçi tərəfindən satın alınması əlverişliyini təmin edir. Nəhayət, lizinq verən lizinq alanın ödəniş qabiliyyətsizliyindən etibarlı sığrotalanır.

Ödənişlə əlaqədar ciddi problem yarandıqda, lizinq verən öz əmlakını geri ala, onu başqasına icarəyə verə və ya sata bilər. Lizinq əməliyyatlarında ödəniş problemlərinə münasibətin çevikliyi zəruri fəaliyyətin temp və proporsiyalarını optimallaşdırmaq üçün şərait yaradır. Torpaq və daşınmaz əmlakın bir qayda olaraq bahalaşdığı bazar şəraitində pul kapitalından fərqli olaraq, lizinq biznesinə yönəldilən kapital inflyasiyanın təsirinə demək olar ki, məruz qalmır.

"Lizinq verən və lizinq alan ilk ödəniş müddətinin uzadılması, avans ödənməsi, lizinq müddətinin sonuna ödəmələrin həçminin azaldılması ilə ödəmə sxemi, ödəmələrin digər istənilən sxemləri haqqında razılığa gələ bilərlər. Lizinq ödəmələrinin forması diversifikasiya oluna bilər və ödəmələr lizinqə götürülən avadanlıq vasitəsilə istehsal olunmuş məhsulun pul və ya əmtəə formasında, barter və xidmət formasında həyata keçirilə bilər" (2, s. 211).

Aqrar sahədə lizinq alan subyektlərin kommersiya etibarlılığı, sazişli satış qiymətinin sonrakı illərdə dəyişməsi dinamikası və s. amillərin lizinq şirkəti tərəfindən nəzərə alınması bir sıra çətinliklərlə əlaqədardır. Lizinq şirkətinin yerləşdi-

yi əraziyə yaxın urbanizələşmiş zonalarda və digər intensiv istifadə olunan ərazilərdə bu çətinlikləri aradan qaldırmaq imkanları daha genişdir. Bu inkişaf etmiş infrastruktur kifayət qədər formalaşmış informasiya xidməti və s. ilə şərtlənir.

Aqrar sahədə lizinq əməliyyatlarının həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur: lizinq obyekti olacaq maşın və avadanlığın, onlara göstərilən xidmətlərin tərkibinin dəqiqləşdirilməsi; müvafiq maşın və avadanlıqlara olan tələbatın, o cümlədən daimi, mövsümi və epizodik tələbatın müəyyən edilməsi; lizinq alanların, layihələrin siyahısının tərtibi; lizinqə görə ödəniş kimi kənd təsərrüfatı məhsullarının çeşidinin müəyyənləşdirilməsi; kənd təsərrüfatı texnikasının alınması və lizinq münasibətlərinin rəsmiləşdirilməsi ilə əlaqədar işlər.

Aqrolizinq əməliyyatlarının ilkin mərhələsində aşağıdakılar əhatə edilir: kənd texnikasının idxal imkanlarının aşkar edilməsi, o cümlədən yeni və işlənmiş maşın və avadanlıqların nisbətinin ilkin yanaşmada müəyyənləşdirilməsi; texniki vasitələrin təmiri və onlara xidmətlə məşğul olan təşkilatların, onların fəaliyyət parametrlərinin (güc, tarif, müddət və s.) qiymətləndirilməsi; maşın və avadanlıqların lizinq qabağı hazırlanması, nəql olunması, sığortası, müştərilərin öyrədilməsi məsələlərinin həlli.

İntensiv istifadə olunan ərazilərdə sublizinq daha geniş yayılmışdır. Məsələ ondadır ki, fəaliyyət növlərinin inteqrasiya olunduğu bu ərazilərdə lizinq predmetindən istifadə hüququnun üçüncü şəxsə verilməsi imkanları daha böyükdür. İntensiv istifadə olunan ərazilərdə aqrar qurumlar bazarın yaxınlığı və üçüncü tərəf kimi qəbul edilən, kifayət qədər dövriyyə vəsaitinə malik müəssisə və təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq imkanlarının genişliyi səbəbindən, vəsait və zəmanət baxımından, ucqar ərazilərə nisbətən əlverişli vəziyyətdədir.

Ədəbiyyat

[1] İmanov Q., Həsənli Y. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makroiqtisadi təhlil. Bakı, Elm, 2001, 248 s.

[2] Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, 2000, 236 s.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 101 - 108
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 101 - 108

SOSİAL-İDARƏÇİLİK SİSTEMİNDƏ ELEKTRON BƏLƏDİYYƏ İLƏ VƏTƏNDAŞ ARASINDA MÜNASİBƏTLƏRİN DAYANIQLILIĞI

M.M. Əhmədov
Dosent, i.e.n.,UNEC
E.A. Salayev
UNEC
elxan_salayev@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 25 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 25 September 2017; published online 05 October 2017

Xülasə

Ərazi üzrə yerli özünüidarəetmələrdə informasiya texnologiyalarının inkişafı, virtual platformalarda ünsiyyət və qarşılıqlı təsir məsələləri müasir dövrdə aktuallığı ilə seçilir. Məqalənin mövzusu bir elmi ideya kimi yeni olsa da, bələdiyyə fəaliyyətinin həyata keçirilməsi ölkəmizdə uzun illəri əhatə edir. Toxunulan məqamlar yerli özünüidarəetmə işinin təkmilləşdirilməsinə dair nəzəri problemlərə həsr olunmuşdur. Belə ki, təcrübədə yerli əhəmiyyətli məsələlərin bilavasitə əhali tərəfindən həllinə çox az rast gəlinir. Bu səbəbdən, bələdiyyə ərazisində yaşayan əhali ilə həmin ərazidə yaradılmış yerli özünüidarəetmə orqanları arasında əks-əlaqənin yoluna qoyulması xüsusi olaraq, tədqiqatın əsas məqsədi sayılır. Tədqiq olunan sahənin aktuallığı bələdiyyələrdə idarəetmə strukturunun yeni elektron xidmətlərinin tətbiqi məsələlərində əməli yanaşmalara əsaslanmışdır. Mövcud potensial imkanları nəzərə alaraq aparılmış tədqiqatlar cədvəldə 16 adda servis çeşidinin elektron xidmət növü kimi e-bələdiyyənin nəzdində yer alması məqalənin elmi yeniliyidir. Məqalənin tətbiqi əhəmiyyəti gələcəkdə bələdiyyə ərazisində vətəndaş münasibətlərinin daha səmərəli formada həyata keçirilməsinə zəmin yaradır. Tədqiqatın nəticə olaraq elektron bələdiyyə idarəetməsində vətəndaş münasibətlərinin xüsusi cəhətləri çeşidlənərək, qısa izah edilmiş, xarici ölkələr timsalında fəaliyyətin təşkilinə nəzər salınaraq, bir sıra təkliflər irəli sürülmüşdür.

Açar sözlər: e-bələdiyyə, məsuliyyətli idarəetmə, bələdiyyə idarəetməsi, elektron xidmətlər.

Jel Classification: J50

SUSTAINABILITY OF RELATIONS BETWEEN THE POPULATION AND MUNICIPAL BODIES IN THE SYSTEM OF E-MUNICIPALITY SOCIAL MANAGEMENT

Abstract

In the modern period, the issues of the development of information technologies in local self-government, as well as communication and interaction in virtual platforms are highlighted by relevance. Although the topic of the article is new as a scientific thought, however, the functioning of local self-government bodies covers a long time. The points touched upon are devoted to theoretical problems in improving the work of municipal bodies. So, in practice, the solution of local issues directly by the population is rare. In this respect, in particular, the establishment of feedback between the population of the municipal formation and the local government bodies created in it is the main objective of the study. The relevance of the area under investigation is based on functional approaches to the introduction of new electronic services of the management structure in municipalities. Conducted taking into account the available research possibilities, also the presence of the 17 types of services displayed in the table as part of the electronic municipality as electronic services are the scientific novelty of the article. The practical value of the article includes the promotion of more effective implementation of citizens' participation in the implementation of local self-government in the territory of a municipal formation in the future. As a conclusion of the study, specific features of the relationship between citizens and local governments in the management of the electronic municipality were sorted and briefly interpreted, the models for organizing the activity were also considered, and some proposals were made on foreign examples.

Keywords: e-municipality, good governance, municipal management, electronic services.

УСТОЙЧИВОСТЬ ОТНОШЕНИЙ МЕЖДУ НАСЕЛЕНИЕМ И МУНИЦИПАЛЬНЫМИ ОРГАНАМИ В СИСТЕМЕ ЭЛЕКТРОННОГО СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ

Резюме

В современном периоде вопросы развития информационных технологий в местном самоуправлении, а также общения и взаимодействия в виртуальных платформах выделяются актуальностью. Хоть и тема статьи нова как научная мысль, однако, функционирование отечественных органов местного самоуправления охватывает долгое время. Затрагиваемые моменты посвящены теоре-

тическим проблемам по совершенствованию работы муниципальных органов. Так, в практике решение вопросов местного значения непосредственно населением встречается достаточно редко. В этом отношении, в частности налаживание обратной связи между населением муниципального образования и созданными в нем органами местного самоуправления является основной целью исследования. Актуальность исследуемой области опирается на функциональные подходы в вопросах внедрения новых электронных услуг управленческой структуры в муниципалитетах. Проведенные с учетом имеющихся возможностей исследования, также присутствие отображаемых в таблице 17 видов сервисов в рамках электронного муниципалитета в качестве электронных услуг являются научной новизной статьи. Практическое значение статьи включает содействие более эффективной реализации участия граждан в осуществлении местного самоуправления на территории муниципального образования в дальнейшем. В качестве заключения исследования были сортированы и кратко истолкованы специфические черты отношений между гражданами и органами местного самоуправления в управлении электронного муниципалитета, также рассмотрены модели организации деятельности, и выдвинуты некоторые предложения на зарубежных примерах.

Ключевые слова: е-муниципалитет, ответственное управление, муниципалитеты, электронные услуги.

Müasir dövrdə informasiya strukturunun, o cümlədən rabitə və telekommunikasiya vasitələrinin intensiv inkişafı və qlobal informasiya məkanına görünməmiş inteqrasiyası bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsində əhəmiyyətli dərəcədə rolunu artırmışdır. İnternet şəbəkələrindən bələdiyyə ilə ictimai təsisatlar, həmçinin vətəndaşlar arasında qarşılıqlı fəaliyyətin həyata keçirilməsinin, eləcə də əks-əlaqənin reallaşdırılmasının spesifik aləti qismində istifadəsi, idarəetmə subyekti olaraq, qarşılıqlı fəaliyyətdə tərəfdaşlıq nüfuzunun yüksəldilməsinə gətirib çıxaracaqdır.

Dövlət xidmətlərinə bir çox cəhətdən bənzəyən bələdiyyə xidmətlərinin mahiyyəti yerli özünüidarəetmə səviyyələrində öhdəlikləri yerinə yetirmək və səlahiyyətləri həyata keçirməklə vətəndaşın bələdiyyə ərazisinin məqsəd və vəzifələrinin həyata keçirilməsində praktiki iştirakında öz əksini tapır [4, s.100]. Bələdiyyə qulluqçuları ilə ictimai birlik və vətəndaşlar arasında bələdiyyə səviyyəsində ikitərəfli münasibətlər dövlət səviyyəsindəki münasibətlərdən geri qalmır. Belə ki, yerli özünüidarəetmə dövlət hakimiyyətilə müqayisədə əhaliyə daha yaxın idarəetmə səviyyəsidir. Yerli əhəmiyyətli məsələlərin həllində yerli özünüidarəetmənin mahiyyəti bu məsələlərin müstəqil surətdə və öz cavabdehliyilə həyata keçirilməsindən ibarətdir. Məsuliyyətli idarəetmə dedikdə, vətəndaş hüquqlarının lazımi qaydada həyata ke-

çirilməməsi zamanı bundan irəli gələn xoşagəlməz sosial-iqtisadi, siyasi və s. fəsadların əhali arasında özünü büruzə verməsi və bunun dövlət tərəfindən kompensasiya edilməməsi nəzərdə tutulur.

Əksər hallarda vətəndaşların iştirakına olan hüquqi tələblər ictimai təşkilatların məşvərət üçün sənədlər göndərərək, fəal iştirakını tələb etdiyi halda, e-bələdiyyə idarəetməsində iclaslara qatılma real olaraq məcburi deyildir [5, s.12].

Sosial-iqtisadi inkişafın ərazi maraqlarının reallaşdırılması sosial fərqlərin yumşaldılması, rəqabət mühitinin formalaşdırılması və yeni təsərrüfat təsisatlarının meydana gəlməsindən asılıdır [2, s.326]. Ölkəmizdə sosial-iqtisadi sahələrin sağlamlaşdırılması və idarəçilik nüfuzunun möhkəmlənməsində yeni informasiya və telekommunikasiya texnologiyalarının tətbiqi mütərəqqi dünya tendensiyası şəraitində ictimai inkişafın prioritetləri sırasında öndə yer alır. Cari onilliyin ortalarına doğru ölkəmiz müasir "sivilləşmə"nin çətin həddini geridə qoydu. Belə ki, Azərbaycan əhalisinin 75%-dən çoxunun rabitə və telekommunikasiya texnologiyalarına çıxışı vardır [6]. Azərbaycanın "informasiya cəmiyyəti"nə doğru dinamik irəliləməsi istiqamətində şəffaflığın artırılması üzrə milli strategiyasında öz əksini tapan yeni idarəçilik formasını yerli özünüidarəetmələrdə ehtiva edir.

Müasir dövrdə vətəndaşların internetə giriş imkanlarının artırılması ərazinin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu zaman informasiya şəbəkələrinə çıxışı olan mütəxəssis və vətəndaşların, eləcə də məlumat xidmətlərinin potensial kütləvi istehlakçılarının say artımı hesabına İT sahəsinin stimullaşdırılması dolayı nəticə rolunu oynayır. Elektron sənəd dövriyyəsinin tətbiqi zamanı müvafiq məlumat xidmətlərinə tələbin artması qaçılmazdır. Bu baxımdan, məqsədli "Elektron bələdiyyə" proqramı təkcə aşkar problemlərin həllini təklif etmir, həm də aşağıdakı bir sıra yeni problemləri qarşıya qoyur:

- informasiya şəffaflığının və vətəndaş cəmiyyəti üçün açıqlığının təmin edilməsi;
- bələdiyyə orqanlarının idarəetməsinin İKT-nin tətbiqi vasitəsilə təkmilləşdirilməsi;
- bələdiyyə təsərrüfat subyektlərilə qarşılıqlı fəaliyyəti İT-nin real sektora yeridilməsi üçün zəmin hazırlanması;
- peşə təhsilinin təkmilləşdirilməsi və kadr potensialının inkişafı; üçün ictimai şəbəkələr infrastrukturunun inkişafı, həmçinin "vahid pəncərə" prinsipinə əsasən dövlət və bələdiyyə xidmətlərindən istifadə üçün ixtisaslı məntəqələrin açılması.

Bələdiyyə idarəetməsində həll olunan məsələlərin kütləvi elektronlaşdırılmasına keçid yeni sosial-iqtisadi resursların dinamikliyi, ərazinin həyat fəaliyyətinin təmini məsələlərinin həllində çoxlu sayda informasiyaların uçotunun aparılması, vəziyyətin öyrənilməsi, qiymətləndirilməsi və qərarvermə prosesində böyük informasiya emalı ilə şərtlənir

[3, s.281]. Vətəndaşlar üçün informasiya və texnologiyanın əlverişliliyinin yüksək səviyyəsinin təmin olunması həlledici məsələdir ki, bura da aşağıdakılar şamil edilir:

- tərəfdaşlıq mexanizmi vasitəsilə bütün ərazidə geniş zolaqlı internet şəbəkəsi infrastrukturunun yaradılması;
- informasiya və telekommunikasiya texnologiyaları sferasında əhali və təşkilatlar üçün müasir xidmətlərin əlverişliliyinin artırılması;
- xüsusilə təhlükəsizlik məsələlərinin təmin edilməsi üçün vahid informasiya məkanının formalaşdırılması.

Bələdiyyələr ölkənin ictimai həyatında vətəndaşların yerli əhəmiyyətli məsələlərinin həllində sərbəst qərar vermə səlahiyyətində olan qeyri-dövlət idarəetmə formasıdır [1, səh.40]. Bələdiyyə orqanlarının idarə edilməsi texnoloji baxımdan informasiyanın toplanması və emal edilməsindən irəli gəlir. İnformasiya bələdiyyə orqanlarının fəaliyyətinin istiqamətlərini müəyyən edən məlumatlar fondunu təşkil edir. Başqa sözlə desək, cəmiyyətin həyatının müxtəlif sahələrində səmərəli idarəetmənin təşkili, informasiyadan irəli gələn qərarların qəbulu prosesi mövqecə daha geniş vüsət alır. Bələdiyyə idarəetməsinə yeni informasiyalaşdırma vasitələri və sistemlərinin yeridilməsində başlıca vəzifələr müəyyən edilir. Bu vəzifələrə aşağıdakılar daxildir:

- informasiya və telekommunikasiya texnologiyaları sferasında qanunvericilik və sistemin təkmilləşdirilməsi;
- yerli özünüidarəetmə orqanlarının fəaliyyətində açıqlığın və informasiya resurslarının ümuməlverişliliyinin təmin edilməsi;
- bələdiyyə orqanları ilə vətəndaşlar arasında informasiya və telekommunikasiya texnologiyalarından istifadə əsasında səmərəli qarşılıqlı əlaqə üçün şəraitin yaradılması;
- informasiya və telekommunikasiya texnologiyalarından istifadə əsasında bələdiyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin onların qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və s.

Bələdiyyə müasir dövrdə vətəndaş mütəşəkkiliyi əsasında müstəqil iradi davranış göstərilməsinə istiqamətlənərək, məsuliyyətin bölgüsü prinsipi ilə fəaliyyətini təşkil edir. Yerli özünüidarəetmə orqanlarının fəaliyyəti haqqında məlumatlandırma adətən internet şəbəkəsində informasiya resurslarının yaradılması yolu ilə mümkün olur. Yaradılan saytlar müştəriyə yönəlik yanaşma əsasında qurulur. Ayrı-ayrı xidmətlərin həyata keçirilməsi üçün zəmanətli maliyyələşdirməyə, məsələn, dotasiyaların bir qisminə malik olmaqla, xidmətlərin bir hissəsini kommersiya əsaslarında təqdim edərək, mənfəət götürmək imkanı əldə edən unitar və ya başqa müəssisələr yaradıla bilər.

Elektron xidmətlərin göstərilməsi zamanı əks-əlaqənin və interaktivliyin təmin olunmasına rəsmi internet səhifəsində bilavasitə formanın doldurulması və ya yerli özünüidarəetmə orqanı əməkdaşlarının elektron poçt ünvanının qeyd edilməsi yolu ilə nail olunur. Vətəndaşlara xidmətləri göstərərkən verilən sualları adətən mütəxəssislər ca-

vablandırır. Verilən cavablar rəsmi internet səhifəsində dərc olunur. İnteraktivliyə rəsmi internet səhifəsində konfrans çatların yerləşdirilməsi və ya sürətli ismarıc xidmətlərinin istifadəsi yolu ilə nail oluna bilər. Bu zaman az sayda əməkdaşdan ibarət qrup böyük sayda vətəndaş və təşkilatın müraciətlərinin cavablandırılmasını həyata keçirə bilər.

Virtual aləmdə idarəetmə mühitinin yaradılması məqsədini ehtiva edən vəzifələrin həllinə imkan verəcək servislər elektron məzmun baxımından e-bələdiyyənin özəyini təşkil edəcəkdir. İşarələnmiş vəzifələrdən asılı olaraq, bəzi servislər insanların tələbatlarının ödənilməsində faydalı olmalı, digərləri isə sistem və onun subyektlərinə müsbət münasibət formalaşdırmaq üçün xoş olmalıdır (Cədvəl 1).

Cədvəl 1. E-bələdiyyə idarəetməsində virtual servis bölgüsü

	Servisin adı	Mahiyyəti
	Distant rejimində bələdiyyə xidmətlərinin göstərilməsi	Bir sıra bələdiyyə ərazilərində artıq həyata keçirilən standart servis
	Vətəndaş müraciətlərinin qəbulu	Yerli özünüidarəetmə orqanına ərizə, xahiş və ya şikayət ünvanlamaq imkanı
	Virtual resurs mərkəzi	ərazi-ictimai özünüidarəetmə sədrləri və fəallarının konsultasiya şəbəkəsi (xüsusilə mühasibatlığın aparılmasını, internet üzərindən hüquq və psixoloq məsləhətləşmələrini təmin edir
	Virtual müzakirə meydançaları	Evin, məhəllənin, öz ərazisinin və bütövlükdə şəhərin vacib problemlərinin müzakirəsi imkanını verən qeyri-kommersiya sosial şəbəkəsi variantı
	Kraudsorsinq şəbəkələri	Bələdiyyə qulluqçularından, elm xadimlərindən, ictimai təşkilat nümayəndələrindən təşkil olunan sahəvi layihə qruplarının işinin təşkili problemlərinin ekspert müzakirəsi.
	"Vətəndaşlararası ünsiyyət" sosial şəbəkəsi	Ərazi sakinlərini birləşdirən qeyri-kommersiya sosial şəbəkəsi
	Virtual birgə iş mərkəzi	Frilanserlərin layihə qruplarını birləşdirən sosial şəbəkə
	Vakansiyaların elektron bazası	Müvəqqəti və ya daimi iş tapmaq imkanı
	"Virtual bazar" elanlar lövhəsi	İnsanın öz mikrorayonunda elana əsasən almaq istədiyi məhsul və xidmətləri axtarmaq imkanının yaradılması üçün məqsədəuyğun hesab edilir.
	Ərazinin sosial əhəmiyyətli nöqtələrinin interaktiv xəritəsi	Sosial-məişət tələbatlarını reallaşdırmaq imkanı verən servis
	Ərazinin xeyriyyə fondu	Ehtiyacı olan qonşulara şəxsi vəsaitlərindən yardım etmək imkanı
	Qarşılıqlı yardım kassası	Borc pul vermək və ya götürmək imkanı
	"Qaynar xətt"	Fövqəladə hallar barədə məlumat vermək imkanı
	"Qara siyahı"	Xidmətlərin keyfiyyətsiz şəkildə göstərilməsi, öhdəliklərin yerinə yetirilməməsi haqqında məlumatlar
	Təsisatların reytinqi	Sosioloji tədqiqatların nəticələrinin dərc olunması
	"Ərazi sakininin portfoliosu"	Vətəndaşın dövlət mükafatları, idman rekordları kimi şəxsi nailiyyətləri barədə informasiyanı yerləşdirməyə imkan verən servis.

Müasir demokratik cəmiyyət dəyişiklikləri timsalında, elektron bələdiyyənin uğurla inkişaf etdiyi Finlandiyanı göstərmək olar. Orada bir neçə min nəfərə xidmət edən bələdiyyə maliyyə vəsaitlərini müasir inzibati binanın tikintisinə sərf etmək əvəzinə açıq informasiya şəbəkəsi yaratmışdır. Administrasiya rəhbərinin sözlərinə görə, bələdiyyədə qərarlar qəbulu sistemində islahatlar aparmaq üçün ciddi səbəblər vardır. Belə ki, açıq informasiya şəbəkəsinin qurulması bu sistemi daha da çevikləşdirərək, qərarlar qəbulunun və bələdiyyə xidmətlərinin göstərilməsinin operativ mexanizmini təmin edir [7].

Yaponiyada yerli muxtariyyət sistemi dolayı demokratiyaya əsaslanmaqla, vətəndaşlara bələdiyyə orqanlarına və ya rəhbər vəzifəyə seçicilik və seçilmə hüququ verir. Bundan əlavə, dolayı iştirakın tamamlanması məqsədilə əhalinin yerli özünüidarəetmədə bilavasitə iştirakı mexanizmləri işlənib hazırlanmışdır. Yaponiyanın yerli özünüidarəetmə sistemində vətəndaşların aşağıdakı iştirak formaları vardır [8]:

- vəsatətlərin təqdim edilməsi;
- yerli muxtariyyətə dair xüsusi qanunlar barədə referendumlar;
- sakinlərin auditə və məhkəmə prosesinə müraicəti.

Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, müəyyən ərazinin vətəndaşlarını biznes strukturları və yerli özünüidarəetmə orqanları ilə birləşdirən e-bələdiyyə bununla özünün ən mühüm aspektlərindən birini əks etdirir. E-bələdiyyəyə aid vətəndaş münasibətlərinin xüsusi cəhətləri aşağıdakılardır:

• Vətəndaşların bələdiyyə informasiyasına girişi. Bələdiyyə informasiyasına girişin təmin olunması - rəqəmsal bələdiyyə fəaliyyətin ən geniş yayılmış formasıdır.

• Hüquq normalarına ümumi şəkildə əməl olunmasına şərait yaratmaq. Elektron bələdiyyədə həmçinin müəyyən qayda və tələblərə riayət edilməsinə imkan yaradan xidmətlərə elektron girişin təmin edilməsi nəzərdə tutula bilər.

• Vətəndaşın şəxsi imtiyazlara və müavinətlərə girişi. Elektron pul köçürmələri, eləcə də işçilərə sosial yardım və kompensasiya verilməsi üçün onlayn ərizələr vətəndaşlara şəxsi imtiyazlara və müavinətlərə elektron girişi təklif edən xidmətlərdəndir.

• Bələdiyyələrarası informasiya və servislərin birləşdirilməsi. Bələdiyyə təsisatları və digər səviyyəli orqanlar arasında xidmətlərin təklif edilməsi proqramlarının birləşdirilməsi informasiya və birləşmədən müştərək elektron istifadəni tələb edir.

• Vətəndaşların siyasi iştirakı. İnternet üzərindən demokratiya özündə seçkili vəzifələrə girişi, diskussiya formalarını, "ərazi görüşlərini", seçkili qeydiyyatı və yekun olaraq internet üzərindən səsverməni ehtiva edir.

Yekunda söyləyə bilərik ki, elektron bələdiyyənin tam şəkildə tətbiqi innovasiyalı informasiyanın və kommunikasiya texnologiyalarının özünün, xüsusilə vətəndaşlara və sahibkarlıq subyektlərinə bələdiyyə informasiyası və xidmətlərindən daha əlverişli istifadəni təqdim etmək, eləcə də xidmətlərin keyfiyyət səviyyəsini yük-

səltmək və dövlət tədbirləri və proseslərində iştiraka dair böyük imkanları təmin etmək üçün işlənib hazırlanan şəbəkə internet əlavələrinin bələdiyyə tərəfindən istifadəsi üsulu kimi verilə bilər.

Ədəbiyyat

[1] Mayis Güləliyev, Əlikram Abdullayev Yerli özünüidarəetmənin demokratik əsasları, Bakı 2003

[2] Şahbazov K.A., Həsənov H.S. Dövlət və bələdiyyə idarəçiliyi, Bakı 2011

[3] Təranə Əliyeva İdarəetmənin informasiya texnologiyaları (dərs vəsaiti), Bakı 2012

[4] «Государственное и муниципальное управление», учебник, под ред. проф. Н.И. Захарова, Москва – 2014

[5] Evaluating e-Participation: Frameworks, Practice, Evidence, edited by: Georg Aichholzer, Herbert Kubicek, Lourdes Torres, Heidelberg/New-York/London – 2015

[6] www.aztelekom.org/index.php?id=2592

[7] http://lawinrussia.ru/content/informacionnoe-obshchestvo-i-demokratiya

[8] http://ecoedulaw.ru/ru/2017/2/4

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 109 - 116
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 109 - 116

RESPUBLİKA İQTİSADİYYATININ İNKİŞAFINDA XARİCİ İNVESTİSİYA SİYASƏTİNİN ROLU

İ.C.Məmmədova
baş müəllim, UNEC
Məqalə redaksiyaya daxil olmuşdur 15 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 15 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi: Respublika iqtisadiyyatının inkişafına xarici investisiyaların təsiri və inkişafı ilə baş verən proseslər araşdırılmış və movcud vəziyyət təhlil edilmişdir. Məqalənin sonunda Respublikada xarici investisiya siyasətinin inkişafı üçün bir sıra təklif və tövsiyələr irəli sürülmüşdür. Tədqiqat işi sistemli təhlil, məntiqli ümumiləşdirmə və statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi: Respublikada müasir vəziyyət araşdırılmış, qanunvericilik bazası və bu sahədə qeyri-hökumət təşkilatlarının fəaliyyət imkanları araşdırılmışdır. Tədqiqatın məhdudiyyətləri: tədqiqat daha geniş praktiki informasiya tələb edir. Tədqiqatın praktiki əhəmiyyəti: sosial sahədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı: aparılmış araşdırmalar sübut edir ki respublika iqtisadiyyatının inkişafında xarici investisiya siyasətinin böyük rolu var. Bu da öz növbəsində tədqiqat işinin elmi yeniliyini zənginləşdirir. Bunlar aşağıdakılardan ibarətdir: İnvestisiya siyasətinin formalaşması zamanı dövlət xarici ölkə və onların təmsilçilərinin maraqları nəzərə alınmaqla bərabər dövlətin milli maraqları da nəzərə alınmalıdır; Xarici investisiyalarla yerli sahibkarlar arasında qarşılıqlı faydalı əməkdaşlığın yaradılması üçün əlverişli şərait təmin olunmalıdır.

Açar sözlər: xarici investisiyalar, xarici kapital, vergi, gömrük rüsumları, valyuta.
Jel Classification: D92; O12

THE ROLE OF FOREIGN INVESTMENTS IN THE DEVELOPMENT OF ECONOMIC POLICY

Abstract

The main goal of the research: in the work the influence of foreign investments on the economic development of the republic in the current situation was studied and analyzed. At the end of the article, some suggestions and recommendations were put forward in connection with the development of the country's foreign investment policy. Research methodology: system analysis, logical synthesis and statistical

analysis. Results of the research: the current situation and legal framework in the country are analyzed, the possibilities of non-governmental organizations in this field are studied. Study limitations: more practical information is required. Practical significance of the research: the results of the research can play a positive role in enriching social research in the field of scientific and practical knowledge of experts working in this field. Scientific novelty and originality of research: research proves that the development of foreign investment policy plays a big role in the economic development of the country. This, in turn, envelops research and scientific innovation. It consists in the following: When forming the investment policy of the state, the interests of foreign countries and representatives of national interests should be recognized as equal; Ensuring favorable conditions for establishing mutually beneficial cooperation between foreign investors and local entrepreneurs.

Key words: foreign investments, foreign capital, tax and customs duties, foreign currency.

РОЛЬ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В РАЗВИТИИ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ

Резюме

Основная цель исследования: в работе были исследовано и проанализировано влияние иностранных инвестиций на экономическое развитие республики в текущей ситуации. В конце статьи были выдвинуты некоторые предложения и рекомендации в связи с развитием внешней инвестиционной политики страны. Методология исследования: системный анализ, логический синтез и статистический анализ. Результаты исследования: проанализированы текущая ситуация и правовые рамки в стране, изучены возможности неправительственных организаций в этой области. Ограничения исследования: требуется больше практической информации. Практическая значимость исследования: результаты исследования могут играть положительную роль в обогащении социальных исследований в области научных и практических знаний экспертов, работающих в этой области. Научная новизна и оригинальность исследования: исследование доказывает, что развитие внешней инвестиционной политики играет большую роль в экономическом развитии страны. Это, в свою очередь, обогащает исследования и научные инновации. Оно заключается в следующем: При формировании инвестиционной политики государства, интересы зарубежных стран и представителей национальных интересов должны быть признаны равными; Обеспечение благоприятных условий для налаживания взаимовыгодного сотрудничества между зарубежными инвесторами и местными предпринимателями.

Ключевые слова: иностранные инвестиции, иностранный капитал, налоговые и таможенные пошлины, иностранная валюта.

Giriş. Azərbaycan Respublikasında milli iqtisadiyyatı dirçəltmək üçün külli miqdarda investisiya vəsaitlərinə ehtiyac duyulur. Bildiyimiz kimi, hələ 80-ci illərin axırlarında, Respublika iqtisadiyyatında yerli investisiyaların həcmi əsaslı sürətdə məhdudlaşdırılmışdır. Bu, əsasən fiziki və mənəvi cəhətdən köhnəlmiş əsas vəsaitlərin yeniləşdirilməsinə, dağılan infrastrukturların yenidən qurulmasına və iqtisadiyyatdakı digər zəruri ehtiyacların ödənilməsinə böyük ehtiyac duyulduğu bir vaxtda baş vermişdir. Belə bir şəraitdə xarici investisiya axınına maksimum əlverişli bir mühit yaradan iqtisadi siyasətin aparılması mühüm bir məsələ kimi qarşıya qoyulmuşdur ki, bu da öz növbəsində respublika iqtisadiyyatının inkişafında böyük əhəmiyyətə malikdir.

Xarici investisiya siyasəti respublikanın ümumi investisiya siyasətinin əsas tərkib hissəsi olmaqla yanaşı, milli iqtisadiyyatın yüksəlməsi, stabil inkişafı və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, bu siyasətin həyata keçirilməsi üçün xüsusi proqramlar işlənməli və beynəlxalq təcrübənin öyrənilməsi nəzərə alınmalıdır. Bundan başqa, xüsusi strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir.

Respublikamız müstəqillik qazandıqdan sonra, keçmiş SSRİ respublikaları ilə mövcud olan istehsal münasibətlərinin pozulması və maliyyə çatışmazlığı nəticəsində ölkə iqtisadiyyatı dərin böhranla qarşılaşdı və Ermənistan ilə aparılan müharibədə külli miqdarda maliyyə ehtiyatlarından istifadə olunması milli iqtisadiyyatın daxili maliyyə ehtiyatları hesabına tez bir vaxtda dirçəlməsini qeyri- mümkün etdi. Belə bir şəraitdə Azərbaycan hökuməti iqtisadiyyatın dirçəlməsində əsas ümidi xarici investorların ölkə iqtisadiyyatına cəlb edilməsinə və beynəlxalq maliyyə qurumlarından kreditlərin alınmasına idi. Dünya təcrübəsi göstərir ki, belə bir şəraitdə xarici kapital iqtisadiyyatı böhran vəziyyətinə düşmüş və maliyyə vəsaitinə ehtiyacı olan ölkəni böhrandan çıxarmaq iqtidarına malikdir. Lakin xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etmək üçün ilk növbədə respublikada düzgün xarici investisiya siyasəti aparılmalı idi [1, s.93].

Ümumiyyətlə Azərbaycan Respublikasında xarici investisiya siaysətinin formalaşmasını şərti olaraq üç mərhələyə bölmək olar. İlk mərhələ 1992-1993-cü illəri əhatə edir. Qeyd etmək lazımdır ki, bu mərhələdə respublikanın hökumət orqanları tərəfindən xarici investisiya siyasətinin formalaşmasına müəyyən biganə yanaşıldığından və Azərbaycan Respublikası müharibə şəraitində olduğundan, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlbi kritik vəziyyətdə olmuşdur. Belə ki, bu mərhələdə respublikanın hökumət orqanları xarici investisisiya siyasətinin formalaşması istiqamətində bəzi qanunlar tətbiq etməklə öz funksiyalarını bitmiş hesab etdilər [1, s.292].

Xarici investisiya siyasətinin formalaşmasının ikinci mərhələsi 1994-1996-cı illəri əhatə edir. Bu mərhələni təhlil etsək göstərir ki, respublikada həyata keçirilən xarici

investisisiya siyasəti müəyyən bir istiqamətdə inkişaf etdirildiyindən, ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların böyük əksəriyyəti sənayenin bir neçə sahəsinə (əsasən də neft sənayesinə və sənaye tikintisi sahəsinə) cəlb edilmişdir. Bununla yanaşı, xarici investisiyaların respublikamızda fəaliyyətini tənzimləmək məqsədi ilə bir sıra qanunlar qəbul edilməklə yanaşı, birinci mərhələdə qəbul edilmiş qanunlarda əlavələr və dəyişikliklər edilmişdir. Xarici investisiya siyasətinin formalaşmasının ikinci mərhələsində xüsusilə yadda qalan əsas hallardan biri də ölkə prezidenti Heydər Əliyevin 1994-cü ildə Avropa ölkələrinə rəsmi səfəri zamanı Qərbin aparıcı şirkətlərinin nümayəndələri ilə görüşməsi, ölkənin qapılarının xarici investorların üzünə açıldığını bəyan etməsi və xarici investorları Azərbaycan Respublikasının sənaye sahələrində kapital qoyuluşu həyata keçirməyə dəvət etməsi olmuşdur [1, s.293].

Xarici investisiya siyasətinin formalaşmasının üçüncü mərhələsi isə 1997-2000-ci illəri əhatə edir. Bu dövrdə həyata keçirilən investisiya siyasətinin əsas istiqaməti ölkə iqtisadiyyatına cəlb ediləcək xarici investisiyaların xüsusi çəkisində ikinci mərhələdə yönəldilmiş əsas sənaye sahələri ilə yanaşı, digər sənaye sahələrinin xüsusi çəkisinin yüksəlməsindən ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, xarici investisiya siyasətinin formalaşmasında əvvəlki mərhələdə yol verilmiş nöqsanların aradan qaldırılması üçün, yəni xarici investisiyaların sənayenin bir neçə sahəsinə yox, bütün sahələrinə cəlb edilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, xarici investorları ölkə ərazisinə istiqamətləndirmək və onlarla fəaliyyət göstərmək üçün komitələr, idarələr yaradılmışdır [1,s. 294].

Qeyd olunduğu kimi, xarici investorları ölkə iqtisadiyyatına cəlb etmək üçün ilk növbədə respublikada düzgün xarici investisiya siyasəti aparılmalıdır. Bunun üçün isə Azərbaycan Respublikasında xarici investorların fəaliyyətini tənzimləyən hüquqi baza mövcuddur. Məhz bu səbəbdən də, xarici investisiyaların respublikamızın iqtisadiyyatına cəlb olunması və fəaliyyət göstərməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını yaratmaq üçün Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 15 yanvar 1992-ci il 57 saylı "Xarici investisiyaların qorunması haqqında" (7 aprel 1992-ci il və 5 noyabr 1996-cı il tarixli əlavə və dəyişikliklər də daxil olmaqla) və 13 yanvar 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" qanun qəbul edilmişdir. "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunu xalq təsərrüfatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəldilmişdir. Bu da öz növbəsində xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. Bu qanuna əsasən Azərbaycan Respublikası ərazisində xarici investisiya ilə bağlı münasibətlər Azərbaycan Respublikasının qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə nizama salınır. Azərbaycan Respublikası ərazisində qanunvericiliyə əsasən xarici investorların pay bölgüsündə iştirak etdikləri müəssisələr (birgə müəssisələr), tam xarici investisiyalı müəssisələr (xarici

müəssisələr), nümayəndəliklər (idarələr, agentliklər) və xarici hüquqi filialları şəklində xarici investisiyalı müəssisələr yaradıla və fəaliyyət göstərə bilər [9, s.322].

Azərbaycan Respublikasının ərazisində xarici investisiya hüquqi cəhətcə tam və şərtsiz müdafiə olunur və qanunvericilik aktları ilə təmin olunur. Eyni zamanda xarici investisiya respublika qanunvericiliyinin dəyişdirilməsi ilə bağlı hallarda bəzi təminatlar alır. Belə ki, bu qanunun onuncu maddəsinə əsasən Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraiti pisləşdikdə on il ərzində investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir [5, s.45].

Qanunda milliləşdirmə və rekvizisiya ilə bağlı təminatlar öz əksini tapmışdır. Qanuna əsasən, milliləşdirmə haqqında qərarı Milli Məclis, rekvizisiya haqqında qərarı isə Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir. Təbii fəlakət, qəza, epidemiya və fövqəladə xarakter daşıyan başqa hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir. Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir. Kompensasiya xarici valyuta ilə ödənilir və investorun arzusu ilə xaricə köçürülə bilər. Kompensasiyanın və zərərin ödənilməsi zamanı meydana çıxan hər bir mübahisə Azərbaycan Respublikasının Ali Məhkəməsində həll olunur. Xarici investorlar dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin Azərbaycan Respublikası qanunvericiliyinə zidd olan hərəkətləri nəticəsində düşdükləri zərərin, o cümlədən itirdikləri faydanın ödənilməsi hüququna malikdirlər [2, s.36].

Qanunda xarici investorlara müvafiq vergi və gömrük rüsumları ödədikdən sonra, qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlirləri, kompensasiyaları və zərərin ödənilməsi məbləğlərini xaricə köçürməsinə təminat verilir. Azərbaycan Respublikası ərazisində xarici investorlar götürdükləri mənfəəti həmin pul vahidi şəklində yenidən investisiya kimi qoya və banklarında saxlaya bilərlər.

Xarici investisiyalı müəssisə müvafiq icra hakimiyyəti orqanları tərəfindən dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs hüququnu əldə edir və qeydiyyatı aparmış orqan qeydalma haqqında məlumatı mətbuatda dərc etdirir.

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsullara sərbəst qiymət qoymaq, respublikanın daxili bazarında onun satışı şərtlərini müəyyən etmək, bu bazarda məhsul göndərənləri sərbəst seçmək ixtiyarına malikdir. Xarici investorlara məxsus müəssisələr və nizamnamə fondunun 30 %-indən çoxu xarici investisiyadan ibarət olan müəssisələr istehsal etdikləri məhsulu lizensiyasız ixrac edə bilər. Xarici investisiyalı müəssisələr özünün təsərrüfat fəaliyyəti üçün məhsulu lisenziyasız idxal edə bilər [2, s.40].

Xarici kapitalın iştirakı ilə yaradılmış müştərək müəssisələrə öz fəaliyyətini həyata keçirmək üçün "Azərbaycan Respublikasının torpaq məcəlləsi" (12 fevral 1992-ci il) əsasında torpaq daimi istifadəyə verilə bilər [6, s.21].

Birgə müəssisələrin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycana gətiri-

lən əmlak gömrük rüsumundan azad edilir və ondan idxal vergisi tutulmur. Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Respublikaya gətirdikləri əmlak gömrük rüsumundan azad edilir [1, s.24].

"Hüquqi şəxslərin mənfəətindən və gəlirlərin ayrı-ayrı növlərindən vergilər haqqında" Azərbaycan Respublikası qanununda (9 noyabr 1991-ci il tarixli və 14 aprel 1994-cü il, 2 may 1995-ci dəyişiklikləri də daxil olmaqla) xarici investorlara aşağıdakı güzəştlər nəzərdə tutulmuşdur.

- mənfəətdən vergi yerli müəssisələr üçün 35 % müəyyən edildiyi halda, Azərbaycan Respublikası ərazisində yaradılmış və nizamnamə fondunda xarici kapital 30 %-dən çox olan müəssisələr üçün 25 %, kənd və dağ yerlərində isə 10 % nəzərdə tutulmuşdur [1, s. 24];
- əgər xarici kapitalın payı nizamnamə fondunda 30 %-dən çoxdursa və həmin müəssisə maddi istehsal sahəsində fəaliyyət göstərirsə, ilk iki il, kənd yerlərində olduqda isə ilk üç il mənfəət vergisindən azaddır [8, s.80];
- vergiyə cəlb olunan mənfəət istehsalın inkişafına, elmi-tədqiqat işlərinin aparılmasına, təbiəti mühafizə təfbirlərinə, uzunmüddətli kreditlər üzrə faiz ödəmələrinə yönəldilən məbləğlər qədər azaldılır [8, s.81];
- müəssisənin ehtiyat fonduna ayırmalar vergidən azad olunur.

Yuxarıda qeyd etdiyimiz qanunlarla yanaşı, xarici investorların və xarici investisiyalı müəssisələrin Azərbaycan Respublikası ərazisində fəaliyyətini tənzimləyən əsas qanunlara aşağıdakılar da aid edilir [8, s.82]:

- "Müəssisələr haqqında qanun" (01.07.94-cü il tarixli), (05.11.96-cı il əlavələri və dəyişiklikləri də daxil olmaqla) [1, s.293];
- "Hüquqi şəxslərin dövlət qeydiyyatı" haqqında 06.02.96-cı il tarixli Azərbaycan Respublikasının qanunu [1, s.294];
- "Səhmdar cəmiyyətlər" haqqında 12.07.94 tarixli Azərbaycan Respublikasının qanunu (05.11.96 tarixli əlavələr və dəyişikliklər ilə) [1, s.294];
- "Bank və bank fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu" (14.07.96) [1, s.294];
- "Sığortalama haqqında Azərbaycan Respublikasının qanunu" (05.01.93), (05.11.96 tarixli əlavələri və dəyişikliklər ilə) [8, s.307].

Qeyd etmək lazımdır ki, son beş il ərzində fəaliyyət göstərən müştərək və xarici investisiya müəssisələri daxil olmaqla, Respublika iqtisadiyyatına 33,5 mlyd manat məbləğində vəsait qoyulmuşdur. Bu vəsaitin 81 %-i sənayenin payına düşür. Bundan başqa, ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların kredit və ya qeyri-kredit investisiya olması xüsusi əhəmiyyətə malikdir [9, s.341].

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının istehsal prosesini daha da təkmilləşdirmək üçün yeni texnologiyaların tətbiqi ölkənin xarici investisiyaya tələbatını daha da artırır. Bu səbəbdən də investisiya siyasətinin hazırlanması və tətbiqi vacib şərtdir [9, s.342].

Bundan başqa, qeyd etmək lazımdır ki, son illər ərzində xarici investisiyaların ümumi investisiyaların tərkibindəki xüsusi çəkisinin azalması neqativ hal kimi qəbul edilməməlidir. Bu, onu göstərir ki, ölkədə həyata keçirilən islahatlar nəticəsində respublikanın maliyyə gücü artıb. Bu da öz növbəsində daxili investisiyaların həcminin artmasına səbəb olur [9, s.341].

Bildiyimiz kimi, investisiyaları stimullaşdıran üç investisiya tənzimləmə modeli var.

Birinci modeldə əsas diqqət şəxsi investisiyalara, ikinci modeldə - şəxsi layihələrin dövlət tərəfindən maliyyələşməsinə yönəldilmişdir. Üçüncü modeldə isə dövlət müxtəlif şəxsi investisiyaların fəaliyyətlərini koordinasiya edir [1, s.295].

Yuxarıda göstərdiyimiz modellər bir sıra bazar iqtisadiyyatlı ölkələrdə uğurla həyata keçirilir. Məhz buna görə də, həmin təcrübə məqsədəuyğun hesab edilir [1, s.295].

Xarici investisiyaların ölkəyə cəlb edilməsi sahəsində dövlətlərin apardığı iqtisadi siyasət tədbirləri ildən-ilə daha da təkmilləşdirilir və inkişaf etdirilir. Daha əlverişli investisiya mühitinin formalaşması isə əsasən xarici investisiyaların dövlət tənzimlənməsinin hüquqi-normativ bazasının inkişaf etdirilməsi yolu ilə mümkündür.

Xarici investisiyaların cəlb edilməsində edilən 184 dəyişikliyindən 109-u, demək olar ki, inkişaf etmiş ölkələrə aiddir. Qərbi Asiya ölkələrində 14, Afrika ölkələrində 57, Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrində 6, Cənubi-Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə 38 inkişaf etmiş ölkələrdə 37 və s. bu tipli ölkələrdə qanunvericilikdə dəyişikliklər edilmişdir [1, s.308].

Respublikada həyata keçirilən investisiya siyasəti dövlətin apardığı islahatlar sayəsində formalaşmışdır. Bunlar aşağıdakılardan ibarətdir:

- qanunvericilik bazasının təkmilləşdirilməsi; - beynəlxalq valyuta əməliyyatlarının sadələşdirilməsi; - lisenziyalaşdırma, vergi və gömrük sistemlərinin sadələşdirilməsi; - hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsi [1, s.309].

Qeyd etdiyimiz kimi, keçid iqtisadiyyatlı ölkələrdə xarici investorlarla fəaliyyət göstərmək üçün vahid strukturlar (agentliklər) hələ 1997-ci ildən yaradılmağa başlanmışdır. Bu ölkələrin əksəriyyətində mövcud olan iqtisadi və siyasi problemlər agentliklərin qarşısında duran məsələlərin, bütövlükdə həll edilməsinə imkan verməsə də, onlar xarici investisiyaların həmin ölkələrin iqtisadiyyatına cəlb edilməsində mühüm rol oynayırlar. Azərbaycan Respublikasında isə yuxarıda qeyd edildiyi kimi, bu istiqamətdə bir sıra qanunlar qəbul edilərək İqtisadiyyat və Sənaye Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsində investisiya idarələri yaradılmışdır. Məlum olduğu kimi, onların vahid strukturda cəmləşdirilməməsi isə xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində neqativ halların baş verməsi ilə nəticələnmişdir. Ümumiyyətlə isə, investisiya

layihələrinin iqtisadiyyatın əsas göstəricilərinə uyğun hazırlanması, həmçinin layihələr üzrə işlərin müəyyən edilmiş müddətlərdə başlanmasına nəzarətin həyata keçirilməsi üçün xarici investisiya siyasətində müəyyən dəyişikliklərin edilməsi lazımdır.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, Respublikaya cəlb olunan investisiyalar əsasən kənd təsərrüfatı, turizm və ixrac yönümlü sənaye sahələrini əhatə etməlidir.

Nəticə. Xarici investisiyaların respublikaya cəlb edilməsi istiqamətində ölkə hökuməti tərəfindən əsaslı addımlar atılmışdır. İqtisadiyyatımızın potensialını nəzərə alsaq və dünyada mövcud iqtisadi durumu qiymətləndirsək, onda belə nəticəyə gələ bilərik ki, Azərbaycan Respublikası hökumətinin son onillikdə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi istiqamətində formalaşdırdığı investisiya mühiti reallığın tələbidir.

Bildiyimiz kimi, respublikaya xarici investisiyaların cəlb edilməsi müasir texnologiyaların və avadanlıqların, idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına cəlb edilməsidir. Bunun da nəticəsi kimi, ölkədə rəqabət qabiliyyətli məhsullar istehsal olunur və ölkə dünya bazarlarına inamlı tərzdə inteqrasiya olunur. Respublikada əlverişli inteqrasiya mühitinin tərkib hissəsi kimi investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılmasını, əldə edilmiş mənfəətdən onların maneəsiz istifadə etmələri üçün formalaşmış hüquqi zəminin olmasını göstərmək olar.

Ədəbiyyat

[1] Şəkərəliyev A. Dövlətin iqtisadi siyasi dayanaqlı və davamlı inkişafının təntənəsi. Bakı-2011.səh 292-295.

[2] Əlirzayev Ə. Azərbaycanda sahibkarlığın inkişaf problemləri. Bakı-2000. səh. 36-45.

[3] Быстров О.Ф. Управление инвестиционной деятельностью в регионах Российской Федерации, монография (О.Ф.Бастров, В.Я.Поздняков, В.М. Придников и др.). М-ТНФРА-М, 2008. 358с.

[4] Əzizova G. Dövlətin investisiya innovasiya siyasəti. Bakı-2012, səh. 54.

[5] Кафаров А.А. Конкурентоспособность кластера в стратегии инновационного развития, Институт Экономики НАНА, материалы Республиканский научно-практической конференции. Баку-2013, стр. 40-45.

[6] Пономарев М.А. Инновационные процессы в высшей школе: влияние человеческого фактора. Вестник Омского Университета, Серия «Экономика», 2013 № 1, стр. 21-24.

Выводы. Образование является важнейшей социальной потребностью, оно играет важную роль в формировании и развитии личности. Страны мира, ориентированные на развитие человеческого капитала, стремятся создать конкурентоспособную систему университетского образования. Важным ее индикатором являются национальные вузы, представленные в мировых и национальных рейтингах. Современная система рейтингов университетов направлена на определение фактора влияния вуза на общемировой процесс развития. В мире известны около двадцати мощных международных и более 2,5 десятков национальных рейтингов вузов. Они отличаются нацеленностью, базой данных, критериями оценивания. Несмотря на поиски механизмов влияния на образовательную систему, признаков масштабного увеличения числа университетов уровня мирового класса на постсоветском пространстве пока нет. В полной мере это относится и к вузам, осуществляющим подготовку учетных кадров. Между тем, потребность в высокопрофессиональных бухгалтерах на рынке труда стабильно высока. Профессиональная состоятельность и успешность бухгалтера определяется качеством его знаний и стремлением к постоянному обучению для дальнейшего профессионального совершенствования. Престижность профессии, возрастающие требования к качеству ведения бухгалтерского учета и устойчивый спрос на бухгалтеров на рынке труда обусловили увеличение числа учебных заведений, осуществляющих подготовку учетных кадров. Для подготовки высококвалифицированных учетных кадров университет должен располагать мощной материальной базой, высокопрофессиональным кадровым потенциалом, использующим современные технологии обучения. Эти основные параметры закладываются в рейтинговании вузов. Рейтинги университетов - важный инструмент оценки качества и развития образовательных систем и образовательных организаций, составляющих их основу. Особый интерес представляют рейтинги вузов, осуществляющих подготовку бухгалтерских кадров высшей квалификации. Лидером образовательной карты республики по профилю «Учет и аудит» является ДонНУ, который в лице кафедры «Учет, анализ и аудит» имеет бесспорную академическую и научную репутацию. Тенденцией последнего времени является ориентация на разработку многомерных рейтингов. В них каждый показатель ранжируется отдельно и пользователь выбирает наиболее важный. Предлагаем наряду с анализом ресурсных показателей деятельности вузов проводить оценку

эффективности использования ресурсов, а также опросы представителей академического сообщества, работодателей.

Литература

[1] Федина В.В. Перспективы развития бухгалтерского учета в России и МСФО // Современная экономика: проблемы, тенденции, перспективы. - 2012. - №6.

[2] Говдя В.В, Дегальцева Ж.В., Середенко И.В. Современные концепции развития бухгалтерского учета: проблемы и перспективы // КубГАУ. - 2014. - №99.

[3] Легенчук С.Ф., Давидюк Т.В. Актуальные проблемы бухгалтерского учета и контроля интеллектуального капитала в Украине // Международный бухгалтерский чет. - 2010. - №7(139). - С. 53-64.

[4] По сравнению с предыдущим годом количество студентов, обучающихся в вузах ДНР, возросло на 11% // СОВЕТ МИНИСТРОВ Донецкой Народной Республики [Электронный ресурс] URL: http://smdnr.ru/po-sravneniyu-s-predydushhim-godom-kolichestvo-studentov-obuchayushhixsya-v-vuzax-dnr-vozroslo-na-11/

[5] Рейтинг лучших университетов мира по направлениям подготовки QS – 2015 // РИА Новости [Электронный ресурс] URL: https://ria.ru/abitura_world/20150429/ 1051740834 .html

[6] Образование в Украине и за рубежом [Электронный ресурс]/Высшее образование: Вузы Украины.– Режим доступа: http://ru.osvita.ua/vnz/ guide /search-17-0-0-82-0.html

[7] WEBOMETRICS: рейтинг лучших высших учебных заведений мира // Medelle S.A. Швейцарский консалтинговый центр URL: http://www.education-medelle.com/articles/webometrics--rejting-luchschikh-visschikh-uchebnikh-zavedenij-mira.html

[8] Webometrics - 2016: Інтернет рейтинг українських ВНЗ // OCBITA.UA URL: http:// osvita.ua/vnz/rating/51987/

[9] WORLD // Ranking Web of Universities URL: http://www.webometrics.info/en

[10] Ukraine // Ranking web of universities URL: http://www.webometrics.info/en/Europe/Ukraine (дата обращения: 04.12.2016).

[11] Webometrics - 2016: Інтернет рейтинг українських ВНЗ // OCBITA.UA/ URL: http:// osvita.ua

[12] Об университете// Донецкий национальный университет URL: http://www.donnu.ru

[13] Свешникова, О. Н. Современный статус бухгалтера. / О.Н. Свешникова, В.В. Начаркин // Молодой ученый. - 2014. - №9. - С. 316-319.

[14]BBC[Электронный ресурс] .–Режим доступа:http://www.bbc.com/ ukrainian/ ukraine_ in_russian/2015/05/150513_ru_s_vj_education_rankings, свободный. – Загл. с экрана.

[15] Трапицын, С.Ю. Качество университетского образования в контексте болонского процесса / С.Ю. Трапицын // Universum: Вестник Герценовского университета. - 2009. - №8.

[16] Тарануха С. Н., Пижурина Н. Ф. Инструменты повышения качества образования в вузе / С. Н. Тарануха, Н. Ф. Пижурина // Высшее образование в России. - 2011. - №9.

[17] Исакова, Е. С. Формирование рейтинга вузов Е.С. Исакова, А. В. Панюков, С.Б. Коваль // Вестник Южно-Уральского государственного университета. Серия: Экономика и менеджмент. - 2014. - №4/том 8.

[18] Пугач, В.Ф. Рейтинги вузов: международный и российский подходы / В.Ф. Пугач // Высшее образование в России. - 2012. - №8-9.

[19] Резник С.Д. Рейтинг высшего учебного заведения как метод оценки его репутации С.Д. Резник, Т.А. Юдина, В.Г. Камбург// Известия Пензенского государственного педагогического университета им. В.Г. Белинского. - 2012. - №28.

[20] Шахгельдян, К.И. Разработка рекомендаций для повышения места университета в рейтинге WEBOMETRICS / К. И. Шахгельдян, И.А. Трофимчук, Д.В. Гмарь // Территория новых возможностей. Вестник Владивостокского государственного университета экономики и сервиса. - 2012. - №5.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 143 - 164
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 143 - 164

ALMANİYA İQTİSADİYYATININ MÜXTƏLİF SEKTORLARININ CARİ İNKİŞAF VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

E.T.Teymurov
i.ü.f.d, dissertant, UNEC
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalədə Almaniya iqtisadiyyatının müxtəlif sektorlarındakı cari vəziyyət və son illərdəki dinamika əks olunur. Tədqiqatın məqsədi Almaniya iqtisadiyyatının müxtəlif sektorlarında mövcud vəziyyətin və üstünlüklərin təhlil edilməsindən və əldə olunmuş nailiyyətlərin qeyd olunmasından ibarətdir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, məqalədə Almaniya iqtisadiyyatının müxtəlif sektorlarındakı cari vəziyyət və üstünlüklər müqayisəli, sistemli və kompleks şəkildə təhlil olunur, həmçinin gələcək perspektivlər qeyd edilir.

Açar sözlər: rəqəmsallaşdırma, “start-up”, əmək miqrasiyası, iqlim siyasəti, innovasiya.
Jel Classification: O13

ANALYSIS OF THE CURRENT STATE OF DEVELOPMENT OF THE VARIOUS SECTORS OF THE GERMAN ECONOMY AND ITS DEVELOPMENT PROSPECTS

Abstract

The current article explores the state of the development of various sectors of the economy of Germany. In this regard, development dynamics in the fields such as agriculture, winery, nuts and torism is highlighted, and comparative analysis are conducted. Article also encompasses sustainable development strategy, climate, innovation, sustainable energy and labor mobility policies of Germany.

Key words: digitalization, "start-up", labour migration, climate policy, innovation.

АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ РАЗВИТИЯ РАЗЛИЧНЫХ СЕКТОРОВ ЭКОНОМИКИ ГЕРМАНИИ И ПЕРСПЕКТИВЫ ЕЕ РАЗВИТИЯ

Резюме

В статье рассматривается текущее состояние развития различных секторов экономики Германии. В этой связи подчеркивается динамика развития в таких

областях, как сельское хозяйство, виноделие, выращивание орехов и туризм, проводится сравнительный анализ. Статья также включает стратегию устойчивого развития, политику в области климата, инноваций, устойчивой энергетики и мобильности рабочей силы Германии.

Ключевые слова: дигитализация, “start-up”, трудовая миграция, климатическая политика, инновация.

Almaniyanın davamlı inkişaf strategiyası. Federal Hökumət BMT-nin 2030-cu il gündəliyinin implementasiyasına sadiqdir və davamlı inkişaf strategiyasını [1] bu xüsusda mühüm addım hesab edir. Yüksək məşğulluq səviyyəsi, böyük orta təbəqə, sosial təhlükəsizlik, mükəmməl inkişaf etmiş tədqiqat “landşaft”ı, innovativ məhsullar, yüksək ətraf mühit və sosial standartlar ölkədə əldə olunmuş böyük nailiyyətlərdir və bu müstəvidə davamlı inkişafın ölkə sərhədlərindən kənar təşviq olunması üçün bir öhdəlikdir. Davamlılıq texnoloji innovasiya və iqtisadi rəqabət qabiliyyətlilik üçün imkan təklif edir. Almaniyanın davamlı inkişaf strategiyası hökumət üçün davamlı inkişafın əhəmiyyətini vurğulayır, konkret hədəfləri və tədbirləri müəyyənləşdirir. Strategiyanın məqsədi ölkədə iqtisadi cəhətdən səmərəli, sosial cəhətdən balanslaşdırılmış və ətraf mühit cəhətdən davamlı inkişafın təşviq olunmasından ibarətdir. Strategiya uzunmüddətli dövr üçün siyasətin inkişafı prosesini təsvir və müvafiq bələdçilik təklif edir. Strategiyanın özülündə davamlılığın idarə edilməsi sistemi dayanır: məqsədlərə nail olmaq üçün çərçivələr, davamlı monitorinq üçün göstəricilər, idarəçilik üçün qaydalar və institusional “konfiqurasiya” üçün anlayışlar. Strategiya 36 sahə üzrə kəmiyyət hədəfləri olan 63 əsas göstəricidən ibarətdir. Şəffaf və mütəmadi monitorinq strategiyadakı məqsədlərə nail olma üçün müvəffəqiyyətlərin və uğursuzluqların izlənilməsinə imkan verir. Hər iki ildən bir Federal Statistika Ofisi müvafiq hesabat dərc edir. Federal Statistika Ofisi göstəricilərin texniki təhlilinə və onların inkişafına məsuldur. Şöbələrarası Davamlılıq Göstəriciləri İşçi Qrupu Almaniyanın Ətraf Mühit, Təbiətin Mühafizəsi, Tikinti və Nüvə Təhlükəsizliyi Federal Nazirliyinin rəhbərliyi altında və Federal Statistika Ofisinin iştirakı ilə texniki monitorinq və davamlılıq göstəricilərinin təkmilləşdirilməsi üçün hazırlıq işini həyata keçirir. Strategiya hər dörd ildən bir yenilənir. Bütün nazirliklər strategiyanın formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir. Strategiyanın hədəflərinə və davamlı inkişafın qlobal məqsədlərinə nail olmaq üçün nazirliklər birlikdə çalışır və fəaliyyətlərini aidiyyəti üzrə əlaqələndirir. Hər bir nazirlikdə davamlı inkişaf üzrə əlaqələndirici şəxs təyin olunmuşdur. Nazirliklər həmçinin cari davamlılıq məsələləri üzrə hesabat təqdim edir. Davamlılıq prinsipi ölkədəki hər bir yeni qanunda və sərəncamda əvvəlcən nəzərə alınır. Bu xüsusda, təklif olunan qanunların və qaydaların təsirlərinin qiymətləndirilməsi zamanı nazirliklər davamlılığı məcburi

meyar kimi nəzərə alır. Almaniya B undestaqındakı Davamlı İnkişaf üzrə Parlamentar Məşvərətçi Şura milli və beynəlxalq səviyyədə davamlı inkişaf strategiyalarının və siyasətlərinin monitorinqini həyata keçirir. Şura həmçinin qanunların davamlılığa təsirini qiymətləndirir. Davamlı İnkişaf Şurası davamlılıqla bağlı bütün məsələlər üzrə Federal Hökumətə məsləhət verir, strategiyanın təkmilləşdirilməsinə, eləcə də ictimai məlumatlılığın artırılmasına və müvafiq dialoqa töhfə verir. Funksional cəhətdən müstəqil olan Şura strategiyanın gücləndirilməsi məqsədilə rəy və təkliflər irəli sürür. Şura 15 üzvdən ibarətdir və Almaniyanın Kansleri tərəfindən 3 illik müddətə təyin olunur. Davamlı İnkişaf üzrə Dövlət Katiblərinin Komitəsinə Almaniyanın Kansleri rəhbərlik edir. Komitənin məqsədi strategiyanın bütün siyasət sahələrinə tətbiq olunmasını və onun yenilənməsini təmin etməkdir. Komitə həmçinin mütəmadi olaraq davamlılıq göstəricilərinin inkişafını monitorinq edir. Bütün nazirliklər Komitədə təmsil olunur. Mövzuya uyğun olaraq xarici mütəxəssislər Komitənin iclasına dəvət olunurlar. Tərəqqi hesabatı hər il hazırlanır. Tərəqqi hesabatları strategiyanın implementasiyasının cari durumunu qiymətləndirir, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün konkret tədbirləri ehtiva edir və seçilmiş sahələr üzrə strategiyanı daha da inkişaf etdirir. Hesabatlar məlumat üçün Almaniya Bundestaqına təqdim olunur. Federal Kabinet strategiyaya dəyişiklikləri və onun daha da inkişaf etdirilməsi təkliflərini qəbul edir. Almaniya BMT çərçivəsindəki yüksək səviyyəli siyasi forumun rolunu təqdir edir. Almaniya ikitərəfli əməkdaşlıq və çoxtərəfli qurumlar çərçivəsində digər dövlətlərin davamlı inkişaf yoluna dəstək göstərir.

Kənd təsərrüfatı. Almaniya güclü və rəqabət qabiliyyətli kənd təsərrüfatına malik olan bir ölkədir. Kənd təsərrüfatı sektoru üzrə ölkə Avropa İttifaqında 5 ən böyük isthesalçılar sırasındadır. Ölkənin ərazisinin əksər hissəsi kənd təsərrüfatı və meşəçilik üçün yararlıdır. Almaniyada süd, mal, buzov, donuz, quş ətləri, yumurta, kartof, tərəvəzlər (kök, soğan, ağ kələm, kahı, xiyar və s.), şərab, silos qarğıdalı, yarma, mayaotu, meyvələr (alma, çiyələk, gavalı, albalı, armud və s.), şəkər çuğunduru və s. istehsal olunur. Almaniya Avropa İttifaqında mühüm kənd təsərrüfatı ölkəsi və ərzaq ixracatçısıdır. Ölkənin kənd təsərrüfatı sektorunun satış gəlirlərinin 25%-indən çoxu kənd təsərrüfatı məhsullarının ixracından əldə olunur. Avropa İttifaqı ölkələri (Niderland, Fransa, İtaliya və s.) Almaniyanın kənd təsərrüfatı məhsulları üçün əsas satış bazarıdır. Qeyri-Avropa İttifaqı bazarlarına gəlincə, burada İsveçrə, ABŞ, Çin və Səudiyyə Ərəbistanı ilk sıralardadır. Ən mühüm kənd təsərrüfatı ixracı məhsullarına ət, pendir və qənnadı məmulatları daxildir. Kənd təsərrüfatı məhsullarının idxalına gəlincə, Almaniya dünyada ilk 5-likdədir. Almaniya Avropa İttifaqının ən böyük donuz əti istehsalçısıdır. Donuz ətinin illik istehsalı təxminən 5 milyon ton təşkil edir. Mal ətinin istehsalı üzrə Almaniya Avropa İttifaqında Fransadan sonra 2-ci yerdədir. Kənd təsərrüfatı və meşəçilik sektorunda çalışan əhalinin sayı təxminən 1 mil-

yon nəfərdir. Ölkədə təqribən 300000 kənd təsərrüfatı holdinqi mövcuddur. Almaniyada istehsal olunan yerli kənd təsərrüfatı məhsullarının istehsalı əhalinin 9/10-dan çoxunun ərzağa olan tələbini ödəyir və bu xüsusda, ölkədə özünü təminetmə səviyyəsi 93%-dir. Fermerlərin yarısından çoxu gəlirlərini əsasən kənd təsərrüfatından əldə edirlər. Bu xüsusda, fermerlərin digər gəlir mənbələrinə bərpa olunan enerjinin istehsalı, ağac emalı, turizm, birbaşa marketinq və s. daxildir. Biokütlə Almaniyada ən mühüm bərpa olunan enerji mənbələrindən biridir və ilkin enerji istehlakının təxminən 7,1%-ini təşkil edir. Son illərdə Almaniyanın kənd təsərrüfatı məhsuldarlığında böyük artım müşahidə olunur. Ölkədə fermaların 9/10-u kənd təsərrüfatı sahəsində mütəxəssis olan, müvafiq institutları bitirən və ali təhsilə malik olan insanlar tərəfindən idarə olunur. Almaniyada fermaların yarıdan çoxu ailələr tərəfindən idarə olunur. Kənd təsərrüfatı sektorunda çalışanların təqribən 62%-i kişidir. Bütün fermaların 9%-indən azı qadınlar tərəfindən idarə olunur. Almaniyanın kənd təsərrüfatı - istehsal prosesinin səmərəliliyi, istehsal metodlarının davamlı təkmilləşdirilməsi, innovasiya tutumluluğu və müasir avadanlıqlara malik olması ilə seçilir. Bunun sayəsində hazırda 1 alman fermeri 144 nəfəri qidalandıra bilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatı çərçivəsində Almaniya Ərzaq Təhlükəsizliyi üzrə Etimad Fondunun donorudur [2]. Davamlı kənd təsərrüfatına sərmayə yatırılması, ərzaq və qidalanma təhlükəsizliyinə töhfə verilməsi, kənd yerlərinin inkişaf etdirilməsi və beynəlxalq səviyyədə aclıqla və qıdasızlıqla mübarizə aparılması məqsədilə Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf Federal Nazirliyi tərəfindən "Aclıqsız Dünya" adlı xüsusi təşəbbüs həyata keçirilir. Almaniyanın "Aclıqsız)ünya" təşəbbüsü çərçivəsində inkişaf etməkdə olan ölkələrdə ərzaq təhlükəsizliyinə hər il 1,5 milyard avro məbləğində yardım ayrılır. Sözügedən təşəbbüs çərçivəsində aşağıdakı 6 əsas sahə müəyyən edilmişdir:

- Ərzaq və qidalanma təhlükəsizliyi;
- Aclığın qarşısının alınması və müqavimətin yaradılması (resilience-building);
- Kənd təsərrüfatı və qida sektorlarında innovasiya;
- Kənd yerlərində struktur transformasiyası;
- Təbii ehtiyatların qorunması və torpağın reabilitasiyası;
- Resurslara və torpağa təhlükəsiz və ədalətli çıxış.

Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi üzrə Almaniya 6-cı pillədədir. Ölkənin digər ərzaq təhlükəsizliyi üzrə göstəriciləri aşağıdakı kimidir: münasiblik – 9-cu yer; mövcudluq – 3-cü yer; keyfiyyət və təhlükəsizlik – 20-ci yer. Hazırda fermaların 86%-i müvafiq istehsal sahələri (mal-qara, qoyun, keçi: 41%, şumluq əkinçilik: 28%, meyvəçilik və üzümçülük: 7%, donuzçuluq: 5%, bağçılıq: 2%, quşçuluq: 1% və s.) üzrə ixtisaslaşmışdır. Almaniyada orqanik kənd təsərrüfatı mühüm əhəmiyyət kəsb edir və bu sahədə illik satış gəliri təxminən 7 milyard avro təşkil edir. Almaniya

Avropa İttifaqında ən böyük or qanik ərzaq bazarına malikdir. Orqanık kənd təsərrüfatının gücləndirilməsi və bunun üçün istifadə olunan müvafiq torpaq sahələrinin genişləndirilməsi məqsədilə ölkədə "Orqanik kənd təsərrüfatı – irəliyə baxış" adlı strategiya tətbiq olunur [3]. Ölkənin əsas məqsədi bioiqtisadiyyata keçiddir. Bu məqsədlə bio-iqtisadiyyat üzrə milli siyasət strategiyası qəbul olunmuşdur [4]. Federal Orqanik kənd təsərrüfatı Proqramına hər il 17 milyon Avro məbləğində vəsait ayrılır. Ölkədə təxminən 19000 orqanik ferma mövcuddur. Ölkədəki bütün fermaların təxminən 8,7%-i orqanik kənd təsərrüfatı ilə məşğul olur. Hazırda orqanik məhsullar ölkədə qida sektorundakı məcmu dövriyyənin təxminən 4,5%-ini təşkil edir. Seleksiya, bitkilərin mühafizə olunması, torpağın münbitliyinin qorunması, yaşıl genetik mühəndislikdən istifadənin təşviq olunması məqsədilə ölkədə "Kənd təsərrüfatı və bağçılıq məhsullarının bitki genetik resurslarının qorunması və davamlı istifadəsi üçün Milli Proqram" qəbul olunmuşdur [5]. Kənd təsərrüfatı və meşəçilik sektorlarının daha səmərəli və rəqabət qabiliyyətli olması üçün özündə müvafiq infrastruktur tədbirlərini ehtiva edən Kənd Təsərrüfatı Strukturlarının və Sahil Mühafizəsinin Təkmilləşdirilməsi üzrə Birgə Tapşırıq [6] milli dəstək aləti yaradılmışdur və onun illik maliyyə resursları 1 milyard avrodan çoxdur. Müasir və davamlı kənd təsərrüfatı kontekstində həmçinin insan kapitalının inkişaf etdirilməsi, bacarıqların artırılması və institusional təkmilləşmə, eləcə də bu xüsusda kənd təsərrüfatı üzrə peşə təlimi ölkədə mühüm əhəmiyyət kəsb edir. Hər il minlərlə gənc kənd təsərrüfatı sektorundakı işlərlə (bağban, meşəbəyi, mehtər, şərabçı və s.) bağlı təlim keçir.

Şərabçılıq. Avropa İttifaqı (Aİ) dünyanın ən böyük şərab istehsalçısı olaraq qalmaqdadır və qlobal şərab istehsalının təxminən 60%-i Aİ-nin payına düşür. Hazırda Almaniyanın üzüm bağlarında təxminən 100 növ üzüm yetişdirilir. Son 30 ildə ölkədə şərab istehsalı təxminən 2 dəfə artmışdır. Orta hesabla ölkədə istehsal olunan məcmu şərabın təqribən 59-67%-i ağ şərabın payına düşür. Ən çox istehsal olunan ağ şərab növləri "Riesling" (60,5%) və "Müller-Thurgau"dır (14%) [7]. Digərlərinə misal olaraq, "Silvaner", "Pinot Grigio" və "Pinot Blanc" növlərini göstərmək olar. Ümumiyyətlə, iqlim şəraiti ilə əlaqədar olaraq şərab istehsalı 13 şərab regionunda (əsasən cənubda və çay vadilərində) təmərküzləşmişdir. "Rheinhessen" və "Pfalz" ölkədə şərabın istehsal olunduğu əsas regionlardır. Ev təsərrüfatlarının 2/3-isi tərəfindən şərab istehlak olunur və orta hesabla adambaşına düşən illik istehlak təxminən 20 litr (təqribən 20,5 mhl) təşkil edir. Alman şərab istehsalçıları yerli bazarda təqribən 45% paya malikdirlər. Almaniyada şərab istehsal olmasına baxmayaraq, yerli istehsal Alman əhalisinin istehlakını tam qarşılaya bilmir. Ölkənin şərab istehlakının 40%-i Alman şərabları, 60%-i isə idxal olunan şərablar hesabına ödənilir. Bu xüsusda yerli əhali istehlakda daha çox qırmızı şəraba üstünlük verir. Alman ev təsərrüfatları tərəfindən il ərzində alkoqollu içkilərin alınmasına 11,2 milyard avro-

dan (şərab məsrəfləri 39%) çox vəsait sərf olunur. İstehlak olunan şərabların təxminən 60%-i qırmızı, 31%-i ağ və 9%-i isə çəhrayı şərab olmuşdur. 2015-ci ildə Almaniyaya şərab idxalı 2,5 milyard avro təşkil etmişdir. Aİ-yə daxil olmayan ölkələrdən Almaniyaya şərab idxalı ümumi istehlakın 10%-ini təşkil edir. İdxalda əsas ölkələr İtaliya, Fransa və İspaniyadır. Sonrakı yerləri isə Cənubi Afrika, Avstraliya, Çili və ABŞ, o cümlədən Avstriya, Portuqaliya, Makedoniya, Macarıstan və Yunanıstan tutur. Almaniya şərabın idxal həcmi (dünyada 3-cü yer, Aİ-də Böyük Britaniyadan sonra 2-ci yer), istehlakı (dünyada 4-cü yer), ixracı (dünyada 8-ci yer; ölkənin ixracında əsas təyinat ölkələri: ABŞ, Böyük Britaniya, Niderland, Norveç, İsveç, Finlandiya) və istehsalı (Aİ-də Fransa, İtaliya və İspaniyadan sonra 4-cü yer; dünyada 10-cu yer) üzrə dünyada qabaqcıl sıralardadır. Almaniya dəyər baxımından Avropa məcmu şərab bazarının təqribən 13.3%-ini əhatə edir. Ölkədə şərabın ticarəti bütün ölkələr üçün açıqdır və keyfiyyət şərtlərinə cavab verildiyi təqdirdə ticarətdə heç bir məhdudiyyət və maneə mövcud deyildir (Almaniya dünyanın ən liberal bazarlarından sayılır). Almaniya şərabın istehlakını güclü şəkildə demotivasiya etmir və bu xüsusda(,) şərabın istehlakı aksiz rüsumlarından azaddır (əlavə dəyər vergisi – 19%). Şərab ticarəti əsasən "diskounter"lər (Aldi Süd, Aldi Nord, Lidl, Netto, Norma, Penny), supermarketlər (Rewe, Edeka, Metro Group), şərab mağazaları, restoranlar və şərab kooperativləri vasitəsilə həyata keçirilir. "Diskounter" və supermarketləri əhatə edən pərakəndə satış sektoru ümumi şərab ticarətinin 50-60%-ini təşkil edir. Bazarın yerdə qalan 40-50%-i şərabı birbaşa satan şərab zavodları, restoran ticarəti və ixtisaslaşmış şərab pərakəndə ticarətçiləri arasında bölünmüşdür. Şərabın təxminən 15%-i restoranlar, 10%-i ixtisaslaşmış mağazalar, 15-20%-i birbaşa olaraq istehsalçılardan alınır. Qiymətlər satış kanalından asılı olaraq müxtəlif səviyyədədir. 2015-2016-cı illərdə "diskounter"lər daxil olmaq pərakəndə satış sektoru şərabın hər litrini orta qiymətlə təxminən 2,97 avroya satmağa nail olmuşlar (hər şərab şüşəsi üçün istehlak qiymətinin göstəriciləri -"diskounter"lər 1,75 avro, supermarketlər 2,45 avro, ixtisaslaşmış mağazalar 3,45 avro). İxtisaslaşmış şərab mağazalarında qiymətlər daha yüksəkdir. "Marja" – "diskounter"lər (pərakəndə satışın 10-20%-i), supermarketlər (pərakəndə satışın 25-35%-i), şərab mağazaları (pərakəndə satışın 35-50%-i), restoranlar (restoran qiymətinin 70-80%-i), topdan satış (topdan satış qiymətinin 15-25%-i), agentlər (qiymətin 2-20%-i). Almaniyadakı pərakəndə şərab ticarət nöqtələrinin strukturu (şirkətlərin sayı): marketinqin özləri tərəfindən həyata keçirilən şərab zavodları 8000; ixtisaslaşmış mağazalar, internet vasitəsilə yaxud poçt sifarişi 2500; "diskount" mağazalar 16000; pərakəndə ticarət edən ərzaq marketləri 19500. Alman əhalisinin demoqrafiyasındakı meyllər ölkədə gələcək şərab istehlakına nəzərəçarpacaq dərəcədə təsir edəcəkdir. Belə ki, alman əhalisi getdikcə azalır və yaş piramidası daha yaşlı nəsillərə doğru hərəkət edir. Lakin, buna baxmayaraq,

gənc nəsillərlə müqayisədə daha yaşlı nəsil daha çox şərab istehlak edir. Bu müstəvidə, 2060-cı ilədək ölkədə şərab istehlakının adambaşına təxminən 21 litr səviyyəsində qalması gözlənilir. Almanlar şərabın mənşə ölkəsi barədə açıq fikirlidir, mağazaların rəflərində mövcud olan təklifləri nəzərdən keçirməyi xoşlayır, seçimi əsasən dadma vasitəsilə edir, qiymətə çox həssas yanaşır və ümumən şərab içməyi sevirlər. Ölkədə artan tələbat ilə əlaqədar olaraq Alman şərab bazarı çox cəlbedici, dinamik, keyfiyyət və qiymət cəhətdən çox rəqabətlidir. Eyni zamanda, almanlar dünyanın bütün ölkələrindən olan şərablara maraq göstərirlər. Hazırda şərab ticarətində əsas meyl istehlakçıların rahatlığa üstünlük verməsi ilə əlaqədar olaraq supermarketlərin güclənməsi və dominantlığı ələ almasıdır. Eyni zamanda, ixtisaslaşmış şərab mağazalarında şərab ticarəti ilə bağlı çətinliklər, dik təpəlikdə yerləşən üzüm bağlarında istehesalın azalması, son illərdə şərabın istehlakının artması, şərab istehsal edən və uğurlu marketinq sisteminə malik olan kiçik özəl şərabxanaların üzümə tələbinin, aromatik şərablara meylin, həmçinin şərabın internet vasitəsilə satışının artması müşahidə edilir. Ümumiyyətlə, bazarın böyüklüyü, iqtisadi sabitlik və artım üçün gələcək perspektivlər baxımından Almaniyada şərab biznesi üçün əlverişli imkanlar vardır. Həmçinin Almaniya digər Aİ ölkələrinə şərab satışının həyata keçirilməsi uçun bir qovşaq qismində istifadə oluna bilər.

Çərəzlər. Avropa İttifaqı yeyilə bilən çərəzlər üçün dünyada ən böyük bazardır və məcmu dünya idxalının təxminən 40%-ini əhatə edir [8;9]. Son illərdə qlobal səviyyədə fındığın qiymətinin, o cümlədən nəqliyyat və logistika məsrəflərinin artmasına baxmayaraq, sağlamlıq faydaları ilə əlaqədar olaraq, Almaniyada fındıq istehlakı artmışdır. İstehlakın həcmində həmçinin Almaniyada yaşayan Türkiyə, Orta Şərq və Şimali Afrikadan olan etnik əhali qrupları arasında fındığın məşhurluğu rol oynayır. Avropa İttifaqının ən böyük orqanik bazarı olan Almaniyada fındıq istehsalı cüzidir və fındıq əsasən Bavariyada yetişdirilir. Almaniya dünyada mühüm fındıq idxalçısıdır (məcmu dünya idxalının təqribən 35%-i), Avropa İttifaqının fındıq idxalının təxminən 50%-i və təmizlənməmiş fındıq idxalının 40%-i Almaniyanın payına düşür. Avropa İttifaqının fındıq bazarına daxil olmaq məqsədi güdən təchizatçılar üçün Almaniyaya ixrac ən optimal seçim hesab olunur. Almaniyanın fındıq bazarı uzunmüddətli biznes tərəfdaşlıqları ilə səciyyələnir. Bazarın və istehlakçılarının keyfiyyət tələblərinə cavab verən fındıq məhsullarını təchiz edə biləcək ixracatçılar üçün yaxşı imkanlar mövcuddur. Fındıq əsas etibarilə pərakəndə ticarət vasitəsilə satılır. Ölkədəki fındıq istehlakı fəsillərlə bağlıdır. Belə ki, payızda və xüsusən də dekabrda istehlak artır, tələb isə ilboyu olduqca sabit qalır. Fındığın hazırkı təchizatına bazarın 2 cür reaksiya verməsi ehtimalı vardır: 1) Avropa İttifaqı ölkələri yeni mənbələr axtaracaqlar və mövcud biznes əlaqələrinə alternativ qismində yeni fındıq təchizatçılarını nəzərdən keçirəcəklər. 2) Şirkətlər fındığı digər oxşar çərəzlər ilə

əvəzləyəcəklər. Bu xüsusda 2-ci variant məhsulun çeşidinin və fındığa tələbatın uzunmüddətli dövrdə dəyişikliyinə səbəb olacaqdır. Məhsulun keyfiyyəti alman alıcıları, xüsusən də yaşı 55-dən yuxarı olan insanlar üçün ən mühüm amildir. Almanlar etibarlı təchizatçı ilə məhsuldar biznes əlaqələri qurarlarsa, tərəfdaşlarını dəyişməkdə maraqlı deyildirlər. Bu isə Almaniyada biznesləri təsis olunmamış təchizatçı ölkələrdən olan yeni ixracatçıların Almaniya bazarına girməsini çətinləşdirir. Lakin məhsuldarlığa ciddi ziyan vuran, artmaqda olan və təxmin edilə bilməyən hava şəraitləri və dəyişkən iqlim vəziyyəti sənayeni potensial fındıq yetişdirən və ixrac edən regionlar axtarmağa məcbur edir. Buna baxmayaraq, almanlar məhsulun keyfiyyətində güzəştə getmək əvəzinə onun oxşar məhsullarla əvəzlənməsinə üstünlük verirlər. Fındıq ilə bağlı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, "Codex Alimentarius" Komissiyasının və BMT-nin Avropa İqtisadi Komissiyasının məhsul standartları beynəlxalq səviyyədə tanınır. Bu xüsusda alman alıcıları üçün fındıq təchizatçılarının məhsullarının həmin standartlara cavab verməsi mühümdür. Avropa İttifaqı bazarı və Almaniya üçün qida məhsullarının etiketlənməsi, qablaşdırılması, həmçinin məhsulun keyfiyyəti, ərzaq gigiyenası və təhlükəsizliyi Avropa Komissiyasının müvafiq qaydalarına uyğun olmalıdır. İnkişaf etməkdə olan ölkələrdən idxal olunan fındıqlar təyin olunmuş sərhəd baxış məntəqələrindən keçir və ciddi şəkildə yoxlanılır. Son illərdə Almaniyaya təmizlənmiş fındıq idxalında Türkiyə, İtaliya, Gürcüstan, Azərbaycan, Niderland, Avstriya, İspaniya və Fransa ilk sıralarda olmuşdur (ümumi idxalın təxminən 99%-i). Almaniyanın təmizlənməmiş fındıq idxalında isə Fransa, ABŞ və Çili ilk pillələrdə olmuşdur. İstehlakçıların vaxt məhdudiyyəti amili və rahatlığa üstünlük vermə meyli ilə bağlı olaraq, Almaniyanın fındıq idxalında əsasən təmizlənmiş fındıq üstünlük təşkil edir (təqribən 98,6%). Almaniyadakı qida istehsalçıları (qənnadı sənayesi, çörəkxana və s.) və "supermarket"lər idxal prosesində mühüm rol oynayır və fındığı yuxarıda adları çəkilən ölkələrdən birbaşa olaraq idxal edir. Fındıq istehlakında digər meyllər müştərilərin "impulsiv" alışı ilə əlaqədar olaraq, onun dükanlarda daha tez görünə bilən yerlərdə yerləşdirilməsi, qablaşdırılmasının daha cəlbedici edilməsi və ətraf mühitə xələl gətirməməsi, sosial medianın marketinqdə rolunun artması ilə əlaqədar olaraq, fındığın "onlayn" satışının həyata keçirilməsi, həmçinin sərfəli qiymət baxımından məhsulun daha böyük "paket" həcmlərində satılmasından ibarətdir. Almaniyadakı bazar seqmentlərindən asılı olaraq, fındığın satış qiyməti dəyişir. Məsələn, "premium" seqmentində fındığın hər 100 qramı təxminən 3-4 avroya, "orta-bazar" seqmentində 1,50 – 2,50 avroya, "daha aşağı bazar" seqmentində isə daha öncəkindən bir qədər aşağı olmuşdur. Almaniyanın "The Waren-Verein der Hamburger Börse e.V." [10] təsisatının məlumatlarına əsasən, Türkiyə fındıqlarının hər kiloqramı üçün qiymət təqribən

15-18 avro, İtaliya üçün isə bu rəqə m 17,50 avro olmuşdur. 2015-ci ildə dəllallar fındığın hər kilosunu 16 avroya satmışlar.

Rəqəmsal "start-up"lar. Almaniya Avropanın rəqəmsal "start-up"ların aparıcı mərkəzi qismində formalaşmaqdadır. "Ernst&Young" şirkətinin "Start-up Barometer" araşdırmasına [11] əsasən, Berlin 2015-ci ildə Avropanın "start-up" paytaxtı adını qazanmışdır. Berlin şəhərindəki "start-up"ların 90%-i yeni məhsul və xidmətlərin yaradılması üzrə işləyir. Eyni zamanda Hamburq, Münhen, Frankfurt və Dortmund şəhərləri ölkədə bu sahədə öncüllük nümayiş etdirir. "Deutscher Startup Monitor"a (http://deutscherstartupmonitor.de/) əsasən, Almaniyada "start-up"ların əsas coğrafi bölgüsü aşağıdakı kimidir: Berlin - 17%, Reyn-Rur regionu -14,1%, Ştutqart regionu – 8,9%, Münhen – 7%, Hannover regionu – 6,9%, Hamburq – 6,4%. Alman "start-up"larının fəaliyyət göstərdiyi əsas sahələr: İnformasiya texnologiyaları – 15%, Xidmət qismində proqram təminatı – 10,2%, İstehsal/aparatura – 8,9%, Elektron ticarət – 8,7%, Mobil/internet tətbiqləri – 6%, Bio, nano və tibb texnologiyaları – 5,4%, "Onlayn" bazar platformaları – 5,3%. 2016-cı ildə Almaniyada "vençur" kapitalı sərmayələri: Berlin – 1,072 milyon avro, Bavariya – 527 milyon avro, Şimali Reyn-Vestfalia – 141 milyon avro, Hamburq – 127 milyon avro. Almaniyanın İqtisadiyyat və Energetika Federal Nazirliyi tərəfindən irəli sürülmüş rəqəmsal qovşaq təşəbbüsü [12] çərçivəsində rəqəmsal transformasiyanın təşviqi məqsədilə ölkədə "start-up"lar, elmi-tədqiqat institutları, universitetlər, kiçik və orta müəssisələr və sənaye arasında əməkdaşlıq asanlaşdırılır. Eyni zamanda, ölkədə "start-up"ların fəaliyyəti üçün əlverişli mühit (münasib icarələr, təkmilləşən texnologiya eko(-) sistemi, stimullaşdırma mexanimzləri, ümumi bazara giriş imkanı) təşviq edilir. Berlin şəhərində fəaliyyətini qurmuş şirkətlərin təsisçilərinin 94%-i sözügedən şəhəri Almaniyada ən yaxşı məkan hesab edir. Adıçəkilən şəhərdə innovativ və əhəmiyyətli biznes modellərinə malik olan 6000 texnologiya şirkəti fəaliyyət göstərir. Bir sıra şirkətlər ("Cisco", "Würth") Berlində İnnovasiya Mərkəzlərini yaradır. "Start-up"ların işçi qüvvəsinin 50%-i 180 müxtəlif ölkədən formalaşır. Ümumiyyətlə isə hər il işləmək məqsədilə Berlinə 200000 insan gəlir və onların 70%-nin ali təhsili vardır. Bu müstəvidə, proqram təminatı mühəndislərinə daha çox ehtiyac duyulur. Almaniya hökuməti tərəfindən növbəti illərdə Berlindəki universitetlərdə informasiya texnologiyaları, məlumatların təhlili və "sənaye 4.0" üzrə 50 yeni professor vəzifəsi maliyyələşdirələcəkdir. "Start-up"ların çoxu Berlin-Brandenburq regionundakı universitetlər çevrəsində "klaster"laşmışdır. Almaniya hökuməti həmçinin Şərqi Avropa ölkələrindən informasiya texnologiyaları üzrə mütəxəssislərin ölkəyə gəlməsini təşviq edir və lazımı iş icazələrin alınmasını asanlaşdırır. Bununla yanaşı, "Brexit" bır sıra rəqəmsal şirkətlərin London şəhərindən Berlinə gəlməsinə səbəb olmuşdur. Münhen şəhəri 2014-cü ildə Avropa Komissiyası tərəfindən Avropanın bir nömrəli internet kommu-

nikasiya texnologiyası qovşağı elan olunmuşdur. Eyni zamanda, sözügedən şəhər "əşyaların interneti" üçün aparıcı "klaster" qismində qlobal səviyyədə məşhurdur. Sözügedən şəhərdəki aparıcı universitetlərin (Münhen Texniki Universiteti, Münhen Tətbiqi Elmlər Universiteti, "Ludwig-Maximilians" Universiteti) informasiya texnologiyaları sahəsində nüfuzu və yüksəkixtisaslı məzunları ABŞ-ın aparıcı informasiya texnologiya şirkətlərini ("Microsoft", "IBM", "Intel") Münhen şəhərinə sərmayə yatırmasını təşviq edir. Belə ki, "IBM" şirkəti Münhendə "əşyaların interneti" üçün qlobal inkişaf mərkəzini yaradır. Münhenin digər təbii üstünlüyü onun sənaye "landşaft"ıdır (xüsusən: avtomobil, aerokosmik, tibb texnologiyası, zavod tikintisi sektorları). Bir sıra korporasiyaların ("Siemens Next47", "BMW Startup Garage", "ProSieben") Münhendə "inkubator"ları mövcuddur. Hamburq şəhəri Almaniyanın 2-ci ən böyük rəqəmsal qovşağı olmaq üçün Münhen ilə rəqabət aparır. Hazırda, şəhərdə 23000 media və informasiya texnologiyaları şirkətləri fəaliyyət göstərir. "Google", "Facebook", "Twitter", "Hootsuite" və "Yelp" kimi məşhur şirkətlərin Hamburqda əməliyyat mərkəzləri mövcuddur. Eyni zamanda, təyyarə istehsalçısı "Airbus" şirkətinin Almaniya üzrə nümayəndəliyi bu şəhərdə yerləşir. Hazırda maliyyə texnologiyaları Hamburqda ən böyük artım sahəsidir. Almaniyanın 2025-ci ilədək rəqəmsal strategiyası [13] aşağıdakı hədəfləri müəyyən etmişdir:

- 2025-ci ilədək ölkədə yüksək sürətli fiber optik şəbəkənin yaradılması;
- Yeni "start-up" dövrünün başladılması: "start-up"ların dəstəklənməsi, eləcə də gənc şirkətlər arasında əməkdaşlığın təşviq olunması;
- Daha çox sərmayə və innovasiya üçün tənzimləyici mühitin yaradılması;
- İqtisadiyyatın əsas infrastruktur sahələrində "ağıllı" şəbəkələnmənin (smart networking) təşviq edilməsi;
- Məlumat təhlükəsizliyinin gücləndirilməsi və məlumat suverenliyinin inkişaf etdirilməsi;
- Kiçik və orta müəssisələr üçün yeni biznes modellərinin dəstəklənməsi;
- Almaniyanın istehsalının modernləşdirilməsi;
- Rəqəmsal texnologiyalar üzrə tədqiqat, inkişaf və innovasiyanın yüksək səviyyəyə qaldırılması;
- Həyatın bütün mərhələlərində rəqəmsal təhsilin reallaşdırılması;
- Müasir mükəmməllik mərkəzi qismində rəqəmsal agentliyin təsis olunması.

Almaniyanın rəqəmsallaşdırma üzrə fəaliyyət proqramında aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Almaniyada rəqəmsal qovşaqların təşviqi;
- Kiçik və orta müəssisələrdə rəqəmsallaşdırmanın sürətləndirilməsi;
- "Gigabit" şəbəkələrinin genişləndirilməsi;
- Rəqəmsal texnologiyaya sərmayələrin daha asan edilməsi;

- Rəqəmsal dəyər yaradan şəbəkələrin təmin edilməsi;
- Rəqəmsal rabitənin və elektron hökumətin irəlilədilməsi, bürokratiyanın azaldılması;
- Enerji keçidinin rəqəmsallaşdırılması;
- Səhiyyə sənayesinin rəqəmsallaşdırılması;
- Rəqəmsal mobillik üzrə irəliləmə;
- Sosial paylaşım iqtisadiyyatı vasitəsilə daha çox bölüşmənin mümkün edilməsi;
- Almaniyada texnologiyanın maliyyələşdirilməsinin gücləndirilməsi.

Almaniya Federal Hökuməti tərəfindən təhsil, elm və tədqiqatın beynəlmiləlləşdirilməsi üzrə yeni strategiya [14] cari ildə qəbul olunmuşdur. Sözügedən strategiyada 5 əsas hədəf müəyyən edilmişdir:

- Qlobal əməkdaşlıq vasitəsilə mükəmməlliyin gücləndirilməsi;
- Beynəlxalq arenada innovasiya üzrə Almaniyanın gücünün artırılması;
- Peşə təlimi və ixtisasartırmanın beynəlxalq aspektlərinin inkişaf etdirilməsi;
- Qlobal bilik cəmiyyətinin formalaşdırılması üçün inkişaf etməkdə olan ölkələrlə əməkdaşlıq edilməsi;
- Beynəlxalq təhdidlərin (iqlim dəyişikliyi, səhiyyə, ərzaq təhlükəsizliyi və s.) birgə şəkildə aradan qaldırılması.

Almaniyanın əsas məqsədi təhsil və tədqiqat üzrə ölkənin beynəlxalq səviyyədə cəlbedici ölkə (hazırda ilk beşlikdə) qismində mövqeyinin möhkəmləndirilməsindən, innovasiya üzrə kiçik və orta müəssisələrin qlobal miqyasda əməkdaşlığının dəstəklənməsindən, tədqiqat və inkişafın ÜDM-də payının artırılmasından ibarətdir. Son dövrdə, Almaniyanın ali təhsil ocaqlarında çalışan xarici alimlərin və beynəlxalq birgə məqalələrin sayı artmış və alman alimlərinin digər dövlətlərə (əsasən Qərbi və Şərqi Avropa, ABŞ) ezamiyyətləri təşviq edilmişdir. Nəticə etibarilə Almaniya Avropanın aparıcı innovativ lider ölkələrindən birinə çevrilmişdir. Belə ki, Almaniya 2016-cı ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı çərçivəsində Patent Əməkdaşlığı, Madrid və Haaqa Sazişləri, o cümlədən "domen" adları üzrə ərizələrin sayına görə dünyada ilk pillələrdə yer almışdır [15].

Turizm. Avropanın məşhur səyahət təyinat ölkəsi qismində 2016-cı ildə Almaniya (53,6 milyon səfər) İspaniyadan sonra 2-ci yerdə olmuşdur. Səfərlərin 55%-i məzuniyyət, 25%-i biznes və 20%-i özəl məqsədlər üçün edilmişdir. İşgüzar səyahət təyinat ölkəsi kimi Almaniya Avropada 1-ci yerdə olmuşdur. 2016-cı ildə Avropalıların etdiyi 63,2 milyon işgüzar səfərlərdən 12,6 milyonu Almaniyaya olmuşdur. Ümumdünya İqtisadi Forumunun "Səyahət və Turizm Rəqabətliliyi Hesabatı 2017" nəşrində [16] Almaniya 2016-cı ildə 136 ölkə arasında İspaniya və Fransadan sonra 3-cü yerdə olmuşdur. Almaniya Avropalıların mədəni səyahət təyinat ölkəsi, dünyanın sərgi və Avropanın beynəlxalq konfrans məkanı, gənc (15-24 yaş) Avropalıların səfər yeri qismində ilk pillədə olmuşdur. Nəticə etibarilə turizminin davamlı və ink-

lüziv inkişafına nəzərəçarpacaq töhfə vermişdir. Bu xüsusda, "Kənd yerlərində mədəni turizm" və "Hər kəs üçün səyahət" proqramları xüsusi əhəmiyyət kəsb edir. Turizm sahəsində Almaniyada mərkəzi informasiya vasitəsi kimi 30 dildə fəaliyyət göstərən və bu günədək 10 milyondan artıq insanın daxil olduğu (www.germany.travel) "onlayn" platforması turistlərə faydalı məlumatlar təklif edir. Almaniyaya gələn turistlər ilə bağlı gecələmə potensialının 2030-cu ilədək 121,5 milyon nəfərə çatacağı (2015-ci ildə bu rəqəm 79,7 milyon təşkil etmişdir) və onların əsasən Avropa ölkələrindən olacağı təxmin edilir. Almaniyaya 2015-ci ildə əsasən aşağıdakı ölkələrdən turistlər gəlmişdir: Niderland, İsveçrə, ABŞ, Böyük Britaniya, İtaliya, Avstriya, Danimarka, Fransa, Belçika, İspaniya və Çin. Avropa ölkələrindən Almaniyaya 2015-ci ildə səfərlər əsasən aşağıdakı nəqliyyat vasitələri ilə həyata keçirilmişdir: avtomobil (47%), təyyarə (33%), avtobus (9%), qatar (8%), digər (4%). Ümumən isə bütün xarici ölkələrdən Almaniyaya edilən səfərlərdə nəqliyyat vasitəsi kimi təyyarə üstünlük (97%) təşkil etmişdir. 2015-ci ildə səfər ilə bağlı sifarişlər üçün aşağıdakı vasitələrdən istifadə olunmuşdur: internet (81%), qalma yerinin birbaşa rezervasiyası (24%), səyahət agentliyi (18%), səyahətin birbaşa rezervasiyası (12%), turistik məlumat (4%). Avropadan Almaniyaya 2015-ci ildə səfər edən turistlər 30,3 milyard avro məbləğində vəsait xərcləmişlər. Turistlər əsasən Bavariya, Berlin, Baden Vürtemberq və Şimali Reyn Vestfalia federal əyalətlərinə səfər etmişlər. Ölkəyə gələn turistlərin 22%-i kənd yerlərinə səfər etmişdir. Berlin Avropada ən çox muzeyə (təxminən 180) malik olan şəhərdir. 2016-cı ildə Berlindəki mehmanxanalarda 31 milyondan artıq insan gecələmişdir. Qonaqların ¼-i bu şəhərə konfranslarda (hər il təxminən 137500 tədbir keçirilir) təmsil olunmaq, 50%-indən çoxu isə mədəniyyət "landşaft"ını ziyarət etmək üçün gəlmişdir. Turizm sektoru Berlin şəhərində 250000 insanın gəlirini təmin edir. Berlinə gələn insanların orta yaşı 39,3 və onların bu şəhərdə qalma müddəti 2,8 gündür. Hər il təxminən 21000 pasiyent Berlin şəhərinə həkim müayinəsi, müalicə və diaqnoz qoyulması məqsədilə səfər edir. Pasiyentlər əsasən Rusiya, Çin və ərəb ölkələrindəndir. Tibb turizmi üzrə müvafiq internet səhifəsi [17] Berlindəki tibb obyektləri barədə 5 dildə məlumatlar təmin edir. Almaniyanın İqtisadiyyat və Energetika Federal Nazirliyi tərəfindən maliyyələşdirilən Milli Turizm Şurasının əsas məqsədi turizmin təşviqindən, ölkəyə xarici valyuta axınlarının artırılmasından və turistik təyinat ölkəsi qismində Almaniyanın dünyada müsbət nüfuzunun və cəlbediciliyinin gücləndirilməsindən ibarətdir. Almaniyanın Milli Turizm Şurasının qlobal marketinq fəaliyyətləri sözügedən qurumun 30 xarici nümayəndəliyi vasitəsilə əlaqələndirilir. Almaniyanın Milli Turizm Şurası [18] tərəfindən 2017-2020-ci illərdə aşağıdakı turistik kampaniyalarının həyata keçirilməsi nəzərdə tutulur:

-"Lüter 2017 – Almaniyada reformasiyanın 500 illiyi";

-"Kulinarisches Deutschland 2018" (Almaniya Mətbəxi 2018);
-Karl Marksın anadan olmasının 200 illiyi;
-"Bauhaus"un 100 illiyi;
-Teodor Fontanenin anadan olmasının 200 illiyi;
-Lüdviq van Bethovenin anadan olmasının 250 illiyi;
-"Oberammergau" Ehtiras Oyunları.

Əmək miqrasiyası. Almaniyanın sürətlə inkişaf edən iqtisadiyyatı, aparılan islahatlar və daha liberal miqrasiya qaydaları dünyanın ən ağıllı və istedadlı tələbələrini ölkəyə cəlb etməkədədir. "Brexit" və ABŞ-ın yeni rəhbərliyinin işçi vizası ilə bağlı siyasəti daha çox ağıllı miqrantların ölkəyə gəlməsinə səbəb olmuşdur. 2005-2015-ci illərdə ölkəyə əsasən aşağıdakı dövlətlərdən miqrantlar gəlmişdir - Polşa (1803939 nəfər), Rumıniya, Bolqarıstan, Suriya, İtaliya, Macarıstan, Türkiyə, ABŞ, İspaniya, Rusiya, Fransa, Yunanıstan, Çin, Xorvatiya və Avstriya. Ümumiyyətlə, 2005-ci ildən etibarən ölkəyə təxminən 10 milyon miqrant gəlmişdir. Bununla da Almaniya ABŞ-dan sonra miqrantların gəldiyi 2-ci ən böyük ölkə olmuşdur. Avrozona borc böhranları zamanı ali təhsilli yunan, italyan və ispanlar ölkələrini tərk edərək, Almaniyaya iş tapmaq məqsədilə gəlmişlər. Eyni zamanda, istedadlı gənc rus məzunlar Almaniyadakı böyük rus icmalarına qoşulmuşlar. Həmçinin Asiyanın kübar ailələri uşaqlarını təhsil almaq üçün Almaniyanın mühəndislik məktəblərinə göndərir və onların çoxu universitetləri bitirdikdən sonra ölkənin istehsal sənayesində iş tapırlar. London bankirləri, "Brexit"dən sonra Avropa İttifaqının maliyyə bazarlarına çıxışı itirmək narahatçılığı səbəbindən Frankfurt şəhərinə istiqamətlənir. "Goldman Sachs", "Credit Suisse" və "UBS" heyətini Frankfurta köçürmüş yaxud bu niyyətdə olan 20 bankdandır. "Konetic", Almaniyanın Berlin və Münhen texnologiya qovşağına köçmüş Böyük Britaniyanın yeganə "start-up"ı deyildir. Böyük Britaniyada hazırda minlərlə əcnəbi işçi alternativ ölkələr barədə düşünür. Almaniyada miqrantlar tərəfindən təsis olunan texnoloji "start-up"ların payı: Silikon Dərəsi – 46%, Berlin – 43%, London – 42%, Tel-Əviv – 16%, Paris – 11%. ABŞ-ın yeni rəhbərliyinin işçi vizası ilə bağlı siyasəti nəticəsində Almaniyanın Meksikadakı mədəniyyət mərkəzi şəbəkələrində ("Göte" İnstitutu) alman dili kurslarında oxuyanların sayı durmadan artır. Belə ki, orta təbəqə meksikanlar beynəlxalq karyera axtarışındadır. Eyni zamanda, Almaniyanın "onlayn" dil öyrənmə xidməti olan "Babbel" kimi bir sıra alman şirkətlərinin məlumatına əsasən, 2016-cı ilin noyabr ayından etibarən ABŞ vətəndaşlarının iş üçün müraciətlərinin sayı artmışdır. Miqrasiya siyasəti islahatları sayəsində hazırda alman şirkətləri daha çox ixtisaslı işçilərə çıxış imkanı əldə etmişdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Almaniyanı əcnəbi işçilərin ən asan daxil ola bildiyi ölkə adlandırmışdır. İxtisaslı işçilərə viza verilmə səviyyəsi: Berlin - 77%, Silikon Dərəsi - 58%, London - 44%, Paris -37%, Tel-Əviv – 27%. Ödənişsiz təhsil sayəsində ölkəyə gələn əcnəbi tə-

ləbələrin sayı durmadan artır. Son 10 ildə onların sayı 32% artaraq, 340305 nəfərə çatmışdır. Almaniya universitetlərində çalışan əcnəbi tədqiqatçıların sayı son 10 ildə artaraq, 42268 nəfərə çatmışdır. Ölkəyə gələn xarici tələbələr əsasən aşağıdakı ölkələrdən olmuşlar: Türkiyə - 36530, Çin - 34643, Rusiya - 14909, Hindistan - 13740, İtaliya – 13256, Avstriya – 12180, Ukrayna – 9613, Polşa – 8947, Fransa – 8453, Yunanıstan – 7540. Çindən və Hindistandan ölkəyə gələnlərin sayı artmaqdadır. Belə ki, onların gələcəkdə mühəndislik və informasiya texnologiyaları üzrə alman diplomuna malik olmaları məzunlara iş tapmaq zəmanəti verir. Avropada beynəlxalq tələbələrin cəlbediciliyi baxımından cari ildə Almaniya Böyük Britaniyanı geridə qoymuşdur. Mütəxəssislərin fikrincə, ABŞ və Böyük Britaniyadakı son inkişaflardan sonra hər iki ölkənin universitetləri öz cazibədarlığının bir hissəsini itirəcəkdir. Almaniyada mütəxəssis çatışmazlığı kontekstində bu Almaniya üçün yeni perspektivlər açır. Ölkədə həmçinin iş qüvvəsinin davamlı olaraq beynəlmiləlləşməsi baş verir. "Audi" şirkətinin Almaniyadakı zavodlarında hazırda 100 ölkədən işçi çalışır və onların sayı artmaqdadır. Eyni zamanda, "BMW" süni intellekt, böyük məlumatlar və "avtonom" sürücülük üzrə əcnəbi mütəxəssisləri işə götürmək niyyətindədir.

İqlim siyasəti. İqlim dəyişikliyi Almaniya üçün təhdidə çevrilmişdir. Belə ki, ölkədə isti (30º C və daha yuxarı) günlərin sayı 1970-ci ildən etibarən artmışdır. İstilik dalğaları və güclü yağış kimi kəskin hava şəraitləri ölkədə iqlim dəyişikliyinin ən aşkar təsirləridir. İstilik dalğaları və uzunsürən quru dövrlər suyun idarə edilməsinə və meşəçiliyə mənfi təsir edir. Bəzi regionlarda kənd təsərrüfatı irriqasiyasının müvəqqəti məhdudlaşdırılmasına səbəb olur və meşə yanğınları riski artır. Bununla yanaşı, leysan və daşqınların sayının artacağı gözlənilir və onlar kənd təsərrüfatına və infrastruktura ziyan vuracaqdır. Digər gözlənilən iqlim dəyişikliyinin nəticələrinə kənd təsərrüfatı torpaqlarında yeraltı suların təchizatında azalma və vəhşi bitki müxtəlifliklərindəki fenoloji dəyişikliklər daxildir. Mövsümi iqlimin dəyişilmiş ardıcıllığı il ərzində ölkədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə mənfi təsir edir. Gələcəkdə artan istilik nəticəsində ölkədə ildə 5000-8000 əlavə ölüm hallarının olacağı təxmin edilir. Bərk hissəciklər və ozon ölkədə təxminən ildə 35000 insanın ölümünə səbəb olur. Tarixi emissiyaları ilə Almaniya hərarətin qlobal artmasının 3-4%-inə məsuliyyət daşıyır. Öncəki illərdə Almaniya təxminən 902 milyon ton "karbon dioksid" ekvivalenti emissiya etmiş və bunun 80%-i enerji, sənaye və nəqliyyat sektorlarından olmuşdur. Enerji sektoru 40% emissiya ilə ən böyük paya malikdir. Buna baxmayaraq, 1990-2015-ci illər ərzində Almaniya istixana qaz emissiyalarını təxminən 27,2% azalda bilmişdir. Ölkə 2020-ci ilədək istixana qaz emissiyalarını ən azı 40% azaltmaq niyyətindədir. Bu xüsusda Almaniyanın iqlim siyasəti, xüsusən aşağıdakı sektorlar üzrə istixana qaz emissiyalarını və iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmaq məqsədi daşıyır: Enerji; Özəl təsərrüfatlar; Ticarət və xidmətlər;

Tullantıların idarə olunması; Kənd təsərrüfatı və torpaqdan istifadə; Meşəçilik. Ölkədə 2050-ci ilədək iqlim fəaliyyəti planı [19] qəbul olunmuşdur. Həmin planın əsas məqsədi 1990-cı il ilə müqayisədə 2050-ci ilədək istixana qaz emissiyalarının 80-95% azaldılmasından ibarətdir. Həmçinin 2030-cu ilədək İnteqrə olunmuş Ətraf Mühit Proqramı [20] sosial və ekoloji bazar iqtisadiyyatına keçid üçün bələdçilik təmin edir. Emissiyaların azaldılması üçün ölkədə əsas alət və Almaniya iqtisadiyyatının aparıcı qüvvəsi olan bərpa olunan enerjilər (xüsusən külək) elektrik enerjisi isthesalının ən böyük fərdi mənbəyi olmuş və təqribən 30,1%-ə çatmışdır. Bərpa olunan enerji mənbələri 167,5 milyon tondan artıq "karbon dioksid" ekvivalentinin azalmasına töhfə vermişdir. Bu xüsusda əsas məqsəd 2050-ci ilədək yekun enerji istehlakında bərpa olunan enerjinin payını 60%-a yüksəltməkdən ibarətdir. Almaniya hazırda ilkin enerji istehlakının təxminən 65%-i üçün enerji idxalından asılıdır. Buna baxmayaraq, ölkədə idxal olunmuş qalıq yanacaq məsrəfləri getdikcə azalmaqdadır. Belə ki, yerli bərpa olunan enerji potensialının genişləndirilməsi və enerji səmərəliliyi nəticəsində enerji resurslarının idxalından asılılıq getdikcə azalmış və bu isə öz növbəsində enerji təhlükəsizliyinə töhfə vermişdir. Almaniya iqlim cəhətdən zərərsiz olan tullantıların idarə edilməsində qlobal liderdir. Bu sektor 1990-cı il ilə müqayisədə ən yüksək (66%) emissiya azaldılmasına nail olmuşdur. Bununla yanaşı, enerji məhsuldarlığının 2050-ci ilədək illik 2,1% artırılması hədəf olaraq müəyyənləşdirilmişdir. Əvvəlki illərdə bərpa olunan enerjilərin genişləndirilməsinə təxminən 12,7 milyard avro vəsait investisiya olunmuşdur. Almaniya ətraf mühit texnologiyasının, demək olar ki, bütün seqmentləri üzrə qlobal liderdir. Hazırda təxminən 2 milyon insan ətraf mühitin mühafizəsi və 1,5 milyon insan ətraf mühit texnologiyaları sektorlarında çalışır. Ətraf mühit texnologiyalarının 2030-cu ilədək Almaniyada təqribən 1 trilyon avro məbləğində dövriyyə yaratması təxmin edilir.

İnnovasiya. Almaniya güclü və qlobal səviyyədə tanınan biznes məkanıdır. Bu xüsusda dünya rəqabətinin ön xəttində qalmaq üçün iqtisadi artım və tərəqqinin aparıcı qüvvələri olan tədqiqat və innovasiya ölkədə təşviq edilir. Dövlətin məqsədi sənaye ilə elm arasında əməkdaşlığın gücləndirilməsindən ibarətdir. Bu əməkdaşlığa yeni təkanın verilməsi üçün ölkə yüksək texnologiyalar strategiyasını [21] uğurla həyata keçirir. Strategiyanın əsas məqsədi Almaniyanın dünyada innovasiya lideri edilməsindən və yaxşı ideyaların sürətlə innovativ məhsul və xidmətlərə çevrilməsindən ibarətdir. İnnovativ həllər ölkənin iqtisadi inkişafını təşviq edir, həyat keyfiyyətini yüksəldir və aparıcı sənaye və ixrac dövləti kimi Almaniyanın mövqeyini möhkəmləndirir. Eyni zamanda, innovativ həllər hazırkı dövrün mühüm çağırışlarına (davamlı şəhər inkişafı, ətraf mühit cəhətdən təmiz enerji, rəqəmsal cəmiyyət, fərdiləşdirilmiş tibb və s.) "kreativ" cavabların tapılmasına imkan verir. Təsadüfi deyil ki, Almaniya, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qlobal İnnovasiya İn-

deksi hesabatında [22] innovasiya üzrə ilk pillələrdə yer almışdır. Hazırda yüksək texnologiyalar strategiyası hərtərəfli innovasiya strategiyası qismində daha da təkmilləşdirilir. Bu müstəvidə strategiyaya zəruri məsələlər əlavə olunur və innovasiyanın maliyyələşdirilməsi üçün yeni alətlər təqdim edilir. Bu kontekstdə yalnız texnoloji innovasiyaya deyil, həmçinin sosial innovasiyaya xüsusi diqqət yetirilir. Almaniyanın innovativ gücü aşağıdakı 5 sütun üzərində qurulmuşdur:

- Çiçəklənmə və həyat keyfiyyəti xüsusunda gələcək təhdidlərin prioritetləşdirilməsi. Bu xüsusda əsas prioritet vəzifələrə rəqəmsal iqtisadiyyat və cəmiyyət, davamlı iqtisadiyyat və enerji, innovativ iş yerləri, mülki təhlükəsizlik və "ağıllı" mobillik daxildir.
- Resursların konsolidasiyası və biliyin ötürülməsinin təşviqi. Əsas məqsəd şirkətlər, universitetlər və tədqiqat institutları arasında əməkdaşlığın gücləndirilməsindən, onların beynəlxalq tərəfdaşlarla bir araya gətirilməsindən və razılaşmaların davamlı olaraq genişləndirilməsindən ibarətdir.
- Sənayedə innovasiyanın dinamikliyinin gücləndirilməsi. Bu müstəvidə beynəlxalq bazarlarda rəqabət qabiliyyətli sənayenin təşviq edilməsi, "start-up"ların sayının artırılması və onların qlobal artım mərkəzləri ilə əlaqələndirilməsi, eləcə də ölkənin struktur cəhətdən zəif regionlarında innovasiya üçün yeni potensialın inkişaf etdirilməsi prioritet istiqamətlərdir.
- İnnovasiya üçün əlverişli şəraitlərin yaradılması. İnnovasiyanın gücünün və tempinin intensivləşdirilməsi üçün əlverişli şəraitin formalaşdırılması, lazımi sayda ixtisaslı kadrların təmin olunması, texniki tənzimləmələrin və standartların ahəngləşdirilməsi, innovativ dövlət satınalmaları vasitəsilə sənayedə innovasiya üçün yeni stimulların yaradılması, "vençur" kapitalı sərmayələri üçün Almaniyanın beynəlxalq səviyyədə cəlbedici edilməsi əsas hədəflərdir.
- Dialoq və iştirakın gücləndirilməsi. Bu kontekstdə elm kommunikasiyası genişləndirilir və təkmilləşdirilir, ictimai və texnoloji innovasiyalara və dəyişikliklərə bütün insanların açıqlığı gücləndirilir, innovasiya siyasəti proseslərinin istiqamətləndirilməsinə yardım etmək üçün maraqlı şəxslər üçün imkan və seçimlər artırılır, yeni iştirak formatları yaradılır və tədqiqatların maliyyələşdirilməsi daha şəffaf edilir.

İnnovasiya "klaster"ları ölkədə kiçik və orta müəssisələrin innovativ potensialını artırmağa kömək edir və rəqabət üstünlüyü yaradır. Bu xüsusda "klaster" siyasəti [23] dövlətin innovasiya siyasətinin əsas alətidir. Almaniya "Go-cluster" proqramı [24] vasitəsilə ölkədəki "klaster"ları dəstəkləyir və onların beynəlxalq səviyyədə tanınmasını təşviq edir. Rəqəmsallaşdırma, istehsal, rabitə, enerji və resurs səmərəliliyi, səhiyyə, mobillik və logistika üzrə "klaster"lərin Almaniya iqtisadiyyatı üçün böyük əhəmiyyətini nəzərə alaraq, maliyyələşdirmə tədbirləri vasitəsilə onların daha da inkişaf etdirilməsi və keyfiyyətinin təkmilləşdirilməsi dəstəklənir. Adıçəkilən

proqram vasitəsilə yeni "klaster" konsepsiyalarının və xidmətlərinin həyata keçirilməsi təşviq olunur. Almaniyada çoxlu yüksək fəaliyyətli və beynəlxalq səviyyədə tanınan "klaster"lər mövcuddur. "Go-cluster" proqramı Almaniya boyu mükəmməl innovasiya "klaster"larını bir araya gətirir. Həmin proqramın Almaniyanın bütün regionlarından əhatə etdiyi 92 innovasiya "klaster"i - 15000-dən çox "klaster" əməliyyatları vasitəsilə Almaniya iqtisadiyyatının daha da güclənməsinə töhfə verir. İnnovasiya "klaster"lərinin mükəmməllik səviyyəsini yüksəltmək məqsədilə məqsədyönlü tədbirlərin hazırlanması üçün onların məhsuldarlığı mütəmadi olaraq təhlil olunur. Ümumiyyətlə, Almaniyadakı innovasiya "klaster"lər 13000-dən çox iştirakçını əhatə edir. Cari ilin iyun ayında Alman Aerokosmik Mərkəzi [25] 6 yeni institutun təsis olunmasını təsdiq etmişdir [26]. Federal Hökumət tərəfindən Alman Aerokosmik Mərkəzinin fəaliyyətlərinin dəstəklənməsi üçün illik əlavə olaraq 42 milyon avro ayrılacaqdır. Yeni Mərkəzlər sayəsində aviasiya tədqiqatının rəqəmsallaşdırılması, davamlı enerjiyə keçid, mühüm dəniz infrastrukturlarının mühafizəsi üçün həllər, kosmik uçuşlarda böyük və intellektual məlumatların idarə olunması məsələləri təşviq ediləcəkdir. 2017-ci ilin iyul ayında Almaniya Hökuməti tərəfindən Hamburq şəhərində Alman Dəniz Mərkəzinin təsis edilməsi barədə qərar qəbul olunmuşdur [27]. Mərkəzin yaradılmasında məqsəd, əlverişli coğrafi məkan qismində Almaniyanın rəqabət qabiliyyətliliyinin və innovasiya potensialının artırılmasından, "nou-hau"nun və dəniz sənayesində peşəkar perspektivlərin gücləndirilməsindən ibarətdir. 2019-cu ilədək Federal Hökumət tərəfindən Mərkəzin yaradılmasına 9 milyon avro məbləğində vəsait ayrılacaqdır. 2017-ci ilin may ayında Almaniyanın Təhsil və Tədqiqat Federal Nazirliyi tərəfindən Berlin şəhərində İnternet İnstitutunun təsis olunması üçün müsabiqənin qalibləri elan edilmişdir [28]. Sözügedən İnstitut Almaniyadakı 5 universitetin (Freie Universität Berlin, Humboldt-Universität zu Berlin, Technische Universität Berlin, Universität der Künste Berlin, Universität Potsdam) və 2 tədqiqat qurumunun (Fraunhofer-FOKUS, Berlin Sosial Elm Mərkəzi) konsorsiumu tərəfindən yaradılacaqdır. İnternet İnstitutu rəqəmsallaşdırmanın ölkədəki insanlara təsirini müstəqil şəkildə araşdıracaq və müvafiq fəaliyyət üçün gələcək seçimləri müəyyənləşdirəcəkdir. Bu xüsusda tədqiqatın və biliyin ötürülməsinin innovativ formaları inkişaf etdiriləcək və istifadə olunacaqdır. Eyni zamanda milli və beynəlxalq tədqiqatlar stimullaşdırılacaq, gənc alimlərin fəaliyyəti təşviq olunacaq, eləcə də əməli tətbiq modelləri vasitəsilə cəmiyyət, institutlar, şirkətlər və siyasətlər dəstəklənəcəkdir. İnstitut cari ildə öz fəaliyyətinə başlayacaq və keyfiyyətin təmin olunması üçün onun fəaliyyəti müntəzəm şəkildə qiymətləndiriləcəkdir. Həmin İnstitut internetin və rəqəmsallaşdırmanın etik, hüquqi, iqtisadi və sosial aspektlərini tədqiq edəcəkdir. İlk 5 il ərzində Almaniyanın Təhsil və Tədqiqat Federal Nazirliyi tərəfindən İnstituta təxminən 50 milyon avro məbləğində maliyyələşmənin təmin

olunması nəzərdə tutulur. İnstitut Almaniya hökumətinin 2014-2017-ci illər üzrə rəqəmsal gündəliyinə uyğun olaraq yaradılmışdır [29;30]. İnstitutun əsas məqsədi rəqəmsallaşdırma prosesinin daha yaxşı anlaşılmasından və ondan cəmiyyətin faydası üçün istifadə olunmasından ibarətdir.

Davamlı enerji. Almaniyada bərpa olunan enerjinin ümumi elektrik enerjisinin istehsalında payı təxminən 32,6%-dir. Almaniya 2022-ci ilədək nüvə enerjisinin isthesalını tamamilə dayandırmaq niyyətindədir. Bərpa olunan enerjinin irəlilədilməsində və "ağıllı" elektrik təchizatı şəbəkələrinin quraşdırılmasında Federal Hökumət tərəfindən qəbul olunmuş Enerji Keçidinin Rəqəmsallaşdırılması Aktı, Bərpaolunan Enerji Aktı və Elektrik Enerjisi Bazarı Aktı mühüm əhəmiyyət kəsb edir. İqlim cəhətdən təmiz enerjiyə keçid üçün 2017-ci ildə Almaniya hökuməti tərəfindən 4 milyard avro məbləğində vəsait ayrılmışdır. Almaniyada bərpa olunan enerji sektorunda təxminən 355000 insan çalışır (külək (əsasən ölkənin şimalında) - 142900, fotovoltaik (əsasən ölkənin cənubunda) - 31600, biokütlə - 45000, bioyanacaqlar - 22800, geotermal - 17300, su - 6700, günəş termal - 10600, tədqiqat və inzibatçılıq - 77000). Bərpa olunan enerji mənbələrinə sərmayələr: "onshore" külək – 5,2 milyard avro (34,8%), "offshore" külək – 4,5 milyard avro (29,8%), fotovoltaik stansiyalar – 1,6 milyard avro (10,8%), geotermal enerji - 1 milyard avro (6,5%), günəş termal enerjisi – 0,8 milyard avro (5,4%), digər – 1,9 milyard avro (12,7%). 2015-ci ildə külək enerjisinə 9,7 milyard avro məbləğində sərmayə yatırılmış və bazarın ən böyük payını (12,3%) külək enerjisi təmin edir. Almaniyanın 2015-ci ildə enerji qarışığı (mix): bərpa olunan enerji 29%, qonur kömür – 24%, daş kömür – 18,3%, nüvə - 14,2%, təbii qaz – 9,4%, mineral yağlar (neft) – 0,9%, digər – 4,2%. Bərpa olunan enerji mənbələrindən istifadə nəticəsində istixana qaz emissiyaları təxminən 156 milyon ton azaldılmışdır. Almaniya 2008-ci il ilə müqayisədə 2020-ci ilədək ilkin (primary) enerji mənbələrinin ümumi istehlakını 20% azaltmaq niyyətindədir. Yüksək enerji təhlükəsizliyi səviyyəsini saxlayan Almaniya 2030-cu ilədək enerji təchizatının yarısını və 2050-ci ilədək elektrik enerjisi istehlakının 80%-ni bərpa olunan enerji mənbələri hesabına ödəməyi planlaşdırır. Almaniya 2050-ci ilədək tikinti sektorunu iqlim-neytral etmək niyyətindədir. Almaniyada 4 özəlləşdirilmiş elektrik enerjisinin ötürücüsü sistemi operatoru fəaliyyət göstərir: "Amprion", "TransnetBW", "50Hertz", "TenneT". Növbəti 10 il ərzində "TenneT" elektrik təchizatı şəbəkəsinin daha da genişləndirilməsinə 22 milyard avro məbləğində vəsait sərmayə yatırmağı planlaşdırır. Alman Enerji Həlləri Təşəbbüsünün [31] əsas məqsədi bərpa olunan enerjinin və enerji səmərəliliyinin təşviqi, davamlı enerji həllərinin nümayiş olunması (showcase), müvafiq layihələrin implementasiyası, "know-how"nun ötürülməsi, beynəlxalq iqlimin qorunmasına töhfə verilməsindən ibarətdir. Bu xüsusda əsas alətlərə xaricdəki ticarət sərgiləri, "networking" imkanları, məlumat mübadiləsi, poten-

sialın yaradılması, ticarət və fa kt-araşdırıcı missiyalar, texnoloji və ekoloji əmək-daşlıq, layihələrin işlənib hazırlanması daxildir. Enerji mənbələrinin rəqəmsallaş-dırılması məqsədilə Almaniyanın İqtisadiyyat və Energetika Federal Nazirliyi tərə-findən 2015-ci ildə "Ağıllı enerji nümayişləri - enerji keçidi üçün rəqəmsal gündə-lik" (SINTEG) adlı maliyyələşdirmə proqramına başlanılmış və bu müstəvidə təxminən 600 milyon avro məbləğində investisiyanın yatırılması nəzərdə tutulmuş-dur. Bərpa olunan Enerji Akademiyası bərpa olunan enerji və enerji səmərəliliyi ilə bağlı təlim, potensialın artırılması və bazarın inkişafına dəstək üzrə ixtisaslaşır. Bu müstəvidə 130 ölkədə müvafiq layihələr həyata keçirilmişdir. 2017-ci ilin iyun ayın-da Almaniyanın İqtisadiyyat və Energetika Federal Nazirliyi tərəfindən enerji səmə-rəliliyi üzrə hesabat dərc olunmuşdur [32]. Sözügedən sənəd əsas fəaliyyət sahələrini tədqiq edir və enerji istehlakının uzunmüddətli dövrdə azaldılması üçün təhdidləri özündə ehtiva edir. Bu xüsusda hesabatda aşağıdakı məsələlər öz əksini tapmışdır:

- "İlk öncə səmərəlilik";
- "İlk öncə səmərəlilik" prinsipi enerjiyə keçid məsrəflərinin optimallaşdırılmasına gə-tirib çıxarır və bərpa olunan enerji mənbələrinin "dekarbonizasiya" effektini gücləndirir;
- "İlk öncə səmərəlilik" bələdçi prinsipi Almaniyanın enerji sistemi üçün strateji planlaşdırma alətinə çevrilir;
- Enerji səmərəliliyi üçün vahid hüquqi çərçivənin yaradılması "İlk öncə səmərə-lilik" prinsipinin qanunvericilikdə təsbit edilməsini mümkün edir;
- Alətlər dəstinin daha da inkişaf etdirilməsi;
- Enerji səmərəliliyi siyasətinin hazırkı alətləri enerji səmərəliliyinin artmasını mümkün etmişdir. Lakin uzunmüddətli məqsədlərə nail olmaq üçün onlar daha da inkişaf etdirilməli və tamamlanmalıdır;
- Bazar həlləri və yeni xidmətlər enerji səmərəliliyindəki artımı sürətləndirəcək və enerjiyə keçidin (transition) implementasiyasına mühüm töhfə verəcəkdir;
- Avropa səviyyəsində enerji səmərəliliyi siyasəti;
- Avropa səviyyəsində effektiv enerjiyə qənaət siyasəti aydın hədəflərin mövcud olması ilə daha mükəmməl olur;
- Müvafiq Avropa İttifaqı alətlərindən daha çox istifadə milli enerji səmərəliliyi alətlərini dəstəkləyir və gücləndirir;
- Özəl təsərrüfatların, ticarətin, sənayenin və nəqliyyatın "dekarbonizasiya"sı "karbon dioksid"siz və bərpa olunan enerji mənbələrindən əldə olunan elektrik enerjisindən istifadəni tələb edir;
- Sektor birləşdirilməsi çərçivəsində elektrik enerjisini qızdırma, soyutma yaxud təkana (propulsion) səmərəli şəkildə konvertasiya edəcək və bununla da bərpa olu-nan elektrik enerjisindən cüzi istifadə etməklə mümkün qədər çox qalıq yanacağı əvəzləyəcək texnologiyalardan istifadə olunacaqdır;

- Sektor bərpa olunan enerji mənbələrindən əldə olunan elektrik enerjisinin təchizatındakı dəyişkənliyi kompensasiya etmək üçün tələb-tərəfi (demand-side) üzrə məsrəf-səmərəli çeviklik (flexibility) təklif edir;
- Hər bir sektor "dekarbonizasiya" məsrəflərinə müvafiq töhfə verir;
- Rəqəmsallaşdırma;
- Rəqəmsallaşdırma dəyər əlavə olunmuş və səmərəlilik xidmətləri üçün yeni imkanlar açır;
- Rəqəmsallaşdırma və bərpa olunan enerji mənbələrindən istifadə enerji istehsalının məsrəf strukturunu dəyişdirir və bu xüsusda uzunmüddətli səmərəlilik strategiyası bunu nəzərə almalıdır;
- Rəqəmsallaşdırma "desentralizasiya" olunmuş və dəyişkən enerji istehsalı ilə enerjiyə tələbatın balanslaşdırılmasına töhfə verir.

Almaniyada enerji səmərəliliyi üzrə milli fəaliyyəti planı 2014-cü ildən etibarən mövcuddur və özündə aşağıdakı təməl sütunları ehtiva edir [33]:
- İnşaat sektorunda enerji səmərəliliyinin yüksəldilməsi;
- Enerji səmərəliliyinin sərmayə və biznes modeli qismində təşviq olunması;
- Enerji səmərəliliyi üçün fərdi məsuliyyətin artırılması.

Nəticə. Təhillərdən göründüyü kimi, Almaniya qlobal səviyyədə güclü iqtisadiyyata malikdir. Davamlı inkişafın təşviqi Almaniyanın fundamental məqsədi və hökumət fəaliyyətinin ölçü xətkeşidir. Rəqəmsal ölkə qismində inkişaf etmək Almaniya üçün prioritetdir. Almaniya iqtisadiyyatı yüksək texnologiyalı məhsulların ixracından asılıdır. Bu xüsusda alman sənayesinin rəqabət qabiliyyətliliyinin saxlanılması üçün istehsal proseslərinin mümkün qədər səmərəli olması mühümdür. Bu isə özündə tamamilə yeni istehsal metodlarını ehtiva edən innovativ informasiya texnologiyaları sistemlərindən istifadəni zəruri edir. Rəqəmsal texnologiyalar bir çox sahələrdə işləri asanlaşdırır və iş proseslərini sürətləndirir. Rəqəmsallaşdırma alman şirkətləri üçün böyük potensial və işlərin aparılması üçün yeni imkanlar yaradır.

Turizmin Almaniya üçün beynəlxalq səviyyədə əhəmiyyəti böyükdür. Son illər ərzində turizm Almaniya boyu müsbət inkişaf etmişdir. Burada əsas bələdçi prinsiplər kimi dəyərin yaradılmasında hər kəsin iştirakı, eləcə də turizm sənayesi üçün əlverişli hüquqi və iqtisadi şəraitlər çıxış edir.

Peşəkar və innovativ kənd təsərrüfatı kənd yerlərində inkişafın aparıcı qüvvəsidir. Bu xüsusda kənd təsərrüfatının modernləşdirilməsi və professionallaşdırılması üçün təhsilin, tədqiqatın, müvafiq texnologiyaların təkmilləşdirilməsi və aidiyyəti institutlarda islahatların intensivləşdirilməsi Almaniya üçün xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat

[1]https://www.bundesregierung.de/Content/DE/_Anlagen/2017/02/2017-02-27-nachhaltigkeit-neu auflage-engl.pdf?__blob=publicationFile&v=1

[2] http://www.bmel.de/SharedDocs/ Downloads/EN/Publications/15Jahre_ BTF_EN.pdf; jsessionid=8B7EFFE82077A9DABE80E0AF10D824A5.2 _cid376?__blob=publicationFile
[3]http://www.bmel.de/SharedDocs/Downloads/EN/Publications/OrganicFarmingLookingForwards.pdf? _blob=publicationFile
[4]http://www.bmel.de/SharedDocs/Downloads/EN/Publications/NatPolicyStrategyBioeconomy.pdf?__blob=publicationFile
[5]http://www.bmel.de/SharedDocs/Downloads/EN/Publications/FachprogrammPflanzenRessourcen.pdf?__blob=publicationFile
[6]http://www.bmel.de/EN/Agriculture/Support-AgriculturalSocialPolicy/_Texte/GAK.html
[7] http://www.agribenchmark.org/fileadmin/Dateiablage/B-Horticulture/CountryInformation_WineGrapes/Wine_production_in_Germany.pdf
[8]https://www.importpromotiondesk.de/fileadmin/user_upload/Publikationen/factsheet/zutaten/walnuts-in-germany.pdf
[9]https://www.importpromotiondesk.de/fileadmin/user_upload/Publikationen/factsheet/zutaten/almonds-in-germany.pdf
[10] https://www.waren-verein.de/
[11]http://www.ey.com/Publication/vwLUAssets/EY-Start-up-Barometer-August-2016/$FILE/EY-Start-up-Barometer-August-2016.pdf
[12] http://www.de.digital/DIGITAL/Navigation/EN/Home/home.html
[13] https://www.bmwi.de/Redaktion/DE/Publikationen/Digitale-Welt/digitale-strategie-2025.pdf?__blob=publicationFile&v=16
[14] https://www.bmbf.de/pub/Internationalization_Strategy.pdf
[15]http://www.wipo.int/export/sites/www/ipstats/en/docs/infographics_systems_2016.pdf
[16] http://www3 .weforum.org/docs/WEF_TTCR_2017_web_0401.pdf
[17] www.berlin-health-excellence.de
[18] http://www.germany.travel/ru/germany/about-us/the-gntb/the-gntb.html
[19]http://www.bmub.bund.de/fileadmin/Daten_BMU/Download_PDF/Klimaschutz/klimaschutzplan_2050_kurzf_en_bf.pdf
[20]http://www.bmub.bund.de/fileadmin/Daten_BMU/Pools/Broschueren/integrated_environmental_programme_2030_bf.pdf
[21] https://www.bmbf.de/pub/HTS_Broschuere_eng.pdf
[22] http://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2016.pdf
[23] https://www.bmbf.de/pub/Deutschlands_Spitzencluster.pdf
[24] http://www.clusterplattform.de/CLUSTER/Navigation/EN/Home/home.html
[25] www.dlr.de

[26] http://www.bmwi.de/Redaktion/DE/Pressemitteilungen/2017/20170629-zypries-begruesst-gruendung-von-neuen-dlr-instituten.html
[27] http://www.bmvi.de/SharedDocs/DE/Pressemitteilungen/2017/101-ferlemann-gruendung-des-dmz.html
[28] https://www.bmbf.de/de/das-deutsche-internet-institut-entsteht-in-berlin-4227.html
[29] https://www.bmbf.de/de/aufbau-eines-deutschen-internet-institut-2934.html
[30] https://www.digitale-agenda.de/Content/DE/_Anlagen/2014/08/2014-08-20-digitale-agenda-engl.pdf?__blob=publicationFile&v=6
[31] http://www.german-energy-solutions.de/GES/Navigation/DE/Home/home.html
[32] http://www.bmwi.de/Redaktion/EN/Publikationen/greenpaper-on-energy-efficiency.pdf?__blob=publicationFile&v=4
[33] https://www.bmwi.de/Redaktion/EN/Publikationen/nape-national-action-plan-on-energy-efficiency.pdf?__blob=publicationFile&v=1

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 165 - 176
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 165 - 176

AZƏRBAYCAN İQTİSA DİYYATININ SEKTORAL MÜQAYİSƏLİ ÜSTÜNLÜKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

V.Bayramov
i.ü.f.d., UNEC
Email: vugarbayramov@cesd.az, Tel: (012) 5970691
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalədə Azərbaycan iqtisadiyyatın sektoral müqayisəli üstünlüklərinin eknometrik modelləşdirilməsi həyata keçirilmişdir. Post-neft dövründə iqtisadi diversifikasiya ilə bağlı aparılan islahatlar eyni zamanda müqayisəli üstünlüyə malik sektorların müəyyənləşdirilməsini tələb edir. İdxalın məhdudlaşdırılması və eləcə də əvəzlənməsi əsas hədəflərdən olmaqla yanaşı, ixracatın, xüsusən də qeyri-neft ixracatının artırılması əsas prioritetdir. Bu kontekstdən qeyri-neft sektorunda ixrac potensialı olan və rəqabət qabiliyyəti yüksək olan sektorların müəyyənləşdirilməsi və buna uyğun olaraq da onların dəstəklənməsi aktualdır. Məqalədə müəllif əsas aparıcı sektorların ayrı-ayrılıqda qiymətləndirilməsini aparmaqla yanaşı, konkret təkliflər ilə də çıxış etmişdir.

Açar sözlər: diversifikasiya, qeyri-neft sektoru, rəqabət, ixrac, idxal.
JEL Classification Codes: E02, C01, O12, O14

ASSESSMENT OF SECTORIAL COMPARATIVE ADVANTAGES OF AZERBAIJAN ECONOMY

Abstract

The article applies an econometric model to evaluate sectorial comparative economic advantages in Azerbaijan. Assessment of sectorial comparative advantages is very important in context of carrying out post-oil reforms in Azerbaijan. Minimizing of import is one of main targets in the post-oil period, however, boosting of non-oil export is more proritet. From this perspective, determination of export capacity and comparativeness of non-oil export is very curcial and more support from the state is needed in this context. The article listes out specific recommendations to assess comparative advantages in the Azerbaijani economy.

Key words: diversification, non-oil sector, competition, export, import

ОЦЕНКА ОТРАСЛЕВЫХ СРАВНИТЕЛЬНЫХ ПРЕИМУЩЕСТВ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

Резюме

В статье применяется эконометрическая модель для оценки отраслевых сравнительных экономических преимуществ в Азербайджане. Оценка отраслевых сравнительных преимуществ очень важна в контексте проведения постнефтяных реформ в Азербайджане. Сведение к минимуму импорта является одной из основных целей в постнефтяной период, однако усиление не нефтяного экспорта более предсказуемо. С этой точки зрения определение экспортной способности и сравнимости ненефтяного экспорта является очень важным, и в этом контексте требуется большая поддержка со стороны государства. В статье перечислены конкретные рекомендации по оценке сравнительных преимуществ в экономике Азербайджана.

Ключевые слова: диверсификация, ненефтяной сектор, конкуренция, экспорт, импорт.

Post-neft dövrünün çağırışlarına uyğun olaraq, Azərbaycanda iqtisadiyyatın müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi və eləcə də ixrac potensialı yüksək olan sektorlara xüsusi dəstəyin nümayiş etdirilməsi əsas iqtisadi prioritetlərdən hesab edilir. Bu kontekstdən Azərbaycan iqtisadiyyatının diversifikasiyası ilə bağlı aparılan islahatlar eyni zamanda sektorların ayrı-ayrılıqda müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsini vacib etmişdir.

Müqayisəli üstünlüklər ilə bağlı ilk əsaslandırmalar 1817-ci ildə David Rikardo tərəfindən həyata keçirilmişdir. Rikardo İngiltərə və Portuqaliyanı müqayisə edərək müqayisəli üstünlüklərin əsaslandırılmasını vermişdir [1, səh. 3-15].

İqtisadçı Stephen Golub Böyük Yeddilik ölkələrində müqayisəli üstünlükləri qiymətləndirən zaman mübadilə məzənnələrinə və eləcə də ticarət balanslarına daha çox diqqət ayırmağı önə çəkir. Onun fikrincə, bir sıra hallarda dövlətlər məzənnə siyasəti ilə sektoral müqayisəli üstünlüklərə nail olmağa çalışırlar [2, səh. 5-12].

Pekin Universitetinin professoru Larru Qiu inkişaf etməkdə olan dövlətlərdə müqayisəli üstünlükləri müəyyənləşdirməyə çalışıb. O, öz tədqiqatında bazarlara çıxış imkanlarının vacibliyini xüsusi ilə vurğulayır [4, səh. 14-22].

Struktur dəyişikliklərini önə çəkən Michael Sposi iqtisadiyyatın fərqli sektorları arasındakı əlaqəyə xüsusı diqqət ayıraraq, müqayisəli üstünlükləri müəyyənləşdirməyə çalışıb [5, səh. 36-45].

Müqayisəli üstünlükləri qiymətləndirən Andrei A. Levchenko və Jing Zhang həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin təcrübələrinə diqqət ayırıblar.

Onların gəldiyi qənaətə görə, belə üstünlüklərin ölçülməsi olduqca vacibdir. Adıçəkilən iqtisadçılar həmçinin müqayisəli üstünlüklərin yalnız dövlət üçün deyil, həmçinin sektorlar üzrə implikasiyalarına baxılmasını təklif edirlər [6, səh. 23-3].

Haichao Fan, Edwin Lai və Steffan Qi müqayisəli üstünlüklərin müəyyənləşdirilməsinə makro deyil, mikrosəviyyədə baxılmasını təklif edir. Sözügedən iqtisadçılar əvvəlki modelləri tədqiq edərək, bu qənaətə gəlirlər [3, səh. 17-25].

Göründüyü kimi, müqayisəli üstünlüklərin əhəmiyyəti əksər iqtisadçılar tərəfindən qeyd edilsə də, yanaşmalar fərqlidir.

Müqayisəli üstünlüklər və eləcə də diversifikasiyaya fərqli yanaşmalar mövcuddur. Diversifikasiya idarəetmənin texniki tərəfi olmaqla gözlənilən və gözlənilməyən risklərin minimum həddə edilməsi və prosesin idarəolunan olmasının əsas alətlərindən biridir. Günümüzdə iqtisadi diversifikasiya hər bir iqtisadi subyektin, o cümlədən hər bir ölkəninin nail olmağa cəhd etdiyi prioritetlər sırasındadır. Bəzi hallarda qısamüddətli dövr üçün diversifikasiya səmərəsiz görünsə belə, orta və uzunmüddətli dövr üçün risklərin paylanması və ani kataklizmlərin olmasının əngəllənməsi baxımından əhəmiyyətli hesab edilir. Xüsusi ilə də zəngin resurslara malik və buna görə də, qısa müddət ərzində böyük gəlirlərin əldə olunduğu iqtisadiyatlarda qərarvericilər mövcud inkişaf fonunda daha ləng davranırlar ki, nəticədə ölkə sürətlə kənar dəyişikliklərdən asılı vəziyyətə düşür. Təsadüfi deyil ki, güclü, dayanıqlı və böyüyən iqtisadiyat dünya xalqlarının əsas hədəfləri sırasındadır [7, səh. 21-33]. Başqa sözlə, iqtisadiyatın şaxələndirilməsi davamlı inkişafın yeganə yoludur.

Makrosəviyyədə ölkələr üçün iqtisadi diversifikasiya ümumi daxili məhsul, məşğulluq və ixrac prizmasından dəyərləndirilir. İqtisadi diversifikasiya səviyyəsinin ölçülməsi hər üç istiqamətdə şaxələndirmənin real vəziyyətindən asılıdır. İqtisadiyyatının dayanıqlığı isə onun şaxələndirilmə səviyyəsinin dərinliyindən mütləq asılılığa malikdir.

Sənaye sektorunda iqtisadi siyasət

Sənaye sektorunda iqtisadi siyasətin qiymətləndirilməsi məqsədi ilə VAR modelinin aşağıdakı şəkildə tərtib edilmiş tənliyindən istifadə edilib:

VAR Modeli

==========

Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)*X6(-1) + C(1,14)*X6(-2) + C(1,15)

Modelləşdirmə zamanı dəyişənlər aşağıdakı şəkildə işarələnib:

ÜDM, Mln. AZN	Uçot dərəcəsi, %	M0 pul aqreqatı	M3 pul aqreqatı	Investisiya	Dövlət xərcləmələri	Vergi güzəştləri
Y	x1	x2	x3	x4	x5	x6

Vector Autoregression Estimates							
Sample (adjusted): 2003Q3 2014Q4							
Included observations: 46 after adjustments							
Standard errors in ( ) & t-statistics in [ ]							
	Y	X1	X2	X3	X4	X5	X6
Y(-1)	0.467247	-3.47E-05	2.699635	2.321057	0.118371	0.004736	-0.001025
	(0.23596)	(5.4E-05)	(1.73609)	(2.98454)	(0.12647)	(0.00230)	(0.00102)
	[1.98018]	[-0.64279]	[1.55501]	[0.77769]	[0.93594]	[2.05896]	[-1.00638]
Y(-2)	0.144570	-4.55E-05	-3.210745	-4.195923	-0.119676	0.000162	0.000126
	(0.21089)	(4.8E-05)	(1.55162)	(2.66743)	(0.11303)	(0.00206)	(0.00091)
	[0.68552]	[-0.94182]	[-2.06928]	[-1.57302]	[-1.05876]	[0.07867]	[0.13843]
X1(-1)	691.2339	1.271045	15063.64	27387.19	729.2478	-17.28113	-1.069167
	(683.721)	(0.15661)	(5030.46)	(8647.97)	(366.465)	(6.66458)	(2.95019)
	[1.01099]	[8.11625]	[2.99449]	[3.16689]	[1.98995]	[-2.59298]	[-0.36241]
X1(-2)	-375.1521	-0.571840	-7737.898	-12195.36	-523.1408	-6.266583	2.471803
	(887.323)	(0.20324)	(6528.46)	(11223.2)	(475.592)	(8.64919)	(3.82871)
	[-0.42279]	[-2.81362]	[-1.18526]	[-1.08662]	[-1.09998]	[-0.72453]	[0.64560]
X2(-1)	-0.060017	-9.44E-06	1.392751	0.193602	-0.005599	0.000945	-4.60E-05
	(0.04187)	(9.6E-06)	(0.30807)	(0.52961)	(0.02244)	(0.00041)	(0.00018)
	[-1.43335]	[-0.98433]	[4.52086]	[0.36555]	[-0.24948]	[2.31497]	[-0.25441]
X2(-2)	0.067379	1.17E-05	-0.504969	-0.325310	0.044159	-4.65E-05	0.000202
	(0.05203)	(1.2E-05)	(0.38282)	(0.65812)	(0.02789)	(0.00051)	(0.00022)
	[1.29496]	[0.98142]	[-1.31907]	[-0.49430]	[1.58342]	[-0.09159]	[0.90061]
X3(-1)	0.004568	9.32E-06	-0.599887	0.371254	-0.012132	-0.000687	2.82E-05
	(0.02709)	(6.2E-06)	(0.19930)	(0.34263)	(0.01452)	(0.00026)	(0.00012)
	[0.16864]	[1.50275]	[-3.00991]	[1.08355]	[-0.83557]	[-2.60249]	[0.24150]
X3(-2)	-0.000185	-8.87E-06	0.523219	0.480222	-0.005609	0.000173	-0.000127
	(0.03128)	(7.2E-06)	(0.23016)	(0.39568)	(0.01677)	(0.00030)	(0.00013)
	[-0.00593]	[-1.23823]	[2.27326]	[1.21367]	[-0.33452]	[0.56834]	[-0.94328]
X4(-1)	0.233368	8.33E-05	-4.085857	0.600051	0.647260	0.001581	0.001054
	(0.41876)	(9.6E-05)	(3.08100)	(5.29661)	(0.22445)	(0.00408)	(0.00181)
	[0.55729]	[0.86798]	[-1.32615]	[0.11329]	[2.88378]	[0.38730]	[0.58340]
X4(-2)	-0.309951	-8.08E-05	7.998244	5.508649	0.086970	0.005812	-0.000229
	(0.47006)	(0.00011)	(3.45846)	(5.94551)	(0.25195)	(0.00458)	(0.00203)
	[-0.65938]	[-0.75035]	[2.31266]	[0.92652]	[0.34519]	[1.26846]	[-0.11304]

X5(-1)	7.127815	0.001345	-96.16159	365.9024	-19.73611	-0.570290	0.075713
	(30.6241)	(0.00701)	(225.316)	(387.346)	(16.4141)	(0.29851)	(0.13214)
	[0.23275]	[0.19180]	[-0.42678]	[0.94464]	[-1.20239]	[-1.91046]	[0.57298]
X5(-2)	1.658872	-0.008274	563.2612	598.0756	31.83490	0.060592	-0.007595
	(29.9248)	(0.00685)	(220.171)	(378.501)	(16.0393)	(0.29169)	(0.12912)
	[0.05543]	[-1.20709]	[2.55829]	[1.58012]	[1.98481]	[0.20773]	[-0.05882]
X6(-1)	-66.94766	-0.001883	-463.5980	-401.2291	-44.20577	-0.847171	0.871171
	(46.0729)	(0.01055)	(338.980)	(582.748)	(24.6944)	(0.44910)	(0.19880)
	[-1.45308]	[-0.17842]	[-1.36762]	[-0.68851]	[-1.79011]	[-1.88639]	[4.38214]
X6(-2)	4.904042	-0.013799	403.8589	536.0953	26.29648	0.158924	-0.023938
	(45.8199)	(0.01049)	(337.119)	(579.548)	(24.5588)	(0.44663)	(0.19771)
	[0.10703]	[-1.31478]	[1.19797]	[0.92502]	[1.07076]	[0.35583]	[-0.12108]
C	112.7321	0.055850	-488.1907	-1079.898	25.23081	2.272940	0.156414
	(83.0480)	(0.01902)	(611.024)	(1050.42)	(44.5125)	(0.80951)	(0.35834)
	[1.35743]	[2.93605]	[-0.79897]	[-1.02806]	[0.56682]	[2.80779]	[0.43649]
R-squared	0.967487	0.955081	0.995999	0.996460	0.986669	0.966363	0.895236
Adj. R-squared	0.952804	0.934795	0.994192	0.994861	0.980649	0.951172	0.847923
Sum sq. resids	44036.68	0.002310	2383814.	7045062.	12650.88	4.184098	0.819891
S.E. equation	37.69003	0.008633	277.3035	476.7180	20.20131	0.367384	0.162629
F-statistic	65.89083	47.08085	551.1972	623.3133	163.8864	63.61502	18.92168
Log likelihood	-223.1463	162.4063	-314.9493	-339.8727	-194.4585	-10.13211	27.35500
Akaike AIC	10.35419	-6.408969	14.34562	15.42925	9.106892	1.092701	-0.537174
Schwarz SC	10.95048	-5.812673	14.94192	16.02554	9.703188	1.688997	0.059122
Mean dependent	430.5457	0.069674	4241.103	8621.063	201.7201	2.142080	0.217391
S.D. dependent	173.4898	0.033807	3638.624	6650.320	145.2189	1.662599	0.417029
Determinant resid covariance (dof adj.)		1.73E+08					
Determinant resid covariance		10930141					
Log likelihood		-829.6600					
Akaike information criterion		40.63739					
Schwarz criterion		44.81146					

VAR Modeli-dəyişənlər daxil edilməklə:

==========

Y = 0,467247045402*Y(-1) + 0,144569792307*Y(-2) + 691,233869815*X1(-1) – 0,0600173369428*X2(-1) + 0,00456832736281*X3(-1) + 0,233367766583*X4(-1) + 7,1278148772*X5(-1) – 66,9476647989*X6(-1) + 112,73206957

Sektora qoyulan ivestisiyilar və hökumət xərcləri ÜDM-in istehsalında effektiv olmaqla yanaşı, eyni zamanda vergi güzəştlərinin tətbiq edilməsinin heç də müsbət təsir etmədiyini söyləyə bilərik. Bundan fərqli olaraq uçot dərəcələrinin sektorda pozitiv təsir yaratdığını görmək olar.

Kənd təsərrüfatında iqtisadi siyasət

ÜDM, mln. AZN	Uçot dərəcəsi, %	M0 pul aqreqatı	M3 pul aqreqatı	Investisiya	Dövlət xərcləmələri	Vergi güzəştləri
Y	x1	x2	x3	x4	x5	x6

Kənd təsərrüfatına yönələn iqtisadi siyasətin nəticələrini qiymətləndirmək məqsədi ilə tətbiq edilən VAR modeli zamanı aşağıdakı bərabərlik alınıb.

VAR Modeli:

==========

Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)*X6(-1) + C(1,14)*X6(-2) + C(1,15)

VAR Modeli - əmsallar daxil edilməklə:

==========

Y = - 0,245318909688*GDP(-1) – 1,17407626991*GDP(-2) – 1460,26566609*RR(-1) + 3872,82077561*RR(-2) + 0,119809455735*M3 (-1) – 0,0725276357086*M3(-2) + 0,760913893838*Inv(-1) + 0,4181928638*Inv(-2) – 0,0721744939713*Gov_S(-1) + 0,926157471465*Gov_S(-2) + 0,26488802228*Sub(-1) – 0,628585358896*Sub(-2) – 380,36597605*Tax_E (-1) + 168,232445832*Tax_E(-2) + 622,568130993

Modeldə verilen R-squared asılı dəyişənlərinin qiymətləri ÜDM üçün uyğun olaraq 0,863225 və 0,801456 – dır. Bu kifayet qədər qaneedici olsa belə, yeni sektorda istehsal olunan ÜDM-in həcmi ilə yuxarıda qeyd olunan X 1-dən 6-ya qədər olan dəyişənlər üzrə həyata keçirilən siyasətlər (fiskal ve monetar siyasətlər) arasında bir korrelyasiya əlaqəsi olduğunu gösətir.

VAR modelinin nəticələrindən aydın görünür ki, sektora qoyulan investisiyalar illər üzrə hər zaman ÜDM istehsalına müsbət təsir göstərib (+ 0,760913893838*Inv(-1) + 0,4181928638* Inv(-2)). Lakin bu sahəyə ayrılan subsidiyalar üzrə nəticələr isə nəzərəçarpacaq dərəcədə sectoral ÜDM-ə təsir etmə imkanına malik deyil. Mütəxəssislər bunun səbəbini subsidiya siyasətinin formasında görürlər. Belə ki, ölkədə məhsula deyil, sahəyə hədəflənən subsidiya siyasəti intensiv təsərrüfatçılığı və məhsuldarlığı təşviq etmir.

Modelin nəticələrindən aydın olur ki, vergi güzəştləri aqrar sektorda yaradılan ÜDM-ə müsbət təsir göstərir. Xatırladaq ki, sektorun inkişafına hədəflənən vergi güzəştlərinin zamanı 2013-cü ilin sonunda başa çatsa da, müddət əlavə olaraq 5 il müddətinə və yaxud 2018-ci ilin sonunadək artırılıb. Beləliklə, növbəti 4 il müddətində

kənd təsərrüfatı məhsullarının istehsalı gəlir, mənfəət, dövriyyə, sadələşdirilmiş, əmlak və s. vergilərdən azaddır ki, bu da sektorun inkişafı üçün müsbət amil hesab edilməlidir.

VAR modeli aqrar sektorun uçot dərəcələrinə qarşı çox həssas olduğunu göstərir, yəni faiz dərəcələrindəki dəyişiklik (azalma) Kənd Təsərrüfatında istehsal olunan ÜDM-ə müsbət təsir göstərmək imkanına malikdir. Ümumilikdə isə sektorun maliyyə əlçatanlığının artırılması inkişaf üçün mühüm məqamlardan hesab edilir.

Aqrar sektora investisiyalar digər sahələrlə müqayisədə yaradılan əlavə dəyərə daha ciddi təsir göstərib. Bunun səbəbi isə son on ildə bu sahəyə investisiya axını həcmində artımın digər sahələri üstələməsi hesab edilir. Belə ki, 2015-ci ildə ölkə üzrə əsas kapitala yönəldilən investisiyalarda sektorun payı 0,7% olduğa halda, 2014-cü ildə müvafiq göstərici 2,1%-dək artıb. 2010-cu ildə isə sektora investisiya axını 4,4% olmaqla maksimum səviyyəyə yüksəlib. Lakin investisiyaların artım sürəti və ÜDM-in böyüməsi arasında böyük fərq qalmaqdadır.

Mütəxəssislərin fikrincə, hazırkı şərtlər daxilində kənd təsərrüfatında mənfəət norması aşağı olsa da, sektorun inkişaf və ixrac potensialı yüksəkdir. Hökumət fermerlərin daxili və xarici bazarlara birbaşa çıxışını təmin etməklə, bu problemi aradan qaldıra bilər ki, bu da öz növbəsində bu sahəyə marağın yüksəlməsinə səbəb ola bilər.

Ticarət sektoru üzrə iqtisadi siyasət

Ticarət sektorunda həyata keçirilən iqtisadi siyasətin VAR modeli vasitəsi ilə qiymətləndirilməsi üçün aşağıdakı tənlik tətbiq edilib.

VAR modeli:

Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)

ÜDM, mln. AZN	Uçot dərəcəsi, %	M0 pul aqreqatı	M3 pul aqreqatı	Investisiya	Dövlət xərcləmələri	Vergi güzəştləri
Y	x1	x2	x3	x4	x5	x6

Vector Autoregression Estimates						
Sample (adjusted): 2003Q3 2014Q4						
Included observations: 46 after adjustments						
Standard errors in ( ) & t-statistics in [ ]						
	Y	X1	X2	X3	X4	X5
Y(-1)	-0.140049	6.05E-05	-4.214066	-3.292583	-0.016041	-0.000993
	(0.32385)	(3.4E-05)	(1.63698)	(2.92999)	(0.00870)	(0.00086)

	[-0.43245]	[1.75867]	[-2.57429]	[-1.12375]	[-1.84392]	[-1.15297]
Y(-2)	-0.591170	3.76E-05	3.093220	1.776742	0.014115	-0.000659
	(0.42395)	(4.5E-05)	(2.14298)	(3.83566)	(0.01139)	(0.00113)
	[-1.39444]	[0.83532]	[1.44342]	[0.46322]	[1.23939]	[-0.58425]
X1(-1)	963.0278	1.022597	12745.61	21087.43	5.467476	0.678688
	(1128.89)	(0.11996)	(5706.35)	(10213.6)	(30.3253)	(3.00231)
	[0.85307]	[8.52434]	[2.23358]	[2.06464]	[0.18029]	[0.22606]
X1(-2)	-1703.898	-0.290831	-12597.01	-23844.45	4.477902	-0.489090
	(1032.57)	(0.10973)	(5219.44)	(9342.12)	(27.7377)	(2.74613)
	[-1.65016]	[-2.65052]	[-2.41348]	[-2.55236]	[0.16144]	[-0.17810]
X2(-1)	0.004220	-1.06E-06	1.680039	0.577760	0.003631	-2.28E-05
	(0.07716)	(8.2E-06)	(0.39001)	(0.69806)	(0.00207)	(0.00021)
	[0.05469]	[-0.12942]	[4.30772]	[0.82766]	[1.75209]	[-0.11090]
X2(-2)	-0.024389	-1.57E-06	-0.494700	-0.367966	-0.002714	0.000276
	(0.08982)	(9.5E-06)	(0.45400)	(0.81260)	(0.00241)	(0.00024)
	[-0.27154]	[-0.16492]	[-1.08965]	[-0.45282]	[-1.12480]	[1.15395]
X3(-1)	0.030792	-3.33E-06	-0.236097	0.649974	-0.000971	6.63E-05
	(0.03910)	(4.2E-06)	(0.19766)	(0.35379)	(0.00105)	(0.00010)
	[0.78744]	[-0.80089]	[-1.19445]	[1.83719]	[-0.92436]	[0.63707]
X3(-2)	0.055152	1.16E-06	0.174460	0.323612	0.000603	-0.000139
	(0.04329)	(4.6E-06)	(0.21884)	(0.39170)	(0.00116)	(0.00012)
	[1.27390]	[0.25278]	[0.79719]	[0.82617]	[0.51862]	[-1.21120]
X4(-1)	12.08639	-0.000187	45.16010	60.80350	1.023513	0.008535
	(8.62872)	(0.00092)	(43.6166)	(78.0681)	(0.23179)	(0.02295)
	[1.40072]	[-0.20383]	[1.03539]	[0.77885]	[4.41565]	[0.37194]
X4(-2)	7.027657	-0.004377	-18.95861	-70.29887	-0.154848	0.016691
	(11.6933)	(0.00124)	(59.1076)	(105.795)	(0.31412)	(0.03110)
	[0.60100]	[-3.52263]	[-0.32075]	[-0.66448]	[-0.49296]	[0.53673]
X5(-1)	-53.02979	0.002716	-80.25362	-326.8191	0.914340	0.794687
	(71.4492)	(0.00759)	(361.163)	(646.435)	(1.91933)	(0.19002)
	[-0.74220]	[0.35767]	[-0.22221]	[-0.50557]	[0.47638]	[4.18211]
X5(-2)	-32.62615	-0.009136	-180.6684	-142.9195	-1.738601	0.048058
	(66.1757)	(0.00703)	(334.506)	(598.723)	(1.77767)	(0.17600)
	[-0.49302]	[-1.29914]	[-0.54011]	[-0.23871]	[-0.97802]	[0.27306]
C	363.8634	0.017030	571.7850	1158.604	0.739225	0.368893
	(96.0316)	(0.01020)	(485.422)	(868.843)	(2.57968)	(0.25540)
	[3.78900]	[1.66887]	[1.17791]	[1.33350]	[0.28656]	[1.44439]

R-squared	0.979284	0.975167	0.995130	0.995329	0.910882	0.897363
Adj. R-squared	0.971751	0.966137	0.993359	0.993631	0.878475	0.860040
Sum sq. resids	113564.7	0.001282	2901708.	9296022.	81.94974	0.803247
S.E. equation	58.66305	0.006234	296.5309	530.7520	1.575857	0.156015
F-statistic	129.9971	107.9901	561.8825	586.0030	28.10789	24.04344
Log likelihood	-244.9354	175.9450	-319.4711	-346.2497	-78.55286	27.82673
Akaike AIC	11.21458	-7.084566	14.45526	15.61955	3.980559	-0.644640
Schwarz SC	11.73137	-6.567776	14.97205	16.13634	4.497349	-0.127851
Mean dependent	590.1587	0.069565	4241.103	8621.063	5.502376	0.217391
S.D. dependent	349.0291	0.033876	3638.624	6650.320	4.520477	0.417029
Determinant resid covariance (dof adj.)		7329609.				
Determinant resid covariance		999119.6				
Log likelihood		-709.3635				
Akaike information criterion		34.23320				
Schwarz criterion		37.33394				

VAR Modeli: uyğun dəyişənlər daxil edilməklə

==========

Y = - 0.140048691622*Y(-1) - 0.591170345892*Y(-2) + 963.027844251*X1(-1) + 0.00421964822695*X2(-1) + 0.0307917792981*X3(-1) + 12.0863858221*X4(-1) - 53.0297850872*X5(-1) + 363.863390896

Ticarət sektorunda fiskal siyasətin təsirləri birmənalı deyil. Belə ki, model hökumət xərclərinin sektoral ÜDM-in istehsalında müsbət (12,0863858221), vergi güzəştlərinin təsiri zəif olaraq dəyərləndirir. VAR modelinin nəticələrinə görə Mərkəzi Bankın aşağı faizli uçot dərəcəsi və pul siyasəti (MO) ticarət sektorunda ÜDM-ə və məşğulluğa müsbət təsir göstərir. İnvestisiya siyasəti də həmçinin artan istiqamətli olduğu üçün sektorda əlavə tələb formalaşdırmaqla, böyüməni dəstəkləyir.

Nəticə və təkliflər

Tədqiqat Azərbaycan iqtisadiyyatının struktur qiymətləndirilməsi, diversifikasiya potensialının öyrənilməsi və həyata keçirilən iqtisadi siyasətin ÜDM-in artımına təsirinin ölçülməsi məqsədi ilə həyata keçirilib. Bu zaman tədqiqat qrupu tərəfindən son 10 ili əhatə edən dövrün statistik təhlili aparılıb, müstəqil ekspertlərlə və hökumət nümayəndələri ilə qrup müzakirələr keçirilib və VAR modeli tətbiq edilməklə, iqtisadi sektorlar üzrə kəmiyyət qiymətləndirilməsi yolu ilə diversifikasiya potensialının baza qiymətləndirilməsi ölçülüb. Hökumət nümayəndələri ilə müzakirələr dövlətin cari və gələcək planlarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edib. Müstəqil ekspertlərin fikirləri isə daha çox mövcud problemlərin müəyyənləşdirilməsi məqsədi daşıyıb. Beləliklə, tədqiqat qrupu iqtisadi sektorlar üzrə diversifikasiya imkanlarını müəyyənləşdirərkən, keyfiyyət metodologiyasının imkanlarından yararlanmağa çalışıb.

Kəmiyyət metodologiyası isə statistik təhlil və VAR modelinin imkanlarından yararlanaraq tətbiq edilib. Bu zaman rəsmi qurumların (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Mərkəzi Bank və s.) beynəlxalq maliyyə institutlarının (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, FAO və s.) statistik məlumat bazalarından istifadə edilib.

Ekspert rəyləri və model nəticələri göstərir ki, ölkə iqtisadiyatı zəif diversifikasiya olunub. Lakin iqtisadiyatın şaxələndirilməsi imkanları mövcuddur. Xüsusi ilə də kənd təsərrüfatı, qeyri-neft sənayesi (yüngül və yeyinti sənayesi, kimya sənayesi), turizm, tikinti və maliyyə sektorları digərləri ilə müqayisədə böyük inkişaf potensialına malikdir.

Müqayisəli üstünlüyə malik sektorlar üzrə mövcud problemləri qruplaşdırmazdan əvvəl sektorlar üzrə riyazi qiymətləndirmə məqsədi ilə tətbiq edilən VAR modelinin maraq doğuran nəticələrini diqqətə çatdırmaq istəyirik:

- Mərkəzi Bankın uçot dərəcəsi (M0 pul aqreqatı) investisiyalar və dövlət xərcləmələri, tikinti sektorunda ÜDM istehsalının əsas təkan vericisi olub;
- model ticarət sektorunda fiskal siyasətin təsirlərini birmənalı qiymətləndirmir. Belə ki, hökumət xərcləmələri, Mərkəzi Bankın aşağı faizli uçot dərəcəsi və pul siyasəti (MO) ticarət sektorunda ÜDM-ə və məşğulluğa müsbət təsir göstərsə də, vergi güzəştlərinin təsiri zəif qiymətləndirilir. İnvestisiya siyasəti isə aktual olduğu üçün sektorda əlavə tələb formalaşdırmaqla, böyüməni dəstəkləyən faktorlardan hesab edilir;
- sənaye sektorunda qoyulan investisiyalar və hökumət xərcləri, vergi güzəştləri və uçot dərəcəsinin azaldılması ÜDM-in istehsalında effektiv olub. Lakin sektorun potensialının tam istifadə edilməməsi müşahidə edilir. Qeyri-neft sənayesi neft sənayesinin sürətli böyüməsi fonunda daha zəif templə inkişaf edib;
- nəqliyyat sektoru üçün alınan nəticələrdən məlum olur ki, sektora yönəldilən investisiyalar və dövlət xərcləri ÜDM-in istehsalına pozitiv təsir edib. Başqa sözlə, sektor ölkədə həyata keçirilən investisiya siyasətindən ən çox yararlananlar sırasındadır. Sektorda yaradılan əlavə dəyərə vergi güzəştlərinin təsir imkanları model tərəfindən nisbətən zəif qiymətləndirilib. Lakin fiskal və monetar siyasətin nəqliyyat sektorunda ÜDM-in artımına təsiri neqativ istiqamətli dəyərləndirilir;
- VAR modelinin təhlili göstərir ki, dövlətin turizm sektorunda iştirakı, yəni hökumət xərcləri və vergi güzəştləri sektorda istehsal olunan ÜDM-in həcminin artmasında mühüm faktorlardan hesab edilir. Həmçinin model, nəticələrinə görə, hökumətin fiskal və monetar siyasəti də sektorun böyüməsində müsbət rol oynayıb;
- modelin nəticələrindən aydın görünür ki, aqrar sektora qoyulan investisiyalar və vergi güzəştləri illər üzrə hər zaman ÜDM-in istehsalına müsbət təsir göstərib. Lakin bu sahəyə ayrılan subsidiyalar üzrə nəticələr isə nəzərəçarpacaq dərəcədə

sektoral ÜDM-ə təsir etmə imkanına malik deyil. Mütəxəssislər bunun səbəbini subsidiya siyasətinin formasında görürlər. Belə ki, ölkədə məhsula deyil, sahəyə hədəflənən subsidiya siyasəti intensiv təsərrüfatıçılığı və məhsuldarlığı təşviq etmir.

Müqayisəli üstünlüyə malik iqtisadi sektorlar

Azərbaycan iqtisadiyatının müqayisəli üstünlüyə malik sektorlarının qiymətləndirilməsi zamanı diqqət ediləcək məqamları aşağıdakı kimi qruplaşdırıb:

I) Sektorun digər sektorlarla əlaqəsi – diversifikasiya zamanı prioritet istiqamət olaraq müəyyən edilən sektorun digər sahələr üçün yaradacağı inkişaf və məcmu tələb potensialı nəzərdə tutulur;

II) Sektorun əməktutumluluq potensialı – belə ki, müqayisəli üstünlüyə malik sektor inkşaf etdirildiyində həm sektordaxili, həm də digər əlaqəli sektorlarda çoxsaylı və yüksək gəlirli yeni iş yerləri yaratma potensialına malik olmalıdır;

III) Sektorun ixrac potensialı – bu zaman sektor üzrə istehsal edilən məhsulların xarici bazarlarda rəqabət qabilliyyəti mühüm faktorlardan biri olaraq qiymətləndirilir. Əgər müəəyən edilən sektor üzrə istehsal edilən məhsullar digərləri ilə müqayisədə ümumi ixracda daha artıq xüsusi çəkiyə malik olarsa, bu ilk inkişaf potensialı olaraq qiymətləndirilir;

IV) Sektorun idxalı əvəzləmə qabilliyyəti - əgər sektorda istehsal ediləcək məhsulların idxal məhsullarla rəqabət imkanları yüksk qiymətləndirilərsə bu zaman idxalın əvəzlənməsi imkanları müsbət hesab edilir. Bu qiymətləndirmə zamanı subsidiyalaşdırma və yaxud anti-dempinq kimi hallar qiymətləndirmə xaricində tutulmalıdır. Əks halda düzgün qiymətləndirmənin aparılması mümkün olmayacaq. Xatırladaq ki, sektorun idxalı, əvəzləmə imkanları ölkənin ticarət balansı prizmasından yanaşdıqda ixrac potensialı qədər əhəmiyyətlidir;

V) Müqayisəli üstünlüyə malik sektorların regionlar üzrə əhatə dairəsinin genişliyi – regionalar üzrə daha geniş inkişaf imkanlarına malik sektorlar əmək bazarında disbalansın və gəlir bərabərsizliyinin azaldılması, urbanizasiya probleminin həlli kimi genişmiqyaslı hədəflərin bir arada həllinə şərait yaradır.

Yuxarıda sadalanan məqamları diqqətə alaraq, ölkə iqtisadiyatında diversifikasiya potensialı yüksək qiymətləndirilən sektorlara kənd təsərüfatı, tikinti, maliyyə, turizm və bank sektorları aid edilib.

Ədəbiyyat

[1] Krugman, Paul (1996), Ricardo's Difficult Idea, New York, 2014.

[2] Stephen S. Golub Comparative Advantage, Exchange Rates, and G-7 Sectoral Trade Balances, London, 2015.

[3] Haichao FAN, Edwin LAI and Han (Steffan) Qi, A Model of Trade with Ricardian Comparative Advantage and Intra-sectoral Firm Heterogeneity, 2011.

[4] Larry D. QIU, Comparing Sectoral FDI Incentives: Comparative Advantages and Market Opportunities, Peking University, 2003.
[5] Michael Sposi, Evolving Comparative Advantage, Sectoral Linkages, and Structural Change, Federal Reserve Bank of Dallas, 2015.
[6] Andrei A. Levchenko and Jing Zhang, The Evolution of Comparative Advantage: Measurement and Implications, Chicago, 2014.
[7] "ECONOMIC diversification: The Road to Sustainable Development" Richard Shediac, Rabih Abouchakra, Chadi N. Moujaes, Mazen Ramsay Najjar, Washington, 2015.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 177 - 186
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 177 - 186

ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

Г.И. Гамидов
д.ф, по экономике, UNEC
e-mail: hamidh@mail.ru
А.Дж. Эюбов
докторант, UNEC
e-mail: eyyubov.anar@gmail.com
Тел: +994 (50) 526 53 26
Р.М. Касумов
профессор, доктор экономических наук, UNEC
e-mail: rufkm@hotmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 05 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 05 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Резюме

Основной целью научной статьи является исследование национальной продовольственной безопасности Азербайджана в условиях рыночной экономики. Исследовательская работа выполнена на основе таких методов, как системный подход, комплексный подход, сравнительный анализ. Результатами научной статьи являются анализ и исследование национальной продовольственной безопасности Азербайджана, исследование основных факторов, влияющих на уровень развития продовольственной безопасности, формулирование соответствующего механизма по совершенствованию продовольственной безопасности Азербайджана. На основе вышеупомянутых аспектов разработаны соответствующие предложения и рекомендации. Ограничения исследования: научная работа требует дальнейших всесторонних исследований, а также обширной информационной базы экономического анализа. Научная новизна исследования: заключается в разработке предложений и рекомендаций по укреплению национальной продовольственной безопасности в условиях рыночной экономики, разработка соответствующих предложений по эффективному развитию продовольственной безопасности Азербайджана.

Ключевые слова: национальная продовольственная безопасность, экономическая политика, рыночная экономика, финансовый капитал, ФАО, сельское хозяйство.

JEL Classification Codes: Q 16, Q 18

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

Xülasə

Elmi məqalənin əsas məqsədi bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin öyrənilməsindən ibarətdir. Tədqiqat işi sistemli yanaşma, kompleks yanaşma, müqayisəli təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri: Azərbaycanın milli qida təhlükəsizliyinin təhlili və öyrənilməsi, ölkənin ərzaq təhlükəsizliyinin inkişaf səviyyəsinə təsir edən əsas faktorların müəyyən edilməsi, Azərbaycanın milli ərzaq təhlükəsizliyinin təkmilləşdirilməsi üçün müvafiq mexanizmin formalaşdırılması. Yuxarıda qeyd olunan aspektlər əsasında təklif və tövsiyələr verilmişdir. Tədqiqatın məhdudiyyəti: elmi iş kompleks araşdırmaları tələb edir, eyni zamanda iqtisadi təhlilin geniş informasiya bazasına əsaslanır. Tədqiqatın elmi yeniliyi: müasir bazar iqtisadiyyatı şəraitində Azərbaycanın milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün tövsiyələrin hazırlanması, Azərbaycanın ərzaq təhlükəsizliyinin effektiv inkişafı üçün müvafiq təkliflərin formalaşdırılması.

Giriş. SSRİ dağıldıqdan sonra bu ittifaqda olan bütün respublikalar, iqtisadi əlaqələrin qırılmasına görə, böyük iqtisadi və sosial çətinliklərlə üzləşmişdilər. Belə vəziyyət sovet sistemində istər respublikalararası, istərsə də xarici ticarətin mərkəzləşdirilmiş qaydada aparılması ilə əlaqədar idi. Həmçinin Respublikaların iqtisadi əlaqələri daha çox ixtisaslaşma və kooperasiya əsasında qurulmuşdur ki, bu da əlaqələrin qırılmasının nəticəsini daha ağır edirdi. Məsələn, hansısa bir respublikada istehsal edilən məhsulun müəyyən hissələri başqa respublikalardan gətirilirdi. Bu səbəbdən ayrılıqda götürülmüş bir Respublikada başqaları ilə əlaqə olmadan məhsul istehsl etmək demək olar ki, mümkün deyildi. Bu amil ən adi bir hissənin çatışmazlığına görə böyük bir zavodun işini dayandıra və ya geri sala bilərdi. Eyni zamanda istehsal olunmuş məhsulların satışı da Mərkəz tərəfindən həyata keçirildiyindən, hansısa bir respublikanın özünə lazım olan məhsulları almaq üçün birbaşa əlaqələr qurmasına ehtiyac olmurdu. Müstəqilliyimizin ilk illərində, xüsusən də ilk beş ildə MDB ölkələri arasında əlaqələrin yenidən qurulmasına mane olan amilləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Respublikalar özləri öz aralarınada iqtisadi və sosial əlaqələr qurmaq təcrübəsinə demək olar ki, malik deyildilər; 2. Bəzi Respublikalarda (məsələn Azərbaycanda) SSRİ-yə müstəqilliyi məhdudlaşdıran bir İttifaq kimi baxılması səbəbindən, asılı olmamaq tərəfdarı olan hakimiyyət və yerli əhali tərəfindən bütün yenidən qurula biləcək əlaqələrin iqtisadi və siyasi müstəqilliyə xələl gətirəcəyi ehtimalının olması; 3. Müstəqilliyimizin ilk illərində respublikaların öz aralarında yeni formada əlaqələrin qurulması zəruriliyinin lazımınca qiymətləndirilməməsi.

Bu amillər müəyyən dövr iqtisadi əlaqələrin bərpasına mane olsa da, sonralar tədricən respublikalar özləri öz aralarında əlaqələr qurmağa başladılar. Lakin artıq bir çox sahələr üzrə satış bazarlarını yaxın və uzaq yeni ölkələr tutduğundan, əvvəlki səviyyədə inteqrasiya mümkün deyildi və hazırda da bu əlaqələr lazımi səviyyəyə çatmamışdır. Qloballaşan dünyada regional inteqrasiya olmadan inkişafın mümkün olmadığından, bu əlaqələrin yenidən yüksək səviyyədə qurulması öz aktuallığını saxlayır. Bu səbəbdən, məqalədə Azərbaycanın MDB ölkələri ilə aqrar məhsullar üzrə ticarətini təhlil etmək qarşıya məqsəd qoyulmuşdur.

Azərbaycanın MDB ölkələri ilə ümumi ticarət dövriyyəsi. Cədvəl 1-də 2011-ci ildə Azərbaycanın ümumi ticarət dövriyyəsinin 15,1%-nin MDB ölkələri ilə olduğunu görürük (1, s.13,19,24). MDB ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin isə 51,6%-i yalnız Rusiyanın payına düşmüşdür. Həmçinin Ukrayna (26,8%), Belorus (13,4%) və Qazaxıstanın da (5,0%) ticarətdə payı yüksəkdir. Digər respublikalardan yalnız Özbəkistanın payı 1,3 və Türkmənistanın payı 1% olmuşdur. 2015-ci ildə ümumi ticarət dövriyyəsi azalmış, 2011-ci ildə olan 5,4 mlrd ABŞ dollarından 2,5 mlrd dollara düşmüşdür ki, bu da nisbi çəkinin də azalmasına səbəb olmuşdur (12,4%). 2015-ci ildə Rusiya ilə ticarət dövriyyəsi mütləq rəqəmlə azalsa da,

nisbi rəqəmlə artmış, 74,6% olmuşdur. 2015-ci ildə də Ukrayna, Belorus, Qazaxıstan və Türkmənistanın ticarətdə payı yüksək olmuşdur. Lakin Belorus ilə ticarət kəskin azaldığından, Qazaxıstan ondan önə keçmişdir. 2015-ci ildə ticarət dövriyyəsinin iki dəfədən də çox azalması dolların məzənnəsinin manata nisbətən yüksəlməsi ilə əlaqədar olmuşdur.

Cədvəl 1. MDB ölkələri üzrə Azərbaycanın ticarəti, %-lə

Ölkələr	**2011-ci il**			**2015-ci il**		
	Cəmi	**İdxal**	**İxrac**	**Cəmi**	**İdxal**	**İxrac**
Cəmi	**100**	**100**	100	**100**	**100**	100
MDB cəmi	**15,08**	**26,17**	**11,01**	**12,04**	**21,27**	4,60
Belarus	13,35	2,53	22,80	3,77	4,26	1,91
Qazaxıstan	5,03	8,51	1,99	4,70	5,04	3,42
Qırğızıstan	0,40	0,04	0,72	0,33	0,08	1,25
Moldova	0,15	0,22	0,09	0,16	0,18	0,09
Özbəkistan	1,32	1,98	0,75	0,69	0,31	2,07
Rusiya	51,63	64,27	40,60	74,59	73,32	79,33
Tacikistan	0,29	0,11	0,45	0,26		1,23
Türkmənistan	1,04	0,51	1,50	2,11	1,00	6,25
Ukrayna	26,78	21,84	31,09	13,40	15,79	4,47

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri (1)

2011-ci ildə idxal olunan məhsullarda MDB-nin payı yüksək olaraq, 26,2% olmuşdur. MDB ölkələrindən olan idxalın isə 64,6%-i Rusiyanın payına düşmüşdür. Sonrakı yeri 21,8%-lə Ukrayna tutur. İdxalda Qazaxıstan 8,5%-lə Belorusu üstələmişdir. Qalan Respublikalardan Belorus (2,5%) və Özbəkistanın (2%) idxalda payı nisbətən çox olmuşdur. 2015-ci ildə ümumi ticarət dövriyyəsi azaldığı kimi idxal da azalmış və 21,3% olmuşdur. Lakin MDB ölkələri üzrə Rusiyanın payı 73,3%-ə qalxmışdır. 2011-ci ildə olduğu kimi Ukrayna idxalda ikinci yerdədir. Qazaxıstan (5%) və Belorusun (4,3%) da payı əvvəlki kimi yüksəkdir, lakin Türkmənistanın da payı artmış və qalan respublikalardan yalnız bu ölkədə 1%-ə çatmışdır. 2011-ci ildə MDB ölkələri ilə ticarət dövriyyəsində ixrac idxaldan iki dəfədən də az olmuşdur. İxrac əsasən üç ölkə ilə - Rusiya (40,6%), Ukrayna (31,1%) və Belarusa (22,8%) olmuşdur. Qalan Respublikalardan Qazaxıstan 2%, Türkmənistan isə 1,5% paya malk olmaqla nisbətən böyük çəki ilə fərqlənir. 2015-ci ildə MDB ölkələrinə ixrac daha da azalaraq, ümumu ixracın 4,6%-ni təşkil etmişdir, idxalda olduğu kimi Rusiyanın payı yenə artmış və 79,3%-ə çatmışdır. Lakin eyni zamanda Ukrayna (4,5%) və Belorusa (1,9%) ixracın azalması, Moldova istisna olmaqla, digər respublikaların payının artması ilə müşayiət olunmuşdur. Türkmənistanın payı hətta 6,3%-lə Ukraynanı da ötmüş, Qazaxıstanın payı isə 3,4%-lə Belorusdan çox olmuşdur. Ixracın tərkibi-

nin belə dəyişməsi Ukrayna ilə Belorusa 2011-ci ildə neft ixracı ilə əlaqədardır. 2015-ci ildə bu ölkələr Azərbaycandan xam neft almamışlar. MDB ölkələri ilə Azərbaycanın ümumi ticarət dövriyyəsi haqqında deyilənləri belə ümumiləşdirmək olar ki, birlik daxilindəki nisbətən çox inkişaf etmiş ölkələr arasında ticarət dövriyyəsi daha çoxdur, sonrakı yeri isə yaxın qonşular tuturlar.

MDB ölkələri üzrə aqrar məhsulların ticarətinin tərkibi. İndi isə MDB ölkələri üzrə Azərbaycanın ticarət dövriyyəsinin tərkibinə nəzər salaq. Rusiyadan 2011-ci ildə idxal olunan ilkin və emal edilmiş kənd təsərrüfatı məhsullarının ümumi məbləği 361,9 mln doll. olmuşdur (1, s.81-88). Bu məhsulların 41,5%-ni siqaret, 24,1%-ni buğda, 16,4%-ni isə buğda unu təşkil etmişdir. Bu üç məhsul 82% təşkil edir, qalan məhsullardan isə şokolad və şokolad məhsulları (3,3%), şəkərli qənnadı məmulatları (3%) və 100%-li spirtli araq (2,1%) böyük paya malikdirlər. Həmçinin kərə yağı, bitki yağları, marqarin, çörək, unlu qənnadı məmulatları, mineral və qazlı suların da çəkisi 1%-i keçir. Rusiyadan diri iribuynuzlu heyvanlar, diri ev quşları, süd və qaymaq, kartof, təzə tərəvəz, çay, düyü, kolbasa məmulatları, makaron məmulatları, pivə, üzüm şərabı, tütün də idxal olunmuşdur ki, onların ayrılıqda payı 1%-ə çatmır. Həmin məhsulların nə qədər hissəsinin Rusiyadan gətirildiyini təhlil etdikdə isə buğda ununun 98,6%-nin, siqaretlərin 62,3%-nin, arağın 71,7%-nin, makaron məmulatlarının 52,8%-nin, şəkərli qənnadı məmulatların 37,5%-nin şokalad və şokalad məhsullarının 35,3%-nin, buğdanın isə 31%-nin bu ölkədən idxal edildiyi aşkar olur. 2015-ci ildə Rusiyadan olan idxalın ümumi məbləği artaraq, 550,9 mln doll. olmuşdur (1, s.203-209). Idxal olunan məhsulların içərisində buğda daha çox çəkiyə (48,7%) malikdir. Əgər 2011-ci ildə bu ölkədən 359,1 min ton buğda idxal olunmuşdursa, 2015-ci ildə onun həcmi 1234, 6 min tona çatmışdır ki, bu da ümumi məbləği artırmışdır. Nəticədə idxal olunan siqaretlərin həcmində ciddi azalma olmasa da, onların payı 32,2%-ə düşmüşdür. Digər məhsullardan yalnız bitki yağları (4,5%), diri iri buynuzlu heyvanlar (2,5%), şokolad və şokolad məhsulları (2,4%) böyük çəkiyə malikdirlər, şəkərli qənnadı məmulatları, çörək unlu qənnadı məmulatları, mineral və qazlı sular, tütün isə ayrılıqda 1%-dən çox olmuşlar. Həmçinin Rusiyadan süd və qaymaq, pendir və kəsmik, kartof, çay, düyü, buğda unu, marqarin, kolbasa məmulatları, makaron məmulatları, pivə və 100%-li spirtli araq da idxal olunmuşdur ki, onların payı böyük deyil. Azərbaycanın idxal etdiyi bu məhsullardan buğdanın 90,4%-i, buğda ununun 70,5%-i, tütünün 66,4%-i, kolbasa məhsullarının 65,7%-i, siqaretlərin 61,7%-i, düyünün 42%-i, şokolad və şokolad məhsullarının 40,1%-i, marqarinin 37,4%-i şəkərli qənnadı məmulatların 35%-i, bitki yağlarının 34,9%-i, çörək unlu qənnadı məhsullarının 34,4%-i, diri iribuynuzlu heyvanların 32,9%-i, pendir və kəsmiyin 32,5%-i Rusiyadan olmuşdur.

2011-ci ildə Ukraynadan 107,5 mln dollarlıq məhsul idxal edilmişdir. Alınan məhsulların 19,9%-ni bitki yağları, 14%-ni siqaret, 13,4%-ni şokolad və şokolad məhsulları, 13,1%-ni şəkərli qənnadı məmulatları, 11,1%-ni marqarin, 10,5%-ni quş yumurtaları, 7,9%-ni çörək unlu qənnadı məmulatları, 5,1%-ni süd və qaymaq, 2,6%-ni təzə meyvə təşkil etmişdir. Həmçinin bu ölkədən buğda unu, makaron məmulatları, kərə yağı, kartof, etil spirti, 100%-li araq, mineral və qazlı sular da idxal edilmişdir ki, onların ayrılıqda payı 1%-ə çatmır. Bu məhsullardan etil spirtinin 98,9%-i, marqarinin 74%-i, süd və qaymağın 58,9%-i, şəkərli qənnadı məmulatlarının 48,1%-i, quş yumurtalarının 47,8%-i, şokolad və şokolad məmulatlarının 42,5%-i, çörək, unlu qənnadı məmulatlarının 41,5%-i, bitki yağlarının 27,3%-i Ukraynadan gətirilmişdir. 2015-ci ildə Ukraynadan da idxal edilən məhsulların məbləği artaraq, 155,7 mln dollara çatmışdır. Alınan məhsulların 60,7%-ni siqaret, 7,5%-ni şəkərli qənnadı məmulatları, 5,9%-ni şokolad və şokolad məhsulları, 4,7%-ni marqarin, 4,1%-ni buğda, 3,7%-ni çörək, unlu qənnadı məmulatları, 3,3%-ni iri buynuzlu heyvan əti, 2,3%-ni diri iri buynuzlu heyvanlar, 2,1%-ni mineral və qazlı sular təşkil edir. Süd və qaymaqla 100%-li spirtli arağın payı 1%-i keçir. Həmçinin kərə yağı, pendir və kəsmik, quş yumurtaları, kartof, təzə tərəvəz, təzə meyvə, buğda unu, bitki yağları, makaron məmulatları, etil spirti və tütün də idxal edilmişdir ki, onların ayrılıqda payı 1%-ə çatmır. İdxal olunan bu məhsullardan marqarinin 56,3%-i, şəkərli qənnadı məmulatlarının 50,6%-i, iribuynuzlu heyvan ətinin 46,4%-i,siqaretlərin 32,7%-i, süd və qaymağın 27,9%-i, şokolad və şokolad məhsullarının 27,5%-i Ukraynadan olmuşdur.

Belorusdan 2011-ci ildə idxalın həcmi 2431,2 min doll. olmuşdur. Ukrayna və Rusiya ilə müqayisədə məhsulların çeşidi geniş deyil. Cəmi səkkiz məhsulun içərisində 37% süd və qaymağın, 25,8% şəkərli qənnadı məmulatlarının, 14,7% isə kərə və digər yağların payına düşüb. Digər məhsullardan quş yumurtaları (6,5%), şokolad və şokolad məhsulları (6,1%) və buğda unu (4,0%) böyük çəkisi ilə seçilirlər. Bu məhsulların heç biri üzrə Belorus Azərbaycanın əsas idxal tərəfdaşı olmamış, yalnız süd və qaymaq idxalının 9,6%-i bu ölkənin payına düşmüşdür. Qalan məhsullarda isə nisbi çəki 3%-ə çatmır. 2015-ci ildə Belorusdan da idxal olunan məhsulların məbləği artmış, 3610,1 min doll. olmuşdur. Bu, əvvəl idxal ounan məhsullara pendir və kəsmik ilə etil spirtinin əlavə edilməsi hesabına olmuşdur. Bu dövrdə idxal olunan məhsulların 24%-ni kərə və digər yağlar, 17,9%-ni pendir və kəsmik, 17,6%-ni etil spirti, 16,1%-ni isə süd və qaymaq tutmuşdur. Kartof (9,4%), 100%-li spirtli araq (7,8%) və şəkərli qənnadı məmulatları da (3,1%) nisbətən böyük çəki ilə seçilmişlər. İdxal olunan məhsullardan etil spirtinin 83,6%-i Belorusdan gətirilmişdir ki, 2011-ci ildə bu məhsulun gətirildiyi əsas ölkə Ukrayna

idi. Digər məhsullardan yenə də yalnız süd və qaymağın payı yüksək olmuş və onun 10,1%-i bu ölkədən gətirilmişdir.

2011-ci ildə Qazaxıstandan 157 088,6 min doll. məbləğində məhsul idaxal edilmişdir. Idaxalın 99,3%-ni buğda tutur. Azərbaycanın əsas idxal etdiyi məhsullardan olan buğda Rusiya və Qazaxıstandan gətirildiyindən, bu məhsulun ümumi idaxlının 55,3%-i də Qazaxıstanın payına düşmüşdür. Digər gətirilən məhsullarından yalnız düyünün payı (9,8 %) bu ölkə üzrə çoxdur və yaxın qonşuluğa baxmayaraq, idxal məhsullarının çeşidi də çox olmayıb cəmi dörd məhsulu əhatə edir. 2015-ci ildə Azərbaycanın əsasən Rusiyadan buğda idxal etməsi nəticəsində Qazaxıstandan idxal kəskin azalaraq, 22,7 mln dollara düşmüşdür. Lakin yenə də idaxal olunan məhsulların əsas hissəsini (97,6%) buğda təşkil etmişdir. Həmçinin Azərbaycana idxal olunan buğdanın 7,5%-i Qazaxıstandan olmaqla digər məhsullara nisbətən böyük çəkiyə malikdir.

Digər MDB ölkələrindən idxal elə də çox olmamışdır. 2011-ci ildə Özbəkistandan buğda ilə təzə meyvə idxal olunmuşdur ki, onlardan da 99,5% buğdanın payına düşür. Eyni zamanda Azərbaycana gətirilən buğdanın 12,4%-i bu ölkədən olmuşdur. Bu dövrdə Moldovadan yalnız üzüm şərabı alınmışdır. Lakin Azərbaycana gətirilən üzüm şərablarının böyük hissəsi - 46,2%-i bu ölkədən idxal edilmişdir. Tacikistan və Qırğızıstandan da yalnız bir məhsul – təzə tərəvəz idxal olunmuşdur, həm də bu məhsullarda da idxal üzrə onların payları çox cüzi olub cəmi 170,8 min dollar olmuşdur. 2015-ci ildə yuxarıda göstərdiyimiz ölkələrdən əlavə yalnız Moldovadan idxal olmuşdur. Eyni zamanda Moldovadan idxal olunan məhsulların sayı və tərkibi dəyişmişdir. Bu ölkədən olan idxalın 41,1%-i iribuynuzlu heyvan əti, 39,6%-ni diri iribuynuzlu heyvanlar, 19,4%-i isə çörək, unlu qənnadı məmulatlarının payına düşmüşdür. Lakin Azərbaycanın bu məhsullar üzrə idxalında heç bir məhsul 2%-ə də çatmamış, cəmi 276 min doll. olmuşdur.

2011-ci ildə idxalda olduğu kimi ixracda da Azərbaycanın ən çox ticarət etdiyi ölkə Rusiya olmuşdur. İxrac olunan məhsulların məbləği idxalı üstəliyərək 393,2 mln doll. olmuşdur (1, s.105-107,111). Rusiyaya ixrac olunan məhsulların 30,6%-i təzə meyvənin, 15,8%-i şəkərin, 14,8%-i bitki yağlarının, 12,3%-i təzə tərəvəzin, 7,5%-i kartofun, 6,4%-i çayın, 6,3%-i marqarinin, 3,9%-i pambıq parça ipliyinin payına düşür. Digər məhsullardan pambıq lifi və tütünə nisbətən üzüm şərabının payı yüksək olub və 1,4% təşkil edir. Lakin məlumdur ki, bu sahələr üzrə Azərbaycanın ixrac potensialı çox böyükdür, meyvə və tərəvəzlə yanaşı, əsas ixrac məhsulu ola bilərlər. Eyni zamanda demək olar ki, bütün məhsulların əsas hissəsi Rusiyaya ixrac edilmişdir. Məsələn, təzə tərəvəzin 99,8%-i, kartofun 99,4%-i, pambıq parça lifinin 98,2%-i, üzüm şərabının 92,9%-i, bitki yağlarının 91,5%-i, təzə meyvənin 78,7%-i, çayın 77,8%-i, marqarinin 75%-i, şəkərin 31,4%-i, pambıq lifinin 29,9%-i, tütünün

isə ixracının 28,5%-i bu ölkənin payına düşmüşdür. 2015-ci ildə ixrac məhsullarının həcminin və tərkibinin azalması Rusiyaya ixracın məbləğini azaltmışdır (1, s. 223-25, 227). Eyni zamanda həmin ildə idxalın da çoxalması nəticəsində ixrac 247,7 mln doll. və ya idxaldan 55% az olmuşdur. İxrac olunan məhsulların 57,9%-ni təzə meyvə, 28,5%-ni təzə tərəvəz, 8,5%-ni kartof tutmuşdur. Qalan məhsullardan çay (1,5%), meyvə və tərəvəz şirələri (1,4%) və üzüm şərabının payı (1,3%) nisbətən çöxdur. İxracın azalması çayın, üzüm şərabının, tütünün ixracının aşağı düşməsi, bitki yağları, pambıq parça ipliyi və pambıq lifinin isə ixrac edilməməsi ilə əlaqədardır. Çay, tütün başqa ölkələrdən Azərbaycana gətirilərək, müəyyən emaldan sonra ixrac edildiyindən (2, s.77), artıq dolların məzənnəsinin yüksək olması bu əməliyyatların həcmini azaltmışdır. Eyni zamanda bu məhsulların ixracının şaxələndirilməsi Rusiya üzrə olan ümumi məbləği azaltmışdır. Pambıq məhsullarının ixracının olmamasını isə Azərbaycanda yeni tekstil fabrikinin işə düşməsi iə əlaqələndirmək lazımdır. Bu dövrdə kartofun ixracının demək olar ki, hamısı, təzə tərəvəzin - 99,9%-i, üzüm şərabının 85,8%-i, təzə meyvənin 65,2%-i, meyvə və tərəvəz şirələrinin 48,9%-i, konservlərin isə ixracının 34,9%-i Rusiyanın payına düşmüş, digər məhsullar üzrə isə 20%-ə çatmamışdır. Bu isə ümumi məbləğin azalmasına səbəb olmuşdur. Belə dəyişikliyi rublun məzənnəsinin tərəddüdü ilə əlaqələndirmək lazımdır ki, bu amil Rusiyaya ixracın gəlirli olmayacağı inamını yaradırdı.

2011-ci ildə Ukraynaya ixrac 5,4 mln dollar olmaqla cəmi dörd məhsulu əhatə etmişdir. Ixracın 96,1%-i təzə meyvənin payına düşmüşdür. Həmçinin ixrac edilən təzə meyvələrin cəmi 3,4%-i bu ölkə ilə olsa da, d göstərici digər məhsullarda heç 1%-ə də çatmır. 2015-ci ildə ixrac həm tərkibinə, həm də həcminə görə azalaraq, 4,4 mln dollara düşmüşdür. Azalma təzə meyvələrin hesabına olmuşdur. Həmçinin təzə tərəvəz də ixrac edilməmişdir. Cəmi üç məhsuldan ibarət olan ixracın 80,8%-i təzə meyvələrin, 15,6%-i çayın, 3,6%-i meyvə və tərəvəz şirələrinin payına düşmüşdür. Bu məhsulların yalnız çay üzrə ixracının nisbətən böyük hissəsi (3,5%-i) Ukraynanın payına düşmüşdür.

2011-ci ildə Belorusa da cəmi dörd məhsul ixrac edilmişdir ki, onların da məbləği 6,5 mln dollardır. Ixrac məhsullarının 99,3%-ini tütün tutur. Həmçinin tütünün ixracının 69,4%-i Belorusa olmuşdur. Qalan məhsullar üzrə əhəmiyyətli ixrac olmamışdır. 2015-ci ildə bitki yağlarının ixracı hesabına ümumi ixracın məbləği artaraq, 8,3 mln dollara çatmışdır. Ixracın 76,7%-i tütünün, 12,7%-i bitki yağlarının, 8,7%-i təzə meyvələrin, 1,9%-i meyvə və tərəvəz şirələrinin payına düşüb. Azərbaycanın ixrac etdiyi tütünün 85,7%-i Belorusa olmuşdur. Digər məhsullar üzrə bu ölkənin payı əhəmiyyətli deyil.

2011-ci ildə Qazaxıstana ixracın həcmi 34,2 mln dollar olmaqla MDB üzrə ikinci yeri tutmuşdur. Ixrac məhsullarının çeşidi geniş olmamış, onların da 95,5%-ni şəkər

tutmuşdur. Təzə meyvələri (3,6%) istisna etsək, digər məhsulların payı 1%-ə çatmır. Həmçinin ixrac olununan məhsullardan şəkərin yalnız 16,4%-lə böyük hissəsi bu ölkə üzrə olub. Qalan ixrac məhsullarının heç 1%-i də bu ölkəyə olmamışdır. 2015-ci ildə Qazaxıstana ixrac məhsullarının tərkibi artsa da, şəkərin miqdarının azalması ixracın məbləğini azaltmışdır. Lakin yenə də əsas ixrac olunan məhsul şəkər olmuşdur (81,5%). Təzə meyvələrin də miqdarı azalsa da, ümumi məbləğin azalmasına görə onların payı 9,3%-ə yüksəlmişdir. İxrac məhsullarının 4,2%-i çayın, 3,5%-i isə meyvə və tərəvəz konservlərinin payına düşmüşdür. Qalan dörd məhsulun heç birinin payı 1%-ə çatmamışdır. Ixrac edilən meyvə və tərəvəz konservlərinin 7,7%-i, şəkərin 3,3%-i, çayın 1,9%-i bu ölkəyə olmuşdur.

2011-ci ildə Özbəkistana 5,1 mln dollar məbləğində yalnız marqarin və digər qida qarışıqları ilə şəkər ixrac edilmişdir. Ixracın 96%-i şəkər olmuşdur. Lakin bu məhsulların heç biri üzrə Azərbaycanın ixracının payı 3%-ə çatmamışdır. Bu dövrdə Moldovaya yalnız tütün ixrac edilmişdir, lakin bu məhsulun yalnız 1%-i bu ölkəyə olmuşdur və məbləğ 90,6 min dollar təşkil etmişdir. Türkmənistan, Tacikistan və Qırğızıstanın hər birinə cəmi üç məhsul ixrac edilmişdir. Türkmənistana ixracın məbləği 12,3 mln doll. olmaqla təzə meyvə, marqarin və digər qida qarışıqları ilə şəkər olmuşdur. İxrac məhsullarının 99,1%-i şəkərin payına düşüb. Azərbaycanın şəkər ixracının isə 6,2%-i bu ölkəyə olmuşdur. Tacikistana ixracın həcmi 8,3 mln dollar, məhsullar isə bitki yağları, şəkər və makaron məmulatları olmuşdur. Bu ölkəyə də ixrac olunan məhsulların 92,1%-i şəkərin payına düşüb. Bitki yağları isə 7,6% olmuşdur. Azərbaycandan ixrac olunan şəkərin 3,8%-i bu ölkənin payına düşmüş, qalan məhsullar isə əhmiyyətli çəkiyə malik olmamışlar. Qırğızıstana da ixrac olunan məhsulların 97,8%-i şəkərdir və ümumi məbləğ 8 mln dollardır. Bitki yağları ilə emal olunmuş qoyun və quzu dəriləri hər biri 1,1% paya malik olmuşlar. Azərbaycandan ixrac olunan şəkərin 3,9%-i Qırğızıstana olmuşdur.

2015-ci ildə də Özbəkistana iki məhsul ixrac edilmişdir. Lakin ixracın məğləği çox azalaraq, cəmi 152,8 min doll. olmuşdur. İxrac edilən məhsulların 81%-ni marqarin və digər qida qarışıqları, 18,9%-ni bitki yağları tutmuşdur. Bu məhsulların hər birinin ixracının 1%-indən azı bu ölkəyə olmuşdur. 2015-ci ildə Türkmənistana ixracın məbləği iki dəfəyə yaxın artaraq, 23,7 mln dollara çatmışdır. Həmçinin məhsulların çeşidi də artmış və beş olmuşdur. Ixrac olunan məhsulların isə 70,2%-i bitki yağları, 28,7%-i şəkər olmuşdur. Digər məhsulların heç birinin payı 1%-ə çatmamışdır. İxrac məhsullarından yalnız şəkərin 10,8%-i bu ölkəyə olmuşdur. Tacikistana da ixrac olunan məhsulların içərisində şəkər olmamış, nəticədə umumi məbləğ azalmış, 437,2 mln dollara düşmüşdür. İxrac olunan məhsulların 91,2%-i bitki yağları, 8,8%-i isə makaron məmulatları olmuşdur. Azərbaycanın makaron məmulatlarının ixracının 6,4%-i bu ölkə üzrədir. Qırğızıstana yenə də üç məhsul ixrac edil-

mişdir. Onların 97,2%-ni şəkər, 2,1%-ni bitki yağları, 0,8%-ni makaron məmulatları tutmuşdur. Bu ölkəyə yenə də şəkər ixrac edilməsi məbləğin çox azamasının qarşısını almışdır. Lakin ixrac olunan şəkərin miqdarı çox azalmasa da, daxil olan məbləğin həcminin azalması, görünür, dolların məzənnəsi ilə əlaqədar olmuşdur. Azərbaycandan ixrac edilən makaron məmulatlarının 7,1%-i bu ölkənin payına düşüb. Digər məhsullarda bu çəki böyük olmamışdır.

Nəticə. MDB ölkələri ilə Azərbaycanın ticarət dövriyyəsini ümumiləşdirsək, birlik daxilindəki nisbətən çox inkişaf etmiş ölkələr ilə ticarət dövriyyəsinin daha çox olduğu, sonrakı yeri isə yaxın qonşular tutduğu aydın görünür. İlkin və emal edilmiş halda olan kənd təsərrüfatı məhsulları üzrə isə 2011-ci ildə idxalının 55,8%-i, 2015-ci ildə isə 64%-i MDB ölkələrindən olmuşdur. İxracın isə müvafiq olaraq 78,9 və 43,2%-i MDB ölkələinin payına düşmüşdür. 2015-ci ildə MDB ölkələrinə ixracın azalması əsasən başqa ölkələrin bazarlarına məhsul ixracı ilə izah edilməlidir. MDB ölkələri daxilində isə 2011-ci ildə idxalın 54,4%-i Rusiyanın, 23,6%-i Qazaxıstanın,16,2%-i Ukraynanın, 5,3%-i Özbəkistanın payına düşüb. Digər ölkələrin heç birinin payı 1%-ə çatmamışdır. 2015-ci ildə idxalın 75,1%-i Rusiya, 21,2%-i Ukrayna, 3,1%-i isə Qazaxıstandan olmuşdur. Qalan ölkələrin payı cüzidir. 2011-ci ildə ixracın 83,1%-i Rusiyaya, 7,2%-i Qazaxıstana, 2,6%-i Türkmənistana olmuşdur. Moldova istisna olmaqla digər ölkələrə ixrac hər birində 1%-i keçir. 2015-ci ildə yenə də ixracın əsas hissəsi, yəni 82,9%-i Rusiyaya olmuşdur. İxracın 7,9%-i Türkmənistanın, 2,9%-i Qazaxıstanın, 2,8%-i Belorusun, 1,9%-i Qırğızıstanın, 1,5%-i Ukraynanın payına düşmüşdür. Tacikistan və Özbəkistana ixrac azaldığından, müvafiq olaraq onlar ixracda 0,2 və 0,1% paya malik olmuşlar.

Ədəbiyyat

[1] Azərbaycanın xarici ticarəti 2016, http://www.stat.gov.az/source/trade/ (elektron resurs, baxılma vaxtı: 10.03.2017)

[2] Azərbaycanın ərzaq balansları 2016, http://www.stat.gov.az/source/food_ balances/ (elektron resurs, baxılma vaxtı: 11.03.2017)

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 206 - 215
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 206 - 215

НЕКОТОРЫЕ АСПЕКТЫ ГАРМОНИЗАЦИИ БУХГАЛТЕРСКОГО УЧЕТА В АЗЕРБАЙДЖАНЕ

А.Р. Гаджиева
Д.ф. по э.н., преп., UNEC
Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Резюме

Основная цель исследования: в связи с интеграцией Азербайджана в мировую экономику, рассмотрение общих методик составления финансовой отчетности. В Азербайджане основной чертой реформирования национальных систем бухгалтерского учета и отчетности стало принятие, в качестве основного инструмента, Международных стандартов финансовой отчётности. Примененный в исследовании систематический анализ и научная абстракция позволяет определить, в процессе хозяйственной деятельности финансовой отчетности, сильные стороны предприятия, и принять научно обоснованные управленческие решения. Выводы исследования: умение правильно осознать данные отчетности становится главной предпосылкой эффективного развития хозяйственных связей в азербайджанской экономике. Совершенствование отчетности, которая является конечной стадией учетного процесса, приводит к образованию цепной реакции, к изменению системы бухгалтерского учета по всем звеньям цепочки, то есть от первичных документов до бухгалтерских регистров. Важным условием цивилизованных отношений в бизнесе становится анализ финансовой отчетности. Ограничения исследования: нехватка квалифицированного персонала в сфере учета и аудита, которое оказывает прямое влияние на качество отчетности, и результаты реформ не выводятся в нужной мере на высокий уровень корпоративного управления. Практическое значение исследования: хорошо продуманная и составленная финансовая отчетность поможет, при заключении договорных контрактов, повысить конкурентоспособность предприятия, а также качественно провести независимый аудит. Оригинальность и научная новизна исследования заключается в исследовании новой концепции Национального бухгалтерского учета и необходимости его реформирования в соответствии с Международными Стандартами Финансовой Отетности.

Ключевые слова: финансовая отчетность, интеграция в мировую экономику, концепция национального бухгалтерского учета, национальные Стандарты Бухгалтерского Учета (НСБУ), метод начисления.

Jel classification: H83

AZƏRBAYCANDA MÜHASİBAT UÇOTUNUN UYĞUNLAŞMASININ BƏZİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın əsas məqsədi Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası ilə əlaqədar maliyyə hesabatlarının ümumi metodlarının nəzərdən keçirilməsindən ibarətdir. Azərbaycan beynəlxalq maliyyə hesabatı standartlarının qəbul edilməsi milli mühasibat uçotu və hesabat sisteminin islahatlarında əsas alət kimi istifadə olunur. Tədqiqat işində elmi abstraksiyanın tədbiqi və iqtisadi fəaliyyət zamanı maliyyə hesabatlarının sistemli təhlili müəssisənin güclü tərəflərini müəyyən etmək və düzgün idarəetmə qərarlarını qəbul etməyə imkan verir. Tədqiqatın nəticələri Azərbaycan iqtisadiyyatında iqtisadi əlaqələrin səmərəli inkişafı üçün əsas şərt sayılan maliyyə hesabatlarının məlumatlarını düzgün dərk etmək qabiliyyətinin artırılmasına kömək edə bilər. Uçot prossesinin sonuncu mərhələsi olan hesabatın təkmilləşdirilməsi mühasibat uçotu sisteminin ilkin sənədlərdən mühasibat reqistrlərinə kimi bütün mərhələlərində zəncirvari dəyişikliklərə gətirib çıxarır. Maliyyə hesabatlarının təhlili biznesdə sivil münasibətlərin mühüm şərti kimi qəbul olunur. Tədqiqatın məhdudiyyəyyətləri: korporativ idarəetmənin lazımi qaydada yüksək səviyyədə olmaması mühasibat uçotu və audit sahəsində ixtisaslı kadrların çatışmazlığı) islahatların nəticələrinə və hesabatın keyfiyyətinə birbaşa təsir göstərir. Tədqiqatın praktiki əhəmiyyəti: yaxşı düşünülmüş və tərtib edilmiş maliyyə hesabatı müqavilələrin bağlanmasında, müəssissənin rəqabət qabiliyyətliyinin artırılmasında, həm də müstəqil və keyfiyyətli auditin keçirilməsində kömək edəcəkdir. Tədqiqatın elmi yeniliyi və orijinallığı: maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq Milli Muhasibat uçotu islahatlarının aparılması və yeni konsepsiyasının öyrənilməsini nəzərdə tutur.

Açar sözlər: maliyyə hesabatları; dünya iqtisadiyyatına inteqrasiyası; milli mühasibat uçotunun konsepsiyası; Milli Mühasibat Uçotu Standartları (MMUS); hesablama üsulu.

SOME ASPECTS OF HARMONIZATION OF ACCOUNTING IN AZERBAIJAN

Abstract

The main objective of the study was: in connection with Azerbaijan's integration into the world economy, consideration of general methods of drawing up financial statements. In Azerbaijan, the main feature of the reform of national accounting and reporting systems was the adoption, as the main instrument, of International

Financial Reporting Standards. The systematic analysis and scientific abstraction used in the study makes it possible to determine, in the course of economic activities of financial reporting, the strengths of the enterprise, and to take scientifically based management decisions. Conclusions of the research: the ability to correctly understand reporting data becomes the main prerequisite for the effective development of economic ties in the Azerbaijani economy. Perfection of reporting, which is the final stage of the accounting process, leads to the formation of a chain reaction, to a change in the accounting system across all links in the chain, that is, from primary documents to accounting registers. An important condition for civilized relations in business is the analysis of financial statements. Limitations of the study: the lack of qualified personnel in accounting and auditing, which directly affects the quality of reporting, and the results of reforms are not properly deduced to a high level of corporate governance. Practical value of the research: well-designed and compiled financial statements will help, when concluding contractual contracts, to increase the competitiveness of the enterprise, as well as qualitatively conduct an independent audit. The originality and scientific novelty of the study consists in the study of the new concept of the National Accounting and the need for its reforming in accordance with the International Standards of Financial Nutrition.

Keywords: financial reporting, integration into the world economy, the concept of national accounting, national Accounting Standards (NAS), accrual method.

В настоящее время происходит динамичная интеграция Азербайджана в мировую экономику, усиливаются экономические позиции зарубежных инвесторов на внутреннем рынке страны. С формированием и развитием экономических связей национальных предпринимателей с компаниями и фирмами стран, первоначально входящими в Евросоюз, появилась объективная необходимость в разработке общих правил составления финансовой отчетности, понятная внешним пользователям, большую долю которых составляют инвесторы экономически развитых стран.

В Азербайджане основной чертой реформирования национальных систем бухгалтерского учета и отчетности стало принятие в качестве основного инструмента Международных стандартов финансовой отчётности (МСФО) (IFRS – International Financial Reporting Standards).

МСФО представляют набор документов (стандартов и интерпретаций), регламентирующих правила составления финансовой отчётности, необходимой внешним пользователям для принятия ими экономических решений в отношении предприятия. Эта система имеет ряд преимуществ: во-первых, она дает возможность коммерческим организациям улучшить качество управленческой

информации, повышает прозрачность их финансовой отчетности, во-вторых, помагает понизить расходы на получение заемных средств, тем самым облегчает международную коммерческую деятельность, в третьих, МСФО создает предпосылки для укрепления доверия общества к бизнесу и помагает компаниям получать лизинг [4, 3-4].

Применение МСФО предоставляет хозяйствующим субъектам не только широкие возможности улучшения производства, но и значительные конкурентные преимущества, такие как: отражение результатов деятельности предприятия в более простой и реалистичной форме; возможность сравнения финансового положения с показателями иностранных компаний, внедрение более совершенной системы бухгалтерского учета, позволяющей принимать оптимальные решения при определении стратегии компаний.

Поэтому разработка новой концепции национального бухгалтерского учета и необходимость его реформирования в соответствии с Международными Стандартами Финансовой Отчетности (МСФО) приобрели актуальность. Основные цели реформ :

- организация полного перехода составления отчетности коммерческими организациями на МСФО;
- обеспечение наиболее полной прозрачности деятельности организаций и облегчение их выхода на международный рынок;
- создание абсолютно новых институциональных основ для развития учета и аудита, а также для выполнения соответствующих регулирующих функций со стороны государства [4, 3-4].

В экономически развитых странах финансовая отчетность является краеугольным камнем концептуальных основ бухгалтерского учета. В частности, в США концептуальные основы бухгалтерского учета оформлены в виде шести документов, названных Положениями о концепциях финансового учета:

1. «Цели финансовой отчетности промышленного предприятия» констатирует, что отчетность должна давать информацию инвесторам и кредиторам об экономических ресурсах компании и достигнутых финансовых результатах.

2. «Качественные характеристики учетной информации» описывает и трактует такие характеристики, как уместность, понятность, достоверность и др.

3. «Элементы финансовой отчетности промышленного предприятия» дает трактовку десяти основных элементов отчетности: активы, кредиторская задолженность (обязательства), собственный капитал, инвестиции собственников, выплаты собственникам, совокупный доход за отчетный период, поступления (выручка), расходы, капитализированные доходы, потери.

4. «Цели финансовой отчетности некоммерческих организаций» дает характеристику отчетности, подготавливаемой компаниями, для которых получение прибыли не является основной целью.

5. «Квантифицируемость, признание оценок и их отражение в финансовой отчетности промышленного предприятия» описывает основные требования к идентификации, а также критерии, которым должна удовлетворять та или иная статья, включаемая в отчетность.

6 «Элементы финансовой отчетности» представляет собой модификацию Положения 3, предназначенную для промышленных предприятий.

Классификация пользователей бухгалтерской отчетности может быть выполнена различными способами, однако чаще всего выделяют три группы пользователей.

К первой группе относят внешних пользователей, заинтересованных в результате деятельности компании прямо или косвенно. Это собственники промышленных предприятий, которые чаше всего не принимают непосредственного повседневного участия в управлении компанией: инвесторы, предоставляющие фирме капитал в виде долгосрочных займов и кредитов; контрагенты, взаимодействующие с компанией в ходе поставки сырья и материалов или покупки ее продукции; органы государственной власти, прежде всего налоговые службы и органы государственной статистики; финансовые институты и др. Интересы представителей этой группы, удовлетворяемые с помощью отчетности, связаны с желанием иметь достоверную и документально подтвержденную информацию о финансовых результатах и финансовом состоянии данной компании.

Ко второй группе относится непосредственно персонал бухгалтерской службы. Отчетность представляет интерес для этой группы лиц прежде всего как завершающий элемент учетно-аналитического процесса, увязывающий в единое целое многообразие операций, имевших место в отчетном периоде, и подводящий очередной итог их деятельности.

К третьей группе относится управленческий персонал данной компании. Заинтересованность, проявляемая представителями данной группы к содержательной части отчетности, выражена гораздо менее отчетливо по сравнению с внешними пользователями и бухгалтерами. Дело в том, что их интересы лежат в сфере управленческого учета, однако поскольку этот раздел учета, равно как и финансовый учет, имеют, в сущности, одну и ту же информационную базу, данные финансовой отчетности представляют для них интерес, прежде всего с позиции принятия решений в области инвестиционной политики.

Цели финансовой отчетности определяются потребностями пользователей. Поэтому она должна содержать информацию о результатах финансово-хо-

зяйственной деятельности, а также о текущем финансовом положении и происшедших в нем изменениях за отчетный период.

В странах рыночной экономики анализ баланса является важной составной частью анализа финансовой отчетности. Для понимания основ этой методики предполагается последовательное ознакомление со следующими вопросами: потенциальные пользователи финансовой отчетности; структура годового отчета; документы, регламентирующие составление бухгалтерской отчетности; методика анализа: используемые технические средства и методы анализа. ктивное включение Азербайджана в процесс мировой экономической интеграции на государственном уровне, а также на уровне подотраслей, организаций и предприятий сталкивает республику с проблемой решения принципиальных проблем, в числе которых проблема гармонизации бухгалтерского учета. В связи с этим по приказу Министерства Финансов Азербайджанской Республики от 23 июля 2007 г. утверждены Концептуальные основы Национальных Стандартов Бухгалтерского Учета (НСБУ) и составления финансовой отчетности для коммерческих организаций. Они не являются стандартом, формируют общую концепцию, фундамент для разработки НСБУ.

Концептуальные основы разъясняют цель финансовой отчетности, определяют примерную группу пользователей финансовой отчетности, устанавливают основополагающие допущения, на которых базируются НСБУ, раскрывают качественные характеристики информации финансовой отчетности, определяют сущность элементов финансовой отчетности и порядок их признания и оценки.

Согласно Концептуальным основам цель финансовой отчетности состоит в представлении существенной и полезной информации о финансовом положении и финансовых результатах деятельности коммерческой организации. Пользователями финансовой отчетности являются: группа акционеров, группа заимодавцев, группа наемных работников, группа аналитиков и консультантов, правительство, общественность.

Концептуальные основы устанавливают два основополагающих допущения, на которых базируются НСБУ:

1) учет по методу начисления. Доходы и расходы, возникающие в результате хозяйственных операций, признаются по мере их совершения, а не тогда, когда получены или выплачены денежные средства и их эквиваленты;

2) непрерывность деятельности предприятия. Концепция непрерывной деятельности предприятия предполагает, что предприятие будет продолжать свою деятельность и у него нет намерения прекратить деятельность или существенно сократить масштабы этой деятельности. Как правило, при составле-

нии финансовой отчетности первоначальная стоимость активов и обязательств используется как основа или база их дальнейшей оценки или переоценки. Непрерывная деятельность предприятия создает основу для оценки активов и обязательств по первоначальной стоимости. Если есть вероятность ликвидации предприятия, то основой для оценки активов являются не расходы, связанные с их приобретением, а чистая стоимость их реализации, то есть ликвидационная стоимость [2, 43-44].

Концептуальные основы выделяют следующие основные качественные характеристики информации: уместность, существенность, надежность, правдивое представление, преобладание сущности над формой, нейтральность, осмотрительность, полнота, сопоставимость, последовательность и понятность.

Отдельные положения Концептуальных основ повторяет Национальный стандарт Бухгалтерского учета 1.

«НСБУ 1 определяет **комплект финансовой отчетности,** раскрывает назначение, содержание, порядок формирования и представления публикуемых отчетов.

Согласно НСБУ 1, формы финансовой отчетности должны давать структурированное представление об операциях, осуществляемых предприятием, о его финансовом положении, финансовых результатах.

Финансовая отчетность должна составляться с целью формирования информации об активах, обязательствах, капитале, доходах, расходах, финансовых результатах, движении денежных средств, которая используется пользователями при принятии экономических решений. В составляемой финансовой отчетности должна быть информация и об учетной политике, применяемая на предприятии. Вся информация финансовой отчетности должна быть доведена до сведения пользователей путем публикации полного комплекта отчетности.

Согласно НСБУ 1 полный комплект финансовой отчетности включает:

- Бухгалтерский баланс;
- Отчет о прибылях и убытках;
- Отчет об изменениях в капитале;
- Отчет о движении денежных средств;
- Учетную политику и примечание к отчетности.

В примечаниях должна отражаться информация, разъясняющая динамику показателей отчетности, изменения в средах функционирования предприятия, инвестиционной политики и источников финансирования и т.д.

Согласно НСБУ 1 форма финансовой отчетности должна быть четко определена и выделена из прочей публикуемой информации и деятельности пред-

приятия. Национальные Стандарты Бухгалтерского учета для коммерческих организаций применяются лишь по отношению к финансовой отчетности.

Заголовок отчета, составляемого по НСБУ для коммерческих организаций, должен содержать следующую информацию:

- название и другие реквизиты отчитывающегося предприятия;
- название публикуемого отчета;
- составление отчетности для одного или нескольких предприятий;
- дата или период представления финансовой отчетности;
- валюта отчетности;
- степень агрегированности цифровой информации, отраженной в финансовой отчетности.

Согласно НСБУ 1 финансовая отчетность должна представляться как минимум ежегодно. В исключительных случаях, период, за который представляется отчетность, может быть продолжительнее или короче, чем год. В этом случае необходимо раскрывать причину использования периода, отличающегося от одного года, а также того, что сравнительные суммы по отчетам о прибылях и убытках, об изменениях в капитале, о движении денежных средств и по примечаниям несопоставимы.

Из НСБУ 1 следует, что предприятие годовую финансовую отчетность и консолидированную финансовую отчетность должно представлять соответственно в течение 4-х и 6-ти месяцев после отчетной даты [3].

Ответственность за подготовку, представление и публикацию финансовой отчетности несет совет директоров и (или) другой управленческий орган предприятия, а при отсутствии такого органа – руководитель предприятия» [2,53-55].

В Азербайджане в процессе хозяйственной деятельности реформы бухгалтерского учета обуславливают проведение трех этапов:

Первый этап подразумевает принятие пакета законодательных актов, регулирующих деятельность субъектов бухгалтерского учета в разработке и представлении финансовой отчетности в соответствии с международными стандартами.

Второй этап заключается в разработке и осуществлении комплекса мероприятий, отраженных в соответствующих нормативно-правовых актах по представлению субъектами бухгалтерского учета новой финансовой отчетности в установленные законодательством Азербайджана сроки.

Третий этап представляет собой реализацию процесса постоянного обучения в целях приобретения необходимых знаний по подготовке новой финансовой отчетности субъектами бухгалтерского учета, осуществление внешнего

и внутреннего аудита за качественным и своевременным представлением этой отчетности [5].

Отношения с нормативно-правовой базой, связанные с бухгалтерским учетом и отчетностью регулируются Законом «О бухгалтерском учете» и другими законодательными актами Азербайджанской Республики. Закон «О бухгалтерском учете», принятый 2 сентября 2004 г., позволил утвердить основной пакет нормативно-правовых актов, регулирующих деятельность субъектов бухгалтерского учета по применению новой финансовой отчетности [1]. В соответствии с законом все коммерческие организации, приравненные к общественно значимым структурам, обязаны применять Международные Стандарты Финансовой Отчетности (IFRS), а остальные коммерческие предприятия, за исключением малого предпринимательства – Национальные Стандарты Бухгалтерского Учета на базе IFRS начиная с 01 января 2008-го года. При этом муниципальные органы, бюджетные организации и внебюджетные государственные фонды обязаны применять Национальные Стандарты Бухгалтерского Учета в соответствии с Международными Стандартами Бухгалтерского Учета для Общественного Сектора (IPSAS) начиная с 01 января 2009-го года. Указом Президента Азербайджанской Республики от 7 февраля 2005-го года на Министерство финансов были возложены полномочия по государственному регулированию бухгалтерского учета, то есть разработка необходимых мероприятий с целью представления субъектами бухгалтерского учета более прозрачной и новой финансовой отчетности, подготовленной в соответствии с международными требованиями [5].

Переход на МСФО осуществляется под руководством Министерства финансов Азербайджана и при финансовой поддержке Мирового Банка. Так сегодня реализуется проект «CorporateandPublicSectorAccountabilityProject», финансируемый Правительством Азербайджана совместно с Мировым Банком, а также при участии Секретариата Швейцарии и Правительства Японии [5].

На сегодняшний день все кредитные организации, страховые компании, общественно значимые коммерческие организации, бюджетные, неправительственные и муниципальные организации формируют свою отчетность в соответствии со стандартами IFRS, IPSAS и Национальных стандартов на их базе. В соответствии с законодательством, для тех организаций, которые не предоставляют отчетность в указанный период или же не формируют отчетность в соответствии со стандартами, была введена система штрафования, что явилось качественной мерой прямого стимулирования.

Таким образом, по результатам проведенных реформ были созданы все необходимые условия для составления предприятиями отчетности на базе международных стандартов. Вместе с тем, внедрение стандартов выявило це-

лый ряд проблем, требующих незамедлительного решения, в первую очередь проблемы нехватки квалифицированного персонала в сфере учета и аудита. А это естественно оказывает прямое влияние на качество отчетности, и результаты реформ достигаются не в нужной мере.

Начиная с 2010-го года весь учебный процесс в Азербайджане, связанный с учетом и аудитом был организован по международным и национальным стандартам бухгалтерского учета. Совместно со Всемирным Банком созданы Тренинговый и Сертификационный Центры, где переобучаются и повышают квалификации бухгалтера и аудиторы, которые в дальнейшем получают сертификаты.

Совершенствование законодательной базы должно включать следующие элементы [5]:

- стандарты и требования учета и аудита; - контроль и соблюдение стандартов; - лицензирование бухгалтеров и аудиторов; - профессиональная подготовка бухгалтеров и аудиторов; - корпоративное управление; - профессиональные этические стандарты бухгалтеров и аудиторов; - дисциплинарные меры, проверки, а также ответственность аудиторов.

Заключение

Финансовая отчетность содержит обобщенные сведения о результатах производственно-хозяйственной и финансовой деятельности предприятия.

Роль финансовой отчетности особенно возросла сегодня, когда наблюдается тесное сближение национальных экономик стран мира, а это вызвало унификацию методов и принципов составления финансовой отчетности. Поэтому умение правильно осознать данные отчетности становится главной предпосылкой эффективного развития хозяйственных связей в азербайджанской экономике.

Таким образом, совершенствование отчетности, которая является завершающей стадией учетного процесса, приводит к образованию цепной реакции, изменению системы бухгалтерского учета по всем звеньям цепочки, то есть от первичных документов до бухгалтерских регистров. А основой надежности, обоснованности финансовых решений, а также важным условием цивилизованных отношений в бизнесе становится анализ финансовой отчетности .

Литература

[1] Закон Азербайджанской Республики «О бухгалтерском учете». Баку, 2004

[2] Концептуальные основы Национальных Стандартов Бухгал. учета для коммерческих организаций. Баку, 2010

[3] Национальные Стандарты Бухгалтерского Учета. Баку, 2013

[4] Международные Стандарты Финансовой Отчетности. Под редакцией Гетьман В.Г., Гриф – М. ИНФРА-М, 2012

[5] http://www.audit.gov.az/

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 216 - 224
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 216 - 224

VERGİ GÜZƏŞT VƏ İMTİYAZLARININ BEYNƏLXALQ TƏCRÜBƏSİ VƏ ONLARIN İQTİSADİYYATIN VERGİ TƏNZİMLƏNMƏSİ PROSESİNDƏ ROLU

Z.Q. Quliyev
i.ü.f.d., Bakı Biznes Universiteti
Məqalə redaksiyaya daxil olmuşdur 12 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 12 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi iqtisadiyyatın vergi tənzimlənməzi prosesində vergi güzəştlərinin və imtiyazlarının rolunun araşdırılması, inkişaf etmiş ölkələrin qabaqçıl təcrübələri misal gətirilərək sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəldilmiş vergi güzəştlərinin təhlil olunmasından ibarətdir. Tədqiqat işində xarici ölkələrin və Azərbaycan Respublikasının vergi tənzimlənməsi sahəsindəki təcrübənin müqayisəli təhlili aparılır. Tədqiqatın nəticəsində vergilərlə bağlı güzəştlər, vergiyə cəlb olunan mənfəətin azaldılması, vergi dərəcəsinin aşağı salınması, vergidən tam azad edilmə, kiçik təsərrufatçılıq subyektləri üçün daha aşağı vergi dərəcələrinin tətbiqi yolları araşdırılır. Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: vergi güzəştlərinin təhlili mənfəətin vergiyə cəlb olunması zamanı tətbiq olunan bütün vergi güzəştlərinin əksər hissəsini təşkil edir və həm də bir sıra vacib sosial məqsədlərinin əldə olunmasına şərait yaradır. Tədqiqatın elmi yeniliyi və orijinallığı: vergi güzəşt və imtiyazlarının beynalxalq təcrübəsinin, respublikamızda vergi tənzimlənməsi baxımından, xarici təcrübənin piroritet məsələlərinin nəzərə alınması və tətbiqi məqsədə müvafiqdir.

Açar sözlər: sosial təminat sistemi, təqaüd təminatı, sosial yardım, sosial xidmət, qeyri-dövlət sektoru.
Jel Classification: H21

INTERNATIONAL EXPERIENCE OF TAX BENEFITS AND PREFERENCES, THEIR ROLE IN THE PROCESS OF REGULATION OF THE ECONOMY

Abstract

The main task of the study is to examine the role of tax privileges and preferences in the process of tax regulation of the economy, analysis, on the example of best practices of developed countries, tax incentives aimed at stimulating entrepreneurial activity. The work compares the experience of tax regulation in foreign countries and the Republic of Azerbaijan. The results of the study: in the study, ways of

applying tax benefits are considered, including reduction of the taxable portion of profits, reduction of the tax rate, development of taxes, lower tax rates for small business entities. Limitations of the study: it requires more practical information. Practical value of research: analysis of tax benefits covers most of all tax benefits used for taxation of profits, and also creates an opportunity to achieve a number of important social tasks. Scientific value and originality of research: it is advisable to take into account and apply priority, from the point of view of tax regulation, issues of international experience in applying tax benefits and privileges in our republic.

Keywords: tax privileges and benefits, profit tax, indirect taxes, tax credit, depreciation method.

МЕЖДУНАРОДНЫЙ ОПЫТ НАЛОГОВЫХ ЛЬГОТ И ПРЕФЕРЕНЦИЙ, ИХ РОЛЬ В ПРОЦЕССЕ РЕГУЛИРОВАНИЯ ЭКОНОМИКИ

Резюме

Основная задача исследования в рассмотрении роли налоговых льгот и преференций в процессе налогового регулирования экономики, анализе, на примере передового опыта развитых стран, налоговых льгот, направляемых на стимулирование предпринимательской деятельности. В работе проводится сравнительный анализ опыта налогового регулирования в зарубежный странах и Азербайджанской Республике. Результаты исследования: в исследовании рассматриваются пути применения налоговых льгот, в том числе, уменьшение налогооблагаемой части прибыли, снижение налоговой ставки, освобождение от налогов, более низкие налоговые ставки для субъектов малых хозяйств. Ограничения исследования: требуется более широкая практическая информация. Практическая ценность исследования: анализ налоговых льгот охватывает большую часть всех налоговых льгот, применяемых при налогообложении прибыли, а также создает возможность для достижения ряда важнейших социальных задач. Научная ценность и оригинальность исследования: целесообразно приятие во внимание и применение приоритетных, с точки зрения налогового регулирования, вопросов международного опыта по применению налоговых льгот и привилегий в нашей республике.

Ключевые слова: налоговые льготы и преимущества, налог на прибыль, косвенные налоги, налоговый кредит, метод амортизации.

Vergi güzəşt və imtiyazlarının iqtisadiyyatın vergi tənzimlənməsi prosesində rolunun araşdırılması, xarici ölkələrdə və respublikamızda istifadə olunan vergi güzəştləri sisteminin müqayisəli təhlili böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Qeyd

edilməlidir ki, bütün əsas vergi növlərinə vergi güzəştləri tətbiq olunur və onların hər birinin məqsədli təyinatı müvafiq vergi növünün xüsusiyyətlərindən asılıdır.

Təyinatına görə iki əsas vergi güzəştləri növü fərqləndirilir:

- istehsal və sahibkarlıq fəaliyyətinin ümumi stimullaşdırılmasına yönəldilən vergi güzəştləri;
- müəyyən sosial məsələlərin həllinə yönəldilmiş vergi güzəştləri.

Birinci növ vergi güzəştləri əsasən mənfəət vergisinə tətbiq olunur. İkinci növ vergi güzəştləri isə bilavasitə və yaxud son nəticədə əhali tərəfindən ödənilən birbaşa və dolayı vergilərə şamil olunur.

Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəldilən vergi güzəştlərinin təhlili mühüm əhəmiyyət kəsb edir. Bu güzəştlər mənfəətin vergiyə cəlb olunması zamanı tətbiq olunan bütün vergi güzəştlərinin əksər hissəsini təşkil edir. Bununla belə bu qrupda tam və yaxud qismən bir sıra sosial məsələlərin həlli ilə bağlı olan güzəştlər də mövcuddur. Əsasən müəyyən sahələrin və sahibkarlıq fəaliyyəti istiqamətlərinin stimullaşdırılmasına yönəldilən vergi güzəştləri, eyni zamanda, həm də bir sıra vacib sosial məqsədlərinin əldə olunmasına şərait yaradır.

Ümumiyyətlə, mənfəətin verguyə cəlb olunması zamanı tətbiq olunan vergi güzəştlərinin təhlili respublikamız üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, hazırda belə bir fikir formalaşmışdır ki, vergi güzəştləri sistemi sahibkarlıq fəaliyyətini stimullaşdırmaq əvəzinə vergitutmadan yayınmaya şərait yaradır.

İnkişaf etmiş ölkələrdə mənfəətin vergiyə cəlb olunması sistemi XX əsrin əvvəllərindən formalaşmağa başlamış və İkinci Dünya müharibəsindən sonra bu istiqamətdə sabitləşmə müşahidə olunmuşdur. Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərində kapitalist ölkələrində əsas vergilər kimi həm dolayı vergilər, həm də mülkiyyətdən tutulan vergi növləri (torpaq vergisi də daxil olmaqla) mövcud olmuşdur. Hələ 1902-ci ildə ABŞ-də bütün büdcə daxilolmalarının 42%-ni mülkiyyətdən vergilər, 30%-dən çox hissəsini isə satışdan vergi, aksizlər və gömrük rüsumları da daxil olmaqla mülkiyyətdən vergilər təşkil etmişdir. Həmin dövrdə mənfəətdən vergi müstəqil vergi növü kimi fəaliyyət göstərməmişdir. Mənfəət vergisi dövlət büdcəsinin gəlirlərinin çatışmaması zamanı, əsasən də müharibə dövrlərində yalnız fiksal məsələlərin həllindən ötrü tətbiq olunmuşdur. Müharibə dövründə mənfəət vergisi ABŞ-də federal büdcə gəlirlərinin mühüm mənbələrindən biri olmuşdur. Hələ ABŞ-nin rəsmi olaraq Birinici Dünya müharibəsinə qoşulmadığı 1917-ci ilə qədər fiziki şəxslərdən gəlir vergisinin və mənfəət vergisinin cəmi məbləği ölkənin federal büdcəsinin vergi gəlrlərinin 32%-ni təşkil etdiyi halda, ölkə müharibəyə qoşulduqdan sonra bu rəqəm 1918-ci ildə 68%, 1919-cu ildə isə 56% olmuşdur.

İkinci Dünya müharibəsi illərində Koreya və Vyetnamda müharibə zamanı mənfəət vergisindən başqa fiskal məqsədlərdən ötrü yüksək mənfəətə vergilər də tətbiq

olunmağa başlanıldı. Məsələn, 1951-1953-cü illərdə Koreya müharibəsi zamanı ABŞ şirkətləri mənfəət vergisi və yüksək mənfəətdən vergi kimi özlərinin mənfəətinin 82 faizə qədərini dövlət büdcəsinə ödəməli olurdular. Bunun nəticəsində də həmin illərdə mənfəət vergisi federal büdcənin vergi gəlirlərinin 30,4%-ni təşkil etmişdir.

Lakin həddindən yüksək olan fiksal təzyiq mənfəətin stimullaşdırıcı funksiyasına elə şəkildə mənfi təsir göstərmişdir ki, hətta sabitlik dövründə ümumi vergi daxil-olmalarının içərisində mənfəət vergisinin payı kəskin şəkildə aşağı düşmüş və orta hesabla 10% təşkil etmişdir.

Eyni zamanda, mənfəətin vergiyə cəlb olunmasında fiskal və istehsal-stimullaş-dırıcı funksiyaların optimal nisbətinin nəzəri və praktiki axtarışı istiqamətində işlər görülmüşdü. XX əsirin 70-ci illərində qeyd olunan axtarışlar mənfəətə yüksək vergi dərəcələri ilə bu vergi növü üzrə xüsusi sahibkarlıq və istehsal fəaliyyətinin əsas sa-hələrinin stimullaşdırılması üçün nəzərdə tutulmuş əhəmiyyətli güzəştlərin əlaqələn-dirilməsi istiqamətində aparılmışdır. Lakin sonrakı illərdə mənfəətin vergiyə cəlb olunmasında bir qədər fərqli nəzəri, sonra isə praktiki olaraq həyata keçirilmiş yanaşmalar mövcud olmuşdur.

Bu istiqamətdə "təklif iqtisadiyyatı" nəzəriyyəsinin görkəmli nümayəndəsi Amerika iqtisadçısı A. Lafferin "Laffer əyrisi" adı ilə məhşur olan tədqiqatları əhəmiyyəti rol oynamağa başladı. A.Laffer mənfəət vergisi dərəcəsini aşağı salmaqla bu vergidən daxilolmaların həcmini sabit saxlamaq və hətta artırmağın mümkünlüyünü əks etdirən parabolik əyri formasında, ilk baxışda paradoksal görünən ideyanı irəli sürdü. O, bu ideyanı aşağıdakı kimi əsaslandırdı: daha aşağı vergi dərəcələri işgüzarlığa, yığıma və investisiyaya, həmçinin innovasiyaya, işgüzar risklərin qəbul edilməsinə stimul yaratmaqla, milli istehsalın və gəlirin əhəmiyyətli dərəcədə artımına şərait yaradacaq-dır. Bu şəkildə genişlənmiş vergitutma bazası hətta aşağı Salınmış vergi dərəcələri ilə vergi daxilolmalarının həcminin əvvəlki səviyyədə qalmasını təmin edəcəkdir.

Lafferin və "təklif iqtisadiyyatı"nin digər nəzəriyyəçilərinin ideyaları kifayət qə-dər daha tez özünün praktiki tədbiqini tapdı. Laffer özü 1974-cü ilin sonunda ABŞ-nin xəzinadırlığına təklif etdi ki, istehsalın stimullaşdırılması məqsədi ilə daha təsirli vasitə kimi vergi dərəcələrinin ilk növbədə mənfəət vergisi dərəcəsinin aşağı salın-masından istifadə edilsin və bunun əsasında da həmin dövrdə ölkəni narahat edən güclü inflyasiyanın qarşısı alınmış olsun.

A.Lafferin ideyaları bir sıra qərb iqtisadçıları tərəfindən tənqidi qəbul edildi. Ver-gi dərəcələrinin aşağı salınması nəticəsində istehsalın və gəlirlərin artımı və müvafiq olaraq vergitutma bazasının genişlənməsi hesabına dövlət büdcəsinin gəlirlərinin azalmasının qarşısının alınmasının mümkünlüyü barədə Lafferin ideyaları kifayət qədər sadəlövh xarakter daşıyırdı və qısamüddətli perspektivdə onun həyata keçiril-

məsi şübhəli görünürdü. Bütün bunlar da son nəticədə praktiki olaraq dövlət büdcəsinin kəsirinin artmasına səbəb olacaqdır.

Qeyd edilənlərə baxmayaraq, Lafferin təklifləri 1982-ci ildən R. Reyqanın prezidentliyi dövründə ABŞ-də 80-ci illərin vergi islahatları çərçivəsində, sonra isə praktiki olaraq inkişaf etmiş ölkələrin əksəriyyətində qəbul edildi və rəsmi olaraq tətbiq olunmağa başlanıldı. Bu zaman həmin ölkələrdə müxtəlif mənfəət vergisinin dərəcəsi 30-40-%-ə gədər aşağı salındı.

XX-ci əsrin 80-ci illərinin əvvəllərindən başlayaraq, inkişaf etmiş ölkələrdə mənfəətin vergiyə cəlb olunmasında yüksək vergi dərəcələrinin geniş vergi güzəştləri sistemi ilə uyğunlaşdırılması ifadə olunan əvvəlki yanaşma daha aşağı vergi dərəcələrinin daha az vergi güzəştləri ilə uyğunlaşdırılması yanaşması ilə əvəz olundu. Vergi dərəcələrinin daha aşağı salınması "təklif iqtisadiyyatı" nəzəriyyəsinin müddəalarına əsaslandığı halda, mənfəət vergisi üzrə güzəştlərin azaldılması isə aşağıdakı iki əsas digər səbəblə bağlı idi. Daha praqmatik görünən birinci səbəb mənfəət vergisinin aşağı salınması nəticəsində büdcənin vergi daxilolmaları üzrə itkilərini qismən də olsa kompensasiya etmək zərurətindən irəli gəlir. İkinci səbəb isə iqtisadiyyata dövlətin təsirinin azaldılmasını təklif edən liberal-monetarist məktəbin təsirinin güclənməsi ilə bağlıdır. Liberal konsepsiyaya uyğun olaraq, mənfəət vergisi üzrə güzəştlərin azaldılması vergi manevrlərinin köməyi ilə iqtisadiyyatın və ya digər sahələrin inkişafına dövlətin təsirinin azaldılmasına gətirib çıxarır. Bu zaman prioritet bazar mexanizmlərinə verilir.

İnkişaf etmiş ölkələrdə XX əsrin 80-cı illərində vergi güzəştlərinin müəyyən gədər aşağı salınması müəyyən dəyişikliklərə gətirib çıxartdı. Ölkənin hansı növ vergi güzəştinə üstünlük verməsindən asılı olmayaraq, mənfəətin vergiyə cəlb olunmasında ilk növbədə vergi stimullaşdırılması mexanizminin səmərəli fəaliyyətini təmin edən güclü vergi güzəştləri sistemi qorunub saxlanıldi.

Mənfəətin vergiyə cəlb olunmasında vergi güzəştlərinin ən vaciblərinin xarakteristikalarını nəzərdən keçirək. Bu güzəştləri onların yerinə yetirdikləri funksional məsələlər üzrə bir neçə qrupa bölmək olar. Ayrı-ayrı sahələrdə, region miqyasında və ölkə səviyyəsində sahibkarların investisiya və elmi-texniki fəaliyyətinin stimullaşdırılmasına yönəldilən güzəştlər (xarici investisiyalar üzrə güzəştlər də daxil olmaqla) daha dayanaqlı xarakter daşıyır. Müəyyən olunmuş bu güzəştlər təsərrüfat subyektlərinə özlərinin dayanaqlı iqtisadi vəziyyətinin qorunub saxlanılmasında böyük kömək edir.

Güzəştlər onların həyata keçirilməsi üsullarına görə bir-birindən fərqlənir. Bütün inkişaf etmiş ölkələrdə, o cümlədən respublikamızda sürətli amortizasiya kimi dolayı güzəşt növü mövcuddur. Onun köməyi ilə vergiyə cəlb olunan mənfəətdən çıxılan amortizasiya ayırmalarının hesablanmış məbləği onların iqtisadi olaraq əsas-

landırılmış kəmiyyətindən yüksək olur. Bunun nəticəsində də mənfəətin bir hissəsi istehsal məsrəfləri hesabına azalır və bununla da vergidən azad olur.

Birbaşa vergilərlə bağlı güzəştlər vergiyə cəlb olunan mənfəətin azaldılması, vergi dərəcəsinin aşağı salınması, vergi məbləğinin azaldılması, vergidən tam azad edilmə kiçik təsərrufatçılıq subyektləri üçün daha aşağı vergi dərəcələrinin tətbiqi yolu ilə həyata keçirilir.

İnkişaf etmiş xarici ölkələrdə və respublikamızda sürətli amortizasiya metodundan müasir istifadə məsələlərini daha geniş şəkildə nəzərdən keçirək. Bütün inkişaf etmiş ölkələrdə amortizasiyanın hesablanması bazası kimi bərabər və yaxud düz xətli silinmə çıxış edir. Qeyd olunanlara müvafiq olaraq əsas kapitalın elementlərinin ilkin dəyəri (alınma dəyəri) bərabər məbləğdə onların xidmət illərinin sayına bölünür. Məsələn, əgər hər hansı bir avadanlığın xidmət müddəti 8 ildirsə, onda bərabər silinmə metoduna uyğun olaraq, hər il həmin avadanlığın ilkin dəyərini 12,5%-i məbləğində amortazasiya hesablanmalıdır. Sürətli amortazasiya əsas kapitalın fəaliyyətdə olan elementlərinin daha tez silinməsini nəzərdə tutur.

İnkişaf etmiş ölkələrdə azalan qalıq metodu daha geniş tətbiq olunur. Bu metoda uyğun olaraq ilk amortazasiya ayırmaları əsas kapitalın qalıq dəyərinə (tam ilkin qalıq dəyəri ilə amortazasiya ayırmalarının fərqi) sabit faiz dərəcələrini tətbiq etməklə müəyyən olunur. Bu metod əsas vəsaitlərin istismara verdiyi ilk illərdə amortizasiya ayırmalarının kəskin artımına imkan verir.

Ayrı-ayrı ölkələrdə sürətli amortizasiyadan istifadə təcrübəsində oxşar cəhətlər və kəskin fərqli cəhətlər müşahidə olunur. Ümumi oxşar cəhətlər kimi aşağıdakıları qeyd etmək olar:

1. Əsas kapitalın həlledici elementləri üzrə xidmət (istismar) illəri müəyyən edilməklə amortizasiyanın metod və normaları dövlətin qanunvericiliyinə uyğun olaraq əsaslı surətdə işlənib hazırlanır.

2. Amortizasiya iki üsulla hesablanır:

a) tam şəkildə bərabər bölünmə metoduna əsasən;

b) qanunla müəyyən edilmiş obyektlər üzrə sürətli amortizasiyanın tətbiqi yolu ilə.

Hesablanan bütün amortizasiya məbləği vergiyə cəlb olunan mənfəətin müəyyən edilməsi zamanı istehsal məsrəflərinə, daha doğrusu, təsərrüfat subyektərinin gəlirdən çıxılan xərclərinə daxil edilir.

Korporativ mənfəətin və amortizasiyanın həcminin qiymətləndirilməsi zamanı daha bir vacib korrektəedici halın, yəni bu və ya digər dövrdə inflyasiyanın təsirindən qiymətlərin artımının nəzərə alınması vacib məsələlərdən biridir. Amortizasiya silinmələri əsas kapitalın elementlərinin tam ilkin dəyərindən hesablandığına görə, bərabər silinmə metoduna əsasən hesablanan amortizasiya ayırmalarının məbləği

onun iqtisadi əsaslandırılmış kəmiyyətindən az ola bilər. Bu zaman sürətli amortizasiya ayırmalarının məbləğini onların iqtisadi əsaslandırılmış kəmiyyətinə çatdırır.

Bir sıra ölkələrdə inflyasiyanın amortizasiyaya mənfi təsirini qiymətlərin artım tempinə uyğun olaraq, əsas vasitələrin yenidən qiymətləndirilməsinə icazənin verilməsi yolu ilə, yəni onların ilkin dəyərini bərpa dəyəri ilə əvəz etməklə yüngülləşdirməyə və yaxud tamamilə aradan qaldırmağa çalışırlar. Lakin sürətli amortizasiya metoduna nisbətən bu istiqamətdən istifadə praktiki olaraq kifayət qədər çətindir və buna görə də, sonradan geniş tədbiq olunmamışdır.

İnflyasiya nəticəsində binaların, tikililərin və avadanlıqların qiymətini getdikçə bahalaşması amortizasiya ayırmalarının məbləğinin artırılmasını tələb edir. Bu da sürətli amortizasiyanın tədbiqini zəruri edir və son nəticədə vergiyə cəlb olunan mənfəətin məbləği azalır. Ümumiyyətlə, "sürüşən" inflyasiya (qiymətlərin səviyyəsinin il ərzində 10%-ə qədər artması) zamanı sürətli amortizasiya metodundan istifadə vergiyə cəlb olunan mənfəətin azalması nöqteyi-nəzərindən kifayət qədər böyük məbləğdə uduş əldə etməyə imkan verir. Bu effekt ayrı-ayrı ölkələrdə sürətli amortizasiyanın hesablanması xüsusiyyətlərindən əhəmiyyətli dərəcədə asılıdır.

ABŞ-də bu amortizasiya növü XX əsrin 50-ci illərinin əvvəllərindən geniş tətbiq olunmağa başlanmışdır. Həmin vaxta qədər amortizasiya əsasən qanunvericiliklə müəyyən edilmiş xidmət illəri müddətində bərabər dəyər metodu ilə hesablanmışdır. Ötən əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərindən başlayaraq sürətli amortizasiya metodundan istifadə genişlənməyə başlanmışdır. ABŞ-da 80-ci illərin əvvəllərində vergi islahatları çərçivəsində sürətli amortizasiyadan isitfadə xüsusi əhəmiyyət kəsb edir. Lakin bu metodun tətbiqi ilə bağlı tədbirlər ardıcıl aparılmışdır. Belə ki, 1981-ci ildə qəbul edilmiş bir sıra normativlər 1986-cı ildə ləğv edilmiş və ya nisbətən yüngülləşdirilmişdir. Həmin dövrdə vergi tutulan mənfəətin azaldılması üçün əsas tədbir kimi əsasən vergi dərəcəsinin aşağı salınması qəbul edilirdi.

İngiltərədə ötən əsrin 50-ci illərindən başlayaraq azalan qalıq metodu əsasında sürətli amortizasiyadan istifadə olunmağa başlanıldı. Həmin əsrin 60-70-ci illərində bu metoddan istifadə geniş vüsət aldı. 1984-1986-cı illərdə mənfəət vergisi üzrə vergi dərəcələri və vergi güzəştləri azaldılmaqla aparılan vergi islahatları nəticəsində sürətli amortizasiya metodlarının tətbiqi getdikcə zəiflədi və onun tətbiqi yalnız maşın avadanlıqları ilə məhdudlaşdı. Bu zaman həmin avadanlıqlara azalan qalıq metodu ilə 25% amortizasiya norması tətbiq olunmuşdur.

Almaniyada sürətli amortizasiya metodunun tətbiqi təcrübəsi özünəməxsus spesifik xüsusiyyətlərə malik olmaqla Avropa Birliyinin bir sıra ölkələrində bu təcrübə daha geniş tətbiq olunmağa başlamışdı. Bu ölkədə sürətli amortizasiyadan istifadənin əsas xarakteristik xüsusiyyəti ondan ibarətdir ki, bu metod mənfəətin vergiyə cəlb olunmasında həlledici güzəşt rolunu oynayır. Bu ölkədə amortizasiya sistemi

digər ölkələrə nisbətən daha yüksək səviyyədə hazırlanmışdır. Almaniyada amortizasiyanın metod və normaları ciddi şəkildə qanunvericiliklə işlənmiş və baza metodu kimi müxtəlif kateqoriyalı əsas fondların dəyərinin bərabər silinməsi metodu qəbul edilmişdir. Lakin bərabər silinmə metodu ilə yanaşı, mövcud qanunvericilik bu aktivlərin azalan qalıq metodu üzrə sürətli amortizasiyasına da imkan yaradır. Bu metodun əsas xüsusiyyəti ondan ibarətdir ki, hesablamaların sadələşdirilməsi məqsədi ilə daha sadə variantlar tətbiq olunur.

Ümumiyyətlə, sürətli amortizasiya metodları dolayı vergi güzəşti olmaqla bir sıra inkişaf etmiş ölkələrdə müxtəlif dərəcədə tədbiq olunur. Son illərdə həmin ölkələrin əksəriyyətində bu metodlardan istifadə səviyyəsi müəyyən qədər aşağı düşmüşdür ki, bu da mənfəət vergisi üzrə güzəştlərin məhdudlaşdırılmasının ümumi tendensiyasını əks etdirir.

İnkişaf etmiş ölkələrdə sürətli amortizasiya metodundan istifadənin daha bir xüsusiyyəti vardır. Ekoloji tipli texnika və texnologiyanın tətbiqi ilə, enerji, su və s. istehlakının azaldılması və s. ilə bağlı investisiya qoyuluşunun stimullaşdırılması üçün onun tətbiqi genişləndirilir. Bir sıra ölkələrdə, məsələn Hollandiyada bu növ investisiyaların stimullaşdırılması üçün əsas fondlara, qeyd olunan meyarlara cavab verən, daha güzəştli amortizasiya metodlarının tətbiqinə icazə verilir.

Ayrı-ayrı Qərb ölkələrində təsərrüfat subyektlərinin investisiya məqsədlərinə və elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə (ETTKİ) sərf etdikləri məsrəflərin həcmi gədər vergi tutulan mənfəətin tam və yaxud qismən azaldılması şəklində də vergi güzəştləri tətbiq olunur. Bu cür vergi güzəştləri ABŞ, Kanada, İngiltirə, İtaliya, Belçika və bir sıra digər ölkələrdə müxtəlif həcmlərdə və müxtəlif müddətlərə tətbiq edilir. Vergi tutulan mənfəətin məbləğinin azaldılması daha bir spesifik forması kimi patentlərin, lisenziyaların dəyərinin və elmi-texniki tərəqqi ilə bağlı digər xərclərin (məsələn, elmi-tədqiqat işlərində istifadə olunan avadanlıqların dəyərinin birdəfəlik olaraq silinməsi) amortizasiyaya silinməsidir.

Miqyasına görə, tətbiq olunan vergi güzəştlərindən ikinci yerdə bu güzəştlərin kəmiyyəti qədər mənfəətin məbləğinin azaldılması durur. Bu formada vergi güzəştləri adətən vergi kreditləri adlanır. Vergi kreditləri şəklində olan vergi güzəştləri əsasən inkişaf etmiş ölkələrdə sahibkarların ETTKİ-yə və buna bənzər digər xarakterli işlərə sərf etdikləri investisiya xərclərinə münasibətdə tətbiq olunur. Xarici ölkələrdə adətən bir neçə növ vergi kreditlərindən istifadə olunur.

Onların arasında ən geniş yayılan investisiya kreditidir. Bu zaman mənfəət vergisinin məbləği müəssisənin investisiya xərclərinin müəyyən hissəsi qədər azaldılır. Lakin son zamanlar bir sıra ölkələrdə onun tətbiqi nisbətən zəyifləmişdir.

Mənfəətin vergiyə cəlb olunmasında tətbiq olunan investisiya, vergi krediti 1986-cı ildə ləğv olunmuşdur. Hazırda investisiya krediti şəklində olan bu vergi güzəşti

bir sıra ölkələrdə geniş tətbiq olunur. Burada əsasən iki məqsəd güdülür. Birincisi, onun geniş şəkildə tədbiq olunması investisiyaların stimullaşdırılmasına xidmət edir. İkinci tərəfdən isə dövlət investisiyaları stimullaşdırmaqla məşğulluq probleminin müəyyən qədər aradan qaldırılmasına nail olmağa çalışır.

Fransada istehsalın stimullaşdırılması üçün investisiya vergi kreditləri vergi siyasətinin əsas və ən güclü aləti kimi çıxış edir. Bu siyasətin vacib istiqamətlərindən biri də yeni yaradılan müəssisələrə vaxtaşırı olaraq daim dəyişən vergi güzəştlərinin verilməsidir. Fransada investisiya krediti siyasətinin əsas istiqamətlərindən biri də müəyyən regionların inkişafını stimullaşdirmaqdir. Bu zaman daha az inkişaf etmiş şimal rayonlarında yeni yaradılan şirkətlər ilk üç il ərzində həyata keçirdiyi investisiyaların 22%-i miqdarında investisiya krediti alır. Bir sıra inkişaf etmiş ölkələrdə (məsələn Kanada, Fransa, İtaliyada və s.) kifayət gədər geniş yayılan, elmi yeniliklərin və işləmələrin stimullaşdırılmasına və inkişafına yönəldilmiş vergi krediti forması mövcuddur. Belə ki, Fransada XX əsrin 90-cı illərində cari ildə ETTKİ-yə sərf olunan məbləğə əvvəlki iki il ərzində həmin istiqamətdə orta hesabla çəkilmiş xərclər arasındakı fərqin 50%-i qədər korporativ verginin azaldılmasına icazə verilir. İspaniyada ETTKİ-yə çəkilən xərclərin 20%-i məbləğinə vergi kreditləri verilir. Beləliklə, vergi güzəşt və imtiyazlarının beynalxalq təcrübəsinin respublikamızda mövcud olan sistemi ilə müqayisəli təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, respublikamızda iqtisadi inkişafın vergi tənzimlənməsi baxımından xarici təcrübənin piroritet məsələlərinin nəzərə alınması və tətbiqi məqsədə müvafiqdir.

Ədəbiyyat

[1] Abbasov Ə.M., Sadıqov M.M. Azərbaycan Respublikasının regionları: maliyyə və vergi potensialının proqnozlaşdırılması problemləri. Bakı: “Elm”, 2002.

[2] Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: “Elm”, 2005.

[3] Kəlbiyev Y.A. Hüquqi şəxslərin mənfəət vergisi: amortizasiya normaları. Azərbaycan vergi xəbərləri. 2009, №3.

[4] Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Bakı: 2006.

[5] Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: “Elm”. 2004.

[6] Бабашкина А.М. Государственное регулирование национальной экономики. М., «Финансы и статистика», 2004.

[7] Дернберг Р.Л. Международное налогообложение. М.,1997.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 225 - 231
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 225 - 231

THE EFFECT OF MACROECONOMİC FACTORS ON THE FİNANCİAL CHOİCE OF AZERBAİJAN FİRMS

E.N.Safarli

PhD, UNEC Biznes Məktəbi
saat hesabı müəl.
E-mail: elmir.safarli@sefco.net; elmir.seferli@yahoo.com
Tel: +99455 214 03 06
Məqalə redaksiyaya daxil olmuşdur 30 may 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 30 May 2017; accepted 22 September 2017; published online 05 oktyabr 2017

Abstract

The main purpose of this study is to determine the effect of macroeconomic factors on the financing choice of Azerbaijan companies. The sample covers the periods between 2007 and 2013. Unfortunately, data are not available for all companies through the years. So, unbalanced panel data analysis will be used for this investigation. Firstly, total 76 companies are used in this research. GDP and inflation are included to the sample as the main macroeconomic factors. Results indicates that only GDP is significantly and positively related with financing choice in Azerbaijan.

Keywords: Azerbaijan, capital structure, leverage ratio, GDP, Inflation
Jel Classification: D92

MAKROİQTİSADİ FAKTORLARIN AZƏRBAYCAN ŞİRKƏTLƏRİNİN MALİYYƏ SEÇİMLƏRİNƏ TƏSİRİ

Xülasə

Bu araşdırmanın əsas məqsədi Azərbaycanda fəaliyyət göstərən şirkətlərin maliyyə seçimlərinə təsir göstərəcək makro iqtisadi faktorların müəyyənləşdirilməsidir. Araşdırma 2007- 2013-cü illər arası periodu əhatə edir. Təəssüf ki, illər üzrə şirkətlərin təqdim etdiyi məlumat bazası tam olmadığından, balanslaşdırılmamış panel data analizi tətbiq olunmuşdur. Araşdırma üzrə Azərbaycanda fəaliyyət göstərən 76 şirkət seçilmişdir. Ümumi daxili məhsul və inflyasiya əsas makro iqtisadi göstərici olaraq analiz edilmişdir. Nəticələr göstərir ki, Azərbaycanda sadəcə ÜDM şirkətlərin maliyyə seçimini açıqlayan faktor hesab edilir və borclanma əmsalına müsbət yönlü və anlamlı təsir göstərir.

Açar sözlər: Azərbaycan, sərmayə strukturu, borclanma əmsalı, ÜDM, Inflyasiya

ВОЗДЕЙСТВИЕ МАКРОЭКОНОМИЧЕСКИХ ФАКТОРОВ НА ФИНАНСОВЫЙ ВЫБОР АЗЕРБАЙДЖАНСКИХ ФИРМ

Резюме

Цель настоящего исследования заключается в выявлении ключевых макроэкономических факторов, определяющих финансовый выбор компаний, функционирующих в Азербайджане. Исследование охватывает временной период с 2007 по 2013 гг. К сожалению, по причине неполноты баз данных, представленных компаниями, был проведен анализ с использованием несбалансированных панельных данных. В качестве объекта исследования были выбраны 76 компаний, функционирующих в Азербайджане.В качестве основных макроэкономических показателей анализировались ВВП и уровень инфляции. Результаты проведенного исследования показывают, что в Азербайджане основным фактором финансового выбора компаний является только ВВП, показывающий значимое положительное воздействие на долговую нагрузку.

Ключевие слова: Азербайджан, Структура капитала, финансового левериджа, ВВП, инфляции

1.Literature Review. After fundamental work of Modigliani and Miller (1958), researchers tried to put substantial effort for determining the indicators of capital structure. And most part of the investigations have been conducted on the measuring of effects of firm specific factors on the financial decision making.

Unfortunately, there were not sufficient researches from macroeconomic aspects. So, quantitative and qualitative changes in the economy of the country are essential for capital structure choice and financial decision making of firms. The main parts of financial researchers consider that the analysis of Booth, Aivazian, Demirguc Kunt and Maksimovic (2001) is coincided as the first paper on determining the relationship between the leverage ratio of the firms and macroeconomic factors. They investigated 49 companies from 10 countries.

The findings of the analysis indicate that the economic growth has positive and significant relationship with debt ratio. But inflation is negatively related to the leverages of firms. It means that increased inflation will decrease the amount of debt ratio.

Following this study, in literature, many analyzes are conducted concerning the survey of the effect of macroeconomic factors on the financing decision making. Jorgensen and Terra (2003) determined the effect of macroeconomic indicators, such as service level, transportation and public utilities level, wholesale trade level and retail trade.

Occasionally, it must be noted that the macroeconomic value was not available for all countries. Empirical findings explain that transportation and public utilities

are explanatory variables for capital structure choice and significantly related to leverage level of companies for all countries with the exception of Peru and Mexico.

Survey of Joever (2006) provides that macroeconomic indicators, such as industry leverage, GDP growth, inflation are explanatory indicators for capital structure choice of firms, and all these factors are statistically significant. However, domestic bank credit, market capitalization and government consumption are indicated as insignificant variables.

Bas, Muradoglu and Phylaktis (2009) proved that GDP, interest rate and tax rate has positive relationship with the leverage financing of the firm. It means that an increase in a country's gross domestic product will increase its debt ratio respectively. However, inflation is negatively related to leverage ratio.

Joever (2006) also analyzed the macroeconomic determinants of capital structure in nine European countries, including Poland, Hungary, Latvia, and Estonia. GDP growth, inflation, corporate tax rates, country credit rating and corruption level are the main independent variables of the equation.

The author mentioned that the data were unbalanced. So, unbalanced panel data regression equation is used for testing. The findings of results indicate that the effect of factors differs in listed and unlisted firms.

GDP growth is negatively related with the debt ratio in listed firms. But the inverse relationship occurred in unlisted firms. Inflation (the consumer price index) has negative relationship with the leverage ratio in both types of the companies.

Corporate income tax and corporate credit rating are also in negative coefficients in listed firms. But, corporate income tax has positive relationship with debt in unlisted firms. Corporate credit rating is negative for unlisted companies. Corruption level also affects the increasing debt in listed and unlisted companies.

Mokhova and Zinecker (2013) investigated the effects of macroeconomic indicators on the capital structure of European countries after global crisis. The main purpose of the research is to determine the effects of global crisis on the countries and to measure the influence of factors in choosing a financial source.

The paper consists of seven European countries: Czech Republic, Slovakia, Hungary, Poland, Greece, Germany and France. Macroeconomic factors are presented in two forms: monetary and fiscal policies. Independent variables related with monetary policies are inflation rate, long-term and short-term interest rate. Fiscal policy indicators are government debt to GDP, tax revenue (as a share of GDP) and income tax.

The findings of investigation indicate that all variables show various results for countries. Inflation rate has negative and significant relationship with leverage ratio in Czech Republic.

Interest rate is also negatively related with dependent variable, but the coefficient of relationship is insignificant. Government debt has also negative relationship. The relation between leverage ratio and tax revenue, income tax are insignificant.

The inflation rate has an insignificant relation with dependent variable in all countries except France. Government debt is positively and significantly related with the leverage ratio in Hungary. The results of Slovakian companies are consistent with Hungary. Leverage ratio and Greece government debt relation are found as insignificant. Interest rate has positive signs in Germany and France.

As shown from the review, this issue is rarely exposed to literature. So, the contribution of this analysis to the literature is that it is the first measurement to prove the relationship between leverages and macroeconomic indicators, such as GDP and Inflation.

2.Methodology and variables. The main purpose of this investigation is to determine effects of macroeconomic factors on the financing choice of the company. Generally, three variables are selected for measurement. The leverage ratio is the main indicator of dependent variable. Two macroeconomic factors such as GDP and Inflation are the symbols of independent variables.

As noted in previous sections, the leverage ratio is calculated by dividing total liabilities to the sum of the total liabilities and total equities.

$$Total\ debt\ ratio = \frac{total\ liabilities}{total\ liabilities + total\ equities}$$

GDP is the main component which was called the best single measure economic well-being of a country. In a word, ``Gross domestic product (GDP) is the market value of all final goods and services produced within a country in a given period of time. ` (Gregory Mankiw, 2005)

Gross domestic product was decreased from 1990 to 1995 due to negative results of economic and financial turbulences. Total GDP was USD 2443 million in 1990 and USD 1629 million in 1994 respectively.

After 1995, positive impact of new projects, the increasing of foreign direct investment level, employment of new legislations and regulations for whole sectors paved the way for increasing GDP. According to the State Statistical Committee, total GDP growth rate was approximately 8% in 1995 and 13% in 1996 respectively.

Improvement of taxes and financial system, the renewing of private sectors, mitigation of juridical forms of financial system, reform and liberalization of trading helped decrease the budget deficit, unemployment, thus increasing GDP. Therefore, total GDP was USD 3180 million in 1996, while USD 5272 million in 2000, USD 13238 in 2005 and USD 73560 million in 2013 significantly.

Figure 1: Inflation and GDP in Azerbaijan

Source: State Statistical Committee of the Republic of Azerbaijan,(2013)

Figure 18 shows that the Gross Domestic Product (GDP) in Azerbaijan has increased by about 14-fold over the past 13 years, with a 10% decrease (USD 4555 million) recorded in 2009 only. Financial economists assume that the main reason for the decrease was the negative impact of the 2008 global crisis.

Inflation values of the country are not stagnant. It was very changeable during the periods. This indicator was figured as 16.7% and 20.8% in 2007 and 2008 respectively. Moreover, financial economists assume that the inevitable reason of this increase was the negative effects of the global crisis.

However, after 2009 inflation was calculated under 10% significantly. Thus, the inflation rates were 1.5% and 5.7%, accordingly, in 2009 and 2010. A consumer price index (CPI) is the main indicator to be used as a measure of inflation. The CPI stood at 1.1% in 2012 and 2.4% in 2013 respectively.

Unfortunately, the data are not available for all companies through the years as in the previous investigation. So, unbalanced panel data analysis will be used for this

investigation, too. A total of 222 observations are included in the sample. All data are expressed in terms of U.S. dollars. The relationship between variables will be tested in E-views program.

Regarding all this information, the panel data regression equation will be as follows:

$$Leverage\ of\ the\ firms = \beta 0 + \beta 1\ GDP + \beta 2\ Inflation + \varepsilon$$

3.Results. The table below includes general information about output of the analysis. The sample covers the periods between 2007 and 2013. Unfortunately, data are not available for all companies through the years. So, unbalanced panel data analysis will be used for this investigation. Firstly, total 76 companies are used in this research.

And these companies are from various sectors. As stated in the article by Nyangoro (2013), the strong leverage level of financial institutions may change the correctness and robustness of the results. So, five financial companies were excluded from the sample and there are a total of 71 companies and 222 observations in the study. As to the currency, all data are shown in US dollars. The relationship between variables will be tested in E-views program.

With the help of Hausman test, we can decide which model is very useful in the analysis.

Table 1: General information about analysis

Dependent variable	Debt ratio of the companies
Independent variables	GDP and inflation
Method	Fixed effect method
Sample period	2007-2013
Total panel observations	222 observations

Results of Table 15 and tests offer that the cross-random effect is not systematic and the fixed effect method is very useful for measurement of relationships between variables.

After the Hausman test all variables are included into the program, and fixed effect is applied for measurement. The results from the panel data regression analysis are presented in Table 16:

Table 2: Results of panel data regression (the effect of macroeconomic factors on the capital structure)

Variable	***Coefficient***	***St. Errors***	***T Value***	***P> | t |***
GDP	0.240716	0,07	3,28	0,001***
Inflation	-0,001698	0,001	-1,18	0,239
Constant	-5.049986	1.78	-2.82	0.005***

Notes: ***indicates the significance level at 10%

According to the results of the panel data regression analysis in Table 16, there is only one significant variable.

The table above indicates that GDP is positively and significantly related to an advantage ratio. The significance is within the 10% level. The coefficient of GDP is 0.24. That means in case of 1 percent increase, GDP influences 0.24%. increase in leverage ratio.

Theoretically, the finding of analysis is consistent with previous research in literature. Booth, Aivazian, Demirguc Kunt and Maksimovic (2001), Jorgensen and Terra (2003), Joever (2006) also proved that the relationship between debt ratio and GDP was positive.

The results explain that the increasing of GDP will affect the increasing of debt. Consequently, the firms in Azerbaijan tend to select debt financing in the condition of the increasing of GDP.

However, on the contrary, inflation is negatively related to the leverage ratio, and this relationship is insignificant. The coefficient of inflation is -0.0016. The results of this relationship are also consistent with theories and previous researches.

The R-squared (R^2) value of analysis is indicated as 0.93. This value shows the explanation degree of measurement. It means that the analysis is explained 93%. Adjusted R square is calculated 0.89.

References:

[1] Modigliani,M. and Miller,M.H.(1958). The cost of capital, Corporation Finance and The Theory of Investment, The American Economic Review, Vol 48,No3, pp:261-297

[2] Booth,L.Aivazian V. and Demirguc Kunt,A. Maksimovv V.(2001). Capital structures in Developing Countries. *The Journal of Finance*, Vol LVI, No 1

[3] Jorgensen, J.J. and Terra, P.R.S (2003).Determinants of Capital Structure in latin Americas: The role of firm specific and macroeconomic factors. Working Paper.

[4] Bas,T. Muradoglu,G. and Phylaktik,K. (2009). Determinants of capital structure ind developing countries. Working Paper.

[5] Jooever,K.(2006). Source of capital structure: Evidence from transition countries. *Working Paper Series*, Electron Version.

[6] Mokhova,N. and Zinecker,M.(2013). The determinants of capital structure: evidence form European Union.ACTA universities agriculture et silviculture Mendelianae Brunesis LXI7:2533-2546

[7] Gregory Mankiw (2006) . The macroeconomist as scientist and engineer. *NBER Working Papers. 12349*

[8] Nyangoro,O.(2013).Determinants of capital structure of listed firms in Kenya and the impact of corporate tax. *African Economic research consortium.* Working Paper.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 232 - 242
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 232 - 242

NEFT GƏLİRLƏRİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

N. Z. İsmayılov
doktorant, İİETİ, AR İqtisadiyyat Nazirliyi
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Məqalədə neftlə zəngin olan ölkələrin iqtisadi inkişaf səviyyəsinin onların bu gəlirləri necə istifadə etməsindən asılı olaraq dəyişməsi və onun əsas səbəbləri göstərilir. Azərbaycanda reallaşdırılan neft siyasətinin, neft strategiyasının əsas parametrləri açıqlanmış, neytral vergi sisteminin tətbiq olunması, fiskal qaydaların dəyişdirilməsi, iqtisadiyyatın diversifikasiyasının aparılması, makroiqtisadi sabitliyin təmin olunması, açıq ticarət siyasətinin təşkili, infrastrukturun daha da təkmilləşdirilməsi neft gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri kimi əsaslandırılmışdır. Neft gəlirlərindən istifadənin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsində əsas məqsəd bu gəlirləri ölkə iqtisadiyyatının inkişafında və onun davamlığının təmin edilməsində xüsusi çəkisinin artırılması vasitəsi kimi əks etdirmək cəhdi olmuşdur.

Açar sözlər: neft gəlirləri, neytral vergi sistemi, fiskal qaydalar, iqtisadiyyatın diversifikasiyası, makroiqtisadi sabitlik.
Jel Classification: E01, E64

DIRECTIONS FOR IMPROVING OIL INCOME MANAGEMENT

Abstract

The article considers the issues of changing the level of economic development of countries with rich oil reserves, depending on how oil revenues and their main causes are used. The main parameters of the oil policy implemented in Azerbaijan and the oil strategy are disclosed, and the introduction of a neutral tax policy, changes in financial rules, diversification of the economy, ensuring macroeconomic stability, implementing free trade policies, further improving the infrastructure, etc., were justified as the main directions for improving the management of oil revenues. The main objective of the study to determine the direction of improving the use of oil revenues is to try and present them as a means of increasing the share of these revenues in the development of the economy and ensuring sustainable development.

Key words: oil revenues, neutral tax system, fiscal rules, economic diversification, macroeconomic stability.

НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ НЕФТЯНЫМИ ДОХОДАМИ

Резюме

В статье рассматриваются вопросы изменения уровня экономического развития стран с богатыми нефтяными запасами в зависимости от того, как используются нефтяные доходы и их основные причины. Раскрыты основные параметры реализуемой в Азербайджане нефтяной политики и нефтяной стратегии, а внедрение нейтральной налоговой политики, изменение финансовых правил, диверсификация экономики, обеспечение макроэкономической стабильности, реализация политики свободной торговли, еще большее совершенствование инфраструктуры и др. были обоснованы как основные направления совершенствования управления нефтяными доходами. Основная цель исследования по определению направлений совершенствования использования нефтяных доходов заключается в попытке представить их как средства повышения удельного веса этих доходов в развитии экономики и обеспечения устойчивого развития.

Ключевые слова: нефтяные доходы, нейтральная налоговая система, фискальные прави ла, диверсификация экономики, макроэкономическая стабильность.

Neftlə zəngin ölkələrin iqtisadi inkişaf səviyyəsi onların bu gəlirləri necə idarə etməsindən asılı olaraq dəyişir. Yəni neft ehtiyatlarına malik olmaq və bu ehtiyatların ixracı hesabına böyük həcmdə gəlirlər əldə etmək səmərəli idarəetmə olmadan qısamüddətli perspektivdə müsbət nəticələrin əldə edilməsinə gətirib çıxarsa da, uzunmüddətli perspektivdə davamlı iqtisadi inkişafın təmin edilməsinə imkan vermir. Bu da daha çox onunla əlaqədardır ki, neft sektoru kapital yönümlü olduğundan çox az sayda işçi qüvvəsini cəlb edə bilir və məşğulluğun təmin edilməsinə xidmət edə bilmir. Əhalinin bu sektorun fəaliyyətində payının az olması isə onların iqtisadi siyasətin formalaşmasında iştirakını azaltmaqla bir çox hallarda qeyri-bərabərliyin artmasına gətirib çıxarır ki, bu da davamlı iqtisadi inkişafın əsas şərtlərini pozmuş olur. Bununla yanaşı, neft gəlirlərinin səmərəli istifadə edilməməsinin yaratdığı ən böyük problemlərdən biri də digər sektorların rəqabətə davamlılığını azaltmasıdır. Neft gəlirlərinin artaraq ölkənin gəlirlərinin əsas mənbəyinə çevrilməsi və bunun nəticəsində valyuta axınları hesabına milli valyutanın dəyərinin artması digər sektorlarda istehsal edilən məhsullara xarici alıcıların marağının azalmasına səbəb olur. Belə olduğu halda, digər sektorlar inkişaf etmədiyindən, neft sektorunun payı daha da artır və neftdən asılılıq yüksəlməyə başlayır. Bu isə öz növbəsində iqtisadi sistemi xarici təsirlərə qarşı həssas edərək onun neft bazarındakı volatilliyin mənfi təsirlərinə daha

tez məruz qalmasına yol açır. Azərbaycanın neft strategiyası bu amillərin nəzərə alınması ilə qurulduğundan, iqtisadi sistem neft sektorunun sütrətli inkişafının mənfi təsirlərindən qorunmuşdur. Bunun nəticəsidir ki, artıq 2015-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı 60%-ə qədər yüksəlmişdir. Neft gəlirlərinin səmərəli idarə edilməsi hesabına digər sektorlarının inkişafının təmin edilməsi neftdən asılılığın azaldılmasına imkan vermişdir. Bununla yanaşı, Dövlət Neft Fondunun yaradılması və bu fondun vəsaitləri hesabına iqtisadi inkişafın təmin edilməsi və gələcək nəsillər üçün ehtiyatların toplanılması davamlı iqtisadi inkişafın əsasının təşkil edir. Buna baxmayaraq, dünya iqtisadiyyatında yeni meyllərin yaranması və neft bazarının volatilliyinin artması neft gəlirlərindən istifadənin daha da təkmilləşdirilməsini zəruri edir. Bu baxımdan, neft gəlirlərindən istifadənin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsinin tədqiqat işi üçün əhəmiyyəti böyükdür.

Neft gəlirlərindən istifadənin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsində əsas məqsəd bu gəlirlərin ölkə iqtisadiyyatının inkişafında və onun davamlılığının təmin edilməsində payının artırılmasıdır. Neft gəlirlərindən digər sahələrin inkişafına zərər vermədən mümkün qədər daha gəlirli formada istifadə edilməsi neft strategiyasının əsasının təşkil etməlidir. Bu baxımdan, neft sektorunun gəlirliyinin artırılması və onun daha səmərəli istifadəsinin təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətlərin nəzərə alınmasının əhəmiyyəti böyükdür.

Neytral vergi sisteminin tətbiqi. Təkmilləşdirilmə istiqamətlərindən biri kimi, neft sektorunda tətbiq edilən neytral vergi sistemini göstərmək olar. Ümumiyyətlə iqtisadi ədəbiyyatda neytral vergi sistemi dedikdə iqtisadi subyektlərin gəlir əldə etmək maraqlarını azaltmadan tətbiq edilən vergi sistemi başa düşülür. Yəni iqtisadi subyektlərin vergi tətbiq edilmədiyi halda iqtisadi fəaliyyət üçün seçimləri ilə neytral vergi sistemi tətbiq edildiyi halda etdikləri seçimlərlə üst-üstə düşməlidir. Belə olduğu halda, bu vergi sistemi neytral sayılır və iqtisadi fəaliyyətin gəlirliyini ən yüksək səviyyəyə qaldırır. Lakin neytral vergi sisteminin tətbiqi zamanı simmetriya gözlənilməlidir. Yəni, əgər dövlət iqtisadi fəaliyyətin dəstəklənməsi məqsədilə neytral vergi sistemi çərçivəsində istehsal prosesinin daha ucuz başa gəlməsini təmin etmək istəyirsə, onda bütün istiqamətlər üzrə istehsal prosesində edilən güzəştlərin həcmi ilə gəlir vergisi kompensasiya edilməlidir. Simmetriya təmin edildikdə həm iqtisadi subyektlərin gəlir əldə etmək maraqları, həm də dövlətin vergi vasitəsilə gəlir əldə etmək imkanları qorunmuş olur. Bir çox hallarda neft sektorunda tətbiq edilən vergi sistemi məhz bu simmetriyanın qorunmaması nəticəsində səmərəsiz olur və bu sektor xarici investisiyaları cəlb edə bilmir. Məsələn, bir çox dövlətlərdə neft yataqlarından istifadəyə görə alınan vergilər neftin hər barelindən əldə edilən gəliri azaldır, lakin hər barelin istehsalı üçün çəkilən xərcləri azaltmır. Bu da hər barel üzrə gəlirliyin azalmasına gətirib çıxarmaqla yanaşı, cəlbediciliyi azaldır. Assimetriya-

nın olmaması, xüsusilə yataqda kəşfiyyat və qazma işlərinin aparılmasının uzunmüddətli, baha başagələn və riskli olduğu hallarda daha təhlükəlidir. Bu halda, şirkətlər yeni yataqların tapılması və ya istismarına maraq göstərmirlər. Buna görə də, neytral vergi sistemi yeni neft ehtiyatlarının kəşf edilməsi və istismarı üçün əhəmiyyətlidir. Neft sektorunda neytral vergi sisteminin tətbiq edilməsi təcrübəsinə Norveçdə rast gəlmək mümükündür. Belə ki, 1986-cı ildə Norveç neft yataqlarından istifadəyə görə verilən vergini azaltmağa başlamış və bəzi hallarda yataqlarının istifadəsinin həyata keçirilməsi üçün maliyyələşdirməni də həyata keçirmişdir (1). 2000-ci illərdən sonra isə Norveçdə neft sektorunda fəaliyyət göstərən şirkətlər zərərlə qarşılaşdığı zaman vergi ödənişlərinin faiz hesablanmaqla sonrakı dövrə keçirilməsi ilə bu şirkətlərə güzəştlərin tətbiq edilməsi və uzunmüddətli perspektivdə qazıntı işləri ilə məşğul olan şirkət zərərlə işlədiyi zaman bu zərərin dövlət tərəfindən qarşılanması kimi neytral xarakterli vergi güzəştləri tətbiq edilmişdir. Norveç tərəfindən neft sektoru üzrə aparılan neytral siyasət yalnız vergiləri əhatə etmirdi, eyni zamanda dövlətin neft sektorunda payını da əhatə edirdi. Yəni zamanla xarici neft şirkətlərinin cəlb edilməsinin artırılması üçün dövlətin payı azaldılmışdır. Neytral sistemin tətbiq edilməsi sektorda yaradılan dəyərin ən yüksək həddə çatdırılmasına imkan verir. Xüsusilə də bu, sahədə daha güclü texnikaya, böyük təcrübəyə və təcrübəli işçi qüvvəsinə malik olan şirkətlərin cəlb edilməsi baxımından əhəmiyyətlidir. Norveçdə bütün şirkətlərdən fərqli olaraq neft şirkətləri 28% gəlir vergisindən əlavə neftdən əldə edilən gəlirlərə görə əlavə 50% vergi ödəyirlər (2). Ümumilikdə verginin həcmi yüksək olsa da, neytral vergi sisteminin mövcud olması neft sektorunun cəlbediciliyini qoruyub saxlayır. Yəni bazara daxil olan şirkətlər üçün istehsal prosesi ucuz başa gəldiyindən, cəlbedicilik yüksəkdir. Bununla da dövlət həm xarici investorları cəlb etməklə, həm də onların fəaliyyətindən yüksək həcmdə vergi əldə etməklə ölkə iqtisadiyyatında neft sektorunun yarada biləcəyi dəyəri və əldə edəcəyi gəlirləri ən yüksək həddə çatdırmaq imkanı əldə edir.

Azərbaycanda neft sektorunda xarici şirkətlərin payı yüksəkdir və "Əsrin Müqaviləsi" imzalandıqdan sonra xarici şirkətlərin Azərbaycanın neft sektoruna olan marağı yüksək olmuşdur. Lakin indiki dövrə nəzər saldıqda məlum olur ki, neft qiymətlərinin azalması bu sektora olan marağın azalmasına səbəb olur. Buna görə də, neft sektorunun gəlirliyinin qorunub saxlanılması və artırılması üçün neytral vergi siyasətinin həyata keçirilməsi önəmlidir. Burada əsas məslələrdən biri zamanla neft yataqlarından neftin əldə edilməsinin daha çətin və xərcinin çox olmasıdır. Neft indiki mərhələdə daha dərin yataqlardan əldə edilir. Bunun eyni zamanda riskləri də yüksəkdir. Bununla yanaşı, yeni neft yataqlarının kəşf olunması və istismar edilməsi zərurəti yaranmışdır. Belə olan şəraitdə Norveç nümunəsində olduğu kimi, neytral vergi sisteminin tətbiq edilməsinin əhəmiyyəti artır. Xarici şirkətlərin neft sektoruna

olan maraqlarının qorunması və onların yeni yataqların kəşf edilməsi istiqamətində cəlb edilməsi üçün neytral vergi sistemi vasitəsilə istehsal xərclərinin azaldılması və gəlirdən əldə edilən vergilərin artırılması səmərəli olar. Digər tərəfdən isə şirkətlərdən əldə edilən gəlir vergisinin artırılması ilə neft sektorunda müşahidə edilən geriləməni kompensasiya etmək mümükündür.

Neft gəlirlərindən istifadənin fiskal qaydalarının dəyişdirilməsi. Dünya ölkələrinin təcrübəsindən bizə məlum olduğu kimi, dövlətlər tərəfindən neft gəlirlərinin istifadə qaydaları müxtəlifdir. Yəni burada əsas məqam neft gəlirləri ilə bağlı fiskal siyasətin necə aparılmasıdır. Neft gəlirlərindən istifadənin qaydalarını əsasən iki istiqamət üzrə qruplaşdırmaq olar. Birinci istiqamət neft qiymətlərinin proqnozlarına əsasən büdcə gəlirlərinin müəyyənləşdirilməsi və neftdən əldə edilən gəlirlərin dövlət büdcəsinə transfer olunmasıdır. Qeyd etdiyimiz "Bençmark Qiymətləndirmə" metodu bu qrupa aid edilir. Bu qrupa aid olan fiskal qaydaların əsas məqsədi neft gəlirlərindən maksimum dərəcədə istifadə edərək ən yüksək sosial-iqtisadi artıma nail olmaqdır. Neft gəlirlərinin belə istifadəsi qısamüddətli dövrdə yüksək iqtisadi artıma nail olmağa imkan versə də, uzunmüddətli perspektivdə iqtisadiyyatı neftin qiymətlərindən asılı vəziyyətə salaraq, onu xarici təsirlərə açıq edir. İkinci qrupa aid olan qaydalar isə daha çox ehtiyatların qorunub saxlanılmasına xidmət edir. Yəni bu qaydalar vasitəsilə neft gəlirlərinin iqtisadiyyata transformasiyası zəif gedir, iqtisadi artım sürətli olmur. Lakin bu qaydalar iqtisadiyyatın risklilik səviyyəsini aşağı salaraq neft gəlirləri vasitəsilə uzunmüddətli inkişafa nail olmağa imkan verir. Bura "Ehtiyatların əldə saxlanılması" fiskal metodunu aid etmək olar. Son dövrlər neft bazarında gedən proseslər bir daha göstərdi ki, iqtisadiyyatın neftdən asılılığının yüksək olması təhlükəlidir. Ona görə ki, neft bazarı volatildir və bir çox güclü dövlətlər tərəfindən aparılan məqsədli siyasətin təsirinə məruz qalır. Buna görə də, neft gəlirlərindən istifadənin təkmilləşdirilməsi istiqamətində daha ehtiyatlı və risklərə açıq olamayan fiskal siyasətin aparılmasına ehtiyac yaranır. Bu istiqamətdə Azərbaycanda da məqsədyönlü və səmərəli siyasət aparılaraq, gələcək nəsillərin ehtiyaclarının ödənilməsi üçün Dövlət Neft Fondunda böyük həcmdə vəsaitlər toplanmışdır. Bu vəsaitlər eyni zamanda iqtisadi böhran müşahidə edildiyi dövrlərdə də iqtisadiyytaın davamlılığının təmin edilməsi istiqamətində istifadə edilir. Lakin 2014-cü ildən etibarən neft qiymətlərinin aşağı düşməsi ilə Azərbaycan iqtisadiyyatı üzərində də təzyiqlər artmışdır. Belə olduğu halda, Azərbaycanın qeyri-neft sektorunun inkişafına əsaslanan yeni iqtisadi siyasəti eyni zamanda neft gəlirlərindən istifadə qaydalarının da dəyişdirilməsini zəruri edir. Neft bazarının belə volatil olduğu şəraitdə neft gəlirlərindən istifadənin qeyd etdiyimiz ikinci qrupa aid olan qaydalarının istifadəsi məsələsi aktuallaşır. Eyni zamanda enerji sahəsində dünya miqyasında baş verən inqilabın nəticəsi olaraq qeyri-ənənəvi enerji mənbələrinin sürətli

inkişaf etməsi neftə olan tələbatın azalacağını və bunun nəticəsində də neft qiymətlərinin əvvəlki yüksək həddə çatmayacağını deməyə imkan verir. Bu amil də neft gəlirlərindən daha ehtiyatla istifadə edilməsini və bu sahədə fiskal qaydaların dəyişdirilməsini tələb edir. Neft ehtiyatlarından səmərəli istifadə sahəsində ən uğurlu ölkələrdən biri olan Norveçin neft gəlirlərindən istifadədə tətbiq etdiyi fiskal qaydaların tətbiq edilməsi indiki dövr üçün səmərəli olar. Bu qaydalar neft gəlirlərinin birbaşa dövlət büdcəsinə transfer olunmasının qarşısını alır. Təsadüfi deyildir ki, Norveçin bu fiskal siyasətin istifadəsinə keçməsi 1986-cı ildə neftin qiymətinin azalması ilə iqtisadiyyatda baş verən böhranla əlaqədar olmuşdur. Bu baxımdan, təkmilləşmə istiqaməti kimi neft fondundan iqtisadiyyata birbaşa vəsaitlərin köçürülməsinin fondun investisiya fəaliyyəti nəticəsində əldə etdiyi gəlirlərin iqtisadiyyata daxil edilməsi ilə əvəzlənməsinin götürülməsi səmərəli olar. İqtisadiyyata yalnız neft fondunun ehtiyatları hesabına əldə edilən gəlirlərin daxil olması imkan verir ki, fondun ehtiyatları daima artsın. Yəni hər il neft satışından əldə edilən gəlirlər xərclənmədən fondun ehtiyatlarına əlavə edilir. Bu fiskal metod ilə neft gəlirlərinin idarə edilməsi eyni zamanda qeyri-neft sektorunun neft ehtiyatları mövcud olmadığı halda yüksək xərcləmələr və aşağı vergilər hesabına kəsrə malik olmasına şərait yaradır. İlk baxışda bu, müsbət hal kimi qiymətləndirilməyə bilər. Lakin unutmaq lazım deyil ki, neftlə zəngin dövlətlərin bir çoxunun neft ehtiyatlarının səmərəsiz xərcləməsi nəticəsində qeyri-neft sektoru defisitinin neft gəlirləri hesabına bağlanması, son nəticədə bu sektorun inkişafını zəiflətmiş, bu sektorda işçi qüvvəsinin dəyər yaratmaq maraqlarını azaltmış və işçi qüvvəsinin neft sektoruna axın etməsinə gətirib çıxarmışdır. Bu baxımdan, qeyr-neft sektorunun inkişafının təmin edilməsi neftlə zəngin olan ölkələrin əsas məqsədi olmalıdır. Buna görə də, qeyd etdiyimiz fiskal metod vasitəsilə qeyri-neft sektorunun inkişafının qorunmasına nail olmaq mümkündür. Bu fiskal qaydanın əsəs müsbət cəhətlərindən biri də "tsiklik fiskal siyasət"-dən, onun mənfi nəticələrindən iqtisadiyyatı qorumasıdır. Tsiklik fiskal siyasət dedikdə, yüksək iqtisadi artımın müşahidə edildiyi dövrlərdə dövlət xərcləmələrinin artması və vergilərin azaldılması, iqtisadi böhran baş verdikdə isə dövlət xərcləmələrinin azalması və vergilərin artırılması başa düşülür. Yəni neft ehtiyatları hesabına tsiklik fiskal siyasətin aparılması iqtisadi inkişafın təmin edilməsinə imkan versə də, risk dərəcəsi yüksəkdir. Buna görə də, neft gəlirlərinin böyük həcmə malik olmasına baxamayaraq, gəlirlərin əldə saxlanılması fiskal metodu ilə tsiklik fiskal siyasətin qarşısının alınaraq qeyri-neft sektorunda artımın davamlılığının təmin edilməsi vacibdir. Bunun üçün isə dünya təcrübəsində istifadə edilən metodlardan biri büdcə kəsrinin strukturlaşdırılmasıdır. Bu vasitə ilə büdcə kəsrinin yalnız iqtisadi inkişafa uzunmüddətli dövrdə zərər verməyəcək strukturları neft gəlirləri hesabına bağlanılır. Neft gəlirlərinin neft fonduna yönəldilməsi və iqtisadiyyata yalnız investisiya fəaliyyəti nəticəsində

əldə edilən gəlirlərin yönəldilməsi ehtiyatlı xərcləməni təmin etsə də, fondun valyuta ehtiyatlarının artması zamanla iqtisadiyyata transfer olunan vəsaitlərin də artmasına imkan yaradır. Ona görə ki, fondun ehtiyatları artdıqca investisiyaların həcmi də artmağa başlayır. Nəticədə investisiya fəaliyyəti ilə əldə edilən gəlirlərin həcmi aratarak, iqtisadiyyata daxil olan neft gəlirlərinin də həcmini artırmış olur.

Neft gəlirlərinin iqtisadiyyatın diversifikasiyasına yönəldilməsi. Neft gəlirlərindən istifadənin səmərəliliyi onun iqtisadiyyatın inkişafına nə dərəcədə təsir etməsindən asılıdır. Yəni neft gəlirlərinin iqtisadi inkişafa səmərəli transformasiyasının həyata keçirilməsi neft ölkələrinin əsas məqsədlərindən biri olmalıdır. İqtisadi inkişaf isə yalnız iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi şəraitində mümkün olur. Buna görə də, iqtisadiyyatın diversifikasiya səviyyəsinin yüksək olması və bu diversifikasiya səviyyəsinin əldə olunması üçün neft gəlirlərindən istifadə edilməsi əhəmiyyətlidir. Yəni neft ehtiyatları digər sektorların da inkişafına yönəlməzsə, bu zaman davamlı iqtisadi artıma nail olmaq qeyri-mümkündür. Ona görə ki, neft qiymətləri dəyişkəndir və bu da iqtisadiyyat hərtərəfli inkişaf etmədikdə, maliyyə sabitliyinə təsir edərək onun qorunması imkanlarını azaldır. İqtisadiyyatın diversifikasiyasının həyata keçirilməsi imkanlarının genişləndirilməsi üçün əsas üç amilin nəzərə alınması vacibdir. **İlk növbədə prudensial xərcləmələr vasitəsilə makroiqtisadi sabitliyin qorunmasını** qeyd etmək olar. Makroiqtisadi sabitlik iqtisadi inkişafın əsasını təşkil etməklə böhran yaşanan dövrlərdə onun maliyyə ehtiyatları hesabına qorunmasını tələb edir. Makroiqtisadi sabitlik təmin edilməsə, iqtisadiyyatın inkişafı gerilədiyindən onun diversifikasiyasını da həyata keçirmək, bütün iqtisadi sektorların inkişafını təmin etmək mümkün olmur. Buna görə də, neft sektorunda böyük həcmdə profisit yarandığı zaman bu vəsaitlərin iqtisadi geriləmələr dövründə istifadə edilməsi üçün qorunması vacibdir. Bu baxımdan, neft ehtiyatları maliyyə vəsaitləri hesabına makroqtisadi sabitliyin qorunması üçün geniş imkanlar açır. Bu imkanların düzgün qiymətləndirilməsi və əldə edilən maliyyə vəsaitlərinin səmərəli istifadəsi nəticəsində makroiqtisadi sabitliyi təmin etməklə iqtisadiyyatın diversifikasiya səviyyəsinin artırılmasına nail olmaq mümkündür.

Diversifikasiyanın həyata keçirilməsi üçün nəzərə alınmalı olan **digər mühüm amil açıq ticarət siyasətinin həyata keçirilməsidir.** Bu amilin əhəmiyyəti ona görə böyükdür ki, iqtisadiyyatın diversifikasiyası vasitəsilə müxtəlif sektorlarda məhsul istehsalının artırılması o zaman iqtisad inkişafa səbəb olur ki, bu məhsulların dünya bazrlarına çıxarılaraq maneəsiz ticarət edilməsi mümkün olsun. Bunun üçün də sözsüz ki, açıq ticarət münasibətlərinin mövcud olması və inkişaf etdirilməsi vacibdir. Əgər ticarət əlaqələrinin əhatə dairəsi istər coğrafi, istərsə də məhsul çeşidi baxımından nə qədər böyük olarsa, o zaman ticarət vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsinin risk səviyyəsi daha aşağı olar. Bu baxımdan, iqtisadiyyatın diversifika-

siyası ticarət əlaqələrinin səmərəliliyi ilə birbaşa əlaqədardır və onun iqtisadiyyata qazandırdığı gəlirlər ticarət əlaqələrinin inkişaf səviyyəsindən asılıdır. Neft gəlirləri ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün də imkanlar yaradır. Neft gəlirləri hesabına güzəştlərin tətbiq edilməsi, məhsulun istehsal qiymətinin aşağı salınması və istehsal sahələrinin dəstəklənməsi mümkün olur ki, bu da son nəticədə məhsulların rəqabətliliyini artıraraq ticarət əlaqələrinin inkişaf etdirilməsinə şərait yaradır.

Diversifikasiyanın təmin edilməsi üçün eyni zamanda ixrac potensialı yüksək olan digər sahələrdə **infrastrukturun inkişaf etdirilməsi amilinin əhəmiyyəti böyükdür.** İxrac potensialına malik olan iqtisadiyyatın digər sektorlarında məhsul istehsalının səmərəli təşkil edilməsi üçün zəruri infrastrukturun olması vacibdir. Zəruri infrastrukturun olmaması istehsal prosesinin həcminin və səmərəliliyinin azalmasına səbəb olaraq, ixrac potensialına malik olan sahələri inkişafdan saxlayır. Buna görə də, neft ehtiyatları və onların ixracından əldə edilən maliyyə vəsaitləri zəruri infrastrukturn yaradılması və inkişaf etdirilməsi üçün imkan yaradır. Bu baxımdan da neft gəlirlərinin iqtisadi inkişafın təmin edilməsinə xidmət etməsinin təmin edilməsi üçün bu gəlirlərin səmərəli şəkildə rəqabət qabiliyyətli sahələrin inkişaf etdirilməsinə yönəldilməsi vacibdir.

Neft gəlirləri hesabına iqtisadiyyatın diversifikasiyasının təmin edilməsi həm də məşğulluğun artırılması üçün də əhəmiyyətlidir. Neft gəlirləri hesabına dövlət sektoru inkişaf edərək əmək bazarının böyük hissəsini özünə cəlb etsə də, bu sektorun da işçi qüvvəsini qəbul etmək imkanları sonsuz deyildir. Müəyyən həddə çatdıqdan sonra dövlət sektoru da əhalinin sayının artması ilə əlaqədar olaraq iş yerlərinə olan tələbatı qarşılaya bilmir və yeni iş yerlərinin yaradılmasına ehtiyac yaranır. Buna görə də, neft gəlirləri hesabına iqtisadiyyatın diversifikasiyasının təmin edilməsi ilə digər sektorların inkişaf etdirilməsi yeni iş yerlərinin yaradılmasına və məşğulluğun məqbul səviyyədə saxlanılmasına imkan verir. Neft gəlirlərinin dəstəyi ilə iqtisadiyyatın diversifikasiyası özəl sektorun inkişaf etməsinə də şərait yaratmaqla azad rəqabət hesabına özəl sektorun yeni iş yerlərinin yaradılmasında yaxından iştirak etməsinə və ölkə daxilində investisiya mühitinin yaxşılaşdırılmasına imkan verir.

İqtisadiyyatın diversifikasiyasının əhəmiyyətini artıran səbəblərdən biri də onun **savadlılığı və innovasiyanı təşviq etməsidir.** İqtisadiyyat gəlir əldə etmək imkanları məhdud olduqda və müəyyən təbii ehtiyatdan asılı olduqda, bu zaman iqtisadiyyatın digər sahələri inkişaf etmədiyindən və daha asan gəlir əldə etmək imkanı yarandığından, digər sahələrdə insan kapitalına, təhsilə və innovasiyaya sərmayə yatırılmasına maraq azalır. Bu da nəticədə inniovativ iqtisadiyyatın inkişafına mane olur və yüksəkixtisaslı mütəxəssislərin formlaşmasının qarşısını almış olur. Bu baxımdan, əgər davamlı iqtisadi inkişafdan bəhs edilirsə, o zaman insan kapitalının inkişaf etdirilməsi məsələsinin əhəmiyyəti daha da artır və bu da yalnız iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi şəraitində mümükün olur. İqtisadiyyatda istehsal

məhsullarının payının artırılmasının əhəmiyyətini izah edən arqumentlərdən biri də ondan ibarətdir ki, müəyyən bir sahədə istehsal edilən məhsullar üçün istifadə edilən kapital və bacarıqlar digər sahələrdədə asanlıqla istifadə edilə bilir. Burada, xüsusilə istehsal prosesi üçün istifadə edilən robotlar, elektron cihazlar və onları idarə etmək bacarığına malik olan işçi qüvvəsini qeyd etmək olar. Buna görə də, istehsal sənayesinin inkişaf etdirilməsi bütün sahələri bir-biri ilə bağlayaraq, istehsalın intesiv xarakter almasına imkan yaradır. Bununla da istehsal edilən məhsulların çeşidinin daha asanlıqla artırılması imkanı yaranır və istehsal prosesinin səmərəliliyi artmış olur. Lakin neft sektorunda neftin əldə edilməsi və onun ixrac edilməsi haqqında eyni fikirləri demək mümkün deyildir. Yəni neftin çıxarılması və ixracı üçün istifadə edilən kapital və işçi qüvvəsinin digər sahələrdə də istifadə edilməsi imkanları azdır. Ona görə ki, bu sahə özünəməxsus xüsusiyyətlərə malikdir və innovativ deyildir. Bütün qeyd etdiyimiz amilləri nəzərə alaraq deyə bilərik ki, neft gəlirləri hesabına iqtisadiyyatın diversifikasiyasının təmin edilməsi və bununla da iqtisadi inkişafın sürətləndirilməsi diversifikasiyanı neft gəlirlərindən səmərəli istifadənin ən vacib mexanizmlərindən birinə çevirir. Bu mexnizm vasitəsilə istehlak məhsullarına olan tələbatı ödəmək, məşğulluğu təmin etmək, ixrac imkanlarını genişləndirmək, iqtisadiyyatda yaradılan ümumi milli məhsulu artırmaq və daha geniş mənada makroiqtisadi təhlükəsizliyi təmin etmək mümkündür.

Azərbaycanda da iqtisadiyyatın diversifikasiyası istiqamətində son illər əsaslı tədbirlər və islahatlar həyata keçirilmişdir. Neft gəlirləri hesabına uzun illər boyu yaradılmış zəruri infrastruktur və ixtisaslı insan kapitalı iqtisadiyyatın diversifikasiya edilməsinə və istehsal sənayesinin gücləndirilməsinə imkan verir. Təsadüfi deyildir ki, artıq Azərbaycan özünün neft strategiyası əsasında qurulmuş iqtisadi siyasətini qeyri-neft sektorunun inkişafına yönəldilən iqtisadi siyasətlə əvəzləmiş, neftdən asılılığın minimuma endirilməsi istiqamətində əsaslı tədbirlər görməkdədir. Bunlarla yanaşı, Azərbaycanın malik olduğu digər təbii resurslar, məqbul iqlim, münbit torpaqlar, yaradılmış sənaye parkları, zavodlar, istehsal müəssisələri qeyri-neft sektoru üzrə istehsalın artırılmasına və Azrbaycanın ixrac potensialının genişləndirilməsinə imkan verir. Həyata keçirilmiş tədbirlər nəticəsində qeyri-neft sektorunun həcmi son on bir il ərzində 2,5 dəfə artmış və onun ÜDM-də payı 2009-cu ildəki 47% səviyyəsindən 2015-ci ildə təxminən 60% səviyyəsinə qədər yüksəlmişdir. Qeyri-neft sektorunun illik artım tempi 2013-cü ildə 9%, 2014-cü ildə isə 7% səviyyəsinə qədər yüksələrək, neft sektorunun artımını nəzərəçarpacaq dərəcədə üstələmişdir (3). Ayrı-ayrı sektorlar üzrə baxdıqda isə Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2005-2014-cü illərdə istehsalın həcmi xidmət sektorunda 4 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, emal sənayesində 2,5 dəfə, mədən sənayesində isə 2,9 dəfə artmışdır. Qeyri-neft sektoru üzrə müxtəlif sektorlarda müşahidə edilən bu artım eyni zamanda

məşğulluğun yüksək səviyyədə saxlanılmasına imkan vermişdir və 2015-ci ildə işsizlik səviyyəsi 5% səviyyəsində olmuşdur. Buna baxmayaraq, hələ də Azərbaycan iqtisadiyyatında neft sektorunun və sektorun fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin əhəmiyyəti hələ də böyükdür. Xüsusilə bu özünü xarici ticarət əlaqələrində göstərir. Belə ki, Azərbaycanın ixracında neft sektorunun payı 80%-dən çoxdur. Bunun nəticəsidir ki, son illər neftin qiymətinin kəskin azalması Azərbycan iqtisadiyyatına da mənfi təsir etmişdir. Bununla yanaşı, büdcə gəlirlərində də neft gəlirlərinin payı çoxdur və aşağı neft qiymətləri büdcə xərcləmələrini də azaltmışdır. Buna görə də, göstərdiyimiz istiqamətlər üzrə, qeyd edilən amilləri nəzərə almaqla iqtisadiyyatın diversifikasıyasını daha da artırmaq zəruridir. Uzun illər neft gəlirlərinin səmərəli istifadəsi nəticəsində Dövlət Neft Fondunda toplanmış vəsaitlər və qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar diversifikasiyanın daha da sürətlənməsinə imkan verəcəkdir.

Neft gəlirlərinin bölgüsündə səmərəliliyin artırılması. İqtisadi-sosial sabitliyin qorunmasının əsas şərtlərindən biri gəlirlərin ədalətli bölgüsünün təşkil edilməsidir. Uzun illər zəngin neft ehtiyatlarına malik olan və inkişaf etməmiş dövlətlərdə institusional və vegi sisteminin inkişaf etməməsi neft gəlirlərinin birbaşa dövlət büdcəsinə yönəldilməsinə və sonradan xərclənməsinə səbəb olmuşdur. Nəticədə isə büdcə vasitəsilə gəlirlərin səmərəsiz xərclənməsi həm onların ədalətli bölgüsünə mane olmuş, həm də artıq xərclənməsi ilə nəticələnmişdir. Neft gəlirlərinin yalnız büdcə vasitəsilə iqtisadiyyata daxil edilməsi bu gəlirlərin idarə edilməsində şəffaflığın itməsinə də yol açmışdır. Bir sıra digər dövlətlərdə isə neft fondları yaradılmış və neft gəlirləri fond vasitəsilə məqsədyönlu şəkildə idarə edilərək səmərəli bölüşdürülmüşdür. Lakin neft gəlirlərinin ən səmərəli bölgü sistemi Kanadada həyata keçirilmişdir. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, neft gəlirləri birbaşa əhaliyə yönəldilməlidir və onlar bu gəlirlərin bölgüsündə bilavasitə iştirak etməlidirlər. Bu sistemə əsasən, neft fondu əldə etdiyi gəlirlərin bir hissəsini birbaşa vətəndaşlara yönəldir (4). Bu sistem istər neft gəlirlərinin həcmi barədə şəffaflığın təmin edilməsi baxımından, həm də əhalidə dövlətə olan etibarlığın artırılması baxımından üstünlüyə malikdir. Bu sistemi eyni zamanda "virtual bölüşdürmə" də adlandırırlar. Buna səbəb isə bu sistemdə neft gəlirlərinin əhaliyə birbaşa köçürülməsi və dərhal vergi şəklində dövlət tərəfindən toplanmasıdır. Yəni əhali virtual olaraq bu vəsaitlərə sahib olur, nağd şəkildə əldə etmək imkanı olmur. Bu vasitə ilə vətəndaşlar neft gəlirlərinin bölgüsündə iştirak etmək imkanı əldə edərək neft gəlirlərini nağd formada əldə etməsələr belə, bu gəlirlərin necə istifadə olunması və həcmi barədə məlumat əldə etmiş olurlar. Bu da şəffaflığın artırılması deməkdir. Eyni zamanda bu sistem dövləti əhalidən asılı salaraq həm etibarlığın artırılmasına, həm də neft gəlirləri hesabına dövlətin kapitalının formalaşmasına səbəb olur. Lakin burada vergi sisteminin səmərəli fəlaiyyəti önəmlidir. Bu sistem vasitəsilə neft gəlirlərinin iqtisadiyyata daxil olması bütünlüklə vergi sistemindən keç-

diyindən, vergi sisteminin institusional baxımdan səmərəli qurulmasının əhəmiyyəti artır. Bu sistemə keçid prosesi məhz bu vergi sisteminin uyğunlaşdırılması həyata keçirildikdən sonra başlanmalıdır. Ümumiləşdirsək, bu sistem əsas iki təsirə malikdir (5).**Əvvəla, ianə effekti**. Yəni əhalinin dövlət xərclərinin həyata keçirilməsi bu sistem vasitəsilə dəyişir və onlar bu xərcləri qarşılayan əsas iqtisadi subyekt rolunda çıxış edirlər. **Digər təsir isə informasiya təsiridir** ki, bu da neft gəlirləri haqqında əhalinin məlumat əldə etmək imkanlarını artırır. "Virtual bölüşdürmə" sistemini gəlirlərin ədalətli bölgüsünün yeni mərhələsi kimi qiymətləndirmək olar. Azərbaycanda neft gəlirləri Dövləti Neft Fondu tərəfindən səmərəli və şəffaf şəkildə idarə edildiyindən, virtual bölüşdürmə sisteminin yalnız qeyd etdiyimiz ikinci təsirinin əldə edilməsi məqsədilə tətbiq edilməsi səmərəli olar. Ona görə ki, bununla əhali neft gəlirlərinin bölüşdürülməsi haqqında daha geniş məlumat əldə etmiş olar.

İqtisadiyyat dinamik xarakterə malik olduğundan, daima onun təkmilləşdirilməsi zərurəti vardır. Xüsusilə də neft gəlirlərinə təsir edən xarici amillər çox olduğundan, neft sektorunda gəlirlərin idarə edilməsinin təkmilləşdirilməsi önəmlidir. Göründüyü kimi, təklif edilən təkmilləşmə istiqamətlərinin əsas məqsədi neft gəlirlərindən asılılığın azaldılması və iqtisadiyyatın neft bazarının volatilliyindən irəli gələn neqativ təsirlərdən qorunmasıdır. İstər fiskal qaydalara edilən dəyişikliklər, istərsə də neytral vergi sistemi risklərin azaldılması ilə yanaşı, neft sektorunun inkişafının davamlılığının təmin edilməsinə xidmət edir. Yəni məqsəd neft sektorunun iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi rolunun azaldılması deyil, əksinə, səmərəli idarəetmə sistemi vasitəsilə neft gəlirlərinin digər sektorların inkişafının təmin edilməsinə yönəldilməsidir. Xüsusilə də neftin əldə edilməsi ilə bağlı xərclərin artması və neft ehtiyatlarının tükənməsi şəraitində neft gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi daha da aktuallaşır və son dövrlər təbii resurslarla zəngin olan dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Dünya iqtisadiyyatın-da və beynəlxalq neft bazarında hazırda gedən neqativ proseslər fonunda təklif edilən təkmilləşdirmə istiqamətlərinin gələcəkdə nəzərə alınması və neft strategiyasının bu istiqamətlər əsasında formalaşdırılması səmərəli olar.

Ədəbiyyat

[1] Petter O. Tıme Consıstency In Petroleum Taxatıon - The Case Of Norway. İnternational Monetary Fund, 2008.

[2] Steinar H. Avoiding the Resource Curse The Case Norway. University of Oslo August 2013

[3] Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2015.

[4] Weinthal, E. and P. J. Luong (2006). "An Alternative Solution to Managing Mineral Wealth." Perspectives on Politics

[5] Sandbu, Martin E. 2006. "Natural wealth accounts: A proposal for alleviating the natural resource curse." World Development 34(78):1153–1170.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 243 - 251
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 243 - 251

AZƏRBAYCANDA VERGİ YÜKÜNÜN İQTİSADİ ARTIMA VƏ VERGİ DAXİLOLMALARINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

F.A. Quliyev
dissertant, Biznes Məktəbi, UNEC
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr; online-da çap edilmişdir 06 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 06 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi Azərbaycanda vergi yükünün iqtisadi artıma və vergi daxilolmalarına təsirinin qiymətləndirilməsində istifadə edilən intuitiv-riyazi və ekonometrik metodları təhlil etmək, 1-ci və 2-ci tip laffer nöqtələrini tapmaq və faktiki vergi yükü ilə makrosəviyyədə müqayisəsini təşkil etmək, ölkə üzrə ÜDM və büdcə daxilolmalarına artım verən vergi yükünü təyin etmək və vergi sisteminin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verməkdən ibarətdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq, respublikamızda vergilərin rolunun yüksəldilməsinin, vergi yükünün azaldılmasının mövcud vəziyyəti ekonometrik modelin tətbiqi ilə araşdırılmışdır. Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: büdcə-vergi sahəsində tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər.

Açar sözlər: vergi yükü, vergilər, ÜDM, büdcə daxilolmaları, Laffer nöqtələri.
Jel Classification: H20; F43

IMPACT ASSESMENT OF TAX BURDEN ON ECONOMIC GROWTH AND TAX REVENUES

Abstract

The main purpose of the research is to analyze intuitive-mathematical and econometric methods in assessing the impact of tax burden on economic growth and tax revenues, figure out 1st and 2nd type Laffer points and make their macro-level comparisons with effective tax burden, find tax burden that maximizes both, GDP and tax revenues, as well as make necessary recommendations. The research work was carried out on the basis of such research methods as scientific abstraction and systemic analysis, logical synthesis and statistical analysis. Current state of increasing the role of taxes and reducing tax burden using an econometric model were investigated as a result of the study. Limitations of the study: Requires more extensive practical information. Practical significance of the study: May play a

positive role in enriching the scientific and practical knowledge of experts conducting research and working within the field of fiscal policy.

Keywords: tax burden, taxes, GDP, tax revenues, Laffer points

ОЦЕНКА ВЛИЯНИЯ НАЛОГОВОГО БРЕМЕНИ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ И НАЛОГОВЫЕ ПОСТУПЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

Резюме

Основная цель исследования заключается в анализе интуитивно-математических и эконометрических методов, применяемых в оценке влияния налоговой нагрузки на экономический рост и налоговые поступления в Азербайджане, в исчислении точек Лаффера первого и второго типов и проведении их сравнения с фактической налоговой нагрузкой на макроуровне, в определении уровня налоговой нагрузки, обеспечивающей прирост ВВП и бюджетных поступлений и представлении предложений и рекомендаций в направлении дальнейшего совершенствования налоговой системы. Исследовательская работа была выполнена с использованием таких исследовательских методов, как научная абстракция и системный анализ, логическое обобщение, статистический анализ. Результатом исследования явилось то, что такие значимые задачи, как повышение роли налогов и современное положение в области снижения налоговой нагрузки в республике были исследованы с помощью эконометрической модели. Ограничения исследования: требуется еще больший объем практической информации. Практическая значимость исследования: исследовательская работа может сыграть положительную роль в обогащении научных и прикладных знаний специалистов, проводящих исследования в бюджетно-налоговой сфере и непосредственно функционирующих в данном направлении.

Ключевые слова: налоговая нагрузка, налоги, ВВП, бюджетные поступления, точки Лаффера.

Səmərəli vergi sistemi istər inkişaf etmiş ölkələrdə, istərsə də inkişaf etməkdə olan ölkələrdə milli iqtisadiyyatın dinamik inkişafının vacib amillərindən biri hesab olunur. Qeyd edək ki, vergilərin fiskal və tənzimləyici funksiyası bir-birinə görə əks xarakter daşıyır, çünki dövlətin artan maliyyə tələbatlarını sahibkarların maraqları ilə toqquşdurur. İqtisadi artım və büdcənin balanslaşdırılması dövlət tənzimlənməsinin səmərəliliyi nöqteyinəzərindən iqtisadiyyatın fəaliyyətinin optimal rejimidir. O da məlumdur ki, müasir

dövrün bazar iqtisadiyyatı sistemində dövlət uzun müddətdə sosial-iqtisadi məqsədlərin yerinə yetirilməsi və orta müddətdə büdcə tarazlığına xidmət etmək istiqamətində siyasət yürütməlidir. Əgər büdcənin maraqlarının güdülməsi prioritet olursa, onda vergi yükünün artması nəticəsində iqtisadi artım yavaş templərlə gedir ki, bu da müəssisələrin təkrar istehsal imkanlarına mənfi təsir göstərir və işgüzar fəallığı azaldır. Beləliklə, qısamüddətli uduş bir çox hallarda gələcəkdə ciddi problemlərlə nəticələnir.

Başqa tərəfdən baxdıqda, dövlət vergi təzyiqini zəiflətməklə iqtisadi yüksəlişə, onun stimul-laşdırılması yolu ilə nail olmağı özünə hədəf seçdikdə, ölkə büdcəsi gəlirlərin bir hissəsini itirməyə başlayır ki, bu da demokratik sistemdə sosial-iqtisadi siyasət yürütməsinə mənfi təsir göstərmiş olur. Bununla yanaşı, gələcək istehsal artımı vergi-qoyma bazasını genişləndirə bilər və büdcə daxilolmaları bir müddətdən sonra yerini tuta bilər. Bu zaman fiskal daxilolmaların ümumi həcmi arta bilər. Bu o deməkdir ki, qısamüddətli planda dövlətin büdcə maraqları sahibkarların uzunmüddətli istehsal məqsədləri ilə əks-faza təşkil edir və geniş təkrar istehsalın dövr etməsinə mane olur.

Məlumdur ki, ekonometrik və analitik üsullarla dövlətin fiskal siyasətinin səmərəliliyinin qiymətləndirilməsi əsaslanmış istiqamət hesab olunur [1]. Vergi yükünün ekstremum nöqtədə büdcə ili sona çatdıqdan sonra ekonometrik qiymətləndirilməsinə ikiparametrli metodun tətbiq edilməsi mümkündür ki, bunun vasitəsilə fiskal siyasətin cari dövrdə inkişaf xüsusiyyətlərini müəyyən etmək olur. Fiskal siyasətin müəyyən dövrlərdə iqtisadi artıma və istehsal aktivliyinə maneə törətməsi imkanı onun uyğunsuzluğununa səbəb olur ki, bu da iqtisadi subyektlərin fəaliyyətinin kiçilməsinə, o cümlədən xərc tələb edən istehsal və digər iqtisadi aktivlik yaradan sahələrin gəlir həddinin azalmasına və bazardan sıxışdırılmasına səbəb ola bilər. Nəticədə iqtisadi geriləmə labüd hal alar.

Bununla da, proqnozlaşdırıla bilinməyən iqtisadi mühitdə fiskal siyasətin əhəmiyyəti xüsusi rola malikdir. Sistemli şəkildə yanaşsaq, bu halda, vergi sisteminin və qanunvericiliyinin təkmilləşdirilməsi, fiskal siyasətin biznes şəraitinə təsiri və bu təsirinin modelləşdirilərək, ədədi qiymətinin riyazi xarakteristikasının qiymətləndirilməsi və effektiv iqtisadi siyasətin həyata keçirilməsi zəruridir.

Qeyd etmək lazımdır ki, hazırda həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin vergi sisteminin kəmiyyət araşdırılmasında Laffer əyrisi ilə ifadə edilmiş parabolik asılılıq mühüm yer tutur. Burada söhbət Laffer nöqtəsinin yalnız faktiki qiymətinin hesablanması və qiymətləndirilməsi ilə deyil, həmçinin Laffer əyrisinin parabolik quruluşunu göstərən modelin nəzəri təhlil edilməsi və nəticələrin faktiki Laffer nöqtəsi ilə müqayisəsi vacib əhəmiyyət kəsb edir. Dövlətin fiskal siyasətinin səmərəliliyinin qiymətləndirilməsi üçün nəzərdə tutulan yanaşmalardan bir neçəsini ətraflı nəzərdən keçirək və onlardan daha çox istifadə edilənini Azərbaycanın 2001-2015-ci illər statistik verilənlərin əsasında yoxlayaq.

Tədqiqatın metodologiyası. Qeyd etmək lazımdır ki, Laffer nöqtələrinin müəyyən olunması ilə fiskal siyasətin səmərəliyinin təyin edilməsi üzrə aparılmış bir sıra tədqiqat işlərində bu, əmlak, gəlir, mənfəət, əməkhaqqı və ƏDV nümunəsində həyata keçirilmişdir ki, əksər hallarda belə araşdırmalar məcmu vergi yükünün tapılması məqsədini güdmüşdür [1-8]. Tədqiqat işlərinin əksər hissəsi vergi daxilolmalarının ÜDM-də payının təhlil edilməsi fonunda istehsal həcmi və vergi daxilolmalarının vergi yükündən asılılığı əsas götürmüşdür.

$$Y = f(Q,a),$$

$$BT = g(Q,b).$$

Yuxarıdakı tənlikdə Y - istehsal həcmi, BT - büdcə gəlirləri, f və g - qeyri-aşkar funksiyanı, a və b - isə parametrləri özündə birləşdirir.

Vergi yükünün və ümumi daxili məhsulun qeyri-xətti funksiyada yuvarlaqlaşdırılmaqla kəmiyyət qiymətləndirilməsi həyata keçirilir. Burada 1-ci və 2-ci tip Laffer nöqtələrini fərqləndirməyə ehtiyac vardır.

1-ci tip Laffer nöqtəsi Q^* olarsa, istehsal funskiaysı öz ekstremum nöqtəsini maksimum həddə almış olur.

$$\frac{\partial Y(Q^*)}{\partial Q} = 0; \quad \frac{\partial^2 Y(Q^*)}{\partial Q^2} < 0.$$

2-ci tip Laffer nöqtəsini isə vy^{**} ilə qeyd etməklə görmək olar ki, büdcə gəlirləri üçün nəzərdə tutulmuş qrafik əyri öz ekstremum nöqtəsini maksimum həddə alır:

$$\frac{\partial BT(Q^*)}{\partial Q} = 0; \quad \frac{\partial^2 BT(Q^*)}{\partial Q^2} < 0.$$

Məlumdur ki, 1-ci tip laffer nöqtəsi istehsal həcminin, 2-ci tip laffer nöqtəsi isə vergi daxilolmalarının maksimum həddini göstərmiş olur.

Qeyd etmək lazımdır ki, bu Laffer nöqtələrinin müəyyən olunması və müşahidə edilən vergi yükü ilə müqayisə edilməsi ilə dövlətin səmərəli vergi siyasəti yürütməsi barədə fikir formalaşdırmaq və səmərəliliyi qiymətləndirmək mümükündür. Bu məqsədlə, verilmiş məsələnin həll edilməsi üçün bir sıra üsullar araşdırılmışdır. Bunlardan biri ekonometrik modelləşdirmə metodudur. Fiskal siyasətin səmərəliliyinin qiymətləndirilməsinin ekonometrik metodlarına baxaq.

$$Y = \sum_{i=0}^{m} \beta_i * (Q)^i. \qquad (1)$$

Yuxarıda verilən çoxdəyişənli tənlikdə β_i - retrospektiv dinamika sırası ilə baxılan verilənlərdir. O da qeyd edilməlidir ki, vergi yükü vergi gəlirlərinə təsir edən faktor hesab olunur:

$$BT = vy * Y. \qquad (2)$$

(1) tənliyini (2) yazılışında verməklə,

$$BT = \beta_0 * Q + \sum_{i=1}^{m} \beta_i *(Q)^{i+1}. \qquad (3)$$

(3)-ü həll etmək məqsədilə vergi yükü və ÜDM üzrə məlumatlar əldə edilməlidir, daha sonra (2) tənliyinin birinci tərtib törəməsinin tapılması ilə 2-ci tip vergi yükünün retrospektiv sırası tapılmalıdır. Bununla yanaşı, (3) cavablandırılmalıdır. (3) tənliyini normal halda 2-ci dərəcədən və ya ehtiyac olduğu təqdirdə, üçüncü dərəcədən axtarmaq olar. Əgər çox dərəcəli qüvvət üstü ilə ifadə edilərsə bu zaman tənliyin iqtisadi mənası itmiş olur və ya onun şərh edilməsi qeyri-praktik olur. (1) tənliyinin bir sıra səciyyəvi xüsusiyyəti vardır:

β_i -nin aldığı qiymətlərin hesablanması kifayət qədər uzun ölçülü dinamik sıra aşkara çıxmalıdır ki, onun statistik əhəmiyyəti formlaşamış olsun. Eyni zamanda β_i statik xarakter daşıyır. Bu o deməkdir ki, Laffer nöqtələri statik effekt verməklə, müəyyən zaman anında bir rəqəm almaqla kifayətlənir. Bu səciyyəvi xüsusiyyət isə məntiqə zidd təsir bağışlayır.

Həmçinin reqressiya asılılığı göstərən qeyri-xətti (3) modelinə baxsaq, görərik ki, bu model texniki cəhətdən sadədir və modelə daxil edilmiş göstəricilər xətti asılı parametrlərdir ki, bu da modelin riyazi şərh edilməsi üçün müsbət bir haldır.

Fiskal siyasətin səmərəliliyinin qiymətləndirməsinə analitik yanaşmaqla demək olar ki, retrospektiv sıralar Azərbaycan reallıqlarında tam formalaşmış deyildir ki, bu da təhlilin ekonometrik yollarla deyil, başqa metodlardan istifadə edilməklə hesablanmasına zərurət yaradır. Digər metodlardan intervallı yuvarlaqlaşdırma metoduna söykənən analitik üsula əsaslanmaq olar. Belə ki, hər bir büdcə ilinin formalaşmış Y=Y(Q^*) tənliyi verilir və bu tənliyə uyğun gələn β_i parametrləri tapılır.

Onu da qeyd etmək lazımdır ki, qeyri-xətti asılılıq ortaya qoyan vergi yükü və ÜDM arasındakı əlaqəni kvadratik çoxhədlilərlə daha yaxşı ifadə etmək olar. Xüsusilə ikihədli və üçhədlilərin cəlb edilməsi ilə istifadə edilən metodlarda riyazi təhlilə uyğun gələn intuitiv üsullara baxmaq mümkündür.

Əvvəlcə ikihədli metoda baxsaq, görmək olar ki, təyin sahəsi vergi yükünün səviyyəsi ilə verilən funksiyada məhsul artımının yuvarlaqlaşdırılması ifadə edilir:

$$Y = \beta * (Q) + \gamma * (Q)^2 \qquad (4)$$

Bu zaman büdcəyə vergi gəlirləri aşağıdakı kimi göstərilə bilər:

$$BT = \beta * (Q)^2 + \gamma * (Q)^3 \qquad (5)$$

Hesablamada faiz artımı ilə müəyyən məhdudiyyətlərin qoyulması şərti (4) tənliyini aşağıdakı şəkildə çevirmiş olar:

$$\Delta Y = (\beta + 2\gamma * (Q))\Delta Q \qquad (6)$$

Vergi yükü və iqtisadi artım arasındakı asılılığı modelləşdirən (4) və (6) tənlikləri sabitin (β) və funksiyanın (Y) tapılmasına şərait yaradır. Göründüyü kimi, iqtisadi artımın vergi yükündən asılılığını həm real kəmiyyətə görə, həm də ixtiyari dövrdə verilmiş iki kəmiyyət arasında ortaya çıxan həcmi ifadə etməklə mümkün olur.

Riyazi çevirmələr etməklə β sabitini və Y iqtisadi artım parametrik göstəricilərini aşağıdakı kimi qiymətləndirmək olar:

$$\beta = \frac{2*Y}{Q} - \frac{\Delta Y}{\Delta Q} \qquad (7);$$

$$\gamma = \frac{\frac{\Delta Y}{\Delta Q}}{Q} - \frac{Y}{Q^2} \qquad (8).$$

Buradan 1-ci tip Laffer nöqtəsini riyazi çevirmə ilə aşağıdakı kimi göstərmək olar:

$$Q^* = -\frac{\beta}{2\gamma} \; ; \qquad (9)$$

2-ci tip Laffer nöqtəsi (10) tənliyində tapılır:

$$Q^{**} = -\frac{2\beta}{3\gamma} \qquad (10)$$

Burada tapılan Laffer nöqtələri $\beta > 0$ və $\gamma < 0$ bərabərsizliyi qorunduğu halda, iqtisadi məna kəsb edir. Məhz bu şərtlər daxilində parametrlər uyğun olaraq Q^* və Q^{**} ilə verilmiş vergi yükünün optimal həddini müsbət kəmiyyət kimi göstərmiş olur.

İndi də istehsal və fiskal asılılıqları təhlil etmək üçün onları ifadə edən əyriyə baxaq. Bu əyrilərdə axtarılan Laffer nöqtələrini aşağıdakı şəkildə görmək mümkündür.

Şəl göstə $Q^* = -\frac{\beta}{2\gamma}$ hi, ÜDM və ve ərindən 1 $Q^{**} = -\frac{2\beta}{3\gamma}$ daxilolmal

absis oxu ilə kəsişmə nöqtələrində ($Q = 0; Q = -\frac{\beta}{\gamma}$) sıfır kəmiyyətinə bərabər olur.

Qəribədir ki, Laffer nöqtələrinin təhlilini şərtləndirən ən əsas hallar 1-ci tip Laffer nöqtəsinin 2-ci tip Laffer nöqtəsinə görə solda olması halıdır:

Faktiki vergi yükü həm 1-ci, həm də 2-ci tip Laffer nöqtələrindən fərqli ola bilər. Məsələn aşağıda göstərilən bərabərsizliyə baxaq:

$$Q^{**} > Q > Q^{*}$$

Bu hal fiskal sistemə görə məqbul vergi yükünün (Q^{**}) olmasını göstərsə də, növbəti hesabat ilinədək istehsal həcminin azalmasına xidmət edən faktiki vergi yükünün 1-ci tip Laffer nöqtəsindən (Q^{*}) böyük olması uzunmüddətli perspektivdə iqtisadi inkişafın təmin edilməməsinə şərait yaradır. Yuxarıda edilən mühakimə və təhlildən belə nəticə hasil olur ki, istənilən halda, faktiki vergi yükünün 1-ci tip Laffer nöqtəsindən kiçik olması zəruridir:

$$Q < Q^{*}$$

İndi isə analitik hesablamaların tədqiqat və informasiya bazasını göstərək və riyazi-analitik hesablamaların aparılması üçün müraciət edilmiş mənbələrə nəzər yetirək. Tədqiqatın əsas məlumat bazasını Vergilər Nazirliyinin məlumatları və Dövlət Statistika Komitəsinin 2001-2015- ci illərdə yığılmış rəsmi hesabat məlumatları təşkil edir [9].

Məlumdur ki, vergi yükü məcmu vergi gəlirlərinin ÜDM-ə nisbətini ifadə edir. Onu da qeyd etmək lazımdır ki, vergi daxilolmaları Vergilər Nazirliyi, Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi, bələdiyyələr tərəfindən dövlət büdcəsinə cəlb edilir. O cümlədən, dövlət büdcəsinin gəlir hissəsinə yalnız Vergilər Nazirliyi tərəfindən toplanmış gəlirlər deyil, həmçinin Dövlət Neft Şirkətindən transfertlər və gömrük əməliyyatları nəticəsində tutulan vergilər aiddir.

İndi isə Cədvəl 1-in məlumatlarına əsasən, ÜDM və vergi daxilolmalarının maksimum həcmini təyin etmək üçün ekonometrik optimallaşdırma modelinə baxaq.

Bunun üçün ÜDM-in natural loqarifmini tapmaqla, ona maksimum artımı göstərən 1-ci tip Laffer nöqtəsini təyin edən (9) tənliyini qiymətləndirmək üçün E-views ekonometrik proqramına baxaq [10]. Burada göstəricilər ən kiçik kvadratlar metodu ilə qiymətləndirilmiş və statistik xüsusiyyətləri əlavədə göstərilmişdir.

Y = 4736510.67087 - 87862372.5064*Q + 572514079.506*Q^2 - 1232764679.98* Q^3

Alınmış ekonometrik nəticədən göründüyü kimi, heteroskedastiklik testi qəbul - edilən formadadır, T və F statistikaya uyğundur. Odur ki, qalıqların sapması stabil olduğu üçün F və T statistikası homoskedastik xarakter daşıyır, bu da o deməkdir ki, ekonometrik modeldə Qaus-Markov şərti qorunmuşdur. Daha sonra Dörbin-Uatson statistikasının qiyməti 1.203903 olmuşdur, yəni onun 2-ə bərabər olan 1-ci tərtib avtokorreliasiyasını tapmaq mümkün deyildir ki, bu da modelin statistik əhəmiyyətini artıraraq ondan proqnozlaşdırmada istifadə olunmasını əhəmiyyətli edir.

Qeyd etmək lazımdır ki, alınmış reqressiya tənliyinin əmsallarından istifadə etməklə 1-ci tip Laffer nöqtəsini müəyyən etmək mümkündür:

(Q) * = -572514079.506/(3*(-1232764679.98)) = 0.154805

Göründüyü kimi, vergi yükü və ÜDM arasındakı əlaqəni göstərən 1-ci tip Laffer nöqtəsinə görə ÜDM-in həcminin maksimum artım qiyməti vergi yükünün səviyyəsinin 15,4805%-ə bərabər olduğu anda baş verir.

Eyni zamanda vergi yükü və vergi daxilolmaları arasındakı əlaqəni göstərən 2-ci tip Laffer nöqtəsinə baxsaq görmək olar ki, vergi daxilolmalarının maksimum artım qiymətini üçhədli funksiya şəklində verilmiş reqressiya tənliyi ilə qiymətləndirsək, aşağıdakı nəticə alınmış olur. Belə ki,

*Q*** = -180458918.(,)117/(3*(-385661972.(,)745)) = 0.(,)155973 olduğu üçün 2-ci tip Laffer nöqtəsi 0.(,)155973-ə bərabər olur. Buradan aydın olur ki, büdcə daxilolmalarının maksimumu vergi yükünün 15.(,)5973% bərabər olduğu vəziyyətdə mümkündür. Bu o deməkdir ki, 2-ci tip Laffer nöqtəsinə görə optimal vergi yükü 15.(,)5973%-ə bərabərdir. Başqa sözlə, vergi yükü 15.(,)5973%-ə bərabər olarsa, dövlət büdcəsinin vergi daxilolmaları ən yüksək artıma malik olur.

Alınmış nəticələrin təhlili. Yuxarıda verilmiş ekonometrik modelin nəticələrindən irəli gələn ÜDM və büdcə gəlirlərinin həcminə maksimum qiymət artımı verən optimal vergi yükünün qiymətinin təyin edilmiş şəklinə baxaq:

Cədvəl 1.Azərbaycanda vergi yükünün optimal səviyyəsi

	Vergi yükünün optimal səviyyəsi
Vergi yükünün ÜDM-in həcminə maksimum artım verdiyi 1-ci tip Laffer nöqtəsi	15.(,)4805%
Vergi yükünün büdcə daxilolmalarının həcminə maksimum artım verdiyi 2-ci tip Laffer nöqtəsi	15.(,)5973%

Aydın olur ki, 1-ci və 2-ci tip Laffer nöqtələri arasında çox az fərq mövcuddur.

Bu o deməkdir ki, həm ÜDM-in həcminin, həm də büdcə gəlirlərinin artırılması üçün əlverişli şərait yaranmışdır. Göründüyü kimi, 2015-ci ildə 1-ci və 2-ci tip Laffer nöqtələrinin faktiki vergi yükündən kiçik olması onu deməyə əsas verir ki, fiskal siyasətin effektivliyi aşağı olmuşdur. Buradan belə çıxır ki, gələcək hesabat illərində faktiki vergi yükünün azaldılması məqsədəuyğundur. Vergi yükünün formalaşmasında xüsusi payı olan mənfəət vergisi, ƏDV və fiziki şəxslərin gəlir vergisinin aşağı salınması nəzərdə tutulur. Bu məqsədlə hər bir vergi növü üzrə ekonometrik modelləşdirmənin aparılması optimal vergi dərəcəsini təyin etməyə imkan verir ki, bununla da daha səmərəli vergi siyasətinin reallaşdırılması mümkündür.

Ədəbiyyat

[1] Балацкий Е.В. «Эффективность фискальной политики государства», Проблемы прогнозирования, ИНП РАН, 2000, N0- 5, с. 32.

[2] Matthews K. “VAT Evasion and VAT Avoidance: Is there a European Laffer curve for VAT?” International Review of Applied Economics / Volume 17, 2003 p.105-114

[3] Мовшович С.М., Соколовский Л.Е. Выпуск, налоги и кривая Лаффера, Экономика и математические методы, 1994, Вып. 3.

[4] Kazman, Samuel B., "Exploring the Laffer Curve: Behavioral Responses to Taxation" (2014). UVM Honors College Senior Theses. Paper 8.

[5] Гусаков С.В., Сак С.В. «Оптимальные равновесные цены и точка Лаффера», Экономика и математические методы, 1995, Т. 31, Вып. 4.

[6] Балацкий Е.В. «Лафферовы эффекты и финансовые критерии экономической деятельности», Мировая экономика и международные отношения, 1997, №11.

[7] Балацкий Е.В. «Точки Лаффера и их количественная оценка», Мировая экономика и международные отношения, 1999, №12.

[8] Балацкий Е.В. «Налог на имущество фирм и накопление основного капитала», Мировая экономика и международные отношения, 1999, №3.

[9] Azərbaycanın Statistik Göstəriciləri, ARDSK, Bakı, 2015.

[10] EViews-4 User guides

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 252 - 258
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 252 - 258

İNNOVASİYALI İQTİSADİ İNKİŞAFIN STİMULLAŞDIRILMASI

H.C. Əsgərova
baş müəllim, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 14 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 14 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi bu elmi məqalədə innovasiyaların təsərrüfat subyektlərinin istehsal və kommersiya məsələlərinin həlli vastəsi kimi çıxış etməsini göstərməkdən ibarətdir. İnnovasiya inkişafının stimullaşmasının nə zaman əldə olunması, bu fəaliyyətin həyata keçirilməsinin əlverişli olacağı şəraitinin yaradılması, innovasiya inkişafının əsasında elmi-tədqiqat və təcrübə-konstruktor işləri üzrə vergi tutma mexanizmlərinin reallaşması vasitəsilə stimullaşdırıcı vergi sisteminin formalaşması qeyd olunur. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Təqdidatın nəticəsi olaraq sinerğizm prinsipinin bazar münasibətlərinin iştirakçıları arasında, fəaliyyət şəraiti və ölkənin xalq təsərrüfatının inkişafı prosesində qarşılıqlı təsirin möhkəmlənməsinə kömək etməsi açıqlanmışdır.Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: tədqiqatın nəticələri sosial sahədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşməsində müsbət rol oynaya bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı: dövlətin zəruri infrastruktur obyektlərin yaradılması prosesini tənzimləyə, onların effektiv istifadəsini təmin edə və maliyyə təminatı məsələlərini nəzarətdə saxlaya bilməsi əsaslandırılmışdır.

Açar sözlər: stimullaşdırma,təcrübə-konstruktor, stimullaşdırıcı vergi sistemi, innovasiya sferası, dövlət innovasiya strategiyası.
Jel Classification: O31; O43

STIMULATION OF INNOVATIVE ECONOMIC DEVELOPMENT

Abstract

The main purpose of the research is to display in the article the solutions of industrial and commercial issues of economic entities through innovations. The conditions under which the stimulation of achieving innovative development is achieved, the formation of a stimulating tax system is achieved through the implementation, on the basis of innovative development, of a mechanism for taxing research and development work. The work was carried out on the basis of research

methods, such as scientific abstraction, logical generalization, statistical analysis. As a result of the research, it was revealed that the principle of synergism helps strengthen interaction between market participants in the process of developing the national economy of the country. Limitations of the study: more practical information is required. Practical significance of the research: it can play a positive role in enriching the scientific and practical knowledge of specialists who conduct research in the social sphere and work in this field. The scientific novelty and originality of the research: the possibility to regulate the process of creating the necessary elements of the infrastructures, to ensure their effective use and to teach questions of financial support was substantiated.

Keywords: stimulation, experimental-design, stimulasdırıcı tax system, innovation in the sector, the innovation strategy.ancial security issues.

СТИМУЛИРОВАНИЕ ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Резюме

Основной целью исследования является отображение в статье решения промышленных и коммерческих вопросов хозяйствующих субъектов посредством инноваций. Отмечаются условия, при которых достигается стимулирование достижения инновационного развития, формирование стимулирующей налоговой системы путем реализации на основе инновационного развития механизма налогообложения научно-исследовательских и опытно-конструкторских работ. Работа была проведена на основе методов исследования, таких как научная абстракция, логическое обобщение, статистический анализ. В результате исследования было выявлено, что принцип синергизма помогает укреплению взаимодействия между участниками рыночных отношений в процессе развития народного хозяйства страны. Ограничения исследования: требуется больше практической информации. Практическая значимость исследования: может сыграть положительную роль в обогащении научных и практических знаниях специалистов, проводящих исследования в социальной сфере и работающих в этой области. Научная новизна и оригинальность исследования: была обоснована возможность регулировать процесс создания необходимых объектов инфраструктуры, обеспечивать их эффективное использование и учитывать вопросы финансового обеспечения.

Ключевые слова: стимулирование, опытно-конструкторские, стимулирующая налоговая система, сфера инноваций, государственная инновационная стратегия.

İlk olaraq qeyd edım ki, innovasiyalar təsərrüfat subyektlərinin istehsal və kommersiya məsələlərinin həlli vasitəsi kimi çıxıs edir. Müəssisənin bu növ fəaliyyətinin həyata keçirilməsində maraqlı yeniliklərin reallasdırılması prosesində alınan gələcək mənfəətin ölçüsü müəyyən edilir. Innovasiyalar adətən onların başa çatdırılması üzrə daha gec askara çıxarılan müddətli effect gətirir. Odur ki, onların effektivliyinin xərclərin asagı salınması əsasında müəyyən edilməsi üsulu heç də həmisə məqbul sayılmır.

Mülkiyyət formaları isə öz növbəsində innovasiya bazarının strukturu, müxtəlif təskilati-hüquqi formaya malik subyektlər arasında yeniliklərin mübadiləsini əks etdirir. Bu isə innovasiya fəaliyyətinin stimullasdırılması üzrə dövlət siyasətinin asagıdakı əsas istiqamətlərini qabaqcadan müəyyən etməyə imkan verir: vençur kapitalına malik kiçik innovasiyalı müəssisə və təskilatlara dövlət köməyinə dair tədbirlər; dövlət sektorundan özəl sektora texnoloji transfer sərtləri; innovsiya fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi. İnnovasiya fəaliyyətinin məqsədləri, həyata keçirilməsi üsulları, forma və müddətləri hər seydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmalıdır [4, s.656]. İnnovasiya fəaliyyətinin spesifik xüsusiyyətindən və ümumi iqtisadi vəziyyətdən asılı olaraq, bazar münasibətlərinin iştirakçısı gözlənilən nəticəni təmin etməli olan maliyyə metodlarının məcmusunu müəyyən etməlidir. İnnovasiya inkisafının stimullasdırılması bas verən təskilati xarakterli tədbirlərdə daha böyük effekt idarəetmə iyerarxiyasının bütöv səviyyələrində təşkilati tədbirlərin qarsılıqlı əlaqələndirilməsi zamanı əldə olunur. Bu, fəaliyyətin həyata keçirilməsinin əlverisli olacagı şəraitin yaradılmasını nəzərdə tutur. Əksər hallarda innovasiyanın kommersiya reallasdırılmasının məqsədəuyğunluğu və onun iqtisadi sahibkar tərəfindən innovasiya məhsulunun satısı zamanı müəssisənin gəlirləri və müəssisənin öz istehsalında yeniliyin inhisar reallaşdırılmasından ala biləcəyi gəlirlərin əldə olunmamıs məbləgi arasında fərqi müəyyən etmək ilə təyin edilir. Bu kəmiyyət bazarda konyunktur dəyisiklikləri şəraitində fasiləli xarakter dasıyır.

İnnovasiya fəaliyyətinin inkişafı üçün əlverişli səraitin yaradılması dövlət idarəetmə orqanlarının vəzifəsi sayılır. Dövlətin innovasiya siyasəti cəmiyyətin sosial-iqtisadi strategiyası ilə müəyyən edilən məqsədyönlülükdən əlavə dünya bazarında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi səviyyəsinin yüksəldilməsi vəzifələri ilə innovasiya prosesinə cəlb edilən bütün iştirakçıların maraqlarının uzlaşmasını təmin etməlidir [5, s.538].

İqtisadi cəhətdən inkisaf etmis ölkələrin təcrübəsi sübut edir ki, qlobal rəqabət şəraitində iqtisadiyyatın dayanıqlı artımı istehsala yeni texnologiyaların tətbiqi və onların yüksək tətbiq səviyyəsi ilə sərtlənir. Bütün innovasiya cəhətdən aktiv olan ölkələrə xas olan ümumi cəhətləri aşagıdakı kimi ayırmaq olar: həm müəyyən

innovasiya layihələrinin maliyyələşdirilməsində, həm də bütövlükdə innovasiya fəaliyyətinin inkişafında dövlətin güclü rolu; innovasiya fəaliyyətinin inkisafına kömək edən dayanıqlı hüquqi baza. Xaricdə innovasiya fəaliyyətinin stimullasdırılmasının dolayı metodlarının təhlili göstərir ki, innovasiya inkisafının əsasında elmi-tədqiqat və təcrübi-konstruktor işləri üzrə vergitutma mexanizmlərinin reallaşdırılması vasitəsilə stimullaşdırıcı vergi sisteminin formalaşması sayılır. Xaricdə innovasiya proseslərinə kömək üzrə tədbirlərin və onların reallaşdırılması üçün istifadə olunan mexanizmlərin tətbiqi zamanı dövlət orqanlarının rəhbər tutdugu prinsiplər xeyli maraq dogurur. Azərbaycan iqtisadiyyatının qarşıya qoydugu tələblərə daha düzgün cavab verən metodlar aşagıdakılar sayılır: vergi stimullaşdırılması – elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə xərclər ölçüsündə mənfəət vergisindən güzəştlər; aşağı dərəcələrlə mənfəətin tutulması; amortizasiya siyasəti vasitəsilə stimullaşdırma.

Xarici təcrübədə milli maraqlara çatmaq məqsədilə innovasiya fəaliyyətinə kömək və onun dövlət stimullaşdırılması tədbirlərinin müxtəlifliyinə tez-tez rast gəlinir. Xarici ölkələrin təcrübəsində əsas nəticə ondan ibarətdir ki, iqtisadiyyatın yüksək aktivliyi elmi-texniki bazarda, milli prioritetlərin müəyyən edilməsində dövlətin aparıcı rolu ilə və stimullaşdırma mexanizmləri sistemi vasitəsilə, dövlətin innovasiya inkisafı prosesinə fəal təsiri ilə təmin olunur. Belə ki, əgər yeni texnoloji səviyyədə bütün istehsal sahələrinin texniki cəhətdən yenidən qurulması və innovasiya tətbiqinin fəallaşdırılması məqsəd sayılırsa, onda iqtisadiyyatın bütün sferalarına bərabər surətdə yayılan ümumi qərarlar kifayətdir. Nəzərə almaq lazımdır ki, bu halda, əlavə güclü inkisafı hazırda da daha çox investisiya cəlbediciliyinə malik sahələr alacaqdır. Investisiya üçün daha riskli olan yüksək texnologiyaya malik sahələr kifayət qədər investisiya sahələri almadıqlarına görə, gələcək inkisaf üçün zəruri maliyyə əsasına malik olmayacaqlar. Odur ki, innovasiya fəaliyyətinin stimullaşdırılması sistemi iqtisadiyyat sahəsində dövlətin qarşıya qoydugu iki məsələnin həllinə kömək etməlidir: innovasiya tətbiqinin ümumi aktivləşdirilməsi və dünya bazarına çıxıs perspektivləri nəzərə alınmaqla iqtisadiyyatın yüksək texnoloji sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsi. Bütövlükdə, əmtəə bazarlarında reallaşdırma probleminin kəskinləşməsi, rəqabət səviyyəsinin artması innovasiya bazarında təkliflərin miqdarının yüksəlməsinə və əməliyyatların artmasına gətirib çıxarır [6, s.862]. Ona görə də bazar şəraitində təsərrüfat subyektləri innovasiya fəaliyyətinin effektivliyini yüksəltmək məqsədilə innovasiya fəaliyyətini müəssisənin strateji inkisaf məqsədləri ilə inteqrasiya etməlidir. Strateji və innovasiya fəaliyyətinin meydana çıxmasına təsərrüfat subyektlərinin idarəetmə sisteminin xarici mühit şəraitinin mürəkkəbləşməsinə doğru təkamül kimi baxmaq lazımdır. Innovasiyanın tətbiqinə rəğmən qərar qəbul edərkən, xarici mühitin təhlili, resursların yerləşdirilməsi və korporativ strategiya kimi strateji amilləri nəzərə almaq lazımdır.

Yeni texnologiyaların inkisafı strateji qərarların qəbul edilməsi prosesində aktual istiqamət sayılır. Belə ki, strategiyanın reallaşdırılması bir qayda olaraq müəssisənin fəaliyyətində dəyişikliklərə, məsələn, yeni məhsulların işlənməsinə və bazara çıxarılmasına və ya yeni texnologiyaların mənimsənilməsinə gətirib çıxarır. Lakin hər hansı dəyişikliklər innovasiyalar sayılır. Beləliklə, hazırda innovasiyalar müəssisənin perspektiv inkisaf istiqamətlərini müəyyən edir və beləliklə də müəssisənin innovasiya və strateji fəaliyyəti bazarın inkisafi ilə tam inteqrasiya olunur. Müəssisənin idarə olunması prosesində funksiyalarının ümumiləşdirilməsi əsasında və xarici bazar mühitinin, eləcə də məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə bütün amillərin öz vaxtında uçotu vasitəsilə dünya iqtisadiyyatının effektivliyin əldə olunmasına əsaslanan innovasiya tipli inkisafa keçid meylləri nəzərə alınmaqla innovasiya yönümlü idarəetmə statusunun yüksəldilməsi və onun funksional səviyyədən korporativ səviyyəyə keçirilməsi zəruridir. Iqtisadi artım və inkisaf amili kimi yeni texnologiyaların rolunun gücləndirilməsi şəraitində innovasiya fəaliyyətinin stimullaşdırılması öz funksional vəzifəsi deyil, ümumi strateji məqsəd güdməlidir. Son illər Azərbaycanda elmi-tədqiqat işlərinə və texniki işləmələrə məsrəflər xeyli azaldılmısdır. Bu zaman elmi-tədqiqatlara və işləmələrə mövcud dövlət xərcləri kommersiya cəhətdən perspektivli tətbiqi tədqiqatların ziyanına olaraq etibarlı fundamental tədqiqatlara daha böyük kömək siyasətin prioritet istiqamətlərinə uygun olub-olmamasından asılı olmayaraq, mövcud elmi-tədqiqat institutlarının subsidiyalaşdırılmasına yönəldilmisdir. Beləliklə, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin dövlət maliyyələşdirilməsi daha çox müvafiq nəticələrin alınmasına deyil, elmi-tədqiqat təşkilatlarının mövcud infrastrukturuna kömək göstərilməsinə yönəldilmişdir. İşləmə mexanizmləri ideyanın basa çatmıs innovasiya yönümlü texniki qərarlara qədər ötürülməsi ilə əlaqədardır. Bunun üçün müvafiq olaraq intellektual, maddi və maliyyə resurslarının cəmlənməsi, eləcə də onların vaxta və məkana görə effektiv kombinasiyası zəruridir. İkinci qrupu innovasiya fəaliyyətinin təskilati mexanizmləri əmələ gətirir. Həmin mexanizmlər innovasiya proseslərini həyata keçirən strukturların formalaşmasına və yenidən təşkil olunmasına yönəldilmişdir. Bəzi hallarda effektiv təskilati mexanizmlər iri təsərrüfatçılıq subyektləri, təsərrüfatçılıq fəaliyyət istiqaməti baxımından, bu müəssisənin maraqları dairəsinə daxil olan kiçik innovasiya təşkilatlarının udulması ola bilər. Kiçik innovasiya təşkilatlar da udulmada maraqlıdırlar. Belə ki, onlar heç də öz fəaliyyətinin inkişafı üçün kifayət qədər vəsaitlərə malik olmurlar. Udulma ilə tamamlanan mexanizm dedikdə uzunmüddətli müqavilə münasibətlərinin yaradılmasına əsaslanan iri müəssisələrlə kiçik innovasiya təşkilatları arasında sıx əlaqələrin qurulması başa düşülür ki, bunların da məcmusunu bazar innovasiya inteqrasiyası adlandırırlar. Bu halda, innovasiya

təşkilatları öz müstəqilliklərini saxlasalar da, iri təsərrüfatçılıq subyrktləri bazar istehsal əlaqələri sferasına düşürlər.

Qeyd edək ki, innovasiya fəaliyyətinin stimullaşdırılmasının əsas metodlarından biri vergi stimullaşdırılmasıdır. İnnovasiya fəaliyyətinin stimullaşdırılması mexanizminin digər bir elementi texnoloji transfert mexanizmi sayılır ki, bunu da dövlət sektorunda işlənib hazırlanmış texnologiyalar sektoruna verilməsi kimi müəyyən etmək olar. Nəhayət, innovasiya fəaliyyətinin effektiv stimullaşdırması intellektual mülkiyyətin müvafiq müdafiə mexanizmi olmadan mümkün deyildir. Bazar təsərrüfatı şəraitində həmin mexanizmə qoyulan əsas tələblər mövcuddur. Bu tələblər asagıdakılardan ibarətdir:

1. İnnovasiya fəaliyyətini həyata keçirən təsərrüfat subyekti tərəfindən texnoloji rentanın alınmasının təmin olunması;
2. Patentləşmə proseslərinin aşağı məsrəfliliyi və onun həyata keçirilməsi üçün güzəstli kreditlərin alınması imkanı.
3. İnnovasiya məhsulları və texnologiyaları istehsalının təşkili üçün lisenziyaların alınması zamanı dövlət strukturlarının köməyi.

Yuxarıdakıların tətbiq edilməsi nnovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərini tətbiq edən, yeni məhsul və xidmətlər yaradan müəssisələrin inkisafının effektivliyinin yüksəldilməsinə kömək edəcəkdir. Bu zaman innovasiya fəaliyyətinin həyata keçirilməsi prosesi aşagıdakı tələblərə cavab verməlidir: innovasiya imkanları mənbəyinin aşkara çıxarılması, onların istirakçılar üçün rolunun və əhəmiyyətinin müəyyən edilməsi əsasında effektiv innovasiya yönümlü inkisaf fəaliyyətinin həyata keçirilməsi prosesinin dəqiq təşkili.

Onu da qeyd etmək olar ki, innovasiya fəaliyyətinin stimullaşdırılması üzrə normativ-hüquqi bazanın islahatlaşdırılması innovasiya fəaliyyətinin inkişafı prosesində mövcud neqativ meylləri aradan qaldırmağa və cari və strateji məsələlərin effektiv həlli üçün zəruri şərait yaratmaga imkan verir. Hazırda normativ-hüquqi tənzimləmə təsərrüfat subyektlərinin inkişafını xeyli dərəcədə ləngidir və onların diferensiasiyasının güclənməsinə kömək edir. Nəticədə toplanmıs innovasiya potensialı, bütövlükdə makroiqtisadi sistemdə zəruri rəqabət üstünlüklərini formalaşdırmağa imkan vermir. Bu isə makro səviyyədə ölkənin formalasmaqda olan imicinə neqativ təsir göstərir. İnnovasiya fəaliyyətinin belə bir mühüm fərqləndirici xüsusiyyəti innovasiya bazarı subyektlərinin ikili rolu sayılır. Bu isə ondan ibarətdir ki, innovasiya məhsulunun istehsalçıları olan müəssisələr eyni vaxtda bu cür məhsulların istehsalçıları bazarında elmi-texniki məhsulların alıcıları, eləcə də istehlakçılarla qarsılıqlı əlaqədə innovasiya məhsulunun satıcıları sayılırlar. Öz növbəsində innovasiya məhsulunun satıcıları arasında rəqabət mübarizəsi innovasiya müəssisələrinin rəhbərlərini istehsalın texniki səviyyəsini və ya göstərilən xidmətlərin səviy-

yəsini yüksəltməyə, keyfiyyəti yaxşılaşdırmaga, istehsal xərclərini aşagı salmaga və fəaliyyət effektivliyini yüksəltməyə can atmaga sövq edir. Nəticədə innovasiya bazarında rəqabət müəssisənin innovasiya fəaliyyətinin inkisafını stimullaşdırır. İnnovasiya bazarı təkcə innovasiya məhsulu ilə deyil, həm də təşkilat, kollektiv fəaliyyəti həyata keçirməyə qabil mütəxəssislərdən ibarətdir. İnnovasiya fəaliyyətinin inkisafı zamanı vençur kapitalının istifadəsində məhdudiyyət mövcuddur; milli innovasiya sisteminin inkişafının baza komponenti kimi fundamental elmin qiymətləndirilməməsi müşahidə olunur; respublika büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilən tətbiqi tədqiqatların böyük miqdarı daxili və xarici bazarlarda tələb perspektivlərinə malik deyillər; dövlət tərəfindən elmi-texniki inkişafın müəyyən prioritetlərinin reallaşdırılması mexanizmləri səmərəsizdir; İnnovasiya fəaliyyətinin həyata keçirilməsi üçün inkisaf etmis normativ və qanunvericilik bazasının olmaması, eləcə də birbasa və dolayı mexanizmlər daxil olmaqla, ona dövlət köməyi tədbirlərinin nisbətən azlıgı; ayrı-ayrı icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilən elmi-tədqiqat və təcrübi-konstruktor işləri arasında ümumi koordinasiyanın olmaması; elmi təşkilatlar, təhsil müəssisələri və istehsal müəssisələri arasında kooperasiya əlaqələrinin zəifliyi; innovasiya sferasının asağı informasiya səffaflıgı; kiçik innovasiya sahibkarlıgının aşagı inkisaf səviyyəsi; hazırda tətbiq olunan güzəştlər, bütövlükdə iqtisadiyyatın sahələrində innovasiya fəaliyyətini stimullaşdırmır və milli texniki innovasiyaların tətbiqində marağın yaradılmasına, elmi kapital axınına və təşkilatlarda innovasiya fəaliyyətinin həyata keçirilməsinə kömək etmir [8, s.512].

Ədəbiyyat

[1] Atakisiyev M.C., Süleymanov Q.S. "İnnovasiya menecmenti", Bakı, 2004.

[2] Şəkərəliyev A. S. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər, (Monoqrafiya). Bakı: "İqtisad Universiteti", Bakı- 2009, "Nurlan" 2005, səh: 656

[3] Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkisaf problemləri: təcrübə, meyillər və perspektiv istiqamətlər. Bakı, "Adiloglu" nəsriyyatı, Bakı- 2005; səh- 538

[4] Əliyev İ.İ., Heydər Əliyev yolu: Azərbaycan inkisafının yeni mərhələsində, Bakı-2007; səh-862.

[5] Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi infrastrukturunun modernizasiyası. Bakı, "Elm", 2003; səh- 512

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 259 - 265
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 259 - 265

TƏKRAR İSTEHSAL SİSTEMİNDƏ İNNOVASİYA İNFRASTRUKTURU

S.İ. Abbasova
müəllim, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 19 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 19 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi innovasiya infrastrukturunun innovasiya sisteminin əsas elementlərindən biri olduğunu nəzərə alaraq, innovasiya infrastrukturunun formalaşması və inkişafının əsas vəzifələrinin, növlərinin nəzəri və praktiki əsaslarını öyrənməkdən və Azərbaycanın milli innovasiya sisteminin təhlili əsasında respublikanın innovasiya infrasrtrukturunun təşkilati-iqtisadi modelinin hazırlanmasının mümkünlüyünü göstərməkdən ibarətdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsində vençur investorlarının innovasiya infrastrukturu subyektlərinin qarşılıqlı təsirinin əsas variantı sayılan Milli innovasiya infrastrukturunun təklif olunan modeli nəzərdən keçirilmişdir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik informasiya tələb etməsidir. Tədqiqatın praktik əhəmiyyəti sosial sahədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşməsində müsbət rol oynaya bilməsidir. Tədqiqatın elmi yeniliyi və orijinallığı Azərbaycan Respublikasında innovasiya infrastrukturunun bütün subyektlərinə dövlət dəstəyinin və güzəştlərin şamil edilməsi üçün bu subyektlər haqqında ümümi dövlət qanunvericiliyinin və innovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun olmasının məqsədəuyğun olmasıdır.

Açar sözlər: innovasiya infrastrukturu, milli innovasiya sistemi, biznes inkubatoru, vençur sahibkarlığı, innovativ iqtisadiyyat.
Jel Classification: O31

INNOVATIVE INFRASTRUCTURE IN THE REPRODUCTION SYSTEM

Abstract

The main objective of the study is: Innovation infrastructure of the innovation system is one of the main elelmentlərindən, the main objectives of formation and development of innovation infrastructure forms the basis of theoretical and practical study and analysis of the national innovation system, the possibility of preparing the country's innovation infrastructure to provide organizational and economic model. The research: systematic reviews of scientific abstraction and logical generalization, statistical analysis was carried out on the basis of research methods. The results of

the study: the subjects of the interaction of venture investors in two major variants of innovation infrastructure of the proposed model, which is about the national innovation infrastructure. Limitations: more practical information is required. Practical significance of the study: social studies in the scientific and practical knowledge of experts working in this field and can play a positive role in enriching. The scientific novelty and originality of the study, all the subjects of innovation infrastructure in the Republic of Azerbaijan to extend state support and benefits for the general public on these subjects dealing with the subjects of legislation and coordinating the organization's innovation activity is not advisable.

Keywords: innovation infrastructure, national innovation system, business incubator, venture capital entrepreneurship, innovative economy.

ИННОВАЦИОННАЯ ИНФРАСТРУКТУРА В СИСТЕМЕ ВОСПРОИЗВОДСТВА

Резюме

Основной целью исследования является изучение теоретических и практических основ основных задач и видов формирования и развития инновационной инфраструктуры, как основного из элементов инновационной системы, и указание на возможность разработки организационно-экономической модели инновационной инфраструктуры республики на основе анализа национальной инновационной системы Азербайджана. Исследовательская работа была выполнена на основе таких методов исследования как научная абстракция и системный анализ, логическое обобщение и статистический аннализ. В результате исследования была рассмотрена предложенная модель Национальной инновационной инфраструктуры, которая считается одним из основных вариантов взаимодействия субъектов инновационных инфраструктур венчурных инвесторов. Ограничения исследования: требуется более обширная информация. Практическое значение исследования в том, что оно может сыграть положительную роль в обогощении научных и практических знаний специалистов, проводящих исследования в социальной сфере и работающих в этой области. Научная новизна и оригинальность исследования в обосновании целеесообразности существования общего государственного законодательства для предоставления всем субъектам инновационной структуры Азербайджанской республики государственной поддержки и льгот, и структуры, которая бы координировала субъектов, занимающихся инновационной деятельностью.

Ключевые слова: инновационная инфраструктура, национальная инновационная система, бизнес-инкубаторы, венчурные предпринимательство, инновационная экономика.

İnnovasiya infrastrukturu müxtəlif istiqamətli və müxtəlif təşkilati-hüquqi formaya malik bir-birilə qarşılıqlı əlaqədar və bir-birini qarşılıqlı tamamlayan təşkilatlar sistemi, eləcə də onların qarşılıqlı təsir qaydası olub, texnoloji mənimsəmədən başlayaraq elmi tədqiqatlara qədər innovasiya prosesi mərhələlərinin reallaşdırılmasını təmin edir. İnnovasiya infrastrukturu müəllif innovasiya sisteminin əsas elementlərindən biri sayılır. Milli innovasiya sistemi özündə həmin ölkə üçün səciyyəvi olan və innovasiya proseslərinin yayılma şəraitinə təsir göstərən hüquqi, maliyyə, sosial-iqtisadi və informasiya institutlarının məcmusunu birləşdirir. Innovasiya infrastrukturunu onun subyektlərinin əsas fəaliyyət və istiqamətlərinə uyğun olaraq bir sıra baza elementlərinə ayrılır. Hər bir istiqamət vahid innovasiya infrastrukturu sistemində özünəməxsus altsistem yaradır və təşkilati struktur formasına görə müxtəlif ola bilər. Bu zaman maksimal fəaliyyət effektivliyini təmin etmək üçün bütün göstərilən istiqamətlər iqtisadiyyatın innovasiyalı inkişafının təmin olunmasına yönəldilmiş vahid zəncirin tam qiymətli halqası sayılmışdır (1, s.236). Bütün innovasiya infrastrukturlu cəmiyyətin formalaşmasının son məqsədi bütün cəmiyyətin maraqlarına uyğun surətdə innovasiya fəaliyyətinin effektiv həyata keçirilməsini təmin etməyə qabil təsərrüfat subyektləri sisteminin yaradılması sayılır. İnnovasiya infrastrukturunun formalaşması və inkişafının əsas vəzifələri aşağıdakılardan ibarətdir: iqtisadiyyatın struktur cəhətdən yenidən qurulması və buraxılan məhsulun nomenklaturasının dəyişdirilməsi yolu ilə istehsalın tənəzzülünün aradan qaldırılması; yerli məhsulların rəqabət qabiliyyətliliyinin və milli iqtisadiyyatın cəlbediciliyinin artırılması; elmi-texniki potensialın qorunub saxlanması və inkişafı. İnnvasiya infrastrukturu subyektlərinin funksiyaları müxtəlifdir, onlar fəaliyyət istiqamətindən, konkret innovasiyanın xassələrindən, innovasiya prosesinin fazalarından, dövlət innovasiya siyasətinin məqsədindən asılıdırlar. Innovasiya infrastrukturunun formalaşması və inkişafının nəzəri və praktiki əsaslarını öyrənmək və Azərbaycanın milli innovasiya sisteminin təhlili əsasında respublikanın innovasiya infrastrukturunun təşkilati-iqtisadi modelini hazırlamaq mümkündür. Innovasiya siyasətinin reallaşmasına təsir edən əsas amillərdən biri innovasiya fəaliyyəti infrastrukturunun inkişaf dərəcəsi sayılır. İqtisadi ədəbiyyatda innovasiya fəaliyyətinin infrastrukturu dedikdə, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün innovasiya fəaliyyəti subyektlərinə zəruri xidmətləri təklif edən təşkilatlar başa düşülür. Innovasiya fəaliyyətinin infrastruktur subyekti innovasiya fəaliyyəti subyektlərinə istehsal-texniki, konsaltinq, informasiya və digər xidmətləri təklif edən hüquqi şəxs sayılır. Innovasiya infrastrukturu müxtəlif istiqamətli və müxtəlif təşkilati-hüquqi formaya malik bir-birilə qarşılıqlı əlaqədar və bir-birini qarşılıqlı tamamlayan təşkilatlar sistemi, eləcə də onların qarşılıqlı təsir qaydası olub, texnoloji mənimsəmədən başlayaraq elmi tədqiqatlara qədər innovasiya prosesi mərhələlərinin reallaşdırılmasını təxmin edir. Innovasiya infrastrukturu milli

innovasiya sisteminin əsas elementlərindən biri sayılır. Milli innovasiya sistemi özündə həmin ölkə üçün səciyyəvi olan və innovasiya proseslərinin yayılma şəraitinə təsir göstərən hüquqi, maliyyə, sosial-iqtisadi və informasiya institutlarının məcmusunu birləşdirir. Innovasiya infrastrukturu onun subyektlərinin əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq bir sıra baza elementlərinə ayrılır. Hər bir istiqamət vahid innovasiya infrastrukturu sistemində özünəməxsus altsistem yaradır və təşkilati struktur formasına görə müxtəlif ola bilər. Bu zaman maksimal fəaliyyət effektivliyini təmin etmək üçün bütün göstərilən istiqamətlər iqtisadiyyatın innovasiyalı inkişafının təmin olunmasına yönəldilmiş vahid zəncirin tam qiymətli halqası sayılmalıdır. Innovasiya infrastrukturunun formalaşmasının son məqsədi bütün cəmiyyətin maraqlarına uyğun surətdə innovasiya fəaliyyətinin effektiv həyata keçirilməsini təmin etməyə qabil təsərrüfat subyektləri sisteminin yaradılması sayılır. Innovasiya infrastrukturunun formalaşması və inkişafının əsas vəzifələri aşağıdakılardan ibarətdir: iqtisadiyyatın struktur cəhətdən yenidən qurulması və buraxılan məhsulun nomenklaturasının dəyişdirilməsi yolu ilə istehsalın tənəzzülünün aradan qaldırılması; yerli məhsulların rəqabət qabiliyyətliliyinin və milli iqtisadiyyatın cəlbediciliyinin artırılması; elmi-texniki potensialın qorunub saxlanılması.

İnnovasiya infrastrukturu subyektlərinin funksiyaları müxtəlifdir, onlar fəaliyyət istiqamətindən, konkret innovasiyanın xassələrindən, innovasiya prosesinin fazalarından, dövlət innovasiya siyasətinin məqsədindən asılıdırlar. Innovasiya infrastrukturunun formalaşması və inkişafının nəzəri və praktiki əsaslarını öyrənmək və Azərbaycanın milli innovasiya sisteminin təhlili əsasında respublikanın innovasiya infrastrukturunun təşkilati-iqtisadi modelini hazırlamaq mümkündür. İnnovasiya infrastrukturunda formalaşan ən vacib element istehsal-texnoloji istiqamət sayılmalıdır ki, bunun da əsasında çox da böyük olmayan innovasiya mərkəzləri dayanır.

Regional innovasiya mərkəzlərinin yaradılmasının əsas məqsədi Azərbaycanın regionlarında texnoloji istiqamətin geniş spektri üzrə innovasiya proseslərinin aktivləşdirilməsi sayılır (2, s.538).Yüksək texnologiyalara malik ərazilər innovasiya infrastrukturunun subyektləri sayılır və istehlak təyinatlı yüksək texnoloji məhsulların buraxılışı üzrə xarici şirkətlərlə birgə müəssisələr yaratmaq əsasında fəaliyyət göstərir. Bu cür təşkilatların yaradılmasında məqsəd Azərbaycan iqtisadiyyatına istehlak mallarının istehsalı üzrə müasir texnologiyaların cəlb olunması sayılır. Yüksək texnologiyaya malik ərazilərin yaradılması üçün ilkin şərtlər əlverişli coğrafi mövqe, istehsal infrastrukturunun kifayət qədər inkişaf səviyyəsi zəngin mineral resursların mövcudluğu, iqtisadi və siyasi sabitlik hesab olunur. İnnovasiya fəaliyyətinin informasiya təminatı sferasında innovasiya fəaliyyəti üzrə informasiya-analitik mərkəzin yaradılması məqsədəuyğun sayılır. Həmin mərkəzin əsas funksiyaları innovasiya fəaliyyətinin bütün maraqlı subyektlərinə innovasiya xarakterli

informasiyaları toplamaqdan, işləyib hazırlamaqdan, təhlil etməkdən və çatdırmaqdan, eləcə də kütləvi informasiya vasitələrində müvafiq materialların hazırlanması və yerləşdirilməsi vasitəsilə cəmiyyətdə innovasiya inkişafı üzrə ideyaları təbliğ etməkdən ibarətdir. Mərkəzin fəaliyyətini təmin etmək üçün onun müasir kompüterlərlə, məlumatların emalı və ötürülməsi vasitələrilə, qlobal internet kompüter şəbəkəsinə qoşulmasını təmin etmək zəruridir. Bu zaman müasir tam funskional proqram təminatının işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir ki, bu da göstərilən funksiyaların avtomatlaşdırılmasını təmin edəcəkdir. Innovasiya layihələrinin effektivliyinin qiymətləndirilməsi keyfiyyətini əvvəldən axıra kimi yüksəltmək məqsədilə üçsəviyyəli ekspertiza sisteminin yaradılması məqsədəuyğundur. Buraya dövlət ekspertizası, müstəqil ekspertiza və innovasiya infrastrukturu subyektləri nəzdində innovasiya layihələrinin ekspertizası daxildir. Elmi-texniki məhsulların bazara yönəldilməsi sisteminin inkişafı məqsədilə innovasiya birjasının yaradılmasını məqsədəuyğun sayırıq. Onun fəaliyyətinin başlanğıc mərhələsində qlobal kompüter internet şəbəkəsində ixtisaslaşdırılmış vebsaytın yaradılması vasitəsilə ticarətin təşkili məqsədəuyğundur. Bu sayt elektron ticarət sahəsində informasiya sistemlərinin təhlükəsizliyinin müasir tələblərinə uyğun gəlməli, eləcə də birjanın bütün funksionalının reallaşdırılmasına kömək etməlidir. Innovasiya inkişafı templərinin sürətləndirilməsi üçün birjanın fəaliyyətinə elmi-texniki məhsulun həm alıcısı, həm də satıcısı kimi xarici sahibkarları cəlb etmək lazımdır. Innovasiya fəaliyyətinin xarici subyektlərinin qeydiyyatı üçün müəyyənedici kriterisi tədqiqatların texnolojilik səviyyəsi, milli resurs potensialının reallaşmağa cəlb olunması səviyyəsi, tədqiqatların hazır istehlak məhsulların istehsalı üzrə sahələrə aid edilməsi sayılmalıdır. Yuxarıda qeyd olunanları ümumiləşdirərək, kiçik biznesin infrastrukturunu təşkil edən qurumları aşağıdaki kimi təsnifləşdirə bilərik:

I. Tədris, konsaltinq, informasiya. Biznes-məktəblər; elm-tədris mərkəzləri; biznesə yardım agentliyi; konsaltinq firmaları; analitik informasiya mərkəzləri.

II. Kompleks yardım. Biznes inkubatorlar; biznes mərkəzlər; texnoparklar; innovasiya-texnoloji mərkəzləri. III. Maliyyə-kredit investisiya yardımı. Kiçik sahibkarlığa yardım fondları; banklar; lizinq şirkətləri; investisiya şirkətləri; vençur şirkətləri.

IV. İctimai təşkilatlar. Sənaye-ticarət palatası; sahibkarlar assosiasiyası; həmkarlar ittifaqları.

Biznes inkubatorlar. Biznes-inkubatorlara kicik müəssisələri ofislərlə, istyehsalat əraziləri ilə təmın edən, onlara maarifçilik, ofis və başqa xidmətləri göstərən qurumları nəzərdə tuturuq (3, s.862). Biznes-inkubatorlar həm kommersiya, həm də dövlət qurumu kimi fəaliyyət göstərə bilərlər. Onlar eyni zamanda həm müstəqil qurum kimi, həm də texnoparkların, texnoloji mərkəzlərin və kiçik biznesə kompleks yar-

dım edən digər qurumların nəzdində fəaliyyət göstərə bilərlər. Bu termin dunya iqtisadiyyatına Amerika tərəfindən daxil edilmişdir.

Sosial işgüzar mərkəzlər. Əsasən dövlət qurumu kimi məşğulluq mərkəzlərində yaradılır. Belə mərkəzlər ilk dəfə Rusiya ərazisində yaradılmışdır. Bunların yaradılmasında məqsəd kicik biznesi inkişaf etdirməklə yeni-yeni iş yerləri açmaq, qeyri-məşğul və işsiz əhalini işlə təmin edərək, insanların rifahını yüksəltmək və dövlətin movqeyini möhkəmləndirməkdən ibarətdir. Sosial işgüzar mərkəzlər sosial təminat nazirliyinə aid olan yeganə dövlət qurumudur. Belə mərkəzlərə inkişaf etmiş ölkələin mehmanxanalarında, digər xidmət sahələrində, ticarət mərkəzlərində cox tez-tez rast gəlmək olar. Belə mərkəzlər kommersiya qurumu olub həmin mərkəzlərin müştərilərinə danışıqlar aparmaq üçün otaqlar icarəyə verir, onları kommunikasiya vasitələri, kompüterlər və digər lazımi vəsaitlərlə təmin edir və s. ofis xidmətləri göstərir. Biznes-mərkəzlər biznes-inkubatorlardan fırqli olaraq yalnız fiziki və hüquqi şəxslərə kommersiya əsasları ilə müvəqqəti yardım göstərir. Bunlardan, kicik sahibkarlığı dəstəkləməyin ən effektiv forması biznes-inkubatorlar və kredit ittifaqlarıdır.

Təcrübə göstərir ki, müasir dövrdə rəqabət qabiliyyətli davamlı iqtisadi inkişafın təmin edilməsi, xammal iqtisadiyyatından bilik iqtisadiyyatına keçilməsi mühüm əhəmiyyət kəsb edir. İnnovasiya sisteminin formalaşdırılması və inkişafı konsepsiyasının hazırlanması bu məqsədə çatmaq üçün vacibdir. İnnovasiya sisteminin effektivliyi, bütövlükdə innovasiyalı iqtisadi inkişafın perspektivi ilə bağlıdır. İnnovasiya sisteminin formalaşması innovasiya fəaliyyətinin rentabellik səviyyəsinə çatdırılmasına qədər innovasiya prosesinin effektivliyinin və optimallaşmasının yüksəldilməsinə xidmət edir. İnnovasiya sisteminin mühüm xüsusiyyəti elmi-texniki ideyanın meydana gəlməsindən başlayaraq bazarda maddi satışına qədərki mərhələlərin daha effektli həyata keçirilməsinə xidmət edir. Bu baxımdan, innovasiya infrastrukturu milli innovasiya sisteminin formalaşmasının tərkib elementi kimi çıxış edir. Burada əsas məqsəd Azərbaycanda milli innovasiya sisteminin formalaşmasının tərkib elementi kimi çıxış edən innovasiya infrastrukturunun formalaşması istiqamətlərini müəyyən etmək, vergitutmanın səmərəliliyini qiymətləndirmək, innovasiya xarakterli sahələr üzrə sadələşdirilmiş vergi sistemini tətbiq etməkdan ibarətdir. Azərbaycanda innovasiya infrastrukturunun formalaşdırılması və inkişafı istiqamətində fundamental tədqiqat aparmaq, innovasiya infrastrukturunun inkişaf konsepsiyasını hazırlamaqla, innovasiya fəaliyyətinin vergitutma xüsusiyyətlərinin, iqtisadiyyatın innovasiyalı inkişaf yollarının müəyyənləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış nəzəri və tətbiqi xarakterli təklif və tövsiyələrin hazırlanması günün tələbi kimi qarşıya qoyulmalıdır.

Beləliklə, milli innovasiya sisteminin inkişafına sistem yanaşmanın olmasına ehtiyac vardır. Azərbaycan Respublikasında innovasiya infrastrukturunun bütün subyektlərinə (sənaye parkları, texnoparklar, aqroparklar, sənaye məhəlləri və s.) döv-

lət dəstəyinin və güzəştlərin şamil edilməsi üçün bu subyektlər haqqında ümümi dövlət qanunvericiliyinin və innovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun olması məqsədəuyğun olardı. Belə bir əlaqələndirici sistemin olması innovasiya infrastrukturunun bütün subyektlərinin fəaliyyət sahəsinə, yerləşməsinə və tərkibinə, istiqamətinə, eləcə də digər məsələlərə dair mərkəzləşmiş qeydiyyatının və monitorinqinin aparılmasına, onlar haqqında məlumatların daim yeniləmək, müəyyən edilmiş hallarda və qaydada dövlət və yerli özünüidarəetmə orqanlarını, habelə fiziki şəxsləri həmin məlumatlarla təmin etmək, innovasiya infrastrukturu subyektləri üzrə informasiya sistemlərinə xidmət göstərən dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyini artırmaq üçün vahid dövlət reyestrinin də yaradılması məqsədəuyğundur.

Ədəbiyyat

[1] Cəbiyev R.M. ”Azərbaycan bazar infrastrukturunun formalaşması və inkişafı”, Bakı-2000, (s.236)

[2] Əlirzayev Ə.Q. ”İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyillər və perspektiv istiqamətlər”, Bakı, “Adiloğlu” nəşriyyatı, 2005, s. 538

[3] Əliyev İ.İ.,“Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində”, Bakı, 2007, s. 862

[4] Əliyev M. ”Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri”, Bakı-2002.

[5] Nuryev Ə.X. ”Regional idarəetmənin əsasları”, Bakı: “Elm”, 2007, s.428.

[6] Şəkərəliyev A.Ş. “Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər”, Monoqrafiya, Bakı-2009, “İqtisad Universiteti”, s.159.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 266 - 273
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 266 - 273

SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ MÜXTƏLİFLİYİ MƏSƏLƏLƏRİ

İ.İ. Məmmədova
dosent, i.e.n., UNEC
mammadova405@mail.ru

Xülasə

Tədqiqatın məqsədi müəssisənin idarə edilməsində işgüzar və iqtisadi fəaliyyətin rolu, mahiyyəti, zərurəti və fərqliliklərinin üzə çıxarılmasından ibarətdir. Tədqiqatın metodologiyasını L.M. Klimov, N.A. Klimova, Piter Druker, Yozef Şumpeter, Maks Veber, K.R. Makkonnel və S.L. Bryunun fikirlərinə istinadlar və müqayisəli analitik yanaşma təşkil edir. Tədqiqatın elmi yenili aparılmış təhlilin sahibkarlıq fəaliyyətinin iqtisadi fəaliyyətin tərkibində yer alması ilə ortaya çıxan fərqliliklərlə müəyyən edilmişdir. Bundan əlavə, iqtisadi fəaliyyətləri müəyyən edən əlamətlər sıralanmış, sahibkarlığın tədqiqatı baxımından üç əsas funksiyası təfsilatı ilə izah edilmişdir. Tədqiqatın çərçivəsi iqtisadi fəaliyyətin elmi məzmunu və işgüzar fəallığın təşkilati, hüquqi, informativ və sosial xarakterinin təsirilə məhdudlaşdırılmışdır. Tədqiqatın nəticəsi olaraq işgüzar və iqtisadi fəaliyyətin elmi məzmunlu hərtərəfli təhlili əsaslandırılmışdır. Yekun olaraq sahibkar fəaliyyətində istifadə edilən ehtiyatların alternativ dəyərliliyi və birinin digərini əvəz edə bilməsi, istehsal amillərinin bir araya gətirilməsi imkanlarını nəzərə almaqla onların seçilməsi, başqa sözlə, onların tətbiqinin ən rasional üsulları ilə müəyyəndirilməsi ən optimal variant kimi irəli sürülmüşdür.

Açar sözlər: sahibkar, iqtisadiyyat, iqtisadi fəaliyyət, təşəbbüs, novatorluq.
Jel classification: L53

QUESTIONS OF ECONOMIC DIVERSITY OF ENTERPRISE ACTIVITY

Abstract

The purpose of this study is to identify the role, nature, necessity and differences in business and economic activities in the management of an enterprise. The research methodology includes references to the opinions of economists, such as L.M. Klimov, N.A. Klimova, Peter Drucker, Joseph Schumpeter, Max Weber, K.R. McConnell and S.L. Brew and the comparative analytical approach. As a scientific novelty of the research, due to the analysis carried out, the differences resulting from entrepreneurial activity as part of economic relations have been determined. In addition, the signs defining economic activity have been regulated and interpreted in detail in three main functions with regard to the study of entrepreneurship. The research is limited to the scientific content of economic activity and the impact of

organizational, legal, informational and social nature of business activity. Drawing conclusions from the study, a comprehensive analysis of business and economic activity has been justified. In conclusion, the alternative value and interchangeability of resources used in economic activity, their selection taking into account the possibilities for the collection of production factors to be united, in other words, the determination of the most rational methods of their application have been put forward as the most optimal option.

Key words: Business, entrepreneurship, economic activity, economic growth, initiative, innovation.

ВОПРОСЫ ЭКОНОМИЧЕСКОГО РАЗНООБРАЗИЯ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

Резюме

Целью настоящего исследования является выявление роли, сущности, необходимости и различий в деловой и экономической деятельности, в управлении предприятием. Методология исследования включает ссылки на мнения таких экономистов, как Л.М. Климов, Н.А. Климова, Питер Друкер, Йозеф Шумпетер, Макс Вебер, К.Р. Макконнел и С.Л. Брю и сравнительный аналитический подход. Научной новизной исследования является то, что благодаря проведенному анализу были определены различия, образующиеся вследствие предпринимательской деятельности в составе экономических отношений. Помимо этого, были упорядочены признаки, определяющие экономическую деятельность и подробно истолкованы по трем основным функциям в отношении исследования предпринимательства. Ограничение исследования находится в рамках научного содержания экономической деятельности и влияния организационного, правового, информационного и социального характера деловой активности. Делая выводы из исследования, был обоснован всесторонний анализ деловой и экономической деятельности. В заключение были выдвинуты, как наиболее оптимальный вариант, альтернативная ценность и взаимозаменяемость ресурсов, используемых в экономической деятельности, их отбор с учетом возможностей собрания воедино производственных факторов, иными словами, определение наиболее рациональных способов их применения.

Ключевые слова: предприниматель, экономика, экономическая деятельность, инициатива, новаторство.

Giriş. “İqtisadi fəaliyyət” anlayışının izahı maliyyə və hüquqi terminlər lüğətində də verilir. “İqtisadi fəaliyyət bir proses kimi, müəyyən məhsullar məcmusunun əldə

edilməsinə gətirib çıxaran fəaliyyətlər ardıcıllığıdır. Bu məhsulların istehsalı, avadanlıq, texnologiyalar, xammal və materiallar kimi ehtiyatlar və konkret əmtəə və xidmətlərin yaradılması üçün istehsal prosesi bir araya gəldikdə baş tutur".

İctimai əmək bölgüsü nəticəsində əməyin konkret növlərə ayrılması baş verir ki, bu da istifadə edilən ehtiyatlar, texnologiyalar və buraxılan məhsullar əsasında eynitipli istehsalların təcridinə, bunun da sayəsində iqtisadi fəaliyyət növlərinin müəyyən edilməsinə gətirib çıxarır ki, nəticə etibarilə bu öz əksini iqtisadi sfera, sahə və altsahələrin meydana gəlməsində tapır.

İqtisadi fəaliyyətin və sahibkarlıq fəaliyyətinin müxtəlif aspektlərdən görünüşü. İqtisadi fəaliyyətin müxtəlif aspektləri və sahibkarlıq fəaliyyəti fenomeni iqtisadiyyat, menecment, sosiologiya, fəlsəfə, psixologiya və bir sıra elm sahəsinin məcmu elementləri kimi nəzərdən keçirilir. İqtisadi fəaliyyəti və sahibkarlıq fəaliyyətini səciyyələndirən ümumi cəhətlər olsa da, bu iki fəaliyyət növü arasında prinsipial fərqlər vardır. Sahibkarlıq fəaliyyətinin iqtisadi fəaliyyətdən ən mühüm fərqi təsərrüfatçılıq subyektinin sadəcə mənfəət əldə etməyə cəhd göstərməməsində, qanunla müəyyən edilmiş qaydada bu qisimdə qeydiyyatdan keçmiş şəxslər tərəfindən mülkiyyətdən istifadədən, əmtəə satışından, işlərin görülməsi və ya xidmətlərin göstərilməsindən sistematik şəkildə mənfəət əldə edilməsindədir. Göstərilənlərdən başqa, sahibkarlıq fəaliyyətinin məşğulçusuna təsərrüfat subyektlərinin azadlığı və müstəqilliyi, şəxsi mənafe, idarəetmə prosesində risk və məsuliyyət hissi xarakterik cəhətlərdən sayıla bilər [1, s.17]. Bu mənfəətin əldə edilməsinin sistematikliyi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin xarici əlamətidir.

Sahibkarlıq fəaliyyəti istehsalın üç klassik amili olan torpaq, kapital və əməyin kombinələşməsinin (birləşməsinin) ifadəsi kimi özünü büruzə verir [2,s.8]. Burada istehsal amilləri sahibkarlıq fəaliyyətinin hərəkətverici qüvvəsi olaraq, səmərəli münasibətlərin qurulmasına istiqamətlənir.

İqtisadi fəaliyyət insanın iqtisadi nemət və xidmətlərin istehsalı üzrə şüurlu fəaliyyətini ehtiva edir [3]. Burada şüurlu fəaliyyətin özü əlavə dəyərdə xüsusi çəkiyə malik olan məhsul və xidmətlərin istehsalının bölgüsünü, həmçinin sahibkar davranışının məntiqi təfəkkürünün nəticəsi olub, altbölmələrin fəaliyyətini əlaqələndirir.

İqtisadi fəaliyyətin məzmun anlayışı. İqtisadi fəaliyyətin məzmunu "iqtisadiyyat", "iqtisadi münasibətlər", "iqtisadi sistem", "iqtisadi nemət" kimi anlayışların köməyilə açıla bilər. Təbiidir ki, bütün bu terminlər sözügedən fəaliyyəti müxtəlif cür səciyyələndirməklə, onun mahiyyətini müxtəlif şəkildə açır.

Çox güman ki, təhlilə "iqtisadiyyat" anlayışından başlamaq gərəkdir. "İqtisadiyyat" anlayışını qədim yunan sözü olan, təsərrüfatın idarə edilməsi mənasını daşıyan "oykonomiya" ilə əlaqələndirirlər. Geniş mənada o, xalq təsərrüfatında işlərin vəziyyətilə, ümumilikdə qiymətlərin, gəlirlərin, xarici iqtisadi əlaqələrin və s.-nin dəyiş-

məsilə bağlıdır. L.M. Klimov və N.A. Klimovanın müəllifi olduğu "Bazar iqtisadiyyatı terminologiyası" lüğətində "iqtisadiyyat" insanlar və cəmiyyət arasında istehsal, bölgü, mübadilə və istehlak prosesində təşəkkül tapan münasibətlər məcmusu kimi nəzərdən keçirilir. Lakin belə yanaşma iqtisadiyyat haqqındakı təsəvvürlərin özünü resurs və məhsulların yalnız istehsaldan istehlaka doğru hərəkətilə məhdudlaşdırır, bunun da "iqtisadi fəaliyyət" anlayışını açmaq üçün kifayət etmədiyi aydın görünür.

İqtisadi sistem anlayışı. K.R. Makkonnel və S.L. Bryu "iqtisadi sistem" anlayışını açan zaman mahiyyət etibarilə iqtisadi fəaliyyətin tərifini vermişlər. Bu müəlliflər iqtisadi fəaliyyəti maddi rifahın yaxşılaşdırılması uğrunda mübarizədə görməklə, "güzəranı təmin etmək" səyləri kimi qiymətləndirmişlər. "Biz özümüzə qida, geyim, yaşayış yeri, çox sayda əmtəə və xidmətlər əldə etməyə can atırıq ki, bunlarla da həyat səviyyəsinin orta və ya yüksək olduğunu müəyyən etmək olar. Həmçinin bizə müəyyən xüsusiyyətlər verilib, eləcə də təbii yollarla yaranan və insan əməyinin məhsulu olan çoxsaylı maddi nemətlərlə əhatə olunmuşuq. Buna görə də, maddi tələbatlarımızı ödəyən məhsul istehsalı və xidmətlərin göstərilməsi üçün işçi qüvvəsi, idarəçilik qabiliyyətləri, alətlər, vasitələr, maşınlar, torpaq və mineral sərvətlər mövcud təbii və maddi ehtiyatlardan istifadə tamamilə təbiidir. "Beləliklə, onlar iqtisadi fəaliyyəti insanın maddi tələbatlarının ödənilməsi məqsədilə məhdud istehsal ehtiyatlarının səmərəli istifadəsi və idarə edilməsinə yönəldilən proseslə, eləcə də insanın maddi rifah halının yaxşılaşdırılması məqsədi daşıyan fəaliyyətlə əlaqələndirirlər. Adı sonuncu çəkilən fəaliyyət təkcə iqtisadi fəaliyyət anlayışını genişləndirmir, həm də birbaşa olaraq, onun həyata keçirilmə məqsədinə, yəni işçinin şəxsi istehlakına, başqa sözlə, özünün müxtəlif tələbatlarını ödəmək üçün vəsaitlər əldə edilməsinə işarə edir.

Mülahizələrimizi yekunlaşdıraraq, aşağıdakı bir sıra əlamətlərin iqtisadi fəaliyyəti müəyyən etdiyini söyləyə bilərik:

- ✓ iqtisadi fəaliyyətin subyektləri kimi "güzəranını təmin edən" insanlar çıxış edir;
- ✓ iqtisadi fəaliyyətin əsasını təbii və maddi ehtiyatların məhdudluğu şəraitində həmin ehtiyatların seçimi, maddi və qeyri-maddi nemətlərin istehsalının təşkili prosesində insanların qarşılıqlı fəaliyyəti təşkil edir;
- ✓ təbii və maddi ehtiyatların seçimi prosesində istehsalın təşkili məqsədilə insanların passiv deyil, aktiv qarşılıqlı fəaliyyətidir;
- ✓ avadanlıq, işçi qüvvəsi, texnologiyalar, xammal və material kimi ehtiyatların birləşməsinin və texnologiyalardan istifadənin nəticəsi konkret əmtəə və xidmətlər üçün istehsal prosesinin təşkilidir;
- ✓ yaradılmış iqtisadi nemətlər mübadilə üçündür;
- ✓ nemətlər mübadiləsi iqtisadi fəaliyyətin zəruri şərtidir;

✓ yaradılmış nemətlər istehlakçının müəyyən tələbatlarını ödəyir və ya sonrakı emalda istifadə oluna bilər;

✓ iqtisadi fəaliyyətin daxili stimulu əmək müqabilində mənfəət, gəlir və ya mükafat əldə etməkdir.

İqtisadi fəaliyyətin əlamətləri. İqtisadi fəaliyyəti müəyyən edən ümumi əlamətlərin aşkar edilməsinə baxmayaraq, bu faəliyyət müxtəlif iqtisadi formasiyalarda prinsipial fərqlərə malikdir. Maks Veber müəllifi olduğu "Kapitalizmin protestant etikası və ruhu" traktatında burjua cəmiyyətinə qədər olan və kapitalist cəmiyyətlərində iqtisadi fəaliyyətin spesifik cəhətlərini nəzərdən keçirərkən qeyd edir ki, burjua cəmiyyətinə qədər olan cəmiyyətlərdə bütün iqtisadi fəaliyyət və istehsal bilavasitə istehlaka, başqa sözlə, insanların konkret maddi yaxud sosial tələbatlarının ödənilməsinə yönəldilmişdir. Müəssisənin həm fiziki olaraq, həm də təşkilati prinsiplər baxımından ev təsərrüfatından ayrılmış olması yetərincə əhəmiyyət kəsb edir, beləliklə burjua cəmiyyətinə qədər olan cəmiyyətdəki fərd istər sosial, istərsə də maddi istehsal şəraitlərinin ayrılmaz hissəsi idi. Belə fərdin fəaliyyətinin texnologiya, alətlər, materiallar, torpaq baxımından bilavasitə xarakteri və onun sosial konteksti başlanğıcdan verilməklə dəyişməz olaraq qalır və fəaliyyətin özünün və fəaliyyət subyektinin şəxsiyyətinin ayrılmaz xassələri kimi qəbul edilir. Elə təfəkkür forması və hərəkətlər tərzi mövcud idi ki, insan özünün möhkəmlənmiş həyat tərzinin təkrar istehsalına istiqamətlənmişdi və onu dəyişmək istəmirdi, insan yalnız özünün öyrəşdiyi tələbatları ödəmək üçün işləyir və bu məqsədlə zəruri olandan artıq qazanc əldə etməyə səy göstərmir. İstifadə olunan işçi qüvvəsi şəxsi asılılıq əsasında, iqtisadi təhriketmədən kənarda təşkil edilirdi. Həmin fərdin fəaliyyətinin məqsədi kimi haqqında danışılan istehsalın inkişafı deyil, real tələbatların, o cümlədən zənginliyə olan ehtiyacın ödənilməsi çıxış edirdi.

Sahiblarlıq fəaliyyətinə müəssisənin səmərəliliyini və etibarlılığını aşağı salan sosial, hüquqi informativ, təşkilati xarakterli münasibətlər aiddir [4, s. 5]. Sahibkarlığın tədqiqatı onun üç əsas funksiyasını fərqləndirməyə imkan verdi: ehtiyat, təşkilatçılıq və novatorluqla bağlı olan yaradıcılıq. Birinci funksiyanı nəzərdən keçirdikdə görürük ki, istənilən təsərrüfat fəaliyyəti üçün iqtisadi ehtiyatlar, yəni istehsal amilləri zəruridir. Bu ehtiyatlara ilk növbədə təbii ehtiyatlar – torpaq, faydalı qazıntılar, meşə və su aid edilir. İkinci amil kimi sərmayə ehtiyatları – maşın və avadanlıqlar, alətlər, nəqliyyat, əmtəə və xidmətlərin istehsalında, eləcə də onların istehlakçıya çatdırılmasında istifadə olunan digər vasitələr, həmçinin maliyyə ehtiyatları çıxış edir. Üçüncü növ ehtiyatlar əmək ehtiyatları, yəni insan resurslarıdır. Bu resurslar işçi qüvvəsinin kəmiyyət və keyfiyyət tərkibini müəyyən etməklə, onun ixtisas sahəsi və dərəcəsi, məşğulluq səviyyəsi və s. ilə səciyyələndirilir. Son dövrlər nəzəriyyələrdə daha bir ehtiyat – sahibkarlıq qabiliyyətləri qeyd edilir. Torpaq,

kapital, əmək kimi istehsal amillərinin novatorcasına, qeyri-ənənəvi birləşməsini üzərinə götürən sahibkar əmtəə və xidmətlər istehsalının artımına, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə təkan verir.

Sahibkarlığın ikinci funksiyası olan təşkilatçılıq istehsal amillərinin bir araya gətirilməsi və birləşdirilməsi məqsədilə sahibkarın öz qabiliyyətlərinin elə şəkildə istifadəsində təzahür edir ki, qarşıya qoyulmuş məqsədə, gəlir əldə etməyə ən yaxşı surətdə nail olmaq təmin edilsin [5, s. 53].

Sahibkarlığın üçüncü funksiyası novatorluqla bağlı olan yaradıcılıqdır. İnnovasiyalar sayəsində sahibkarlıq üçün yeni iqtisadi iqlim yaranır. Sözügedən funksiyanın əhəmiyyəti elmi-texniki tərəqqi şəraitində xüsusilə artır.

Sahibkarlıq fəaliyyətini iqtisadi fəaliyyətdən fərqləndirən ən mühüm cəhət mənfəət əldə etməyə çalışmaqdır.

Təşəbbüs daima yeni sahələrə can atmaqdır, istər yeni məhsulların istehsalı, istərsə də yeni bazarların ələ keçirilməsi olsun, bir sözlə mənfəət götürmək üçün yeni imkanların axtarışıdır. Sahibkarlıq təşəbbüsü bazar mübadiləsi prosesində meydana çıxan imkanların reallaşdırılmasına elə səylərin göstərilməsidir ki, bu, prosesin iştirakçılarına qarşılıqlı fayda gətirsin. Təşəbbüs bir tərəfdən insan təbiətinin xasiyyəti, digər tərəfdənsə bazar təsərrüfatının təbiətinin öz ifadəsidir. Piter Druker qeyd edirdi ki, “sahibkar istənilən imkandan maksimal faydalılıqla yararlanan adamdır”. Təşəbbüs bizə məlum olan təsərrüfat azadlığını nəzərdə tutur.

Geniş məlumatlara sahib olmaq sahibkarda böyük təşəbbüskarlıq yaratmaqla imkanlarını genişləndirir ki, bu da nəticə etibarilə müəyyən üstünlüklərin əldə olunmasını təmin edir. Bazar şəraitində möcvud olan informasiya asimmetriyası müəyyən mühiti yaradaraq, kommersiya riskini əmələ gətirir. Qeyri-müəyyənlik həm konyunktur, qiymətlərin və istehlakçıların üstünlük verdiyi amillər kimi sırf bazar xassələrilə əlaqədar olaraq, həm də sahibkarlığın, təklif edilən həll yollarına bazarın öncədən müəyyən edilə bilməyən reaksiyasında ifadə olunan spesifikası üzündən meydana çıxır. Kommersiya riskini nə yetərincə qiymətləndirməmək, nə də olduqca yüksək qiymətləndirmək olmaz. Riskli şərait sahibkarı mümkün alternativ variantları dəqiqliklə incələyərək, ən yaxşılarını və perspektivlilərini seçməyə vadar edir. Bu zaman məhsuldar qüvvələrdə mütərəqqi dəyişikliklərə və ictimai istehsalın səmərəliliyinin artmasına gətirib çıxarır, həmçinin səmərəlilik də müəyyən məhdudiyyətlərin və reqlamentləşdirmənin tətbiqini tələb edir. Kommersiya riski sahibkarlığın bir tərəfini səciyyələndirdikdə, təsərrüfatçılıq məsuliyyəti onun əks, icbari tərəfi kimi çıxış edir.

Sahibkarlıq fəaliyyətində səmərəliliyin yüksəldilməsinə səy göstərilməsi tətbiq edilən ehtiyatların gəlirliliyinin yüksəldilməsi zərurətini meydana gətirir. Sahibkar ehtiyatların alternativ dəyərliliyi və birinin digərini əvəz edə bilməsi, istehsal amillərinin bir araya gətirilməsi imkanlarını nəzərə almaqla onları müəyyən edir, başqa

sözlə, onların tətbiqinin ən rasional üsullarını seçir. İstehsal amillərinin müxtəlifliyi hesabına sahibkar ehtiyatlardan sadəcə daha səmərəli istifadəyə keçmir, həm də yeni texnologiyalarda təzahür edərək, ictimai məhsuldar qüvvələrin davamlı inkişafını təmin edir. İstehsal amillərinin bir araya gətirilməsinin mahiyyətini təkcə ehtiyatlardan istifadənin səmərəliliyini yüksəltmək məqsədilə onların seçilməsilə məhdudlaşdırmaq olmaz. Ehtiyatların seçilməsi onların sonrakı mərhələdə sahibkarın yaratdığı şəxsi istehsal strukturuna, sahibkarın təşkilati strukturuna daxil edilməsilə müşayiət olunur ki, bu da son nəticədə ehtiyatların yenidən bölgüsü mexanizminin dəyişdirilməsinə səbəb olur.

Sahibkarlığı, novatorluğu səciyyələndirən sonuncu əlaməti nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, bu əlamət yeni ideyaların məhz ərsəyə gətirilməsi və reallaşdırılması qabiliyyətini müəyyənləşdirməklə, sahibkarın müvəffəqiyyətinin müəyyənedici amilinə çevrilir. Yozef Şumpeter novatorluğu sahibkarlığın xüsusi funksional əlaməti qismində fərqləndirirdi. Məhz novatorluq sahibkarlığın hökmran əlamətidir. Piter Druker qeyd edir ki, innovasiya "texnologiya və ya tədqiqatla kifayətlənmir, bütövlükdə biznesdə, bütün funksiyalarda, fəaliyyət növlərində özünü büruzə verir. Bir daha təkrar edirəm, innovasiya təkcə istehsal firmaları ilə kifayətlənmir. Məhsulun təbliğində yeni əlamətlər də istehsal prosesindəki yeniliklər kimi vacibdir. Eyni hal sığorta şirkəti və ya bankdakı yeniliklərə də şamil edilir".

Şəxsiyyətin yaradıcı potensialının təzahürü kimi novatorluq insan amili ilə bağlıdır. Eyni zamanda novatorluğa təkcə fərdlərin şəxsi keyfiyyətləri kimi baxmaq yetərli deyil, novatorluqda həm də sahibkarlıq fəaliyyəti xarakterilə əlaqəli iqtisadi həyat hadisəsini görmək lazımdır. Məlumdur ki, insanlar təsərrüfatçılıq baxımından bərabər səviyyədə fəal ola bilməzlər. Müasir bazar təmayüllü istehsalda məşğul əhalinin yalnız 15%-ə qədəri müstəqil sahibkarlıq fəaliyyətilə məşğul olur, lakin əhəmiyyətli uğurlara imza atır, iri müəssisələr yaratmaqla böyük kapital vahidlərinə sahib olurlar.

Aparılmış təhlil nəticəsində sahibkarlıq fəaliyyətinə iqtisadi fəaliyyətin tərkib hissəsi olaraq, aşağıdakı fərqləndirmələri şamil etmək olar:

- sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün prinsip etibarilə yeni zəminin meydana gəlməsi, xüsusilə insanları rasional iqtisadi fəaliyyətlə məşğul olmağa sövq edən, təkcə şəxsi tələbatların deyil, həm də özünüinkişaf tələbatının ödənilməsinə yönəldilən əxlaqi, mənəvi motivlərin ortaya çıxması;
- sahibkarın təbii tələbatları ilə məhdudlaşmayan, üstəlik təkcə adi deyil, həm də prestijli istehlak hədlərini aşan mənfəətin əldə edilməsinə səy göstərmək;
- təsərrüfatçılıq subyektlərinin bazar mübadiləsi prosesində meydana gələn imkanların reallaşdırılması üçün zəmin rolunu oynayan, bu prosesin iştirakçılarına qarşılıqlı fayda əldə etməyə imkan verən iqtisadi azadlığı;

- bazar üçün xas olan qeyri-müəyyənlik və hadisələrin öncədən müəyyən edilə bilmədiyi şəraitdə qərarlar qəbuluna görə maddi məsuliyyət. Bu xüsusiyyət sahibkarı mümkün alternativ variantları dəqiqliklə incələyərək, ən yaxşılarını və perspektivlilərini seçməyə vadar edir;
- şəxsi istehsal strukturunun dəyişdirilməsinə yönəldilən və ehtiyatların bölgüsü mexanizminin gələcək dəyişikliklərinə səbəb olan istehsal amillərinin bir araya gətirilməsi;
- öz iqtisadi fəaliyyətində yeni ideyaların ərsəyə gətirilməsi və həyata keçirilməsi qabiliyyəti və bu qabiliyyətləri reallaşdırmağa can atmaq.

Sahibkarlıq fəaliyyətini iqtisadi fəaliyyətdən ən vacib fərqi təsərrüfatçılıq subyektinin sadəcə fayda əldə etməyə can atmasında deyil, "qanunla müəyyən edilmiş qaydada mülkiyyətdən istifadə, əmtəələrin satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi hüququna malik şəxs kimi qeydiyyatdan keçmiş insanlar tərəfindən həmin fəaliyyətlərin həyata keçirilməsindən sistematik surətdə mənfəət əldə edilməsindədir [6]. Belə ki, mənfəətin əldə edilməsinin sistematikliyi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin xarici əlamətidir. Bundan irəli gələrək, bütün iqtisadi fəaliyyəti sahibkar və "qeyri-sahibkar", yəni kommersiya ve qeyri-kommersiya fəaliyyətlərinə bölmək olar.

Ədəbiyyat

[1] Niftullayev V.M. Sahibkarlığın əsasları, Bakı-2002.

[2] Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri, Bakı 1998

[3]http://finance_loan.academic.ru/2005/% D0%AD%D0%9A%D0%9E%D0%9D% D0%9E% D0%9C%D0%98%D0%A7%D 0%95%D0%A1%D0%9A%D0%90% D0%AF_%D0%94%D0%95%D0%AF%D0%A2%D0%95%D0%9B%D0%AC% D0%9D%D0%9E%D0%A1%D0%A2%D0%AC

[4] Yaroçkin V.İ., Buzanova Y.V. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları, (tərcümə), Bakı -2008.

[5] Əzizova E.D., Mustafayeva Z.İ., Bayramova S.R., Əzizov A.A. Əmək və insan resursları üzrə iqtisadçının "Lüğət-məlumat" kitabçası, Bakı -2011.

[6] amfa.az/uploads/IQTISADI%20LUGET.pdf

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 274 - 280
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 274 - 280

MARKETİNQ İNNOVASİYASI VƏ ONUN ŞİRKƏTLƏR ÜÇÜN ÜSTÜNLÜYÜ

Ə.M. Mehdiyev
Bakı Mühəndislər Universiteti
Aliqulu_mehdiyev@hotmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi informasiya texnologiyalarındakı inkişaf, yeni məhsul və ya xidmətlərin bazara daha tez daxil olması, mövcud bazar şərtlərində müştəri ehtiyac və tələblərindəki sürətli dəyişikliklərin şirkətlər üzərindəki təsirlərini, marketinq innvovasiyasının şirkətlərə gətirdiyi üstünlükləri araşdırmaqdan ibarətdir. Tədqiqat işi elmi abstraksiya və müxtəlif ölkələrdə aparılan tədqiqatları təhlil etməklə, təkliflərin irəli sürülməsi əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq ölkəmizdə inkişaf dövrünü yaşayan və daha çox əhəmiyyət kəsb edən marketinq innovasiyasının tətbiq olunması halında şirkətlərin rəqiblərini üstələyərək əldə edə biləcəyi faydalar, rəqabət qabiliyyətlilik və ən əsası müştəri məmnuniyyəti uğrunda bazarda uzunmüddətli mübarizə aparmaq üçün təkliflər irəli sürülmüşdür. Tədqiqatın məhdudiyyətləri bu mövzuda Azərbaycanda aparılan təqdiqatların azlığı, marketinq innovasiyasının şirkətlər tərəfindən yenicə mənimsənilməsi, onlara verə biləcəyi faydanın lazımınca dərk edilməməsidir. Belə bir şəraitdə rəqabət üstünlüyü və davamlılığını təmin edən şirkətlərin əsas mənbəyinin yenilikçilik olduğu qəbul edilməkdədir. İnnovasiya prosesini qəbul və tətbiq edən şirkətlər bazarda baş verən dəyişikliklərə uyğunlaşan elastik quruluşa sahibdirlər. Qloballaşma ilə birlikdə dəyişən rəqabət vəziyyətində müştəri istək və ehtiyaclarının qarşılanması keyfiyyət, maya dəyəri, sürət kimi amillərin yerini alaraq, şirkətləri yeni məhsul və proses inkişaf etdirməyə, təşkilati quruluşlarında dəyişikliklər etməyə məcbur edir.

Açar sözlər: innovasiya, innovasiya iqtisadiyyatı, marketinq innovasiyası, innovasiyanın əhəmiyyətliliyi, yeni məhsul.
Jel Classification: M31; O31

MARKETING INNOVATION AND ITS ADVANTAGES FOR COMPANIES

Abstract

The main purpose of this research is to observe and investigate news and growth of information technologies, entrance of new product or service to the market rapidly,

the impact of consumer changing behavior on companies, the advantages of marketing innovation for the companies. The research is based on scientific abstraction and analysis of foreign investigations. The offers were proposed as a result of this research the advantages of applied marketing innovation in growth period of marketing, staying ahead of competitors, competitiveness and be long life company by satisfying customers. The scientific novelty and originality of this research, the lack of studies carried out in Azerbaijan about this theme, newly adopting of marketing innovation by companies, non-awareness of the value derived by innovation to the companies. The successful way in that situation is to be innovative. The companies which adopted and applied innovation process have elastic structure as they can easily follow the changes in the market. The changes in market and consumer behavior make the companies to apply the marketing innovation as soon as possible.

Key words: innovation, innovation economics, marketing innovation, the importance of innovation, new product.

МАРКЕТИНГОВАЯ ИННОВАЦИЯ И ЕЕ ПРЕИМУЩЕСТВА ДЛЯ КОМПАНИЙ

Резюме

Главной целью исследования являются рассмотрение развития в информационных технологиях, более стремительного поступления новых товаров или услуг на рынок, в сложившихся рыночных условиях, влияния быстрых изменений нужд и потребностей потребителей на деятельность предприятий, а также исследование превосходств над конкурентами, которых преподносят предприятиям маркетинговые инновации. Исследование основано на научной абстракции, и выполнено на основании выдвижения предложений на основе исследований, проведённых в различных странах. В результате исследования были предложены рекомендации по применению развивающейся в нашей стране и имеющей важность маркетинговой инновации, в случае применения которой предприятиям предоставляется возможность получать пользу, обретать конкурентоспособность в самом главном - борьбе за удовлетворение потребностей потребителей на рынке в долгосрочной перспективе. Ограничения исследования заключаются в нехватке в Азербайджане исследований по этой теме, недавнее освоение маркетинговых инноваций предприятиями, недостаточное осознание пользы, которую сулит пользование этими инновациями. В таких условиях принимается то, что главным источником высокой и продолжительной конкурентоспособности предприятий является новизна. Предприятия, которые принимают и применяют инновационный процесс, облада-

ют эластичной структурой приспособления к рыночным изменениям. В условиях конкурентоспособности, меняющихся в связи с глобализацией, удовлетворение желаний и потребностей потребителя заставляет предприятия вместо таких факторов как качество, себестоимость, скорость, развивать новый товар и процесс, реализовывать изменения в организационной структуре.

Ключевые слова: инновация, экономика инноваций, маркетинговые инновации, важность инноваций, новый товар.

Giriş. Müasir iqtisadiyyatı klassikdən fərqləndirən faktorlardan biri də innovasiyadır. Rəqabətin şiddətləndiyi və məhsul, xidmətlərdə olan bənzərliklərin daha çox olduğu, bazar şərtlərində, müştəri ehtiyaclarında baş verən sürətli dəyişikliklər, yeni məhsul və şirkətlərin bazara daha tez daxil olması şirkətləri dəyişikliyə məcbur etməkdədir. Qloballaşma ilə birlikdə dəyişən rəqabət şərtlərində müştəri ehtiyac və istəklərinin qarşılanması, keyfiyyət, maya dəyəri, sürət kimi faktorların yerini tutaraq şirkətləri yeni məhsul və proses tətbiq etmək, şirkət strukturunda dəyişiklik etməklə üz-üzə qoymaqdadır. Şirkətlər bu vəziyyətdə yeni bir addım atmaq vəziyyətindədirlər. Şirkətlər innovasiya fəaliyyətlərini genişləndirərək bu istiqamətdə atılan addımları daha strateji qəbul etdikləri zaman uğur qazanmaq və rəqabətcil olma şansları daha yüksək olur.

Müasir dövrdə ölkənin inkişafında mühüm rol oynayan texnologiya və innovasiya əsaslı iqtisadiyyatın yaradılması zəruri hal almaqdadır. Müasir iqtisadiyyat artıq bütün ölkələri əhatə etməklə yanaşı, onları klassik iqtisadiyyatdan ayrılmağa sövq edir. Müasir iqtisadiyyat inkişaf edən texnologiya və şirkət rəqabətlərində yaşanan qloballaşma ilə birlikdə ölkə sərhədlərini ortadan qaldıran, maddi aktivlərdən daha çox qeyri-maddi aktivlərin dövriyyəsini gündəmə gətirən bir iqtisadi yanaşma olmuşdur (7. s.1). İnnovasiya, müasir iqtisadiyyat prosesinə fərqli bir ölçü qazandırmaqla yanaşı, dünyada bütün rəqabət aparan şirkətlərin və qlobal əsaslı iqtisadiyyata uyğunlaşan, uyğunlaşmağa çalışan ölkələrin daha çox üzərində dayandıqları dəyər halına gəlmişdir (6. s. 8).

Müasir iqtisadiyyat - elm, şəbəkə, rəqəmsal, virtual, rəqabət əsaslı, innovasiya, artan marjinal gəlir, uzaqlaşma-qütbləşmə iqtisadiyyatıdır. Bu iqtisadiyyatda rəqabət etmək sürətlə yeni məhsullar istehsal etməyi və yeni bazarlara daxil olmağı, strateji, şirkət fəaliyyətində daha elastik olmağı və üstünlüyü təmin edəcək bütün vasitələrdən faydalı şəkildə istifadə etməyi tələb etməkdədir (1). İnnovasiya müasir iqtisadi vəziyyətin iqtisadi həyata qazandırdığı ən əhəmiyyətli anlayışlardan biridir. İnnovasiya yaradıcılıq, yenilik, icad, texnoloji inkişaf kimi anlayışları özündə birləşdirən çox geniş bir anlayışdır. Bu anlayışı açıqlamaq üçün öz yazı və araşdırmalarında ilk dəfə yer verən, bu mövzuya həm şirkətlər, həm də müxtəlif ölkələr tərəfindən diqqət

çəkən ilk iqtisadçı Schumpeter olmuşdur. Schumpeterə görə innovasiya təşəbbüskara mənfəət gətirən və texnoloji inkişaflar nəticəsində ortaya çıxan hər şeydir. İnnovasiya innovativ şirkətə mənfəət təmin etməklə yanaşı, iş səviyyəsini artıran, milli iqtisadiyyatın dinamik şəkildə inkişafını dəstəkləyən bir fikrin yaradılması və yeni bir məhsul, xidmət və ya fəaliyyət olaraq tətbiqi şəklində açıqlanmaqdadır (6. s. 12). İnnovasiya şirkət gəlirliliyinə və rəqabət üstünlüyü əldə etməyə potensial təsiri olan dəyərdir (8. s. 16-18).

Biznes rəqabətinin şiddətli olduğu, şirkətlərin ayaqda durmaq üçün çətinliklə strateji və tatktiki qərarlar qəbul etdiyi zamanda innovasiya fəaliyyətini dəyərləndirmək şirkətlər üçün artıq qaçılmaz bir hal almışdır. İnnovasiya mühitinin formalaşması və inkişaf etdirilməsi həm şirkətlər üçün, həm də ölkənin iqtisadi vəziyyətinin inkişafı üçün mühüm rol oynayır. Böyük şirkətlərlə yanaşı, kiçik və orta sahibkarlıqla məşğul olan şirkətlər üçün də innovasiya fəaliyyətindən yararlanaraq, bazarda müəyyən üstünlük əldə etmək istəyirlər. Bu fəaliyyət riskli və daha çox sərmayə tələb edən bir prosesi əhatə edir. İnnovativ fəaliyyətlər yalnız araşdırma və inkişaf bölmələri və ya laboratoriya şəraitində həyata keçirilmir, istehsal, marketinq, inzibati, satınalma kimi təşkilati bir fəaliyyət olaraq qəbul edilir. İnnovasiya fəaliyyətinə əsaslanan iqtisadiyyat daha məhsuldar, dayanıqlı, iqtisadi və sosial dəyişikliklərə dözümlü və daha tez uyğunlaşa bilən, bununla yanaşı daha üstün səviyyəli həyat standartlarını təmin etmək imkanı yaradır.

İnnovasiyalar şirkət və ölkə ixracatı üzərində də müsbət yöndə inkişaf təmin etdiyi məlumdur. Guan və Manın 2003-cü ildə araşdırması şirkətin şirkətin innovasiya potensialı ilə ixracat bacarığı arasındakı əlaqəni açıqlayır. Araşdırma aparanların Çin iqtisadiyyatı üzərində apardıqları tədqiqat nəticələrinə görə, innovasiya potensialındakı toplam inkişaf və ixracatdakı artım arasında düz mütənasib bir əlaqə olduğu aşkarlanmışdır. Lakin bu zaman dünya ticarətində rəqabətcil bir güc ola bilmək üçün, ilk öncə yerli bazarda aktiv və rəqabət aparmağı bacaran bir sənaye olmaq mövzusunun üzərində dayanmaq lazımdır (5. s. 5). İnnovasiya qabiliyyəti bir şirkətin özəl bir varlığıdır. Bu, gizli və dəyişdirilə bilməyəndir, daxili təcrübə uğurları ilə yaxından əlaqəlidir. Yeni məhsulları sürətli şəkildə tanıtmaq və yeni prosesləri mənimsətmək qabiliyyəti rəqabətin əhəmiyyətli bir istiqaməti halına gəldi. Bundan başqa, bu yeniliyi müvəffəqiyyətli etmək üçün bir çox müxtəlif resurs və bacarıqlara ehtiyac duyulmaqdadır, çünki innovasiya kompleksləşməkdədir. Bu səbəbdən, innovasiya qabiliyyəti şirkətin strategiyasına uyğun həyata keçirilməli, xüsusi şərtlərə, rəqabət mühitinə uyğunlaşmaq üçün əhatəni genişləndirməlidir (3. s. 740).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) innovasiya anlayışını yeni və ya əhəmiyyətli dərəcədə dəyişdirilərək inkişaf etdirilmiş məhsul (xidmət) və ya prosesin, yeni bir marketinq ya da təşkilati metodların tətbiq edilməsi formasında

açıqlamışdır (11). Məhz bu təşkilatın Oslo Gündəliyində (2005-ci il) innovasiyanın növləri belədir: məhsul, proses, marketinq və təşkilati innovasiya. Marketinq innovasiyası, şirkətin bütün funksiyalarını əhatə edən innovasiyadır. Şirkət qurulmadan öncə aparılan müştərini tanımaq, öyrənmək, bazarı anlamaq məsələləri üzrə tədqiqatlar mövzusundakı innovasiya, müştərinin istək, ehtiyac və problemlərinə uyğun məhsul və ya xidmətlərin dizaynı marketinq innovasiyasıdır (12). Bu innovasiya növü satınalma prosesi zamanı potensial müştərilərlə inkişaf edəcək əlaqəni fərqliləşdirməyə yönəlmişdir, yəni müştəri-satıcı əlaqələrinin klassiklikdən çıxaraq innovativ bir hal almasıdır (9. s. 146).

İnnovasiya yolu ilə fərq yaratmaq istəyən şirkətlərin məhsul və xidmətləri innovativ yollarla istehsal etmək deyil, eyni zamanda bunları bazara necə təqdim edəcəkləri də böyük əhəmiyyət kəsb edir. Olduqca innovativ görünən və bu vəziyyəti ilə bazarda ciddi bir tələb gücü əldə edəcəyi, məhsul və ya xidmətin təqdim edilmə, mövqeləndirilmə, tanıdılma və satış sonrası dəstək xidmətləri cəhətdən zəif olması potensial müştərilərin satınalma qərarlarına mənfi təsir edəcəkdir. Belə bir cəhdin əsas məqsədi rəqiblərdən daha çox istehsal etmək deyil, onlardan daha çox satmaq və dolayısı ilə rəqabətdə üstünlük təmin edəcək bir yol ya da metod inkişaf etdirməkdir. Marketinq innovasiyaları ilə əlaqəli olaraq, son zamanlar ortaya çıxan virtual və rəqəmsal marketinq anlayışları da şirkətlərin strateji qərarlar qəbul və tətbiq edərkən nəzərə aldıqları metodlardandır. Marketinqlə əlaqəli olan innovasiyalar, bütövlükdə və sistem olaraq marketinqin funksiyalarını əhatə edir (10. s. 42-44).

Şirkətlərin sahib olduqları üstün bazar innovasiya qabiliyyətləri davamlı rəqabət üstünlüyü üçün potensial metodlardan biridir. İnnovasiya bacarıqları qarışıqdır və funksiyalar arasında görünməz əlaqələr tələb etməklə yanaşı, öyrənməyə bağlıdır və bir şirkətin yaratdığı və tətbiq etdiyi innovasiya asan şəkildə təqlid edilə bilmir (4. s. 20). Baskaran Suku isə marketinq innovasiyasına mərkəzləşən kiçik və orta sahibkarların daha mənfəətli olacaqlarını və böyük şirkətlərlə uğurlu bir şəkildə rəqabət edə bilmə şansını əldə edəcəklərini vurğulamaqdadır (2. s. 64).

Marketinq innovasiyası prosesi zamanı şirkətlər daha çox Araşdırma və İnkişaf fəaliyyətinə daha çox investisiya ayırır. Burada həm ixtisaslı kadrlar, həm də müasir texnologiyaların cəlbi nəzərdə tutulur. Bu qərar şirkətə kifayət qədər maliyyə tələb edə bilər, lakin nəticənin şirkət üçün rəqabət üstünlüyü əldə edərək faəliyyətini uzatması, istehsal edilən məhsul və ya xidmətlərin daha keyfiyyətli olması daha çox müştərinin cəlb olunmasına, mövcud müştərilərin daha keyfiyyətli və yeni məhsul və ya xidmətlərlə təmin edilməsinə, rəqiblərdən önə keçərək, fərqli və ya yenilənmiş məhsulla bazar payını artırmaqla yanaşı, rəqiblərindən bir neçə addım önə keçə, nəticə etibarilə ölkə iqtisadiyyatının və sosial rəfahın inkişafına müsbət təsir edə bilər. Məhsulun üzərində müştərilərin fikirləri nəzərə alınaraq edilən müəyyən dəyi-

şikliklər, məhsulun qramında və ya paketlənməsində edilən yenilənmələr, məhsulların müştərilərə müxtəlif və rəqiblərdən fərqli kanallarla çatdırılması, bu kanalların axtarılması, inkişaf etdirilməsi, yeni texnologiya və metodlardan istifadə edərək məhsulun bazarda təşviqi marketinq innovasiyasının bir hissəsidir. Məhsul və ya marka ilə müştərilərin arasında əlaqələrin qurulması şirkətlərin hazırkı dövrdə strategiyası halına gəlmişdir. Bu strategiyadan istifadə edən şirkətlər müştərilərin diqqətində olur və müştərilər satınalma davranışlarını bu məhsulun üzərində mərkəzləşdirməklə yanaşı, bu davranışını dəyişmək ehtimalı çox olur. Rəqəmsal marketinq bu strategiyanın ayrılmaz bir hissəsidir və şirkətlərin istər gələcək, istərsə də mövcud vəziyyətdə qərarlarına təsir göstərəcək dərəcədə əhəmiyyət kəsb etməkdədir. Müasir metodla müştərilərin marka, məhsul və ya xidmət barədə reaksiyaları, davranışları izlənilir, müsbət və ya mənfi fikirləri, bu fikirlərin idarə edilməsi, cavablandırılması və müştərinin daha da məmnun edilərək həm marka, həm də şirkət üçün əhəmiyyətliliyi artırılır.

Ədəbiyyat

[1] Aktan, C. ve VURAL, İ.Y., Yeni Ekonomi ve Yeni Rekabet, Türkiye İşveren Sendikaları Konfederasyonu, Rekabet Dizisi, Yayın No.253, Ankara, Aralık 2004

[2] Bhaskaran, Suku. “Incremental Innovation and Business Performance: Small and Medium Size Food Enterprises in a Concentrated Industry Environment”, Journal of Small Business Management, Vol.44, 2006

[3] Jiancheng Guan və Nan Ma, İnnovative Capability and Export Performance of Chinese Firms, September 2003, Tech novation, Elsevier

[4] Hooley J. Graham; Gordon E. Greenley; John W. Cadogan. “The Performance Impact of Marketing Resources”, Journal of Business Research, Vol.58 No.1, 2005, s. 20

[5] Kuşat Nurdan, Akdeniz Üniversitesi, Uluslararası Alanya işletme fakültesi dergisi, 2011, C.3, S2

[6] Kuşat Nurdan, T.C. Süleyman Demirel Üniversitesisosyal Bilimler Enstitüsü Iktisat Anabilim Dalı, Gida Sektöründe Inovasyon: Bati Akdeniz Bölgesi Şekerleme, Kakao Ve Çikolata Alt Sektörü Üzerine Bir Uygulaması, Doktora Tezi, Isparta,2011

[7] Özer, G., R.Yücel ve İ.H.SEYREK, “Yeni Ekonomide Bilgi Dönüşümleri ve Bilgi Şirketlerinin Artan Önemi”, Active Dergisi, Ocak-Şubat 2003

[8] Tajedddini, K (2011). The effects of innovativeness on effectiveness and efficiency. Education, Business and Scoiety, Contemporary Middle Eastern İssues, 4(1),

[9] Yavuz, Ç. (2010). “İşletmelerde İnovasyon-Performans İlişkisinin İncelenmesine Dönük Bir Çalışma”. Girişimcilik ve Kalkınma Dergisi, 5(2)

[10] Yavuz Ç, İşletmelerde İnovasyon (Yenilikçilik) Stratejileri Ve Örgütsel Performans İlişkisinin Çanakkale Seramik A.Ş. İşletmesi Örneğinde Boylam Analizi Yöntemiyle İncelenmesine Dönük Bir Araştırma, Yüksek lisans tezi, 2010, T.C. Çanakkale Onsekiz Mart Üniversitesi Sosyal Bilimler Enstitüsü İşletme Anabilim Dalı

[11] https://www.oecd.org/site/innovationstrategy/defininginnovation.htm, (14.01. 2017)

[12]http://personel.klu.edu.tr/dosyalar/kullanicilar/bahtiyar.dursun/dosyalar/dosya_ve_belgeler/GRSMCLK_84-168.pdf, (14.01.2017)

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 281 - 290
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 281 - 290

MİLLİ İQTİSADİYYAT PERSPEKTİVLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

S.A. Abdullayeva
magistr, aparıcı mütəxəssis, Mərkəzləşdirilmiş Satınalma departamenti,
Azercell Telekom MMC
e-mail:Sevilabdullayeva@live.com
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın məqsədi sosial kapital, milli iqtisadiyyat və onun inkişaf xüsusiyyətlərini nəzərdən keçirməkdən, milli iqtisadiyyatın inkişaf mərhələləri və strateji yol xəritəsi haqqında məlumat verməkdən ibarətdir. Elmi məqalədə milli iqtisadiyyat perspektivinin növləri sadalanır, qabaqcıl ölkələrin inkişaf tendensiyaları təhlil edilir və ölkəmizin bir neçə MDB ölkələri ilə müqayisəsi nümunələrlə göstərilir. Tədqiqatın nəticəsində Azərbaycanın regional qovşaq kimi mövqeyinin gücləndirilməsinə və səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşunun davam etdirilməsinin iqtisadi inkişafa pozitiv təsirin artmasına səbəb olacağı, strateji yol xəritəsinin Azərbaycan iqtisadiyyatını iterasiya metodu ilə hərtərəfli şəkildə - həm makro səviyyədə (milli iqtisadiyyat), həm də mikro səviyyədə (sektorlar) əhatə edəcəyi vurğulanmışdır.

Açar sözlər: iqtisadi artım, institutlar, formal institutlar, sosial kapital, strateji yol xəritəsi.
Jel classification: P35

MAIN PROPERTIES OF THE PROSPECTS OF THE NATIONAL ECONOMY

Abstract

The purpose of the study consists of examining social capital, the peculiarities of the national economy and its development, commenting on the stages of development of the national economy and a strategic roadmap for its development. The scientific article lists the directions of the prospects of the national economy, analyzes the trends in the development of the economies of the leading countries, and compares the economic indicators of our country with a number of CIS countries. In the result of the study, it is emphasized that the continuation of investing in investments in strengthening Azerbaijan's position as a regional transport center and effective infrastructure will help increase the positive influence on economic development, and the strategic road map Iteration will cover the economy of Azerbaijan both on a macro-level (national economy) and on the micro-level (sectors).

Keywords: economic growth, institutions, formal institutions, social capital, strategic road map.

ОСНОВНЫЕ СВОЙСТВА ПЕРСПЕКТИВ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

Резюме

Цель исследования состоит из рассмотрения социального капитала, особенностей национальной экономики и ее развития, комментирования этапов развития национальной экономики и стратегической дорожной карты ее развития. В научной статье перечисляются направления перспектив национальной экономики, анализируются тенденции развития экономик ведущих стран, и на примере показывается сравнение экономических показателей нашей страны с рядом стран СНГ. В результате исследования подчеркивается, что продолжение вложения инвестиций в усиление позиции Азербайджана, как регионального транспортного центра, и эффективную инфраструктуру будет способствовать увеличению положительного влияния на экономическое развитие, а стратегическая дорожная карта методом итерации комплексно охватит экономику Азербайджана как на макроуровне (национальной экономики), так и на микроуровне (секторов).

Ключевые слова: экономический рост, институты, формальные институты, социальный капитал, стратегическая дорожная карта.

Giriş. Məlumdur ki, eyni nəzəri məzmuna malik iqtisadi siyasətlərin verdiyi müxtəlif nəticələr hər bir ölkənin tarixi-mədəni xüsusiyyətlərindən, o cümlədən ənənələrindən asılıdır. Bu xüsusiyyətlər məşhur iqtisadçı Anqus Medisson tərəfindən mükəmməl şəkildə izah olunur. O, çoxsaylı ölkələrin yüzilliklər ərzində keçdikləri inkişaf yollarını öyrənərkən, belə qənaətə gəlir ki, məhz iqtisadi institutlar inkişafın dinamikasını və trayektoriyasını təyin edən fundamental amildir. Ənənəvi neoklassik iqtisadi artım modelində ölkələr arasında gəlir fərqi ya yığım səviyyəsi, ya da ümumi faktor məhsuldarlığı kimi ekzogen parametrlərə görə yaranır. Endogen artım modelinə görə isə ölkələr üzrə gəlir fərqi innovasiyaya ayrılan resurslardan və inkişaf strategiyasından asılıdır. Lakin innovasiyaya ayrılan vəsaitin həcmindəki fərqin özü də fundamental sual kimi daima tədqiqatçıları düşündürmüşdür. Nort və Tomas belə hesab edirlər ki, “innovasiya, təhsil, kapital akkumulyasiyası və s. amillər iqtisadi artımın səbəbi yox, elə özüdür”.

Konstitusiya və qanunun aliliyi iqtisadi inkişafın dayanıqlığını dəstəkləyir. İnstitutların zəif olduğu ölkələr iqtisadi artım tempinin aşağı və əhəmiyyətli volatil

olması kimi xüsusiyyətlərə malikdir. Ümumilikdə bazar iqtisadiyyatının effektiv fəaliyyəti üçün aşağıdakı institutların effektiv fəaliyyəti vacibdir:

Sxem 1. Institutların effektiv fəaliyyəti (müəllif tərəfindən tərtib olunub)

D. Rodrik formal institutları 4 qrupa bölür:

Sxem 2. Formal institutlar qrupu (müəllif tərəfindən tərtib olunub)

1. Bazarların formalaşmasını və sağlam fəaliyyətini təmin edən institutlar. Effektiv siyasi güc, müstəqil məhkəmə sistemi və s. belə institutlara aiddir;

2.Bazarların uğursuzluqlarını tənzimləyən institutlar. Məsələn, telekommunikasiya, nəqliyyat, su və meşə resurslarını, maliyyə xidmətlərini tənzimləyən agentliklər;

3. Makroiqtisadi və maliyyə sabitliyini təmin edən institutlar. Mərkəzi banklar və fiskal orqanlar aşağı inflyasiya və büdcə dayanıqlığı vasitəsilə bazarın sabitləşməsi təmin edilir;

4. Bazarı legitimləşdirən institutlar. Bu institutlar bazar subyektlərini neqativ şoklardan və mənfi bazar effektlərindən qorumağa imkan verir. Belə institutlara pensiya sistemləri, işsizlikdən müdafiə və digər sosial fondlar aiddir [1].

Qeyd edək ki, fiziki və insan kapitalı kimi, amma maliyyə kapitalının əksinə olaraq, sosial kapitalın dəstəyə ehtiyacı var. Sosial əlaqələr mütəmadi yenilənməlidir ki, effektivliyi itirilməsin. Lakin bu yenilənmə fiziki kapitaldakı amortizasiya formasında deyil, insan kapitalındakı biliyin daim artırılmasına oxşar meyarlarla həyata keçirilməlidir. Sosial kapital ictimai məhsuldur, kimlərsə ayrılıqda ondan faydalana bilməz.

İqtisadi artım ilə inam, vətəndaş birliyi arasındakı münasibətlər Knack və Keefer tərəfindən əsaslandırılmışdır ki, inam və vətəndaş əməkdaşlığının yüksək olduğu cəmiyyətlərdə gəlir bərabərliyi, qanunların aliliyi təmin olunur [1].

İnstitutların ölçülməsi və empirik müşahidələr makroiqtisadi dəyişənlərdən fərqli olaraq, institutların inkişaf səviyyəsinin ölçülməsi üzrə universal metodologiya mövcud deyildir. Lakin Dünya Bankının apardığı araşdırmalarda institusional inkişafın 5 göstərici üzrə qiymətləndirilməsinə rast gəlinir:

Sxem 3. Institusional inkişafın qiymətləndirilməsi (müəllif tərəfindən tərtib olunub)

Bu göstəricilər [-2.5-2.5] intervalında dəyişir. Bu interval institusional keyfiyyət baxımından aşağı gəlirli və yüksək gəlirli ölkələr arasında böyük fərqin mövcud olmasını göstərir. Belə ki, qanunun aliliyi göstəricisi ən aşağı göstəriciyə malik olan Əfqanıstanda (-2.01) adambaşına ÜDM-in həcmi analoji göstərici üzrə ən yüksək paya malik olan Norveçdən (1.96) dəfələrlə aşağıdır. Dünya üzrə aparılan tədqiqatlar göstərir ki, qanunun aliliyi indeksinin 1 vahid artımı iqtisadi artımı 0.8 % bəndi artırır.

Şəkil 1. Qanunun aliliyi indeksi, müəllif tərəfindən tərtib olunub.

Təcrübə göstərir ki, sosial kapitalın yaranması kimi onun dağılıb itməsi də çox uzun zaman tələb edir. İkinci dünya müharibəsindən sonra Almaniyanın bütün fiziki kapitalının dağılmasına baxmayaraq, müharibədən sonra ilk 15-20 il ərzində yüksək iqtisadi artıma nail olunmasının səbəbi kimi güclü sosial kapital göstərilir. Sosial kapital və iqtisadi artım arasında əlaqə çoxlu sayda empirik tədqiqatlar vasitəsilə araşdırılmışdır. Məsələn, Putnam təsdiq edir ki, Amerikada sosial kapitalın əsas təsirləri işsizliyin azalması, cinayət işlərinin sayının aşağı düşməsi, hökumətin effektivliyi kimi məsələlərdə özünü göstərir. Putnam sosial kapital və iqtisadi artım arasında əlaqəni müsbət qiymətləndirir.

Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq, sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdən biri olmuşdur [1].

Xarici təcrübələrə baxdıqda, Rusiya federasiyası, federal inkişaf strategiyasını, Sibir əyalətinin 2020-ci ilə sosial-iqtisadi inkişafını, həmçinin Baltik və Uzaq Şərq ölkələrinin 2025-ə qədər sosial-iqtisadı inkişafı layihələrinin mövqeyini, "İşgüzar Rusiya", "Strategiya 2020", "İrkutsk vilayətinin sosial-iqtisadi inkişafı-2020", konsepsiyalardan ibarət sosial-iqtisadi inkişafın strateji planlaşdırma sənədlər sistemini hazırlamışdır. Eyni zamanda innovasiya məhsulları texnologiyaları və xidmətləri reyestri yaradılmış və funksiyası müəyyənləşdirilmişdir. Belorusiya respublikası 2020-ci ilədək innovasiyanın inkişafı üzrə milli konsepsiya qəbul etmişdir. Konsepsiyada ÜDM 2001-ci ildən hesablanaraq, 2020-ci ilə qədər 60% -dək artacağı

proqnozlaşdırılır. Qazaxıstan Respublikası 2030-cu ilədək innovasiyanın inkişafı üzrə konsepsiya qəbul etmişdir. "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyasına diqqət yetirsək görərik ki, burada da əhəmiyyətli iqtisadi məsələlər yer alıb.

Azərbaycan başqa sahələrdə olduğu kimi iqtisadiyyatın formalaşmasında və islahatların davamlığının təmin olunmasında da uğurlar qazanmağa qadir bir ölkədir. Bununla əlaqədar olaraq, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq işçi qrupu yaradılmışdır. Həmin Sərəncama əsasən, işçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələrini hazırlamışdır. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir [2].

Layihələr açıq müzakirəyə verilmiş və yekun sənəd tərtib edilərkən, maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təklifləri nəzərə alınmışdır. Xəritənin hazırlanmasında 400 yerli və xarici ekspertlər eləcə də müzakirə və 150 toplantılarda 4000 nəfər iştirakçı qatılmışdır.

Strateji yol xəritəsi 12 sənəddən ibarətdir. Strateji baxış və yol xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə təfsilatlı birillik yol xəritəsi, 2017-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, üçün uzunmüddətli baxış və 2025-ci ildən sonra hədəf baxışından ibarətdir [2].

İşçi qrupuna daxil olan şirkətlərdən biri dünyanın aparıcı qlobal idarəetmə və məsləhətçi şirkəti olan McKinsey & Company-dir. Qeyd etmək istərdim ki, bu şirkət dünyanın aparıcı biznes sahələrində, müxtəlif dövlətlərdə, beynəlxalq qeyri-hökumət təşkilatlarına, eləcə də iqtisadi qurumlara müxtəlif sahələrdə məsləhətlərin verilməsini təmin edir. McKinsey & Company şirkətinin müştəriləri sənayenin müxtəlif sahələrindən olub, ekstensiv- funksional imkanlardan faydalanaraq, öz strategiyalarında tətbiq edə bilirlər.

Hazırda bu istiqamətlər iqtisadiyyatın 22 sektor və 12 biznes sahəsini əhatə edir. Bu, təcrübəyə dayanan yeni imkanlar, üsullar, həll istiqamətləri və istedadlar deməkdir.

Bu şirkətin məsləhətçiləri arasında həkimlər, mühəndislər, biznes- menecerlər, sahibkar və alimləri görmək olar.

Sənəddə mühüm məqam Milli iqtisadiyyat perspektivi – Azərbaycan iqtisadiyyatının dərindən və faktlara əsaslanan 360 dərəcəli diaqnostikası və SWOT təhlili (bundan sonra GZİT təhlili güclü tərəflər, zəif tərəflər: İmkanlar və Təhlükələrin təhlili), habelə rəqabət qabiliyyətli üstünlüklərin vurğulanmasıdır.

- I Faza: 360 dərəcəli diaqnostika və GZİT təhlili

Burada məqsəd İqtisadi baza xəttinin və inkişaf ssenarisi hədəflərinin yaradılmasıdır. Əsas fəaliyyətlər olaraq aşağıdakılar müəyyən edilmişdir:

Sxem 4. İqtisadi baza fəaliyyətinin hədəfləri, müəllif tərəfindən tərtib olunub.

Hökumətin planlarına baxış məqsədi kimi aşağıdakılar müəyyən edilmişdir:

Sxem 5. Hökumətin planlarına baxış (müəllif tərəfindən tərtib olunub)

- II Faza: Prioritet sektorlar üçün strateji baxış və yol xəritəsi (flaqman layihələr və özəlləşdirmə proqramı daxil olmaqla)

Milli iqtisadiyyat üçün strateji baxış və yol xəritəsi layihələrinin hazırlanması; buraya yüksəksəviyyəli məqsədlər, geniş təşəbbüs sahələri və məsuliyyət, mövzuların ardıcıllığının və qruplarının müəyyən olunması üzrə ilkin ideyalar daxildir.

Milli iqtisadiyyat baxışının yekun versiyası: - Təfsilatlı birillik yol xəritəsi - 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı - 2025-ci il üçün uzunmüddətli baxış - 2025-ci ildən sonra hədəfə baxış.

Əsas sektorları ən yaxşı formada dəstəkləmək məqsədi ilə 3 iqtisadi infrastruktur sektorunun fiziki, maliyyə və texnoloji komponentlərinin optimallaşdırılması üçün yol xəritəsinin hazırlanması iqtisadi artımın dayanıqlığına təsir edir.

Nəticə: Strateji yol xəritəsi Azərbaycan iqtisadiyyatını iterasiya metodu ilə hərtərəfli şəkildə - həm makrosəviyyədə (milli iqtisadiyyat), həm də mikro səviyyədə (sektorlar) əhatə edəcəkdir.

Post-neft dövrünə keçidin reallaşması 10-15 il ərzində düşünülsə də, bu məqam artıq başlamışdır. Azərbaycan dünyanın ilk neft istehsal edən ölkələri arasında olmuşdur və XX əsrin əvvəllərində dünyanın neftə olan tələbatının çox hissəsini qarşılamışdır.

Azərbaycanın regional qovşaq kimi mövqeyinin gücləndirilməsi və səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşunun davam etdirilməsi iqtisadi inkişafda pozitiv təsirin artmasına səbəb olacaqdır.

Azərbaycan iqtisadiyyatı ölkənin dəmir yollarının Gürcüstan, Türkiyə və İranın dəmiryol şəbəkələri ilə Bakı-Tbilisi-Qars və Astara-Astara dəmiryol layihələri vasitəsilə birləşdirilməsindən, həmçinin Xəzər hövzəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisindən bəhrələnəcəkdir. Azərbaycanın şaxələndirilmiş nəqliyyat-logistika imkanları ölkədən ixracın artması üçün zəmin olacaq, bütövlükdə isə biznes xərclərinə qənaət edilməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, təkmilləşdirilmiş nəqliyyat infrastrukturu Azərbaycanın bütün bölgələrinin daha yaxşı inteqrasiyasına şərait yaratmaqla, regionlarda biznesin inkişafına əlavə təkan verəcəkdir. Müasir kommunikasiya imkanlarından istifadə etməklə sürətli genişzolaqlı şəbəkə vasitəsilə elektron xidmətlərin (e–təhsil, e–səhiyyə, e–bankçılıq, e–ticarət və s.) əhatə dairəsi genişləndiriləcəkdir. Xüsusilə dövlət idarəetməsində rəqəmsallaşdırma biznes üçün şəffaf, hesabatlı, səmərəli və proqnozlaşdırıla bilən perspektivlər yaradacaqdır. Elektron xidmətlərin tətbiq dairəsinin genişləndirilməsi Azərbaycanda biznesin beynəlmiləlləşdirilməsi üçün zəmin olacaqdır. 2025-ci il perspektivində özəl sektorun infrastruktur quruculuğunda daha yaxından iştirakı təmin ediləcək ki, bu da iqtisadi səmərəliliyin artmasına pozitiv təsir edəcək [2].

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətli, inklüziv və dayanıqlı inkişafı istiqamətində qarşıya qoyulan əsas tələb, insan kapitalının inkişafına və əmək məhsuldarlığının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasına nail olmaqdır. Bunun üçün qısa və ortamüddətli perspektivdə iqtisadi artımda intensiv əməyi stimullaşdıran sahələrin yaranması üstünlük təşkil edəcək, orta və uzunmüddətli perspektivdə isə elmtutumlu modelə keçid təmin ediləcəkdir. Əmək məhsuldarlığının və insan kapitalının inkişaf etdirilməsi iki səbəbdən əhəmiyyətli amil hesab olunur. Bir tərəfdən, intensiv əmək tələb edən inkişaf modelində əmək məhsuldarlığının yüksəldilməsi ölkə iqtisadiyyatında birbaşa əlavə dəyər yaratmaqla iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olacaqdır. Digər tərəfdən, yalnız əmək məhsuldarlığının yük-

səldilməsinə nail olmaqla daha intensiv bilik tələb edən inkişaf modelinə maneəsiz keçid təmin ediləcəkdir. Bütün bunlar Azərbaycan məhsullarının qlobal bazarlarda rəqabət qabiliyyətliyini təmin edəcək, eyni zamanda insan kapitalına investisiya qoyuluşunu daha cəlbedici edəcəkdir. Son 15 ildə Azərbaycanda sürətli inkişaf təmin olunmuş və əmək məhsuldarlığı üç dəfədən çox artmışdır. Azərbaycanda 2000-2008-ci illərdə əmək məhsuldarlığının artımı orta hesabla ildə 13,6 faiz olmuşdur. 2008-ci ildən etibarən əmək məhsuldarlığında artım davam etsə də, artım sürəti orta hesabla ildə 2 faizə qədər azalmışdır. Regionda ölkələrin inkişaf səviyyəsini nəzərə almaqla aparılan müqayisə Azərbaycanda əmək məhsuldarlığının yüksəldilməsi üçün geniş imkanların olduğunu göstərir. Belə ki, 2015-ci ildə Rusiyada məşğul əhali üzrə ÜDM 46 min ABŞ dolları, Türkiyədə 57 min ABŞ dolları, Azərbaycanda isə 36 min ABŞ dolları təşkil etmişdir. 43 Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində əhatə olunan 11 sektorda əmək məhsuldarlığını yüksəltmək üçün insan kapitalına investisiya qoyuluşu stimullaşdırılacaqdır.

Şəkil 1. Əmək məhsuldarlığının yüksəldilməsi (müəllif tərəfindən tərtib olunub)

Qlobal iqtisadi mənzərə Avropada zəif və Çində azalan artıma görə dəyişməkdədir. Çin onu əsas iqtisadi regionlarla birləşdirəcək "İpək Yolu" layihəsini həyata keçirməyi planlaşdırır ki, bu marşrutlardan biri də Azərbaycan ərazisindən keçir. Eyni zamanda Avropa, Rusiya, İran, Hindistan və Mərkəzi Asiyanı birləşdirəcək Şimal–Cənub nəqliyyat dəhlizinin də bir xətti Azərbaycanın ərazisindən keçir. Bu təşəbbüslər ölkəmizin ərazisindən keçən əmtəə və sərnişin dövriyyəsinin həcmini artırmaqla marşrut boyu istehsal və nəqliyyat-logistika xidmətləri üçün imkanlar yaradacaqdır. Azərbaycan təkcə tranzit ölkəsi deyil, o, həm də öz ərazisindən keçən əmtəələr üzərində əlavə dəyər yaratmaq potensialına malikdir. Ümumilikdə isə Azərbaycanın ərazisindən keçən nəqliyyat dəhlizlərinin hesabına qlobal dəyər zəncirlə-

rində ölkənin mövqeləri gücləndirilə bilər. Azərbaycan üçün belə yeni beynəlxalq imkanların açılması yüksək və dayanıqlı iqtisadi artım potensialı yaradır. Strateji Yol Xəritəsi bu imkanlardan faydalanmaq üçün hazırlanmışdır.

Xüsusi olaraq qeyd edilməlidir ki, Strateji Yol Xəritəsinin qəbulundan sonra onun həyata keçirilməsi üçün müvafiq dövlət qurumları öz fəaliyyətlərini daha müfəssəl proqramlar əsasında quracaqlar. Sənəddə nəzərdə tutulan layihələrin həyata keçirilməsindən əvvəl texniki-iqtisadi əsaslandırılma aparılacaq və hər bir təşəbbüs üzrə müvafiq dövlət qurumları cavabdehlik daşıyacaqlar.

Dayanıqlı iqtisadi artımı təmin edəcək investisiya qoyuluşlarında maraqlı olan Azərbaycanda qlobal investisiya meyilləri nəzərə alınacaqdır.

2007-ci illə müqayisədə dünya üzrə birbaşa xarici investisiya axını 2015-ci ildə 36 faiz artaraq 1,7 trilyon ABŞ dollarına çatmışdır. 2015-ci ildə inkişaf etmiş ölkələr birbaşa xarici investisiyaların 55 faizini cəlb edə bilibdir. Artım əsasən birləşmə və satınalmalar (“M&As”) hesabına baş vermişdir. 2015-ci ildə Asiya regionunda inkişaf etməkdə olan ölkələr dünya üzrə birbaşa xarici investisiyaların 1/3-ni cəlb etmişdir. Bu mənada Asiya regionu dünya üzrə ən çox investisiya cəlb edən regiondur. Rusiya və Qazaxıstan başda olmaqla, keçid ölkələrinə birbaşa xarici investisiya axını 2015-ci ildə 54 faiz azalmışdır. Aşağı xammal qiymətləri və regional münaqişələr keçid ölkələrində birbaşa xarici investisiya axınları üçün əsas maneə olmuşdur [3].

Birləşmə və satınalmaları nəzərə almasaq, dünyada birbaşa xarici investisiyaların axını qısamüddətli perspektivdə zəifləyəcəkdir. Çünki qlobal iqtisadiyyat kövrəkdir, qlobal maliyyə bazarları volatildir, tələb aşağıdır və inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım tempi zəifdir. İnvestisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühiti təmin ediləcək və özəl sahibkarlığın inkişafı daha da stimullaşdırılacaq. Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

Ədəbiyyat

[1] Knack S., Keefer P. Does Social Capital Have an Economic Payoff, A Cross-Country Investigation // Quarterly Journal of Economics. 1997. № 112 (4). P. 1251-1288.

[2] “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” Bakı, 6 dekabr 2016-cı il.

[3] http://www.bibliofond.ru/download_list.aspx?id=823914

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 291 - 299
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 291 - 299

İNNOVASİYA İQTİSADİYYATINDA İNSAN KAPİTALI FAKTORU

L.V. Zeynallı
doktorant, ADNSU
latif.zeynalli@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 25 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 25 September 2017; published online 05 October 2017

Xülasə

Bu tədqiqatın əsas məqsədi innovasiya iqtisadiyyatında insan kapitalının rolunun hansı səviyyədə olmasını araşdırmaqdan ibarətdir. Bu məqsədlə, innovasiya iqtisadiyyatına bilik iqtisadiyyatı aspektindən baxılmış, "insan kapitalı"nın mahiyyəti və məzmunu ilə bağlı irəli sürülmüş müxtəlif nəzəri yanaşmalar əks olunmuşdur. İnnovasiya iqtisadiyyatının əsas şərtləri kimi insan kapitalının funksiyaları və onun formalaşması və inkişafı amilləri müəyyən edilmişdir. Tədqiqat işi elmi abstraksiya, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq, insan kapitalına nəzəri aspektdən yanaşılaraq, bir sıra alimlərin fikirlərinə istinadlar edilmişdir. Bundan başqa, insan kapitalı ilə bağlı fikirlər təhlil edilərək, onun ayrı-ayrı səviyyələrdə həyata keçirilən funksiyaları qeyd olunmuşdur. İnnovasiya iqtisadiyyatında insan kapitalının rolu qiymətləndirilmişdir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktiki informasiya tələbidir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələri insan kapitalı ilə bağlı tədqiqat aparan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər.

Açar sözlər: innovasiya iqtisadiyyatı, insan kapitalı, motivasiya, ehtiyaclar, bacarıqlar.
Jel Classification: E24

THE FACTOR OF HUMAN CAPITAL IN THE INNOVATIVE ECONOMY

Abstract

The objective of this research is to explore the impacts of the role of human capital in innovation economy. For this purpose, the research reviews innovation economy as a part of knowledge economy and studies various theoretical frameworks on the context of human capital. The significant factors for innovation economy have been considered the functions of human capital, its formation and development reasons. Scientific abstraction and logical generalization have been used as the main methodology. The research reviewed the literature and various authors' thoughts

and approaches human capital from the perspective of theoretical aspects. Furthermore, the functions of human capital have been analyzed and the role of human capital have been evaluated in innovation economy. The limitation of the research is the practical information requirements. The main contribution of research is enhancing scientific and practical knowledge of specialists on this matter.

Keywords: Innovative economy, human capital, motivation, needs, abilities.

ФАКТОР ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В ИННОВАЦИОННОЙ ЭКОНОМИКЕ

Резюме

Основная цель этого исследования – рассмотрение степени роли человеческого капитала в инновационной экономике. С этой целью в исследовании инновационная экономика рассматривается в аспекте экономики знаний, и находят свое отражение различные теоретические подходы, выдвинутые в связи с сущностью и содержанием человеческого капитала. В работе определены также функции человеческого капитала и факторы ее формирования и развития, как основные условия инновационной экономики. Исследовательская работа выполнена на основе методов исследования, таких как научная абстракция и логическое обобщение. В результате исследования, ссылаясь на мнения ряда ученых, человеческий капитал был рассмотрен в теоретическом аспекте. Кроме того, были проанализированы взгляды в связи с человеческим капиталом, отмечены функции человеческого капитала, осуществляемые на различных уровнях, дана оценка роли человеческого капитала в инновационной экономике. Ограничения исследования в требовании более обширной практической информации. Практическое значение исследования в том, что его результаты могут сыграть положительную роль в обогащении научных и знаний специалистов, ведущих исследования в связи с человеческим капиталом.

Ключевые слова: инновационная экономика, человеческий капитал, мотивация, потребности, способности.

Giriş. İnnovativ inkişaf müasir iqtisadiyyatın əsas prioritetidir. Bu, əqli kapitala əsaslanan və cəmiyyətdə ən yeni istehsalat amillərinin birləşməsi sistemini dəstəkləyən işgüzar aktivlik üçün stimuldur. Bu cür sistem təkcə iqtisadiyyatın rəqabət qabiliyyətinin əsası deyil, o, şəxsin öz yaradıcılıq bacarığı və insan kapitalına sərmayə yatırılması yolu ilə onun hərtərəfli inkişafı üçün şərait yaradır. İnkişafın investisiya istiqamətinə keçidinin əsasını və iqtisadi artımın yeni keyfiyyət amilini innovasiyalar təşkil edir. Sonuncular

rəqabət qabiliyyətinin artımını təmin edir və milli iqtisadiyyatın təkanverici qüvvəsi kimi çıxış edir. İnnovasiya iqtisadiyyatı onun ənənəvi növündən fərqlənir və istehsalat subyektləri arasında istehsal prosesi zamanı ortaya çıxan yeni növ iqtisadi münasibətləri ehtiva edir. Bu nöqteyi-nəzərdən anlaşılan məsələ ondan ibarətdir ki, innovasiya inkişafına keçid innovasiya iqtisadiyyatının subyekti kimi istehsal qüvvələrinin müvafiq inkişafı ilə bağlıdır. İnnovativ istehsalatın inkişafı prosesinin əsas elementi olan yaradıcı insan yeni biliklərin ortaya çıxması nəticəsində innovativ istehsalatın əsas resursuna çevrilir. İnnovasiyalar əsasında istehsalın mahiyyəti istehsal prosesinin biliklərin yeni məhsula çevrilməsinin yaradıcı prosesi kimi çıxış etməsindən ibarətdir. Belə olduğu halda, yeni biliklərin yaranması və elmi məhsulların istehsal edilməsi, habelə həmin biliklərin bütün sahələrdə istifadə edilməsi biliklərə əsaslanan innovasiya iqtisadiyyatının baza effekti rolunu oynayır. Səmərəli innovasiya fəaliyyəti insanın yaradıcı bacarıqlarının rolunun özünü ifadə etməsində artması kimi başa düşülür ki, bu da innovasiya istehsalatı prosesinin innovasiya iqtisadiyyatı subyektinin inkişafı və onun təkmilləşməsi baxımından ciddi asılılıq yaradır. Təsadüfi deyil ki, İqtisadi Əməkdaşlıq və İnkişafı Təşkilatının (İƏİT) ortaya çıxartdığı dünya iqtisadi inkişafının istiqamətləri biliklərin və insan kapitalının toplanması prosesinin iqtisadi inkişaf templərinə əhəmiyyətli dərəcədə təsirini sübut edərək şərtləndirir.

İnsan kapitalına nəzəri aspektdən yanaşma

İnsan kapitalı nəzəriyyəsi banilərinin əsərlərində insan kapitalının təfsiri verilir, onun məzmunu və strukturu açıqlanır. Xüsusilə qeyd etmək lazımdır ki, insan kapitalı konsepsiyasının inkişafının əsasında institusional, neoklassik, neokeynsçi və digər iqtisadi məktəblərin nümayəndələrinin nəzəri və praktiki əhəmiyyətli müddəaları dayanır və konsepsiyanın formalaşmasında T. Şults, Q. Bekker, S. Kuznets, E. Denison, R. Slou, C. Kendrik, S. Fabrikant, İ. Fişer, R. Lukas və Dünya Bankının bir sıra digər ekspertləri çox böyük rol oynamışlar [1]. İnsan kapitalı nəzəriyyəsinin formalaşmasında böyük xidmətləri olan Q. Bekker insan kapitalını "biliklərin, bacarıqların və motivasiyaların ehtiyatı" kimi müəyyən etmişdir [2].

İnsan kapitalının tanınmış nəzəriyyəçisi T. Şuls insan kapitalı anlayışına aşağıdakıları əlavə etmişdir: "İnsan kapitalı elə bir kapital formasıdır ki, gələcək gəlirlərin mənbəyidir. [3]. T. Şuls “insan kapitalı” kateqoriyasını çox geniş mənada başa düşürdü. O, insan kapitalına yönəldilmiş investisiyalara təkcə orta və ali təhsil müəssisələrindəki təhsilə yönəldilmiş birbaşa xərcləri deyil, həm də evdə öz-özünü hazırlamağa, işdə toplanmış təcrübəyə, habelə səhiyyə, təhsil və elmə ayrılan xərcləri də daxil etmişdir. T. Şuls insan qabiliyyətlərinin başqa formalarının təzahür etməsinə nisbətən təhsilə daha çox diqqət yetirmiş və ona görə də onun insan kapitalının forma və mənbələri baxımından öyrənilməsini tələb edirdi [4].

L. Turou hesab edir ki, insan kapitalı əşyaları və xidmətləri istehsal etmək qabiliyyətini özündə ehtiva edir. C. Kendrik insan kapitalına insanın ümumi və səciyyəvi bilikləri, istehsal əməyinə qabiliyyəti kimi baxır. Müasir dövrdə insan kapitalı anlayışının məzmununu insanın və cəmiyyətin çoxsaylı tələbatlarının ödənilməsi üçün istifadə edilən bilik, bacarıq vərdiş və qabiliyyətlərin məcmusu kimi təqdim edən konsepsiya formalaşmışdır. Belə ki, S. Fişer, R. Dornbuş, R. Şmalenzi öz əsərlərində insan kapitalını "insanın gəlir əldə etmək bacarığı ölçüsü" adlandırır [5].

Rus tədqiqatçılarından A.İ. Dobrının, S.A. Dyatlov, S.A. Kurqanskiy insan kapitalını "ictimai artımın bu və ya digər sahəsində məqsədəuyğun şəkildə tətbiq olunan, əmək məhsuldarlığının və səmərəliliyin artmasına şərait yaradan və bununla da, insanın gəlirlərinin artımına təsir göstərən, insanın əldə etdiyi bacarıqların, biliklərin, qabiliyyətlərin, motivasiyaların ehtiyatı" kimi müəyyən etmişlər [6].

Azərbaycan alimləri də “insan kapitalı”, “insan resursları” və “insan potensialı” anlayışlarına müxtəlif tərəflərdən yanaşırlar. Professor Ş. Muradov öz əsərlərində XX əsri əhatə edən geniş dövr üçün Azərbaycanda insan potensialının formalaşması, inkişafı və istifadəsinin nəzəri-metodoloji, sosial-iqtisadi, etno-demoqrafik və regional problemlərini geniş tədqiq edib. Onun “İnsan potensialı: əsas meyillər, reallıqlar və problemlər” adlı əsərində Azərbaycanda əhali sakinliyi, demoqrafiya, əhali miqrasiyası, məşğulluq və gender sahəsində dövlət siyasətinin əsas istiqamətləri də tədqiq olunub. Ş. Muradov “insan potensialı” və “insan resursları” anlayışını eyniləşdirərək, onu “...cəmiyyətin (ölkənin) malik olduğu fiziki və intellektual imkanların məcmusu” adlandırmışdı[7].

Müasir nəzəriyyələrdə qeyd edilir ki, "insan kapitalının istehsalı investisiyalar vasitəsilə istehsalat bacarıqlarının yaradılması prosesi" [6] olmaqla, "işçilərin ixtisaslaşmasını və bacarıqlarını, bununla da, onların əmək məhsuldarlığını artıran hər hansı hərəkət" kimi başa düşülür [8].

Digər araşdırmalarda şirkətlər üçün onların işçilərinin "insan kapitalına yatırımların edilməsi prosesinə şəksiz üstünlüklər" qeyd edilir. Şirkətlər "insan kapitalının inkişafı mənbəyi olmalı və onu israrla inkişaf etdirməlidir" ki, bu da işçinin insan kapitalına edilən investisiyaları ilə əlaqədar verilən qərarların növbəti illərdə şirkətin gələcəyini formalaşdırması ilə bağlıdır [9]. İnsan kapitalı nəzəriyyəçiləri investisiyaların, məzmunu etibarı ilə, insan kapitalı subyektinin əməyi (enerjisi) və şəxsi zamanı xərcləri kimi başa düşülən pul, əmək və zaman investisiyaları qismində çıxış etmələrini qeyd etsələr də, əsas diqqət fərdin bacarıqlarının inkişafına edilən yatırımların iqtisadi məqsədəuyğunluğu amili kimi insan kapitalına pul investisiyaları məsələlərinə yönəlir. Bu, anlaşılandır, çünki insan kapitalının istehsalı məsələlərində əsas problem investorlar tərəfindən insan keyfiyyətlərinin inkişafına edilən maliyyə vəsaitlərinin geri alınmasından ibarətdir.

Nəticədə, gələcəkdə investisiyanın təkrarən səmərəli şəkildə tətbiq edilməsi üçün fərdin yeni bacarıqlarının, biliklərinin ehtiyatını toplamağa sövq edən gəlirlərin artdığı bir vaxtda insan davranışının əsaslandırılmasının iqtisadi yanaşması insan kapitalı nəzəriyyəsinin əsas ideyasına çevrilmişdir. İnsan kapitalı tədqiqatçılarının bir çox əsərləri bu cür nəticəni təsdiqləyir. Onların mövqeyi insan kapitalı anlayışının dəqiqləşdirilməsinə, insan kapitalına edilən investisiyaların faydaları və xərcləri təhlili modelinin tədqiq edilməsinə insan kapitalına edilən investisiyalarından gəlirlilik dərəcəsinin iqtisadi qiymət məsələlərinin baxılmasına, təhsil sahəsində investisiya proseslərinin hazırlanmasına, əhalinin təhsil və məşğulluğu səviyyələrinin ölçülməsinə, insan kapitalının milli sərvətin elementi kimi qiymətləndirilməsi metodologiyası və meyarlarının hazırlanmasına yönəlmişdir. Lakin iqtisadçılar tərəfindən insan kapitalı nəzəriyyəsinə tənqidi iradlar da olur. Məsələn, V. Şetinin "insan kapitalı elementlərinin və onun sosial-iqtisadi məzmununun düzgün qiymətləndirilməməsi xarakteristikasına texnokratik yanaşmanın" üstünlük təşkil etməsini vurğulayır [10].

İnsan kapitalına tədqiqat maraqlarının artmasına həmin iqtisadi kateqoriyanın funksiyaları səbəb olmuşdur. Bu baxımdan, insan kapitalının ayrı-ayrı səviyyələrdə həyata keçirilən funksiyaların araşdırılması məqsədəuyğun hesab olunur. İnsan kapitalının funksiyaları onun dövlət, firma, şəxsiyyətin, müvafiq olaraq, ayrı-ayrı fərdlərin, mikro və makrosəviyyədə ehtiyaclarının ödənilməsi bacarığını ehtiva edir. Ayrı-ayrı fərdlərin səviyyəsində insan kapitalı funksiyaları aşağıdakılardır:

1. İqtisadi – kapitalın hərəkətinin təmin edilməsi üçün zəruri olan biliklərin genişləndirilməsi və həyata keçirilməsi hesabına gəlirlərin artımının əhəmiyyətli şəkildə sürətləndirilməsindən ibarətdir;

2. Stimullaşdırıcı - inkişafının bu mərhələsində daha vacib olan istehsalat keyfiyyətlərinin formalaşdırılmasına və təkmilləşdirilməsinə təşviq edir.

İnsan kapitalının mikrosəviyyədə funksiyalarına aiddir:

1. Proqnozlaşdırıcı funksiya – insan kapitalının tədqiq edilməsi imkanlarının və işçilərin, kollektivin, ölkə regionlarının insan kapitalının tətbiqi dərəcəsini qiymətləndirməyə və bu əsaslarla da rəqabət qabiliyyətinin, innovativ aktivliyin, iqtisadi inkişafın artması üçün şəraitin yaradılmasına imkan verir ;

2. İstehsalat-iqtisadiyyat funksiyası – insan kapitalı vasitəsilə insan birbaşa olaraq əmtəə və xidmətlərin istehsalı prosesinə qoşulur. Fərdin insan kapitalı yüksək keyfiyyətə malik olduqca, onun əmək fəaliyyəti, insanların daimi həyat fəaliyyəti və onun ehtiyaclarının ödənilməsi üçün zəruri olan istehsal etdiyi əmtəə və xidmətlər yüksək olacaq, beləcə, sahibkarın gəlirlərinin artmasına səbəb olacaq.

İnsan kapitalının makrosəviyyədəki funksiyaları aşağıdakılardır:

1. Ötürücü funksiya–bu funksiya cəmiyyətin sahib olduğu insan kapitalının fasiləsizliyindən, keçmişdən gələcəyə ötürülməsindən ibarətdir. Bu halda, insan kapitalının məhz zamanla ayaqlaşacaq bir hissəsi ötürülür;

2. Strateji funksiya–insan kapitalının dövlətin inkişafına, dövlət səviyyəsində elmi-texniki tərəqqinin yeridilməsinə, iqtisadi artıma imkan yaradan elementlərdən biri olması ilə təzahür edilir.

İnnovasiya iqtisadiyyatı və insan kapitalı

Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə, ilk öncə elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi texnoloji irəliləyişlərlə əlaqədardır. Bazar iqtisadiyyatından kənarda innovasiya iqtisadiyyatını, özü özünü təmin edən innovasiyaları və innovasiya əmtəələrini yaratmaq praktiki olaraq mümkün deyil. İnnovasiya iqtisadiyyatı cəmiyyət üçün faydalı olan hər cür innovasiyaları (patentlər, lisenziyalar, nou-xau, başqalarından götürülmüş və özünün yeni texnologiyaları və s.) səmərəli istifadə etməyə qadir iqtisadiyyatdır. İnnovasiya iqtisadiyyatı dövlət daxilində alimlərin ideyalarının praktikada tətbiqinə və onların innovasiya məhsullarında maddiləşməsinə yardımçı olan ümumi infrastrukturdur. İnnovasiya iqtisadiyyatı müsbət, yaradıcı insan kapitalını yığmağa və artırmağa qadir iqtisadiyyatdır. İnnovasiya dedikdə, heç də yalnız istehsala tətbiq olunan obyekt deyil, həm də onun uğurla tətbiq olunması və mənfəət gətirməsi nəzərdə tutulur. Aparılmış elmi-tədqiqatın və ya edilmiş kəşfin nəticələrinə görə o, keyfiyyətcə özündən əvvəlki oxşarından fərqlənir. İnnovasiyanın reallaşması prosesində baş verən elmi-texniki, texnoloji və təşkilati dəyişikliklərin məcmusunu innovasiya prosesi, yeniliklərin yaradılması, yayılması və istifadəsi dövrünü isə innovasiya tsikli adlandırmaq olar [11]. “İnnovasiya” terminini elmə XX əsrin ilk onilliklərində avstriya, sonradan amerika alimi Jozef Şumpeter daxil etmişdir. J. Şumpeter özünün “İqtisadi inkişaf nəzəriyyəsi” işində ilk dəfə olaraq inkişafında dəyişikliklərin yeni innovasiya məsələlərinə baxmış və innovasiya prosesinin tam təsvirini vermişdir. J. Şumpeter inkişafda 5 dəyişikliyi ayırmışdır [12].

1) yeni texnikanın, texnoloji proseslərin istifadəsi və ya istehsalın yeni bazar təminatı;

2) yeni xassələrə malik məhsulların tətbiqi;

3) yeni xammalın istifadəsi;

4) istehsal dəyişikliyi və təşkili və onun maddi-texniki təchizatı;

5) yeni satış bazarlarının meydana çıxması.

Onun yanaşması sübut etmişdir ki, iqtisadiyyatda mərkəzi fiqur novator-sahibkar olacaqdır. J. Şumpeterə görə, innovasiya - yeni növ istehlak mallarının, yeni istehsal və nəqliyyat vasitələrinin, bazarların və sənayedə təşkilati formaların tətbiqi və istifadəsi məqsədilə baş verən dəyişiklikdir. İstehsalat gücləri baxımından insan kapitalının formalaşması və inkişafı elmi-texniki tərəqqinin tempi və innovasiya-

larla müəyyən edilir. Elmin və texnikanın inkişafının sadəcə əmək prosesinin həyata keçməsi vasitəsi olduğundan, (məhz əmək prosesində işçi qüvvəsinin keyfiyyəti artır, insan kapitalı toplanır), elmi-texniki tərəqqinin təsiri ilə və innovasiya prosesinin həyata keçməsi nəticəsində istər istehsalat vasitələrində, istərsə də işçi qüvvəsinin, insan kapitalının keyfiyyətində əhəmiyyətli dəyişikliklər baş verir. İstehsalat güclərinin inkişafı maraqları ilə ortaya çıxan insan kapitalının inkişafının obyektiv zəruriliyi bütün istehsalat münasibətləri sisteminin təkmilləşməsi ilə intensivləşir ki, bu da təkcə elmi-texniki tərəqqinin sürətləndirilməsinə, onun templərinə, inkişafı miqyası və istiqamətlərinə deyil, ümumilikdə iqtisadiyyatın innovasiyalı inkişafına təsir edir, insan kapitalının inkişafına yönəlmiş innovasiya iqtisadiyyatının tələblərinin həyata keçməsini təmin edir. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, yəni ÜDM-in artımı, əsasən, elmtutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir. Amerika tədqiqatçısı F. Yansen innovasiyanı "şirkətin daim artımını və çiçəklənməsini təmin edən magistral yol kimi" səciyyələndirir. O, innovasiya trayektoriyasını aşağıdakı kimi ifadə olunan TAMO modelini işləyib hazırlamışdır.

Şəkil 1. İnnovasiya traektoriyası [13]

Ümumilikdə, bu tipli iqtisadiyyatın maddi bazası yüksək inkişaf etmiş maşınqayırma ilə keyfiyyətcə istehsalın yeni təşkili ilə xarakterizə olunur ki, bunun da əsasında istehsal proseslərinin avtomatlaşdırılmasını, informasiyalaşdırılmasını və intellektləşdirilməsini təmin edən elmtutumlu sahələr dayanır. Yeni istehsalat münasibətləri insan kapitalı qarşısında bir sıra səciyyəvi tələbləri qoyur və onun gələcək inkişafı üçün daha dolğun imkanlar yaradır. İstehsalat münasibətlərinə onların əks olunduğu və toplu şəklində təsərrüfat mexanizmi yaratdıqları təsərrüfat formalarının uyğun gəldiyini nəzərə alsaq, insan kapitalının inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi üçün istehsalat münasibətləri baxımından, təsərrüfat mexanizminin tərkib hissəsi kimi "insan kapitalının formalaşması, inkişafı və həyata keçməsinin iqtisadi mexanizmi" anlayışının əsaslandırılması zəruridir. İnsan kapitalının formalaşması və inkişafının bütün istiqamətləri iki nöqteyi nəzərdən baxılmalıdır:

1) insan bacarıqlarının (sağlamlığın möhkəmlənməsi, təhsilin əldə edilməsi, peşəkar bacarıqların təkmilləşdirilməsi) formalaşması;

2) istehsalat məqsədləri və ya mədəniyyət və yaxud siyasi fəaliyyəti üçün əldə olunmuş bacarıqların həyata keçməsi.

Beləliklə, bütün bu komponentlər insan kapitalının inkişafının əsas istiqamətini müəyyən etmək üçün şərait yaradır ki, bu da faktiki olaraq insanın təhsil və peşəkar səviyyəsinin artmasını, iqtisadi mədəniyyəti, əmək şəraitinin və bunun nəticəsi kimi həyat səviyyəsinin yaxşılaşdırılmasını ehtiva edir. Əldə olunmuş dərin xüsusi biliklər, yüksək peşəkar hazırlıq, insanın ümumi mədəniyyəti və insan kapitalının digər komponentləri həyat səviyyəsindən, insan ehtiyaclarının təmin edilməsi dərəcəsindən asılıdır. İnsan ehtiyacları onların inkişaf etməsi ilə hər zaman insanın, onun şəxsiyyətinin inkişafında stimullaşdırıcı motivlər qismində çıxış edir. Bu o deməkdir ki, insan kapitalının formalaşması və inkişafı təkcə ictimai istehsalatın məqsədi deyil, insan kapitalının formalaşması və inkişafı vasitəsi və zəruri şərti kimi çıxış edən ehtiyacların artması nöqteyi-nəzərdən baxmaq lazımdır. Daha çox resurslara və imkanlara malik dövlət, özəl sektorla və bizneslə müqayisədə insan kapitalının inkişafında əsas məsuliyyəti daşıyır. Onun qarşısında duran başlıca vəzifəsi insan kapitalının sosial və bioloji tərkibi elementlərinin sistemi inkişafı proqramlarının səmərəli həyata keçirilməsi şərtlərinin formalaşması və onların uzlaşdırılmasından ibarətdir. Ölkəmizdə baş verən sosial-iqtisadi dəyişikliklər insan kapitalının innovativ inkişaf istiqamətinə keçid zamanı iqtisadi artımın təmin edilməsi şərtlərindən biri kimi formalaşması məsələlərinə daimi diqqət yetirilməsini tələb edir. Əhəmiyyətli dərəcədə artım insan kapitalının inkişafı, şəxsin və cəmiyyətin ehtiyaclarının həyata keçirilməsi, inkişaf etmiş informasiya infrastrukturunun mövcudluğu dərəcəsindən asılıdır. İqtisadi artıma hər hansı bir təhlükə müəyyən dövr ərzində yerli insan kapitalının keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin azalması nəticəsində ortaya çıxan həqiqi və potensial zərər kimi müəyyən edilə bilər.

Nəticə

Sabit və uzunmüddətli iqtisadi inkişaf mənbəyi kimi yerli insan kapitalı, sosial-iqtisadi sahənin səmərəli inkişafı innovasiya iqtisadiyyatında insan kapitalı keyfiyyətinin yaxşılaşdırılması və təkmilləşdirilməsinin əsas şərti kimi çıxış edir. Bu, sosial güzəştlərə, imtiyazlara edilən dövlət məsrəflərinin azaldığı və ciddi pul-kredit və büdcə-vergi siyasətinin aparıldığı müasir dövrdə daha aktual olmaqla, dəyişilmiş sosial-iqtisadi şərtlərə fərdi uyğunlaşmaya mənfi təsir göstərir. İqtisadi proseslərin fəaliyyətsizliyini nəzərə alaraq, qeyd etmək lazımdır ki, mənfi proseslər müasir şərtlərdə də öz tendensiyasını qoruyub saxlayır. Azərbaycan Respublikasında insan kapitalının vəziyyətinə olan tədqiqi maraq insan kapitalı inkişafı istiqamətlərinin axtarışı aktuallığını müəyyən edir. İnsan kapitalı innovativ inkişafın əsas amilidir. Lakin ölkəmizdə

insan kapitalının innovasiya inkişafının amili kimi tətbiq edilməsinə əngəl yaradan aşağıdakı mənfi hallar mövcuddur:

- ÜDM və ixrac potensialına innovasiya sektorunun verdiyi töhfənin aşağı səviyyədə olması;
- Milli iqtisadiyyatın texnologiyaların və avadanlıqların idxalından asılılığının yüksək səviyyədə olması.

Buna baxmayaraq, innovasiya sektorunda ölkəmizdə fəaliyyət göstərən müəssisə və təşkilatların fərdi gücü sayəsində əmələ gələn innovasiyalara reaksiyaların artması, müxtəlif miqyaslı innovasiyaların həyata keçirilməsinə və bundan formalaşacaq faydaların son məhsulu olacaq elmi intensivliyin artması ilə bağlı keyfiyyətli dəyişikliklərə zəmin yarana bilər.

Ədəbiyyat

[1] Shultz T. Human Capital International Encyclopedia of the Social Sciences. N.Y, 1968. Vol. 6

[2] Капелюшников Р.И. Экономический подход Гэри Беккера к человеческому поведению. США: экономика, политика, идеология, 1993, № 11, с. 17–32.

[3] Капелюшников Р.И. Современные западные концепции формирования рабочей силы. Москва, Наука, 1981, 136 с.

[4] Shultz T. İnvestment in Human Capital. Economic Growin – an American problem. Euglewood. Cliffs, 1964.)

[5] S S. Fisher, R. Dornbusch, R.Shmalenzi; Economy Per. s English. CO 2nd ed. - M .: Delo, 1998. - 864 p.

[6] Dobrynin A. I., Dyatlov S. A. & Tsyrenova E. D. (1999) The human capital in transitive economy, St. Petersburg: Nauka. 309p.

[7] Muradov Ş. İnsan kapitalı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, 2004.

[8] McConnell K. R., Bru S.l. Economics: principles, problems, and policies. M.:Republic, 1992. – 400 p

[9] Fernandez E., Mauro P. The role of Human capital in Economic Growth. International Monetary Fund, 2000, 3 p.

[10] Щетинин В.П. Человеческий капитал и неоднозначность его трактовки. МЭиМО, 2001, № 12, с. 42–49.

[11] Medynsky V. G. Innovative management: the textbook / V. G. Medynsky - M. INFRA-M, 2002. - 295p.

[12] Schumpeter J. The theory of economic development. -M .: Progress, 1982.

[13] Jansen, F. The age of innovation. London: Prentice Hall, 2002.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 300 - 313
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 300 - 313

DÜNYA LİZİNQ SƏNAYESİNİN MÜASİR TRENDLƏRİ

Z.H.Zeynalov
i.ü.f.d., dos., UNEC
zeynalov.zakir@inbox.ru
Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi dünya lizinq xidmətləri bazarının müasir vəziyyətinin nəzərdən keçirilməsi əsasında, maliyyə qeyri-sabitliyi şəraitində onun əsas inkişaf tendensiyalarını aşkar etməkdən ibarətdir. Bununla əlaqədar, bütövlükdə qitələr, xüsusilə Avropa ölkələri üzrə, o cümlədən də il ərzində baş tütmuş lizinq sövdələşmələri həcminin ÜDM-ə nisbəti, əsas kapitala investisiya olunmuş lizinq xidmətlərinin xüsusi çəkisi, yeni lizinq kontraktlarının dəyəri və onların növlərə görə seqmentləşdirilməsi, lizinq əməliyyatları portfelinin dinamikası və ölkələr üzrə strukturu kimi başlıca göstəricilərə görə təhlili aparılır. Tədqiqatın metodologiyası sistemli yanaşma, müqayisəli təhlil, statistik qruplaşdırma, məntiqi ümumiləşdirmə, dinamik müqayisə, nümunə sorğu, detallaşdırma, elmi abstraksiya kimi tədqiqat üsullarına əsaslanır. Tədqiqat nəticəsində dünya və Avropa lizinq sənayesinin müasir trendləri müəyyən edilmişdir. Tədqiqatın məhdudiyyətləri dünya lizinq bazarının informasiya bazasının kifayət qədər və simmetrik olmaması, qlabal maliyyə mühitinin dəyişkən olmasıdır. Tədqiqatın praktik əhəmiyyəti dünya lizinq biznesinin milli iqtisadiyyatlarda, xüsusilə Azərbaycanda müəyyən edilmiş inkişaf trendlərinin nəzərə alınması imkanıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi ilk dəfə olaraq yerli iqtisadi ədəbiyyatda qlobal maliyyə disbalansları şəraitində dünya lizinq bazarının inkişaf tendensiyalarının kompleks nəzərdən keçirilməsi həyata keçirilmişdir.

Açar sözlər: lizinq biznesi, lizinq bazarı, lizinq sövdələşmələri, lizinq kontraktları, lizinq portfeli.
Jel classification: G21

CONTEMPORARY TRENDS OF THE WORLD LEASING INDUSTRY

Abstract

Purpose: On the basis of consideration of the current state of the world market of leasing services, to reveal the main trends of its development in conditions of financial instability. In this regard, a comparative analysis of the global leasing industry on continents in general and, in particular, on European countries, as well

as on such key indicators as the ratio of the volume of leasing transactions concluded during the year to GDP, the share of leasing services in investments in fixed assets, The cost of new leasing contracts and their segmentation, the dynamics and country structure of the portfolio of leasing transactions. Design/methodology: System approach, comparative analysis, statistical grouping, logical generalization, dynamic comparison, selective observation, detailing, scientific abstraction. Findings: Revealed the current trends of the world and European leasing industry. Research limitations: Insufficiency and asymmetry of the information base of the global leasing market, volatility of the global financial environment. Practical implications: The opportunity to take into account the revealed trends in the development of the global leasing business in national economies, in particular, in Azerbaijan. Originality/value: For the first time in the domestic economic literature, a comprehensive review of trends in the development of the global leasing market in the face of global financial imbalances has been carried out.

Keywords: leasing business, leasing market, leasing transactions, leasing contracts, leasing portfolio.

СОВРЕМЕННЫЕ ТРЕНДЫ МИРОВОЙ ЛИЗИНГОВОЙ ИНДУСТРИИ

Резюме

Основная цель исследования: На основе рассмотрения современного состояния мирового рынка лизинговых услуг выявить основные тенденции его развития в условиях финансовой нестабильности. В этой связи проводится сравнительный анализ глобальной лизинговой индустрии по континентам в целом и, в частности, по европейским странам, а также по таким ключевым показателям как соотношение объема заключенных в течение года лизинговых сделок к ВВП, удельный вес лизинговых услуг в инвестициях в основной капитал, стоимость новых лизинговых контрактов и их видовое сегментирование, динамика и страновая структура портфеля лизинговых сделок. Методология исследования: системный подход, сравнительный анализ, статистическая группировка, логическое обобщение, динамическое сопоставление, выборочное наблюдение, детализация, научная абстракция. Выводы исследования: выявлены современные тренды мировой и европейской лизинговой индустрии. Ограничения исследования: недостаточность и ассиметричность информационной базы мирового лизингового рынка, волатильность глобальной финансовой среды. Практическая значимость исследования: возможность учитывать выявленные тренды развития мирового лизингового бизнеса в национальных эконо-

миках, в частности, в Азербайджане. Оригинальность и научная новизна исследования: впервые в отечественной экономической литературе осуществлено комплексное рассмотрение тенденций развития мирового лизингового рынка в условиях глобальных финансовых дисбалансов.

Ключевые слова: лизинговый бизнес, рынок лизинга, лизинговые сделки, лизинговые контракты, лизинговый портфель.

Son onilliklər ərzində lizinq biznesi bütün dünyada geniş yayılmışdır. O, müasir iqtisadiyyata kapital qoyuluşlarının maliyyələşdirilməsinin effektiv və yayılmış forması, iqtisadiyyatın bütün sahələrində texniki yenidən silahlanmanın vacib alətidir. Beynəlxalq təcrübə göstərir ki, lizinq təkcə yeni texnologiyaların tətbiqi, istehsal potensialının keyfiyyətcə təkmilləşdirilməsi və artırılması üçün mühüm kanal olmayıb, həm də sahibkarlığın maliyyə dəstəklənməsi və təşviqi, sosial gərginliyin azaldılması, əlavə iş yerlərinin yaradılması, investisiyaların cəlb edilməsi və s. üçün təsirli vasitədir. Bir çox ölkələrdə texniki bazanı yenilətmək üçün ümumi qəbul olunmuş katalizator olmuş, innovasiya fəaliyyətinin maliyyələşdirilməsinin əsas metodu olmuşdur. Ümumiyyətlə, lizinq əməliyyatlarının genişlənməsi və şaxələnməsi ölkənin bütün iqtisadiyyatının, o cümlədən də istehsalda iqtisadi münasibətlərin indikatoru kimi çıxış edir.

Lizinq bazarı dünya maliyyə sisteminin ən perspektivli seqmentlərindən biridir. Onun sürətli inkişafı XX əsrin ikinci yarısından başlamış və buna səbəb bu fəaliyyət növünün səciyyəvi xüsusiyyətləri olmuşdur. Birincisi, lizinq sahibkarlıq və maliyyə fəaliyyətinin bir-biri ilə özünəməxsus birləşməsi olaraq, dünyada olan müasir iqtisadi vəziyyətdə inkişaf üçün böyük şanslara obyektiv olaraq malikdir, çünki bu zaman maliyyə xidmətlərinin təqdim edilməsi sahəsində ixtisaslaşmanın getdikcə daha da dərinləşməsi baş verir, kredit resursları yığımı isə son dərəcə qeyri-bərabər gedir.

İkincisi, lizinqin çiçəklənməsi onunla əlaqədardır ki, o, həm inkişaf etmiş (ABŞ, Qərbi Avropa ölkələri, Yaponiya), həm də inkişaf edən Asiya, Afrika və Latın Amerikası ölkələrində, müxtəlif səbəblərdən olsa da, yüksəlməkdə olan kiçik və orta biznesin unikal inkişaf alətidir. Məhz belə növ sahibkarlıq fəaliyyəti strukturları üçün lizinq istehsal fəaliyyətini başlamağa və ya genişləndirməyə imkan verən çox vaxt ən sərfəli yoldur. Üçüncüsü, lizinq onun bütün iştirakçılarının: lizinqverənlər, lizinqalanlar, avadanlıq istehsalçıları, banklar, sığorta şirkətləri və s. istifadə edə biləcəyi müxtəlif növ (maliyyə, vergi, investisiya) imtiyazları birləşdirməyə və birbiri ilə əlaqələndirməyə imkan verir.

Ümumiyyətlə lizinq müvafiq ölkələrin makroiqtisadi maraqlarına uyğun olur ki, bu da özünü onların iqtisadi siyasətində, o cümlədən də onun inkişafına kömək edən

lizinq qanunvericiliyinin işlənib hazırlanması, müxtəlif növ investisiya güzəştləri, imtiyazları və əlverişli rejimlərin tətbiqi yolu ilə onun fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında öz ifadəsini tapır. Müasir şəraitdə lizinq maliyyə kapitalı sahibləri və təsərrüfat subyektlərinin maraqlarını birləşdirən sadə və effektiv maliyyə sxemi, bank strukturlarının iqtisadiyyatın real sektoru ilə qarşılıqlı münasibətinin uğurlu formasıdır. Bu, həm istehsalın inkişafı üçün kifayət qədər kapitalı olmayan yeni yaradılan şirkətlər, həm də borc öhdəlikləri olan və öz maliyyə göstəricilərini korlamaq istəməyən iri şirkətlər üçün əlverişlidir.

Lizinqin dünya iqtisadiyyatında rolunun əhəmiyyətini müəyyən etmək üçün, fikrimizcə, lizinq bazarının əsas göstəricilərinin həm qlobal miqyasda, həm də dünyanın ayrı-ayrı regionları üzrə təhlil etmək lazımdır.

Cədvəl 1-də 1990-2014-cü illər üçün, bütövlükdə dünya və ayrı-ayrı regionlar üzrə lizinq bazarı həcminin dinamikası göstərilir.

Cədvəl 1 Dünyanın ayrı-ayrı regionları üzrə lizinq bazarının həcmi (1990-2014-cü illər), mlrd ABŞ dolları [1]

Qitə	1990	1995	2000	2005	2010	2011	2012	2013	2014	2014-1990
Avropa	117,9	108,0	131,0	239,6	233,0	302,7	314,0	333,6	327,8	2,8 dəfə
Şimali Amerika	125,4	169,3	272,4	236,7	213,3	292,5	336,4	335,1	368,4	2,9 dəfə
Asiya	77,5	104,8	78,3	74,0	105,6	153,4	180,2	177,3	195,0	2,5 dəfə
Cənubi Amerika	1,9	15,1	8,1	13,9	25,4	27,5	13,2	18,0	10,7	5,6 dəfə
Avstraliya və Yeni Zelandiya	5,1	6,2	5,3	8,2	10,8	12,0	16,1	12,5	35,6	7,0 dəfə
Afrika	3,8	5,7	3,9	9,6	6,4	8,6	8,2	7,5	6,8	1,8 dəfə
Cəmi	331,6	409,1	499,0	582,0	594,5	796,7	868,1	884,0	944,3	2,9 dəfə

Cədvəl 1-də göstərildiyi kimi, 1990-cı illə müqayisədə 2014-ci ildə, dünya lizinq bazarının həcmi demək olar ki, üç dəfə artmışdır. Ən yüksək göstəricilər Avstraliya və Yeni Zelandiya (7,0 dəfə) və Cənubi Amerika üzrə (5,6 dəfə) müşahidə olunub, baxmayaraq ki, lizinq xidmətlərinin əsas bazarı Şimali Amerikada, Avropa və Asiyada yerləşir. 2014-1991 illər dövrü üçün dünya lizinq bazarının illik artım dinamikasının təhlili onun ən yüksək artım dərəcələrinin 2011-ci və 2007-ci ildə, müvafiq olaraq 34,0% və 23,1%, olduğunu göstərmişdir (Şəkil 1).

Şək. 1. Dünya lizinq bazarı həcminin artım dinamikası, %-lə [1]

Dünya lizinq bazarı dinamikası üzrə göstəricilər (Şəkil 1) təsdiq edir ki, o, eləcə də ümumiyyətlə investisiya bazarı, iqtisadi konyunktura qarşı yüksək dərəcədə həssaslıq nümayiş etdirir [2]. Ümumiyyətlə onun inkişafı qeyri-bərabər getmiş və istehsalın texniki yenilənməsi mərhələləri ilə, həmçinin iqtisadiyyatda müəyyən tsikllik xarakter daşıyan böhran halları ilə sıx korrelyasiya olunmuşdur. Belə ki, cari dünya maliyyə böhranı lizinq xidmətləri bazarını, eləcə də maliyyə bazarının digər seqmentlərini ciddi surətdə sarsıtmışdır. Beynəlxalq statistikaya görə, 2009-cu ildə, 2007-ci illə müqayisədə, dünya lizinq bazarının həcmi bu dövr ərzində 780,4 milyard dollardan 557,3 milyard dollara qədər, yəni 1,4 dəfə azalmışdır. O cümlədən Avropada bu göstərici 1,8 dəfədən çox olmuş, Afrika üzrə isə 1,7 dəfəni ötmüşdür [1]. Bu zaman maksimum azalma 2009-cu ildə (-23,9%) müşahidə olunmuşdur. Bununla belə, qlobal iqtisadi böhrandan sonra, artıq dörd il ardıcıl olaraq, lizinq sahəsi yeni biznesin həcmində artım nümayiş etdirir və ekspertlər, ehtiyatla olsa da, nikbin perspektivlərdən danışırlar. Dünya Lizinq İllik hesabatının məlumatlarına görə, 2014-cü ildə yeni lizinq biznesinin həcmi 944 mlrd doll. ötmüşdür. Bu zaman 6,8%-ə qədər, yaxud da 60,3 mlrd doll. artıma nail olunmuşdur. Bir il bundan öncə artım tempinin cəmi 1,8% olduğunu nəzərə alsaq, bu, müsbət trend kimi dəyərləndirilə bilər [2].

Lakin lizinq əməliyyatları dinamikasının ayrı-ayrı regionlar üzrə müqayisəsi kifayət qədər korrekt deyil. Bu cür müqayisə ücün məhdudiyyət onların iqtisadiyyatlarının inkişaf səviyyəsinin kifayət qədər fərqli olduğuna görə ortaya çıxır. Belə hallarda, regionların hər birinin ümumi dünya həcmindəki payını təhlil etmək daha məqsə-

də müvafiqdir. Bu hesablamaların 1990-2014-cü illər üzrə məlumatları Cədvəl 2-də göstərilmişdir.

Cədvəl 2. Dünya lizinq bazarının məcmu həcmində regionun xüsusi çəkisi (1990-2014-cü illər), mlrd ABŞ doll. [3, səh. 12]

Qitə	1990	1995	2000	2005	2007	2010	2011	2012	2013	2014
Avropa	35,6	26,4	26,2	41,2	51,4	39,2	38,0	36,2	37,7	34,7
Şimali Amerika	37,8	41,4	54,6	40,7	30,5	35,9	36,7	38,7	37,9	39,0
Asiya	23,4	25,6	15,7	12,7	10,9	17,7	19,3	20,8	20,1	20,7
Cənubi Amerika	0,6	3,7	1,6	2,4	5,3	4,3	3,4	1,5	2,0	1,1
Avstraliya və Yeni Zelandiya	1,5	1,5	1,1	1,4	0.5	1,8	1,5	1,9	1,4	3,8
Afrika	1,1	1,4	0,8	1,6	1,4	1,1	1,1	0,9	0,9	0,7
Cəmi	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0

Cədvəl 2-də təqdim olunan göstəricilər təsdiq edir ki, son üç il ərzində qlobal lizinq bazarında aparıcı mövqeyə bir daha Şimali Amerika sahib olmuşdur ki, onun da payına 2014-ci ildə lizinq bazarının ümumi həcminin 39,0% düşmüşdür. ABŞ, Kanada və Meksikanın daxil olduğu bu region dünyanın ən böyük bazarı qismində öz mövqelərini gücləndirmişdir. Qeyd edək ki, o, 1990-2004 illər ərzində lider olmuş, lakin artıq 2005-ci ildə birincilik Avropaya keçmişdir və o, 2012-ci ilə qədər Şimali Amerikadan qabaqda olmuş, özü də bu üstünlüyün amplitudası kifayət qədər geniş hədlərdə – 2005-ci ildə 0,5%-dən 2007-ci ildə 20,9%-ə qədər dəyişmişdir. Hazırda yeni lizinq biznesinin dünya həcminin 34,7% Avropanın payına düşür, 13 Avropa ölkəsi isə yeni lizinq biznesi üzrə ən uğurlu iyirmi ölkə sıyahısındadır. Böyük Britaniya və Almaniya regionun lizinq maliyyələşdirilməsi sahəsində ən üstün oyunçusu olaraq qalır. Bu ölkələr, Fransa ilə birlikdə, Avropa lizinq bazarının ümumi həcminin 65%-ni təmin edir. 2014-cü ildə Böyük Britaniya satış həcminə görə dünyada üçüncü yeri tutmuşdu. Lizinqin Alman sektoru dünyada ən inkişaf etmiş lizinq sektorudur, belə ki, 2014-cü ildə o, 8,4% böyümüş və Avropada ikinci yeri, dünyada isə dördüncü yeri tutmuşdu. Fransa 2013-cü ildə mənfi artımdan 3,93%-li müsbət artıma çıxmış, bununla da lizinq sahəsində dünya reytinqində yeddinci yerə qalxmışdır [5]. Bütövlükdə, dünyada lizinq əməliyyatlarının ən böyük payı bu iki regiona məxsus olmuşdur [2014 –cü ildə onların ümumi həcminin demək olar ki, ¾ hissəsi] (Asiya ilə birlikdə onlar 2014-cü ildə dünya lizinq bazarının 94% -ni əhatə etmişdir.).

Həmçinin bu strukturda Asiyanın stabilləşmiş mövgeyini (20, 0%-dən bir qədər yüksək səviyyədə), Avstraliya/Yeni Zelandiyanın kəskin artmış xüsusi çəkisini (2007-ci ildən 0,5%-dən 2014-cü ildə 3,8%-ə qədər) və Cənubi Amerika üzrə bu göstəricinin ciddi aşağı düşdüyünü (2008-ci ildə 7,4%-dən 2014-cü ildə 1,1%-ə qədər) qeyd etməliyik.

Asiyada yeni lizinq biznesinin həcmi 2014-cü ildə 10% artmış, nəticədə onun dünya bazarında payı, əvvəlki illə müqayisədə, 20,1%-dən 20,7%-ə qədər artmışdır. 2014-cü ildə 31% artım təmin edərək, Çin öz mövqelərini, ölçülərinə görə dünyada ikinci bazar kimi, möhkəmlətmişdir (114,85 mlrd doll.). Yapon lizinq bazarında isə əksinə, üç il sürən artımdan sonra (2011-2013 illər) və 2013-cü ildə qəbul olunmuş "Yaponiyanın dirçəliş strategiyası"-na uyğun olaraq, lizinqin yüksək texnologiyaların yeridilməsi aləti kimi nəzərdən keçirilməsinə başlanmasına baxmayaraq, nəzərəçarpacaq enmə qeyd olunmuş-dur (16,9%). Lizinq sahəsində yüksək artım templəri Cənubi Koreya (2014-cü ildə 14,8%) və Tayvan (2010-cu ildə 37,7% və 2014-cü ildə 15,03%) üçün səciyyəvi olmuşdur. Latın Amerikasında beş ölkə (Kolumbiya, Braziliya, Çili, Argentina və Peru), Afrikada dörd ölkə (Cənubi Afrika, Mərakeş, Misir və Nigeriya), həmçinin də Avstraliya və Yeni Zelandiya 2014-cü il ərsində ən yaxşı olan 50 ölkənin qalan hissəsini təşkil etmiş-dir. Avstraliya 35,27 mlrd doll. həcmində olan yeni lizinq biznesi ilə dünya reytinqində 12-ci yerdən 6-cı yerə gəlmişdir. 2014-cü ildə həcm göstəricilərinin düşməsinə baxmaya-raq, bütövlükdə Latın Amerikasının lizinq sahəsi dayanıqlı olmuş və innovasiyalara, yeni normativ şərtlərə və biznes mühitinə uyğunlaşması sayəsində böyümüşdür. Afrikanın lizinq sahəsi hələ başlanğıc dövründə olmuşdur: dünya lizinq bazarının 0,7% onun payına düşmüşdür. Bu regionun lizinqin inkişafına görə aparıcı dövləti olan Cənubi Afrika 50 ölkənin olduğu reytinqində həcmin bir qədər dəyişməsi ilə (2014 ildə 0,01%) 24-cü yerdə olmuşdur [3, səh. 7-8].

2013-2014-cü illərə görə dünya lizinq bazarında dəyişmə dinamikası cədvəl 3-də göstərilmişdir. Göründüyü kimi, müsbət dəyişikliklər Şimali Amerikada, Asiyada və xüsusilə Avstraliya/Yeni Zelandiyada müşahidə olunmuşdur, qalan digər üç region üzrə bazardakı payının da artım göstəricilərinin pisləşməsi göz qabağındadır.

Cədvəl 3. 2013-2014-cü illər ərzində dünya lizinq bazarında dəyişikliklərin dinamikası [3, səh. 5]

Qitə	2013-2014-cü illər.	
	Artım (%)	Bazar dakı payın dəyişməsi (% bədləri)
Avropa	-1,7	-3,0
Şimali Amerika	9,9	1,1
Asiya	10,0	0,6
Cənubi Amerika	-40,5	-0,9
Avstraliya/Yeni Zelandiya	185,1	2,4
Afrika	-10,0	-0,1

Dünya lizinq bazarının ümumi qiymətləndirilməsi, həmçinin ayrı-ayrı ölkələrdə lizinqin inkişaf səviyyəsinin müəyyən edilməsi üçün onun bu ölkələrə nüfuz etmə-sini əks etdirən göstəricinin vəziyyətini nəzərdən keçirmək vacibdir. Lizinqin ölkə iqtisadiyyatına sirayət etməsinin dərinliyini xarakterizə edən göstəricilər arasında ən vacibi aşağıdakılardır:

1) İl ərzində bağlanmış lizinq sövdələşmələrinin həcminin ÜDM-ə nisbəti. Bu indikator 2011-2014 illərdə Estoniyada (5,55%), İsveçdə (2,83), Latviyada (2,76), Sloveniyada (2,58), Danimarkada (2,39), Finlandiyada (2,15), Böyük Britaniyada (2,14%) ən yüksək həddə (orta illik hesabla) çatmışdır (Cədvəl 4).

Cədvəl 4. İl ərzində bağlanmış lizinq sövdələşmələrinin həcminin ÜDM-ə nisbətinin xüsusi çəkisi göstəricisi, 2011-2014-cü illər üzrə orta hesabla (%) [1]

Yüksək inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr	Orta hesabla 2011-2014 illər üzrə	Keçid iqtisadiyyatlı ölkələr	Orta hesabla 2011-2014 illər üzrə
İsveç	2,83	Estoniya	5,55
Danimarka	2,39	Latviya	2,76
Finlandiya	2,15	Sloveniya	2,58
Böyük Britaniya	2,14	Polşa	2,01
İsveçrə	2,01	Slovakiya	1,96
Almaniya	1,99	Çexiya	1,71
Avstriya	1,85	Bolqarıstan	1,68
ABŞ	1,78	Macarıstan	1,34
Norveç	1,72	Rusiya	1,00

2) Lizinqin əsas kapitala olan məcmu investisiyalardakı payı. Bu indikator vasitəsilə ölkədə lizinqin yetkinliyi və iqtisadi fəallığını, onun dövlət tərəfindən dəstəklənməsi dərəcəsi və iqtisadi artım templərinə təsiri, maliyyələşdirmənin digər formalarına nisbətən lizinqin səmərəliliyi dərəcəsi, həmçinin də bu sahənin investisiya funksiyasının dövlət maliyyələşdirilməsi mexanizmindəki rolunu müəyyən etmək və təhlil etmək olar [4, səh. 664]. İkinci göstəriciyə görə, aparıcı mövqelərdə Avstraliya (33,75%), Kanada (26,15%), Böyük Britaniya (25,8%), İsveç (22,48%), ABŞ (21,75%) yerləşmişdir. Bu istiqamətdə ayrı-ayrı ölkələr üzrə 2011-2014 illər ərzində ortaya çıxan mənzərəni 5 və 6-cı cədvəllərdə görmək olar.

Cədvəl 5. Ayrı-ayrı ölkələr üzrə əsas kapitala investisiyalarda lizinq xidmətlərinin xüsusi çəkisi, % [3, səh. 12]

Ölkələr	1990	1995	2000	2005	2009	2010	2011	2012	2013	2014
ABŞ	32,0	28,1	31,7	26,9	17,1	17,1	21,0	22,0	22,0	22,0
Kanada	9,3	15,9	22,5	23,9	14,0	15,1	20,8	20,8	32,0	31,0
Avstraliya	25,8	22,3	20,0	20,0	10,0	12,0	27,5	27,5	40,0	40,0
İsveç	15,4	27,0	12,9	11,8	17,5	19,3	18,2	24,6	24,4	22,7
Böyük Britaniya	20,3	17,9	13,8	14,5	17,6	18,5	19,8	23,8	31,0	28,6
Almaniya	10,7	11,5	14,8	18,6	13,9	14,3	14,7	5,8	16,6	16,4
İtaliya	21,3	16,8	12,3	15,1	10,0	13,1	12,3	10,0	9,4	11,7
Fransa	17,3	15,2	9,2	11,7	3,1	10,5	11,1	12,8	12,5	13,1
Koreya	16,1	30,0	2,4	7,7	4,4	4,8	8,7	8,5	8,1	9,8
Yaponiya	9,0	9,4	9,1	9,3	7,0	6,3	6,8	7,2	9,8	8,9

Cədvəl 6. Ayrı-ayrı ölkələr üzrə əsas kapitala investisiyalarda lizinq xidmətlərinin xüsusi çəkisinin orta hesabla 2011-2014-cü illər üzrə göstəriciləri, (%) [3. Səh. 12]

Ölkələr	2011-2014 illər üzrə orta hesabla
ABŞ	21,75
Kanada	26,15
Avstraliya	33,75
İsveç	22,48
Böyük Britaniya	25,80
Almaniya	13,38
İtaliya	10,85
Fransa	12,38
Koreya	8,78
Yaponiya	8,18

Yuxarıda göstərilən iki cədvəlin göstəricilərini təhlil edərkən, o faktı vurğulamaq lazımdır ki, 2014-cü ildəki göstəricilər bütün ölkələrdə son dörd il ərzində olan göstəricilərin orta qiymətindən çox olmuşdur. Bu, onu sübüt edir ki, bu ölkələr üçün 2014-cü il əvvəlki illərə nisbətən investisiya baxımından, daha əlverişli olmuşdur. Ümumiyyətlə, nəzərdən keçirilən bütün müddət ərzində lizinq xidmətlərinin əsas kapitala investisiyalarının xüsusi çəkisinin orta qiymətinə görə Avstraliya (33,75%) lider mövqedədir. Ondan başqa, Kanada (26,15%) və Böyük Britaniya (25,80%) ilk üçlükdədir. Bütövlükdə, dünya lizinq bazarının və bu sahənin qitələr üzrə inkişafının əsas tendensiyalarını müəyyən etdikdən sonra onun Avropa seqmentinin xüsusiyyətlərinin təyin edilməsinə keçməyi məqsədəuyğun sayırıq.

Avropa Lizinq Şirkətləri Assosiasiyaları Federasiyası (Leaseurope) 1972-ci ildə təsis edilmişdir. 2006-cı ilin aprelindən "Leaseurope" Avropada həm lizinq, həm də avtomobil icarə şirkətləri üçün baş orqan olub, Avropanın 33 dövlətindən olan 46 iştirakçı-assosiasiyanı birləşdirir ["Leaseurope"-də təmsil olunmuş ölkələr: Avstriya, Belçika, Bolqarıstan, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İrlandiya, İtaliya, Latviya, Litva, Lüksenburq, Malta, Mərakeş, Niderland, Njrveç, Polşa, Portuqaliya, Rusiya, Serbiya, Slovakiya, Sloveniya, Birləşmiş Krallıq, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç və Tunis.]. Onların təklif etdiyi məhsul spektri bütün aktiv növlərinin maliyyədən tutmuş əməliyyat icarəsinə qədər dəyişir (avadanlıq, daşınmaz əmlak, avtomobillər). Qiymətləndirmələrə görə, 2015-ci ildə "Leaseurope" Avropa lizinq bazarının 93%-dən çoxunu əhatə etmişdir [5]. 7 və 8 cədvəldə 2008-2015-ci illərdə, bütövlükdə "Leaseurope" və

onun aparıcı iştirakçı ölkələri üzrə bağlanmış yeni lizinq kontraktları həcminin mütləq və nisbi göstəriciləri əks olunmuşdur.

Cədvəl 7. "Leaseurope" üzvlərinin 2008-2015-ci illərdə bağladıqları yeni lizinq kontraktlarının dəyəri, mlrd avro [6, səh. 3]

İllər üzrə yeni lizinq kontraktlarının həcmi	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**
"Leaseurope" iştirakçıları üzrə, cəmi	309,2	209,9	237,5	255,2	254,2	252,7	282,9	314,9
İllik artım dinamikası (%)	*8,8*	*-32,3*	*13,2*	*7,5*	*-0,4*	*-0,6*	*12,0*	*11,3*
O cümlədən:								
Böyük Britaniya	50,8	34,6	35,9	38,2	45,1	49,6	60,7	76,9
Almaniya	54,7	41,3	43,8	44,8	47,5	45,8	49,8	53,2
Fransa	41,2	33,4	36,4	39,6	39,0	37,5	40,2	43,6
İtaliya	41,8	28,3	29,8	27,4	18,5	16,2	18,0	19,5
İsveç	10,6	7,7	9,7	10,3	12,3	12,1	12,3	13,4
Niderland	11,8	8,0	7,1	8,5	9,5	8,8	8,8	10,9
İspaniya	17,5	8,8	11,0	8,8	7,1	6,9	9,2	10,9

Cədvəl 8. "Leaseurope" üzvlərinin 2008-2015-ci illərdə bağladıqları yeni lizinq kontraktlarının dəyərinin ölkələr üzrə strukturu, % [6, səh. 3]

İllər üzrə yeni lizinq kontraktlarının həcmi	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**
"Leaseurope" iştirakçıları üzrə, cəmi	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0
O cümlədən:								
Böyük Britaniya	16,4	16,5	15,1	15,0	17,7	19,6	21,5	24,4
Almaniya	17,7	19,7	18,4	17,6	18,7	18,1	17,6	16,9
Fransa	13,3	15,9	15,3	15,5	15,3	14,8	14,2	13,8
İtaliya	13,5	13,5	12,6	10,7	7,3	6,4	6,4	6,2
İsveç	3,4	3,7	4,1	4,0	4,8	4,8	4,4	4,3
Niderland	3,8	3,8	3,0	3,3	3,7	3,5	3,1	3,5
İspaniya	5,7	4,2	4,6	3,5	2,8	2,7	3,3	3,5

Cədvəl 7-də göstərilmiş göstəricilərə görə, yeni lizinq kontraktlarının məcmu həcmi təkcə 2015-ci ildə 2008-ci ilin müvafiq göstəricisini üstələmişdir (1,8%). Bu dövrün bütün qalan illərində artım olsa da (2009-cu il istisna olmaqla, çünki bu

zaman bu göstərici demək olar ki, ⅓-ə düşmüşdü), 2008-ci ilin səviyyəsi əlçatmaz qalmışdır. Baxmayaraq ki, yuxarıdakı cədvəllərdə göstərilən ölkələr Avropa lizinq bazarının liderləridir (belə ki, nəzərdən keçirilən dövr ərzində "Leaseurope" iştirakçılarının dördünün: Böyük Britaniyanın, Almaniyanın, Fransanın və İtaliyanın yeni lizinq kontraktları bazarında xüsusi çəkisi 58,8-65,6% həddlərində dəyişmişdir), göstərilən illər ərzində burada həm artım, həm də enmə müşahidə olunmuşdur. Məsələn, Böyük Britaniyada 2010-cu ildən başlayaraq, lizinq üzrə yeni bağlanmış kontraktlarının yekun dəyər həcmlərinin durmadan artması müşahidə olunmuşdur. Almaniyada, əksinə, 2010-2011-ci və 2013-2015-ci illərdə adıçəkilən göstərici enirdi. Analoji tendensiya Fransa (2012-2013-cü illər) və İtaliya (2011-2013cü illər) üçün də səciyyəvi olmuşdu. Cədvəl 8-in göstəricilərindən göründüyü kimi, 2008-2012-ci illərdə adıçəkilən bazarda başlıca oyunçu Almaniya olmuş, sonrakı illərdə isə bu rol Böyük Britaniyaya keçmişdir: 2015-ci ildə onların payı müvafiq olaraq 16,9% və 24,4% təşkil etmişdir [6, səh.. 3].

Lizinq kontraktlarının növlər üzrə seqmentasiyasının təhlili də xüsusi maraq doğurur (cədvəl 9).

Cədvəl 9. 2008-2015-ci illərdə "Leaseurope" iştirakçılarının yeni lizinq kontraktlarının növlər üzrə seqmentasiyası, % [6, səh. 7-8]

Lizinqə ötürülmüş aktivlərin növləri	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**
"Leaseurope" iştirakçıları üzrə, cəmi	100	100	100	100	100	100	100	100
O cümlədən:								
Avadanlıq	88,5	87,8	87,4	90,4	94,5	94,4	93,9	94,8
İllik artım dinamikası	*1,6*	*-32,5*	*3,1*	*11,2*	*0,6*	*1,9*	*9,5*	*10,3*
Daşınmaz əmlak	11,5	12,2	12,6	9,6	6,5	5,6	6,1	5,2
İllik artım dinamikası	*-21,6*	*-31,0*	*15,3*	*-18,6*	*-32,3*	*-17,4*	*9,9*	*-4,2*

Cədvəl 9-dan göründüyü kimi, obyektləri daşınmaz əmlak olan yeni kontraktların xüsusi çəkisi 2008-ci ildə 11,5%-dən 2015-ci ildə 5,2% -ə qədər azalmışdır. Bu zaman göstərilən dövr ərzində azalma dinamikası 32,3%-dən (2012-ci il) 4,2%-ə (2015-ci il) qədər dəyişmişdir. Eyni zamanda predmetləri avadanlıqlar ["Leaseurope" metodikasına görə, avadanlıqlar qrupuna bütün hərəkət edən nəqliyyat vasitələri, həmçinin müxtəlif növ istehsal və qeyri-istehsal avadanlığı daxildir.] olan kontraktların sayı, son altı il ərzində müsbət artım dinamikası ilə səciyyələnmişdir [7, səh. 11].

Bütövlükdə "Leaseurope" üzvləri və bu Avropa Federasiyasının aparıcı üzvlərinin 2008-2015-ci illər üzrə lizinq əməliyyatları portfelinin dinamikasının (cəd. 10) və onun ölkələr üzrə strukturunun müəyyən edilməsi (cəd. 11) də həmçinin mühüm sayılır.

Cədvəl 10. 2008-2015-ci illərdə "Leaseurope" üzvlərinin lizinq portfeli, mlrd avro [6, səh.7-8]

İlin sonuna lizinq əməliyyatları portfeli	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**
"Leaseurope" iştirakçıları üzrə, cəmi	714,9	654,3	676,0	700,1	729,4	727,2	742,0	755,3
İllik artım dinamikası (%)	*-0,3*	*-8,5*	*3,3*	*3,6*	*4,2*	*-0,3*	*2,0*	*1,8*
O cümlədən:								
Böyük Britaniya	109,5	96,1	101,0	99,4	103,4	103,0	118,4	145,1
Almaniya	144,0	142,4	133,5	133,4	135,1	135,6	132,5	132,7
Fransa	83,6	82,6	82,9	84,7	85,5	84,7	85,1	87,6
İtaliya	136,9	128,3	127,8	118,4	109,0	104,2	99,5	95,4
İsveç	23,2	21,1	24,9	26,5	30,2	30,4	29,3	29,8
Niderland	11,1	10,0	9,0	8,7	25,1	21,7	25,1	26,4
İspaniya	52,1	46,4	42,5	37.1	27,4	26,6	27,5	27,7

Cədvəl 11. 2008-2015-ci illərdə "Leaseurope" üzvlərinin lizinq portfelinin ölkələr üzrə strukturu, % [6, səh. 7-8]

Yeni lizinq kontraktlarının illər üzrə həcmi	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**
"Leaseurope" iştirakçıları üzrə, cəmi	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0
O cümlədən:								
Böyük Britaniya	15,3	14,7	14,9	14,2	14,2	14,2	16,0	19,2
Almaniya	20,1	21,8	19,8	19,1	18,5	18,7	17,9	17,6
Fransa	11,7	12,6	12,3	12,1	11,7	11,7	11,5	11,6
İtaliya	19,1	19,6	18,9	16,9	14,9	14,3	13,4	12,6
İsveç	3,3	3,2	3,7	3,8	4,1	4,2	4,0	4,0
Niderland	1,6	1,5	1,3	1,2	3,4	3,0	3,4	3,5
İspaniya	7,3	7,1	6,3	5,3	3,8	3,7	3,7	3,7

Burada əldə edilən nəticələr göstərir ki, bu portfelin həcminin, 2010-cu ildən başlayaraq, sabit artma tendensiyası vardır (2013-cü ildə əhəmiyyətsiz azalma istisna olmaqla). Bütövlükdə nəzərdən keçirilən dövr ərzində bu artım 5,7%, o cümlədən də 2009-cu ildən - 15,4% təşkil etmişdir. Bu göstərici üzrə, 2015-ci ilə qədər lider Almaniya olmuşdur, lakin son ildə Böyük Britaniya onu ötüb keçmişdir (müvafiq olaraq 132,7 mlrd avro və 145,1 mlrd avro). Hazırda 61,0%-dən bir qədər artıq Avropa ölkələrinin ilk dördlüyünün payına düşür, o cümlədən Böyük Britaniyanın – 19,2%, Almaniyanın– 17,6%, Fransanın– 11,6%, İtaliyanın– 12,6%.

Dünya və Avropa lizinq bazarının müasir vəziyyətinin və inkişaf tendensiyalarının aparılmış təhlilinin məlumatlarının xülasəsi aşağıdakı nəticələrə gətirib çıxarır:

1. Lizinq bazarı dünya maliyyə sisteminin ən perspektivli seqmentlərindən

biridir. Lizinq müasir iqtisadiyyatda kapital qoyuluşu ən cəlbedici, effektiv və tələbat olan forması, xalq təsərrüfatının bütün sahələrində texniki yenidən silahlanmanın vacib elementi, sahibkarlığa maliyyə dəstəyinin göstərilməsi və həvəsləndirilməsinin təsirli vasitəsidır.

2. Dünya lizinq bazarı iqtisadi konyunktura münasibətdə yüksək həssaslıq göstərir. Bütövlükdə onun inkişafı qeyri-bərabər olmuşdur, istehsalın texniki yenilənməsinin hər mərhələləri ilə, həmçinin də iqtisadiyyatda müəyyən tsikllərlə baş verən böhran halları ilə sıx korrelyasiya olunmuşdur.

3. Son üç il ərzində dünya lizinq bazarında lider mövqeyinə Avropanı qabaqlayaraq, yenə də Şimali Amerika çıxmışdır ki, onun da payına 2014-cu ildə ümumi həcminin 39,0% düşmüşdür. Ümumiyyətlə dünyadakı lizinq sövdələşmələrinin hakim payı bu iki regionda reallaşmışdır (2014-cü ildə onların ümumi həcminin demək olar ki, ¾). Dünya lizinq bazarının məcmu həcmi strukturunda Asiyanın stabilləşmiş vəziyyətini (20,0%-dən bir az çox səviyyədə), Avstraliya/Yeni Zelandiyanın kəskin artmış xüsusi çəkisini (2007-ci ildə 0,5%-dən 2014-cü ildə 3,8%-ə qədər) və bu göstəricinin Cənubi Amerika üzrə xeyli düşməsini (2008-ci ildə 7,4%-dən 2014-cü ildə 1,1%-ə qədər) qeyd etmək lazımdır.

4. 2011-2014-cü illərdə baş tutmuş lizinq sövdələşmələrinin həcminin ÜDM-ə nisbəti göstəricisi (orta illik hesabla) ən yüksək Estoniyada (5,55%), lizinqin əsas kapitala məcmu investisiyada payı isə Avstraliyada (33,75%) olmuşdur.

5. Avropa lizinq bazarının 2008-2015-ci illər üzrə təhlili təsdiq edir ki, yeni lizinq kontraktlarının məcmu həcmi təkcə son ildə 2008-ci ilin müvafiq göstəricisindən çox (1,8%) olmuşdur. Bu dövrün bütün qalan illərində, onun artımı müşahidə olunsa da (2009-cu il istisna olmaqla, çünki bu zaman bu göstərici demək olar ki, ⅓ dəfə azalmışdır), 2008-ci ilin səviyyəsinə çıxmaq mümkün olmamışdır.

6. Böyük Britaniya, Almaniya, Fransa və İtaliya Avropanın lizinq sahəsində əsas oyunçulardır. Nəzərdən keçirilən dövrdə onların yeni lizinq kontraktları bazarında payı 58,8-65,6% arasında dəyişmişdir. Əgər 2008-2012-ci illərdə bu bazarın lideri Almaniya olmuşdusa, sonrakı illərdə bu rol Böyük Britaniyaya keçmişdir. Yalnız Böyük Britaniyada 2010-cu ildən başlayaraq, lizinq üzrə bağlanan yeni kontraktların yekun dəyər həcmlərinin durmadan artması, qalan üç ölkədə isə bu göstəricinin ayrı-ayrı dövrlərdə azalması qeyd olunmuşdur.

7. Avropada 2008-2015-ci illər ərzində obyekti daşınmaz əmlak olan yeni kontraktların xüsusi çəkisi iki dəfədən də çox dəyişmiş, obyekti olaraq avadanlıq çıxış edən kontraktlar isə son altı il ərzində müsbət artım tempi ilə səciyyələndirilmişdir. 2010-cu ildən başlayaraq, lizinq portfelinin həcminin artmağa stabil tendensiyası müşahidə olunur. Bu göstərici üzrə 2015-ci ilə qədər Almaniya olmuş, son ildə isə onu Böyük Britaniya ötüb keçmişdir.

Ədəbiyyat

[1] Сайт консалтинговой фирмы White Clarke Group [Электронный ресурс]. – Режим доступа: http://www.whiteclarkegroup.com.

[2] World Leasing Yearbook 2016. Ed. by Paul L. 37th Revised edition. Colchester: Capital Markets Intelligence Ltd. December 31, 2015. 364 p.

[3] 2016 Global Leasing Report: State of the Global Leasing Industry Solid Growth, Cautious Optimism. Buckinghamshire: White Clarke Group, March 01, 2016. 15 p.

[3] Березовская О.Р. Анализ современного состояния и тенденции развития мирового рынка лизинговых услуг // Экономика и предпринимательство, 2013, № 8, с. 662-668.

[4] Сайт Европейской лизинговой ассоциации Leaseurope [Электронный ресурс]. – Режим доступа: http://www.leaseurope.org.

[5] European Leasing Market 2015. Annual Survey. Brussels:Leaseurope, 2015. 8 p.

[6] Leasing in Europe and Beyond State of Play and Outlook. Cascais: Leaseurope, 15 October 2015. 30 p.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 314 - 325
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 314 - 325

DÜNYA TƏCRÜBƏSİNDƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİ HALLARININ AŞKARLANMASI

T.Ə. Cəbiyeva
magistr, baş mütəxəssis, "Kapital Bank" ASC
e-mail: Turkay.Cabiyeva@kapitalbank.az
tel.: (+50) 441-45-25
Məqalə redaksiyaya daxil olmuşdur 12 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 12 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Bu məqalədə beynəlxalq təcrübəyə əsaslanaraq, dünyada terrorçuluğa maliyyə dəstəyi verən təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin apardığı maliyyə əməliyyatlarının üsulları, eyni zamanda onlara qarşı qabaqlayıcı təsir mexanizmi barədə tədqiqata cəhd edilmişdir. Beynəlxalq terrorçu təşkilatların maliyyə mənbələri çoxcəhətli və mürəkkəbdir. Onlar öz məqsədlərini həyata keçirmək üçün ən sadə üsullardan tutmuş ən mürəkkəb mexanizmlərə qədər müxtəlif vasitələrdən istifadə edirlər. Məqalədə 11 sentyabr 2001-ci ildə ABŞ-də törədilmiş məşhur terror hadisəsindən sonra terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin geniş vüsət almasından bəhs edilərək, qoruyucu fəaliyyət mexanizmləri nəzərdən keçirilmişdir.

Açar sözlər: bank, terrorçuluğun maliyyələşdirilməsi, FATF tövsiyələri, qlobal sanksiyalar, beynəlxalq təcrübə.
Jel Classification: G32

DETECTION OF TERRORIST FINANCING IN THE WORLD

Abstract

This article, based on world experience, investigates the methods of conducting financial operations for the maintenance of the world terrorism of terrorist organizations, groups and individuals, as well as research on the mechanism of prevention against them. Sources of financing for international terrorist organizations are multilateral and complex. On the way to achieving their goals, they use from the simplest to the most complex mechanisms. The article describes the adopted protective mechanisms against the financing of terrorists following the terrorist attacks taken place in the United States on September 11, 2001.

Keywords: banking, financing of terrorism, FATF recommendations, global sanctions, international experience.

ОБНАРУЖЕНИЕ СЛУЧАЕВ ФИНАНСИРОВАНИЯ ТЕРРОРИЗМА В МИРЕ

Резюме

В этой статье, основываясь на мировой опыт, исследуются методы проведения финансовых операций по поддержанию мирового терроризма, террористических организаций, групп и отдельных лиц, а также исследуется механизм профилактики против них. Источники финансирования международных террористических организаций многосторонние и сложные. На пути к достижению своих целей они используют разные механизмы от самых простых до самых сложных. В статье описаны принятые, после террористических актов 11 сентября 2001 совершенных в США, защитные механизмы против финансирования террористов.

Ключевые слова: банковское дело, финансирование терроризма, рекомендации FATF, глобальные санкции, международный опыт.

Giriş. Hazırda dünya bankları üçün ən həssas sahələrdən biri terrorçuluğun maliyyələşdirilməsinin qarşınını almaq və və bu sahədə qabaqlayıcı tədbirlərin hazırlanmasıdır. Bu sahənin bizə aydın olması üçün terrorçuluğun maliyyələşdirilməsinin yaranması tarixinə nəzər salaq. 11 sentyabr 2001-ci ildə baş vermiş terror hücumlarından sonra Böyük Yeddilər Qrupu (G-7) ölkələrinin maliyyə nazirləri 7 oktyabr 2001-ci ildə Vaşinqtonda (Kolumbiya əyaləti) görüşmüş və bütün ölkələri məlum terrorçuların aktivlərini dondurmağa çağırmışlar. Həmin vaxtdan etibarən, bir çox ölkələr hakimiyyət orqanlarının müəyyən etdikləri terrorçuluqla bağlı olan şəxslər və təşkilatlar barədə maliyyə institutlarını xəbərdar etməklə terror aktivlərinin məhv edilməsinə yardım etmək üçün üzərilərinə öhdəlik götürmüşdür. G-7 ölkələri Vaşinqtonda 29 oktyabr 2001-ci il tarixdə terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə aparmaq üçün "növbədənkənar plenar iclasın" keçirilməsi üçün FATF-i (Çirkli pulların yuyulmasına qarşı maliyyə tədbirlərinin işlənib hazırlanması qrupu) toplamışdır. Nəticədə, FATF özünün Xüsusi Tövsiyələrinin ilk səkkiz tövsiyəsini təqdim etmiş və o vaxtdan bəri onlar cari FATF Tövsiyələrinə əlavə edilmişlər.

5-ci Tövsiyə, ölkələri terrorçuluğun maliyyələşdirilməsinə, terror təşkilatlarının və konkret terror fəaliyyəti ilə əlaqəli olan yaxud olmayan ayrı-ayrı terrorçuların maliyyələşdirilməsinə qarşı mübarizə aparmağa, eləcə də bu cinayət əməllərinin çirkli pulların yuyulması kimi əsas hüquq pozuntusu hesab etməyə çağırır. Bu, çirkli pulların yuyulmasına qarşı mübarizə qanunlarının terrorçuluğun maliyyələşdirilməsi əleyhinə tətbiq edilməsinə imkan verir və daha geniş təqib və həbs üçün zəmin yaradır. Terroristlərə və terror təşkilatlarına maliyyə yardımının kəsilməsi onların fəaliyyətlərinə mane olmaq və hücumlarının qarşısını almaq üçün mühüm addımdır.

Terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuylması arasında fərq və oxşarlıqlar. Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi arasında son dərəcə mühüm fərqlər nəzərə alınmadan onların hər ikisi çox vaxt bir yerdə qeyd edilir. Müəssisələrin aparmalı olduqları nəzarətlərin bir çoxu həm çirkli pulların yuyulması, həm də terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin ikili məqsədinə xidmət etmək üçün nəzərdə tutulub. ABŞ-nin 2015-ci il Terrorçuluğun Maliyyələşdirilməsi Riskinin Qiymətləndirilməsində qeyd edilmişdir ki, çirkli pulların yuyulmasına qarşı mübarizə üçün aparılan nəzarətlər, həmçinin bizim terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi, saxlanması və qarşısının alınması bacarığımızı da gücləndirmişdir. Hüquq-mühafizə orqanları tərəfindən BSA sənədlərinə malik terror təşkilatları ilə əlaqələri araşdırılan şəxslərin 58 faizinin çirkli pulların yuyulması ilə bağlı şübhəli hallarla məşğul olduqları barədə məlumat verilmişdir. Lakin bu iki hal ayrıca cinayət əməlidir və heç birinin aktiv terrorçular üçün real maliyyə imkanı yaratmaq iqtidarında olmadığına baxmayaraq, nəzarət üzrə əməkdaşların fərqi başa düşmələrinə və terrorçuların şübhəli maliyyə fəaliyyətlərini çirkli pulların yuyulmasından fərqləndirmələrinə kömək edəcək əsas fərqlər mövcuddur.

Terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulması arasında əsas fərq vəsaitlərin maliyyələşdirilməsi ilə bağlıdır. Terrorçuluğun maliyyələşdirilməsində vəsaitlərdən qeyri-qanuni siyasi məqsəd üçün istifadə edilir, lakin pulun qeyri-qanuni gəlirlərdən əldə edilməsi vacib deyildir. Digər tərəfdən, çirkli pulların yuyulması həmişə qeyri-qanuni fəaliyyətdən əldə edilən gəlirlərlə bağlı olur.

Çirkli pulların yuyulmasının məqsədi puldan qeyri-qanuni istifadə etməkdən ibarətdir. Texniki baxımdan, terrorçuların və digər cinayətkar təşkilatların istifadə etdikləri çirkli pulların yuyulması üsulları eynidir. Qanuni mənbələrdən maliyyələşdirmənin çirkli yolla yuyulmasına ehtiyac olmadığı halı məntiqli görünsə də, terrorçu qrup onun və qanuni maliyyələşdirmə mənbələrinin arasında əlaqəni gizlətməyə ehtiyac duyur; səbəblərdən biri həmin mənbənin gələcəkdə davamlı və maneəsiz istifadəsidir. Bunu etməklə, terrorçular cinayətkar təşkilatların istifadə etdiklərinə oxşar üsulları seçirlər: nağd pul qaçaqmalçılığı, çirkli pulların yuyulması, pul sənədlərinin alınması, teleqraf köçürmələri və debit, kredit və ya öncədən ödənilən kartlardan yararlanma. Qanuni bank sistemindən kənar vəsaitlərin beynəlxalq transferi ilə bağlı olan və ayrı-ayrı şəxslərin etibar etdikləri şəbəkəyə əsaslanan qeyri-qanuni köçürülmə sistemi olan "havala" sistemi terrorçuluqla bağlı olan vəsaitlərin hərəkətində rol oynamışdır. Bundan əlavə, terrorçu qruplar üçün təkcə toplanan puldan deyil, həmçinin ərzaq və icarə xərclər üçün istifadə edilir.

Terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi. Terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı maraqlı bir fakta nəzər salmaq istərdim. Belə ki, 2004-cü il tarixli "Terrorçuluğun Maliyyələşdirilməsinə dair Monoqrafiya"da Birləşmiş

Ştatların Terror Aktları üzrə Milli Komissiyası qeyd etmişdir ki, nə 11 Sentyabr təyyarə qaçıranları, nə də onların maliyyə vasitələri beynəlxalq maliyyə sistemindən istifadə etmək bacarığına malik olmamışdır. Terrorçular, onları bir-biri və maliyyə vasitələri ilə bağlayan kağız sənədlər yaratmışdılar. Bununla belə, onlar özlərini cinayətkar kimi büruzə vermədən geniş maliyyə sisteminə daxil olmaq üçün kifayət qədər məharətliydilər. O zaman yerlərdə çirkli pulların yuyulmasına nəzarət əsas diqqətini narkotik vasitələrin qaçaqmalçılığına və irimiqyaslı maliyyə dələduzluğuna yönəltmişdi və təyyarə qaçıranların məşğul olduqları əməliyyatlara kifayət qədər diqqət yetirilməmişdir. 11 sentyabr 2011-ci il tarixindən etibarən terrorçuluğun maliyyələşdirilməsi hallarının aşkar edilməsi və saxlanması üçün beynəlxalq səylər əhəmiyyətli dərəcədə artırılmışdır. Bu səylərə cavab olaraq, terrorçular və terrorçuları maliyyələşdirənlər vəsaitlərin mobilizasiyası və yerləşdirilməsi üsullarını yaratmış, genişləndirmiş və dəyişdirmişlər ki, bu da hüquq-mühafizə orqanları və maliyyə təşkilatları tərəfindən innovasiya və sayıqlığı tələb edir.

Konkret halın təhlili. 11 Sentyabr təyyarə qaçıranları ABŞ-dən və xarici maliyyə təşkilatlarından öz pullarını saxlamaq, köçürmək və götürmək üçün istifadə ediblər. Onlar pulu ABŞ-dəki hesablara başlıca olaraq teleqraf köçürmələri və nağd pul və ya xarici ölkələrdən gətirilən səyahət çekləri vasitəsilə yatırıblar. Onlardan bəziləri vəsaiti Birləşmiş Ştatlarda ATM və kredit kartı əməliyyatları vasitəsilə çıxışa malik olduqları xarici hesablarda saxlamışdırlar. Belə ki, təyyarə qaçıranlar vəsaiti Almaniya və Birləşmiş Ərəb Əmirliklərindəki himayədarlarından əldə etmişdirlər və onlar Birləşmiş Ştatlara gəlməzdən əvvəl Pakistandan keçmişdirlər. Əl-Qaidənin bu əməliyyatının xərci haradasa $400,000–$500,000 civarında olmuşdur və bu məbləğdən təxminən $300,000 təyyarə qaçıranların bank hesablarından Birləşmiş Ştatlara köçürülmüşdür. Birləşmiş Ştatlarda təyyarə qaçıranlar pulu başlıca olaraq təyyarənin idarə edilməsi təliminə, səyahətə və gündəlik tələbat xərclərinə sərf etmişdirlər.

Mövcud maliyyə məlumatlarının bərpası vasitəsilə ABŞ-nin Daxili Gəlirlər Xidməti və ABŞ-nin Federal Tədqiqat Bürosu 11 Sentyabr hadisələrinə cavabdeh olan təyyarə qaçıranların pullarını necə aldıqlarını və pulun onların hesablarına necə daxil olduğu və çıxarıldığını müəyyən etmişdir. 19 təyyarə qaçıran dörd müxtəlif bankda 24 yerli bank hesabı açmışdır. Təyyarə qaçıranların yerli hesablarından aşağıdakı maliyyə profilləri yaradılmışdır.

Hesab Profilləri:

- hesablar ortalama $3,000 - $5,000 miqdarda nağd pul ekvivalentlərində açılmışdır;
- hesabların açılması üçün istifadə edilən eyniləşdirmə sübutu xarici hökumətlərin verdikləri vizalar olmuşdur;

- hesablar Birləşmiş Ştatlara daxil olduqdan sonra 30 gün müddətində açılmışdır;
- hesablardan bəziləri birgə hesablar olmuşdur;
- istifadə edilən ünvanlar adətən daimi ünvanlar olmamış, poçt yeşikləri olmuş və tez-tez dəyişdirilmişdir;
- təyyarə qaçıranlar çox vaxt hesablar üzrə eyni ünvandan və telefon nömrələrindən istifadə etmişlər;
- on iki təyyarə qaçıranın hesabları eyni bankda açılmışdır.

Əməliyyat profilləri:

- bəzi hesablar birbaşa qəbul edilmiş və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Səudiyyə Ərəbistanı və Almaniya kimi xarici ölkələrə və bu ölkələrdən kiçik məbləğdə pul köçürmələri göndərilmişdir;
- təyyarə qaçıranlar debet kartı limitindən artıq nağd pul çıxarmaq üçün çoxsaylı cəhdlər göstərmişlər;
- çoxlu sayda balans sorğuları edilmişdir;
- depozit edildikdən sonra pullar dərhal çıxarılmışdır;
- ümumi əməliyyatlar hesabat tələblərindən aşağı olmuşdur;
- hesablardakı məbləğlər nağd şəkildə və xarici ölkələrə teleqraf köçürmələri yolu ilə verilmişdir;
- ATM əməliyyatları birdən artıq təyyarə qaçıranın iştirakı ilə aparılmışdır (eyni ATM-də bir neçə təyyarə qaçıranın cəlb edilməsi ilə əməliyyatlar seriyasının yaradılması);
- hesabları olmayan təyyarə qaçıranlar debet kartlardan istifadə etmişlər.

Beynəlxalq fəaliyyət:

- Birləşmiş Ştatlarda təyyarə qaçıranlardan ikisi naməlum şəxslərin adına depozitlərə malik olmuşdur;
- bütün dörd təyyarə qaçıran xaricdə yol çekləri almış və onları ABŞ-yə gətirmişdir. Bu yol çeklərinin bəziləri onların ABŞ çek hesablarına yatırılmışdır;
- Təyyarə qaçıranlardan biri fiziki şəxsdən 1998-1999-cu illərdə Almaniyadakı bank hesabına teleqraf köçürmələri yolu ilə əhəmiyyətli maliyyə vəsaiti almışdır;
- 1999-cu ildə həmin təyyarə qaçıran BƏƏ-də hesab açmış və hesab üzrə etibarnaməni onun Almaniyadakı hesabına pul köçürən eyni şəxsə vermişdir;
- təyyarə qaçıranın BƏƏ hesabından həmin həmkarının Almaniyadakı hesabına 15 ay müddətində $100,000-dən artıq vəsait köçürülüb.

Terrorçuluğun maliyyələşdirilməsini aydınlaşdırmaq üçün göstərdiyi səydə və qlobal maliyyə cəmiyyətinə verdiyi tövsiyələrdə FATF terrorçuluğun maliyyələşdirilməsində istifadə olunan texnika və mexanizmlərin müəyyən edilməsi üçün

rəhbər göstəriş buraxmışdır. "Terrorçuluğun Maliyyələşdirilməsinin Aşkar edilməsində Maliyyə Təşkilatları üçün Rəhbər Göstəriş" adlı hesabat 24 aprel 2002-ci ildə dərc edilmiş və terrorçuluğun maliyyələşdirilməsinin ümumi xüsusiyyətlərini təsvir etmişdir. Onun məqsədi maliyyə təşkilatlarına əməliyyatın əlavə tədqiqat tələb edib-etmədiyni müəyyən etməkdə və terrorçuluq fəaliyyəti ilə bağlı vəsaitlərdən istifadə edən əməliyyatları daha yaxşı müəyyən etməkdə, məlumat verməkdə (lazım gəldikdə) və sonda, onlardan uzaq olmaqda yardımçı olmaqdan ibarətdir. Hesabatda FATF maliyyə təşkilatlarının potensial şübhəli fəaliyyətin qiymətləndirilməsində "ağlabatan fikir" irəli sürmələrini tövsiyə edir.

Terrorçuluğun maliyyələşdirilməsində kanal rolundan uzaq olmaq üçün təşkilatlar digərləri ilə yanaşı, aşağıdakı faktorlara diqqət yetirməlidirlər:

- şübhəli terror əlaqələri olan şəxsin hesabdan sipər kimi istifadə etməsi;
- hesab sahibinin adının şübhəli terrorçuların siyahısında mövcud olması;
- qeyri-kommersiya təşkilatlarının hesablarında çox vaxt böyük məbləğdə nağd pul depozitlərinin olması;
- hesabda əməliyyatların yüksək həcmi;
- bank fəaliyyəti və hesab sahibinin biznesi arasında aydın əlaqənin olmaması.

FATF bu tədbirləri nəzərə alaraq maliyyə təşkilatlarının çirkli pulların yuyulmasının bəzi klassik göstəricilərinə, o cümlədən gündəlik nağd pul çıxarılandan sonra gözlənilmədən bank köçürməsi yolu ilə alınan və köçürülən məbləğin çıxarılmasınadək qeyri-aktiv, aşağı məbləğli hesablara, və sifarişçi tərəfindən tələb olunan məlumatların təqdim edilməməsinə diqqət yetirməyi tövsiyə etmişdir.

Terrorçular vəsaiti necə toplayır, köçürür və saxlayır. Qlobal sanksiyalar üzrə göstərilən səylər terror təşkilatlarına ənənəvi dəstək göstərən təşkilatlar tərəfindən maliyyələşdirilməni azaltmış və bu da, həmin təşkilatların fəaliyyətlərini yerinə yetirmək üçün əlavə gəlir mənbəyi axtarmalarına gətirib çıxarmışdır. 2015-ci ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının toplantısında Baş Katib Ban Ki-Mun Şuraya söyləmişdir ki, "Terrorçular vəsait toplamaq üçün maliyyə və normativ rejimlərdəki zəif nöqtələrdən istifadə edirlər. Onlar aşkarlanmamaq üçün formal kanallardan yan keçir və resursları ötürmək üçün yeni texnologiya və alətlərdən istifadə edirlər. Onlar digərləri ilə yanaşı, narkotik və cinayətkar sindikatlarla birgə saxta destruktiv və olduqca mənfəətli əlaqəyə malik olurlar. Onlar yardım adı ilə insanları aldatmaq üçün xeyriyyə məsələlərindən sui-istifadə edirlər. Terrorçular öz taktikalarını tətbiq etməyi və öz maliyyə mənbələrini genişləndirməyi davam edirlər ki, buraya neft ticarəti vasitəsilə pulun toplanması, nağd pulu daşıyan aşkar edilməmiş kuryerlər, pul müqabilində insan oğurluğu, insan və silah alveri, reketlik daxildir.

Alternativ pul köçürmə sistemləri (APKS-lər), yaxud Afrika, Asiya və Yaxın Şərqdən etnik qruplarla bağlı qeyri-rəsmi vəsait köçürmə sistemləri (QRVKS-lər). APKS-lər ümumiyyətlə qanuni bank sistemindən kənar vəsaitin beynəlxalq köçürülməsi ilə bağlıdır və etibara əsaslanır. Sistemlər ölkədən asılı olaraq, müxtəlif cür adlanır: Havala (Ərəb sözü olub, "dəyişiklik", yaxud "çevrilmə" deməkdir), Hundi (Hindi sözü olub "toplamaq" deməkdir), Çiti bankçılıq (sistemin fəaliyyət göstərdiyi üsula istinad edir), Çop Şop bankçılıq (Çin) və Poey Kuan (Tayland).

"Havala" vəsaitlərin təhlükəsiz və rahat hərəkətinə kömək etmək üçün Qərb maliyyə sistemlərindən bir neçə əsr əvvəl Hindistanda və Çində yaradılmışdır. Vəsaitləri vətənlərinə göndərmək istəyən tacirlər onları havala brokerinə və ya normal şəkildə ticarət biznesinə malik havaladara verirlər. Az miqdarda ödəniş etməklə havaladar vəsaitlərin digər ölkədə normal şəkildə ticarətlə məşğul olan digər havaladardan götürülməsini təşkil edir. İki havaladar normal ticarət prosesi gedişatında hesablaşma aparır.

Bu gün bu prosesin çox hissəsi eyni cür işləyir və dünyanın müxtəlif hissələrində insanlar öz hesablarından beynəlxalq miqyasda pul köçürmələrini həyata keçirmək üçün istifadə edirlər. Bu yolla, pulların yatırılması və çıxarılması ənənəvi maliyyə təşkilatçılarından daha çox havala bankirləri tərəfindən aparılır. Üçüncü tərəflər normal şəkildə teleqraf köçürmələrinə görə bank ödənişi etməmək üçün az miqdarda məbləği vətənlərinə göndərən immiqrantlar və ya ölkəyə gəlmiş fəhlələrdir. Havaladan və digər QRVKS-dən qanuni istifadə seçimi səbəblərinə daxildir: daha ucuz və daha sürətli pul köçürmə pulu qəbul edən ölkədə bank xidmətlərinə çıxışın, mədəni üstünlüyün olmaması və rəsmi bank sisteminə etibar edilməməsi. Adətən valyutanın fiziki hərəkəti mövcud deyil və yoxlama və qeydlərin aparılması üzrə rəsmiləşmə yoxdur. Pul köçürməsi kodlaşdırılmış informasiya vasitəsilə aparılır və bu informasiya qısa qeydiyyat, kuryer, məktub, faks, e-poçt, mətn mesajı yaxud onlayn çat sistemləri vasitəsilə ötürülür və telekommunikasiya təsdiqinin bəzi formaları ilə müşayiət olunur. Demək olar ki, eyniləşdirmə nömrəsinə malik istənilən sənəd alıcı tərəfindən digər ölkədə ödənişləri almaq üçün istifadə edilə bilər.

Çirkli pulların yuyulmasına qarşı tədbirlər bütün dünyada geniş vüsət aldığından, hökumətin nəzarəti olmadan fəaliyyət göstərən Havala sistemi çirkli pulların yuyulması ilə məşğul olan şəxslər və terrorçular üçün daha cəlbedici hesab olunur. 2013-cü il "ÇY/TM-də Havalanın və Digər Oxşar Xidmət Provayderlərinin Rolu" hesabatında FATF havalanın və digər oxşar xidmət provayderlərinin tənzimlənməsi və nəzarət edilməsinin dövlət orqanları üçün əsas problem olaraq qaldığını göstərir, həmçinin qeyd edir ki, digər sektorlarda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi riski nə qədər artarsa, havalanın və digər oxşar xidmət provayderlərinin tənzimlənməsi və nəzarət edilməsi imkanı da bir o qədər aşağı olur. Bu,

çirkli pulların yuyulması ilə məşğul olan şəxslər üçün cəlbedicidir, çünki onlarda demək olar ki, kağız izi qalmır, çünki vəsaiti alacaq müştərilər barədə məlumat telefon, faks və e-poçt vasitəsilə qəbul edən brokerə təqdim olunur. Son vaxtlar dövlət orqanları havala və digər oxşar agentlər tərəfindən qabaqcıl İnternet texnologiyalarından istifadəni müşahidə edirlər və onların fəaliyyətlərini yerinə yetirmələri və öz hesablarını saxlamaları və əl ilə heç bir hesab aparmadığına dair onlarda şübhə yaranmışdır. Havala ödəniş sistemi olduğundan, ondan çirkli pulların yuyulması dövrünün istənilən mərhələsində istifadə etmək mümkündür. O, səmərəli yerləşmə üsulunu təmin edə bilər: havaladar nağd pulu alan zaman o nağd pulu bank hesablarına yatıra bilər. O, bu depozitləri bank əməkdaşlarına qanuni biznesdən əldə olunan gəlir kimi əsaslandıracaq. O, həmçinin aldığı nağd pulun bir hissəsindən öz biznes xərcləri üçün istifadə edəcək və nağd pulu bank hesabına yatırmaq zəruriliyini azaldacaq. Havaladarlar çox vaxt fəaliyyəti ört-basdır etmək və vəsaiti biznes hesablarına birləşdirmək üçün qanuni və ya qabaqcıl biznes daxilində və ya ona əlavə olaraq fəaliyyət göstərirlər.

Çirkli pulların yuyulması dövrünün başlanğıc mərhələsində qanunilik təəssüratı yaratmaqla və bir çox təklifləri irəli sürməklə, Havala texnikalarından pulu demək olar ki, istənilən formada köçürmək üçün istifadə etmək mümkündür. Pulu qanuni (yaxud qanuni təəssüratı yaradaraq) biznesə yenidən yatırmaq olar. Bir çox çoxmərhələli sxemlərin komponenti pulun bir hesabdan digər hesaba köçürülməsi və bu zaman kağız izinin buraxılmamasına çalışmaqdan ibarətdir. Əsas havala köçürülməsi kağız üzərində aparılarsa, az iz buraxır. Havala köçürülmələri pul köçürməsini daha da çətinləşdirmək üçün çoxmərhələli ola bilər. Bunu bir neçə ölkədə mövcud olan havaladarlardan istifadə etməklə və vaxt keçdikcə, köçürülmələri paylaşdırmaqla etmək mümkündür. Havaladar biznesə investisiyanın bir hissəsinin yatırılması təəssüratı yaradaraq, vəsaiti asanlıqla Birləşmiş Ştatlardan Pakistana və sonra isə geriyə, Birləşmiş Ştatlara köçürə bilər. Havaladarlar terrorçuluğu maliyyələşdirənlər üçün cəlbedicidir, çünki o, rəsmi maliyyə təşkilatlarından fərqli olaraq daima rəsmi hökumət nəzarəti altında olmur və standart formada ətraflı qeydlərin aparılması onlardan tələb olunmur. Bəzi havaladarların qeydiyyat jurnalları tərtib etmələrinə baxmayaraq, onların qeydləri çox vaxt özlərinə məxsus qısaldılmış şəkildə yazılır və yalnız qısa müddətə saxlanılır. Əl-Qaidə havala vasitəsilə pulunun böyük hissəsini 11 Sentyabr 2001-ci il tarixədək çıxarmışdı. Əl-Qaidə pul vəsaitlərinin mənbə və məqsədini bilən bir qrup havaladardan istifadə etmişdi. Əl-Qaidə həmçinin Əl-Qaidə ilə iş birliyi gördüklərinə güclü şəkildə şübhələri olan, lakin buna baxmayaraq, əməliyyatlarda iştirak etməyə hazır olan məcburi havaladarlardan istifadə etmişdir.

Xeyriyyə və ya Qeyri-kommersiya Təşkilatlarından (QKT-lər) istifadə edilməsi. 11 Sentyabr 2001-ci il tarixli hücumlardan sonra terrorçu qrupların maliyyə

mənbələrini aşkar etmək, izləmək və təqib etmək üçün Birləşmiş Ştatlar hökuməti Terrorçuluğun Maliyyələşdirilməsinin İzlənməsi Proqramını (TMİP) təqdim etmişdir. TMİP vasitəsilə ABŞ hökuməti saxta təşkilatların potensial maliyyələşdirilməsi üçün istifadə edilən 40 xeyriyyə təşkilatını aşkar etmiş və bağlamışdır.

Bilərəkdən, yaxud bilməyərəkdən, xeyriyyə təşkilatları terrorçuluq əməlləri üçün nəzərə tutulmuş vəsaitlərin toplanması və yuyulmasında vasitə kimi istifadə edilmişdir. Nəticədə, bəzi xeyriyyə təşkilatları, xüsusilə də müsəlmanlarla bağlı olan təşkilatlar xeyli miqdarda ianə yatırmış və onların sözlərinə görə ədalətsiz araşdırma və ya ittihamlara məruz qalmışlar. 2014-cü il tarixli Qeyri-Kommersiya Təşkilatlarında Terrorçuluq Hallarına dair hesabatında FATF göstərir ki: "QKT sektorunun qlobal cəmiyyət üçün əhəmiyyətini həddən artıq şişirtmək olmaz. Bu, milyonlarla insana saysız-hesabsız xidmətlər göstərən dinamik sektordur". Bununla belə, bu tipologiyalar layihəsi belə bir qənaətə gəlmişdir ki, terrorçular və terror təşkilatları tərəfindən QKT-dən onilliklər ərzində sui-istifadə edildikdən sonra bu, rəsmi şəkildə problem hesab edilmiş və sektora olan terror təhlükəsi və sektordan düzgün istifadə edilməməsi halı qalmaqdadır və terror təşkilatları ondan müxtəlif vasitələrlə istifadə edirlər.

Xeyriyyə və qeyri-kommersiya təşkilatları, xüsusilə terrorçuluğun maliyyələşdirilməsinə qarşı həssas olan aşağıdakı xüsusiyyətlərə malikdirlər:

- ictimai etibardan istifadə edilməsi;
- əhəmiyyətli vəsait mənbələrinə çıxışın olması;
- nağdlaşdırma;
- çox vaxt dünya miqyasında, yaxud terrorçuluq fəaliyyətinin mövcud olduğu ərazilərdə, yaxud onlara yaxın ərazilərdə mövcud olma;
- çox vaxt cüzi şəkildə tənzimlənmə, yaxud tənzimlənməmə və ya onların yaradılmasına bir sıra maneələrin mövcud olması.

Qanuni QKT-lərə terrorçuluqla bağlı qurumlardan uzaq olmaqda yardım etmək və onlara ictimai etibarı bərpa etməkdə kömək etmək üçün FATF ilk əvvəl 2002-ci ildə qeyri-kommersiya təşkilatlarından sui-istifadəyə qarşı mübarizə sahəsində qabaqcıl təcrübələrə dair rəhbər göstərişlər təqdim etmişdir. QKT-lərin risk əsaslı yanaşmaya uyğun gəlmələri; QKT-lərə olan terrorçuluğun maliyyələşdirilməsi təhlükələrinin azaldılması və maliyyə xidmətləri göstərən zaman risk əsaslı yanaşmanı düzgün şəkildə həyata keçirilmələrində QKT-lərə maliyyə təşkilatları tərəfindən yardım göstərilməsi üçün qabaqcıl təcrübələrə dair rəhbər göstəriş 8-ci Tövsiyədə yenilənmişdir.

8-ci Tövsiyənin məqsədi QKT-lərin aşağıdakılar tərəfindən sui-istifadəyə məruz qalmamasından ibarətdir:

- qanuni qurumlar kimi çıxış edən terror təşkilatları;

• qanuni qurumlardan terrorçuluğun maliyyələşdirilməsi kanalları kimi istifadə edilməsi;

• qanuni məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlərin terror təşkilatları üçün gizli şəkildə bölünməsinin gizlədilməsi və məxfi saxlanması.

Qabaqcıl təcrübəli ölkələr, eləcə də QKT-lər tərəfindən riskin aşkar edilməsi və azaldılması QKT-lər tərəfindən özünü tənzimləmə hallarını və onların maliyyə xidmətlərinə çıxışını əhatə edir. FATF tövsiyə edir ki, QKT-lər:

• bütün xərcləri nəzərə alan tam proqram büdcələrini təmin etsinlər və təqdim edə bilsinlər;

• vəsaitlərdən nəzərdə tutulan məqsədlər üçün istifadə etmək məqsədilə müstəqil daxili audit və kənar səyyar auditlər apara bilsinlər.

FATF xeyriyyə təşkilatlarının vəsaitlərin saxlanması və ötürülməsi üçün rəsmi bank hesablarından istifadə etmələrini və bununla da, bank prosedurlarına və qaydalarına əməl etmələrini tövsiyə edir. Hesabların açıldığı banklar da öz növbəsində QKT-lərə digər müştərilər kimi münasibət bəsləyə, öz müştərilərinə tətbiq etdikləri qaydaları onlara tətbiq edə və şübhəli fəaliyyətlər barədə məlumat verə bilərlər.

Xeyriyyə Komissiyası İngiltərə və Uelsdə xeyriyyə təşkilatlarının müstəqil tənzimləyicisidir və onun rolu xeyriyyə təşkilatlarında dövlətin maraqlarını qorumaqdan və xeyriyyə təşkilatlarının xeyriyyə məqsədlərini dövlətin xeyrinə həyata keçirmələrini və özəl, hökumət və ya siyasi maraqlardan üstün tutmalarını təmin etməkdən ibarətdir. Onların Terrorçuluğa Qarşı Mübarizə Strategiyası Hesabatı terroru maliyyələşdirənlərin xeyriyyə təşkilatlarından sui-istifadə etmələrinin qarşısını almaqdan ötrü dörd mərhələli yanaşma tövsiyə edir:

• milli və beynəlxalq miqyasda hökumət orqanları və hüquq-mühafizə orqanları ilə əməkdaşlıq;

• sektorda xeyriyyə təşkilatlarının terrorizmlə üzləşmələrinə dair məlumatlılığın artırılması;

• daha yüksək riskə malik hesab olunan sahələrdə sektorun aktiv monitorinqi vasitəsilə nəzarətin aparılması;

• terrorçuluq fəaliyyətinin mövcud olması ilə bağlı risk halında müdaxilə edilməsi.

Konkret halın təhlili. 2013-cü ilin may ayında Minnesota ştatından iki Amerikalı qadına qarşı federal məhkəmədə ABŞ-nin terror təşkilatı hesab etdiyi Əş-Şabaab təşkilatına maddi dəstək göstərdiklərinə görə hökm oxunmuşdur. Amerikanın Somali mənşəli vətəndaşları Amina Farax Ali və Hao Moxamed Hasan federal məhkəmədə dövlət orqanlarına yalan məlumat verməkdən başlayaraq terrorçu təşkilatlara maddi yardım göstərmələrinə qədər hallar üzrə günahkar hesab edilərək 240 və 120 ay müddətinə azadlıqdan məhrum ediliblər. Məhkəməyə təqdim olunan

dəlillər cavabdehlərin 2008-ci ilin sentyabr ayından 2009-cu ilin iyul ayınadək əş-Şabaaba yardım göstərdiklərini sübuta yetirmişdir. Qrup adından maliyyə yardımı tələb edən əş-Şabaabın Somali üzvləri ilə danışdıqdan sonra qadınlar başqalarının köməkliyi ilə Minnesotanın Somali kvartallarında və ABŞ və Kanadanın digər şəhərlərində terror təşkilatına pul toplamışlar. Pulları çox vaxt yalan bəhanələrlə toplayır və ianə verən insanları kasıb insanlara yardım etmək məqsədilə pulların toplandığına inandırırdılar. Cavabdehlər tərəfindən Əş-Şabaabın birbaşa dəstəklənməsi üçün yığılan vəsaitlər dinləyiciləri ianə verməyə sövq edən telekonfranslarda iştirak etməklə əldə edilmişdir. Vəsaiti aldıqdan sonra Ali və başqaları həqiqi benefisiar olan əş-Şabaabın adını gizlədərək və saxta alıcı adlarından istifadə edərək on ikidən artıq vəsait köçürülməsi aparmaqla çoxlu sayda ödəniş xidmətlərindən istifadə etmişlər.

Terrorçuluğun maliyyələşdirilməsi üzrə yeni risk faktorları. FATF-in 2015-ci il Terrorçuluğun Maliyyələşdirilməsi üzrə Yeni Risk faktorları bunlardır:

- **ƏDT-lər tərəfindən özünümaliyyələşdirmə.**

Sosial medianın, smartfon əlavələrinin və İnternet mübadilə saytlarının yaranması terror təşkilatlarına indi demək olar ki, heç bir xərc çəkmədən qlobal imkanlar yaradır. Əcnəbi Döyüşçü-Terrorçular (ƏDT-lər) və terror tərəfdaşları əvvəlki illərlə müqayisədə özləri radikallaşa və ya terror təşkilatları ilə əlaqə yarada bilirlər. Çox vaxt "yumşaq hədəfə" (yəni nisbətən qorunmayan və buna görə də, terror hücumlarına qarşı həssas olan mülki, hərbi-olmayan hədəf) yönələn terror aktlarının baş verməsi ilə bağlı olan aşağı xərc onu göstərir ki, bu cür hərəkətlər özü-özünü maliyyələşdirə bilər. Özünümaliyyələşdirməyə məşğulluq fəaliyyətindən əldə olunan gəlir, sosial yardım, ailənin dəstəyi və bank kreditləri daxildir ki, bunu da terrorçuluğun maliyyələşdirilməsinin digər halları olmadan aşkar etmək mümkün olmur.

- **Sosial Media vasitəsilə vəsaitlərin toplanması.**

Sosial media bəşər tarixində əvvəllər mövcud olmamış sosial və informasiya mübadiləsi şəbəkələrini yaratmaq imkanı əldə etmişdir. Texnologiyada bu görünməmiş irəliləyiş terror təşkilatlarına əlaqə yaratmaq və öz məqsədləri üçün vəsait toplamaq və real vaxtda hər bir ölkədə hər bir evə daxil olmaq imkanı verir.

Kütlənin vəsait toplaması və virtual, yaxud qabaqcadan ödənişli məlumat mübadiləsi sosial medianın terrorçular tərəfindən istifadə edilməsinin bir neçə üsuludur. Bu, hüquq-mühafizə orqanlarına yalnız artan fəaliyyət müxtəlifliyi baxımından deyil, həm də maliyyə təşkilatları və sosial media platformaları ilə əməkdaşlıq etmək baxımından çətinliklər yaradır.

- **Təbii resurslardan istifadə.**

Əraziyə nəzarəti əlində saxlayan, yaxud zəif hökumət nəzarətinin olduğu ölkədə fəaliyyət göstərən terror təşkilatları qaz, neft, ağac məmulatları, brilyant, qızıl (və di-

gər qiymətli metallar), vəhşi təbiət (məsələn, fil sümüyü ticarəti) və tarixi abidələr üzərində nəzarəti ələ keçirə, yaxud terror fəaliyyətlərini maliyyələşdirmək və gündəlik fəaliyyətlərə yardım etmək üçün bu resursları hasil edən şirkətlərdən zorla vəsait ala bilərlər. Bu resursların özləri qara bazarda satıla və ya şirkətlərə qoşula və bununla da, qlobal ticarət sektoruna daxil ola bilər. Terror təşkilatlarının fəaliyyət göstərdikləri və ya nəzarəti ələ aldıqları coğrafi məkanlar, xammal üzrə cari qiymətlər barədə məlumatlılıq və güclü çoxtərəfli tərəfdaşlıq münasibətləri potensial şəkildə böyük məbləğlərin yaranmasına səbəb ola biləcək terrorçuluğun maliyyələşdirilməsinin bu üsuluna qarşı mübarizə aparılması üçün vacibdir.

Nəticə

Nəticədə qeyd etmək olar ki, terrorçuluğun maliyyələşdirilməsinin maxsimum dərəcədə qarşısının alınması dünya ölkələri qarşısında öhdəlik kimi durur və bu da terrorçuluğun inkişafını məhdudlaşdırmağa xidmət edir. Bu gün beynəlxalq terrorizmlə mübarizə bütün maliyyə institutlarının fəaliyyətində prioritetə çevrilmişdir. Yeni mübarizə üsullarının axtarışı davam edir.

Ədəbiyyat

[1] Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, № 767-IIIQ 10.02.2009

[2] Bazel Komitəsi, Prevention Of Criminal Use Of The Banking System For The Purpose Of Money-Laundering, dekabr 1988

[3] Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF) Tövsiyələri+Lügət+Şərh Qeydləri (2012)

[4] Methodology for Assessing Compliance with the FATF 40 Recommendations and the FATF 9 Special Recommendations, 27.02.2004 (fevral 2009-ci il tarixdə yenilənmiş)

[5] Guidance on the risk-based approach to combating money laundering and terrorist financing, İyun 2007

[6] ACAMS, Study Guide for the CAMS Certification Examination, Fifth Edition.

[7] www.cbar.az (Azərbaycan Respublikasının Mərkəzi Bankı)

[8] www.fatf-gafi.org (Financial Action Task Force)

[9] www.fiu.az (Maliyyə Monitorinqi Xidməti)

[10] www.acams.org (Association of Anti-money Laundering Specialists)

[11] www.acamstoday.org (ACAMS magazine).

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 326 - 333
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 326 - 333

KOMMERSİYA BANKLARININ İDARƏ EDİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ ASPEKTLƏRİ

A.N. Ayvazlı
Z.M. Bünyatov adına Şərqşünaslıq İnstitutu, AMEA
Bakı AZ1141, Hüseyn Cavid prospekti 117
e-mail: ayvazli45@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Banklarda yoxlama və nəzarət fəaliyyətlərinin yerinə yetirilməsinə kömək məqsədi ilə yoxlama komitəsi yaradılır. Yoxlama komitəsi ən azı iki üzvdən ibarət olmalıdır. Yoxlama komitəsinin üzvləri icra vəzifəsi olmayan idarə heyətinin üzvləri arasından seçilir. Banklarda hər kəsin məsul olduğu işlər vardır. İşçilər öz vəzifələrinə aid fəaliyyətləri icra edirlər. Bankların nəzarəti də çox əhəmiyyətli bir mövzu olduğu üçün bu mövzu ilə xüsusən bəzi şəxslərin maraqlanması lazımdır. Bu vəzifə idarə heyəti üzvlərindən (idarəçilərdən) ibarət yoxlama komitəsinə verilmişdir. Yoxlama komitəsi idarə heyətinə qarşı məsuldur və bütün fəaliyyətlərini bankın idarə heyəti adından edir. Müəssisələr etdikləri bir çox fəaliyyətləri səbəbi ilə bir çox risklə qarşı-qarşıya qalırlar. Bu risklər personalın qeyri-kafiliyi, personalın səhv və səhlənkarlığı və ya rəhbərliyin etdiyi qərarların səhv olması kimi bir çox səbəblərdən qaynaqlana bilər. Şirkətlərin rəhbərlik qurumunun ən əhəmiyyətli vəzifələrindən biri də şirkətdə səhv və pozuntu edilməsinə mane olmaqdır. Şirkətlərdə səhv və pozuntu ortaya çıxmasına mane olmaq və təsbit edilən səhvləri düzəltmək üçün bir sistem qurulur və yoxlamalar aparılır. Qurulan bu sistemə daxili nəzarət sistemi deyilir.

Açar sözlər: tarazlıq, mənfəət, maliyyə, divident, sosial.
Jel classification: E58, **G24**

ORGANIZATIONAL AND ECONOMIC ASPECTS OF THE MANAGEMENT IN COMMERCIAL BANKS

Abstract

An audit committee is established to assist banks in carrying out audit and supervision activities. The inspection committee should consist of at least two members. Members of the Audit Committee are selected from members of the Board of Directors who do not have an executive role. In Banks everyone have jobs for which is responsible them. Employees perform activities related to their duties.

Since banking supervision is also a very important issue, it is important for some individuals to be interested in this subject. This position was assigned to the Audit Committee consisting of board members (administrators). The Audit Committee is responsible for the management and is responsible for all its activities on behalf of the Board of Directors. Risks can be caused by a number of factors, such as staff shortages, misunderstandings or mistakes made by employees, or inappropriate management of management decisions One of the most important tasks of the company's governing body is to prevent the company from making mistakes and violations. A system is being set up and inspections are made to prevent errors and errors in companies and correct errors. A system is created and checks are conducted to prevent mistakes and mistakes in companies and correct errors. The built-in system is called the internal control system.

Keywords: balance, profit, finance, dividend, social.

ОРГАНИЗАЦИОННЫЕ И ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ УПРАВЛЕНИЯ В КОММЕРЧЕСКИХ БАНКАХ.

Резюме

Комитет создан по аудиту для оказания помощи банкам в проведении аудиторской и надзорной деятельности. Инспекционная комиссия должна состоять как минимум из двух членов. Члены Комитета по аудиту выбираются членами Совета директоров, которые не имеют исполнительной роли. У банков есть рабочие места, за которые каждый несет ответственность. Сотрудники выполняют деятельность, связанную с их обязанностями. Поскольку банковский надзор также является очень важным вопросом, важно, чтобы некоторые люди были заинтересованы в этом вопросе. Эта должность была возложена на Комитет по аудиту, состоящий из членов совета директоров (администраторов). Комитет по аудиту несет ответственность за правление и несет ответственность за всю свою деятельность от имени Совета директоров. Многие из них сталкиваются со многими рисками. Эти риски могут быть вызваны рядом факторов, таких как нехватка персонала, непонимание или ошибки, допущенные сотрудниками, или неправильное руководство управленческими решениями. Одной из важнейших задач руководящего органа компании является предотвращение ошибок компании и нарушений. Создается система и проводятся проверки для предотвращения ошибок и ошибок в компаниях и исправления ошибок. Встроенная система называется внутренней контроль.

Ключевые слова: равновесие, доход, финансы, дивиденд, социальный.

Kommersiya Bankları iqtisadiyyatda tarazlıqlara son dərəcə həssasdırlar. Bankların əmanətləri çoxaltmaları da müəyyən məsuliyyət və risk daşıyır. Bu səbəbdən bank sektorunun sağlamlaşdırılması üçün ümumi iqtisadi şərtlərin və islahatların düzgün aparılması lazımdır. Banklar daha çox mənfəət əldə etmək üçün daha çox kredit vermək, daha çox investisiya etməyi düşünürlər. Bununla əlaqədar daha çox əmanət yığmaq məcburiyyətində qalırlar. Bankların daha çox mənfəət əldə etmə məqsədlərinə çata bilmələri üçün əmanət xərci və divident xərclərini azaldırlar. Eyni zamanda istifadə etdikləri kreditlərin də geri qayıtma qabiliyyətinə sahib olması böyük əhəmiyyət daşıyır. Çünki geri qayıtma qabiliyyətini itirən kreditlər bankı həm zərərə uğradacaq, həm də likvidlik probleminə səbəb olacaq.

Beynəlxalq sərmayənin hərəkətliyinin artması, inkişaf etmiş ölkələrdə pul vəsaitlərinin çoxluğu sərbəst pul kütləsinin maliyyə bazarlarına ani daxil olması ilə nəticələnir, bank risklərini səmərəli şəkildə idarə edərək sərbəst vəsaitlərin düzgün bölünməsi iqtisadiyyata töhfə verir. Banklar üçün maliyyə sağlamlığını təmin edəcək strategiya hazırlanır. Banklarda aktiv-passivlərin idarə edilməsi üzrə rəhbərlik bu risklərin təsbit edilməsi və idarə olunması baxımından əhəmiyyətli bir bölmə funksiyasını daşıyır.

Bank böhranı maliyyəyə güvənin itməsi səbəbindən səhm və əmanət sahiblərinin vəsaitlərini geri çəkmək üçün banklara hücum etməsi kimi də baş verə bilər. Bankların bu tələbləri yerinə yetirməmələri və güvənin daha çox sarsılması ilə maliyyə çaxnaşması böhrana çevrilmiş olur.

Bəzi mütəxəssislərə görə, bank böhranı və pul böhranı əkiz böhranlar olaraq da qəbul edilir.

Bunlar oxşar səbəblərə dayandığından, bir-birini əks etdirir. Məsələn milli pulun dəyər itirməsi banka mənfi təsir edir. Məsələn, aktivlərdə milli pul cinsindən kredit istifadə olunduğunda və passivində xarici pul vəsaiti olan banklarda, milli pulun dəyəri düşdükcə, vəsaitlərin dəyəri eyni qalsa da, öhdəliklərdə kurs fərqi üzrə artım meydana gəlir. Məsələn, faiz dərəcələrinin yüksəlməsi halında kreditlər daha bahalı hala gəldiyindən, bank balansı pozulur və borclu firmaların vəziyyəti daha riskli hala gəlir. Qaytarıla bilinməyən kreditləri azaltmaq istəyən banklar kredit portfelini sağlamlaşdırmaq məqsədi ilə özlərini qorumağa çalışırlar. Bu qoruyucu tutum səbəbiylə, ödəmə çətinliyi çəkən, lakin alacağı kredit ilə fəaliyyətini davam etdirmək vəziyyətdəki müəssisələr birbaşa, makroiqtisadi tarazlıq isə bilavasitə olaraq mənfi təsir göstərir. Xarici pul cinsindən kreditlər də, ölkə riskinin artması səbəbindən daha bahalı hala gəlir. Digər tərəfdən Mərkəzi Bankın milli pulun dəyərini qoruya bilməyəcəyi ortaya çıxarsa, milli pul dəyərini itirir. Milli pulun devalvasiyası ilə birlikdə bankların balansları daha da pisləşər və pul böhranı bank böhranına təsir göstərməyə başlayır, nəticədə maliyyə böhranının yaşanması ehtimalı artır.

Bank sektorunda yaşanan böhranlar ölkədən ölkəyə fərqlənir və bunları çox vaxt tək bir səbəbə söykəmək mümkün deyil. Bununla birlikdə, bank böhranlarının ən çox müşahidə edilən səbəbləri arasında: bank mallarının yox olması, geri dönməyən kredit faizlərinin yüksəlməsi, yoxlama qeyri-kafiliyi, valyuta böhranı və faizlərdəki artım yer alır.

Hər bir bank böhranının özünə xas olmaqla birlikdə, sektoral və ümumi iqtisadi səbəbləri vardır. Bunlar makroiqtisadi və mikroiqtisadi səbəblər başlığı altında toplamaq olar.

Yüksək nisbətli inflyasiya dövrlərində bank öz qaynaqlarının real böyüklüyü, xərcləri, müəssisə xərcləri və real olaraq qazanclarının azalması baş verir. Bu səbəbdən bank sektoru ciddi problemlərlə üzləşir.

İnflyasiya səbəbiylə nağd vəsaitləri saxlama xərci yüksəldiyindən, banklar fəaliyyətləri çərçivəsində nağd vəsaitsiz qalmamağa çalışırlar. Bu vəziyyət, bankların likvidlik sıxıntısının yaranmasına yol açır. Ayrıca banklar resursların böyük hissəsini kredit olaraq istifadə etməkdən çox, gəliri yüksək və risksiz olan sahələrə yatırmağa üstünlük verirlər. Bu səbəbdən yüksək inflyasiyanın, bankların əsl funksiyalarını yerinə yetirməsinə mane olduğu ehtimal olunur.

Sürətli inflyasiya dövrlərində bankçılıq sektoruna təsir edən digər əhəmiyyətli bir problem isə problemli kreditlərin artmasıdır, çünki artan faiz yükü səbəbindən alacaqların yığımı çətinləşir. Vaxtında ödənməyən alacaqlar həm bank resurslarının axınını azaldır, həm də resursların cəlb edilməsi üzrə xərclərin artmasına gətirib çıxarır.

Defilyasiya siyasəti (qiymətlərdəki artım sürətini salmağa istiqamətlənən siyasətdir), yəni inflyasiyanın sürətlə düşməsi də nəticədə banklar üçün bir risk ünsürüdür. Çünki aşağı inflyasiya dövrlərində, yüksək inflyasiyanın səbəb olduğu qeyri-müəyyənliklər aradan qalxacağından, xüsusi seqment sərmayələri və kredit tələbi artır. Bu vəziyyətdə artan rəqabətlə faizlər düşür və bankların mənfəət marjalarında daralma yaranır. Banklararası rəqabət artır, daha çox mənfəət əldə etmək istəyən banklar daha çox risk almaq məcburiyyətində qalır və maliyyə quruluşu güclü olmayan bankların hərəkət gücü azalır. Ixracata söykənən ölkələrdə, xarici ticarət dərəcələrinin pozulması səbəbindən vergi gəlirləri və yerli tələb də azalmaqdadır. Bu vəziyyət bütün sektorların gəlirliliyinə mənfi təsir etdiyi üçün fiziki və hüquqi şəxslər və firmalar banklara olan öhdəliklərini yerinə yetirə bilmirlər. Bu səbəbdən ticarət dərəcələrinin vəziyyəti bank problemlərini təxmin etmək üçün istifadə edilən göstəricilərdən biri olaraq qəbul edilir. Banklar vəsaiti çox olan subyektlərdən vəsaitə ehtiyacı olan subyektlərə pul vəsaitlərinin köçürülməsini təmin edərək, vasitəçilik vəzifəsini yerinə yetirirlər.

Kredit bazarlarında kiçilmə dövrlərində isə bank kreditlərində azalma baş verir. Lakin, xüsusilə böhran dövrlərində kreditlərin azalması müşahidə edilir.

İndiki vaxtda bank xidmətlərinin çeşidlənməsi və xidmət sahəsinin genişlənməsi, depozitlərin təmin edilməsi və bu əmanətlərin məhsuldar investisiyalara istiqamətləndirilməsi üçün alınan qərarlar düzgün təhlil edilməlidir. Bankın maliyyə vəziyyətinə təsir edən amillər əvvəlcədən ətraflı bir şəkildə araşdırılmalı və lazım olduğunda, əlavə resurs ehtiyatları yaradılmalıdır. Bu səbəbdən bir sistem yanaşması olaraq, aktiv-passivlərin idarə edilməsinin fəaliyyəti əhəmiyyət daşıyan sahəyə çevriləcək.

Bank digər müəssisələrlə müqayisədə fəaliyyətdə olduğu bazarda ətraf şərtlərindən ən çox təsirlənən və həssaslığı yüksək olan biznes növlərindən biridir. Qənaət və xərcləmə rəqəmləri, inflyasiya dərəcələri, investisiya qərarları və hökumət siyasətlərində meydana gələn dəyişikliklər sürətli bir şəkildə bankların balanslarının aktiv və passivinə təsir edir. Haqqında danışılan sahələrdə baş verən dəyişikliklər bankların gəlir və xərclərində də artım və ya azalmaya səbəb olur. Bu səbəblə bank işinin balansları gündəlik olaraq idarə olunmalı, başqa sözlə aktiv-passivlər nəzarətdə saxlanılmalıdır.

Gəlir əldə etmək məqsədi banklar tərəfindən faiz riskinin müəyyən olunması üçün istifadə olunan ənənəvi bir yanaşmadır. Faizlərdəki dəyişmə faiz riski analizində əhəmiyyətli bir dəyişmədir. Gəlirin faiz dərəcələrinə görə dəyişkənliyi, IRR (Internal rate of return - daxili məhsuldarlıq nisbəti analizində təməl çıxış nöqtəsidir. Çünki azalan faiz gəlirləri və bütün itkilər sərmayə axınını azaldır, bazardakı etibarı sarsıdır və likvidliyi zəiflədərək, qurumun maliyyə sabitliyinə və performansına təhdid siqnalı göndərir.

Gəlirlər üzrə dəqiq faiz gəliri (ümumi faiz gəlirləri və ümumi faiz xərcləri arasındakı fərq), ənənəvi olaraq, bütün diqqətləri üzərinə cəlb edən bir gəlir cədvəli formalaşdırır. Bu fərqə bankçılıqda "dəqiq faiz marjası" adı da verilir. Həm ümumi gəlirlər içindəki payının yüksəkliyi, həm də faiz dərəcələrində dəyişikliklərdən birbaşa təsirlənməsi "net faiz gəliri"ni əhatə edir. Gəlir yanaşmasına görə bankın xalis mənfəəti faiz gəlirlərinin sabitliyinin təmin edilməsinə yönəlmişdir.

Digər tərəfdən, xarici gəlirlər ilə xarici xərclər arasındakı fərqə bankçılıqda "spred" adı verilib. Həqiqətən də bu fərq ümumiyyətlə neqativ olub, bank rəhbərliyi üzərində bir yükdür və dəqiq faiz gəlirini də azaldacaq bir təsir göstərməkdədir. Bankın faiz gəliri əldə etməsi bu yükün bir hissəsi olan xarici faiz xərclərinə dözməsinə bağlıdır.

İqtisadi dəyərləri araşdırsaq, bazarın faiz dərəcələrində dəyişmənin, bankın yalnız iqtisadi dəyərinə təsiri qalmadığını, eyni zamanda bank aktivlərinə, öhdəliklərinə və imic tanınmasının mövqelərinə də təsir edəcəyi anlamını daşıyır. Gələcəkdəki bütün pul vəsaitlərinin hərəkətini əhatə etdiyindən, gəlir yanaşmasına görə daha geniş bir dünyagörüşü şəklini verir. İqtisadi dəyər yanaşması gözlənilən faiz dərəcəsi dəyişikliklərinin təsirləri ilə birlikdə, bu dəyişikliklərin bankın dəqiq pul vəsaitlərinin

hərəkətinin bugünkü dəyərinə təsirini də nəzərə alır və faiz dərəcələrində dəyişikliklər uzun dövrdə gözlənilən təsirlərinin daha geniş əhatəli analiz edilə bilməsi üçün zəmin hazırlayır. Bankın iqtisadi dəyərinin faiz dərəcələrində dalğalanmalara qarşı həssaslığın müəyyən olunması səhmdarlarla, bank rəhbərliyi və auditorlar baxımından əhəmiyyətlidir. Bir maliyyə alətinin iqtisadi dəyəri bazar dərəcələrini əks etdirmək üçün uyğunlaşdırılan, gözlənilən pul vəsaitlərinin hərəkətinin bugünkü dəyərini ifadə edir. Bir bankın iqtisadi dəyəri isə o bankın gözlənilən nağd axınlarının bugünkü dəyəridir. Başqa sözlə desək, bir bankın iqtisadi dəyəri bank aktivlərinin yaradacağı gözlənilən pul vəsaitlərinin daxilolmaları mənfi gözlənilən nağd çıxışların müsbət tanınmasının əməliyyat mövqelərindən gözlənilən nağd daxilolmalardır. Faiz dərəcələrində dəyişmələrin gələcəkdəki bütün pul vəsaitlərinin hərəkətinin dəyəri üzərindəki ola biləcək təsirlərini nəzərə alır. Bu da, faiz dərəcələrində dəyişmənin uzun- dövrlü ola biləcək təsirləri mövzusunda gəlir yanaşmasına, müqayisədə daha geniş bir yer verir.

Banklarda hər gün nəzarət edilə bilməyən vəsaitlər üzrə pul axınının hərəkətləri yaşanır. Bunların bir qismi əmanət artımları, kreditlərin geri ödənişləri investisiyalar kimi vəsaitlərin artımına səbəb olarkən, bir qismi də əmanət çəkilişləri və yeni veriləcək kreditlərin resurslarını azaldır. Likvidlik bankın aktivlərinin təmin edə biləcəyi tələblər üzrə resurs qazandırarkən, bu vəziyyətin müvəffəqiyyətli bir şəkildə davamı olmayan passivlərin maliyyələşdirilməsi isə daha çox xərc aparan sahə olaraq təşkil edir.

Aktivlərin idarə edilməsi bankın müxtəlif mənbələrdən əldə etdiyi vəsaitləri, investisiya alternativləri arasında ən yüksək səmərə əldə edə biləcək əməliyyatıdır. Bu çərçivədə aktivlərin idarə edilməsinin əsas məqsədi, vəsaitlərin optimal bir şəkildə keçirilməsini təmin etməkdir. Bankçılıqda aktivlərin idarə edilməsi, vəsaitlərin nağd, daşınan dəyərlər, kreditlər və digər aktivləri arasındakı optimal paylanmasını təmin edir. Aktivlərin idarə edilməsi bankın boynuna götürməyi qəbul etdiyi risk səviyyəsi üçün ən yüksək gəliri təmin edəcək olan aktivlərin satın almasını da ifadə etməkdədir.

Bir bankın "likvidliyi" ilə "mənfəətlilik" arasındakı qarşıdurma bankların ən mərkəzi problemdir. Likvidlik ilə Mənfəət arasındakı əlaqə mənfi yönlü deyil. Likvidlik artdıqca, risk azalır, ancaq bununla birlikdə Mənfəət də azalır.

Passivlər bankın sahib olduğu vəsaitlərin yaranma mənbəyini göstərir. Passivlər qisamüddətli və uzunmüddətli öhdəliklərdən, digər öhdəliklərdən, şəxsi kapitaldan, yığılmış mənfəətdən formalaşır.

Banklar likvidliyi təmin etmək məqsədi ilə ən çox "depozit" və "banklararası pul bazarı əməliyyatları"ndan faydalanmaqdadır. Depozit xərci digər resurslara görə, ümumiyyətlə daha yüksək olmasına baxmayaraq, sağlam və asan dəyişməyən vəsait qaynağı olması səbəbi ilə banklar tərəfindən daha çox üstünlük verilən resurslardır.

Depozit portfeli çox sayda kiçik depozit sahiblərindən təmin edilir, böyük miqdarda vəsaitin birdəfəlik çıxışı riskini də azaldır.

5411 saylı TC Bank Qanunu bankların sərmayə artımları, şəxsi kapital, standart dərəcələri, sərmayə kafiliyi, likvidlik kafiliyi, kreditlər, risk qrupu, kredit məhdudiyyətləri, əmanət portfeli, bank investisiyaları, əmanət sığortası və s. mövzularda çox sayda məhdudlaşdırıcı qaydalar müəyyən edir.

TC Banklar haqqında Qanununun 57-ci Maddəsində bank əməliyyatlarına aid məhdudiyyətlər təyin olunub.

Bank sektorundakı rəqabət şərtləri, rəqabət quruluşu, dövlət banklarının sektordakı vəziyyəti, texnoloji inkişaflar, iqtisadi inkişaflar, pul siyasəti, maliyyə siyasəti, cəmiyyətdən gələn reaksiyalar, cəmiyyətin fikir mühakimələri və maliyyə bazarlarındakı inkişaflar xarici ətraf ünsürləri arasında sayıla bilər. Balans hesabatı obyektlərin qiymətləndirməsi üçün mühasibat standartları tərəfindən təyin olunan qaydalara uyğunlaşmalıdır.

Kommersiya bankları pul ticarəti edən təşkilatlar olaraq, öz vəsaitlərindən çox xarici resurslardan istifadə edirlər. Bu məzmunda kommersiya bankları depozitləri sataraq (ixrac edərək) və borclanaraq, mənfəət toplayırlar. Toplanan bu vəsaitlər gəlir şəklində istifadə edilir. Əmanətlərdən düzgün istifadə edərək, "kreditlər" və "qiymətli kağızlar" satırlar. Passiv yaradaraq və ya öhdəlik sataraq əldə edilən vəsaitlərdən fondlar yaradaraq, gəlir gətirən aktivləri (kredit və qiymətli kağızlar kimi) dövriyyəyə buraxaraq, bazarda pul kütləsini tənzimləyirlər.

Uzun yerləşdirilən əmanətlər faizə qarşı həssasdır. Ancaq müəyyən bir zaman müddəti üçün əmanətlər şərtlərə uyğun olaraq qaneedici faizlərlə tənzimlənir. Əsasən də müddətsiz bağlanan depozit müqavilələrində faiz şərtləri çox aşağı qəbul edilir.

Maliyyə bazarının ən əhəmiyyətli subyektlərindən biri olan banklarda etibarlılıq əsasdır. Bu səbəbdən bankların cari vəziyyəti və quruluşu hamını yaxından maraqlandırır. Partnyorlar xaricində, depozit təchizatçıları, kredit istifadəçiləri və dövlət adına yoxlama və tənzimləmə edən təşkilatlar da bankların fəaliyyəti ilə yaxından maraqlanırlar.

Güvənə söykənən bir fəaliyyəti icra edən banklarda performans analizi bank sektorunun əsas mövzularından biridir. Analiz nəticələrinə görə, bankların müvəffəqiyyət sıralaması müəyyən edilir. Hər il təyin olunan sıralamalara görə, xüsusilə bank sahibləri fəaliyyətlərini qiymətləndirməklə, yeni strategiyalar yaradırlar.

Performansı bir çox baxımdan ölçmək olur. Müştəri məmnuniyyəti, idarəçi fəaliyyəti, mənfəətlilik, məhsuldarlıq, əlavə dəyər kimi ölçülər yalnız bunlardan bir neçəsini ifadə edir. Ancaq, xüsusilə maliyyə performansının ölçülməsində bankların mənfəətliliyi hələ də ana göstəricidir. Ictimaiyyətə açıq banklarda bazar performansı isə xüsusilə investor tərəfindən yaxından təqib edilməkdə olan bir kriteridir.

Ölçü olmadan müvəffəqiyyət və ya müvəffəqiyyətsizlikdən bəhs etmək mümkün deyil.

Bank performansının ölçülməsində əsas alına biləcək ölçülərə aşağıdakıları nümunə olaraq qeyd etmək olar:

Rəqib bankların nəticələri;

Bankın illik hədəfləri;

Bankın keçmiş il üzrə nəticələri;

Sektorda tutulan reytinq.

Bu hissədə mənfəət və bazar performansı ölçülərini əsas götürülməklə bərabər, bəzi meyarları birləşdirərək, vahid bir aspekti təmin edən CAMELS metodundan da araşdırmalarda istifadə edilir.

Ədəbiyyat

[1] Abbasov Y., Məmmədov З., Rzayev P., Həmişəyeva Ş. "Bank işi və elektron bankçılıq". Bakı 2013

[2] Bağırov M.M., Banklar və bank əmliyyatları. Bakı 2003

[3] Bəşirov R.A. "PUL və banklar" ,Bakı 2012

[4] Zahid Fərrux Məmməd " Beynəlxalq valyuta – kredit münasibətləri və xarici ölkələrın pul-kredit sistemi", Bakı- 2012.

[5] Müseyib Əliyev "Bankların inkişaf istiqamətləri", "Şərq-Qərb" Bakı – 2011

[6] Zahid Fərrux Məmməd "Bank fəaliyyətının əsasları , Azərbaycanda bankçılıq", Bakı- 2014.

[7] Azərbaycanın Vergi Xəbərləri. 3/2011. Kommersiya bankları bank xidmətlərinin göstərilməsinin baza əsası kimi, Kərimov Atik Ehsan oğlu, Səh.41-54

[8] Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.

[9] Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 dekabr 2006-cı il, № 226-IIIQ

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 334 - 340
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 334 - 340

TRANSMİLLİ KORPORASİYANIN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

A.R. Vəlibəyli
magistr, UNEC
e-mail: velibeyli.aysen.va@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 19 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 19 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi müasir dövrdə ölkə iqtisadiyyatını inkişaf etdirmək, daha sürətli inkişafa nail olmaq üçün investisiyaların cəlb olunmasının əhəmiyyətini araşdırmaqdır. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın praktiki əhəmiyyəti iqtisadiyyat sahəsində tədqiqat aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində böyük rolu ola bilməsindədir. Tədqiqat nəticəsində Azərbaycan iqtisadiyyatında transmilli korporasiyaların fəaliyyəti və perspektivləri, mövcud vəziyyəti araşdırılmışdır.

Açar sözlər: investisiya, kapital, korperasiya, inteqrasiya, gəlir.
Jel Classification: K22

TRANSNATIONAL CORPORATION'S ROLE IN THE ECONOMY OF AZERBAIJAN

Abstract

The main purpose of the research is to develop the country's economy in the modern era and to highlight the importance of attracting investments to achieve faster growth. The research work was carried out on the basis of research methods such as scientific abstraction and systematic analysis, logical summarization and statistical analysis. The practical significance of the research can play a major role in enriching the scientific and practical knowledge of a specialist in the field of economy research. As a result of the research, the activity and perspectives of the transnational corporations in the economy of Azerbaijan an the current situation were investigated.

Key words: investment, capital, corporation, integration, income.

РОЛЬ ТРАНСНАЦИОНАЛЬНЫХ КОРПОРАЦИЙ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНЕ

Резюме

Главная цель исследования состоит в том, чтобы развивать экономику страны в современную эпоху и подчеркнуть важность привлечения инвестиций, чтобы достигнуть более быстрого роста. Исследовательская работа была выполнена на основе методов исследования, таких как научная абстракция и систематический анализ, логическое резюмирование и статистический анализ. Практическое значение исследования может играть главную роль в обогащении научных и практических знаний специалистов в области исследования экономики. В результате исследования были исследованы текущая деятельность и перспективы транснациональных корпораций в экономике Азербайджана.

Ключевые слова: инвестиция, капитал, корпорация, интеграция, доход.

Dünya təsərrüfatının müasir inkişaf mərhələsində ölkələrin iqtisadi artım templərinin sürətlənməsində birbaşa xarici investisiyaların rolu danılmazdır. Aydındır ki, birbaşa xarici investisiyalar ayrı-ayrı ölkələr üçün xarici dövlət borcu yaratmır və əksinə olaraq, onun örtülməsi üçün əlavə vəsait mənbələri yaradır, istehsal və elmi-texniki kooperasiya vasitəsilə milli iqtisadiyyatların beynəlxalq təsərrüfata aktiv inteqrasiyasına münbit şərait yaradır. Ölkələr arasında birbaşa xarici investisiyaların həyata keçirilməsi nəticəsində müasir dünya iqtisadiyyatında transmilliləşmə prosesini meydana çıxaran iri transmilli şirkətlər–TMK-lar yaradılır. Transmilliləşmə prosesini meydana çıxaran TMK-lar dünya təsərrüfatında yeni «güc mənbələri» olmaqla yanaşı, həm də beynəlmilləşmə prosesinin əsas aparıcı qüvvəsidir. Belə ki, müasir xarici iqtisadi fəaliyyətdə artıq ticarət deyil, mal və xidmətlərin istehsal və satışının bilavasitə xaricdə təşkil edilməsi dominant prosesdir: bu üsulla həyata keçirilən satış əməliyyatlarının həcmi ixrac əməliyyatlarının həcmini qabaqlayır, ümumdünya ixracatının özü isə tədricən TMK-nın müxtəlif şöbələri arasında aparılan firmadaxili ticarətə çevrilməkdədir.

TMK-ların strukturu:(3. s.115)

Müasir dövrdə ölkəmizin iqtisadiyyatı dünya transmilli şirkətlərinin aktiv fəaliyyət göstərmələri və birbaşa xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitə malikdir. Xarici vəsaitlərin respublika iqtisadiyyatının daha çox yanacaq-energetika kompleksinə yönəldiyi məlumdur ki, son zamanlarda bu sferada bağlanmış bir çox sazişlər bunu təsdiq edir. İndiki şəraitdə bütün keçid iqtisadiyyatlı ölkələr kimi, Azərbaycan da istehsalın aşağı düşməsi və digər problemlər qarşısında qalmışdır ki, onları da təkbaşına həll etmək respublika üçün qeyri-mümkündür. Iqtisadiyyata milli kapital qoyuluşları kəskin şəkildə aşağı düşmüş və xarici investisiyaların cəlb edilməsi ilə bu vəziyyətdən çıxma şəraiti meydana çıxmışdır. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən ölkənin intensiv inkişafı üçün tələb olunan ümumi investisiya hesablanmışdır. Belə ki, yalnız kənd təsərrüfatı və neft sənayesi ilə əlaqədar olmayan hasiledici sənaye sahələri üçün bu göstərici 9,64-10,64 mlrd. dollar təşkil edir. Ümumdünya birbaşa investisiya bazarının illik ixracının mümkün göstəricisi isə mütəxəssislərin fikrincə 200 mlrd. dollara bərabərdir. Deməli, Azərbaycan özü üçün tələb olunan məbləği cəlb etmək üçün bu seqmentdə investisiya rejiminin liberallaşması siyasətini həyata keçirən daha əlverişli investisiya iqliminə malik ölkələr ilə kəskin rəqabət aparmalıdır. Bu səbəbdən də respublikada xarici investisiyaları stimullaşdırmaq baxımından əlverişli siyasi, iqtisadi, hüquqi, sosial və sair şəraitin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir.

Azərbaycan Respublikasında xarici investisiyaların hüquqi rejimi dörd səviyyədə əks olunur. Bu hüquqi rejim konstitusiya, qanun və digər hüquqi normativ aktlar səviyyəsində; ikitərəfli və çoxtərəfli hökumətlərarası və beynəlxalq çoxtərəfli razılaşmalar səviyyəsində mövcuddurlar. Respublika ərazisində xarici investisiyalar haqqında əsas qanunvericilik aktı 1992-ci ildə qəbul olunmuş «Xarici investisiyaların qorunması haqqında Qanun»dur. Qanunda bəzi çatışmazlıqlar mövcud olsa da, xarici investisiyalara dövlət təminatı, həmçinin məhsul idxal-ixracında bəzi gömrük güzəştləri və digər güzəştlər də nəzərdə tutulmuşdur.

Hazırda xarici investorlar kapital qoyuluşunda əsasən aşağıdakı amillərə diqqət yetirirlər: 1)Siyasi sabitlik; 2)Səmərəli iqtisadi vəziyyət; 3)Hüquqi müdafiə (milli qanun və normativ aktlar); 4)Bazarın ölçüləri; 5)Təbii sərvətlərin mövcudluğu və qiyməti; 6)Əmək ehtiyatlarının keyfiyyəti; 7)İnvestisiyaların başqa investisiya layihələri ilə müqayisədə iqtisadi cəhətdən daha səmərəli olması; 8)Danışıqların "kompleks" xarakter daşıması və investisiya sahəsində səlahiyyətli bir idarə ilə aparılması; 9)Münasib tərəfdaşların aşkar olunması üçün şəraitin movcudluğu; 10) Valyutanın dönərliliyi və gəlirin repartasiya imkanları.

İnvestorların mənafeyini çoxtərəfli əsaslarda qorumaq üçün dövlətlər və başqa dövlətlərin hüquqi və fiziki şəxsləri arasında yatırımlarla bağlı mübahisələrə baxmaq üçün inkişaf etmiş ölkələr saziş bağlamağı təklif etmişdilər. Bu cür saziş 18 mart 1965-ci ildə imzalanmış və 14 oktyabr 1966-cı ildə qüvvəyə minmişdir (5. s. 89).

Ümumiyyətlə, dünya miqyasında investisiya sahəsində tətbiq olunan müxtəlif beynəlxalq qaydalara aşağıdakıları göstərmək olar: (11. s. 132)

- Dünya Bankının hazırladığı xarici investisiya rejimi haqqında əsas prinsiplər;
- İnvestisiya münaqişələrinin tənzimlənməsinin beynəlxalq mərkəzi (ICSID);
- İnvestisiyaların zəmanəti idarəsi (MİGA);
- Avropa energetika partiyası;

- ÜTT;
- Ticarət investisiya tədbirləri haqqında saziş (TRIMS);
- İntellektual mülkiyyət hüququnun ticarət aspektləri haqqında saziş (TRIPS).

90-cı illərin ortalarından başlayaraq, respublikanın yeni rəhbərliyi xarici investisiyaların Azərbaycanın iqtisadiyyatına cəlb olunması istiqamətində konkret addımlar atdı. İlk əvvəl xarici investisiyaların ölkə iqtisadiyyatına axınının hüquqi bazası yaradıldı. Azərbaycan bir çox beynəlxalq iqtisadi və maliyyə təşkilatlarına üzv qəbul edildi. Böyük Britaniya, ABŞ, Türkiyə, İran, Almaniya, İtaliya, İsrail və digər ölkələrin iri şirkətləri ilə sazişlər bağlandı. Şübhəsiz, respublikada bazar münasibətlərinin yaradılması, vergi və kredit mexanizminin təkmilləşdirilməsi, qiymətli kağızlar bazarının yaradılması xarici investisiyaların iqtisadiyyatımıza cəlb edilməsinə çox böyük təkan verdi.

Belə bir yanlış mövqe ilə razılaşmaq olmaz ki, dünyada azad iqtisadi zonalar yalnız iqtisadi cəhətdən geri qalmış ölkələrdə yaradılır. Dünya təcrübəsi göstərir ki, sənayecə inkişaf etmiş ölkələr, o cümlədən ABŞ, İngiltərə və sairə xarici investisiyaların cəlb olunmasının bu formasından uğurla istifadə edirlər.

Bir məsələ də aydındır ki, milli-siyasi maraqlar istehsal amillərinin yerləşdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır. Bu da, öz növbəsində blokdaxili ölkələr arasında uçurumun getdikcə dərinləşməsinə səbəb olur. Buna görə də, "...Əsl iqtisadi inteqrasiya formal olaraq azad rəqabətə deyil, şansların bərabərliyinə əsaslanmalıdır", hansı ki həmin bu vəziyyətin formalaşması da öz-özlüyündə dövlət müdaxiləsindən birbaşa asılıdır (3. s. 96).

Söhbət hər şeydən əvvəl inteqrasiya prosesinin bütün subyektlərinin arasında (dövlət, ayrı-ayrı firmalar, inhisarlar və sairə) optimal uyğunluğa nail olmaqdan gedir. Daha konkret ifadə etsək, prosesdə dövlətin rolu iki aspektdə nəzərdən keçirilməlidir:

1) İnzibati-siyasi aparat kimi;
2) Sahibkar kimi.

Deməli, milli iqtisadiyyatın aparıcı sahələri istisna olmaqla, digər fəaliyyət sferaları sırf bazar mexanizminə əsaslanmalı və həmin prosesdə dövlət müəssisələri yalnız iqtisadi metodlarla özəl sektorun subyektləri ilə rəqabətə girməli və inteqrasiya prosesində ümummilli mənafe baxımından tarazlığa nail olmalıdırlar (1, s. 67).

Azərbaycan Respublikasının xarici iqtisadi əməkdaşlığının mühüm istiqamətlərindən biri də birgə müəssisələrin yaradılmasıdır. Ölkənin mövcud vəziyyəti baxımından onlar aşağıdakı problemlərin həllində əhəmiyyətli rol oynamalıdırlar:

1. Respublikanın xarici iqtisadi əməkdaşlığının regional səviyyəsindən çıxış etməklə birgə, sahibkarlığın müxtəlif formaları, xüsusilə regional istehsalat, müəssisə yaxud komplekslərin yaradılmasında bir sıra çətinliklərə xüsusi fikir vermək məqsədəuyğun olardı.

2. Regional səviyyədə birgə müəssisələrin təşkili, hər şeydən əvvəl milli iqtisadi mənafelər, regional ümumilik və milli müstəqillik problemlərinin ziddiyyətli vəhdətinin dərk olunmasına əsaslanmalıdır. Eləcə də, real bazar prinsipləri və dövlət müdaxiləsinin optimal nisbətlərinə nail olunması, o cümlədən xarici kapitalın fəaliyyət rejiminin formalaşması müxtəlifliyi mütləq nəzərə alınmalıdır.

Regional iqtisadi əməkdaşlığa (xüsusilə inteqrasiya qruplaşması çərçivəsində) dövlət müdaxiləsinin mümkün sərhədlərinin müəyyənləşdirilməsində, zənnimizcə, müasir sənayenin mühüm strateji sferaları istisna olmaqla, yerdə qalan sahələrin sərbəst fəaliyyətini təmin etmək məqsədə müvafiq olardı.

Bu fikri inkişaf etdirərək, belə bir qənaətə gəlmək olar ki, dövlətlərarası (inteqrasiya bloku çərçivəsində) tənzimlənmənin əsas forması kimi, çoxmillətli şirkətlərin yaradılması və inkişafı baxımından regional səviyyədə investisiyaların stimullaşdırılması çıxış edə bilər.

Respublikanın müstəqilliyinin ilk illərində xarici investisiyalar haqqında bir çox qanunların qəbul edilməsinə baxmayaraq, ölkəyə investisiya axını siyasi vəziyyətlə əlaqədar hələ də zəif idi. Digər postsosialist ölkələrində olduğu kimi Azərbaycana da xarici investisiya axınları bir çox risklərdən sığortalanmaq üçün dövlət şirkətləri ilə birgə müəssisələrin yaradılması formasında baş verirdi. Azərbaycan Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, birgə müəssisələrin sayı 1997-ci ildə 493, 1998-ci ildə 644, 1999-cu ildə 801, 2000-ci ildə 875, 2001-ci ildə isə 922 təsərrüfat subyekti təşkil etmişdir.

«Əsrin kontraktı» proyektinin iştirakçıları

BP	BB	30.1%
AzBTC	Azərbaycan	25%
Unocal	ABŞ	8.9%
Statoil	Norveç	8.71%
TPAO	Türkiyə	6.53%
Total	Fransa	5%
Agip	Italiya	5%
Itochu	Yaponiya	3.4%
ConocoPhillips	ABŞ	2.5%
INPEX	Yaponiya	2.5%
Amerada Hess	Səudiyyə Ərəbistanı	2.36%

«Əsrin kontraktı» Azərbaycanın Xəzər sektorunda neft yatağının («Azəri», «Çıraq», «Günəşli») birgə istifadəsini nəzərdə tutur. Müqavilə dünyanın 8 ölkəsinin 12 şirkəti ilə imzalanmışdır: «Amoko» (ABŞ)-17,01%; «BP» (B. Britaniya)-17,13%; «Lukoil» (Rusiya)-10%; «Statoil» (Norveç)-8,56%; «Turkish Petrolium» (Türkiyə)-6,75%; «Unokl» (ABŞ)-9,52%; «Itochu Co» (Yaponiya)-7,45% («McDermant» şirkəti aksiyalarının bir hissəsini 1996-cı ildə

«Hotchu Co» şirkətinə satmışdır); «Ramco» (B. Britaniya)-2,08%; «Delta» (S. Ərəbistanı)-1,68%; «Penzoil» (ABŞ)-4,81%; «Exon» (ABŞ)-5% və ARDNŞ (Azərbaycan)-10% paya malikdir. Müqavilənin dəyəri 14 milyard dollardır. Bütün investisiyaların 80%-i isə xarici şirkətlər tərəfindən həyata keçiriləcək. 30 il müddətinə neftdən gələn ümumi gəlir 157,6 milyard dollar, o cümlədən Azərbaycanın gəliri isə 81,7 milyard dollar olacaqdır. 1995-ci ildə imzalanmış «Qarabağ» yatağı üzrə cəlb edilmiş investisiya-1,7 milyard dollar, 1996-cı ildə imzalanmış «Şahdəniz» yatağı üzrə - 4 milyard dollar, «Dan Ulduzu» və «Əşrəfi» yataqları üzrə - 2 milyard dollar, 1997-ci ildə imzalanmış «Lənkəran-Talış dəniz» yatağı üzrə - 2 milyard dollar, «Yalama» yatağı üzrə - 3,5 milayrd dollar, «Oğuz» yatağı üzrə - 3 milyard dollar, «Kürdaşı» yatağı üzrə isə 2,5 milyard dollar təşkil etmişdir (10). Bütövlükdə «Əsrin kontraktı» imzalandıqdan sonra Azərbaycanın enerji yataqlarının işlənməsində iştirak edən ölkələrin sayı artmış və bu kontraktlarda 15 ölkənin 33 şirkəti iştirak etmişdir. «Əsrin kontraktı»ndakı xarici şirkətlərin payını əyani şəkildə aşağıdakı şəkildə görmək olar (11):

Aşağıdakı qrafikdə isə ölkəmizin neft sektoruna kapital qoyulmasının illər üzrə dəyişilməsi göstərilmişdir:

Neft sektoruna kapital qoyuluşları illər üzrə milyon dollarla göstərilmişdir:

Azərbaycan iqtisadiyyatının müasir şəraitindən istehsal prosesini təkmilləşdirmək, yeni texnologiya tətbiq etmək üçün ölkənin xarici investisiyalara tələbatı böyükdür. Bu səbəbdən də investisiya siyasətinin hazırlanması və optimal tətbiqi zəruridir. Xarici investisiyanın cəlb edilməsində dövlətin rolu danılmazdır, belə ki, investisiyaların iqtisadiyyatın sahələri arasında optimal bölüşdürülməsi vacibdir.

Azərbaycan Respublikasının iqtisadiyyatına ən çox investisiya yatıran ölkə ABŞ-dır, son üç il ərzində ABŞ tərəfindən qoyulan investisiya ümumi investisiyanın tərkibində təxminən 33% paya malik olmuşdur. Bu da əsasən ABŞ şirkətlərinin Azərbaycanda olan neft maraqları ilə əlaqədardır. Digər ən böyük investor ölkələr Türkiyə və Böyük Britaniyadır.

Respublikada irihəcmli kontraktların imzalanması dünyanın iri şirkətləri - TMK-nın ölkəyə artan maraqlarını da əks etdirir. Milli iqtisadiyyat artıq TMK-nın ölkədə filiallarının yaradılması ilə birbaşa xarici investisiyaların axını ilə qarşılaşmaqdadır.

Birgə müəssisələrə və xarici şirkətlərin filiallarına yatırılan birbaşa investisiyaların həcmi ildən-ilə daha da artaraq, milli iqtisadiyyatda investisiya aktivliyinin sürətlə dəyişdiyinin göstəricisidir.

Ölkəmizdə TMK-ların fəaliyyət sahəsi genişləndikcə Azərbaycandan xammal axını - ixracı artır və bununla əlaqədar olaraq, TMK ölkələrinin xammal üzrə importu da artır. Son zamanlar respublikamız ixracatın strukturunun onun ümumi həcmini artırmaqla dəyişmək istiqamətində tədbirlər həyata keçirir və TMK-nın bütün digər üstünlüklərindən istifadə etməyə cəhd göstərərək, emaledici sənaye sahələrinin inkişafına çalışır.

Azərbaycana xarici investisiya qoyuluşları aktiv olaraq 1994-cü ildən sonra – siyasi sabitliyin yaradılması atəşkəs rejiminin tətbiqi ilə başlanmışdır. Əgər 1991-1994-cü illər ərzində ölkəyə cəmi 150 mln doll. investisiya qoyulmuşsa, son bir neçə ildə onun həcmi sürətlə artmış və təkcə «Əsrin kontraktı» çərçivəsində on dəfədən çox artmışdır. 1995-ci ildə isə Xarici İnvestisiyaların Koordinasiyası və Layihələrin hazırlanmasına Texniki Kömək üzrə Milli Agentlik yaradılmışdır. Adambaşına düşən xarici investisiyanın payına görə Azərbaycan MDB məkanında ön sırada dayanan ölkələr siyahısındadır.

Ədəbiyyat

[1] Гаджиев Ш. «Азербайджан на пути к мировому сообществу» Киев-1998
[2.] Организация Обьединенных Наций «ЕЭК в эпоху перемен» Нью-Йорк и Женева-1998
[3] Ведута Е.Г. «Государственные экономические стратегии» Москва-1998
[4] Холопов А. «Переходная экономика: реформа внешнеторговой политики» 1998
[5] Şəkərəliyev A.Ş. “Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər» Bakı-1999
[6] Şəkərəliyev A.Ş. «Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti» Bakı-2002
[7] Кулиев Т. «Регулируемая рыночная экономика» Баку-2000
[8] Коаров В. «Инвестиционное пространство СНГ»
[9] Семенов К.А. «Международные Экономические Отношения» Москва-2003
[10] “Azərbaycanın statistik göstəriciləri” Bakı 2006 və http//www.azstat.org
[11] The World Investment Report 2006.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 341 - 348
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 341 - 348

ŞİRKƏTİN VALYUTA RİSKLƏRİNİN DAXİLİ İDARƏETMƏ ÜSULLARI

S.B. Quluzadə

Doktorant, Azərbaycan Turizm və Menecment Universiteti
Məqalə redaksiyaya daxil olmuşdur 30 may 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 30 May 2017; accepted 22 September 2017; published online 05 oktyabr 2017

Xülasə

Tədqiqatın əsas məqsədi valyuta risklərinin şirkətdaxili idarə olunması üsullarının sistemli təsvirini vermək, iqtisadi resessiya şəraitində Azərbaycan şirkətlərində bu üsulların tətbiqi kontekstində onların üstünlükləri və çatışmayan cəhətlərini təhlil etməkdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq xarici iqtisadi münasibətlərə cəlb olunmuş şirkətlər üçün mühüm risk amili olan valyuta məzənnəsinin volatilliyinin neqativ effektlərinin yumşaldılması məqsədilə qərar qəbulunun müxtəlif mərhələlərində müəyyən sistemli tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd olunur. Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: valyuta məzənnəsinin arzuolunmaz istiqamətdə dəyişməsinin mənfi təsirlərindən qorunmaq məqsədilə konkret şəraitdə iqtisadi cəhətdən əlverişli üsulun müəyyənləşdirilməsini asanlaşdırır. Tədqiqatın elmi yeniliyi və orijinallığı: Azərbaycan gerçəklikləri nəzərə alınmaqla risklərin şirkətdaxili idarəetmə üsulları tədqiq olunmuş və sistemləşdirilmişdir.

Açar sözlər: valyuta riski, valyuta risklərinin idarə olunması, hedcləşdirmə, diversifikasiya, qiyməti yüksəldilmiş valyuta.
Jel Classification: G32

INTERNAL METHODS OF MANAGEMENT OF CURRENCY RISKS OF FIRM

Abstract

Main objective of the research – the system description of internal methods of management of currency risks of firm, the analysis of advantages and shortcomings of internal methods of management of currency risks in the context of their application in the Azerbaijani companies in the conditions of economic recession. Research is performed on the basis of methods of the system analysis, logical generalization, the comparative analysis and deduction. As result of a research need of implementation of system actions at various stages of acceptance of the decision

is noted for the purpose of mitigation of negative effects of volatility of the exchange rate which is important risk factor for the firms attracted on foreign economic activity. Restrictions of a research: wider practical information is required. Practical importance of a research: facilitates identification of an economic method of protection against negative impact of change of an exchange rate in the undesirable direction in a specific condition. Scientific novelty and originality of a research: intra-corporate methods of management of currency risks are investigated and systematized, taking into account the Azerbaijani realities.

Keywords: currency risk, management of currency risks, hedging, diversification, overvalued currency

ВНУТРЕННИЕ МЕТОДЫ УПРАВЛЕНИЯ ВАЛЮТНЫМИ РИСКАМИ ФИРМЫ

Резюме

Основная цель исследования – системное описание внутренних методов управления валютными рисками фирмы, анализ преимуществ и недостатков внутренних методов управления валютными рисками в контексте их применения в азербайджанских компаниях в условиях экономической рецессии. Исследовательская работа выполнена на основе методов системного анализа, логического обобщения, сравнительного анализа и дедукции. В качестве результата исследования отмечается необходимость осуществления системных мероприятий на различных этапах приятия решения с целью смягчения негативных эффектов волатильности валютного курса, являющегося важным фактором риска для фирм, привлеченных к внешнеэкономической деятельности. Ограничения исследования: требуется более широкая практическая информация. Практическая значимость исследования: облегчает выявление экономически выгодного метода защиты от отрицательного воздействия изменения валютного курса в нежелательном направлении в конкретном условии. Научная новизна и оригинальность исследования: исследованы и систематизированы внутрифирменные методы управления валютными рисками с учетом азербайджанских реалий.

Ключевые слова: валютный риск, управление валютными рисками, хеджирование, диверсификация, валюта с завышенной ценой.

Giriş. Valyuta risklərinin idarə olunması aşağıdakı məqsədlərə hədəflənmişdir:

1. Gəlir və aktivlərin qorunub saxlanılması.
2. Maliyyə göstəricilərinin proqnozunun yüksəldilməsi.

Valyuta risklərinin aşağıdakı mənbə və xüsusiyyətləri fərqləndirilir:

1) Transaksiya riskləri, yəni pul axınları ilə bağlı risklər:

- xarici valyuta ilə əməliyyatlar nəticəsində meydana gəlir;
- əməliyyatların tamamlanması və funksional valyutaya konvertasiyasına qədər (bir qayda olaraq ödəniş həyata keçirilənə qədər) valyuta məzənnəsi dəyişməsinin biznesə təsirini əks etdirir.

2) Translyasiya riski (balans və mənfəət və zərər haqda hesabat):

- xarici valyuta ilə əməliyyatlar nəticəsində meydana gəlir;
- bilavasitə pul effekti yoxdur, amma ana şirkətin maliyyə hesabatının nəticələrinə təsir edir;
- şirkətin xarici törəmə şirkətlərində maddi aktivləri olan hallarda translyasiya riski bir qayda olaraq yüksək olur.

3) Yenidən qiymətləndirmə riski:

- xarici valyutada nominallaşmış monetar aktiv və ya öhdəliklərin (məsələn, xarici valyutada götürülmüş və ya verilmiş borc) funksional valyutada qiymətləndirilməsi zamanı baş verir;
- hesabat dövründə bu məbləğlər uçot məqsədilə daxili valyutaya keçirildikdə, mənfəətin (zərərin) məbləğinə təsir edir;
- əməliyyatın həyata keçirilməsində transaksiya riski kimi nəzərə alınır.

1. Valyuta risklərinin idarə olunmasının mərhələləri

Deloitte konsaltinq şirkəti sorğu nəticəsində **müəssisələrin valyuta risklərini idarə etməməsinin aşağıdakı səbəblərini** müəyyənləşdirmişdir [1]:

1. Şirkətdə valyuta risklərinin idarə olunması ilə məşğul olmaq üçün kifayət qədər əməkdaşın olmaması.
2. Valyuta risklərinin idarə olunması sahəsində kifayət təcrübənin olmaması, risklərin qiymətləndirilməsinin mürəkkəbliyi, təlimat siyasətinin olmaması.
3. Son illərdə valyuta bazarının stabil olması və valyuta risklərinin idarə olunmasının qeyri-aktuallığı.
4. Şirkətdə pul axınlarının tarazlı olması – müsbət və mənfi istiqamətli dəyişmələrin tarazlaşdırılması.
5. Məzənnə dəyişikliyinin təhlükəli görünməməsi.
6. Maliyyə hedcləşdirməsi bazarının olmaması və törəmə alətlərin bahalı və qeyri-likvid olması.

Deloitte valyuta riskinin idarə olunmasının beş mərhələsini təklif edir (şəkil 1).

I mərhələ - Aşkarlanma:

- Əməliyyatların təhlili və valyuta riski mənbələrinin aşkarlanması.
- Valyuta riskinin təsirinin qiymətləndirilməsi – tarixi və proqnoz.
- Valyuta riski və valyuta "iştahına" münasibətdə strategiyanın müəyyənləşdirilməsi.

Şəkil 1. Valyuta riskinin idarə olunması mərhələləri [1]

II mərhələ - Qiymətləndirmə:

- Valyuta riskinin qiymətləndirilməsi üçün əsas göstəricilərin (maliyyə nəticəsi, pul axınları, aktivlər) seçilməsi.
- Valyuta riskinin qiymətləndirilməsinin alət və modellərinin işlənib hazırlanması.
- Mövqelərin valyuta məzənnəsinin dəyişməsinə həssaslığının qiymətləndirilməsi üçün bazar ssenariləri, o cümlədən stress-ssenarilərin işlənib hazırlanması.

III mərhələ - İdarəetmə siyasətinin işlənib hazırlanması.

- Risk iştahını, aparıcı praktikaları, biznes modelinin xüsusiyyətlərini əks etdirən valyuta risklərinin idarə olunması siyasətinin işlənib hazırlanması.
- Risk iştahının valyuta risklərinin əməliyyat hədləri səviyyəsinədək detallaşdırılması.
- Siyasətin tətbiqi və idarə olunması çətinliklərinin, onun əsas göstəricilərə təsirinin və onun həyata keçirilməsi üçün lazım olan insan resursları və informasiya texnologiya resurslarının qiymətləndirilməsi.

IV mərhələ - Siyasətin tətbiqi:

- Monitorinq və hesabatlılıq prosedurunun, limitlərin təsbit olunmasının, valyuta riskinə münasibətdə reaksiya və uçotun işlənib hazırlanması.
- Nəzarət prosedurlarının və informasiya axınlarına tələblərin işlənib hazırlanması.

V mərhələ - Monitorinq və hesabatlılıq.

Ümumən, risklərin idarə olunması üsullarını iki qrupa bölmək olar:

- Daxili idarəetmə üsulları – müəssisənin öz kommersiya fəaliyyəti çərçivəsində həyata keçirdiyi tədbirlər.
- Xarici idarəetmə üsulları – müəssisənin daxili fəaliyyətindən kənara çıxan fəaliyyəti.

2. Daxili idarəetmə üsulları

1. *Qiyməti yüksəldilmiş valyutalardan yaxa qurtarmaq* (Short an overvalued currency) [2]. Bu, daxili idarəetmə üsuludur.

Valyuta risklərindən sığortalanmanın digər üsulu aşağıdakından ibarətdir. Əgər Siz hər hansı ölkənin valyutasına etibar edib, aktivlərinizi həmin valyutada saxlayırsınızsa, buradan iki məntiqi nəticə hasil olur:

- Əvvəla, bu, böyük ehtimalla həmin valyutanın (məsələn dolların) alternativ valyutaya (məsələn avroya) nəzərən məzənnəsinin real məzənnədən yüksək olması ilə izah oluna bilər.
- Digər tərəfdən, əgər dolların məzənnəsi real məzənnədən yüksəkdirsə, Siz, təbii olaraq, bu məzənnənin aşağı düşməsindən ehtiyat edəcəksiniz.

Sözsüz ki, bu halda ən sadə yol dolların avroya dəyişdirilməsi və dolların məzənnəsi düşəndən sonra yenidən dolların alınması və fərq hesabına mənfəət əldə edilməsidir. Lakin bu əməliyyat da özündə risk daşıyır, çünki avronun məzənnəsi daha da düşə bilər. Belə bir vəziyyətdə məsləhət görülür ki, Siz səhmləri dollarda nominallaşmış (yəni dollarla alınıb-satılan) Avropa şirkətlərinin səhmlərinə investisiya qoya-sınız [3]. Bu halda, əgər:

a) dolların məzənnəsi düşərsə, Siz artıq dollardan yaxanızı qurtarırınız və dividendləri avroda alacaqsınız;

b) dolların məzənnəsi qalxarsa, Siz bu səhmləri satıb yenə də dollar əldə edə bilərsiniz.

2. *Faiz dərəcəsi daha yüksək olan ölkənin valyutasına investisiya*. Bunun ən sadə halı depozit faizi daha yüksək olan ölkənin bankına depozit qoymaqdır. Bu halda, təbii olaraq, pul aktivləri həmin ölkənin valyutasına konvertasiya olunmalıdır.

Bank riskindən ehtiyat edənlər həmin ölkənin dövlət istiqrazlarına investisiya qoya bilər.

Eyni zamanda portfel nəzəriyyəsindən məlum olan sadə bir faktı nəzərə almaq lazımdır ki, gəlirlilik faizi yüksək olan layihənin riski də yüksək olur. Buna aid çoxlu misallar mövcuddur. Məsələn, 1998-ci ildə Rusiya dövlət qısamüddətli istiqrazlarının (DQİ) gəlirliliyi ayda 40-60%-ə çatırdı və buna görə də, ölkənin bankları və vətəndaşları ilə yanaşı, külli miqdarda qaynar pullar da [4, s. 86] xarici ölkələrdən Rusiyaya axırdı. Lakin 1998-ci il avqustun 17-də Rusiya hökuməti özünü defolt elan etdi və bütün bu investisiyalar batdı, Rusiyanın bank sistemi isə çökdü.

Digər oxşar hal Braziliyada baş verdi - 2008-ci il boyu 14% təşkil edən faiz dərəcəsi 2009-cu ildə 9% azaldı [6].

İndinin özündə də bir çox ölkələrdə faiz dərəcəsi inkişaf etmiş ölkələrlə müqayisədə çox yüksəkdir (cədvəl 1).

Belə riskli investisiya zamanı daha bir amil nəzərə alınmalıdır ki, yüksək faiz fərqləri nəticəsində həmin ölkələrdəki qiymətlərdə yüksək olur və son hesabda investor ikiqat ziyana düşə bilər.

Cədvəl 1. Bəzi ölkələr üzrə mərkəzi bankın faiz dərəcəsi

Ölkə	Faiz dərəcəsi, %	Məlumatın tarixi
Malavi	24,0	dekabr 2016
Belarus	18,0	avqust 2016
Azərbaycan	15,0	sentyabr 2016
Misir	14,75	noyabr 2016
Braziliya	13,0	yanvar 2017
Ukrayna	12,5	may 2017
Qazaxıstan	12,0	noyabr 2016
Özbəkistan	9,0	yanvar 2015
Rusiya	9,75	mart 2017
Türkiyə	8,0	noyabr 2016
Gürcüstan	6,75	iyul 2016
Ermənistan	6,5	noyabr 2016
Hindistan	6,25	oktyabr 2016
ABŞ	1,25	iyun 2017
Birləşmiş Krallıq	0,25	avqust 2016
İsrail	0,1	fevral 2015
Avrozona	0,0	mart 2016
İsveçrə	-0,75	yanvar 2015
Danimarka	-0,65	yanvar 2016
İsveç	-0,5	fevral 2016
Yaponiya	-0,1	yanvar 2016

Mənbə: [5]

Avstraliyada da 2011-ci ildəki cəlbedici 4,75%-lik dərəcə hazırda 2,5%-dək azalmışdır [3].

3. *Qiyməti azaldılmış valyutaların alınması*. Qiymətli kağızlar bazarında qiyməti azaldılmış səhmlərə investisiya geniş yayılmış praktikadır. Eyni yanaşma pula da tətbiq olunur.

Valyutanın qiymətinin artırılıb-azaldılmasını müəyyənləşdirmək üçün aşağıdakı indikatorları təhlil etmək lazımdır.

- Cari hesab. Əgər burada böyük defisit varsa, bu, ölkənin valyutasının rəqabət qabiliyyətinin aşağı olması deməkdir. Başqa sözlə, cari balansdakı yüksək defisit milli valyutanın məzənnəsinin əsassız olaraq yüksək olması ilə izah oluna bilər və bu, milli valyutanın yaxın gələcəkdə devalvasiyaya uğrayacağına işarə ola bilər.
- İnflyasiyalar fərqi. Əgər *A* ölkəsində inflyasiya dərəcəsi *B* ölkəsi ilə müqayisədə çox yüksəkdirsə, yaxın gələcəkdə *A*-nın *B* ilə müqayisədə rəqabət qabiliyyətinin azalması gözlənilir və qiymətlər fərqi təzyiqi nəticəsində *A*-nın valyutasının devalvasiyasını gözləmək olar.

4. *Gəlirin əlverişli valyutada nominallaşdırılması*. Bir çox ölkələrdə belə valyuta olaraq dollar və ya avro istifadə olunur. Bu həm də ona görə əlverişli ola bilər ki, bir

qayda olaraq bu valyutalarda kreditin faizi milli valyuta kreditləri ilə müqayisədə aşağı olur. Beləliklə şirkət valyuta risklərindən azad olmuş olur.

Lakin təcrübə göstərir ki, belə yanaşma həmişə dayanıqlı olmur. Məsələn, belə hallarda daşınmaz əmlakın və onun icarəsinin də qiyməti dollarda nominallaşır. Lakin Azərbaycanda olduğu kimi dolların məzənnəsi kəskin yüksələndə, icarə müqavilələrinə əməl olunması çətinləşir, çünki əksər hallarda icarə şirkətlərinin gəlirləri manatda nominallaşır və dolların yüksək mərhələsində xərclər sürətlə artır. Nəticədə, rasional qərar icarə haqqının manatla nominallaşması olur, çünki əks halda, icarədar belə icarədən imtina edir. Azərbaycanda böyük həcmdə daşınmaz əmlakın sürətlə boşalması məhz bununla izah olunur.

5. *Debitorların xarici valyutada nominallaşmış borclarının qaytarılmasının sürətləndirilməsi və kreditorların analoji borclarının ləngidilməsi*. Başqa sözlə, bir fəaliyyətin başqasının hesabına maliyyələşdirilməsi. Bu metod həm ixrac, həm də idxalla məşğul olan məhdud sayda şirkətlər üçün yararlı ola bilər və sözsüz ki, belə əməliyyatların uğuru uyğun müqavilələrin şərtlərindən əhəmiyyətli dərəcədə asılıdır.

6. *Xərc və gəlir, aktiv və öhdəliklərin eyni valyutada nominallaşdırılması.* Əgər bu cütlərin qiymətlərinin təqribi bərabərliyinə nail olunarsa, onda nəticə göstəriciləri istənilən valyutada sıfıra yaxın olacaq.

Belə sığortalanmanın bir nümunəsinə baxaq. 2012-ci ildə ən yüksək S&Preytinqinə malik olan ABŞ-ın Caterpillar (CAT) şirkəti Rusiya rublunda nominallaşmış istiqrazlarını 7% gəlirliklə yerləşdirdi, halbuki şirkətin LIBOR faizi (təqribən 0,5%) ilə, yəni təqribən 14 dəfə ucuz faizlə borclanma imkanı vardı. Həmin dövrdə ekspertlər şirkətin bu davranışını izah edə bilmədilər. Lakin iki ildən sonra bu Rusiyada biznesin, o cümlədən CAP-ın Rusiyada aktivlərinin dollarla ifadədə qiyməti kəskin azaldıqdan sonra bu strategiyanın hikməti aydınlaşdı – aktivlərin ucuzlaşması ilə yanaşı, öhdəliklərinin də ucuzlaşması şirkəti rublun kəskin devalvasiyası riskindən sığortaladı [7].

7. Valyuta risklərinin hedcləşdirilməsi xərclərinin müqavilədə nəzərə alınması. Kifayət qədər sadə olan bu üsul praktikada çox əlverişli ola bilər. Bu yanaşma kiçik şirkətin iri şirkətlə müqaviləsində xüsusilə yararlı ola bilər. Belə ki, hedcləşdirmə xərclərindən azad olmaq üçün şirkət valyuta riski sığortalanmasını müqavilədə nəzərə almağa çalışmalıdır.

Göründüyü kimi, təklif olunan üsullar bir-birinə oxşayır və bəzi məqamlarda kəsişir. Bu, valyuta riskinin sadə təbiəti – son hesabda qiymət və ya faizə təsiri ilə əlaqəli olub, onun yumşaldılmasının, sadəcə, biristiqamətli olması ilə izah olunur.

8. Lazımi həcmdə valyutanın alınması. Valyuta mövqeyini bağlamaq üçün imkan düşdükcə firma müntəzəm olaraq ödəniş etdiyi xarici valyutanın alınması nəzərdə tutulur [8].

9. *Milli valyutada qiymətlərin korrektəsi*. Məsələn, əgər şirkət idxalla məşğuldursa, idxal üçün ödədiyi valyutanın məzənnəsi qalxırsa, şirkət də həmin məhsulun milli valyutada qiymətini qaldırır.

10. *Diversifikasiya*. Bu üsul şirkətin müxtəlif valyutalarda transaksiyalar elədiyi hallar üçün əlverişlidir. Məsələn, əgər dollar-avro məzənnəsinin intensiv dəyişməsi gözlənilirsə və bu dəyişmənin istiqaməti bilinmirsə, onda Azərbaycan şirkətinin gələcək üçün idxal müqavilələrinin bir hissəni dollar, bir hissəsini isə avroda nominallaşdırması onun dollar-avro məzənnəsinin istənilən istiqamətdə dəyişməsindən sığortalanmasını təmin etmiş olar.

11. *Kontrakt şərtlərində məzənnə dəyişikliyindən sığortalanma*. Burada iki yanaşma ola bilər:

- transaksiya məbləğinin stabil valyutada təsbit olunması;
- kontraktda transaksiya məbləğinin ödəniş valyutası məzənnəsinin dəyişməsinə mütənasib olaraq dəyişməsinin təsbit olunması.

12. *Kompensasiya*. Milli valyutada qiymətlərin valyuta dəyişməsinə korrektəsi.

13.Ödənişin müddətinin dəyişdirilməsi. Bu üsul adətən "leads and legs" (əvvəldən qarşısını almaq və ləngimək) adlanır və ödənişin həyata keçirilməsi vaxtının manipulyasiyası ilə əlaqədardır. Məsələn, əgər ödəniş dollarda olmalıdırsa və dolların manata nəzərən məzənnəsinin yüksəlməsi gözlənilirsə, onda ödənişi öncədən etmək məqsədəuyğundur. Əgər dolların devalvasiyası gözlənilirsə, əksinə, ödənişin vaxtının uzadılması əlverişlidir.

Nəticə. Valyuta məzənnəsinin volatilliyi xarici iqtisadi münasibətlərə cəlb olunmuş şirkətlər üçün mühüm risk amili olmaqla, onun aradan qaldırılmasının ümumi resepti yoxdur. Bununla bərabər, bu riskin yumşaldılması üçün qərar qəbulunun müxtəlif mərhələlərində bir sıra sistemli tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

Ədəbiyyat

[1] Управление валютными рисками в условиях растущей экономической волатильности. - ЗАО «Делойт и Туш СНГ», 2015. - 7 с.

[2] Shatz H.J, Tarr D.G. Exchange Rate Overvaluation and Trade Protection: Lessons from Experience. - World Bank Policy and Research Working Paper Number 2289.

[3] Borzykowski B. 4 ways to protect yourself from foreign-currency risk / http:/ /www. cnbc. com/ 2014/04/02/4-ways-to-protect-yourself-from-foreign-currency-risk.html

[4] Матюхин Г. "Горячие деньги". Проблемы спекулятивного, "блуждающего" капитала. – Ozon.ru, 2016 - 184 с.

[5] Central Bank News / http://www.centralbanknews.info/p/interest-rates.html

[6] Brazil Cuts Key Interest Rate To 3-1/2-Year Low Of 10.25% / https:// tradingeconomics. com/brazil/interest-rate

[7] Голованов Р.С. Управление валютными рисками / https:// finotchet.ru/ articles /198/

[8] Мартемьянова А.В. Методы управления валютными рисками. 01.06.2015 / http://www.riskovik.com/riski/rynochnye/full/248/

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 349 - 356
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 349 - 356

THE IMPORTANCE OF ECONOMIC FACTORS IN THE INTERNATIONAL ECONOMIC RELATIONS

T.M.Allahmanlı
Teacher, Baku Business University
email: bbueconomics2016@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 29 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 29 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Abstract

The main purpose of the research is to make non-balance fluctuations in world oil prices over the past 10 years, and to what extent these changes affect Azerbaijan, the current situation analysis, recommendations and recommendations. To this end, the Fed's interest rates, oil and gold have been studied in the global economy. The research work has not been implemented in a manner consistent with scientifically systematic analysis and in-depth analysis. As a result of the research, these changes have impacted the world economy on the economy, affecting oil-rich countries, and even the world market. At present, a downturn in the global economy is going on. The extent to which the countries will survive from the economic cycle will depend on the effectiveness of their reforms in oil dependence. Research restrictions: requires more coverage. The practical importance of the research can play a positive role in the development of the field of economics and the enrichment of scientific and practical knowledge of analysts and experts working in this area. The scientific innovation and originality of the research: the effects of international economic trends on the world economy have been studied and problems emerging from these trends have been revealed.

Keywords: World economy, oil, gold, OPEC, Macro indicators
Jel Classification: A12, H70

BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ GEOİQTİSADİ AMİLLƏRİN ƏHƏMİYYƏTİ

Xülasə

Tədqiqatın əsas məqsədi son 10 ildə dünya neftinin qiymətindəki qeyri-taraz dəyişikliklər baş verməsi və bu dəyişikliklərin nə dərəcədə Azərbaycana təsiri, mövcud vəziyyətin təhlil edilməsi, bu sistemin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verməkdən ibarətdir. Bu məqsədlə FED-in faiz dərəcələri, neftin və qızılın dünya iqtisadiyyatı sisteminə təsiri tədqiq edilmişdir. Tətqiqat işi elmi sistemli

təhlil, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tətqiqatın nəticəsi olaraq müəyyən edilmişdir ki, bu dəyişikliklər nəinki iqtisadiyyatı neftdən asılı olan ölkələrə, hətta dünya bazarına öz təsirini göstərməklə yanaşı, dünya iqtisadiyyatına sarsıdıcı zərbə vurmuşdur. Hazırda dünya iqtisadiyyatı sektorunda bir enmə dövrü gedir. Ölkələrin iqtisadi nə dərəcədə sağlam çıxacağı onların neftdən asılılığının azalması üçün aparılan islahatların səmərəliliyindən asılı olacaq. Tədqiqatın məhdudiyyətləri: daha geniş informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: iqtisadi sahədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin, analitiklərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı: beynəlxalq iqtisadi tendensiyaların dünya iqtisadiyyatına təsiri araşdırılıb və bu tendensiyalardan doğan problemlər aşkara çıxarılıb.

Açar sözlər: dünya iqtisadiyyatı, neft, qızıl, OPEK, makrogöstəricilər.

ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКИХ ФАКТОРОВ В МЕЖДУНАРОДНЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ

Резюме

Основной целью исследования является проведение анализа внебалансовых колебаний мировых цен на нефть за последние 10 лет и степени влияния этих изменений на Азербайджан, анализ текущей ситуации и выработка рекомендаций. С этой целью были изучены процентные ставки ФРС, на нефть и золото в мировой экономике. Исследовательская работа была реализована в соответствии с научно-системным анализом и углубленным анализом. В результате исследования было установлено, что эти изменения повлияли на мировую экономику, затрагивая богатые нефтью страны и даже мировой рынок. В настоящее время происходит спад в мировой экономике. Степень выживания стран в условиях экономического цикла будет зависеть от эффективности реформ в области нефтяной зависимости. Ограничения исследования: требует большего охвата информации. Практическая значимость исследования: может сыграть положительную роль в развитии экономики и обогащении научных и практических знаний аналитиков и экспертов, работающих в этой области. Научные инновации и оригинальность исследования: исследовано влияние международных экономических тенденций на мировую экономику и выявлены проблемы, возникающие из этих тенденций.

Ключевые слова: мировая экономика, нефть, золото, ОПЕК, макроиндикаторы.

"Financial Times" writes that the Brent oil price, which mark the first time since November last year, fell below $ 50 a barrel. The article says that the US shale oil production in the OPEC shaking confidence in the future of the increase was due to a superior. Brent oil prices fell 4.8 percent on Thursday to $ 48.38 a barrel. Texas, the price of oil fell to $ 45.52 a barrel, a decrease of 4.8 percent. According to the FT, the world's largest oil exporters, thus, the biggest decline in oil prices in recent decades in order to get rid of the redundancy agreement reached as a result of the rise down to draw. UBS Wealth Management firm Staunovo Giovanni told the FT that the current oil market mood is very low. The article states that the participants in the oil market, OPEC and outside OPEC producers such as Russia, the largest oil prices have started to believe that the loss of influence. In contrast to the high oil prices at the beginning of the year played in the US shale industry. Therefore, despite the reduction in OPEC production of oil produced than expected. According to the FT, the last day the price of oil fell along with the other materials. The price of gold fell 1 percent, the biggest decline since March. Since the beginning of the year fell to the lowest price level of silver. It was a record decline in the price of copper and corn. The most interesting is that, according to experts, despite the fact that OPEC production cuts, OPEC exports weren't decreased. OPEC and non-OPEC exporters to meet in Vienna later this month and oil prices are still very high expectations from this meeting shows that, although exporters still probably will delay production cuts. Some energy agencies in the hope that prices will stabilize in the second half of last year. Meanwhile, in the United States for 11 consecutive weeks, production is increasing and is currently at 9.3 million barrels per day is almost over.

And production of oil wells drilled in the US is growing. Increase the number of oil wells drilled in the US has reached 712.

"Margin" means that the service provider to the world's largest oil companies, is one of the "Baker Hughes" s weekly report, the number of oil wells drilled in the United States this week has risen to 712, an increase of 9 units. "Baker Hughes' s report, the number of oil wells drilled in the country showed that 17 weeks of consecutive growth. Thus, the number of wells drilled from 522 in January to 36.4 percent in the last 17 weeks. The number of oil wells drilled in 2014 in the United States in 1609 rose to the highest level in the country's history. Lower oil prices and the negative impact of the US oil industry and the fact that the number of wells drilled in May last year had fallen to 316.

Oil production increased 12 weeks.

The US Energy Information Administration (EIA) data, and in October of last year, the daily average of 8.45 million barrels, US crude oil dropped to last 12 weeks, rose 9.31 million barrels last week, much of the rise.

The experts of the Organization of Petroleum Exporting Countries (OPEC) and Russia since the beginning of this year, production levels declined, pointing to the increase in oil prices, and thus the return of America's investment in the oil sector, he said. EIA April, "Short-Term Energy Outlook" report, US crude oil production averaged 9.3 million barrels per day this year, next year is expected to be 10 million barrels. "Financial Times" writes that the rise in oil prices is unlikely in the near future and if it happens, even the "dead cat bounce" will look like. "Dead cat bounce" phraseology phrase is attributed to the financial markets. The expression used to indicate the markets are temporary revival. The article states that the decline in oil prices since last year, the lowest level of this year's first quarter earnings expectations dashed. OPEC attempts to increase demand for the benefit of freeing up crowded oil stocks will generally affect the ability of OPEC oil prices beliefs that this is going to melt away. OPEC attempts to increase demand for the benefit of freeing up crowded oil stocks will generally affect the ability of OPEC oil prices beliefs that this is going to melt away. FT writes that the oil ministers of OPEC and Russia on the reduction of production will be completed by the end of May, a deal expected to be longer, leading more than six months, but so far the reduction of oil production above the level of 50 dollars a barrel oil prices failed to keep.

Andlauer Alexander says oil analyst at Alphavalue center, or even in the near term "dead cat leap" in case of future prices are likely to fall further.

Bloomberg According to the website, the revival of US oil production of OPEC production cuts at naught all the expected results. The article states that the decline in oil prices did not lead to oil in the United States. Last week, Libya has resumed production at its two largest oil field and oil off a record amount since December 2014.

Another member of OPEC - Nigeria next month, will resume its Forcados oil export terminal, and thus 200 thousand barrels of oil per day, attributed the oil will flow into the market.

Bloomberg writes that oil demand will be observed for a period of time, creep behind the proposal. Meanwhile, India, Russia and Brazil in the first quarter of 2017, oil demand was less than expected. However, the second half of the International Energy Agency predicts that demand for oil will increase in any case. Some analysts believe that at the end of the agency's forecasts were not justified. Therefore, the oil ministers meet on May 25 are very difficult choices.

It is noted that OPEC is currently producing and exporters outside the cartel, the reduction of more than 6 months before the agreed plan to discuss the issue.

According to some experts, they logically had to do exactly that. Some oil analysts believe that OPEC production cut more enthusiastic whether you can understand. Cartel understands that reduce production further complicate this agreement is adhered to by all countries. Bloomberg writes that "Saudi Arabia and its oil partners where there were in 2014, but returned at that point."

Brent oil price rises.

The price of Brent crude oil rose by 0.5 again exceeded $ 51. Brent crude oil was sold at $ 52.02. "Margin" means that the rise in oil production decline in the United States, OPEC production cuts and a strengthening of the possibility to extend the contract at the moment due to the depreciation of the dollar against several major currencies. According to data released in the US, the annual inflation, core inflation, retail sales and retail sales, excluding cars were down forecasts. This has a negative impact on the dollar. Euro/dollar exchange rate increased by 0.5% and reached the level 1.0918 (the euro rose, the dollar strengthened).

Azerbaijan ranks 62th in the world in gold reserves.

Information about the World Gold Council (World Gold Council) have been included in the report. According to the report, the equivalent of 20 tons of gold reserves. This is 12.1% of the gold and currency reserves. Note that the gold reserves for the first five US (81335 tonnes), Germany (33779 tonnes), Italy (24518 tonnes), France (24359 tonnes) and China (18426 tons), which includes. Russia's post-Soviet countries have reserves of 1680.1 tonnes of gold in 7th place on the list, which has reserves of 267.7 tons of Kazakhstan, 21th place, 40.7 tons of gold in reserve Belarus ranked 48th. Listed on the ground in 57 of Ukraine's 25.5 tons and 14.6 tons of Tajikistan is ranked 64th, 79th place in Latvia's 6.6 tons and 5.8 tons of Lithuania and Kyrgyzstan in 82th place, 4.9 tons there are gold reserves. The other countries of the former Soviet Union's largest gold reserves were not included in the list of the top-100. The World Gold Council, Uzbekistan and Turkmenistan have no information about gold stocks.

The high levels of oil inventories in the US continue to decline and OPEC output cuts by the end of the contract extension is in the statement, then oil prices are rising consensus on the issue.

"Margin" means that the oil reserves in the United States, a record level at the end of March, continued to decrease. Jabbar Al-Luaibi Boutarfa spokesman Noureddine Iraq and Algeria, held a joint press conference in Baghdad, OPEC output cuts and its allies expressed their support to extend the contract for another six months. West Texas oil (WTI) Mercantile Exchange rose 6 cents to $ 47.89 a barrel and Brent crude at London's ICE Futures Europe rose 3 cents to $ 50.80 per barrel left. On Friday, oil closed at $ 50.77, rising 55 cents, or 1.1 percent. Prices rose 3.5% this week.

Exported from Azerbaijan to the world market, "AZERI LT CIF" 1 barrel of crude oil rose 1$, or 1.96%. "AZERI LT average price," the price of crude oil was $ 51.99 / barrel was equal. The "AZERI LT CIF" minimum price of oil in December 2001 (1915 dollars), the highest price in July 2008 (14966 US dollars) was recorded. Moody's: Azerbaijan's credit profile reflects country's vulnerability to volatile oil prices Azerbaijan's Ba2 rating and stable outlook reflect the vulnerability of the economy, government finances and banking system to oil price volatility, Moody's Investors Service said in an annual report today. The report, "Government of Azerbaijan -- Ba2 stable, Annual Credit Analysis", is now available on Moody's news agency. Moody's subscribers can access this report via the link at the end of this press release. The research is an update to the markets and does not constitute a rating action.

"The drop in oil prices resulted in a prolonged recession in Azerbaijan and has put pressure on the government and external finances," said Kristin Lindow, a Moody's Senior Vice President and co-author of the report. "Although the government's finances are supported by a large sovereign wealth fund with a value equivalent to nearly 90% of GDP, the outlook for oil and gas revenue is sufficiently constrained that the government has limited flexibility to use the fund's resources for counter-cyclical fiscal policy that would soften the impact of lower oil prices."Moody's expects that Azerbaijan's economy will contract for the second consecutive year in 2017. In the first half of the year, the economy shrank by 1.4% compared to a year earlier, and Moody's believes that the contraction for the whole year will be at a similar rate.

Oil prices remain relatively low and credit is continuing to shrink rapidly amid ongoing banking sector distress. It is unclear whether the economy will hit bottom this year in light of the government's pro-cyclical fiscal consolidation, tight monetary policy and a managed float of the exchange rate that is not allowing the manat currency to find its market-determined level.

The government and central bank have tried to shore up the country's banking sector over the past year, a process that has cost roughly 30% of GDP, in particular through the cost of restructuring the country's largest bank, the International Bank of Azerbaijan (IBA), which is nearly 100% state-owned.

Despite the restructuring, Moody's believes that the bank will still face challenges in restoring asset quality and profitability amidst managing its remaining open foreign-currency position. The wider banking system will also remain weak for some time.

The country's gross debt-to-GDP ratio, including explicit government guarantees, increased steeply to 50.7% in 2016 from 14.4% in 2014 due mainly to the large depreciation of the manat and an increase in government guaranteed debt.

Given still weak economic dynamics, Moody's anticipates fiscal deficits of 2.9% and 1.8% of GDP in 2017 and 2018, respectively, assuming oil prices stay in the range of $45-$55 per barrel over the period.

Decisive action to address the key challenges in the country's credit profile, namely the erosion in fiscal strength, the lack of economic and export diversity and the weak banking sector, would generate upward pressure on the rating. However, any improvement would be unreliable if founded solely on rising oil prices, as distinct from a gradual diversification of the economy to address the high dependence on oil, and a more strongly capitalized, liquid banking system.

The ratings would come under negative pressure if the government's balance sheet deterioration were to continue beyond 2018, particularly if that was associated with further banking sector shocks and increased budgetary reliance on the sovereign wealth fund's assets that further eroded the country's net creditor position.

In April, 410 thousand barrels per day, a decrease of global oil supply was 95.81 million barrels. Despite the monthly decline in production, 831 thousand barrels per day compared to the global oil supply increased.

The Organization of Petroleum Exporting Countries (OPEC) said in a monthly report. It is noted that global oil demand this year to 1.27 million barrels per day, an increase is expected to be around 96.38 million. Non-OPEC countries this year, an average of 950 thousand barrels of oil supply increase is expected to be 58.3 million barrels. "Thomson Reuters' investigation of the Department of Oil Markets analyst Serkan Sahin said, on May 25 at a meeting in Vienna, the Organization of Petroleum Exporting Countries (OPEC), and OPEC production cuts that are not included in the contract is expected to be extended until at least 2017 in November. 1 barrel of Brent crude on the ICE Futures exchange in London, while the value increased by $ 0.59 or 1.12% to $ 53.10. Note that the price of Brent North Sea crude oil for the first time since April 21 exceeded 53 dollars. Experts believe that the members of OPEC and non-OPEC countries will take place in Vienna to reduce production from the next summit will extend the term of the agreement.

Crude oil prices have risen in global markets due to a sharp decline in US crude oil production.

According to "Marja", at 08:20 Baku time Brent oil was found at $ 54.74 and West Texas oil was $ 49.24 per barrel. Brent oil has risen by about 1%. The US Energy Information Administration (EIA) has announced that commercial crude oil reserves in the country have risen to 462.4 million barrels last week, an increase of 4.6 million barrels (1 percent).

Marja reports that the market expectation was 4 million barrels. Last week, crude oil reserves dropped by 5.4 million barrels. Thus, US commercial crude oil inventories

have shown an increase of 9 weeks following a gradual decline. Strategic oil reserves, which are not included in commercial crude oil, dropped by 0.3 million barrels last week to 678.6 million barrels. US weekly petrol reserves dropped by 2.2 million barrels (1.4 percent) to 226.7 million barrels in the week. The market was expecting a decline of 5 million barrels. Gasoline reserves increased by 0.03 million barrels in the previous week. Copper oil production is lowered. During this period, crude oil production in the country decreased sharply by an average of 749,000 barrels compared to the previous week and dropped to 8.78 million barrels. Thus, the US crude oil production fell for the first time after 3 consecutive weeks. The country's crude oil imports dropped by 822,000 barrels a day to 7,08 million barrels per day compared to the previous week, while crude oil exports declined by an average of 749,000 barrels per day to 153,000 barrels per day. Experts point out that Hurricane Harvey has a negative impact on the operations of oil refineries in Texas, Texas and Louisiana. The factories have stopped crude oil purchases, and the country's crude oil reserves have increased. Additionally, experts underlining that the US crude oil production sharply falls due to the Harvey hurricane has also been negatively impacted by the import and export of crude oil from the Gulf of Mexico.

In conclusion, the sharp decline in oil prices in recent years has continued to have an impact on the world economy. The source of this was the traces of the crisis that began in 2008 in the United States. At present, world countries are preparing projects for the transition to alternative energy sources (2020-2050) to reduce oil dependence. The use of energy sources for the years to come is expected to be applied to other areas of the country starting from the transport sector. In turn, the economy will reduce oil dependence on oil-dependent countries (OPEC) and reduce the use of oil by oil-consuming countries.

References

[1] "Barrel Breakdown". Wall Street Journal. April 15, 2016.

[2] "International Crude Oil Market Handbook", Energy Intelligence Group, 2011

[3] "Deloitte warns of oil bankruptcies", Globe and Mail via PressReader, February 6, 2016

[4] Scheyder, Ernest. "High risk of bankruptcy for one-third of oil firms: Deloitte". Houston: Reuters. Retrieved 17 February 2016.

[5] Zillman, Claire. "One-Third of Oil Companies Could Go Bankrupt this Year". Fortune. Retrieved 17 February 2016.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 357 - 364
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 357 - 364

AUDİTOR TƏRƏFİNDƏN MALİYYƏ HESABATLARINA VƏ İŞ SƏNƏDLƏRİNƏ ÜMUMİ BAXIŞIN MƏQSƏDLƏRİ

F.M. Mirzəyeva
baş müəl., UNEC
A.S. Hacıyeva
dissertant, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 30 may 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 30 May 2017; accepted 22 September 2017; published online 05 oktyabr 2017

Xülasə

Tədqiqatın əsas məqsədi davamlı inkişaf kontekstində audit prosedurları sisteminin formalaşması və inkişafı ilə əlaqədar baş verən proseslərin araşdırılması, mövcud vəziyyətin təhlil edilməsi, bu sistemin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verməkdən ibarətdir. Bu məqsədlə məqalədə Beynəlxalq Audit Standartları, Milli Mühasibat Uçotu Standartları və MHBS tədqiq edilmişdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq, respublikamızda auditor xidmətinin mövcud vəziyyəti araşdırılmış, maliyyə hesabatlarının MHBS, MMUS və ya Peşəkar Mühasiblərin Etika Məcəlləsi ilə müəyyən edilmiş prinsiplərə və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən qəbul edilmiş qərarlara uyğunluğu barədə məsələlər nəzərdən keçirilmişdir. Tədqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tədqiqatın praktik əhəmiyyəti: uçot və hesabat sahəsində tədqiqatlar aparan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı: audit olunan iqtisadi subyektin mühasibat uçotu və maliyyə hesabatlarının auditor yoxlanmasında və onun keyfiyyətinin yüksəldilməsində maliyyə hesabatlarına və iş sənədlərinə ümumi baxışın zəruriliyi əsaslandırılmışdır.

Açar sözlər: maliyyə hesabatları, beynəlxalq auditor standartları, maliyyə hesabatlarının təhrifi, iş sənədlərinə baxış.
Jel Classification: M42

FINANCIAL REVIEW AND AUDITING OF FINANCIAL STATEMENTS

Abstract

The core of the research is the research and analysis of the current situation, as well as the propositional effectiveness of the system in the context of sustainable development, formulation and development of the audit. These standards are reviewed in accordance

with International Standards on Auditing, National Accounting Standards and IFRS. The research was conducted on the basis of research methods, such as scientific abstraction and systematic analysis, logical association and statistical analysis. The results of the research have been studied by the auditor's office in the country and reviewed by the Financial Reporting Standards, defined by the IFRS, the NAS, the Code of Ethics of Professional Accountants and Resolutions, and the Audit Chamber of the Republic of Azerbaijan. Limitations on research: all the practical information is required. The practical significance of research is that it can play a positive role in scientific and practical training of experts, accounting and accountability. Innovative Innovation and Originality Research: the common review of financial reports and business documents is justified by auditing and auditing financial reports.

Key words: financial statements, international auditor standards, distortion of financial statements, review of business documents.

ЦЕЛИ ОБЗОРА ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ И ДЕЛОВЫХ ДОКУМЕНТОВ АУДИТОРОМ

Резюме

Основной целью исследования является исследование и анализ текущей ситуации, а также внесение предложений и рекомендаций для повышения эффективности системы в контексте устойчивого развития, формирования и развития процедур аудита. С этой целью в статье рассмотрены Международные Стандарты Аудита, Национальные Стандарты Бухгалтерского Учета и МСФО. Исследование проводилось на основе методов исследования, таких как научная абстракция и систематический анализ, логическое обобщение и статистический анализ. В результате исследований был изучен текущий статус аудиторских услуг в нашей стране и рассмотрено соответствие финансовой отчетности принципам, определенным МСФО, НСБУ, Кодексу этики профессиональных бухгалтеров и решениям, принятым Палатой аудиторов Азербайджанской Республики. Ограничения исследования: требуется обширная практическая информация. Практическая значимость исследования: может сыграть положительную роль в обогащении научных и практических знаний экспертов, занимающихся вопросами учета и отчетности. Научные инновации и оригинальность исследования: необходимость в общем обзоре финансовых отчетов и бизнес-документов была оправдана при проверке и аудите финансовых отчетов проверяемого лица.

Ключевые слова: финансовые отчеты, международные стандарты аудита, искажение в финансовой отчетности, обзор рабочей документации.

Giriş. Auditor həyata keçirdiyi audit prosedurlarının nəticəsində gəldiyi qənaətlərdən əlavə, yetərli auditor sübutları təmin etmək məqsədilə maliyyə hesabatlarına ümumi baxış həyata keçirir. Bu sübutlar auditorun maliyyə hesabatlarına dair, xüsusilə də maliyyə hesabatlarının qüvvədə olan uçot standartlarına, qanunvericiliyə və digər normativ tələblərə uyğun təqdim edilib edilmədiyi barədə rəyin formalaşdırılmasına imkan verir.

Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanununa uyğun olaraq, mühasibat uçotunun metodikası mühasibat uçotunun vəzifələrinin həllini təmin edən metodlar, üsullar və qaydaların məcmusunu əks etdirir ki, bu da müəssisənin uçot siyasəti adlanır. Aydındır ki, müəssisə rəhbərliyi tərəfindən uçotun aparılmasının müəyyən olunmuş qaydası uçot siyasətində əks etdirilir. Odur ki, uçot siyasətinin hazırlanmasına qədər uçot və hesabat üzrə qaydalar, göstərişlər, təlimatlar və digər reqlamentləşdirici sənədlərin dəqiq öyrənilməsi vacibdir.

Mühasibat aparatının fəaliyyəti "Mühasibat uçotu" haqqında AR Qanunu və müəssisədə mühasibat xidməti haqqında daxili Əsasnamə ilə müəyyən edilir. Müəssisələrin fəaliyyət xüsusiyyətlərindən asılı olaraq, mühasibat uçotunun təşkili və aparılmasının konkret metodikası, formaları, texnikasının seçilməsi uçot siyasətində əks etdirilir. Yoxlama zamanı müəssisənin uçot siyasətinin rəhbəri tərəfindən təsdiq olunması haqqında əmrin mövcudluğuna, eləcə də uçot siyasətinin seçilməsi zamanı mətndə mühasibat hesabatından istifadə edənlər tərəfindən qiymətləndirməyə və qərar qəbul edilməsinə ciddi təsir göstərən mühasibat uçotunun aparılması qaydasının tam açıqlandığına diqqət verilməlidir. Kommersiya təşkilatlarında uçot siyasətinin hazırlandığı zaman özünün strateji inkişaf baxımından, təsərrüfat subyekti optimal son nəticələrə nail olmağa imkan verəcək siyasətin formalaşdırılmasına səy göstərir.

Auditorlar yoxlama zamanı auditor uçot siyasətinin mövcud qanunvericiliyə uyğun olmasına və həmin siyasətin, ona edilmiş dəyişiklərin ardıcıl tətbiq edilib-edilmədiyinə və onun bütün struktur bölmələri tərəfindən tətbiq edilməsinə diqqət verməlidir. BMUS1-ə görə Maliyyə hesabatlarının təhrif edilib-edilmədiyini və ya yanıldıcı olub-olmadığını dəqiqləşdirmək üçün bu faktın təsdiq olunması zəruridir. Uçot siyasətinə dəyişiklik edərkən həmin dəyişikliyin maliyyə hesabatlarındakı məbləğlərə təsirinin aşıqlanmasını tələb edir. Əlavə məlumatlar olmadığı təqdirdə, belə dəyişikliyin olmadığı anlaşılır.

Auditorlar maliyyə hesabatlarına dair rəy hazırlayarkən öz biznes biliklərini də tətbiq edə bilərlər. Məsələn, auditorun maliyyə hesabatlarına baxış həyata keçirərkən öz analitik biliklərindən istifadə etməsi yoxlama prosesinin keyfiyyətini, dürüstlüyünü və etibarlılığını yüksəldir. O, düzəliş edilməmiş təhriflərin göstərilmiş məbləğlərə təsirini də diqqətli bir şəkildə nəzərdən keçirməlidir. Bu prosedurlar daha təcrübəli olan və təhriflərin təsirlərini daha dəqiq ölçə bilən yüksəkvəzifəli mene-

cerlər tərəfindən həyata keçirilməlidir. Auditor peşəkar olduğuna görə bu, böyük əhəmiyyət kəsb edir. Ondan öz bilik və təcrübəsinə əsaslanaraq, maliyyə hesabatlarına dair mühakimə yürütmək gözlənilir. Bu, həmçinin onun gördüyü işə olan etimadı artırır və yüksəkvəzifəli menecerlər və audit öhdəliyi üzrə partnyorlara öz işçiləri tərəfindən görülmüş işi qiymətləndirməyə imkan verir [8, s. 252].

BAS 200 "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" adlı standarta əsasən, auditor lazımi və tam kifayət auditor sübutu hazırlamalıdır ki, maliyyə hesabatlarında əhəmiyyətli bir yanlışlıq ("materialmisstatements") olmadığı qənaətinə gələ bilsin. Lakin, eyni zamanda, auditor maliyyə hesabatlarının əhəmiyyətli bir yanlışlığının yaranmasına kömək edə biləcək halların ola biləcəyini də inkar etməməlidir.

Auditor fəaliyyəti - maliyyə hesabatlarının əhəmiyyətli səhvlərdən azad olunmasını təmin etmək məqsədi ilə, audit subyektinin maliyyə hesabatlarının və digər məlumatlarının auditor tərəfindən müstəqil yoxlanılması, qiymətləndirilməsi və onun düzgünlüyü, əsaslılığı, habelə bu hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına və ya Peşəkar Mühasiblərin Etika Məcəlləsi ilə müəyyən edilmiş prinsiplərə və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən qəbul edilmiş qərarlara uyğunluğu barədə auditor hesabatının verilməsi və ya müvafiq hallarda auditor hesabatında rəy bildirilməsindən imtina edilməsi üzrə görülən fəaliyyət sahəsidir [1, s.1-3].

Ümumiyyətllə, böyük auditor şirkətlərində müntəzəm auditor prosedurları kiçik auditorlar tərəfindən həyata keçirilir. Audit meneceri və böyük auditor partnyoru kiçik auditorlar tərəfindən görülmüş işin əsasında nəticələr çıxaracaqdır. Belə olan halda, maliyyə hesabatlarına dair rəy bildirmədən öncə, iş sənədlərinin gözdən keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu, auditora imkan verir ki, kiçik auditorların öz işlərini düzgün yerinə yetirib-yetirmədiklərini müəyyən etsin. Bununla yanaşı, partnyorlar tərəfindən yekun baxış da həyata keçirilir. Bu, auditora öz komandası tərəfindən görülmüş işlərin yoxlanılmasına və həmçinin təklif olunan müştəriyə iş zamanı təfərrüatlı prosedurlara əməl olunmasına təminat verir.

Auditorun iş sənədlərinə baxış həyata keçirməsinin əsas məqsədləri aşağıdakılardır:

- Bütün işlərin düzgün planlaşdırıldığına, yerinə yetirildiyinə və qeydə alındığına, bütün aktual məsələlərlə bağlı tədbirlər görüldüyünə əmin olmaq;
- Iş zamanı audit təşkilatı tərəfindən müəyyən edilmiş prosedurlara əməl edilməlidirsə, auditorun həmin prosedurlara əməl olunduğuna əmin olmaq;
- Həyata keçirilmiş auditin bütün sahələri əhatə etməsini təmin etmək.

Iş sənədləri əl ilə hazırlanarsa, işçilər iş sənədlərinə baxışın həyata keçirildiyini göstərmək məqsədilə müəyyən qeydiyyat edirlər. Sənədlər elektron formada hazırlanarsa, elektron "imzalar"-ın istifadə olunması məqsədəuyğundur. Kiçik audi-

torların bütün audit sahələrini əhatə etdiyinə əmin olmaq üçün bu sənədlərə böyük partnyorlar tərəfindən baxış keçirilməsi vacibdir.

Yüksək audit riski daşıyan vacib sahələrlə bağlı audit işi sənədləri daha ətraflı gözdən keçirilməlidir. Belə vacib sahələrə mal-material ehtiyatları (hər bir kommersiya təşkilatı çalışır ki, bu sahəyə nəzarət yüksək səviyyədə təşkil olunsun, çünki o, əhəmiyyətli maddə hesab olunur), nağd və cari olmayan aktivlər aid oluna bilər. Bu prosedurlardan əlavə, maliyyə hesabatlarına rəy hazırlamaq üçün əlavə audit prosedurlarının həyata keçirilməsinin vacib olub-olmadığını müəyyən etmək lazımdır.

Auditor BAS 500 "Auditor sübutları" və BAS 501 "Auditor sübutları – xüsusi maddələrə yenidən baxılması" əsas tutaraq müstəqil olaraq, auditor sübutlarının əldə edilməsi prosedurlarını müəyyən edir. Auditor öz nəticələrini əsaslandırmaq üçün müstəqil prosedurlar əsasında kifayət qədər auditor sübutları əldə etməlidir. Bu zaman auditorun sərəncamında olan informasiyalar bütün aktiv və passivlərin uçota alındığı və yoxlanılan müəssisəyə aid olduğu, uçot qaydalarının qanunvericiliyə və uçot siyasətinə uyğunluğu, bütün gəlirlər və xərclərin hesabat dövründə uçota alındığı, uçotda əks etdirilmiş təsərrüfat-maliyyə əməliyyatlarının həqiqətən də baş verməsi, təsərrüfat subyektinin maliyyə nəticələrinin düzgün formalaşdığı haqda rəyin tərtib edilməsinə imkan verməlidir.

BAS 520 "Analitik prosedurlar"a görə auditor tərəfindən əldə edilmiş informasiyaların təhlilini və qiymətləndirilməsini, mühasibat uçotunda qeyri-adi və ya düzgün olmayan təsərrüfat fəaliyyəti faktlarını, eləcə də səhvlərin və təhriflərin səbəblərini müəyyən etmək məqsədi ilə mühüm maliyyə və iqtisadi göstəricilərin tədqiq edilməsi analitik prosedurlar vasitəsilə mümkündür. Auditor sübutlarının əldə edilməsi zamanı həmin prosedurlardan geniş istifadə olunur.

Auditin yekun mərhələlərində bütün yerdə qalan sahələrin tamamlanması və gözdən keçirilməsi və ortaya çıxan məsələlərin yoluna qoyulması vacibdir. Bu mərhələ ciddi əhəmiyyət kəsb edir. Aşkar olunan əhəmiyyətsiz məsələlərin bu mərhələdə aşkar olunmaması mümkündür. Müasir dövrdə belə halların səbəbi kimi həm auditorların, həm də müştərinin vaxt qıtlığı şəraitində fəaliyyət göstərməsidir. Auditorun əsas məqsədi əhəmiyyətli olan, lakin aşkar edilməyən və nəticədə maliyyə hesabatlarında təhriflərə gətirib çıxaran sahələri müəyyən etmək olduğu üçün bu prosedura əməl etməlidir. Auditor əhəmiyyətli (yəni, kəmiyyət) yanlış qeydlərin aşkarlanması üçün BAS 320 "Auditin planlaşdırılmasında və həyata keçirilməsində əhəmiyyətlilik"-də göstərildiyi kimi, əhəmiyyətliliyin icazə verilən səviyyəsini müəyyənləşdirir. Eyni zamanda, yalnız məna (miqdarı) deyil, həmçinin təhriflərin keyfiyyəti də nəzərə alınmalıdır. O, düzəliş edilməmiş fərqləri və həmin fərqlərin maliyyə hesabatlarında əks olunmuş göstəricilərə təsirini araşdırmalıdır.

Maliyyə hesabatlarının istifadəçisini yanıltmaq ehtimalını yarada bilən təşkilatın uçot siyasətlərinin qeyri-adekvat və ya uyğun olmayan şəkildə açıqlanması, tənzimləyici tələblərin pozulmasının mövcudluğuna dair məlumatın açıqlanmaması və onun mövcudluğu halda, sanksiyaların müəssisənin hesabat fəaliyyətinə təsir göstərə bilməsi ehtimalı əhəmiyyətli təhriflər ("qualitativemisstatements") hesab olunur.

BAS 530 "Audit seçməsi" təhrif olması və ya olmamasını müəyyən etmək üçün maliyyə hesabatlarının öyrənilmə qaydalarını ortaya qoyur. Auditor yoxlamaları zamanı əməliyyatlarla və mühasibat uçotu və ya hesabatlarla yanaşı, daxili nəzarət funksiyasında da səhvlər müəyyən edilə bilər.

Auditorun sonrakı hadisələrlə bağlı auditorun öhdəlikləri aşağıdakılar hesab olunur:

Auditorlar, auditor hesabatı imzalanana qədər baş verən bütün əhəmiyyətli sonrakı hadisələrlə əlaqədar yetərli auditor sübutları əldə etmək üçün zəruri olan bütün prosedurları həyata keçirməlidir. Baş verən sonrakı hadisələrin maliyyə hesabatlarında düzəlişi və ya qeyd olunması kifayət qədər əhəmiyyətli olmalıdır.

Auditor hesabatı imzaladıqdan sonra hər hansı məsələlər aşkar edilərsə, lakin maliyyə hesabatları bu vaxta qədər nəşr olunubsa və ya artıq təqdim edilibsə, auditor maliyyə hesabatlarına hər hansı bir dəyişikliyin edilib-edilməməli olduğunu və bu dəyişikliklərin edilmə yollarını nəzərdən keçirməlidir.

O, hər hansı sonrakı hadisələr barədə məlumatlı olarsa, audit prosedurlarının əhatəsini genişləndirməlidir. Maliyyə hesabatlarına dəyişikliklər edilərsə, o, tələb olunarsa, yeni audit hesabatı hazırlamalıdır, həmçinin sonrakı hadisələri gözdən keçirmək üçün müəyyən əlavə audit prosedurları həyata keçirilməlidir. Maliyyə hesabatlarında dəyişiklik etmək barədə qərar vermək səlahiyyəti, tamamilə rəhbərliyə məxsusdur. Rəhbərlik maliyyə hesabatlarına dəyişiklik etmək qərarına gələrsə, auditor bununla yeni audit hesabatını hazırlamalıdır. Yeni audit hesabatında əvvəlki audit hesabatına istinad olunur. Yalnız sonrakı hadisələrin maliyyə hesabatlarında yalnış fikir doğuracaq dərəcədə təsir göstərdiyini hesab etdiyi hallarda auditor öz təkliflərini verə bilər.

Səhvlər maliyyə hesabatları elementlərinin tanınması, qiymətləndirilməsi, təqdim edilməsi və ya açıqlanması üzrə yarana bilər. Maliyyə vəziyyətinin, maliyyə nəticələrinin və ya pul vəsaitləri hərəkətinin müəyyən şəkildə təqdimatına nail olmaq üçün maliyyə hesabatlarında qəsdən əhəmiyyətli və ya əhəmiyyətsiz səhvlər buraxıldıqda, bu maliyyə hesabatları MHBS uyğun hesab edilmir. Cari hesabat dövründə aşkar edilmiş bu dövrün ehtimal edilən səhvləri maliyyə hesabatı dərc olunmaq üçün təsdiq edilənədək düzəldilməlidir. Lakin, bəzən əhəmiyyətli səhvlər növbəti hesabat dövrünədək aşkar edilmədiyindən, bu səhvlər növbəti hesabat dövrünün maliyyə hesabatlarında təqdim edilmiş müqayisəli məlumatlarda düzəldilməlidir ("Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər üzrə" kommersiya təşkilatlari üçün 11 №li milli mühasibat uçotu standarti 40-45-ci maddələrində açıqlama vardır).

BAS-da "səhv" (“misstatement”) ifadəsinin açıqlanması maliyyə hesabatlarının təhrif olunmasının səbəblərini qiymətləndirmək imkanı verir.

BAS 240, “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti”-nə əsasən, maliyyə hesabatlarının təhrif olunmasının səbəbləri səhv və ya dolandırıcılıqdır. Eyni zamanda, səhvlər ("səhvlər") məlumatların açıqlanmaması və ya məbləğlərin olmaması da daxil olmaqla, maliyyə hesabatlarında törədilmiş istənməyən yanlışlıqlardır. Səhvlərə daxildir:

- maliyyə hesabatlarının hazırlanması əsasında məlumatların toplanması və ya emalı prosesində səhvlər;
- faktların yanlış təfsiri və ya səhv uçotu nəticəsində yaranan yanlış hesablamalar;
- məlumatların ölçülməsi, təsnifləşdirilməsi və ya açıqlanması prosesində səhvlər.

Nəticə

11 №li Milli Mühasibat Uçotu Standartının 41-ci maddəsinə uyğun olaraq, müəssisə keçmiş hesabat dövrünün əhəmiyyətli səhvlərini, onlar aşkar edildikdən sonra, dərc edilmək üçün təsdiq edilmiş maliyyə hesabatlarının ilk məcmusunda retrospektiv qaydada aşağdakıları əhatə edərək düzəltməlidir:

(a) bu səhvlərin buraxıldığı keçmiş hesabat dövrü (dövrləri) üzrə müqayisəli məlumat yenidən təqdim edilməlidir; və ya

(b) əgər bu səhv, təqdim edilmiş ən erkən keçmiş hesabat dövründən əvvəl buraxılmışdırsa, təqdim edilmiş ən erkən hesabat dövrü üzrə aktivlərin, öhdəliklərin və kapitalın hesabat dövrünün əvvəlinə olan qalıqları yenidən hesablanaraq təqdim edilməlidir.

Nümunə: 31 oktyabr 2016-cı ildə “LMC” şirkətinin Maliyyə Nazirliyinə 2015-2016-cı il üzrə nəzərdə tutulan “Mənfəət və zərər” hesabatında “Gəlir” bölməsində 62000 manat göstərilib. Lakin daxili audit zamanı məlum olmuşdur ki, il ərzində müəssisənin gəliri 72 000 manat təşkil etmişdir. Belə olan hallarda baş mühasib aşağıdakı işləri həyata keçirir:

1) Həmin əksikliklərin aid olduğu aylar üzrə dövriyyə qalıq cədvəllərində müvafiq olaraq 601 “Satış”, 211 “Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları”, 521 “Vergi öhdəlikləri” hesablarında müvafiq müxabirləşmələr olunur;

2) Vergilər Nazirliyinə keşmiş aylar üzrə təqdim olunmuş əlavə dəyər vergi bəyannaməsində və mənfəət vergi bəyannaməsində dəqiqləşmələr aparılır;

3) Maliyyə Nazirliyinə təqdim olunmuş DSMF hesabatlarında da dəqiqləşmələr verilməlidir.

Qeyd: bütün bu dəyişikliklər və dəqiqləşmələr müəssisədə vergi yoxlamasından öncə aparılmalıdır.

Maliyyə hesabatları buraxıldıqdan uzun müddət sonra aşkar edilən məsələlər sonrakı maliyyə hesabatlarında əvvəlki dövrlərə düzəlişlər olaraq həll edilə bilər, çünki cari ildə prosedurlar üzrə yerinə yetirilən əməliyyatlar aid olduğu dövrdə tanınmalıdır.

Beynəlxalq audit standartları maliyyə hesabatlarında nəticənin dəyişdirilməsinə səbəb ola bilən təhriflərin ümumi əlamətləri və şərtlərini müəyyənləşdirir. BAS 705 "Müstəqil auditorun hesabatında fərqli rəylər"-ə əsasən bu hallar aşağıdakılardır:

- auditorun işinin azaldılması;
- təşkilatın seçilmiş uçot siyasətinə, onun tətbiqi metoduna və maliyyə hesabatlarında göstərilən məlumatların adekvatlığına dair rəhbərliklə razılaşmamaq;
- biznesin davamlılığı prinsipinə riayət edilməməsi;
- böyük bir qeyri-müəyyənlik, onun açıqlanması gələcək hadisələrin gedişatından asılıdır və maliyyə hesabatlarına təsir göstərə bilər.

Ədəbiyyat

[1] Azərbaycan Respublikasının "Auditor xidməti haqqında" Qanunu. Bakı, 1994. (Azərbaycan Respublikasının 1996-ci il 5 noyabr tarixli , 2001-ci il 23 noyabr tarixli və 2002-ci il 23 aprel tarixli qanunları ilə edilmiş dəyişiklik və əlavələrlə) Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı. "Hüquq ədəbiyyatı" 2011, 414 s.

[2] AzərbaycanRespublikasının "Mühasibat uçotu haqqında" qanunu. Bakı, 2004.

[3] Milli Mühasibat Uçotu Standartları. Bakı, 2011.

[4] "Azərbaycanın Milli Audit Standartları" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının qərarı ilə təsdiq edilmişdir. Bakı, 2004**.**

[5] Azərbaycan Respublikasinda auditor xidmətinin inkişaf konsepsiyasi (2012-2020-ci illər) Baki –2013

[6] Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2016

[7] Audit. Dərs vəsaiti (i.e.d., prof. V.T. Novruzovun elmi redaktəsi ilə). – Bakı, Azərnəşr, 2011.

[8] Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Elm – Tədris Mərkəzi "Audit və əminlik – F8", 2013

[9] V.T.Novruzov "Maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir", Azərbaycan qəzeti N230, 22.10.2015

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 365 - 371
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 365 - 371

İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİ İNKİŞAF
(nəzəri və metodoloji məsələlər)

A.T.İbrahimov
proqram meneceri, UNEC Biznes Məktəbi
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə
Hazırki məqalədə innovasiya iqtisadiyyatının inkişafının xarakterik cəhətləri, eləcə də "innovasiya", "innovasiya prosesi", "yeniliklər" anlayışlarının mahiyyəti açıqlanır. Məqalə müəllifinin fikrincə, innovasiyanı yalnız iqtisadi deyil, həmçinin sosial kateqoriya kimi də nəzərdən keçirmək lazımdır. Məqalədə innovasiyanın mənbələri və amilləri tədqiq edilir və aşkara çıxarılır, eləcə də TAMO modeli kimi ifadə olunan innovasiya trayektoriyasının müəyyənləşdirilməsinə müəllifin öz yanaşması verilir.

Açar sözlər: innovasiya, idarəetmə, innovasiya amilləri, innovasiya prosesləri, TAMO modeli
Jel Classification: O35

INNOVATIVE-ORIENTED ECONOMIC DEVELOPMENT
(theoretical and methodological problems)

Abstract
I t was opened characteristic lines of development of innovative economy, and also an essence of concept of "innovation", «innovative process», reveal in the article. According to the author of article, the innovation should be considered not only as an economic category and as social. It is given sources and innovation factors come to light and investigated, and also the author's approach to definition the innovative trajectory, expressed as model TAMO in the article

Keywords: innovation, management, innovation factors, innovative process, model TAMO.

ИННОВАЦИОННО-ОРИЕНТИРОВАННОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ (ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКАЯ ВОПРОСЫ)

Резюме
В данной статье раскрываются характерные черты развития инновационной экономики, а также суть понятия «инновации», «инновационного процесса», «новшества». По мнению автора статьи, инновацию надо рассмотреть не только как

экономическая категория и как социальная. В статье выявляются и исследуются источники и факторы инновации, а также дается авторский подход к определению инновационную траекторию, выражающиеся как модель ТАМО.

Ключевые слова: инновации, управления, факторы инновации, инновационного процесса, модель ТАМО

Müasir cəmiyyətin fəaliyyətində innovasiya sferasının intensiv inkişafı, iqtisadiyyatda elmi-texniki və innovasiya fəaliyyətinin, informasiyaların və intellektual məhsulun xüsusi çəkisinin artımı ölkənin faydalı qazıntıları, istehsal gücləri və intellektual potensialı kimi innovasiyaların da onun sərvəti sayılmasına gətirib çıxarmışdır. Azərbaycanın, onun hər bir vətəndaşının mənafeyi baxımından innovasiya və elmi-texniki potensialının effektiv istifadəsi ölkədə kompleks innovasiya siyasəti formalaşmadan və onun reallaşması üçün qanunvericilik əsasları olmadan mümkün deyildir. Bazar islahatları həyata keçirdikcə, bilik və informasiyaların rolunun artması istiqamətində Azərbaycanın dünya birliyinə inteqrasiyası və dünya iqtisadi sisteminə transformasiyası, kapital bazarları və yeni texnologiyalar arasında qarşılıqlı əlaqələrinin güclənməsi Azərbaycan iqtisadiyyatının innovasiya inkişaf yoluna keçidini daha da aktuallaşdırır.

Azərbaycan iqtisadiyyatının innovasiya inkişaf yoluna keçid istiqamətləri və metodlarını yalnız dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan aparıcı ölkələrin ümumi qanunauyğunluqları və meylləri haqqında bilgilər əsasında, eləcə də Azərbaycanın nadir təbii resursları, istehsal və elmi-texniki potensial da daxil olmaqla spesifik xüsusiyyətləri nəzərə alınmaqla işləyib hazırlamaq olar.

Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə, hər şeydən əvvəl, elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi texnoloji irəliləyişlərlə əlaqədardır. Buna uyğun olaraq, iqtisadi artımın əsas amillər və mənbələr dəsti də dəyişir. Bunlar içərisində iqtisadi sistemin inkişafı səviyyəsinə təsir göstərmək qabiliyyətinə malik təbii resurslar və kapitalla yanaşı, inteqral resursa çevrilə bilən elmi biliklər daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Təcrübə müstəvisində bu, yeni biliklərin məhsul və ya texnoloji yeniliklərə çevrilməsini təmin edən innovasiya prosesini ön plana keçirir. İnnovasiya prosesi əslində təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiya yönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır. Nəzəri cəhətdən hazırda innovasiya iqtisadiyyatının formalaşması haqqında danışmaq olar. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, yəni ÜDM artımı, əsasən, elm-

tutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir. Ümumən, bu tipli iqtisadiyyatın maddi bazası yüksək inkişaf etmiş maşınqayırma ilə, keyfiyyətcə istehsalın yeni təşkili ilə xarakterizə olunur ki, bunun da əsasında istehsal proseslərinin avtomatlaşdırılmasını, informasiyalaşdırılmasını və intellektləşdirilməsini təmin edən elmtutumlu sahələr dayanır [9, s.132].

Qeyd etmək lazımdır ki, cəmiyyət inkişaf etdikcə elm özünün spesifik qanunauyğunluqları və artım meylləri, iş metodları, texnologiya və texnikası, əməyin təşkilinin prinsipləri və sistemi, xüsusi hazırlanmış kadrları ilə insan fəaliyyətinin müstəqil sferasına çevrilmişdir. Bu, son həddartımını bilməyən digər sferaların əksəriyyətindən fərqli olaraq, daimi inkişaf etməkdə olan sferadır. Bununla yanaşı, elm sferası üçün ayrılan əmək, maliyyə və material resursları müəyyən məhdudiyyətə malikdir. Məhz resursların məhdudluğu məhdud resursların müəyyən prioritet istqamətlərə, elmi-texniki fəaliyyət (ETF) növlərinə məqsədli cəlb edilməsi üzrə strategiya və taktikanı işləyib hazırlamağa məcbur edir.

ETF yalnız nəticəsi elmi tədqiqat və təcrübi-konstruktor işləmələr(ETTKİ) sayılan fəaliyyət sferasını deyil, həm də layihə, konstruktor təşkilatlarının, istehsal aparatının, təsərrüfat və sənaye sahələrinin bu nəticələri reallaşdırmaq qabiliyyətini, o cümlədən bunun üçün biliklərə malik olacaq kadrların hazırlanması qabiliyyətini özündə birləşdirir. ETF kateqoriyasını müəyyən edilməsinə bu cür yanaşma elmi-texniki tərəqqinin idarə olunması üçün metodoloji cəhətdən çox vacibdir. Ona görə ki, bu yanaşmaya yeni yexnika və texnologiyaların yaradılmasının, istehsalı və tətbiqinin bütün mərhələ və formalarında qarşılıqlı əlaqədə olmalıdırlar. O, "elmi-istehsal-istehlak" tsikli haqqında təsəvvürü praktiki olaraq üzvi vəhdətdə istifadə etməyə imkan verir. Belə yanaşma həm də ona görə məhsuldardır ki, o, insan fəaliyyətinin bu sferasının təşkili formalarını müxtəlif tipli və səviyyəli elmi-texniki komplekslərin formalaşdırılması zəruriliyinin əsaslandırılmasına qədər izah edir və şərtləndirir.

Son illər ərzində, həyata keçirilmiş uğurlu iqtisadi islahatlar cəmiyyətin bütün həyat fəaliyyəti sahələrinə, o cümlədən də elmə müsbət təsir göstərmişdir. Ölkə Prezidenti tərəfindən elmin inkişafına dair 20-dən artıq qərarın qəbul edilməsi innovasiya yönümlü inkişaf üçün stimullaşdırıcı amil oldu. Ümumiyyətlə, elm hər zaman dövlət qayğısının mərkəzində olub və olmaqdadır. Prezidentin «Azərbaycan elmi sahəsində islahatların həyata keçirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında» 10 aprel 2008-ci il tarixli Sərəncamına müvafiq olaraq, müxtəlif nazirliklərin nümayəndələrindən ibarət olan işçi qrupunun fəaliyyət göstərdiyi müvafiq Dövlət Komissiyası yaradılmışdır.

Ölkə prezidentinin 2009-cu il 4 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi və onların həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Milli Elmlər Akademiyası müəyyən edilmişdir". Bundan başqa, ölkədə fundamental elmi

tədqiqatların stimullaşdırılmasını, təbii resursların, mədəni və tarixi irsinin öyrənilməsinin genişləndirilməsini, elmin müxtəlif sahələrində araşdırmalarının səmərəliliyinin artırılmasını və dünya məkanına Azərbaycan elminin layiqincə təmsil olunmasını təmin etmək məqsədilə ölkə prezidentinin 2009-cu il 21 oktyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu yaradılmışdır. Onu da qeyd edək ki, 2009-cu ildə Dövlət büdcəsindən elmin inkişafına 103,3 mln. manat, o cümlədən AMEA-ya 67,7 mln. manat vəsait ayrılmışdır.

Elmi bazar münasibətləri sisteminə daxil etmək üçün hazırda aralıq nəticə-müqavilənin tələblərinə uyğun olaraq başa çatdırılmış, sifarişçi tərəfindən müqavilə qiymətləri üzrə reallaşdırılan elmi-tədqiqat və təcrübi konstruktor işlərinin nəticəsi kimi qəbul edilmiş elmi-texniki məhsul nəzərə alınır. "Yeni tətbiq olunan" ("innovasiya") termini təxminən son 15-20 il bundan əvvəl elmi ədəbiyyatda və praktiki fəaliyyət sahəsində geniş tətbiq olunmağa başlanmışdır.

Yenilik-fundamental, tətbiqi tədqiqatların və işləmələrin hər hansı bir fəaliyyət sferasına onun effektivliyinin yüksəldilməsi üzrə tətbiq olunmuş nəticəsidir. Yenilik-elmi və texnikanın nailiyyətlərinin tətbiqi və bazar istifadəsi üzrə fəaliyyətin yalnız aralıq yekunudur. Yenilik intellektual məhsulun növlərindən biri şəklində, məsələn, kəşf, anlayış, elmi yanaşma, eyni prinsip, standart, tövsiyə, metodika, yeni və ya təkmilləşdirilmiş məhsula sənədləşmə, patent, səmərələşdirici təklif, ixtira, "nou-hau", marketinq tədqiqatlarının nəticələri və s. formada təsbit edilə və rəsmiləşdirilə bilər. Yenilik istehsala, idarəetmə sisteminə tətbiq olunduğundan sonra bazarda istehlak olunan məhsula çevrilir və onun reallaşdırılmasından iqtisadi, sosial və ya digər effekt növləri alınır, daha doğrusu o, yeni kateqoriyaya-yeniliyə və ya innovasiyaya çevrilir. Qeyd edək ki, "innovasiya" terminina dair çoxlu sayda təriflərə rast gəlinir. Lakin tədqiqatçıların bu iqtisadi kateqoriyaya müstəsna dərəcədə diqqət yetirmələrinə baxmayaraq elmi fikir indiyə qədər "innovasiyanın elə bir universal tərifini işləyib hazırlamışdır ki, həm nəzəriyyənin, həm də praktikanın tələblərinə cavab verə bilsin, eləcə də onları həyata keçirən konkret subyekt-dövlət, region, sahə, müəssisə baxımından uyğunluq olsun". İnnovasiya dedikdə, heç də yalnız istehsala tətbiq olunan obyekt deyil, həm də onun uğurla tətbiq olunması, və mənfəət gətirməsi nəzərdə tutulur. Aparılmış elmi-tədqiqatın və ya edilmiş kəşfin nəticələrinə görə o, keyfiyyətcə özündən əvvəlki oxşarından fərqlənir. İnnovasiyanın reallaşması prosesində baş verən elmi-texniki, texnoloji və təşkilati dəyişikliklərin məcmusunu innovasiya prosesi, yeniliklərin yaradılması, yayılması və istifadəsi dövrünü isə innovasiya tsikli adlandırmaq olar [10, s.6].

Beynəlxalq standartlara uyğun olaraq, "innovasiya" anlayışı müstəqil iqtisadi kateqoriya sayılır. O, "Fraskati rəhbərliyi" və "Oslo rəhbərliyi" adlı məşhur sənədlərdə öz əksini tapmışdır. Bu sənədlərdə qəbul edilən "innovasiya" anlayışı idarəetmə sahəsindəki nəzəriyyəçilər və praktiklərin əksəriyyəti tərəfindən müdafiə olunur. Məhz o,

Azərbaycanda innovasiya üzrə normativ-hüquqi bazanın işlənməsi, eləcə də innovasiya fəaliyyəti üzrə konsepsiya, proqram və digər strateji sənədlərin işlənib hazırlanması əsas götürülür. Beynəlxalq Standarta görə innovasiya(yenilik) bazarda tətbiq olunan yeni və ya təkmilləşdirilmiş məhsul, praktiki fəaliyyətdə istifadə edilən yeni və ya təkmilləşdirilmiş texnologiya şəklində və yaxud da sosial xidmətlərə yeni yanaşmada əldə edilən innovasiya fəaliyyətinin son nəticəsi kimi müəyyən edilir [8]. Innovasiya istehsal sferasına, iqtisadi, hüquqi, sosial münasibətlərə, elm, mədəniyyət təhsil sahələrinə və digər sferalara aid oluna bilər. Məhz bu cür şərhin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində öz əksini tapmasını məqsədəuyğun sayırıq.

İqtisadi ədəbiyyatda bəzən "yenilik" və "innovasiya" anlayışları eyniləşdirilir, bəzən isə bu anlayışlar bir-birinin sinonimi kimi işlədilir. Əslində isə yenilik istənilən fəaliyyət sferasında istehsalın səmərəliliyinin yüksəldilməsinə dair fundamental, tətbiqi tədqiqatların, işləmələrin və yaxud təcrübi işlərin nəticəsi olduğu halda, innovasiya idarəetmə obyektinin dəyişdirilməsi, eləcə də iqtisadi, sosial, ekoloji, elmi-texniki və s. növ səmərənin alınması məqsədilə tətbiq olunan yeniliklərin son nəticəsi kimi çıxış edir. Prinsip etibarilə, innovasiya dedikdə, ixtira, kəşf, patent, əmtəə nişanı, səmərələşdirici təklif kimi tətbiq olunan yeniliklərdən alınan nəticələrin məcmusu başa düşülür. Yenilik anlayışı dinamik hərəkətdə olan mütərəqqi yeniliyi əks etdirməklə onu qəbul və istifadə edən təşkilati sistem üçün yeni sayılır. Mənasına görə, "innovasiya" sözü (ingiliscə innovation) "yenilik" sözü ilə eynidir. İnnovasiyaya yeniliyin yaradılması, yayılması və istifadəsi üzrə inkişaf etməkdə olan kompleks sistem kimi baxılır və o, innovasiya fəaliyyətinin inkişafına və səmərəliliyin yüksəldilməsinə kömək edir [12, s.5]. İnnovasiya adı altında aparılmış elmi-tədqiqat nəticəsində istehsala tətbiq olunan obyekt və ya da özündən əvvəlki analoqundan keyfiyyətcə fərqli edilmiş kəşf başa düşülür.

İnnovasiya iqtisadi kateqoriya kimi yeniliyin istehsalı və reallaşdırılmasının daha ümumi xassələrini, əlamətlərini, əlaqə və münasibətlərini əks etdirir. Innovasiyanın mahiyyəti özünü onun funksiyaları dövlətin iqtisadi sistemində onun təyinatını və təsərrüfat prosesində rolunu ifadə edir. İnnovasiyalar müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsində xüsusi rol oynayır. İnnovasiyaların təhlili göstərir ki, onlar sosial-iqtisadi xarakterli funksiyalar yerinə yetirirlər. İqtisadi ədəbiyyatda qeyd olunduğu kimi, iqtisadi kateqoriya olaraq innovasiya iki əsas funksiyanı-təkrar istehsal və stimullaşdırma funksiyalarını yerinə yetirir [6, s.19]. Təkrar istehsal funksiyası onu göstərir ki, innovasiya geniş təkrar istehsalın mühüm maliyyələşdirmə mənbəyi kimi çıxış edir. Innovasiyaların bazarda satışından əldə edilən pul gəlirləri sahibkarlıq mənfəətini yaradır ki, bu da maliyyə resurslarının mənbəyi və eyni zamanda innovasiya prosesi səmərəliliyinin ölçüsü kimi çıxış edir.

Sahibkarlıq mənfəəti istehsal-ticarət, investisiya, innovasiya və maliyyə fəaliyyəti həcminin genişləndirilməsinə yönədilə bilər. İnnovasiyalardan mənfəətin alınması

və maliyyə resurslarının mənbəyi kimi onun istifadəsi innovasiyanın təkrar istehsal funksiyasının məzmununu təşkil edir. Stimullaşdırma funksiyası da sahibkarlar tərəfindən innovasiyanın reallaşdırılmasından mənfəət alınması yolu ilə gerçəkləşir. Bu, sahibkar üçün yeni innovasiyalara stimul yaradır, onu daim tələbi öyrənməyə, marketinq fəaliyyətinin təşkilinin təkmilləşdirilməsinə, maliyyənin idarə edilməsinin daha təkmil üsullarını tətbiq etməyə sövq edir.

Hesab edirik ki, innovasiyanın tərifinə "ehtiyatlar" və "axınlar" mövqeyindən yanaşılması daha düzgün olardı. Obyekt yanaşması mövqeyindən yanaşmada innovasiyalar ehtiyatlar kimi təmsil olunur. İnnovasiyanın axınlar kimi müəyyən edilməsi təkrar istehsal yanaşmasını tələb edir. Bu isə prosesin hər bir fazasının xüsusiyyətlərinin aşkara çıxarılmasından innovasiya ideyalarının iqtisadi reallaşdırılmasına qədər innovasiya prosesinin bütün mərhələlərini izləməyə imkan verir. Tədqiqat, işlənmə, təcrübi istehsal fazalarında elmi-texniki biliklərin və aktiv tətbiqetmə fazalarında elmi biliklər hazır nəticəyə keçir.

Yuxarıda qeyd olunanları yekunlaşdırmaqla belə qənaətə gəlmək olar ki, innovasiya dedikdə, yəni əmtəə, xidmət, texnologiyalar, təşkilati forma, idarəetmə metodu şəklində öz praktiki təcəssümünü və tətbiqini tapmış ideyaların reallaşdırılması üzrə yaradıcılıq prosesi başa düşülməlidir.

İnnovasiyanın mənşəyini izah edən iki ehtimal: "texnoloji məkan" və "tələbin çağırışı" ehtimalları mövcuddur. "Texnoloji məkan" ehtimalı Q. Menş tərəfindən irəli sürülmüşdür. Bu ehtimala görə, innovasiyanın meydana çıxması mənbəyi kimi istehsalın daxili qanunauyğunluqları çıxış edir. K.Frimenin tərəfdarı olduğu "tələbin çıxarışı" ehtimalına görə isə innovasiyanın yaranmasında müəyyənedici amil tələbdir. Real həyatda innovasiyanın meydana çıxmasında bunlardan hansı birisinin ilkin səbəb kimi çıxış etdiyini müəyyən etmək çətindir. S.Y. Qlazyevin fikrincə, "...çoxsaylı empirik tədqiqatlar bu və ya digər yeniliyin yayılmasının ictələbatın vəziyyətindən asılılığını inamlı olaraq nümayiş etdirir: ixtiraların çoxu onilliklərlə, hətta bəzən yüzilliklərlə onların istifadəsinə gözləməkdə qalırlar. Öz növbəsində, bu və ya digər məhsula tələbat xeyli dərəcədə onun istehsal imkanları ilə müəyyən olunduğu halda, istehlakçı davranışının dəyişkən stereotitlərinin təsiri altında formalaşırlar" [7, s.71].

İnnovasiyaların meydana çıxması mənbələrini və amillərini sistemləşdirməyə çalışaq. İnnovasiyanın meydana çıxma mənbələri dedikdə, innovasiyanın yaradılmasının qeyri-mümkün və ya çətin olduğu fundament başa düşülməlidir. Belə mənbələrin iki əsas qrupunu ayırmaq olar: 1. Artan tələbatla onların ödənilməsinin məhdud imkanları arasında ziddiyyət; 2. Elmi-intellektual da daxil olmaqla cəmiyyət tərəfindən toplanmış resurs potensialı. İnnovasiyanın meydana çıxması amilləri isə o qüvvələrdir ki, onlar cəmiyyətin tələblə yeni yaradılmış biliyin hazır nəticəyə keçdiyinə imkan verirlər. Həmin amilləri iqtisadi, texnoloji və sahibkarlıq amilləri kimi qruplaşdırmaq olar. İnnovasiyanın meydana çıxmasının başlıca amilini ayırmaq kifayət qədər çətindir. Bir qayda

olaraq, iqtisadçıların əksəriyyəti mənfəət artımını innovasiyanın əsas amili sayır. Həqiqətən də mənfəət innovasiyalar üçün vacib iqtisadi stimuludur, lakin bəzən innovasiya xeyli pul mənfəəti gətirməyə də bilər, lakin xeyli pozitiv sosial effektə malik ola bilər ki, bu da sosial-məsul subyekti kimi istehsalçının imicini yüksəldəcəkdir, məsələn, ictimai nəqliyyatda yaşlılar üçün alçaq pilləkənlər və yaxud əlillər üçün xüsusi girişlə təchiz olunmuş ictimai nəqliyyat.

Nəticə. Hesab edirik ki, yuxarıda qeyd olunan əlavələri ümumiləşdirmək və TAMO modelini "müasir insan resursu mühitinin formalaşması" elementi ilə tamamlamaq daha düzgün olardı. İnnovasiyanın işlənib hazırlanması və praktiki reallaşması prosesinin idarə edilməsi Azərbaycan elmində tədricən müstəqil istiqamətə çevrilməkdədir. İnnovasiya prosesinin daimi inkişaf təmayülü müasir tipli yerli müəssisələr üçün başlıca obyektiv zərurət sayılır. Azərbaycanın istənilən təsərrüfat subyektinin həyat qabiliyyəti işlərin innovasiya cəhətdən yenidən qurulmasındakı nailiyyətlərin dərəcəsindən birbaşa proporsional asılılıqda yerləşir. İqtisadi fəaliyyətin bütün funksional sferalarında yeniliklərin yaradılması və səmərəliliyin yüksəldilməsi prosesi planlaşdırmanın, elmi tədqiqatların, layihələrin işlənib hazırlanmasının, məhsul istehsalının, marketinqin, bir sözlə, bazarda bütün salamatqalma prosesinin ayrılmaz sisteminə çevrilməlidir. Ölkənin bütün təsərrüfat subyektlərində innovasiya tədbirlərinin tətbiqi sferasının genişlənməsini və səmərəliliyin keyfiyyətinin yüksəldilməsini təmin edən xüsusi bölmələr, xidmətlər yaradılmalıdır. İnnovasiya sisteminə daha çox yeniliklərin yaradılması prosesinin idarə edilməsi, kollektivin yaradıcılıq potensialının daha yaxşı istifadə edilməsi daxil olunmalıdır.

Ədəbiyyat

[1] Гончаренко Л.П. Инновационная политика: Учебник/М.:КНОРУС, 2009., 352 с.
[2] Глазьев С.Ю. Теории долгосрочного экономического развития.М.:Вла Дар, 1993.
[3] Инновационная политика/под ред. проф. В.И. Дуженкова. М., 2000.
[4] Ленчук Е.Б. Инновационный фактор в экономическом развитии постсоциалистических стран. М., ОМЭПИ ИЭ РАН, 2006.
[5] Медынский В.Г.Инновационный менеджмент:учебник.М.:ИНФРА-М, 2002.
[6] Теория инновационной экономики: учебник/Под ред. О.С. Белокрыловой-Ростов н/Д: Феникс, 2009, 376 с.
[7] Уткин Э.А. Инновационный менеджмент. М.: Акалис, 1996.
[8] Федосеева, Т.А. Сравнительный анализ инновационных систем и инновационного развития различных стран научно-технический журнал «Известия Академии инженерных наук. Т 11. Москва-Н.Новгород, 2005.
[9] Шумпетер Й. Теория экономического развития. –М.: Прогресс, 1982.
[10] Янсен Ф. Эпоха инноваций. Пер. с англ.-М.: Инфра-М-М, 2002

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 372 - 379
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 372 - 379

DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIQ RUSIYA REGIONLARININ INVESTISIYA STRATEGIYALARI SISTEMINDƏ

C.K. Əliyev
G.V. Plexanov adına Rusiya İqtisad Universiteti
117997, Rusiya Federasiyası, Moskva şəhəri, 36-cı Stremyannıy dal.,
E-mail: dzhamil616@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017;
online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi dövlət-özəl tərəfdaşlıq (DÖT) təcrübəsinin Rusiya regionlarının iqtisadiyyatının investisiya prosesinin fəallaşdırılmasında rolunun araşdırılması, investisiyaların regionlarda tənəzzülünün aradan qaldırılmasında, istehsalat investisiyalarının şaxələndirilməsi və daha çox sənaye istehsalının yüksəldilməsi vəzifələrinin həllinə istiqamətləndirilməsində təkan verə biləcək şərtlərin müəyyən edilməsidir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın yekunu olaraq ilk növbədə dövlət-özəl tərəfdaşlıq təcrübəsinin və ən başlıcası, onun "investisiya yükü"nün Federasiya subyektlərinin sosial-iqtisadi inkişaf strategiyalarına inteqrasiyasının zəruriliyi əsaslandırılır. Məqalədə dövlət-özəl tərəfdaşlıq təcrübəsinin ayrı-ayrı regionların investisiya cəlbediciliyinin yüksəldilməsi səyləri, habelə tərəfdaşlıq sazişlərinin hər bir Federasiya subyektinin sosial-iqtisadi şəraitinin spesifikliyinə daha çox cavab verən növlərinin seçilməsi ilə uzlaşdırılması təklif olunur. Tədqiqat qarşısında ən böyük maneə çoxlu praktik informasiyanın tələb edilməsi ilə bağlıdır. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, burada Federasiya subyektlərində dövlət-özəl tərəfdaşlıq təcrübəsinin maliyyə-iqtisadi bazasının möhkəmləndirilməsi, habelə regionlarda dövlət-özəl tərəfdaşlıq təcrübəsi layihələrinə adekvat maliyyə, əmlak, informasiya, kadr və digər dəstəyin inkişaf etdirilməsi üçün regional institutların müxtəlif növlərindən istifadə zərurəti sübuta yetirilir.

Açar sözlər: dövlət-özəl tərəfdaşlıq, regionların iqtisadiyyatı, strateji planlaşdırma, investisiyalar, maliyyə təminatı, inkişaf institutları.
Jel Classification: O16, P33

PUBLIC-PRIVATE PARTNERSHIP IN THE SYSTEM OF INVESTMENT STRATEGIES OF RUSSIAN REGIONS

Abstract.

The purpose of the article is to prove that the practice of public-private partnership (PPP) can make a significant contribution to the intensification of investment processes in Russian regions, to determine the conditions, under which PPP can facilitate to overcoming of investment recession, to the diversification of productive investments and ensure greater focus on the solution of tasks of industrial production development. The research was made

on the basement of the methods of scientific abstract and systematic analysis, logical conclusions and statistic analysis. The result of the study is, first of all, the conclusion about the necessity of integration of PPP practices and, most important, of its "investment deposit" in the strategies of socio-economic development of subjects of Federation. It's proposed to make focus on the harmonization of the practice of PPP with the overall efforts to improve the investment attractiveness of concrete regions and also with the choice of those kinds of partnerships, which best of all meet the specifics of the socio-economic conditions of each subject of the Federation. Obstacles of the study: needs more practical information. Practical significance of the research is that it calls for the strenhthening of financial-economic base of PPP practice in the regions, as well as the use of various types of regional institutions of development for the adequate financial, property, information, personnel and other support to PPP projects in the regions.

Key words: state-private partnership, regional economy, strategic planning, investments, financial provision, "institutions of development".

ГОСУДАРСТВЕННО-ЧАСТНОЕ ПАРТНЕРСТВО В СИСТЕМЕ ИНВЕСТИЦИОННЫХ СТРАТЕГИЙ РОССИЙСКИХ РЕГИОНОВ

Резюме

Цель данной статьи - показать, что практика государственно-частного партнерства (ГЧП) способна внести существенный вклад в активизацию инвестиционного процесса в российских регионах, определить условия, при которых ГЧП может способствовать преодолению инвестиционного спада, диверсификации производственных инвестиций и их большей ориентации на решение задач подъема промышленного производства. Исследование было выполнено на основе методов научного абстрактного и системного анализа, логического обобщения и статистического анализа. Результат исследования – это, прежде всего, вывод о необходимости интеграции практики ГЧП и, главное, ее «инвестиционной нагрузки» в стратегии социально-экономического развития субъектов Федерации. Предлагается сделать акцент на согласование практики ГЧП с общими усилиями по повышению инвестиционной привлекательности отдельных регионов, а также с выбором тех видов партнерских отношений, которые в наибольшей мере отвечают специфике социально-экономических условий каждого субъекта Федерации. Ограничения исследования: требуется больше практической информации. Практическая значимость исследования состоит в том, что в нем доказывается необходимость укрепления финансово-экономической базы практики ГЧП в субъектах Федерации, а также использования различных видов региональных институтов развития для адекватной финансовой, имущеественной, информационной, кадровой и иной поддержки проектов ГЧП в регионах.

Ключевые слова: государственно-частное партнерство, экономика регионов, стратегическое планирование, инвестиции, финансовое обеспечение, институты развития.

Ölkədə iqtisadi modernləşdirmə strategiyasında dövlət-özəl tərəfdaşlıq. Müasir dünya təsərrüfatçılıq təcrübəsində dövlət-özəl tərəfdaşlığın müxtəlif növlərindən həm sahələrin geniş spektri üzrə ictimai əhəmiyyətli infrastruktur obyektlərinin uzunmüddətli maliyyələşdirilməsi və idarə edilməsi üçün, həm də bütövlükdə ərazilərin sosial-iqtisadi inkişafına investitiya qoyuluşu üçün ümumi əlverişli şəraitin yaradılması məqsədilə geniş istifadə olunur. Dövlət-özəl tərəfdaşlıq layihələrinin realizəsinin hər bir konkret istiqamətinin seçilməsi daha çox ölkənin və onun ayrı-ayrı regionlarının iqtisadi inkişaf səviyyəsindən, onların qarşısında duran təsərrüfat və sosial vəzifələrin prioritetindən asılıdır. Hazırda dünya və ölkə təcrübəsində formalaşmış dövlət-özəl tərəfdaşlıq növlərinin və formalarının müxtəlifliyi bu idarəetmə və maliyyə əməkdaşlığı institutunu milli və lokal xarakterli müxtəlif strateji vəzifələrin universal həll mexanziminə çevirir. Dövlət-özəl tərəfdaşlıq layihələri ümumdövlət və lokal əhəmiyyətli sosial və infrastruktur layihələrinin reallaşdırılmasından innovativ istehsalat texnologiyalarının işlənib hazırlanmasına və təcrübədə tətbiqinə, habelə yeni "inkişaf nöqtələri"nin formalaşdırılmasına qədər təsərrüfat fəaliyyəti sahələrinin geniş diapazonunda reallaşır. Dövlət-özəl tərəfdaşlıq layihələrinin Avropada tətbiqinə ən uğurlu nümunələr İngiltərə, Almaniya, İrlandiya, İtaliya, Türkiyə və Fransa kimi ölkələrdir. 2015-ci ilə olan məlumata görə, Avropada dövlət-özəl tərəfdaşlıq sazişlərinin sayı belə bölünmüşdür: İngiltərənin payına il ərzində başa çatdırılmış 2,4 mlrd avro dəyərində 15 layihə; Fransanın payına 5 layihə (1,2 mlrd avro); Hollandiyanın payına - 4 layihə (0,9 mlrd avro); İrlandiyanın payına – 2 layihə (0,6 mlrd avro); Almaniyanın payına – 4 layihə (0,5 mlrd avro) düşmüşdür [1].

Rusiya şəraitində dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadə uzun müddət ciddi "ləngidici amillər"lə qarşılaşmışdır. Bunlar tərəfdaşlıq prinsiplərindən istifadəyə kifayət qədər istiqamətlənməmiş iqtisadi (sahibkarlıq) strukturlarının sabit qalması, belə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində zəruri təcrübənin olmaması ilə bağlı idi. Təcrübənin inkişafını hakimiyyət orqanlarının və özəl biznes nümayəndələrinin qarşılıqlı inamsızlığı amilləri ləngidirdi. Dövlət-özəl tərəfdaşlığın əsasları haqqında vahid federal qanunvericiliyin, habelə dövlət-özəl tərəfdaşlıq təcrübəsini Rusiya regionlarının uzunmüddətli inkişaf planlarına və strategiyalarına daxil etməyə imkan verən normativ-hüquqi sənədlərin qəbul edilməsinin uzun müddət gecikdirilməsi də öz mənfi rolunu oynadı.

Strateji planlaşdırma haqqında federal qanunun qəbul edilməsi (bundan sonra FQ-172) [5] ölkədə və onun regionlarında dövlət və bələdiyyə idarəçiliyinin bütün sistemində sadəcə keyfiyyət irəliləyişi olmadı. Qanun dövlət hakimiyyət ehtiyatlarının, habelə bu ehtiyatları ərazilərin davamlı təsərrüfat və sosial inkişafı məqsədilə realizə edən institutların bu və ya digər şəkildə təmsil olunduğu iqtisadi münasibətlərin bütün sisteminin əhəmiyyətli dərəcədə yenilənməsi ilə bağlı hüquqi və institusional ilkin şərtləri və hətta tələbləri formalaşdırdı. İqtisadi münasibətlərin belə formaları sırasına dövlət-özəl tərəfdaşlıq təcrübəsi də aiddir. Möhkəm iqtisadi, hüquqi və institusional təmələ söykənən və bütün idarəetmə səviyyələrində strateji planlaşdırma sistemi çərçivəsində fəaliyyət göstərən dövlət-özəl tərəfdaşlıq təcrübəsi tərəfdaşlıq münasibətlərinin hər iki tərəfi üçün mühüm nəticə verir. Federasiya subyekti timsalında dövlət üçün bu, büdcə vəsaitlərinə qənaət, müxtəlif yönümlü ictimai əhəmiyyətli obyektlərin inşası zamanı vaxt qazanılması, region iqtisadiyyatının

modernləşdirilməsi üçün əlavə investisiya ehtiyatları və s. ibarətdir. Özəl sahibkarlar üçünsə bu, malların, işlərin və xidmətlərin satış bazarının genişləndirilməsi; əlavə təsərrüfat fəaliyyəti və mənfəət obyektləri; yeni kadrların cəlb edilməsi və təlimi imkanı; gizli iqtisadiyyat sektorundan çıxış; korporativ idarəetmənin və strategiya formalaşdırılmasının keyfiyyətinin yüksəldilməsidir.

Formal surətdə Rusiya iqtisadiyyatında dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadənin ölkənin sosial-iqtisadi inkişafının aktual vəzifələrinə uyğun yeni mərhələsi üçün hazırda kifayət qədər ilkin şərtlər mövcuddur. Onlar ilk növbədə Rusiyanın uzunmüddətli strategiyasının iqtisadiyyatın real sektorunun bərpası, sənayenin inkişafı, innovativ modernləşdirmə və idxalın əvəzlənməsi prioritetlərinə istiqamətləndirilməsi hesabına formalaşır. Eyni zamanda, bu ilkin şərtlər dövlət-özəl və bələdiyyə tərəfdaşlığı haqqında federal qanunun qəbul edilməsi ilə yaradılır [6] (bundan sonra FQ–224). Bu qanun hakimiyyətin və biznesin tərəfdaşlıq münasibətlərinin bütün mövcud formalarını əhatə etmir. Dövlət-özəl tərəfdaşlığın daha əvvəl məqsədli federal qanunlarla tənzimlənmiş konsessiyalar və məhsul bölgüsü sazişləri kimi formaları onun "çərçivə"lərindən kənarda qalır. Bunlar "Konsessiya sazişləri haqqında" 21 iyul 2005-ci il tarixli 115 saylı FQ və "Məhsul bölgüsü sazişləri haqqında" 30 dekabr 1995-ci il tarixli 225 saylı FQ-dir.

Dövlət-özəl tərəfdaşlıq haqqında bu federal qanun ona görə xüsusi praktik əhəmiyyətə malikdir ki, publik tərəfdaş qismində federal, regional və yerli icra hakimiyyəti orqanlarının çıxış etdikləri tərəfdaşlıq münasibətlərinin forma və şərtlərini daha dəqiq tənzimləyir. Bundan başqa, qanun elə qurulmuşdur ki, dövlət-özəl tərəfdaşlığın ayrı-ayrı, konkret növləri ilə məhdudlaşmayıb, daim ölkənin və regionların təsərrüfat və sosial inkişaf prioritetlərinə istiqamətlənmə məqsədilə tərəfdaşlığın bütün növlərinin təkamülü, zənginləşməsi üçün imkanlar açır. FQ-224 özünün məzmun hissəsində regional səviyyədə dövlət-özəl tərəfdaşlığın və müvafiq hüquq tətbiqedici təsərrüfat təcrübəsinin qanunvericiliklə tənzimlənməsi təcrübəsinin ümumiləşdirilməsinə əsaslanır (hazırda Federasiya subyektlərinin dövlət-özəl tərəfdaşlığa dair 60-dan artıq qanunu qəbul edilmişdir).

Federasiya subyektlərinin bu istiqamətdə belə fəal işi onunla bağlıdır ki, Rusiya iqtisadiyyatında böhranlı vəziyyət məhz onun regional səviyyəsinə daha çox təsir göstərmişdir. Bu, Federasiya subyektlərinin büdcələrində investisiya xərcləri həcminin və payının xeyli azalmasını şərtləndirmişdir, bu da onların təsərrüfat, infrastruktur və sosial komplekslərinin inkişafının ləngiməsinə gətirib çıxarmaya bilməzdi. Bu şəraitdə Rusiya regionlarında investisiya fəallığının təmin edilməsinin ən səmərəli vasitəsi federal və regional büdcə vəsaitlərindən, müxtəlif "inkişaf institutları"nın vəsaitlərindən müvafiq ərazidə investisiya iqliminin yaxşılaşdırılması üzrə bütün qalan istiqamətlərlə sıx koordinasiya şəraitində istifadə olunmasına əsaslanan dövlət-özəl tərəfdaşlıq təcrübəsinin tətbiqidir.

Lakin tərəfdaşlıq münasibətlərinin subfederal səviyyəsindən aydın surətdə göründüyü kimi, FQ-224 qəbul edilməsi hələ iqtisadi münasibətlərin bu formasının tətbiq sahəsinin genişlənməsinə, o cümlədən onun formalaşan strateji planlaşdırma sisteminə implementasiyası baxımından güclü impuls verməmişdir. Əlbəttə, yuxarıda qeyd olunan Rusiya iqtisadiyyatında, xüsusilə onun investisiya sektorunda böhran proseslərinin güclənməsi də öz rolunu oynadı. Rusiya iqtisadiyyatında 2014-2016-cı illərdə investisiyaların ardıcıl azalması

onların təxminən 15% azalmasına gətirib çıxardı. Emal sənayesi sahələrində bu azalma daha böyük oldu. Rusiya iqtisadiyyatına investisiya qoyuluşunun azalması əsas fondların aşınma dərəcəsinin daim yüksəlməsinə səbəb olur, 2014-2015-ci illər arasında bu göstərici 50%-ə yaxınlaşmışdı (2014-cü ildə 49,4%), bu da Rusiya müəssisələri məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bu, regionları yalnız dövlət-özəl tərəfdaşlıq münasibətlərindən istifadə çərçivələrinin formal surətdə genişləndirilməsinə deyil, həm də onlardan maksimum investisiya nəticəsi əldə etməyə sövq edir. Əsas diqqət isə iqtisadiyyatın sənaye sektorunda dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılmasına yönəldilir.

Yalnız iştirak deyil, həm də idarəetmə. Dövlət-özəl tərəfdaşlıq təcrübəsinə verilən müasir tələblərə uyğun olaraq, dövlət həm federal, həm də regional səviyyədə yalnız dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılması üçün hüquqi çərçivələr müəyyən etməməli və bu layihələrdə öz ehtiyatları (iqtisadi, institusional, informasiya və s.) ilə iştirak etməməlidir. Dövlət bütün mərhələlərdə bu prosesi fəal idarə etməlidir. Hazırda dövlət-özəl tərəfdaşlıq münasibətləri sisteminin idarə olunması nə deməkdir?

Belə idarəetmə ilk növbədə dövlət-özəl tərəfdaşlıq layihələrinin yuxarıda qeyd olunan normativ-hüquqi tənzimlənməsini və həm cari maliyyələşdirmə şəklində, həm də bütün səviyyəli büdcələr üçün çətinliklər və məhdudiyyətlər şəraitində bu layihələrin fasiləsiz realizəsini təmin edən müəyyən ehtiyat fondlarının yaradılması şəklində iqtisadi təminatını əhatə edir. Lakin ilk növbədə dövlət-özəl tərəfdaşlıq təcrübəsinin idarə olunması bu təcrübənin daha çox büdcə vəsaiti çatışmazlığının kompensasiyası və/ya dövlət idarəetmə sisteminə xas səhvlərin aradan qaldırılması kimi sadə vəzifələrdən Rusiya regionlarının iqtisadiyyatının və sosial sahəsinin modernləşdirilməsinin əsas vəzifələrinin həllinə istiqamətləndirilməsidir.

Beləliklə, dövlət-özəl tərəfdaşlığın Rusiya iqtisadiyyatının və onun regional halqalarının innovativ modernləşdirilməsinin güclü vasitəsinə çevrilməsi üçün həmin münasibətləri iqtisadi fəaliyyətin dövlət və cəmiyyət üçün prioritet sahələrinə istiqamətləndirən iqtisadi, hüquqi və institusional mexanizmlərin formalaşdırılması mühüm əhəmiyyətə malikdir. Bu yaxınlara qədər dövlət-özəl tərəfdaşlıq təcrübəsinin inkişafı üçün iqtiadiyyatın infrastruktur bazası, o cümlədən MKT sahələri qrupu prioritet hesab olunurdu. Bu sahədə bu gün də dövlət-özəl tərəfdaşlığın müxtəlif formalarından istifadə üçün mühüm imkanlar qalmaqdadır. Lakin hazırda milli iqtisadiyyatın real, o cümlədən sənaye sektoru, onun modernləşdirilməsi və innovativ əsasda inkişaf etdirilməsi daha çox belə prioritet kimi çıxış etməkdədir.

İlk baxışdan bu məsələnin həlli sadədir: dövlət öz ehtiyatlarını (maliyyə, əmlak və digər) ilk növbədə dövlət-özəl tərəfdaşlığın özü üçün prioritet iqtisadi fəaliyyət növlərində və eyni dərəcədə ölkənin üstün inkişaf üçün prioritet ərazilər hüdudlarında lokallaşan layihələri üçün ayırmaq hüququna malikdir. Lakin gerçəklik daha mürəkkəbdir, çünki hər hansı dövlət-özəl tərəfdaşlıq "ikitərəfli hərəkətin olduğu küçə"dir. Başqa sözlə, dövlət tərəfindən başa düşülən dövlət-özəl tərəfdaşlığı layihələrinin prioritet sahəvi və ərazi lokallaşması eyni dərəcədə özəl investorların maraqlarına da uyğun olmalıdır. Bu gün bu maraqlara məqsədyönlü təsir dövlət-özəl tərəfdaşlıq təcrübəsinin inkişafının idarə edilməsinin təkmilləşdirilməsinin əsas vəzifəsini təşkil edir.

Hazırda dövlət-özəl tərəfdaşlıq sistemində özəl tərəfdaşların maraqlarına və konkret qərarlarına belə təsir müxtəlif kanallar vasitəsilə həyata keçirilir. Bu halda, federal inkişaf institutları (RF İnvestisiya Fondu, Rusiya Birbaşa İnvestisiyalar Fondu, Sənayenin İnkişafı Fondu və s.) tərəfindən dəstəklənən layihələrin seçilməsi və təsdiqi prosedurları daha böyük əhəmiyyət kəsb edir. Lakin bu institutlar əsasən ən böyük layihələrlə "işləyir", xüsusilə regional səviyyədə dövlət-özəl tərəfdaşlıq təcrübəsinin potensial tətbiq "sahəsi" isə heç də onlarla məhdudlaşmır [3].

O cümlədən regional iqtisadiyyatın prioritet sahələrində dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadənin bütün potensial "imkanlarının tətbiqi" məqsədilə Federasiya subyektləri bu təcrübənin idarə edilməsinin özünəməxsus sistemlərini, o cümlədən belə idarəetmənin iqtisadi, hüquqi və institusional mexanizmlərini yaratmalıdır. Bununla əlaqədar, dövlət-özəl tərəfdaşlıq münasibətləri sahəsində idarəetmənin təkmilləşdirilməsinin ən mühüm istiqaməti ölkədə və regionlarda vahid strateji planlaşdırma xəttinin təşəkkülü çərçivəsində onların strategiyasının formalaşdırılmasına keçid olmalıdır. Dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadə perspektivləri Federasiya subyektlərinin strateji planlaşdırma sənədlərinin bütün sistemində (FQ-172, 8-ci fəsil) ilk növbədə onların investisiya strategiyalarında əksini tapmalıdır.

Regionda dövlət-özəl tərəfdaşlıq təcrübəsi barəsində belə strategiyalar üç əsas funksiyanı reallaşdırır. Birincisi, onlar ən mühüm istiqamətlərin və hətta perspektivdə dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadə olunmaqla realizəsi nəzərdə tutulan ayrı-ayrı ən mühüm layihələrin özəl tərəfdaşlar üçün önəmli olan uzunmüddətli mənzərəsini formalaşdırır. İkincisi, bu strategiyalar dövlət-özəl tərəfdaşlıq şərtləri ilə region iqtisadiyyatına özəl investisiyaların cəlb edilməsi tədbirlərinin regionda investisiya iqliminin yaxşılaşdırılması üzrə ümumi fəaliyyət sistemi ilə uzlaşdırılmasını təmin edir. Üçüncüsü, məhz büdcə komponentində strategiya Federasiya subyektinin dövlət-özəl tərəfdaşlıq sazişləri üzrə publik tərəfdaş kimi öhdəliklərinin icrasına təminat verən bir sıra institutları ehtiva etməlidir. Beləliklə, dövlət-özəl tərəfdaşlıq layihələrinin potensial iştirakçıları olan özəl investorlar regional strategiyalarda yalnız regionların sosial-iqtisadi inkişafının ümumi istiqamətlərini və parametrlərini deyil, həm də strategiyası formalaşdırılan bütün perspektiv üçün dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılmasının konkret sahələrini və şərtlərini görməlidir [4].

Lakin indiyə kimi bir çox regional investisiya strategiyaları dövlət-özəl tərəfdaşlıq təcrübəsində diqqətin region iqtisadiyyatının modernləşdirilməsinin prioritet vəzifələrinin həllinə yönəldilməsindən söz açmağa imkan verəcək dərəcədə aktuallaşdırılmamışdır. Belə ki, Volqoqrad vilayətinin investisiya portalında [8] regionda MKT, bərk məişət tullantıları, səhiyyə, nəqliyyat infrastrukturu və video qeydetmə kimi sahələrdə reallaşdırılan cəmi 8 dövlət-özəl tərəfdaşlıq layihəsi haqqında məlumat verilir. Bu zaman vilayətin İnvestisiya strategiyasında (3.10 bölməsi) [2] region iqtisadiyyatının aşağıdakı sahələri ortamüddətli perspektivdə prioritet kimi göstərilir: MKT; nəqliyyat; səhiyyə və informasiya texnologiyaları. Bu sahələrdə dövlət-özəl tərəfdaşlıq təcrübəsindən istifadənin bütün əhəmiyyətinə baxmayaraq, onlar ilk növbədə sənaye potensialının bərpası əsasında region iqtisadiyyatının modernləşdirilməsi problemini qəti şəkildə həll edə bilməz.

Bu, xüsusilə önəmlidir, çünki ölkə təcrübəsində artıq real surətdə dövlət-özəl tərəfdaşlığın məhz yenidən sənayeləşdirmə, milli sənaye məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi və müvafiq surətdə idxalın əvəzlənməsi vəzifələrinin həllinə yönəlmiş mexanizmləri sınaqdan keçirilmişdir. Məsələn, sənayedə mühüm investisiya səmərəsi verən belə tərəfdaşlıq növlərindən biri "xüsusi investisiya müqavilələri"dir (XİM). XİM ölkədə iqtisadi münasibətlərə "Rusiya Federasiyasında sənaye siyasəti haqqında" Federal qanunla daxil edilmişdir [7]. XİM qarşısında duran üç *vəzifə* fərqləndirilir: sənaye istehsalının yaradılması, yaxud modernləşdirilməsi, ən yaxşı rəqabət qabiliyyətli texnologiyaların və məhsul növlərinin tətbiqi, RF-də analoqu olmayan sənaye məhsulları istehsalının mənimsənilməsi. XİM bağlanması üzrə operator qismində Sənayenin İnkişafı Fondu kimi federal inkişaf institutu çıxış edir. XİM investor və Rusiya Federasiyası, yaxud onun subyekti arasında sazişdir, bu sazişdə investorun ilk növbədə sazişlə nəzərdə tutulmuş müddətdə müəyyən növ sənaye məhsulunun istehsalını mənimsəmək öhdəliyi təsbit olunur.

Qeyd olunanlar belə bir nəticəyə gəlməyə imkan verir ki, Rusiya regionlarının sənaye siyasəti aləti kimi dövlət-özəl tərəfdaşlıq layihələrindən daha fəal istifadə aşağıdakı istiqamətlər üzrə bu layihələrin idarə edilməsi təcrübəsinin təkmilləşdirilməsini tələb edir. Birincisi, dövlət-özəl tərəfdaşlıq layihələrinin bu yönümünün region iqtisadiyyatının investisiya cəlbediciliyinin yüksəldilməsi tədbirlərinin ümumi sistemi ilə uzlaşdırılmaqla Federasiya subyektlərinin investisiya stgrategiyalarında əks olunması. İkincisi, regional inkişaf institutlarının fəaliyyət prioriteti kimi yenidən sənayeləşdirmənin və sənayenin modernləşdirilməsinin təsdiqi, bu zaman regional inkişafın maliyyə institutları (xüsusi publik tərəfdaşlar kimi) müvafiq ehtiyatlar bazası olmalıdır. Üçüncüsü, Federasiya subyektlərinə sənaye yönümlü dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılması üçün vergi-büdcə stimulları ünvanlanmalıdır. Belə ki, müvafiq sazişin müddəti bitənə qədər belə dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılması hesabına alınan bütün vergi gəlirlərinin Federasiya subyektlərində qalması məqsədəuyğun olardı.

Biz bütün idarəetmə səviyyələrində dövlət-özəl tərəfdaşlıq layihələrinin reallaşdırılması zamanı mövcud olan vergi münasibətlərinin islahatına daha dərin yanaşmanı perspektivli hesab edirik. Bu, vergi qanunvericiliyində dövlət-özəl tərəfdaşlıq layihələrinin (müəyyən tələb və məhdudiyyətlərlə) xüsusi vergiqoyma halı kimi fərqləndirilməsi şəklində, məsələn, bu növ layihələrin (məhsul bölgüsü sazişləri kimi) "xüsusi vergi rejimləri" anlayışına daxil edilməsi şəklində mümkündür. Dövlət-özəl tərəfdaşlıq layihələri çərçivəsində özəl tərəfdaşlar üçün təsirli investisiya stimullarının yaradılması, habelə hazırda "regional investisiya layihələri" (RF Vergi Məcəlləsinin 3.3. fəsli) kimi vergiqoyma obyekti barəsində (Şərqi Sibirin və Uzaq Şərqin 15 Federasiya subyekti üçün) müəyyən olunmuş güzəştlərlə analogiya üzrə mümkündür. Hər bir variantda Rusiya regionlarında dövlət-özəl tərəfdaşlıq layihələri üçün stimullaşdırıcı vergi alətlərinin seçilməsinin meyarı qismində özəl və publik tərəfdaşların maliyyə maraqlarının balansı, habelə güzəştlərin bu layihələrin Rusiya iqtisadiyyatının real sektorunda artan investisiya payına istiqamətlənməsi çıxış etməlidir.

Ədəbiyyat

[1] Горлов А.В. Зарубежный опыт государственно-частного партнерства в транспортной инфраструктуре (на примере Итальянской Республики) // Экономика и предпринимательство, № 10 (ч.1), 2016, С. 29.

[2] Постановление Администрации Волгоградской области от 24.12.2015 г. №778-п. «Об утверждении Инвестиционной стратегии Волгоградской области на период до 2020 года». Режим доступа: http://www. base.garant.ru/24732578/.

[3] Разгулина Е.Д. Партнерство органов власти и бизнес-структур как необходимое условие привлечения частных инвестиционных ресурсов // Проблемы развития территории. 2014. №5. С. 78-90.

[4]. Репкова В. ГЧП сегодня: перспективы партнерства в условиях нестабильности // Рынок ценных бумаг. 2015. №9. С. 51-53.

[5] Федеральный закон от 28 июня 2014 г. № 172-ФЗ «О стратегическом планировании в Российской Федерации».

[6] Федеральный закон от 3 июля 2015 года №224-ФЗ «О государственно-частном партнерстве, муниципально-частном партнерстве в Российской Федерации…».

[7] Федеральный закон от 31 декабря 2014 года №488-ФЗ «О промышленной политике в Российской Федерации».

[8] Режим доступа: http://www.investvolga.com/state_private_partnership/gchp/.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 380 - 393
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 380 - 393

MALİYYƏ VASİTƏÇİLİYİ İLƏ BAĞLI BƏZİ MƏQAMLAR VƏ AZƏRBAYCAN ÜÇÜN PERSPEKTİV TÖVSİYƏLƏR

T. Rəcəbov
əyani doktorant, "Maliyyə" kafedrası, UNEC
mrtunjay.rajabov@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur 21 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 21 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Xülasə

Tədqiqatın əsas məqsədi maliyyə vasitəçiliyi ilə bağlı bəzi məqamların tədqiq edilməsi və Azərbaycan üçün konseptual icmalən perspektiv tövsiyələrin dilə gətirilməsidir. Tətqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi bundan ibarətdir ki, maliyyə vasitəçiliyi sisteminin müvəffəqiyyətli formalaşması yalnız iqtisadi və hüquqi islahatların aparılması yolu ilə səlist qaydalar, onlara riayət olunmasını təyin edən nəzarət mexinzmlərinin, məlumat açıqlığının, sərbəst seçim imkanının mövcudluğunu nəzərdə tutan bazis infrastrukturunun, sərbəst zəruri mühitin yaradılması ilə mümkündür. Bunun üçün istənilən bir araşdırma zamanı, bu araşdırma istər qısa məzmunlu və konkret ünvanlı olsun, istərsə də əhatəli olsun, nəzəri və praktiki sintez əsas olaraq qəbul edilməlidir. Tədqiqatın məhdudiyyətləri maliyyə vasitəçiliyi sahəsində tədqiqatların aparılması üçün, xüsusilə özəl sektorun o qədər də təşəbbüskar olmamasıdır. Tədqiqatın praktik əhəmiyyəti: maliyyə vasitəçiliyi sahəsində təklif və tövsiyələr ehtiva edən nəzəri baza kimi istifadə edilə bilməsidir. Tədqiqatın elimi yeniliyi və orijinallığı: məqalənin nəzəriyyədən təcrübəyə və təcrübədən nəzəriyyəyə keçidlər üzərində qurulmasıdır.

Açar sözlər: maliyyə, iqtisadiyyat, dünya bazarı, maliyyə vasitəçiliyi, maliyyə sistemi.
Jel classification: P34

SOME NUANCES OF FINANCIAL INTERMEDIATION AND FORWARD-LOOKING RECOMMENDATIONS TO AZERBAIJAN

Absract

The main objective of the study is to consider issues related to financial intermediation and provide a conceptual summary, to push long-term recommendations for Azerbaijan. At the time of writing this article used the methods of scientific abstraction, logical generalization, statistical analysis. The result of the study, is that the successful formation of the system of financial intermediation, with the help of economic and legal

reforms, information transparency, will enable the development of financial intermediation in the country. For this purpose, any investigation must be substantial and specific target Limitations of the study are not very active in theoretical researches of objects of financial intermediation, especially in the private sector. The practical implications of this research proposals and recommendations on financial intermediation may be used as a theoretical basis. Novelty and originality of the article: The article is based on the transition from theory to practice and from theory to practice, despite the limitations of the practical possibilities.

Keywords: finance, economics, world market, financial intermediation, financial systemi.

НЕКОТОРЫЕ НЮАНСЫ ФИНАНСОВОГО ПОСРЕДНИЧЕСТВА И ПЕРСПЕКТИВНЫЕ РЕКОМЕНДАЦИИ ДЛЯ АЗЕРБАЙДЖАНА

Резюме

Основная цель исследования состоит в том, чтобы рассмотреть вопросы, связанные с финансовым посредничеством и дать концептуальное краткое изложение, выдвинуть долгосрочные рекомендации для Азербайджана. При написании статьи ипользованы методы научной абстракции, логического обобщения, статистический анализ. Результатом исследования является то, что успешное формирование системы финансового посредничества, с помощью экономических и правовых реформ, информационной открытости, даст возможность развитию финансового посредничества в стране. Для этого, любое исследование должно быть существенным и конкретным, целевым. Ограничения исследования: не очень активное участие в теоретических изысканиях, в ходе исследования, объектов финансового посредничества, особенно в частного сектора. Практическое значение этого исследования определяется тем, что предложения и рекомендации относительно финансового посредничества могут быть использованы в качестве теоретической основы. Новизна и оригинальность статьи: статья построена на переходах от теории к практике и от теории к практике.

Ключевые слова: финансы, экономика, мировой рынок, финансовое посредничество, системы финансы.

Giriş. Məsələnin birbaşa özünə keçmədən, ilk öncə maliyyənin mahiyyəti haqqında bir qədər söz açmaq lazımdır. Maliyyə bir elmi anlayış kimi adətən ictimai həyatda pul vəsaitlərinin hərəkəti ilə müşayiət olunan, gəlir və onun xərclənməsi mexanizmini əhatə edir. Müəssisələrdə təsərrüfatdaxili təyinata malik olan fondların yaradılması üçün mənfəətin bölüşdürülməsi, vergilərin dövlət büdcəsinə ödənilməsi, büdcədənkənar

fondlara və xeyriyyə fondlarına vəsait köçürülməsi zamanı hökmən pul vəsaitlərindən istifadə olunur [1]. Maliyyənin reallaşdırıldığı müstəvi isə maliyyə bazarıdır. Maliyyə bazarı əmanət toplayanların vəsaitlərini birbaşa borc götürənlərə təqdim edilməsinə şərait yaradan maliyyə institutlarıdır. Maliyyə bazarının yaranması zəruriliyinin əsas amillərindən biri maliyyə ehtiyatlarının qeyri-bərabər bölgüsüdür, çünki bu bölgü zamanı müəssisələrin bir qismində maliyyə ehtiyatlarının artıqlığı, digər qismində isə maliyyə ehtiyatlarının çatışmazlığı özünü büruzə verir. Bu zaman maliyyə ehtiyatlarının bir müəssisədən digərinə doğru hərəkətinin təmin edilməsinin mühüm forması kimi maliyyə bazarı çıxış edir. Deməli, maliyyə bazarı pul vəsaitlərinin sahiblərindən ehtiyacı olanlara doğru yönəldilməsində vasitəçi rolunu oynayır.

İcmalən nəzəri baxış. Maliyyə bazarı dedikdə, səhmlərin, qiymətli kağızların, istiqrazların müstəqil alqı-satqısı, "kredit bazarı" dedikdə, kredit ehtiyatlarının alqı-satqısı nəzərdə tutulur. Bunun üçün müvafiq maliyyə vasitəçiliyi təşkilatları, fond birjaları, banklar, maliyyə və sığorta şirkətləri yaradılır [5,23]. Digər bir məsələ isə maliyyə bazarında mühüm əhəmiyyət kəsb edən maliyyə menecmentidir. Maliyyə menecmenti maliyyə bazarında baş verən situasiyaya uyğun olaraq, müəssisə və firmaların iqtisadiyyatın maliyyə sektoruna nəzarəti xarkterizə edir. Maliyyə menecmenti, eyni zamanda, qiymətli kağızlar sektorunun idarə edilməsini də özündə əks etdirir. Maliyyə bazarının fəaliyyət göstərməsi istiqrazlardan dövlət müəssisələri xərclərinin örtülməsində də istifadə edilir. Maliyyə bazarı özündə maliyyə alətləri ilə ticarətin təşkil olunmuş, yaxud qeyri-formal sistemini ifadə edir. Bu bazarda pulun mübadiləsi, kreditlərin verilməsi, kapitalın mobilizasiyası baş verir. Burada əsas rolu pul vəsaitlərinin axınını mülkiyyətçilərdən borcalanlara istiqamətləndirən maliyyə institutları oynayır. Mal kimi məxsusi pullar, qiymətli kağızlar, törəmə maliyyə alətləri çıxış edir. Maliyyə bazarının subyektləri maliyyə alətləri ilə əməliyyatlar aparan təşkilatlar və fiziki şəxslərdir. Maliyyə-kredit təşkilatlarına müxtəlif təşkilatların geniş dairəsi, o cümlədən kommersiya və əmanət bankları, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, sığorta təşkilatları, pensiya fondları və broker şirkətləri aiddir. Maliyyə bazarlarında əməliyyatların əhəmiyyətli hissəsini yerinə yetirmək üçün müvafiq lisenziyanın alınması tələb olunur. Lisenziyalı fəaliyyət növlərinə aid edilir: bank fəaliyyəti, sığorta fəaliyyəti, qiymətli kağızlar bazarında peşəkar fəaliyyət, investisiya və pensiya fondlarının idarə edilməsi üzrə fəaliyyət [9]. Maliyyə bazarında əməliyyatlar aparmaqla onun iştirakçıları bir qayda olaraq maliyyə bazarının digər iştirakçılarına və iqtisadiyyatın real sektorunun nümayəndələrinə maliyyə xidmətləri göstərirlər [12]. Maliyyə bazarının yaranmasının zəruriliyinin əsas amillərindən biri maliyyə ehtiyatlarının qeyri-bərabər bölgüsüdür. Bunu belə də izah edə bilərik ki, hər bir təsərrüfat subyektinin fəaliyyətinin əsasında xərc çəkib gəlir qazanmaq durur. Bu isə öz növbəsində pul vəsaitinin hərəkəti ilə masayiət olunur.

Belə ki, təsərrüfat subyekti xərc çəkmək üçün pul vəsaiti cəlb edir, nəticədə gəlir kimi pul vəsaiti qazanır və bu vəsait fəaliyyətin davam etdirilməsi üçün vasitə olur. Adətən qazanılmıs gəlir çəkilmis xərcdən çox olur və məqsədyönlü oldugu halda, bu çox olan hissə fəaliyyətin genişləndirilməsinə və ya yıgıma istiqamətləndirilir. Bəzi hallarda isə qazanılmıs gəlir fəaliyyətin genisləndirilməsinə, hətta bəzən fəaliyyətin oldugu səviyyədə qorunub saxlanmasına kifayət etmir və əlavə pul vəsaitinə ehtiyac yaranır. Göründüyü kimi, təsərrüfat subyektlərinin fəaliyyətinin nəticəsi kimi, bir qayda olaraq onların bəzilərində müvəqqəti sərbəst pul vəsaiti oldugu halda, bəzilərində isə pul vəsaitlərinə ehtiyac yaranır. Milli iqtisadiyyatın dinamik və effektiv inkisafı maliyyə resurslarından məqsədyönlu və pesəkarcasına istifadə edilməsi əsasında mumkundur. Maliyyə vəsaitlərindən duzgun və savadlı istifadə olunması iqtisadi artım tempinin surətlənməsinə, təsərrufat subyektləri fəaliyyətinin səmərəli təskilinə, budcə sisteminin balanslasdırılmasına, əhalinin həyat səviyyəsinin yuksəldilməsinə və sosial mühafizəsinə, inflyasiyanın cilovlanmasına və maliyyə sabitliyinin təmin edilməsinə imkan verir. Ölkənin maliyyə sistemi əsas və təminedici elementlərdən ibarətdir. Əsas elementlərə dovlətin, muəssisələrin və əhalinin maliyyə aktivləri, təminedici elementlərə isə banklar, birjalar, birjadankənar bazarlar və texniki kommunikasiyalar daxildir [6].

Azərbaycanda maliyyə vasitəçiliyi və 2010-2015-ci illər göstəriciləri. Azərbaycanda maliyyə vasitəçiliyi və 2010-2015-ci illər göstəricilərinə gəldikdə isə 2010-cu ildə bankların əldə etdikləri mənfəət (vergi ödənilənədək) 140,1 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra isə xalis mənfəət 120,3 mln. manat təşkil etmişdir. Kreditlər üzrə faiz dərəcələrinin azalmasına və ümumiyyətlə gəlir gətirən aktivlərin həcminin artması nəticəsində bankların faiz gəlirləri ötən illə müqayisədə 2% artmış və 1055,3 mln. manat (o cümlədən müştərilərə verilmiş kreditlər üzrə faizlər müvafiq olaraq 1,8% və 945,1 mln. manat) təşkil etmişdir. Digər faiz gəliri gətirən əməliyyatlardan (banklararası tələblər, qiymətli kağızlar və maliyyə lizinqi) məcmu gəlir 3,7% artmış və orta aktivlərə nisbətdə 0,9% təşkil etmişdir. Bankların ümumi gəlirləri 1326,9 mln. manat təşkil etmiş və bu, 2009-cu ilin göstəricisindən 33,5 mln. manat və ya 2,6% çoxdur. Faiz xərcləri ötən illə müqayisədə 18,4% artmış və 551,6 mln. manat təşkil etmişdir. Bu əsasən fiziki şəxslərin əmanətlərinin həcminin artması ilə əlaqədardır. Cəmi faiz xərcləri artımının təxminən 90%-i müddətli depozitlər üzrə ödənilmiş faizlərin payına düşür. Faiz xərclərinin mütləq ifadədə artmasına baxmayaraq, onların orta aktivlərə nisbəti ötən illə müqayisədə 4,6%-dən 4,5%-ə enmişdir. Bank gəlirlərinin strukturunda faiz gəlirləri (79,5%), xərclərdə isə faiz ödənişləri (55%) üstünlük təşkil edir. 2010-cu ildə Azərbaycan korporativ qiymətli kağızlar bazarında (korporativ istiqrazlar və səhmlər) artım qeydə alınmışdır. Bu artım həm yerləşdirilmiş istiqrazların həcmində, həm də təkrar bazarda aparılan əməliyyatlarda baş vermişdir.

Azərbaycan bank sistemi inkişaf dinamikasını qoruyub saxlamışdır. Bankların maliyyə vasitəçiliyinin bərpası və genişləndirilməsi ilə yanaşı, bank sisteminin institusional inkişafı və sağlamlaşdırılması davam etmişdir. 2010-cu il ərzində nağdsız ödənişlərin 92%-i bu sistem vasitəsilə həyata keçirilmişdir. AZİPS sistemində ümumi həcmi 78,4 mlrd. manat olmaqla 362 min ədəd ödəniş sənədi emal edilmişdir ki, bu da 2009-cu illə müqayisədə həcm etibarilə 7,6% (5,6 mlrd. manat) çoxdur və say etibarilə 7,9% (31 min ədəd) azdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 216,6 min manat təşkil etmişdir. 2010-cu il ərzində bank kartlarının sayı 257 min ədəd artaraq 4,23 mln. ədəd təşkil etmişdir və hər min nəfər yetkinlik yaşına çatmış əhaliyə orta hesabla 694 ödəniş kartı düşür. İnternet-banking vasitəsilə 75,47 mln. manat məbləğində 29,98 min əməliyyat həyata keçirilmişdir [11].

2011-ci ildə bank sistemində maliyyə sabitliyi qorunmuş, sektorun institusional inkişafı davam etmişdir. Bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri məqbul səviyyədə saxlanılmışdır. Kapitallaşma proqramları davam etdirilmiş, kapital tələbi ilə bağlı yeni normativin tətbiqinə başlanılmışdır. Bütün bunlar bank sisteminin sabit və dayanıqlı fəaliyyətinin təmin edilməsinə, əhalinin və investorların etimadının qorunmasına yönəldilmişdir. Eyni zamanda banklarda idarəetmə potensialının gücləndirilməsinə, aktivlərin sağlamlaşdırılmasına, maliyyə ehtiyatlanması səviyyəsinin artırılmasına, risklərin tənzimlənməsinə yönəlmiş tədbirlər davam etdirilmişdir. Bank sisteminin maliyyə dayanıqlığı təmin edilmiş, bank aktivlərinin keyfiyyət göstəriciləri məqbul həddə qorunmuşdur. Real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının xüsusi çəkisi 6,5% təşkil etmişdir ki, bunun da yarısı banklar tərəfindən yaradılmış ehtiyatlarla örtülür. Bank sistemi optimal gəlirliyini qorumuş və investisiya cəlbediciliyini saxlamışdır. Ödəniş sistemlərinin sabit və etibarlı fəaliyyətinin təmin edilməsi, habelə təkmilləşdirilməsi Mərkəzi Bankın mühüm fəaliyyət istiqamətlərindən biri olmuşdur. Milli Ödəniş Sistemi infrastrukturu vasitəsilə ödənişlərin həcmi 2011-ci ilin 11 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 23,3% artmışdır. Hazırda bankların və "Azərpoçt" MMC-nin Bakı şəhəri və 50-dən çox rayonu əhatə edən ödəniş məntəqələrinin sayı 1700-ü ötmüşdür. Nağdsız ödəniş alətlərindən istifadənin artırılması məqsədilə pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində POS-terminal şəbəkəsinin genişləndirilməsi və ödəniş kartları vasitəsilə hesablaşmaların miqyasının artırılması üzrə tədbirlər davam etdirilmişdir. 2011-ci ilin 11 ayında dövriyyədə olan ödəniş kartlarının sayı 7,2%, quraşdırılmış bankomatların sayı 11,2%, POS-terminalların sayı 62,3% artmışdır. Maliyyə sektorunun regional əhatə dairəsinin və bank xidmətlərinə çıxış imkanlarının genişlənməsi davam etmişdir. 2011-ci ilin 11 ayında 23 yeni bank filialı açılmışdır ki, bunun da 13-ü regionların payına düşür. Hazırda bank filiallarının 49%-dən çoxu regionlarda yerləşir. İpoteka kreditləşməsi cari ildə də iqtisadi aktivliyin

dəstəklənməsində mühüm rol oynamışdır. Dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına 2011-ci ildə cəmi 500 nəfərə 16 mln. manat məbləğində sosial ipoteka verilmişdir. İpoteka kreditləşməsi üçün bazar resurslarının cəlb olunması davam etdirilmişdir. 2011-ci ilin ötən dövründə İpoteka Fondu vasitəsilə müvəkkil kredit təşkilatları tərəfindən, sosial ipoteka istisna olmaqla, 2000 nəfərə 77 mln. manat məbləğində ipoteka krediti verilmişdir. Beləliklə, ipoteka kreditlərindən (cəmi 342 mln. manat) faydalanan ailələrin sayı 8750-ə çatmışdır. İpoteka kreditləri üzrə portfel sağlam olmuş və kreditlər üzrə ödənişlərdə gecikmələr müşahidə edilməmişdir [8].

2012-ci ildə bank sektorunun sabitliyi, institusional inkişafının sürətlənməsi və maliyyə vasitəçiliyinin dərinləşməsi ilə səciyyəvi olmuşdur. Mərkəzi Bank tənzimləmə və nəzarət çərçivəsinin yeni beynəlxalq standartlara uyğunlaşması istiqamətində kompleks tədbirlər həyata keçirmişdir. 2012-ci ildə bank aktivləri keyfiyyətinin, likvidlik və rentabellik göstəricilərinin yaxşılaşması müşahidə olunmuş, bank sektoru üzrə kapital adekvatlığı yüksək səviyyədə olmuşdur. Real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının kredit portfelində xüsusi çəkisi cəmi 6,4% olmuşdur ki, bunun da yarısı banklar tərəfindən yaradılmış ehtiyatlarla örtülür. Sektorun kapital mövqeyi qənaətbəxş səviyyədədir. Kapitalın adekvatlıq göstəricisi 12%-lik normaya qarşı 15,7% təşkil edir. Məcmu kapitalın həcmi 11 ayda 30% artmışdır. Kredit qoyuluşları sənaye və istehsala 50%, kənd təsərrüfatı və emal sahələrinə 16% artmışdır. Uzunmüddətli kreditlərin həcmində 23% artım olmuşdur. Kredit qoyuluşları regionlar üzrə 19,6%, qeyri-bank kredit təşkilatları üzrə isə 28% artmışdır. Bazar resurslarının cəlb olunması əsasında ipoteka kreditləşməsi davam etdirilmişdir. Cari ildə Azərbaycan İpoteka Fondu vasitəsilə kredit təşkilatları tərəfindən 1800-dən çox şəxsə ümumilikdə 66,4 mln. manat məbləğində ipoteka krediti ayrılmışdır. Əhalinin bank sisteminə etimadı daha da güclənmiş, əmanətlər 15,6% artaraq 4,8 mlrd. manata çatmışdır. Müddəti 1 ildən yuxarı olan əmanətlərin həcmi 17,4% artmışdır. Manatla əmanətlərin artım tempi (23%) xarici valyutada əmanətlərin artım tempini (6,5%) əhəmiyyətli üstələmişdir. Regionlarda əmanətlərin həcmi 16% artmışdır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli Fərmanına uyğun olaraq keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsinə başlanmışdır. 2012-ci ildə faiz dərəcələrində azalma meyili davam etmişdir. Kreditlər və əmanətlər üzrə orta faiz dərəcələri 2 faiz bəndinədək azalmışdır. Maliyyə sektorunun regional əhatəsi daha da genişlənmişdir. 2012-ci ilin 11 ayında 26 yeni bank filialı və 14 yeni bank şöbəsi açılmışdır. Hazırda ölkədə 654 bank filialı və 162 bank şöbəsi fəaliyyət göstərir ki, bunların da yarısı regionların payına düşür. Bundan başqa, ölkədə 114 filiala malik 132 qeyri-bank kredit təşkilatları fəaliyyət göstərir. Mərkəzi Bank bank infrastrukturunun inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam

etdirmişdir. Milli Ödəniş Sistemi infrastrukturu vasitəsilə 2012-ci ilin 11 ayı ərzində ödənişlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,8% artaraq, 104,8 mlrd. manat təşkil etmişdir. Kütləvi ödənişlər sisteminin əhatəsi regionlara doğru genişləndirilmiş, POS-terminalların və ödəniş kartları vasitəsilə hesablaşmaların miqyasının daha da artırılması üzrə tədbirlər davam etdirilmişdir. 2012-ci ilin 11 ayında dövriyyədə olan ödəniş kartlarının sayı 9,7%, quraşdırılmış bankomatların sayı 5,1%, POS-terminalların sayı isə 3 dəfəyə yaxın artmışdır. Ölkədə nağdsız dövriyyənin artırılması məqsədilə Mərkəzi Bank tərəfindən müvafiq qurumlardan ibarət tərkibdə Milli Ödəniş Şurası yaradılmışdır [9].

2013-cü ildə bank sektorunun maliyyə vasitəçiliyinin dərinləşməsi davam etmiş, sistemin resurs bazası genişlənmişdir. Cari ilin 11 ayında bank sisteminin aktivlərində 22%, kredit qoyuluşlarında isə 25% artım olmuşdur. Dövr ərzində regionlara yönəlmiş kreditlərin həcmi 31%, özəl sektora kreditlər isə 25% artmışdır. Bankların kredit portfelində uzunmüddətli kreditlərin xüsusi çəkisi 79%-ə yüksəlmişdir. İstehlak kreditlərinə yüksək tələbat müsahidə olunmuş, cari ilin 11 ayında istehlak kreditləri 37%-ə yaxın artmışdır. Əhalinin əmanətləri 25,5% (regionlarda 32%) artaraq 6,4 mlrd. manata çatmışdır ki, bunun da 70%-i sığortalanır. Hazırda ölkədə 3 milyondan çox əmanətçi vardır. Sovet dövründən qalmış əmanətlərin qaytarılması prosesi də davam etdirilmişdir. 2013-cü ilin dekabr ayının əvvəlinə artıq 1621,7 min əmanət hesabı üzrə 600 mln. manata yaxın həcmdə vəsait ödənilmişdir. Xarici mənbələrdən bank sektoruna resursların cəlbi davam etmişdir. Bununla belə, xarici borc öhdəliklərinin bank resurslarında xüsusi çəkisi (19%) məqbul səviyyədədir. Maliyyə sektorunun regional əhatəsinin genişlənməsi davam etmiş, 41 bank filialı və 12 bank şöbəsi açılmış, qeyri-bank kredit təşkilatlarının sayı 139-dan 146-a qalxmışdır. Azərbaycan İpoteka Fondunun (AİF) və bankların öz resursları hesabına maliyyələşən ipoteka kreditləri 750 mln. manata çatmışdır. 2013-cü il ərzində verilən ipoteka kreditlərinin həcmi 35%, o cümlədən güzəştli ailələrə kreditlər 33% artmışdır. Nəticədə ipoteka kreditləri hesabına mənzil əldə edən ailələrin sayı 20 mini ötmüşdür. İpoteka kreditlərinin maliyyələşdirilməsində dövlət büdcəsindən ayrılan vəsaitlərlə yanaşı, bazardan cəlb edilən resurslar da mühüm rol oynamışdır. AİF-in xətti ilə verilmiş ipoteka kreditlərinin 60%-indən çoxu maliyyə bazarından cəlb edilmiş uzunmüddətli borc vəsaitləri ilə maliyyələşdirilmişdir. AİF-in bazardan cəlb etdiyi resursların həcmi 300 mln. manata çatmışdır. İpoteka kreditləşməsi prosesinin sadələşdirilməsi, bankların bu prosesdə fəaliyyətinin effektivliyini artırmaq məqsədilə iki mühüm institusional inkişaf layihəsi həyata keçirilmişdir. İpoteka kreditləşdirilməsi prosedurlarının, kredit öhdəlikləri üzrə ödənişlərin, bu sahədə klirinq və hesablaşmaların avtomatlaşdırılması məqsədilə "Elektron ipoteka sistemi" və "Elektron ödəniş və klirinq sistemi" yaradılmışdır. Ölkədə nağdsız və elektron hesablaşmaların

həyata keçirilməsinə imkan verən müasir ödəniş infrastrukturunun inkişafı daha geniş miqyas almışdır. Cari ilin ötən dövründə ödəniş sistemlərinin sabitliyi və təkmilləşdirilməsi təmin edilmiş, elektron ödənişlərin həcmi 10% artaraq, ÜDM-in 2 mislini ötmüşdür. Büdcəyə ödənişlərin real vaxt rejimində elektron əsasda aparılması üçün Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin bazasında yaradılmış "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunmuş dövlət qurumlarının sayı əhəmiyyətli artmışdır. Kommunal xidmət haqları ilə yanaşı, dövlət ödənişlərinin də 1200-ə yaxın ödəniş məntəqələrində həm nağd, həm də internet və bankomatlar vasitəsilə nağdsız həyata keçirilməsi imkanı yaradılmışdır. 2013-cü ilin ötən dövründə kart infrastrukturunun inkişafı sürətlənmiş, ödəniş kartlarının sayı 5,5 mln. ədədə çatmışdır. Ötən ilin eyni dövrü ilə müqayisədə ödəniş kartlarının sayında 9%, bankomatların sayında 8%, POS-terminallarla aparılan nağdsız əməliyyatların həcmində isə 1,8 dəfə artım olmuşdur. Ölkədə nağdsız hesablaşmaların miqyasının genişləndirilməsi üçün cari ildə aidiyyatı dövlət qurumları ilə birgə təkliflər paketi hazırlanmışdır. Bu təkliflər nağdsız ödənişlər üçün stimulların artırılmasına yönəlmişdir. Nağdsız ödənişlər həcminin genişlənməsi bank sektorunun resurs bazasının və iqtisadiyyata kredit təklifinin artmasında, kredit resursları dəyərinin azalmasında və qeyri-neft sektorunda investisiya fəallığının güclənməsində strateji amillərdən biridir. Cari ildə həmçinin nağd pulun səmərəli idarə edilməsi üçün Mərkəzi Bank tam avtomatlaşdırılmış Nağd Pul Mərkəzinin (“Cash Center”) yaradılması layihəsinin icrasını davam etdirmişdir [10].

2014-cü ildə bank sektorunun inkişaf trendi saxlanılmış, bankların ölkə iqtisadiyyatında rolunu xarakterizə edən makro göstəricilərin müsbət dinamikası davam etmişdir. Bank sektorunun aktivləri il ərzində 4 797 mln. manat (24%) artaraq, 25 183 mln. manat səviyyəsinə çatmışdır. Bank sektorunun maliyyə vasitəçiliyini xarakterizə edən göstəricilərdən biri olan aktivlərin qeyri-neft ÜDM-ə nisbəti il ərzində 8 f.b. artaraq 76%-ə yüksəlmişdir. Aktivlərin uzunmüddətli dinamikası bank sektorunun sürətli artım fazasının daha təmkinli artımla əvəz olunmasını əks etdirir. Bank sektorunun artım tempinin iqtisadiyyatın artım tempi ilə uzlaşması, bank ekspansiyasının stabilləşməsi Mərkəzi Bankın bu sahədə apardığı tədbirlərin nəticəsidir. Belə ki, bank xidmətləri bazarında hərarətlənmə və risklərin akkumulyasıyasının preventiv qaydada qarşısının alınması məqsədilə Mərkəzi Bank bir sıra “soyuducu” tədbirlər həyata keçirmiş, banklarla mövcud və potensial risklər barədə daimi dialoq aparmış, banklar üzərində nəzarət rejimini sərtləşdirmişdir. Əhalinin müxtəlif növ bank xidmətlərindən istifadə səviyyəsi artmışdır. Əhalinin əmanətlərinin artım dinamikası davam etmiş, qeyri-neft ÜDM-ə nisbəti 20,8 %-ə çatmışdır. Əhaliyə verilmiş kreditlərin həcmi, məhsul çeşidi və borcalanların sayı müntəzəm olaraq artır. 2013-cü ildə əhalinin yetkinlik yaşına çatmış hər 1000 nəfərinin 1,244 ədəd, 2014-

cü ildə 1259, cari ilin I-ci rübünün sonuna 1273 ədəd kredit və əmanət hesabı olmuşdur. Bank xidmətlərindən istifadənin genişləndirilməsi, həmçinin əhalinin və korporativ sektorun banklara etimadının artırılması məqsədilə AMB tərəfindən bank xidmətləri istehlakçılarının maraqlarının müdafiəsi sisteminin gücləndirilməsi istiqamətində nəzarət tədbirləri görülmüşdür. Maliyyə maarifləndirilməsi sahəsində AMB banklar, beynəlxalq təşkilatlar və dövlət qurumları ilə birgə silsilə tədbirləri davam etdirmişdir. Banklar arasında rəqabətin artması, yeni artım drayverlərinin axtarışı istehlak kreditləri bazarında aktivliyin sürətlə artmasına səbəb olmuşdur. İstehlak kreditlərinin müsbət makroiqtisadi və sosial təsirləri ilə yanaşı, izafi borclanma ilə bağlı potensial riskləri də nəzərə almaq lazımdır. Bu vəziyyətdə Mərkəzi Bank istehlak kreditləri bazarının tənzimlənməsi və izafi borclanmanın qarşısının alınması məqsədilə preventiv tədbirlər həyata keçirmişdir. 2014-cü ilin əvvəlində qüvvəyə minmiş yeni "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları" (01.02.2014) və "Bir borcalan və ya birbiri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin tənzimlənməsi haqqında Qaydalar" (22.03.2014) bankların istehlak kreditləri portfelinə təsir etmişdir. Yeni qaydalara əsasən, istehlak kreditləri üzrə ehtiyatlanma şərtləri sərtləşdirilmiş, avtomobil kreditləri üzrə əlavə olaraq kreditin dəyərə əmsalı (Loan-to-Value) limiti tətbiq edilmişdir. Nəticədə 2014-cü ildə istehlak kreditlərinin real artım tempi 20%-dək azalmışdır (müqayisə üçün, 2013-cü ildə artım 38% olmuşdur). Ən çox azalma avtomobil kreditləri və "Digər istehlak kreditləri" kateqoriyasına aid olan təminatsız nağd istehlak kreditlərində baş vermişdir. Belə ki, 2014-cü ildə avtomobil kreditləri 47 %, "Digər istehlak kreditləri" 40 %, yaşayış sahəsinin tikintisi və kredit kartları müvafiq olaraq 23% və 24% azalmışdır. İstehlak kreditləşməsi seqmentində ixtisaslaşan banklarda kreditləşmə daha çox azalmışdır. Belə ki, bu qrup banklarda il ərzində avtomobil, kredit kartları və "Digər istehlak kreditləri" müvafiq olaraq 39 %, 107 % və 92 % azalmışdır. Bununla yanaşı, daha uzunmüddətli olan yaşayış tikintisi və təmirinə ayrılan kreditləri 114 % artmışdır. 2014-cü ildə banklar tərəfindən iqtisadiyyatın müxtəlif istehsal və xidmət sahələrinin maliyyələşdirilməsi artmışdır. Il ərzində sənaye, nəqliyyat və ticarət, informasiya və rabitə sektorlarında fəaliyyət göstərən müəssisələrə verilən bank kreditləri müvafiq olaraq 11 %, 50 %, 9 % və 3 % artmışdır. Real sektora verilən kreditlərin məsqədlər üçün strukturu əhəmiyyətli dərəcədə dəyişməmişdir. 2014-cü ildə bank sektorunda təmərküzləşmənin azalması meyli davam etmişdir. Aktivlərin həcminə görə ilk beş bankın aktivlərinin sektor üzrə aktivlərdə payı il ərzində 0,2 f.b. azalaraq, 54,8 % təşkil etmişdir. Kapitalın həcminə görə ilk 5 bankın sektor üzrə məcmu kapitalda payı 1,9 f.b. azalaraq 45,8 % olmuşdur. Təmərküzləşmənin qiymətləndirilməsi üçün beynəlxalq təcrübədə geniş istifadə olunan HHİ bank sistemində aşağı səviyyədə təmərküzləşməni göstərir.

Qrafik 9–dan göründüyü kimi, indeksdə 2007-2014-cü illər ərzində azalma müşahidə olunmuşdur. Bankların sektor üzrə aktivlərdə, kreditlərdə və əmanətlərdə payına görə HHİ 1500-dən azdır və aşağı səviyyədə təmərküzləşmiş bazarı tərənnüm edir. Belə ki, 2014-cü ilin yekunlarına əsasən, aktivlərdə, kreditlərdə və cəmi əmanətlərdə payına görə HHİ müvafiq olaraq 1406, 1356 və 1239 olmuşdur (2013-cü ilin sonuna müvafiq olaraq 1426, 1482 və 1180) [7].

2015-ci ilin göstəricilərini nəzərdən keçirdikdə, Azərbaycanda maliyyə vasitəçiliyinin həyata keçirilməsi şəkli və formaları haqqında məlumat əldə etmək olur. 2015-ci ildə bank sisteminin inkişaf dinamikasının qorunması və iqtisadi subyektlər üçün kreditlərin dəyərinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Mərkəzi Bank bank ictimaiyyəti ilə fəal dialoq şəraitində kredit faizlərinin azaldılması istiqamətində kompleks tədbirlər görmüşdür. Bankların fiziki şəxslərin kreditləşdirilməsi ilə əlaqədar sosial məsuliyyətinin gücləndirilməsi çərçivəsində komissiya haqlarının 1 %-lə məhdudlaşdırılmasına dair qərar qəbul olunmuşdur. Bankların əməliyyat xərclərinin aşağı salınması üçün milli ödəniş sistemi vasitəsilə aparılan banklararası ödənişlər üzrə xidmət haqları və nağd pulun məxarici üzrə tariflər də azaldılmışdır. Hesabat dövrünün sonuna kreditlər üzrə orta faiz dərəcəsi 13,4 % (inflyasiya səviyyəsi nəzərə alınmaqla real faiz 9,7 %), o cümlədən kommersiya kreditləri üzrə 9 % (real faiz 5,3 %) təşkil edir. Bank aktivləri 10 % artaraq 27,8 mlrd. manata çatmışdır ki, bu da qeyri-neft ÜDM-in 75 %-nə bərabərdir. İqtisadiyyata kredit qoyuluşlarının həcmi 18,7 mlrd. manata çatmışdır ki, bunun da 77 %-ni uzunmüddətli kreditlər təşkil edir. Portfelin çox hissəsi (72 %-i) biznes kreditlərinin payına düşür. Ev təsərrüfatlarına kreditlər üzrə riskləri nəzərə alaraq, Mərkəzi Bank bu sahədə qabaqlayıcı tənzimləyici tədbirləri 2015-ci ildə də davam etmişdir. Ev təsərrüfatlarına kreditlər 2,3 %, avtomobil kreditləri isə 42 % azalmışdır. İpoteka kreditləşdirilməsi davam etdirilmiş, 2000 nəfərdən çox şəxsə 96 mln. manat ipoteka krediti verilmişdir. İpoteka Fondunun kredit portfeli 789 mln. manata çatmış, ipoteka alanların sayı isə 18 mini ötmüşdür. "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 2015-ci il tarixli Fərmanı ilə ölkədə ipoteka kreditləşməsinin yeni əsaslarla inkişafına start verilmişdir. Hesabat dövründə əhalinin əmanətləri bankların başlıca resurs mənbəyi olmuşdur. Hesabat dövrünün sonuna əhalinin bank əmanətləri 7 mlrd. manatdan çox olmuşdur. Cari ildə Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan əmanətlər üzrə faizlərin yuxarı həddinin 9 %-dən 12 %-ə qaldırılması da bank sistemində əmanətlərin qorunmasında mühüm rol oynamışdır. Hazırda Əmanətlərin Sığortalanması Fonduna üzv banklar tərəfindən xidmət olunan 7,3 mln. nəfər əmanətçinin 91 % hissəsi qorunan əmanətçilərdir. Ödəniş sistemlərinin sabit və təhlükəsiz fəaliyyətinin təmin edilməsi və inkişafı Mərkəzi Bankın

mühüm fəaliyyət istiqamətlərindən biri olmuşdur. Milli Ödəniş Sistemi (MÖS) ilə 2015-ci ildə həyata keçirilən ödənişlərin sayı 13 %-dən çox artmış, ödənişlərin həcmi isə ÜDM-in 2,4 mislini təşkil etmişdir. Davamlı və sabit fəaliyyəti təmin etmək üçün milli ödəniş sistemlərinin fəaliyyəti lokal telekommunikasiya şəbəkəsi üzərindən yenidən qurulmuşdur. Bu milli valyutada hesablaşmaların kənar təsirlərdən və xarici risklərdən tam qorunmasına imkan verir. Ödəniş-kart infrastrukturunun təhlükəsizliyinin artırılması və aparılan əməliyyatlar üzrə məlumatların ölkədən kənara ötürülməsinin qarşısının azaldılması istiqamətində də kompleks tədbirlərə başlanılmışdır. Hesabat ilində "Hökumət Ödəniş Portalı"nın (HÖP) genişləndirilməsi davam etdirilmişdir. Artıq 13 dövlət qurumu və 12 kütləvi xidmət təşkilatı "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunmuşdur. Eyni zamanda HÖP infrastrukturu "Elektron Hökumət" dövlət informasiya resursu ilə tam şəkildə inteqrasiya edilmişdir. ASAN ödəniş sistemi vasitəsi ilə ödənişlərin, habelə "ASAN xidmət" mərkəzlərində göstərilən dövlət xidmətləri üzrə ödənişlərin HÖP üzərindən aparılması təmin edilmişdir. HÖP-yə inteqrasiya olunmuş təşkilatlar üzrə 330-dan çox növdə xidmətlərlə bağlı ödənişlərin 2000-ə yaxın ödəniş məntəqələrində həm nağd, həm də nağdsız formada həyata keçirilməsi imkanları mövcuddur. Digər ödənişlərlə yanaşı, təhsil haqlarının da bu sistem vasitəsilə ödənilməsinə başlanılmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sistemdə emal olunan əməliyyatların həcmi 35 % artmışdır. Ödəniş kartlarının sayı 5,7 mln. ədədə, bankomatların sayı 2695 ədədə, POS-terminalların sayı isə 76210 ədədə çatmışdır. Bankomatların sayı 4,2 %, POS-terminalların sayı isə 11 % artmışdır. Ölkə daxilində ödəniş kartları ilə aparılmış nağdsız ödənişlərin həcmi 29 %, ödəniş kartları ilə elektron ticarət vasitəsilə aparılmış ödənişlərin həcmi isə təxminən 2 dəfə artmışdır. İctimai nəqliyyatda kütləvi surətdə nağdsız ödənişlərdən istifadəyə başlanmışdır [4]. 2015-ci ildən etibarən xarici iqtisadi şoklar və milli valyutanın devalvasiyası şəraitində maliyyə sisteminin risk həssaslığı artmış və maliyyə göstəriciləri pisləşmişdir. Artan risklər fonunda bəzi maliyyə institutlarının dayanıqlı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modeli və strategiyasının olmaması, habelə bəsit risk idarəetməsi maliyyə sisteminin yeni iqtisadi konyunktura və bazar şərtlərinə uyğunlaşmasını çətinləşdirmiş və maliyyə vasitəçiliyini məhdudlaşdırmışdır. Yeni çağırışların həlli istiqamətində bankların restrukturizasiyası və kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi istiqamətində tədbirləri əks etdirən strateji hədəflər müəyyən edilmişdir. Azərbaycanda maliyyə xidmətləri istehlakçılarının hüquqlarının təmin edilməsi və maliyyə savadlılığının artırılması ilə bağlı bir sıra işlər görülmüşdür. Bu istiqamət üzrə institusional islahatlar aparılmış, istehlakçıların hüquqlarının effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasında və əhalinin maarifləndirilməsində irəliləyişlərə nail olunmuşdur. Bununla belə, maliyyə

xidmətləri sektorunun inkişafı, maliyyə vasitəçiliyinin dərinləşməsi, maliyyə sektoru və istehlakçılar arasında qarşılıqlı əlaqələrin genişlənməsi maliyyə xidmətləri istehlakçılarının maraqlarının qorunmasını və maliyyə savadlılığının artırılmasını zəruri edir. İstehlakçıların hüquqlarının müdafiəsinin əsas məqsədləri aşağıdakılardır: maliyyə məhsulları üzrə dəqiq və aydın məlumatların təqdim edilməsi və müqayisəliliyin artırılması; aidiyyəti qurumların fəaliyyətini əlaqələndirməklə bank sisteminin səmərəliliyinin artırılması və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi; istehlakçıların maliyyə məlumatlılığının, savadının və bacarıqlarının artırılması vasitəsilə əhalinin maliyyə xidmətlərindən istifadəsinin stimullaşdırılması; ədalətli bazar prinsiplərinin tətbiqi və rəqabətin gücləndirilməsi; proaktiv nəzarət vasitəsilə istehlakçıların potensial maliyyə itkilərinin qarşısının alınması. Azərbaycanda istehlakçıların hüquqlarının müdafiəsi üzrə yuxarıda qeyd olunmuş istiqamətlərdə bir sıra tədbirlər görülmüşdür. Məsuliyyətli kreditləşmə üzrə tələblər tətbiq edilmiş, o cümlədən kredit üçün müraciət prosesi və kreditin şərtləri barədə məlumatların müştərilərə təqdim olunması tələbi müəyyən edilmişdir [13].

İslahatların aparılması şəraitində maliyyə vasitəçiliyi sisteminin bütün seqmentlərinin inkişafı və təkmilləşdirilməsi məsələsi mühüm yer tutur. Xüsusilə Azərbaycanda neft sektorunda cəmlənmiş gəlirlərin digər sektorlara istiqamətləndirilməsi probleminin mövcudluğu ölkəmizin maliyyə vasitəçiliyi sisteminin inkişafına xüsusi əhəmiyyət zəmin yaradır. Məhz buna görə hesab edirik ki, məqalənin faktoloji materialları və elmi qənaətləri tətbiqi xarakterə malikdir. Müasir bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının daha geniş miqyasda təşəkkül tapması üçün ölkə güclü maliyyə ehtiyatlarına malik olmalıdır. Xalq təsərrüfatı sahələrinin proporsional inkişafı isə məhz maliyyə mənbələrinin çox olması ilə tamamlanır ki, bu da özünü ölkənin maliyyə imkanlarında reallaşdıra bilir. Başqa sözlə, respublika iqtisadiyyatınının hərtərəfli inkişafı üçün güclü maliyyə mənbələrinin olması vacib olduğu qədər, həmin çatışmazlığı həll edən digər maliyyə mexanizmində olması olduqca iqtisadi cəhətdən faydalıdır. Beləliklə, öz-özlüyündə bazar iqtisadiyyatı avtomatik olaraq uğurlu iqtisadi inkişaf üçün zəmanət vermir və buna yanlış şərait yaradır. Bu şəraitdən istifadə etmək milli iqtisadiyyatın strukturunun spesifik xüsusiyyətlərinin qiymətləndirilməsi, onun özünütəşkili məqsədilə maliyyə mexanizminin formalaşdırması üçün şəraitin yaradılması və bütün iqtisadiyyatda stabilləşdirici rol oynamağa qadir olan yeni dövlət maliyyə sisteminin işlənməsini tələb edir.

Nəticə. Yekunda maliyyə vasitəçiliyinin ölkəmizdə inkişaf etdirilməsi ilə bağlı olaraq iqtisadi səmərə daşıyan bəzi tövsiyələr irəli sürərdik:

- Maliyyə vasitəçilərinin fəaliyyət imkanlarının artırılması məqsədi ilə maliyyə qanunvericiliyi zaman-zaman təkmilləşdirilməlidir;

- Maliyyə vasitəçiliyinin güclənməsi dövriyyədə olan maliyyə mənbələrinin artırılmasına bağlıdır. Buna görə maliyyə mənbələrinin inkişafı üçün islahatlar davam etdirilməlidir;
- İstehsal prosesi və xidmətlərin reallaşdırılması üçün maliyyə vasitəçiliyi həyata keçirən qurumların fəaliyyətinə bürokratik müdaxilələrə yol verilməməlidir.
- Maliyyə sektorunun və eləcə də maliyyə vasitəçiliyi institutunun təkmilləşdirilməsi məsələsində beynəlxalq təcrübədən geniş istifadə edilməlidir.
- Yenidənqurma maliyyə sisteminin bütün elementlərinin sıx qarşılıqlı əlaqəsini təmin etməklə kompleks xarakter daşımalıdır;
- Maliyyə sisteminin müxtəlif struktur elementlərində məqsədyönlü, əlaqələndirilmiş fəaliyyətlərin zəruriliyi reallaşdırılmalıdır;
- Bütün səviyyələrdə müəyyən edilmiş mövqelər üzrə dövlət maliyyə təsərrüfatının həyata keçirilməsinə diqqət edilməlidir;
- İqtisadi artımın təmin edilməsi üzrə vəzifələrin miqyaslılığı artırılmalıdır.

Ədəbiyyat

[1] Məmmədov S. “Maliyyə”, Bakı. 1997. s. 6;
[2] Kərimov R. Bank sistemində maliyyə vasitəçiliyi göstəricilərinin maliyyə dərinliyinə təsiri. // http://www.cbar.az/assets/3370/JURNAL IIəRUB.əə4-13ə. pdf s.92.
[3] Maliyyə vasitəçiliyinin mahiyyəti. http://banker.az/maliyy%C9%99-vasit%C9%99ciliyinin-mahiyy%C9%99ti/
[4] Azərbaycan Respublikası Mərkəzi Bankının 2016-cı il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə BƏYANATI. http://www. cbar. az/assets/4005/B%C6%8FYANAT-2016-after.ə30.12.pdf s.8.
[5] Bağırov D., Həsənli M. Maliyyə/ Dərs vəsaiti (ikinci buraxılış). Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2011, s.23.
[6] Biznesin təşkili və idarə edilməsi. BAKI – 2011, s.291.
[7] AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI MALİYYƏ SABİTLİYİ İCMALI 2014-cü il və 2015-ci ilin I rübü Bakı – 2015, s.13-15.
[8] Azərbaycan Respublikası Mərkəzi Bankının 2012-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin istiqamətləri barədə B Ə Y A N A T I http://www. cbar. az/assets/1989/ M%C9%99rk%C9%99 ziəBank%C4%B1nəBeyanat%C4%B1-2012.pdf
[9] Azərbaycan Respublikasının Mərkəzi Bankının 2013-cü il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə BƏYANATI http:// www. cbar. az/assets/2551/beyanat-2013.pdf
[10] Azərbaycan Respublikasının Mərkəzi Bankının 2014-cü il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə B Ə Y A N A T I http://www.cbar. az/assets /3151/ PULəS% C4%B0YASET%C4%B0ə-BEYANAT-enəsonə 2014.pdf
[11] Maliyyə Sabitliyi İcmalı 2010-cu il. Azərbaycan Mərkəzi Bankı, s.16.

[12] Kəlbiyev Y. Maliyyə sektoru təşkilatlarının vergiyə cəlb olunmasının nəzəri-metodoloji və praktiki məsələləri // Azərbaycanın vergi jurnalı, 4(118)/2014, səh. 61-74.
[13] Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, S.46.

UNEC Elmi Xəbərləri, İl 5, Cilld 5, iyul - sentyabr, 2017, səh. 394 - 412
Scientific Reviews in UNEC, Year 5, Volume 5, July – September, 2017, pp. 394 - 412

НЕОКЛАССИЧЕСКИЕ УЧЕНИЯ, СОВРЕМЕННОЕ ЭКОНОМИЧЕСКОЕ ПРАВО И НАЛОГОВАЯ ПОЛИТИКА

Э.И. Гурбанов
Диссертант, Полтавский университетэкономики и торговли
Məqalə redaksiyaya daxil olmuşdur 22 iyun 2017; Çapa qəbul edilmişdir 22 sentyabr 2017; online-da çap edilmişdir 05 oktyabr 2017
Received 22 June 2017; accepted 22 September 2017; published online 05 October 2017

Резюме

Исследование, проведенное в порядке связывания, различия и прикладного вычисления с точки зрения методологии, включает в себя общую характеристику и эконометрические результаты применения концептуально противоречивых экономических учений. Отмечаются особенности ранее существовавшей (принятой) экономической доктрины, корни программы консервативного протекционизма, протекающие в наш современный период, их отражение в законодательстве, особенности в дальнейшем возникающей и ожидаемой проблемы, а также возникновение необходимости для применения новой теоретичес-кой программы с целью улаживания указанной проблемы. Глобализирующийся скоростными темпами мир уже обуславливает формирование нового экономического мышления. К этому относятся как демократические институты, так и этическая и моральная доктрина. В исследовании упоминаются новые прави-ла экономического поведения, имеющие отношение к хозяйственной деятельности, и стратегия налогообложения в соответствии с принципами обучения. Новшества исследования представлены в соответствии с духом времени, потому что общие и схожие взгляды как меркантилистов, так и физиократов обобщаются в отношении создания общественной продукции. То есть образование новой общественной продукции необходимо видеть не в обороте, а в производстве. Если учесть соображение, что с концептуальной точки зрения в про-мышленности и производстве нет излишней стоимости физиократов и что единственным источником излишней стоимости является рента, то, значит, мы установим, что для стимулирования производства необходимо облег-чить налоговую нагрузку в отношении производства и направить ее основную часть на ренту. К этому относится «прибыль, получаемая от сдачи недвижимого имущества в аренду», которая приняла форму традиции в наш период. Как известно, прибыль, получаемая от такой деятельности, согласно действующему законодательству, отнесена к категории прибылей, получаемых от непредпринимательской деятельности. В статье анализирована оценка ренты в качестве источника избыточной стоимости и ее привлечение к налогообложению, согласно учению физиократии. Одной из задач, выдвигаемых в качестве проблемы,

является то, что деятельность, связанная со сдачей в аренду недвижимого имущества, которое не принимает участие ни в одном производстве, приняла массовый характер, то есть стимулирование больше всего этой области налоговой средой. А это создает условия для отстранения денежного капитала от активного оборота, для снижения промышленности и производства, для упадка уровня общественной продукции и занятос-ти, для сокращения зависимости экономики от импорта. В целом, задерживает развитие. Отношение физиократов к ренте расценивается не как рента, а как стимулирование производства. Поэтому в исследовании в эконометрическом порядке, в соответствии с принципами учения, изучен учет получаемой производителем прибыли в качестве заработной платы и привлечение такой прибыли к налогообложению в качестве заработной платы. Другим объектом исследования является сравнение учений с точки зрения этико-моральных принципов. Здесь упоминается отрицательное влияние материалистического меркантилизма на нравственность человека, который считает деньги (золото, серебро) основным источником богатства, подход идеалиста физиократии к денежному богатству только как к средству обмена, выраженному с номинальной стоимостью. Отмечается, что связность данного учения с природой и Всевышним имеет высокие воспитательные особенности на фоне идеологии, а также с точки зрения этико-моральных принципов и с точки зрения повышения уровня зрелости. В целом, статья ввиду своей практической сущности может быть использована в качестве теоретической программы и научного источника в отношении формирования новой экономической системы и нового социально-экономического мышления.

Ключевые слова: меркантилизм, протекционизм, физиократия, экономическое мышление, избыточная (прибавочная) стоимость.

Jel Classification: K34; H21

NEOKLASSİK TƏLİMLƏR, MÜASİR İQTİSADİ HÜQUQ VƏ VERGİ SİYASƏTİ

Xülasə

Metodologiya baxımından əlaqələndirmə, fərqləndirmə və tətbiqi hesablama qaydasında aparılmış tədqiqat konseptual baxımdan ziddiyyətli iqtisadi təlimlərin müasir dövrümüzdə tətbiqinin ümumi xarakteristikasını və ekonometrik nəticələrini özündə ehtiva edir. Öncə mövcud (qəbul olunmuş) iqtisadi doktrinanın xüsusiyyətləri, konservativ proteksionizm proqramının çağdaş dövrümüzdə cərəyan edən kökləri, qanunvericilikdə əksini tapması, daha sonra yaranan və gözlənilən problemin xüsusiyyətləri və həlli məqsədilə yeni nəzəri proqramın tətbiqi üçün zərurətin yaranması qeyd olunur. Sürətlə qloballaşan dünya artıq yeni iqtisadi təfəkkürün formalaş-

masını şərtləndirir. Bura həm demokratik təsisatlar, həm də etik və mənəvi doktrinanın aid edilməsi daxildir. Tədqiqatda insanların təsərrüfat fəaliyyətinə aid yeni iqtisadi davranış qaydaları və təlimin prinsiplərinə uyğun vergi tutmanın strategiyası yer alır. Tədqiqatın yenilikləri ona görə zamanın ruhuna uyğun təqdim olunur ki, həm merkantilistlərin, həm də fizeokratların ümumi və oxşar baxışları ictimai məhsulun yaranmasına münasibətdə ümumiləşir, yəni ictimai məhsulun yaranmasının tədavüldə deyil, istehsalda görülməsidir. Konseptual baxımdan fiziokratların sənayedə və istehsalda izafi dəyərin olmadığını və izafi dəyərin yeganə mənbəyinin renta olduğu fikrini nəzərə alsaq, deməli, istehsalı stimullaşdırmaq üçün vergi yükünün istehsala münasibətdə yüngülləşdirilməsini və əsas hissəsinin rentaya yönəldilməsini müəyyən etmiş oluruq. Buna dövrümüzdə ənənə şəklini almış "Daşınmaz əmlakın icarəyə verilməsindən əldə olunan gəlir" aiddir. Məlum olduğu kimi, belə fəaliyyət növündən əldə olunan gəlir qüvvədə olan qanunvericiliyə görə qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər kateqoriyasına aid edilmişdir. Məqalədə fizeokratiya təliminə görə rentanın izafi dəyərin mənbəyi kimi qiymətləndirilməsi və vergiyə cəlb olunması təhlil olunmuşdur. Problem kimi qoyulan məsələlərdən biri - heç bir istehsalda iştirak etməyən, daşınmaz əmlakın icarəyə verilməsi fəaliyyətinin kütləvi xarakter alması, yəni vergi mühitinin daha çox bu sahəni stimullaşdırmasıdır. Bu da pul kapitalının aktiv dövriyyədən kənarlaşmasına, sənaye və istehsalın azalmasına, ictimai məhsulun və məşğulluğun səviyyəsinin tənəzzülünə, iqtisadiyyatın idxaldan asılı vəziyyətə düşməsinə şərait yaradır, ümumilikdə isə inkişafı ləngidir. Fiziokratların rentaya münasibəti isə rentanı deyil, istehsalın stimullaşdırılması kimi qiymətləndirilir. Ona görə də tədqiqatda istehsalçının əldə etdiyi gəliri təlimin prinsiplərinə uyğun olaraq əməkhaqqı kimi nəzərə alınması və əməkhaqqı kimi vergiyə cəlb olunması ekonometrik qaydada araşdırılmışdır. Tədqiqatın digər obyekti isə təlimlərin etik-mənəvi prinsiplər baxımından müqayisəsidir. Burada pulu (qızılı, gümüşü) sərvətin əsas mənbəyi hesab edən merkantilizm materializminin insan əxlaqına mənfi təsiri, idealist fiziokratiyanın isə pul sərvətinə yalnız özündə nominal dəyər ifadə edən mübadilə vasitəsi kimi yanaşması yer alır. Bu təlimin təbiətə və Tanrıya bağlılığı bir ideologiya fonunda, habelə etik-mənəvi prinsiplər baxımından və kamilliyin səviyyəsinin artırılması baxımından yüksək tərbiyəvi xüsusiyyətlərə malik olduğu qeyd olunur. Ümumilikdə isə məqalə praktik əhəmiyyətinə görə, yeni iqtisadi sistemin və yeni sosial-iqtisadi təfəkkürün formalaşdırılması baxımından nəzəri proqram və elmi mənbə kimi istifadə oluna bilər.

Açar sözlər: merkantilizm, proteksionizm, fiziokratiya, iqtisadi təfəkkür, izafi dəyər.

«NEOCLASSICAL ECONOMIC DOCTRINE, MODERN ECONOMIC LAW AND TAX POLICY»

Abstract

The study held in the order of binding, difference and applied computation in terms of methodology includes a general description and econometric results of application of conceptually contradictory economic doctrines. There are noted the features of the pre-existing economic doctrine, the basics of the conservative protectionism program that are taking place in our modern period, their reflection in legislation, the peculiarities of the future arising and expected problem, and the need for a new theoretical program to address this problem. The rapidly globalized world has already proved the formation of new economic thinking. This includes both democratic institutions, as well as ethical and moral doctrine. The study deals with the new rules of economic behavior related to economic activity, and a taxation strategy in accordance with the principles of training. Innovations of the research are presented in accordance with the spirit of the times, because the common and similar views of both mercantilists and fizeokrats are generalized in relation to the creation of public products. That is, the formation of new social products must be seen not in turnover, but in production. If we take into account the fact that from the conceptual point of view in industry and production there is no excessive cost of physiocrats and that the only source of excess cost is rent, then we will establish that to stimulate production it is necessary to ease the tax burden in relation to production and to direct its main part to rent. This includes "the profit received from the rental of immovable property", which has taken the form of tradition in our term. As it is known, the profit received from such activity, according to the current legislation, is referred to the category of profits received from non-entrepreneurial activity. The article analyzes the rent estimate as a source of excess cost and its attraction to taxation, according to the teachings of Physiocracy. One of the tasks put forward as a problem is that the activities related to the rental of immovable property, which does not participate in any production, has taken on a mass character. That is, stimulating the most of this area by the tax environment. And this creates conditions for the removal of money-capital from active turnover, for the reduction of industry and production, for the decline in the level of public output and employment, to reduce the dependence of the economy on imports. In general, it delays development. The ratio of physiocrats to rent is not regarded as rent, but as a stimulation of production. Therefore, the study deals econometrically with the accounting of the profit received by the producer as wages, and the draw of such profit to taxation as wages in accordance with the principles of teaching. Another object of the study is the comparison of the teachings from the point of view of

ethical-moral principles. It mentions the negative impact of the materialism of mercantilism on the morality of a man, who regards money (gold, silver) as the main source of wealth, the idealist approach of Physiocracy to money wealth only as a means of exchange expressed with a nominal value. It is noted that the connectivity of this doctrine with nature and the Supreme being has high educational characteristics against the backdrop of ideology, as well as from the point of view of ethical and moral principles and from the point of view of increasing the level of maturity. In general, the article, in view of its practical nature, can be used as a theoretical program and a scientific source for the formation of a new economic system and a new socio-economic thinking.

Key words: Mercantilism; protectionism, fizeokratiya, economic thinking, surplus value.

